KAMAL ABDULLA

Seçilmiş əsərləri

7 cilddə

Bakı – 2024

Oxucuya sevgi ilə,

KAMAL ABDULLA

Seçilmiş əsərləri

VII
CİLD

Roman, hekayələr, pyeslər, elmi əsərlər

Tərtibçilər:
Şəlalə Nəqşani, Cavid Zeynallı,
İrina Tyaqay, Elçin İbrahimov

Buraxılışa məsul:
Sərraf Balaxan

Texniki redaktor:
Rita Müslümova

Dizayner:
Cavid Kişiyev

Üz qabığının dizaynı Gövhər Mehdi qızı Abdullayevaya məxsusdur.

Kamal Abdulla. Seçilmiş əsərləri: 7 cilddə. VII cild: *Roman, hekayələr, pyeslər, elmi əsərlər.* – Bakı: Sim-Sim, 2024. – 696 səh.

Xalq yazıçısı, akademik Kamal Abdullanın "Seçilmiş əsərləri"nin VII cildinə müəllifin son dövrlərdə qələmə aldığı və əvvəlki cildlərində yer almayan bir romanı, hekayələri, səhnələşdirilmiş, yaxud səhnə həllini gözləyən pyesləri, "Kitabi-Dədə Qorqud" dastanının semantikasından bəhs edən monoqrafiyası, mif və dilin əlaqələrindən bəhs edən "Mifolinqvstika" adlı elmi əsəri və həmmüəlliflə – AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevlə yazdığı "Kitabi-Dədə Qorqud" dastanının qeyri-səlis məntiqlə əlaqəsindən bəhs edən elmi əsəri daxil edilib.

ISBN:

© Kamal Abdulla, 2024
© Sim-Sim, 2024

Tərtibçilərdən

Xalq yazıçısı, akademik Kamal Abdullanın "Seçilmiş əsərləri"nin VII cildinə müəllifin son dövrlərdə qələmə aldığı və əvvəlki cildlərində yer almayan bir romanı, hekayələri, səhnələşdirilmiş, yaxud səhnə həllini gözləyən pyesləri, "Kitabi-Dədə Qorqud" dastanının semantikasından bəhs edən monoqrafiyası, mif və dilin əlaqələrindən bəhs edən "Mifolinqvstika" adlı elmi əsəri və həmmüəlliflə – AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevlə yazdığı "Kitabi-Dədə Qorqud" dastanının qeyri-səlis məntiqlə əlaqəsindən bəhs edən elmi əsəri daxil edilib.

Kamal Abdullanın "Yarımçıq əlyazma" ilə başlayan roman yaradıcılığının hələlik finalı kimi özünü göstərən "Laokoon, Laokoon"... (yaxud bir romanın "gerçək" yazılma tarixçəsi)" romanı müəllifin zaman-zaman gəldiyi yolboyu nəzəri və yaradıcılıq emalatxanasında yaşananların xatirəsidir. Müəllifin qeyd etdiyi kimi bu "romanvari" romanın hər bir bölməsi Laokoonun Troya atına nizə atması kimi Kamal Abdullanın romançılıq səyahətində qarşılaşdığı, amma mübhəm səbəblərdən mətnlərə daxil etmədiyi təhlükələrə daha uzaq zaman məsafəsindən oxlar atmaqdır. Kitaba daxil edilən və oxucuya "Laokoon, Laokoon" əsərindəki kodları açmağa kömək edən ədəbiyyat adamlarının roman barədə söhbətində qeyd edilir ki, Laokoon motivi roman qəhrəmanı Vaqifin dərk etməyə çalışdığı və Dədə Qorqud dünyasında da paradiqmlərini axtardığı düyün nöqtəsi deyil, həm də Kamal Abdullanın sənət görüşlərini ifadə etməyə çalışdığı düşüncə məqamıdır. Tənqidçi Elnarə Akimova yazır ki, "Sona çatanda mütləq oxucusunu başa döndərən əsərlər var. Bu roman belə əsərlərdəndir".

7-ci cildə daxil edilən və son iki ilin məhsulu olan hekayələr, əslində, müəllifin "Seçilmiş əsərləri"nin II cildindəki hekayələrin ruhunun, hətta

bəzən arxetiplərinin daşıyıcıları və davamıdırlar. Bu hekayələrdəki insan taleləri, onların yaşadığı mühit, keçirdikləri sirdolu, əfsanə ruhlu hisslər diqqətli oxucuya çox doğma gələcəkdir. Oxucu obrazların yaşandıqlarından belə hiss edəcək ki, bu hekayətlər onun daha əvvəldən tanıdığı hansısa qəhrəmanın həyatının yeni bir məqamıdır. Eyni zamanda Azərbaycan xalqının böyük Zəfər Qazandığı 44 günlük Vətən müharibəsinin əks-sədasının da bu kitabda yer alan bəzi hekayələrin daxilindən necə qırmızı xətlə keçdiyini görməmək mümkün deyil.

"Seçilmiş əsərləri"nin III cildinə daxil edilmiş pyeslər müəllifin daha öncə Bakıda, Ankarada, Moskvada çap edilmiş pyeslərdən ibarət kitablarından seçilmişdir. Bəzi pyeslər "Seçilmiş əsərləri"nin III cildində yer alsa da, onların, xüsusən "Casus" pyesinin üzərində yenidən işlənmiş, digər pyeslər isə yenidən cilalanaraq ilk dəfə bu cildə daxil edilmişdir. Bu pyeslər "Dədə Qorqud" dastanının sirli məqamları, Şah İsmayıl Xətainin taleyinin alternativ ədəbi ifadəsi, mifoloji simvolların, xüsusən, qədim Yunanıstan miflərindən gələn səslərin azərbaycanlı "qəbuluna" uyğunlaşdırılması, yaxud ədəbiyyatımıza tranformasiyasıdır. Bu pyeslərin bəziləri müxtəlif illərdə Azərbaycanın və xarici ölkələrin ayrı-ayrı teatrlarında səhnələşdirilsə də, bəziləri hələ də asanlıqla tapılmayan kodları ilə səhnə həllini gözləyir.

Bu cildə daxil edilmiş "Kitabi-Dədə Qorqud"da semantik sayrışmalar" bölməsinin əhatə etdiyi esselər müəllifin əbədi "Dədə Qorqud" axtarışlarının davamıdır. Müəllif bu esselərlə göstərir ki, dastan mətninin hər sözünün altında böyük mənalar qatı vardır. Sözün dastandakı məqamı Kamal Abdullanın yozumları ilə müqəddəsləşir, sözlər özlərindən daha böyük olmağa başlayır, bəzən ayrılıqda heç bir məna ifadə etməyən söz belə dastan mətnində intəhasız enerji nöqtəsinə, hətta mətn kosmosunun qara dəliyinə çevrilir.

Kitabdakı "Mifolinqvistika" bölməsində təqdim edilən mətləblər onu deməyə əsas verir ki, Kamal Abdulla bu addımı ilə, əslində, Azərbaycan dilçilik elmində yeni bir elmi istiqamətin əsasını qoymuş olur. Dilimizdəki söz və ifadələrin ilk baxışdan izaholunmaz sirli məqamı onların mifoloji

dərki ilə açıla bilir. Fərqində olmadan işlətdiyimiz frazemlər, daşlaşmış ifadələr öz sehrli gücünü unudulmuş, fəhm belə etməyə çətinlik çəkdiyimiz mifoloji dərinlikdən alır. "Mifolinqvistika" söz dəryasınının qaranlıqlarındakı məna sayrışmalarını görmək üçün oxucuya parlaq bir çıraq təqdim edir.

Bu cildə daxil edilmiş "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq (Rafiq Əliyevlə birlikdə) əsəri Azərbaycan elm tarixində xüsusi yeri olan dahi alim L.Zadənin qeyri-səlis məntiqinin ədəbi-bədii əsərə tətbiqinin ilk təcrübəsidir. "Dədə Qorqud" dastanındakı formal məntiqə sığmayan məqamların Azərbaycanın görkəmli alimi, professor Rafiq Əliyevlə birgə böyük azərbaycanlı Lütfi-zadənin "qeyri-səlis məntiq"i prizmasından şərhi olduqca maraqlı mətləbləri üzə çıxarır. Dastan mətnindəki polifoniyanın və plüralizmin elmi şərhi oxucuya Azərbaycan xalqının fikir və düşüncə böyüklüyünü, düşüncə tərzindəki demokratikliyi dərindən anlamağın qürurunu yaşadır.

Bu kitab Kamal Abdullanın "Seçilmiş əsərləri"nin 7 cildliyinin sonuncusudur deyə bilərik. Amma heç bir zaman Kamal Abdulla yaradıcılığı 7 cilddən ibarətdir deyə bilmərik. Çünki 7 sayı arxetip kimi öz riyazi qiymətindən daha böyük olduğu kimi Kamal Abdulla şəxsiyyəti də, Kamal Abdulla təfəkküründün imkanları da Kamal Abdulla yaradıclığından daha böyükdür. Əziz Oxucu, bu mənada Kamal Abdulla yaradıcılığı 7 cildin hüdudlarından kənarda da davam edir. Xalqımızın mifopoetik düşüncəsində Tanrıdan nəyisə 7 sayda istəmək, həm də onu 7-dən daha çox istəmək anlamını ifadə edir – yeddi oğul kimi, yeddi gözəl kimi, yeddi can kimi. Kamal Abdullanın yaradıcılığının əsasən (!) toplandığı bu 7-cildlik bu mənada hələlik onunla ilkin bütöv təmasdır, desək, səhv etmərik.

Roman

Laokoon... Laokoon...

yaxud bir romanın "gerçək" yazılma tarixçəsi

Tanış və yad sonsuz lüğət

Heç zaman etmədiyi, hətta edə biləcəyini ağlına belə gətirmədiyi bir işin "peşinə" düşdüyünün fərqində idi. Qələmi ələ alıb səhifə-səhifə uydurma uydurmaq, özü də elə uydurmaq ki, mətnin ən uzaq hissələri bir-birini təkzib etməsin, bir-birilə həmahəng şəkildə qaynayıb-qarışsın – ona elə gəlirdi ki, bu iş ömründə onun işi ola bilməz və o, ağlını itirib belə bir işə girişsə də, öhdəsindən heç vədə gəlmək iqtidarında olmayacaq.

Sonralar, çox sonralar bu nəhəng iş bitəndən sonra, bu əməli-müşkül ilə savaşıb arxasını yerə vurandan sonra Vaqifin beyni sanki aydınlığa qovuşdu. O, nəhayət, belə bir adi həqiqətə inandı ki, hər adam Yer üzünə öz əlahiddə missiyasını yerinə yetirmək üçün gəlir və bu mənada onun – Vaqifin missiyası məhz qələmi əlinə alıb yazmaq, yazmaqdır. Və bunu bir daha anlayandan sonra o, yazdığı mətnin içinə girməyə başladı. Onun diqqətini sözlərin məkanı, sözlərin sözlərlə dərindəki münasibəti, şəkilçilərlə sözlərin özünəməxsus dialoqu, sözlərin qəribsəmiş kimi qalmış tanış mənası çəkdi. Bütün bunların artıq mətnin ümumi mənası ilə elə bir əlaqəsi yox idi. Bunun daha çox mətnin oxunarkən fikir verilmədiyi qeyri-tanış səthi ilə əlaqəsi var idi. Bu səthin öz "dil"i var idi. Orada gizli olsa da, müəyyən proseslər gedirdi: söz, bəzən oxunuşda bu bilinməsə də, yanındakı sözü tanımırdı, ondan uzaqlaşmaq, onu unutmaq istəyirdi... Uzlaşmalar çətinliklə bir-birinə uyğun gəlirdi. Bu, tələtümlü dənizin dibindəki səssiz ahənglə müqayisə edilə bilərdi, amma buna əksinə müqayisə demək daha düzgün olardı. Mətnin dibində rüzgar qopur, üzdə isə hər şey sakit, rahat...

Mətnin üzdə olan dünyası hələ ki, onu qane edirdi. Bu dünyanın tələtümdən uzaq quruluşu onun üçün daha maraqlı idi, dərinə enmək üçün xüsusi həvəs gərək öz-özünə yarana idi, o isə hələ yaranmamışdı. Yazmağa

girişdiyi haman əməli-müşkülün, o fantom əsərin birinci cümləsi ilə sonuncu cümləsi arasında yer tutan və onun özünün "sonsuz lüğət" adlandırdığı mürəkkəb və nəhayətsiz çoxluğun içindən çıxıb gələn tanış sözlər, ifadələr, şəkilçilər, köməkçi sözlər, hətta durğu işarələri o istədiyi an itaətkar bir şəkildə mətn içində öz yerlərini dinməz-söyləməz tuturdular – eynən nizam-intizamlı əsgərlər kimi. Bu mənzərə bəzən çox gözəl bir sahmanla başa çatırdı. Bəzən onun özü buna mat qalırdı. Amma qəribə olan bu deyildi. Qəribə olan o idi ki, Vaqif bütün bu əməldən gözlədiyi ləzzət dərəcəsini almırdı. Niyə belə idi – bu, aydın deyildi. Əsl ləzzət hissi – o gözəl və böyük an sonra gəlirdi. Yazı prosesinin əsl ləzzəti gözlənilməz bir yerdə "gizlənmişdi". Bu ləzzət son nöqtəni qoyandan sonra ortaya çıxırdı. Bu zaman o artıq ona tanış mətnlə işləməyə başlayırdı. Bu zaman o tanış mətnə yad mətn kimi baxmağa çalışırdı. Mətndən bir müddət uzaqlaşır, onu "unudur", sonra yenidən sözləri kənardan seyr edir, nəyisə dəyişir, tanış sözlər mətni tərk edir, başqa tanış sözlər mətnə daxil edilirdi. Mətnlə işləmək çox zövqlü bir iş idi. Əsl ləzzət hissini də Vaqif bu zaman almışdı. O bu ləzzət hissini əvvəllər keçirdiyi heç bir hissə dəyişməzdi.

Yazıb bitirdiyi romanın əlyazmasını birinci dəfə oxumağa başlarkən özündən xəbərsiz dodaqlarına təbəssüm qonmuşdu. Əgər yer üzünə öləndən sonra dəfələrlə gəlmək ideyası həqiqətə uyğundursa, deməli, o, əvvəlki həyatında redaktor olub. Bu işi bəyənmişdi. Amma bir müddətdən sonra fikir verib gördü ki, mətnlə işlərkən qəribə hallar baş verir. Əvvəl ehtiyatla, sonra həvəslə, daha sonra haman o ləzzətlə artıq hazır mətni redaktə edib dəyişdirdiyi təzə şəkilçilər, sözlər, cümlələr, durğu işarələri, o gördü ki, mətn içində özlərini sanki birtəhər hiss edirlər. Hər biri, elə bil ki, əvvəlki mətnə münasibətdə, Qazi Bürhanəddin demişkən, "qədd tutub" durur, köhnə əhatədə özlərini yad ünsür kimi aparır, köhnə mətnin içində heç cür əriyə bilmirdilər. Redaktədən sonrakı ünsürlər sanki ona məlum tanış "sonsuz lüğət"in içindən çıxmamışdılar.

Vaqifin qəlbini qəribə bir şübhə hissi bürüməyə başlayırdı. Bəlkə bu dəyişmələrlə gələn yeni sözlər, ifadələr və sairə onun yaxşı tanıdığı, bildiyi, əsəri yazarkən külli-ixtiyar sahibi kimi içinə girib istədiyini götürdüyü

haman tanış “sonsuz lüğət”in hissəcikləri deyil?! Bu hissəciklər bəlkə başqa, ona tanış olmayan, tamam başqa “sonsuz lüğət”ə məxsus idilər?! Ona yad olan sonsuz lüğətə?! Belə ola bilərdimi?! Əgər belə olsa idi, o zaman onun taleyində neçə sonsuz lüğətin mövcudluğu mümkün idi?! Doğrudanmı, görəsən, onun tanıdığı “sonsuz lüğət” yeganə deyil, ona paralel başqa “sonsuz lüğət”lər də var?! Dəyişmələrin axı limiti ola bilməzdi, dəyişmələr axı sonsuza məhkum idi. Belə olan təqdirdə lüğətlər də məntiqlə sonsuz olmalı idilər. Və “sonsuz lüğət” adından da göründüyü kimi özünü doğruldurdu.

“Sonsuz lüğət”lərin içində itib-batmaq ehtimalı Vaqifi qorxutmurdu. O, bir sonsuz lüğəti o biri ilə əvəzləməyə şövqlə davam edirdi. Onu qorxudan başqa şey idi. O biri, başqa “sonsuz lüğət”in müdaxiləsi mətnin onun tərəfindən əvvəlcədən nəzərdə tutulmuş ideologiyasını dəyişə bilməzmiydi?! Bu sualın cavabını o bilmirdi, amma ona təkidlə cavab axtarmaqdan da usanmırdı.

Bu yazdığı mətn digərlərinə bənzəməyəcəkdi. Öz-özünü bu əlçatmaz xülyaya inandırmaq istəyirdi. İnandırdıqca inandıra bilmirdi. Amma istəyirdi. Beynində bütün buna qədər yazdıqları bir-birinə qarışır, bir-birini məhv etməklə məşğul olur, nəhayətdə anlaşılan o olurdu ki, tutalım, təsvir etdiyi o qızın surəti həm tanıdığı heç kiminki deyil, həm də onların hamısının cəmidir. Özünə təskinlik verməkdən isə bir şey çıxmırdı. “Hər adam ömrü boyu bir kitab yazır” – bunu kim söyləmişdi, Vaqifin yadında deyildi. Bəlkə də özünün sözləri idi – indi xatırlaya bilməyəcəkdi. Deyəsən, o, özünün ən çox qorxduğu bir xəstəlik zonasına girirdi: başqalarının dedikləri ilə öz dediklərini artıq bir-birindən ayıra bilmirdi. Özümü deyib bunu, ya bir başqa yerdən oxuyub – çox zaman onun özü üçün belə bu incə sərhəd xəttini ayırmaq asan olmurdu.

Bundan daha qorxulu başqa bir zona var idi, sanki bunun davamı idi. Başqalarının dediklərini özününkü saymaq zonası. Allahına şükür edirdi ki, o, bu həddə hələ çatmayıb. Vaqifin həddi, sadəcə, bu deyilənlərin birbirinə qarışmış həddi idi. Əgər onun özü bunu qətiyyən bilmədən, bu isə əlbəttə ki, bilərəkdən ömründə ola bilməzdi, hiss etmədən başqalarının fikrini öz adından vermək həddinə gəlib çıxsaydı, bu hədd hardansa gəlsəydi

və onu tapsaydı, daha ayaqlarını uzadıb rahatca ölməyi arzulamaq olardı. Necə deyərlər, "həyatdan ayrılmağın tam min cür üsulu var və insanlıq onlardan yalnız biri ilə – ölümlə tanışdır". Nə qədər çalışdı, bunun da özünün, ya başqasının fikri olduğunu xatırlaya bilmədi.

Hər şey isə sanki çox adi bir məsələ ilə başlamışdı. O, ilk dəfə bu qəribə sadəliyi həyata keçirəndə ona gülməli gəlmişdi ki, bu qorxulu məqamı indiyənədək heç kim sezməyib və həqiqəti su üzünə çıxara bilməyib. Yaxud çıxarmaq istəməyib. Sanki sadə bir şey idi. O, öz sözünü başqasının, özü də reallıqda olmayan bir başqasının adından bu mətnə salmışdı. Bu ad, elə bil, başqa, yad bir sonsuz lüğətin içindən gəlib bizim tanış "sonsuz lüğət"dəki adların sırasında şəstlə dayanmışdı. Əsl casus kimi onu bizimkilərdən ayırmaq mümkün deyildi. İlk dəfə ona son dərəcə ağır gələn bu iş get-gedə asanlaşdı. Onun sevimli məşğələsinə döndü. Yad "sonsuz lüğət"dən gələnlər əvvəl-əvvəl ad şəklində, sonra söz şəklində, sonra da ideyalar, fikirlər şəklində bahar seli kimi gəlməyə başladılar və yavaş-yavaş onun tanış "sonsuz lüğət"lə yazılmış mətnlərinə dolub bu mətnləri onun özü üçün də bəzən tanınmaz etdilər. Bağdadilər, Təbrizilər, Dərdəçarələr, Hacı Mir Həsən ağa Səyyahlar, daha kimlər bu həyatda olmamışdılar, amma onun mətnində onlar artıq var idilər və onların varlığına inananlar da var idi. Bu, qəribə və maraqlı bir oyun idi.

Bu oyun ona Troya qalasının qapısı ağzına dikilmiş nəhəng taxta atla olan oyunu xatırladırdı. Troyalılar on il davam edən qanlı müharibədən sonra bir səhər ayılıb İlion qalası önündə yunanların buraxıb getdiyi nəhəng bir at gördülər. Yunanlar özləri yox olmuşdur. Troyalılar güman etdilər ki, yunanlar uzun müharibədən bezərək gəmilərinə minib öz şəhərlərinə geri dönməzdən əvvəl bu nəhəng taxta atı Troyaya hədiyyə kimi qoyub gediblər. Troyalılar atı içəri çəkib aparmaq, ya da aparmamaq üstündə qızğın mübahisələr etməyə başladılar. Orada saçları dağınıq bir kahin var idi. O, bu atın ətrafına fırlanıb canfəşanlıq edir və hədiyyəni qəbul etməmələri üçün troyalılara yalvarırdı. Bu, Apollon məbədinin kahini Laokoon idi. Amma ona inanan yox idi. Laokoon inamsızlıq simvolu olmuşdu. Yalvarışı baş tutmayanda və troyalılar bu ağlı çaşmış qocaya heç

bir fikir verməyib atı kəndirlərlə bağlayıb qalanın divarlarından içəri çəkib keçirəndə Laokoon son ümidlə əlindəki nizəni atın taxta bədəninə sərasər vuraraq onda deşiklər açmağa çalışdı. Bu zaman...

...ona elə gəlirdi ki, mətn ilə bağlı bu qaranlıq və naməlum işləri gördüyü və "heç nələr"i mətninə daxil etdiyi üçün bu prosesin özü sonunda onu gətirib belə bir qəribə unutqanlıq zonasının içinə salmışdır. Həyatda hər şeyi gözəl anlayan, başa düşən Vaqif öz mətninin içində artıq çaş-baş qalmağa başlamışdı. Anlamadığı məqamlar get-gedə artır, çoxalırdı. Buna belə də demək olardı: hansısa "sonsuz lüğət" ondan öz intiqamını almağa başlamışdı. Ona elə gəlirdi ki, bu, tanış "sonsuz lüğət"dir. Tanış "sonsuz lüğət" qəribə bir təkidlə onu yad "sonsuz lüğət"ə doğru itələyirdi, onun ənginliklərində batmağa sövq edirdi.

“Xətircəm gedin, Vaqif müəllim”

...di gəl ki, bu axşam da əvvəlcədən nəzərdə tutduğu kimi hərəkət edə bilməyəcəkdi. Axşam üçün artıq razılaşdırdığı planı dəyişməli idi. Əvvəlcədən nəzərdə tutulmayan bir görüşü heç cür buraxa bilməzdi.

Firəngizin sözünü yerə salmaq, bunun üçün lap elə yüz dənə olsa da bəhanə uydurmaq, əslində, sui-qəsd kimi bir şeydir.

Qəzetdən intervü üçün gələnləri xeyriyyə işləri üzrə müavini Qüdrət müəllimin yanına göndərməyi qərara aldı. Qüdrət müəllimi yanına çağırdı. Özünü işinin peşəkarı sayan Qüdrət müəllim yaşda Vaqifdən böyük idi, amma özünü bəzən uşaq kimi aparırdı. Qüdrət müəllim Vaqifi dinləyib üzdə göstərməsə də, ürəyində bərk sevindi. Əlindəki dəftəri açıb ona təkrar-təkrar deyilənləri bir əmr kimi yazmağa hazır şəkildə durdu.

– Vaqif müəllim, hansı məsələlərin üstündə xüsusi dayanmamı istərdiniz? – Qüdrət müəllimin səsi quru çıxdı, o, bütün vücudu ilə peşəkar ciddilik tərzi aldı. Sanki hansısa dünya problemini həll etməyə gedəcəkdi.

– Çox da özünü həlak eləmə, bir az yumşaq ol. Gedişata baxarsan. Bunlar bizdən xeyli yazıblar. İşimizi ümumi şəkildə bilirlər. Bu hissəni onlara burax. Sən son proyektdən danış. Avropadakı türk təşkilatları ilə əlaqəmiz onlar üçün çox maraqlı olmalıdır. Türk qardaşlarımızın bizə göndərdikləri dərmanlar, bu dərmanların cəbhə bölgəsində birbaşa əsgərlərə paylanması. Məncə, bunların üzərində dayansan, yaxşı olar.

– Dərmanların qruplaşdırılması üçün yaradılan komissiyalar, sizin bir dəstə adamla cəbhə bölgəsinə getməniz... Dərmanları özünüzün bir-bir əsgərlərə verməniz... – Qüdrət müəllimin özündənarxayınlığı səsinə də sirayət etdi.

– Hə. Daha o tərəfini də deyərsən ki, biz nə üçün dil və tibb komissiyaları yaratdıq.

– Hansı tərəfi deyirsiz? – Qüdrət müəllim çox səmimi şəkildə söhbətin nədən getdiyini başa düşməyib bir anlıq çaşdı.

– Qüdrət, biz niyə alman dili mütəxəssislərini Universitetdən bura çağırdıq? Niyə hər dərmanın adını bizim həkimlər komissiyamızın üzvləri üçün bir-bir aydınlaşdırdıq? On gün gəlib burada iş gördü adamlar... Niyə??

Qüdrət susub qaldı. Vaqif düşündü: *"Doğrudanmı, o boyda həngamənin bu adama heç bir dəxli olmadı?!"*

Vaqifin ürəyi qısıldı, yenə də Qüdrət müəllimə sadə bir məsələni balaca uşaq kimi izah etmək, necə deyərlər, çeynəyib-çeynəyib ağzına qoymaq lazım gəlirdi.

Cavab hələ də gəlmirdi.

"Bu adam mənim axırıma çıxacaq..."

– Bunu axı mən dəfələrlə demişəm. Onun üçün ki, alman dərmanları, Qüdrət, Almaniya bazarı üçündür. Yəni, onların daxili ehtiyacı üçün. Bu dərmanların adı beynəlxalq standartlara uyğun deyil. Bizim həkimlər o adları bilmirlər. Onlar üçün o adları tərcümə etmək lazım idi. Yüz dəfə danışmışıq axı bunu... Yadından çıxıb? – Vaqif müəllimin səsi codlaşdı.

– Aydındı, Vaqif müəllim, aydındı. Narahat olmayın, aydındı. Burada nə var ki... *"Mən özüm yüz dəfə səndən də yaxşı intervü vermişəm. Məni öyrədənə bax..."*

Vaqif anladı ki, daha bundan o tərəfə Qüdrət müəllimə təsir edib intervüyə hazırlaşdırmaq mümkün olmayacaq. Qüdrət bir nöqtəni beyninə yapışdırdısa, o nöqtəni o beyindən çıxarmaq asan məsələ deyil.

Vaqif narazı bir halda əli ilə söhbətin bitməsi işarəsini verdi. Qüdrət müəllim dərhal dəftər-qələmini götürüb nədənsə işgüzar bir qaş-qabaq içində, Vaqifə elə gəldi ki, üzərinə düşən məsuliyyətin ağırlığını beynində götür-qoy edə-edə, əslində isə, Vaqifi ürəyində yamanlaya-yamanlaya kabinetdən çıxdı.

Gec idi, Firəngiz ilə görüş vaxtına az qalırdı. Vaqif müəllimin ürəyinin dərinliyindən bir nigarançılıq boylanmaqdaydı. Diplomatını əlinə alıb otağından çıxarkən bir gözü telefonda, köməkçisi Rüxsarəyə belə dedi:

– Gözdə-qulaqda olun, Qüdrət intervü verəndə yanında bir adam olsun. Bu adama mənim inamım yoxdu. Heç olmasa Nəmidə... Ehtiyac olsa, cavablara düzəliş eləsin.

– Oldu, Vaqif müəllim, siz xətircəm gedin. Biz həll edərik. – Rüxsarə onu arxayın etdi.

İntervü alanlar bir saatdan sonra gəlməli idilər. Vaqif Rüxsarənin sözlərinə baxmayaraq işdən nigaran getdi.

Bənövşəyi şarf

İşdən çıxan kimi Vaqifə elə gəldi ki, o tamam başqa bir dünyaya düşdü. Sanki ətrafdakı evlər, küçələr, hətta maşın pəncərəsindən gözünə dəyən adamlar başqa dünyaya məxsus idilər. O qəribə bir rahatlıq hiss etdi. Asudə nəfəs aldı. Xeyli yüngülləşdi. Bu başqa dünya ona nələr verəcəkdi, Vaqif bunu hələ bilmirdi, amma ümid eləyirdi ki, istədiklərini bu yeni və başqa dünyadan ala biləcək.

Küçələrdə maşınların sayı gözlənilməyən dərəcədə az idi.

...Vaqif görüş yerinə çatanda maşının yan pəncərəsindən baxıb gördü ki, Firəngiz artıq rəngbərəng kuklalar kimi bəzənmiş qəzet kioskunun yanında durub onu gözləyir. Qızın ətrafı qəribə səslər ahəngini içinə yığmışdı. Vaqifin sevdiyi bənövşəyi şarf qızın boynunda idi. Maşın düz bənövşəyi şarfın yanında dayandı.

– Salam. – Firəngiz maşının qapısını açıb içəriyə, onun yanına elə cəld keçdi ki, daha doğrusu, elə cəld özünü qabaq oturacağa atdı ki, elə bil, buna cavab olaraq maşının dayanması ilə yerindən tərpənməsi az qala eyni vaxtda baş verdi. Yerini rahatlaya-rahatlaya Firəngiz şarfı, nədənsə, boynundan açıb arxaya çevrilmədən arxa oturacağa atdı. *"Belə..."*

Aeroport yoluna qədər heç biri dinmədi. *"…Bu adam heç bir söz demədi. Elə bil, üç gün deyil, bir saatdır ayrılmışıq…"*.

"Şarfı bilə-bilə arxaya atdı. Bilir ki, bu şarf mənim xoşuma gəlir, onunçün belə edir..."

Daha heç biri heç nə barədə düşünmədi. Aralarındakı sükut az qala haray çəkməyə başladı. Elə ki, aeroport yoluna çıxdılar və maşınların gediş-gəlişi tək-tük oldu, Vaqif üzünü Firəngiz tərəfə döndərmədən yenə də irəli baxa-baxa, bir qədər zarafatvari şəkildə, bir qədər də saymazyana:

– Hə, nədi susmusan? Nə vacib işin varmış? – deyə bu lal sükutun daha da uzanmaması üçün soruşdu.

Vaqif səsinə şuxluq verməyə çalışdı. Firəngiz tezinciyən idi. Qızın bugünkü halı isə, Vaqif hiss edirdi ki, ən azından, qorxuludur. Hələ telefonla danışdıqları vaxt Vaqifin dalağı sancmışdı. *"Vaqulya, səninlə vacib, özü də çox vacib işim var..."* – deyən Firəngizin səsindən duyulurdu ki, Vaqif hansısa qurulmuş bir plana qurban gedir. Bəzən Firəngizin heç bir işi olmadığı vaxt da özündən nəsə uydurub onu zorla görüşə çıxarmağı vardı. Öz istəyinə o, hər şeyi qurban verə bilərdi. Vaqifin işini-gücünü, halını, yorğunluğunu, vacib görüşlərini saymaza alardı. *"Bu da belə bir plan olmasın?!"*

Firəngizdən səs çıxmırdı. *"Ölsəm də, danışmaram"*.

Yenə bir qədər sükut içində yol getdilər. Təzə maşın sürəti yağ kimi canına çəkirdi. Vaqif bir müddət ləzzətlə maşından gələn ahəngdar motor səsini dinlədi. Maşın ki təzə idi, onun ən kiçik müdaxiləsinə belə anında cavab verirdi. Hətta ona hərdən elə gəlirdi ki, maşın onun təkcə əl, ya ayaq hərəkətini deyil, fikirlərini də oxuya bilir. Sözəbaxan bir uşaq kimi nə istəsə onu da yerinə yetirir. Təzə maşın balaca uşaq kimi olur. Köhnələndə, yəni uşaq böyüyəndə, maşın kimi o da sözə baxmaya bilər.

– Saat 10-da evdə olmalıyam. – Handan-hana Firəngizin səsi çox uzaqdan, nəhayət ki, təşrif buyurub gəldi. Bu, daha çox bir pıçıltı idi.

"O zaman bağa nəyə gedirik?!" Vaqif bu axşamkı görüşlə bağlı müxtəlif variantları beynindən keçirməyə başladı. *"Hara getsək…"* – nə qədər düşündüsə ağlına maraqlı heç nə gəlmədi.

Yenə bir qədər sükut içində yol getdilər. Birdən Vaqifin, elə bil, beyni işıqlandı:

– Elə isə gedək dəniz qırağına, bir az hava alaq. Gör bir nə gözəl havadı. Nə deyirsən?

– Bax da... – Bu dəfə qızın səsi əməlli-başlı incik çıxdı.

– Çay içəkmi bizim yerdə? O vacib dediyin iş nə idi, nigaran qaldım…

– Çay içmək pis olmazdı. Aslanın yanını demirsən?! Ora gözəl yerdi... – Firəngiz bir balaca ara verib Vaqifin o biri sualına belə bir laübali cavab verdi. – Səni görmək istədim. Bu vacib ola bilməz?!

Əlbəttə, bu dəfə də hər şey Vaqifin təsəvvür etdiyi kimi idi. Bu görüşün vacibliyi adi şıltaq idi, vəssalam. *"Hayıf o intervüdən. Qüdrət onun içinə... qoysun, sən də bax"*. Vaqifin qanı qaralsa da, bir azdan maşının şüşələrini yalayan sərin payız mehi bu qaranlığı uçurub özü ilə apardı. Maşın dəniz kənarına yaxınlaşdıqca onun da əhvalı düzəlməyə başladı. *"İş həmişə var, bu gözəl hava isə..."*

Vaqifin getmək üçün nəzərdə tutduğu "sevimli yer"i Bilgəh sanatoriyasını ötüb keçdikdən dərhal sonra, dənizə tərəf başlayan kəskin enişin dibində yerləşən "Şəbəkə" adlı restoran idi. Bu restoran Bilgəhdə düz dənizin qırağında tikilmişdi. Gözəl yer idi. Kəskin eniş şəbəkə kimi burula-burula səni "yalançı" (psevdo) çin üslubunda tikilmiş bu restoranın qabaq qapısına qədər gətirirdi. Restoranın arxa tərəfindəki balkondan isə düz dənizin qırağına qədər piyada getmək olurdu. Stollardan bəzisini restoranın içindən çıxarıb dənizin lap kənarına gətirib qoymuşdular. Yemək yeyənlər üçün yeməyi bura gətirirdilər, çay içənlər üçün çayı. İstəsəydin, ayaqqabını çıxara bilərdin və dənizin ləpələri hərdən ayaqlarını yalayacaqdı... Şairlər deyən kimi, dənizin məşum, ləpələrin romantik pıçıltısı buranı sevgililərin sevimli yerinə çevirmişdi. Burada onların da bəyənib-seçdikləri yer var idi. Bu yer qumların arasında itib-batmış qoca bir qayalığın yeganə iri gözünün bərəldiyi bir az kənar yer idi. Stollarını bu bərəlmiş gözün yanına qoyduardılar. "Şəbəkə"yə tez-tez getmələrinin əsas səbəbi isə Vaqifin orada işləyən dostu Aslan idi. Aslan "bufetçik" idi, restoranın "canı" divin canı quşda olan kimi onun əlində idi, çox şeyi o idarə edirdi. Aslanın "Şəbəkə"də olması Vaqifə münasib idi – bu, istənilən an gərginləşə biləcək söhbətin mülayimləşməsi, hər hansı münaqişənindərhal zarafat üslubuna keçməsi demək idi.

…Vaqif və Firəngiz hələ aeroport yolunda olarkən "Şəbəkə"də onların düz dəniz qırağında quma batmış qayalığın bərəlmiş yeganə gözünün yanındakı sevimli stollarının arxasından iki nəfər – yaşlı kişi və gənc qadın ayağa qalxdılar və xörəkpaylayan oğlana yediklərinin pulunu ödəyib tələsmədən, bir-birinə qısıla-qısıla çıxışa doğru yönəldilər. Kənardan baxan onları bir adam kimi görərdi. Stol boşaldı və xörəkpaylayan oğlan tənbəl-tənbəl

stolun üstünü təmizləməyə, qab-qaşığı, şüşələri, stəkan-badələri yığışdırmağa başladı...

– Sən məni, doğrudan, sevmirsən? – Maşın aeroport yolunun enişinə, şəhərə doğru gedəndə isə yoxuşuna çatanda qaşqabağını tökmüş Firəngiz maşının qabaq şüşəsindən təsəvvür etmədiyi uzaqlara baxa-baxa sükutu pozdu. Aşağıda sol tərəfdə aeroportun enmə zolaqlarına bir-birinin dalınca uçub enən təyyarələr gözə dəyməyə başladı. Maşın sürətini artırdı.

Ünsiyyətdə olan iki adam arasında "sevirsən, sevmirsən..." sorğu-sualından daha gözəl, daha ləzzətli və daha maraqlı heç nə ola bilməz. İllah da ki, bu sorğu-sual bir-birini sevən iki adam arasında olsun.

– Allahdan qorx. – Vaqif məsələni zarafat məcrasına salmaqdan hələ də ümidini kəsməmişdi. O, özünü ilıq bir mübahisənin içində hiss elədi. Kefi bir az düzəldi.

– Sən məni... – Firəngiz "Allah" sözündən həqiqətənmi qorxdu, ya da qorxan kimi oldu, amma nə oldusa, sözünü tamamlamadı. Ya da ola bilər ki, tamamlamaq istəmədi.

– Sən sözlü adammışsan ki... Belə bir... axmaq sözü sənə kim dedi? Quşlar xəbər gətirdi?!

– Heç kim. Quşların bura dəxli yoxdu. Onları qatma söhbətə. Mövzunu çaşdırma. Mən özüm bu fikrə gəlmişəm. Sən məni sevmirsən. Onun üçün də sənin cavabına mənim ehtiyacım yoxdur.

– Həəə, quşların da məsələyə dəxli yoxdusa, deməli, məsələ, həqiqətən, qəlizdi. Çox mürəkkəb problemdi. Müxtəlif tarixi rəqəmlərə baş vurmaq lazım gələcək. Razısan mənimlə?!

Bu, Vaqifin dostu Rizvanın iki kəlmədən bir yeri gəldi-gəlmədi işlətdiyi və yaxın dostların söz lüğətinə daxil olmuş ifadə idi. *"Ay Rizvan, oyunun olsun, yaxşı söz salmısan mənim ağzıma. Razısan mənimlə?!"*

– Bəlkə bu məsələni biz çay içə-içə təhlil edək? Məsələn, kiçik bir dəyirmi masa formatında... Nə deyirsən? Razısan mənimlə? – Vaqif bir daha Rizvanı təkrar etdi.

– Sən nə danışırsan?! Təhlilə ehtiyac-filan yoxdu. Razı deyiləm sənin-lə. Yox bir, dəyirmi masa... Ələ salmısan məni? Məni evə apar. Evə istəyi-

rəm. Əlbəttə, əgər qaçırmaq fikrin yoxdusa... *"Heç vaxt inanmaram ki, bu adam məni götürüb qaçırsın. Elə bircə bu qalmışdı. Bu olsa-olsa hansısa başqa bir dünyada ola bilər…"*

Maşın aeroportu sürətlə arxada qoydu. Vaqif artıq hər şeyi anlamışdı. Bir halda ki, mövzu əvvəlcədən müəyyənləşib, deməli, məsələ o düşündüyündən daha qəlizdir. Ona görə də dərhal qərara aldı ki, qızın sözlərinə heç bir fikir verməsin. Ümid "Şəbəkə"yə və Aslana qalırdı.

Firəngiz maşının aeroport döngəsində şəhərə tərəf, yəni evə tərəf geri dönmədiyini sanki görmədi və özünü o yerə qoymadı. *"Deməli, qaçırır..."* Firəngizin yan pəncərəyə dikilib qalmış gözlərinin içinə ilıq bir təbəssüm doldu, dodaqları qaçdı.

Payızın ortaları olsa da, əsasən, yay restoranı kimi tanınan "Şəbəkə"-nin hələ də gur vaxtı idi. Aslan bufetin piştaxtasının arxasında onları uzaqdan görüb xörəkpaylayanlardan birini tez yanına çağırdı, Vaqifə əl elədi, *"siz gedin oturun, mən sonra sizə yaxınlaşaram..."* Vaqif və Firəngiz restoranın içinə girmədən onları girəcəkdə qarşılayan xörəkpaylayan oğlanın dalınca gedib dəniz ləpəsinin adamın ayağına toxunmağına lap az qalan bir yerində haman quma batmış qoca qayalığın bərəlmiş gözünün yanında təzəcə təmizlənmiş stolun arxasına keçib oturdular.

Xörəkpaylayan oğlan onları köhnə müştəri kimi salamladı:

– Xoş gəlmisiz. Həmişə siz gələsiz... Təzə balığımız var.

– Sağ ol. Bizə hələlik çay gətir... – Vaqif ona baxmadan dedi.

Vaqif yerini rahatladı və elə bil, ancaq indi, dənizin mehi ona dəydikdə hiss elədi ki, necə yorulub. Yorulmaq yalnız hər hansı bir fiziki iş görməklə üzə çıxmır. Zehni əməyin də nəticəsində yorula bilərsən. Elə bircə Qüdrət müəllim yetər ki, onunla gün ərzində ünsiyyətdə olan adamın başının üstünü yorğunluq dənizdəki 9-cu val kimi alsın. Bura isə, Allah, Allah necə də sakit, necə də həzindir. Bu ki bir başqa, tamam başqa dünyadır. Payız mehi adamı az qala bihuş edir, dənizin səsi ahəstə-ahəstə "sən axı yazıqsan, sənə niyə bu qədər zülm edirlər?!" pıçıldayır. 9-cu valın ən uzaq hənirtisi belə buralarda eşidilmir. Dünya burada gözəl dünyadır. Tütçev deyən kimi, təsadüfi cizgilərini silsən bu dünyanı ancaq sevmək olar. Ondan ancaq ləzzət

almaq olar. "Şəbəkə" ətrafındakı dünyanın heç bir təsadüfi cizgisi yoxdur. O, bütöv və …laldır.

"Vaxt vardı, Tütçev də mənim üçün tanış olmayan "sonsuz lüğət"in bir qəribə, sirli parçası idi. İndi isə necə də tanış və doğmadır..." Bütün cizgilər əsas və aparıcıdır. Bütün cizgilər adamı onun sevdiklərinə gətirir – anasına, qardaşına, Firəngizə... Bir də, əlbəttə ki, Kitaba.

Kitab onun, yaxınları belə deyir, Vaqifin əbədi məhəbbətidir. Məqalə məqalə dalınca. Esse esse dalınca, şeir şeir dalınca yazıldı. Özü də səbəbini bilmirdi ki, niyə bunu edir. Bu yazılanları Kitabmı ona yazdırır, yoxsa o özü bu şəkildə Kitaba addım-addım yaxınlaşır, öz izzəti-hörmətini bu şəkildə bildirmək istəyir?!

Kitab bir qəliz və müşkül məsələ idi. Onun içinə girmək – çalışıb heç kimin görmədiyini, demədiyini ortaya qoymaq demək idi. Bunu etmək əgər mümkün deyilsə, bu işə başlamağın özü mənasızdır. Sadəcə, deyilənləri başqa şəkildə, tanış "sonsuz lüğət"in registri vasitəsilə dəyişmək o deməkdir ki, sən heç nə etməmisən. Nə isə etmək – tamam başqa vasitələrdən istifadə etmək deməkdir. Nə isə etmək yad "sonsuz lüğət"in ölçüləri ilə Kitaba yanaşmaqdır.

"Bu necə olur ki, dənizin ahəstə-ahəstə layla deyən anlaşılmaz səsini başa düşmək olur, Qüdrətin qışqırtı dolu səsini-sözünü – yox. Qüdrətin səsi hərdən bilinmirdi ki, hansı sözləri tələffüz edir, deyir... deyir..." Belə çıxır ki, Qüdrət də bir başqa tanış olmayan, yad sonsuz lüğətin alətidir?! O zaman, həqiqətən, "sonsuz lüğət"lərin özü də sonsuzdur.

Birdən-birə Vaqifin əməlli-başlı yatmağı gəldi. Ayıb olmasaydı, elə buradaca, qumun üstünə bir adyal atıb üstünə uzanardı. Əvvəlcə sağa-sola ağnayardı. Sonra başını yerin təkinə girmiş qayanın gözünün üstünə qoyub bu qumlara əsir olmuş qayanın yanında daş kimi düşüb qalardı. Yorğunluğu ancaq belə çıxa bilərdi. Bəlkə də çıxmazdı. Çünki bu yorğunluq saatların, günlərin yorğunluğu deyildi, ayların, illərin, minillərin yorğunluğu idi. Bu yorğunluq nəhayət, Qüdrətin, Atakişinin, Nəmidənin, Rüxsarənin yorğunluğu idi. Sonsuz sayda tanış olan sonsuz lüğətlərin yorğunluğu idi.

– Sən, yəni, indi mənə deyəcəksən ki, guya məni sevirsən? – Firəngiz fürsəti fövtə vermədi, elə masa arxasına oturan kimi maşındakı söhbətə qayıtdı. O öz qadın fəhmi ilə hiss eləmişdi ki, bayaqkı söhbətin təzəliyi itməkdə, unudulmaqdadı. – Üç gündür məni axtarmırsan… Gün ərzində bir dəfə mənə zəng eləməmisən. Xəbərin yoxdu, ölmüşəm, qalmışam... eh... bezmişəm mən. Belə də münasibət olar?! Mən heç nə başa düşmürəm.

"Hər şey təzədən?! Niyə axı, ay Allah?! Heç olmasa sevdiyim insanla beynim niyə dincələ bilmir?! Niyə bu şəraiti sən mənə yaratmırsan?!"

Bəlkə də bu söhbəti hərləyib-fırlayıb məzəyə çevirmək olardı. Bəzən elə belə də olurdu. Aslan vaxtında yetişirdi. Amma bu səfər Firəngizin çox tutqun olsa da, həm də çox, diqqətli bir halı vardı. Sözünün hərlədilməsinə, ya da fırladılmasına izin verən adama Firəngiz bu axşam heç oxşamırdı. *"Bir tərəfdən baxanda, bəlkə də haqlıdı. Ata nəvazişi – yox, bir dostu, rəfiqəsi – yox. Bu adam nəvaziş axtarır. Səhərdən axşama qədər anasının yanında. Öldürsən də atasına zəng eləməz. Aslan lazımdı, Aslan!.."*

Firəngizin atası Sovet İttifaqı adlanan ölkə dağılandan sonra Moskvaya köçüb orada yaşayırdı. Qəşəng dostları, biznesi vardı. Əvvəllər Firəngiz ilə anasını da yaşamağa yanına çağırardı, indi daha çağırmır. Amma onların dolanışığını getdiyi gündən bu günəcən əməlli-başlı təmin edir. Atasının Firəngizdən ötrü ürəyi gedirdi. Ən böyük arzusu Firəngizlə öz yeni ailəsini, iki balaca uşağını tanış eləmək idi. Yeni arvadı həkim idi. Onu da buna razı salmışdı. Amma Firəngiz də yerinə düşdü, düşmədi, baxmazdı, tərslik eləməyi bacarırdı. Bu günəcən atasını da, onun təzə ailəsini də yaxına buraxmamışdı. Demək olmaz ki, anasının təsiri ilə belə edirdi. Artıq özü də bilmirdi ki, niyə belə edir. Görmək istəmirdi, vəssalam. Vaqifə də bu barədə hər hansı söhbəti salmağı qadağan eləmişdi.

Firəngiz illər boyu bu barədə uzun-uzadı düşünərək özünü inandırmışdı ki, hər insan öz təbiətinə görə xoşməramlı məxluqdur. Nahaqdan deyildir ki, hər bir adam – Firəngizin özü də istisna olmamaqla – ata-anasını sevir və ilkin xislətinə görə istəyir ki, ata və anası da bir-birini beləcə sevsin. İnsanın ən böyük istəyi ətrafında sevgi yaratmaqdır. Bunu edə bilməyəndə o ruhdan düşür, öz məhəbbətini içində əzməyə çalışır. Bu da

alınmayanda, onun bütün mübarizəsi özünə qarşı çevrilir, öz-özünü didməyə, içəridən yeməyə başlayır. Anası əvvəllər Firəngizi melanxolik əhvalda görərkən qorxa-qorxa təklif edərdi ki, "bəlkə Moskvaya gedəsən?! Gəzərsən, havanı, suyunu dəyişərsən..." Firəngiz ona heç bir cavab verməzdi, sərt şəkildə söhbəti dəyişərdi. Anası da payını götürərdi. Daha axır vaxtlar anası ona belə təkliflər etmir.

Vaqif ilk bahardakı gilas ağaclarının budaqları kimi dənizdə uzaqlarda çox ehmalca hələlik yalnız ağarmaq istəyən xəfif ləpələri bilici gözlərilə axtarmadan tapdı. *"Görəsən, nə zaman xəzriyə dönər?!"* düşünüb hələlik zərif, itib görünən bəyaz ləpələrə peşmanlıq dolu bir nəzər saldı və üzünü guya ki, məcburən (hər-halda belə alındı) Firəngizin gözəl çöhrəsinə tutdu:

– Yaxşı, danış görüm, başımın bəlası, nə olub, nə olmayıb? Niyə belə birtəhərsən? Daha doğrusu, niyə belə aqressivsən?! Kim səni fitilləyib mənim üstümə göndərib?! Gəmilərin harda, nə zaman batdı?! – Vaqifin bütün sualları eyni cür – monoton səsləndi.

Xörəkpaylayan oğlan əlindəki podnosda çay, limon, paxlava, şirniyyat, qənd gətirib gəldi. Səliqə ilə və böyük bir ədəblə bunları stolun üstünə düzməyə başladı. İşini qurtarandan sonra ədəblə:

– Başqa nə lazım olsa, mən burdayam, – deyib aralandı.

Payız təzə girsə də, havalar hələ isti və kifayət qədər nəmişli idi. Ciyərdolusu nəfəsi ancaq dəniz sahilində almaq olurdu. Günəş batmışdı, qaranlıq isə hələ düşməmişdi. Şər qarışan vaxt idi. Gün ərzinin Vaqif üçün ən sevimli vaxtı. "Şəbəkə"nin üstünü yavaş-yavaş ağ-qara buludlar alırdı. Uzaqdakı ləpələr bəyazlıqlarını daha itirmir, qoruyub saxlaya bilirdilər. *"Yəni, yağış yağar?!"* – Vaqif düşündü. Restoranın işıqları yandı. Restorandan aşıq səsi eşidildi. Burada sifariş verib restorandakı aşıq dəstəsini yemək otağına çağırmaq olurdu. Bir qədər keçdi və bu aşıq səsinə uzaqdakı evlərin hansındansa balaca bir uşağın ağlamaq səsi qarışdı. Bu uşaq necə ağlayırdısa adamın ürəyi parça-parça olurdu. Ağlamaq səsi aşığı çox asanlıqla öz tanış və sevimli ahəngindən çıxardı. Aşıq susub uşağın ağlamasının nə zaman kəsəcəyini səbr və təmkinlə gözləməyə başladılar.

Vaqif əlini atıb çaydanı aldı və armudu stəkanlara çay süzməyə başladı. Çayın zərif ətri buğ-buğ olub ətrafa yayıldı. Aslan onların xətrinə çaya bir-iki tel zəfəran atdırmışdı.

– Bah-bah, bunun qoxusuna baxırsan? Paxlava istəyirsən? Özləri burda bişirir, – deyə Vaqif stolun üstünü nəzərdən keçirib çayı süzə-süzə Firəngizdən soruşdu.

– Yox, sağ ol. Necə baxım mən bunun qoxusuna?! Heç qoxuya da baxarlar?! Qoxunu da görərlər?! Bu da bizim çoxbilmiş professorumuz. – Firəngiz üz-gözünü turşudub çay stəkanını burnuna tutdu. – Nə qoxusu olacaqdı ki... Zəfəran vurublar da. Yavaş, ağzın yandı... uff... – Firəngiz qaynar çaydan bir qurtum almış və indi də ufuldayan Vaqifə acıya-acıya baxıb o da ufuldadı.

Bax, məsələnin canı da elə burda idi. Qoxuya "baxmaq" istəməyən Firəngiz Vaqif üçün çox maraqlı idi. Bir dəfə qız Vaqifə öz uşaqlığından danışmışdı. Anası ona qaçıb yıxılmaması üçün "ayağının altına bax…" demişdi və balaca Firəngiz dayanıb yerə oturmuş, ayağını qaldırıb altına baxmağa çalışmışdı. *"Bu qız ənlik-kirşandan əvvəlki dövrün qanunları ilə düşünə bilir. Kitabın görülməyən tərəflərinə girsə, ancaq Firəngiz girə bilər".*

Dodağı balaca yansa da Vaqif bunu büruzə vermədi. Firəngizə bu gün heç nədə haqq qazandıra bilməzdi. Ani olaraq yadına yenə də hardansa fırlanıb gəlib "gözəlim" Qüdrət düşdü. *"Görəsən intervünü adam balası kimi verə bildi?!"*

– Pislik eləyiblər sənə, zəfəran vurublar çayına?! Yəqin, bunu ediblərsə, hörmət əlaməti olaraq ediblər. Sən yaxşılıq bilən adam deyilsənmiş... *"Ay, ay, ay... Nahaq belə dedim. Çox nahaq. Çoxmənalı alındı, dəyişmək lazımdı temanı..."* Bilirsən, zəfəran ürəyə nə qədər faydalıdır?! Hardan biləsən?! Səninki olsun: "sevirsən-sevmirsən"... Bu qara-qura fikirlər haradan gəlib girir sənin bu gözəl başına? Vallah və billah, mən mat-məəttəl qalmışam, – deyə Vaqif "temanı" bu cür naşılıqla dəyişə-dəyişə yarı şux, yarı ciddi şəkildə çaydan ehtiyatla daha bir qurtum aldıqdan sonra Firəngizdən bu „qorxulu" sualına cavab gözlədi.

Firəngiz birdən-birə qış çağı qara düşliri kül kimi büzüşdü, üşüdü.

– Hansı qara-qura fikirlər? Mən heç nə bilmirəm. Heç nədən xəbərim yoxdur. Mən evə istəyirəm. *"Mən yaxşılıq bilmirəm demək…"*

– Evə istəyirsən? Bəs demirdin saat onacan vaxtın var? – Vaqif təəccüb etmədi. O, Firəngizin belə dəyişik hallarına alışqan idi.

– Mən evə getmək istəyirəm. Bu aydın deyil? – Firəngizin səsi bu dəfə xeyli sərt bir şəkildə təkid çaları ilə doldu.

Vaqifə elə gəldi ki, bir az da keçsə qız ağlayacaq. Ən zəhləsi gedən şey də elə bu idi. Kiminsə onun yanında ağlaması və bunun qarşısını almaq üçün özünün heç nə edə bilməməsi Vaqif üçün dünyanın min qatlı əzabı kimiydi.

– İnsafın olsun, indi gəldik ki... – Vaqif ora-bura boylandı. *"Aslan barı ləngiməyəydi. Gəlib öz gic zarafatları ilə ortalığın havasını ancaq o dəyişə bilər".* – Sən deyəcəksən, nəhayət, nədi dərdin, ya deməyəcəksən? – Vaqifin də səsi sərtləşdi.

Firəngizin çiyinləri titrədi. Elə bil, içində bir zəlzələ tərpənmişdi. Sinəsinin dərin yerindən yanıqlı bir hıçqırıq boğula-boğula yol alıb üzü yuxarı gəlməyə başladı. *"Deməli, belə… mən yaxşılıq bilən adam deyilmişəm. Deyilmişəm. Eləmi?! Allah, mənim niyə bəxtim yoxdu?!"* Qızın gözlərinə yaş doldu. O, için-için hıçqırmağa başladı. Vaqif əməlli-başlı təşvişə düşdü:

– Sən Allahın, başlama. Sakit ol. Götür, çaydan iç. Nooldu sənə axı?! Bir hadisə baş verməyib ki?! Sən mənim əzizimsən... Sən bəyəm bunu bilmirsən?..

Vaqif stulunu çəkib qızın yanına keçdi. Yanaşı oturdular. Əli ilə Firəngizin çiyinlərini qucaqladı. Zəlzələ bitdi. Qız qəflətən başını onun qoltuğu altında gizlədib hönkürdü. Vaqifin ürəyini, elə bil, kəlbətinə saldılar, sıxdılar, ürəyi sıxıldıqca sıxıldı. Tərslikdən elə bu zaman uzaqda ağlayan uşaq kiridi və restorandakı aşıqlar bunu gözləyirmişlər kimi yenə də cır səslərini başlarına atdılar. Vaqif hər iki əli ilə Firəngizin çiyinlərindən bərk-bərk yapışdı. Kənardan baxan elə bilərdi ki, bu adam qızı bərk-bərk qucaqlayıb. Amma Vaqif yalnız qızın çiyinlərindən bərk-bərk yapışmışdı. Vaqif qızı qucaqlamamışdı və indi buna görə, yəni, qızı istədiyi kimi qucaqlaya bilmədiyinə görə ürəyində özünü yamanlayırdı. Beynindən keç-

di ki, bir azdan bunun bədəlini hökmən verməli olacaq. *"Əməlli-başlı izahat yazmalı olacağam..."*

Firəngiz "bərk yapışmaq"la "qucaqlamaq" arasındakı fərqi yaxşı bilirdi. Və indi də bu ikisi arasındakı seçimdə öz hissiyyatına güvənərək seçimi "bərk yapışdı"ya verdi. Qəflətən Firəngiz başını Vaqifin əlləri arasından çıxarıb *"məni aldada bilməzsən"* deyə saçlarını necə gəldi, tələsik düzəltdi. Sonra, elə bil, nə isə xatırladı və sol qaşını təəccüblə yuxarı qaldırdı. *"Sol qaş qalxdısa işlər yaxşı deyil..."* – Vaqif düşündü.

Firəngiz balaca çantasından bənövşəyi naxışlı bir dəsmal tapıb yenə də çantasından çıxardığı kiçik güzgüyə baxa-baxa üzünə yayılmış göz yaşını bu dəsmalla ciddi-cəhdlə silməyə başladı. Elə bu zaman Firəngizin yadına nə isə düşdü və onun gözləri birdən-birə güldü, üzünə qəribə bir sakitlik çökdü. Qızı, elə bil, bircə anın içində cadu eləyib dəyişdilər. Eynən qara və vahiməli meşənin ortasındakı talaya beləcə sakit-sakit və gözləmədiyin halda qarşısıalınmaz bir axşam çökür.

– Noldu sənə? Nədi, rəngin niyə qaçıb? – Firəngiz Vaqifə baxıb gülməyini güclə saxladı, qızın artıq sözlərinin içi də gülürdü. – Mənə görəmi qanın qaraldı? Niyə danışmırsan? Bir söz de. De, utanma. De görüm, sən niyə özünü belə... yekəxana aparırsan?! Hə, de görüm niyə?! – Firəngiz maşından düşərkən dizinin üstündən götürdüyü bənövşəyi şarfı yenidən boğazına doladı.

Vaqif qızın əhvalının düzəldiyini görüb sakitləşdi:

– Heç nə demirəm. Mən daha heç nə demirəm. Mən – yazıq?! Mən – yekəxana?! Sən bax gör, bacarsan, Allahdan qorx. Sən elədiyini adama düşməni də eləməz. – Vaqif incimiş halda stulunu sürütdəyə-sürütdəyə çəkib öz yerinə qayıtdı.

– Olar, biz bu barədə danışmayaq?! Hər şey yaxşıdır. – Firəngiz ciddiləşdi. Ciddilik rejiminə bu cür qəflətən keçmək Firəngizə yaraşmırdı, qız süni görünürdü. Bu keçid gərək yavaş-yavaş baş verəydi. Amma buna ən azından vaxt lazım idi.

– Heç narahat olma. Vaqif, mən özüm də bilmədim ki, qəfildən nə oldu mənə. Elə heç nədən, birdən-birə ağlamağım gəldi. Heç nədən, inanır-

san?! Məndə olur. Buralar elə gözəldi ki... oy, ay Allah... – Firəngiz ətrafa boylanıb sanki ilk dəfə görürmüş kimi içini çəkdi.

– Evə gedəssən, yoxsa bağa gedirik?.. – Vaqif onun dediklərindən heç nə başa düşmədi.

Vaqif dərinə getmək fikrində deyildi. O, qıza baxdıqca bir tərəfdən ürəyində onu yamanlayırdı, o biri tərəfdən yenə də hansısa vəhşi bir hiss onu bu Allahın bəlasına tərəf inanılmaz qüvvə ilə dartırdı. *"Bağda mən sənə göstərərəm kim kimdi... Yalvara-yalvara qalassan..."*

– Hələ çayımızı içək... – Firəngiz heç nə olmayıbmış kimi dilləndi. *"Belə yalvararsan..."*

Vaqif uzaqdan Aslanın onlara tərəf gəldiyini gördü. *"Harda batıb qalmısan sən? Gəl, çıx da..."*

– Aslan gəlir... – Vaqif hər ehtimal Firəngizə xəbərdarlıq etdi.

Firəngiz sakitcə, diqqət çəkmədən dəsmalını və güzgüsünü sürüşdürüb çantasına qoydu. Bənövşəyi şarf hardansa sıçrayıb çıxaraq sanki özözünə qızın boğazına dolandı, onun qarayanız sifətinə xüsusi bir yaraşıq verdi. Üzünə-gözünə kəpənək qədər kövrək və şən bir ifadə qondu, Firəngiz tələsmədən, xüsusi işvəli əda ilə çayından bir qurtum aldı. "Mən hazır..." deyə bu dəfə sağ qaşını qaldırıb Vaqifə işvəli bir baxış atdı. Heç, elə bil, beş dəqiqə əvvəlki qız bu deyildi. *"Bundan yaxşı aktrisa çıxar. Noolar, nə bacardınsa elə".*

Aslanın gümrah, amma yenə də yorğun səsi onların başının üstünü aldı. O, birnəfəsə „üyütməyə" başladı:

– Salam, salam. Xoş gəlmisiz. Yol azmısız, deyəsən. Necəsiz? Nə var, nə yox?! Nisə xala neynir?! Vay-vay! Adə, yenə dəymisən bu uşağın xətrinə?! Deməmişəm sənə bunun qədrini bil? – Aslan məclisi diqqətlə gözdən keçirib öz beynində fırlanan və ancaq özünə məlum nəticəyə gəldi. Artıq onu bu nəticədən heç bir dəlil, məntiq uzaqlaşdıra bilməzdi. O, ərklə stul çəkib oturdu. – Çayın dəmi gəlib. Mən də bir stəkan içərəm...

– Salam, Aslançik. Necəsən? – Firəngiz artıq xoşbəxtlik sularında keyflə üzən bir adam kimi danışırdı. – Gətirir ki, bu məni bura. Deyəsən, kiməsə buralarda qısqanır məni. Sən necə bilirsən?! Ya da... Bəlkə başqaları ilə gəlir?! Hə?..

Aslan heç vədə Firəngizin işıq saçan, hiyləgərlikdən büzüşmüş qarayanız üzünə-gözünə baxıb başa düşə bilməzdi ki, bir az əvvəl indi guya mehriban olan bu adamların arasında qanqaraçılıq olub, ya olmayıb. Çünki Aslan gələndən sonra Firəngizin qapqara gözlərinin dərinində artıq heç bir yad qığılcım qalmamışdı. Səsi də xeyli şax olmuşdu. Amma belə bir maskarada Aslanın qəti ehtiyacı yox idi. O, ən azından Vaqifi beş barmağı kimi tanıyırdı. Gözünün ucu ilə baxmağı kifayət idi ki, beynindən bu sözlər gəlib keçsin: *"Bu suyusüzülmüş yenə bir zibil qaynadıb. Yoxsa belə niyabəd kimi oturub qalmazdı. Gör bir dodaqları necə büzülüb. Mən sənin bu halını yaxşı bilirəm".*

Vaqif səsindəki kallığı gizlədə bilməsə də Aslana bir ipucu atmaq istədi:

– Çayını iç. Heç nə olmayıb. Özünü nahaq yerə yorma.

Aslana bir işarə kifayət idi. O, Vaqifin bir sözündən tutub quyunun dibindən ağzınacan qalxa bilərdi. Amma bunu istəyəcəkdimi?!

Vaqif üzünü peşman-peşman kənara çevirib inadkar uşaqlar kimi gözlərini dənizdə uzaq bir nöqtəyə zillədi. Vaqif o uzaq nöqtədə enib qalxan artıq ağappaq dalğaların üstündə Qüdrət müəllimin şəklini gördü. *"Yenə də bu? Əl çəkməz ki adamdan"*. Sonra Qüdrət müəllimin şəkli sulara qarışdı, yox oldu, Vaqif bu dəfə dalğalarda öz şəklini gördü, sonra həm öz şəkli, həm də Qüdrət müəllimin şəkli sahilə tərəf bir müddət yanaşı gəldilər. Sonra bu şəkillər də bir-birinə qarışdı. Dəniz teatrında kamera oyunu beləcə bitdi. Vaqif diksinib bu gördüklərindən ayrıldı. Dənizdə dalğalar yenidən dalğa oldu. Ləpələr getdikcə daha çox ağarır, özləri ilə sahilə sərin meh gətirirdilər. *"Xəzri gəlir…"*

Firəngiz bir gözü Vaqifdə, beyninə vurmuşdu ki, bu axşam necə olsa da Aslandan nə isə bir söz alsın. Səsinin çox yumşaq, cazibədar, incə yerinə saldı:

– Sən Allah, ay Aslan, sən düz adamsan axı. Həmişə demirsən, mən düz adamam?! Həyat professoruyam?!

– Həri, elədi. Şübhən var?

– Yox, qətiyyən. Mən də onu deyirəm. Bu adam buralara mənsiz gəlir, ya gəlmir? Hə?... Vaqif müəllim, biz indi səni, necə deyərlər, qovub-qovub...

nə təhər idi o söz... mərd adam edərik, sən də görərsən... Edək, həyat professoru?!

– Vallah, göydə Allah var. Dil çaşar, düzünü deyər. Qovub-qovub mərd edəcəkmiş... – Vaqif Firəngizi yamsıladı. – O söz sən deyən kimi deyil, o söz belədir. Qova-qova mərdi, yəni məni namərd eləyərlər. Sən bax, indi bununla məşğulsan.

– Necə yəni, sən, yəni, namərd oldun indi?! – Firəngiz söz burulğanına düşdü və çaşıb qaldı.

– Olar, olar, namərd də olar, niyabəd də olar. Yüz faiz əlindən gələr... Yaxşılıq deyil ki, əlindən gəlməsin?!

"Ufff, nə verdi cavabını... Elə bil, ürəyimi oxudu. Mənə deyirdi – "yaxşılıqbilməyən", indi özü bundan çıxdı". Firəngizin gözlərinə işıq gəldi.

– Sağ ol, Aslançik, Nə dedin… yerində dedin.

– Aslan, ay həyat professoru, Azərbaycanda üç nəfər dinsiz-imansız adam varsa, ikisi sənsən. – Vaqif yanıb tüküldüyündən bilmədi daha nə desin. Aslana söz təsir eləyən deyildi. Heç nəyi vecinə almaz, heç nə onu dilxor eləməzdi. İndi də əlini oynada-oynada Firəngizə guya ki, bu sözləri dedi: *"görürsən də, mənim dediyimi mənə qaytarır, qoy desin, desin, sən buna inanma..."*

"Üç nəfər ... varsa, ikisi sənsən" ifadəsi, doğrudan da, Aslandan gəlmə ifadə idi. O da hansısa xanəndədən eşitmişdi, məqamına görə dəyişdirib yeri gəldi-gəlmədi döşəyirdi. Xanəndə də deyirdi ki, guya bunu Habil Əliyev musiqiçilərdən birinə toydan sonra sözləri çəp gələndə deyib. Orijinalı belə idi: "Azərbaycanda üç nəfər əclaf varsa, ikisi sənsən".

Aslanın məktəb illərindən bəri adı "ingilis füləyi" idi, fərq eləməzdi onunçün kim haqlıdı, kim yox, o məqamda ağlına necə gəldi, elə də danışardı. Ustalıqla işi elə qurardı ki, bir çox qanqaraçı məqamlar gülüş üstündə ertələnərdi.

– Sizə bəs zoğal mürəbbəsi gətirmədilər?! Vay-vay... Buna baxırsan, dilimlə özüm tapşırdım...

– Neynirsən zoğalı, iç həmişə içdiyin kimi qəndlə, burda aranı qarışdırdın, indi rahat gedib işinlə-gücünlə məşğul ola bilərsən. Odu, bufetin

qabağında araqçün "kliyent"lər növbəyə düzülüblər. – Vaqif oturan yerdən restoran bufetinin piştaxtası görünürdü.

– Hə... nə tez gəldilər?! Mən zoğalı sənincün demirəm, professor-müəllim. Fira üçün (yəni, Firəngiz üçün) deyirəm. Keçən səfər onun xoşuna gəlmişdi... Sən isə... Utanmırsan, belə şeyləri yaddan çıxarırsan?! Sənə ayıb olsun. – Xeyli teatral bir ciddiliklə Aslan guya ki, havadakı gərginliyi yumşaltdı. Amma intonasiyası elə idi ki, Vaqif tərəfə bircə söyüş qaldı deməsin.

Aslan öz işini görəndən, yəni, əslində, qızı məmnun edəndən sonra dodaqlarının ucu ilə yüngülcə gülümsədi. Bu gülümsəmə, təxminən, belə bir mənanı ifadə edirdi: *"Sən, Fira buna fikir vermə, baxma belə danışır, özünü belə dartır. Otuz ildir bir yerdəyik. Mən bu adamın hər üzünü tanıyıram. Həri, həri, mən universitet oxumamışam. Mən, hamı bunu bilir, sən də bilirsən, mən həyat professoruyam. Bu yoldaş isə... – Aslan qiymətverici bir baxışla, Vaqifi başdan-ayağa diqqətlə süzdü. – Bu isə, Fira, hələ bir adamı da darda qoymayıb. Bu ki var, mən bunu yaxşı tanıyıram. Danışar, danışar, adamı incidər, dili bunun acı istiotdur, amma ürəyi təmizdir".*

Firəngizin hər iki qaşı yuxarı dartıldı, guya ki, Aslanın düşündüklərini o da olduğu kimi başa düşdü və razı-razı başını tərpətdi. *"Bax, əsl dost belə olar. Həm söyür, həm də öyür".*

Aslan çayını nəlbəkiyə töküb hortuldada-hortuldada hövlnak içdi, dərindən bir "ah" çəkib durdu ayağa. Əlindəki əzişib-büzüşmüş yaşıl cib dəsmalı ilə boynunun tərini sildi:

– Yaxşı, mən getdim. Ürəyiniz başqa bir şey istəmir? Professor-müəllim, balıq əlasındandı, biləsən... – Aslan qəflətən üzünü yuxarı, səmaya tutdu, başlarının üstündən tələsik keçən ağlı-qaralı buludlara diqqətlə baxdı. – Yağış yağa da bilər, yağmaya da. Amma xəzri – yüz faiz! Damcılasa, keçin içəri, sizinçün kabinet saxlatmışam.

– Yeri get, oğlan, sən yaxşı cayıl deyilsən... – Vaqif onların məclisinin öz dilində məşhur olan bir deyimi xatırladı.

Aslan bu sözlərə fikir verməsə də, yenə də dodaqucu gülümsündü. Firəngizə baxıb sözsüz kinodakı kimi başı ilə Vaqifə işarə edə-edə "buna bənd olma, başı xarabdı bunun..." guya ki, bu şəkildə qızla "müttəfiq"

olduğunu bəyan etdi və sonra "müttəfiq"ini zərrə qədər peşmançılıq hissi keçirmədən tərk edib cəld bufetə tərəf, onu gözləyən "kliyent"lərin yanına tələsdi.

On il bir məktəbdə, eyni sinifdə oxumuş bu dostların bir-birinə ərki bitib-tükənməzdi. Yəqin, bunu özləri də bilmirdilər ki, bu ərk onlardan xəbərsiz yavaş-yavaş qəribə bir sevgi hissinə dönmüşdü. Bir-birini nərd oyunu zamanı söyüb bir-birinin abrını alan, bir-birilə dalaşan bu adamlar bir-biri üçün darıxır, bir-birini qısqanır, bir-birini kənar nə vardısa hər şeydən qoruyurdular. Hərdən bir-birilə etdikləri zarafat şit alınırdı, ona görə də yanlarında başqa adam olanda öz həmişəki şit zarafatlarını sonraya saxlardılar. Hər şey yüngülvari məzələnmə ilə keçib gedərdi. Firəngiz də bunu bildiyindən deyilən hər sözün arxasında zarafatdan başqa heç bir şey olmadığını gözəl başa düşürdü. Aslan bufetə geri dönəndən sonra Firəngiz Aslan özü olmadan Aslana müraciətlə, az qala öz-özünə dedi, yəni "qızım, sənə deyirəm... amma qoy gəlinim eşitsin".

– Sağ ol, ay Aslan. Yaxşı ki, sən varsan. Sən də olmasaydın, mənim qədrimi kim bilərdi?! *"Mən axı yaxşılıq bilən deyiləm..."* – Firəngiz mənalı-mənalı Vaqifə baxdı, *"gördün, bayaq dediklərim hamısı düz idi. Bir dənə zoğal mürəbbəsi nədi ki, onu da yadında saxlamamısan. Belə adam istəyərlər?!"* – Bir dənə zoğal mürəbbəsi nədi ki... Professor-müəllim, səninləyəm, eşidirsən məni?! *"Professor-müəllim!.. Bu cür onu Aslan çağırır. O da belə çağırırsa, deməli, barışıq əlamətidi".*

Vaqif beynindən keçən adda-budda, sərsəri, cığal fikirlərlə qaçdı-qovduya çıxmağı buraxdı. Güclə Firəngizin sözlərinin əks-sədasını tuta bildi:

– İndi bu ingilis füləyinin sözlərinə sən fikir verəcəksən? Tanımırsan bunu?! Nə deyim, vallah?! Ay qız, mən sənə zoğaldan dağ düzəldərəm, dağ. *"Hansı dağın adını çəkim ki, bu tanısın..."* Kəpəz dağı. İnanmırsan?! *"İnanmadı".*

– İnanıram, inanıram. Kəpəz düzəldərsən. Kəpəz nədi ki?! Kəpəz bir təpədi. Elbrus düzəltməyəcəkdin ki...

Vaqifin yadına düşdü ki, bunlar ailəlikcə Firəngiz məktəbi bitirənə qədər yay aylarında Elbrus dağının ətəyinə istirahətə gediblər. Firəngiz Elbrus dağının az qala üstünə də çıxmışdı, deyəsən. Elbrusu tanımalı idi.

"Kəpəz düzgün olmadı. Kəpəz hardan girdi beynimə?!" – Vaqif düşündü.

– Allahdan qorx, qızım... Allahdan... – Vaqif yenə də özünün son pənahına sığındı. Sonra əlacsız halda yorğun-yorğun əsnədi və stəkandakı çaydan bir qurtum aldı, stulunu üzü dənizə çevirdi, əllərini başının dalında daraqladı və gözlərini yumdu. Guya ki ətrafla əlaqəsini kəsdi. Ətrafındakı sakitlik onu əngin dəniz dibi kimi udmadımı, uddu. Sinəsini yalayıb sərin meh onun içinə yayıldı.

Heç kəs gərək elə bilməsin ki, ətrafla əlaqəsini kəsirsə, ətraf bunu sükutla qarşılayacaq. Elə deyil. Ətraf da bu zaman sənlə əlaqəsini kəsir. Bəlkə hələ sənə düşmən də kəsilir. Sən tənha qalırsan, "ətraf" deyilən reallıqdan kənara atılırsan. Sən olduğun kimi görünmürsən. Sən büzüşmüş, balacalaşmış bir varlığa dönürsən. Vaqif indi qıraqdan baxana bu cür balaca, kimsəsiz, az qala zavallı kimi görünürdü. Dünyaların arasında qalmaq, birindən o birinə keçmək elə də asan deyilmiş. Amma orası da var ki, bir tərəfdən balaca görünürsənsə, o biri tərəfdən böyük görünürsən.

Bərəlmiş qayalıq gözü onu sonsuz maraqla izləməkdə idi.

Firəngiz onun bu halına nəzər yetirdikcə ürəyi sızladı. Vaqifin ətrafla əlaqəsinin olub-olmaması, azalıb-azalmaması Firəngizi qətiyyən maraqlandırmırdı. Firəngiz üçün bu halın başqa səbəbi var idi. *"Yorulub. İşləməyi də adam kimi deyil. Nə yaşamağı adam kimidi, nə işləməyi, nə də sevməyi... Gözləri çuxura düşüb, ovurdları dərinləşib, hülqumu çıxıb, özü də necə... Saçlarına bax, hələ. Pırpız. Belə saç darayarlar?! Bəs sənin nazını kim çəkəcək?! Niyə mən yox? Niyə? Hələ bu yorğunçuluq... Ay Allah, bunun üzündə nə qədər yorğunçuluq yığılıb qalıb... Üzünün, alnının qırışlarının dərinində, harasında istəyirsən orasında eləcə yorğunçuluqdu gizlənib durub. Üzünün hansı yerindən öpürsən, öp, elə bil, yorğun, əzilib-büzüşmüş bir alma qabığını öpürsən. Elə bil, bunun altmış yaşı var. Sənə qurban olaram. Sənsiz bir günüm olmasın. Sən olmasan mən ölləm. Mən olmasam sən də ölərsən, bilirəm. Mən olmasam, sən də öl. Yaşama. Həqiqətən, sənsiz mən ölləm. Yox, yox… sən mənsiz neynərsən, elə, amma ölmə, zarafat elədim, incimə. Səni mən heç kimə, heç kimə vermərəm. Yadında saxla. Bunu yaxşı-yaxşı qulağından sırğa elə, as..."*

Vaqifi mürgü aparmışdı. Elə bil, hansısa rəsmi iclasda idi. Bu iclaslardakı belə yuxulara alışmışdı, onlara "beşdəqiqəlik" deyirdi. Kitab buna

necə deyirdi? "Küçücük ölüm"! Elə bil harasa ("dibsiz quyuya") yuvarlanırdın. Ayılanda da, elə bilirdin, beş gün yatmısan. Bütün yorğunluğun canından çıxırdı. İndi də Vaqif belə hallara alışdığı üçün düz beş dəqiqədən sonra gözlərini açanda bir onu gördü ki, Firəngiz stulunu gətirib qoyub onun stulunun üzbəüzünə, dənizlə onun arasında yer eləyib özünə, gözlərini də qırpmadan diqqətlə dikib onun üzünə, maddım-maddım onu seyr eləməyindədi. Vaqif üzünə dikilmiş bu iri, xambaxan gözlərdən savayı heç nə görmürdü. Bir an əvvəlki ənginlik, genişlik, bir sözlə desək, bir az əvvəlki susqun, başqa rəngli dünya itmişdi. Firəngiz par-par parıldayan qara sifətini az qala onun üzünə dayayıb elə diqqətlə baxırdı ki, elə bil, inanmırdı, bu odu, ya o deyil. Qız tərpənməyə də qorxurdu ki, birdən Vaqifin bu quş ("küçücük ölüm"ü)yuxusu yarımçıq kəsilər. Vaqif gözlərini açan kimi diksindi:

– Bismillah, bismillah, bu nədi, ay qız??? Bir də belə eləmə. Adam qorxudan infarkt olar. Ovsunlayırdın məni?!

…onlar ayağa qalxıb çıxışa doğru irəlilədilər. Arxalarınca baxan bərəlmiş göz yenə onları izləməkdə idi.

…"Şəbəkə"dən yoxuşla üzü yuxarı qalxan zaman maşının qabaq şüşəsinə bu dəfə Qüdrət müəllimin əksi gəlib həkk olundu. Qüdrət olmağına Qüdrət idi, amma burnunun altında sağ tərəfdəki bığı yox idi. Bu onu multfilm qəhrəmanlarına bənzədirdi. Hansına – Vaqifin yadına düşmədi. *"Bu adam, görəsən, bizi qəzetdə biabır eləyə bildi, ya yox?!"* Qüdrətin qabaq şüşədəki əksinə diqqətlə baxıb birdən onu da fərq elədi ki, bu şəkil yenə də Vaqifin özünə oxşadı. Eynən dənizdəki kimi. *"Allah, bir gör, bu adam mənə necə də oxşayır. Bircə bığının o biri yarısı da olmasaydı..."*

– Qızım, hara sürüm? – Vaqif şuxluqla soruşdu. – Evə, yoxsa... *"Evə, evə! Noolar, evə de, yaxşı qız... Yuxum gözümdən tökülür. Bu günlük mənim payıma bəsdir"*.

O, risk edib maşının üzünü qızdan bir cavab almadan qətiyyətlə şəhərə tərəf döndərdi.

"Deməli, evə gedirik... Noolar, sən görərsən, cənab professor-müəllim. Sən mənə yalvaranda deyərəm sənə. Heç mənim cavabımı da gözləmədi ki... Aslan düz

deyir, niyabəddi bu, niyabəd...” Aslanın zarafatla dediyi bu sözü Firəngiz indi çox böyük etirazla yada saldı. *“O niyə belə dedi?! Ayıb deyil ona?! “Niyabəd” nə sözdü, görəsən?!”*

Vaqifin ondan cavab gözləmədən şəhərə tərəf maşını sürməsi Firəngizi əməlli-başlı dilxor eləsə də, bunu üzə vurmaq istəmədi. Bunun guya ürəyindən olduğunu bildirmək istədi. Belə alındı:

– Bir az tez sür. Evdə işim var. – Firəngizin artıq heç cür gizlədə bilmədiyi narazılıq, hətta hikkə dolu soyuq səsi çox uzaqdan gəldi və o, əsəbi halda qolundakı saata baxdı. *“Mən niyə bu cür əsəbiləşirəm?! Yəqin işdə yorulub. Bəlkə də hirsləndiriblər... Yaxşı, əgər bu adam həqiqətən yorulubsa, ya da işdə əsəbiləşibsə, o zaman mənim günahım nədir?!”*

Maşın yenicə salınmış asfaltın üstüylə şəhərə doğru şütüyürdü. Təzə “Volqa”nın təkərlərinin asfaltla təmasından qopanaraq ruhu dincəldən ləzzətli qıjıltı səsini dinləyə-dinləyə onlar kirimişcə susub oturmuşdular.

– Noolub, incimisən məndən? – Birdən Firəngiz nəvazişlə soruşdu. Əlini uzadıb onun saçlarını qarışdırmaq istədi. Vaqif başını qaçırdı:

– Mən? Yox. Səndən incimək olar? Baha başa gələr. Mən öz qədrimi bilirəm. Neynirsən, saçımla nə işin var? Maşın sürürəm axı...

– Bu saçını bir dəfə adam kimi daraya bilərsən?!

– Yox, mənim belə xoşuma gəlir. Nə istəyirsən sən mənim saçımdan?!

Firəngiz cavab vermədən maşının qapısı tərəfə çəkildi, oradaca büzüşüb qaldı. Yenə beyninə dadsız fikirlər girdi. *“Deməli, belə oldu. Yox, bunun kimisə peyda olub. Mən mən olmaram bunu dəqiqliyilə öyrənməsəm. Sən görərsən, professor Vaqif müəllim”.*

Maşın yenə sükut rejimində yol getməyə başladı.

“Yaxşı, tutalım ki, mən hər şeyi başa düşdüm. Bunun qəfildən belə bir namünasib hərəkətini də, mənimlə oyununu da. Amma nə isə baş verməyinə baş verib. Bunsuz deyil. Mən bunu bilmirəm. Mən bunu... hiss edirəm. Məni aldada bilməz. Kitabın içinə düşmək onun üçün elə də təhlükəli olmamalı idi. Yəqin istəməyəcək. Duyuq düşdümü, görəsən?! Yox, belə olsaydı, başqa bir oyun oynardı. Bu, olsa-olsa ancaq təsadüf ola bilər. Bugünkü oyunun mənası duyuq düşmək deyil. Laokoon... Laokoon... Yaxşı, bəs bu Laokoon kimdi və hardan gəlib girib beynimə?! Səhərin açıl-

mağı ilə gəlib. Səhər tezdən beyin təmiz olur. Laokoon! Köhnə yunan nağıllarının qoxusu gəldi bu addan. Troya ilə bağlıdı. Troya atı ilə. Aha, yadıma düşdü. Bu adam atın şəhərə gətirilməsinə qarşı çıxmışdı və cavabını allahlar tərəfindən aldı. Onun cəzası çox müdhiş, çox ağır oldu. Özü üçün də, oğlanları üçün də.

Belə olur. Tanış olmayan yad "sonsuz lüğət" bu cür gözlənilmədən, qəfildən gəlir girir beyninə, daxil olur sənin dünyana. Söz, ya da ad sənin tanış lüğətində boşluğa çevrilir. O boşluğu doldurmaq tələb olunur. Dolduran zaman bu sonsuz lüğət artıq əvvəlki deyil. Onun yeni çərçivələri var. Olmaz! Olmaz belə! İnsanlara etibar, inam gün-gündən azalır. Dələduzlar günü-gündən çoxalır. Xeyriyyə məqsədilə göndərilən dərmanları bilmirsən kimə verəsən?! Bir nəfərə də inam qalmayıb. Cəbhədə döyüşüb torpaq uğrunda can qurban edənlərəmi verəsən, yoxsa, yoxsa... Başqa kimə versən, bazara çıxardıb o saat satırlar. İnam yoxdu bu gün heç kəsə. Yaxşı ki, Allahverdi var. Hamıdan yaxşısı odu. Aparıb Ağdamın özündə Allahverdini tapıb onun özünə təhvil vermək hamısından yaxşı oldu... Arxayın olluq ki, dərman ünvanına çatdı. Allahverdinin dəstəsinin uşaqları hərbi tapşırıqdan gəlib necə yorğun-yorğun yatmışdılar. Necə gözəl idilər, uşaq kimi idilər. Heç deməzdin ki, bunlar bir saat əvvəl döyüşdən gəliblər. Ölüb öldürməkdən qayıdıblar. Pionerlagerdə günorta yatışı. Mışıl-mışıl yatan kim, xoruldayan kim?! Gözlərinin qapağından pudluq daşlar asılıb. Yox, əzizi – mən, dağılmağına dünya həqiqətən, dağılıb. Düzəlməyinə də ümid yoxdur. Kimdi düzəldən?!

Düzəlmirsə, deməli özü də istəmir düzəlməyi. Necəydi o deyişmə?! Bir, iki – daşaltı. Beş, altı – Firəngiz. Yenə də Firəngiz?! Doqquz, on – qapını ört. Yeddi, səkkiz – qırmızı don. Üç, dörd – bizimki…

Mənim aləmimdə Türkiyəyə getməyi bir balaca təxirə salmaq lazımdır. Qoy qurtarsın torpaq uğrunda savaş, bu həngamə sonra görək necə bir görüntü alır. Sabah Həsənağa gözləyir. Sonra Vaqif İbrahimoğlu! Ordan Vaqifin yanına gedirəm. Vaqiflə görüşməm lazımdır. Doqquz, on – qapını ört. Beş, altı – bizimki.

Musa Sərdara qəzetdə çıxan materialı hökmən göndərmək lazımdır. Qoy görsün, onun və Almaniyadakı soydaşlarımızın Azərbaycana göndərdiyi dərmanlar necə çatdırılır əsgərlərə. Şəxsən hər birinə. Görək hələ bu qəzet materialı necə çıxır. Babat intervü olmasa bir adam inanmayacaq. Heç mən özüm inanmazdım. Bu

Allahın bəlası Qüdrət qəzetəçilərə nə dedi, nə demədi?! Uşağa buyur, dalınca yüyür. Beş, altı – qapını ört..."

– Sən hələ çox susassan?! Gəldik çatdıq, ay yoldaş. Professor müəllim, ayıl. Gedirsən bizə?! Sənə zoğallı çay verərdim.

Maşın tanış ensiz küçənin yeganə altımərtəbəli evinin qabağında, öz alışdığı yerində dayandı. Firəngiz bu evdə yaşayırdı. O biri evlərin heç birində Firəngiz yaşamırdı. O biri evlər, elə bil, yox olmuşdular.

"Zoğal söhbəti hələ çox çəkəcək, bu hələ zarafat da edə bilir. Bütün gecəmi zəhərlədi... Nə vecinə..."

– Sağ ol. Gecdi. Evdəkilərə məndən salam de. Ananın üzündən öpərsən. *"Bu da sənin payın".*

– Bax, məndən dəvət eləmək. Gəlməsən, anam üzüləcək... *"Di get. Son sözü yenə də mən dedim... Hələ telefonda səni nə gözləyir, görəssən".*

Firəngiz, öz ənənəvi ampluasında olan kimi, ayrılarkən dar paltarının kip yapışdığı bütün bədəni ilə ona tərəf dartınıb març-març üzündən öpdü, özü də bu dəfə bunu min ilin həsrətliləri kimi etdi, son dəfə edəcəyi kimi etdi, sonra astaca maşından sürüşüb düşdü, qaranlıqda qara kölgəyə dönüb (var idi, yox idi?) payızın narın yağışı ilə islanmış bu simasız havasında əridi.

"Laokoon. Laokoon. Elə bil, nəinki dilimizin, heç bizim dünyamızın adamı deyil. Beş, altı – Firəngiz... Hələ bu Firəngiz hardan çıxdı?! Heç hənanın yeridi?! Yəqin, hər adamın bir Firəngizi olur. Ən azından taleyində. Həyatında olmaya bilər. Əsla! Əsla! Əsla! Sözünə inanılası Firəngiz qaldımı bu həyatda?! Məncə, qalmadı. Sonuncu Firəngiz elə indicə yox oldu".

Maşın sürət yığıb "cinayət yerindən" sürətlə uzaqlaşdı. Hər halda maşına elə gəldi ki, bu "xatalı" yerdən tez sürüşüb aradan çıxmaq lazımdır. Vaqif təəccüblə sükana baxdı: *"mən axı gərək ki, qaza basmadım, niyə bu maşın birdən-birə belə bərk getdi?! Beş, altı, yox, doqquz, on – qapını ört!.. Laokoon, Laokoon!! Bu ad yenə də hardan gəlib girdi beynimə?! Bu adın bizim bu günümüzlə – mənimlə, mənim anam ilə, Zöhrab ilə, Rüxsarə ilə, Qüdrətlə, Firəngizin atası ilə nə əlaqəsi var?! Bu ad nəyə işarə edir?! Mən bu adın nəyə işarə etdiyini necə çözəcəyəm?! İnanmıram, mən bunu çözə bilim!!.."*

Gecə saat on ikinin yarısında Vaqif adətkərdə şəkildə yataq otağına keçdi. Yerinə girib telefonun dəstəyini əlinə aldı və televizorun səsini qısdı. Tanış nömrəni çox tez yığdı. Uzun müddət cavab verən olmadı. Düyməni basıb gözlədi. Cavab zəngi gəlmədi. Beş dəqiqə keçdi. Vaqif yenidən avtomat düyməyə basdı. İkinci zumerdən sonra Firəngizin soyuq "alo" səsi eşidildi.

– Yatmısan? – Vaqif ümidlə soruşdu. Çox istərdi ki, qızın da yuxusu gəlsin. Çünki özünün bərk yuxusu gəlirdi. Bu söhbətlər isə rituala görə azından yarım saat sürməli idi. Bəzən bu yarım saatın iyirmi dəqiqəsi sükuta gedirdi. Gün ərzində baş verənləri nə qədər danışmaq olar?! Onun üçün indi də daha çox susdular.

– Yox...

– Necəsən? Söhbətə həvəsin var?

– Vaqif, gəl belə danışaq. Mənə minnət qoymaq lazım deyil. Yox, sözümü kəsmə, mən bunu, belə deyək, hiss edirəm. Belə… Sən mənə bir də zəng eləmə. Olar?! Belə yaxşıdı. Səninki səndə, mənimki məndə. Uzun-uzun çənə... nəydi ondan... eləməyək.

– Çənə-boğaz...

– Hə... Çənə-boğaz...

– ...

– Eşitdin məni? Sağ ol. Daha bura zəng eləmə, zəhmət olmasa. Zəhmət olmaz ki?! Di, sağ ol. Əlvida.

Bu qəribə və ədalı "əlvida" sözündən sonra telefondan gələn zumer səsləri uzun müddət Vaqifin beynini deşib susmaq bilmədi ki, bilmədi.

"Yəni bu telefondakı qız bir az əvvəlki Firəngiz idi?! İnanmıram. Stanislavskinin sözü olmasın – inanmıram! Yüz faiz o idi, amma yenə inanmıram. Amma gəl məsələyə başqa tərəfdən baxaq. Vaqif, əzizi – mən, istədiyin bu deyilmiydi? Yat, nə qədər yatırsan. Sabah dərs yox, instituta getməmək olar. Birbaşa ofisə. Sonra teatra. Mən buna... bir daha həqqən zəng etməyəcəyəm. Özü istəsə... özü də edər. "Çənə-boğaz"a bax hələ. Bir sözü də adam kimi saxlamır yadında. Beş, altı – bizimki... yox, Firəngiz... Niyə Firəngiz?! yox bir, Qüdrət... Laokoon... Firəngiz..."

...Vaqif, axır ki, yuxuya getdi Firəngiz boğazında bənövşəyi şarf yenə də haman rəngbərəng qəzet kioskunun yanında durub onu gözləyirdi. Maşın heç cür qıza yaxınlaşıb çata bilmirdi. Firəngiz gah şarfı boğazından açıb çıxarır, havada yelləyir, ona işarə verirdi ki, mən burdayam, inan mənə, mənəm, bu mənəm, özü də burdayam, bura sür maşını, gah da qız şarfı ümidsiz halda təzədən boğazına dolayırdı. Vaqif artıq heç cür inana bilmirdi ki, bu qız Firəngizdir. İnanmırdı və bu inamsızlıq elə yuxudaca ona sonsuz əzab-əziyyət verirdi.

Sayrışmanın tərəfləri

Vaqif yazdıqca hiss elədi ki, mətn üzərində işləmək bir başqası üçün əzab, əziyyət ola bilər, amma onun üçün belə deyil. Tanımadığın yol ilə getmək, ayağına batacaq tikandan xəbərsiz, daş-kəsəkdən xəbərsiz… Adətən hamı əzabdan, əziyyətdən danışır. Yaradıcılığın çətin yolundan şikayətlənir. Vaqif üçün isə belə olmadı.

Əzab-əziyyət də olmadı, amma ləzzət də yox idi. Qəribə bir tələskənlik var idi. Anı əldən buraxmaq qorxusu var idi.

– Sən nə üçün yazırsan?! – deyə ondan soruşsaydılar o artıq verəcəyi cavabı bilirdi.

Ədəb-ərkanlı "canımda yığılıb qalmış energiyanı çıxarıram" və yaxud xeyli iddialı "yazmaya bilmirəm, onun üçün yazıram" kimi cavablar maskalanmış hiyləgər aldatmalar idi. Əsl cavab bu idi:

– Bilmirəm.

Qələmi ələ alıb kağız üzərində peyda olan mətnin əyri-üyrü yazıları ilə döyüşdüyü dəqiqələr, saatlar, günlər yadına düşdü. Döyüşdüyü, bəli, məhz döyüşdüyü vaxtlar başdan-başa sevinc olurdu onun üçün. Çünki bütün müəlliflər – bunu Markes deyir – öz mətnləriylə əməlli-başlı döyüşə çıxırlar. Yox, bu dəqiq olmadı, onlar mətnləriylə deyil, öz "sonsuz lüğət-"ləriylə döyüşə çıxırlar. Əvvəllər o heç cür anlaya bilmirdi ki, niyə bir çox tanıdığı, lap elə tanımadığı yazıçılar yazmaq prosesini əzabın, zülmün nəticəsi kimi qiymətləndirir. İndi isə o bunu bilirdi. Artıq əmin idi ki, belə deyil. Bu prosesdən ancaq ləzzət almaq mümkündür. Ləzzət almağı isə bacarmaq lazımdır. Başqaları bundan niyə əziyyət çəkir?! Niyə?! Bu heç kimə məlum deyil. O isə ləzzət alırdı. O isə bir az da ruhlanırdı. Onun isə kefi

durulurdu. Əzabdan, əziyyətdən söhbət gedə bilməzdi. Ləzzət, ancaq ləzzət... Bir qadından aldığın ləzzətdən də böyük ləzzət.

Mətn üzərində işlədiyi zaman gecələr Vaqifin yuxusu əməlli-başlı ərşə çəkilirdi. Bunun da öz gözəlliyi vardı. Gündüzlər beynində paralel informasiya xətti yaranırdı. Bu, xeyli maraqlı bir duyum idi. Kiminlə danışırdı, nə barədə məlumatı fikrindən keçirirdisə, bununla yanaşı, həm də tanış mətnin solğun, "hələlik – solğun" silueti beynindəki bu paralel, ikinci informasiya xəttinə yazılmağına davam edirdi. Gecələr isə onun həmsöhbəti ancaq mətn olurdu. Demək çətin idi – mətn ondan əl çəkmirdi, yoxsa o mətndən. Oğuz əhlindən yazmaq, özü də uydurmadan kənar, məlum dastanın məlum sərhədləri daxilində yazmaq şərəfli bir iş idi. Digər tərəfdən, Şah İsmayıl dövrü öz əsrarəngiz təmtərağı və faciəsi ilə bu mətnə qəribə bir düzən verirdi. Mifologiya və reallıq, ona elə gəlirdi ki, bu şəkildə bir-birilə qovuşur. Bu qovuşmanı həyata keçirmək son dərəcə cazibədar idi. Həm də məsuliyyətli idi.

Bu işi özü öz boynuna götürməmişdi. Bu iş ona etibar olunmuşdu – o buna inanırdı. *"Məncə, mən sualı düzgün qoydum. Hər şey bundan asılıdır. Sualın düzgün qoyuluşundan. Mənə ilkin qata enmək lazım idi. Ənliksiz-kirşansız qata. İlkin qata mən özüm enmədim. Ora məni endirdilər".*

"Ənlik-kirşansız" dediyi qat Vaqifin aləmində ədəbi mahiyyətin elə bir qədim dövrü idi ki, hər şey – bütün deyim və uydurulmuş təfərrüatlar orada cəmlənmişdi. Bu qat bənzətmələrsiz, metaforalarsız, şişirtmələrsiz, bir növ, "tərtəmiz" qat idi. Bu qatda hələ möhtəşəm "kimi" qoşması at oynatmırdı. Kitab belə bir qatın içində ortaya çıxmışdı və onun dərin mahiyyətində təmiz bir sakitlik hökm sürməkdə idi. Amma bu mətnin üst qatlarında "süsləmələr" də yox deyildi. Və əlimizdəki kitabın bütün "süsləmələr"i sonrakı dövrlərin məhsulu idi.

Bu ilkin "süsləmələrsiz" qata daxil olmaq asan məsələ deyildi. Gərək çox şeydən təcrid olasan. Sonrakı "süsləmələr" ədəbiyyatını yaddaşından, ruhundan gərək siləsən. Gərək ondan təmizlənəsən. Bunu silmək mümkün olacaqdımı? Borxes bu məqamda onun dadına çatırdı. "Don Kixotu" təzədən yazmaq istəyən Menar on altıncı əsrə düşmək üçün yaşadığı iyirmin-

ci əsrdən ora "unutqanlıq" lövbərini necə atırdısa, Vaqif də Dədə Qorqud dövrünə yaddaşını itirməklə gedirdi. Dədə Qorqudla onun arasındakı "süsləmələr" ədəbiyyatının ənlik-kirşanlı ordusundan, bu ordunun baş generalı "kimi" qoşmasından silinib ayrılmaq indi onun əsas vəzifəsi idi. Vaqifin qarşısında duran ən çətin sual da bu idi.

Amma Vaqif hər şeydən əvvəl onu bilirdi ki, düzgün iş tutur. O, buradakı qəhrəmanlara inanır. Təkcə Salur Qazana, Beyrəyə, Basata deyil, həm də Şöklü Məliyə, digər kafirlərə, Təpəgözə, Bayburd hasarının məliyinə inanır. Şah İsmayıla, Sultan Səlimə, Xızıra, Lələyə, Vəzirə, Taclı xanıma inanır. O bu mətnə inanır. Hər kəlməsi, işarəsi ona bəlli, tanış olan "sonsuz lüğət"ə inanır. O "sonsuz lüğət"ə ki, onun sıyrıntılarından indi bu mətni quraşdırmaq istəyir.

O, bu "sonsuz lüğət"ə naxələf çıxmayacaqdı. O, bu "sonsuz lüğət"in dediklərini təftiş, yaxud redaktə etməyəcəkdi. Bəlkə bir az, belə deyək, onu genişləndirməyə, onu rəngarəng etməyə çalışacaqdı. Bu lüğətin içindən çıxan sevimli qəhrəmanları pyedestaldan aşağı, hamının yanına düşürməyə cəhd... kifayət qədər təhlükəli ola bilərdi. Özü də bunlar təkcə Bayandur xan, Salur Qazan, Burla xatun olmayacaqdı. Çünki o inanırdı ki, sevimli qəhrəmanlar təkcə gözəl işlərin sahibi deyil. Sevimli qəhrəmanlar həm də Yalançı oğlu, Trabzon məliyi, mətndə özü görünməyən, amma nəfəsi gələn casus, özü də görünən, amansız nəfəsi də gələn Təpəgözdür, Vəzirdir, Xızırdır. Onlar da gözəgörünməz pyedestaldadırlar. Onları da aşağı endirmək, hamının yanına gətirmək lazımdır. O zaman onlar daha dəqiq, daha aydın cizgilərilə görünərlər, görünməyə məhkum olarlar. Elə yerlər var ki, orada tanış "sonsuz lüğət" susur. Danışmır. Danışmaq istəmir. Bəlkə də zor gücünə, bizə bilmək qismətimiz olmayan bir zor gücünə danışmır. Mətnin beləcə susduğu məqamlar onun danışdığı məqamlar qədər dəyərlidir. O, bax, bunu sübut edəcək. O, mətnin və tarixin susduğu nöqtədən o biri tərəfdə – gözlə görünməyən, amma ürəklə hiss edilən tərəfdə nə var, nə yox – bunları açıb ortaya qoyacaq. Göstərməyə çalışacaq. Kitab susduğu yerdə o başlayacaq. Onu anlayacaqlar, yoxsa anlamayacaqlar, onu söyəcəklər, yaxud öyəcəklər, onu ağlasığmaz ittihamlarla suçlayacaqlar, yoxsa qəh-

rəman edəcəklər – bunlar, əlbəttə ki, təfərrüat idi. Və bunların heç biri onu düşündürmürdü. Həm də ki, o artıq mətndə əsas olanı təfərrüatdan ayırmağın sirrini öyrənməyə başlamışdı.

O heç zaman düşünə bilməzdi ki, bu bir-birinə qarışmış mətləblər onu belə bir ağlasığmaz sürətlə öz dünyasına çəkib apara biləcək. Deyilməmişlər, düşünülməmişlər mətn içərisində bir sistem əmələ gətirirdi. Bu sistem, kim nə deyirsə desin, möhkəm və qırılmaz idi. Ona tanış "sonsuz lüğət"in içindən isə bu zaman heç bir kömək gəlmirdi. O, məlum işarələrlə naməlumlar barədə yaza bilmirdi. Gərkdir ki, öncə naməlumların dilini icad edəsən. Yadına düşdü ki, sonsuzluğu da beləcə anlamaqda çətinlik çəkdiyi zamanlar var idi. Belə bir zamanda ona elm dahilərindən olan Herderin belə bir kəlamı kömək eləmişdi: sonsuz çoxluqdan sonsuz çoxluğu çıxsan, yerdə yenə də sonsuz çoxluq qalacaq. Yenə də sonadək alınmamışdı. Hər nə edirdisə, sonsuzluq anlayışı keçilməz səd kimi yenə də qarşısında dururdu. Birdən hansısa sabahların birində – "…ağıllı fikirlər adamın başına adətən sabahlar gələ bilər, çünki məhz bu zaman beyin özünün hələ gün ərzində çirklənməmiş vəziyyətində olur – beyninə belə bir fikir gəldi. O fikir bu idi: heç zaman sonsuz olanı sonlu olan sözlərin köməyilə anlamağa çalışma. Bu, mümkün deyil. Və o, artıq başa düşdü ki, ona tanış olan "sonsuz lüğət" bu işdə, yəni sonsuzluğu anlamaq işində ona köməkçi ola bilməyəcək. Bunun üçün başqa bir "sonsuz lüğət"in içinə girmək lazımdır, ona tanış olmayan, yad sonsuz lüğətin içinə.

Mətnin sxemi əvvəlcə ona çox nazik, az qala gözəgörükməz, amma yenə də görünüb itən, itib görünən, bir növ, sayrışan tərzdə görükməyə başladı. Bu sxem yavaş-yavaş ətə-qana gəldi, nəhayət, özünəinamlı dağ çayı kimi selləməyə dönüb özünü taleyin qucağına atdı. İndi ona məqsədə doğru gedən yolda heç nə və heç kim manea ola bilməzdi. Hətta Firəngiz də. Bircə Laokoon. Tanış olmayan "sonsuz lüğət". Yalnız ondan gözü su içmirdi. Mətni korlamaq üçün nə edərsə, yalnız o edə bilər – ona belə gəlirdi. Bircə Laokoonun da sirrini çözmək, onu da bu romanın canına daxil etmək mümkün olsaydı... Yəni "sonsuz lüğət"ləri bir-birinə qatmaq, onları bir-birinin içində əritmək mümkün olsaydı... Biz Laokoona inan-

saydıq... Bu romanın içində geriyə – Troya müharibəsinə qədər gedə bilib bu şəhərin sadəlövh sakinlərini Laokoona inandırmaq mümkün olsaydı. Hiyləgər Odisseyin taxta atı yandırılsaydı. Dünya tarixi başqa cür inkişaf etsəydi... Bu zaman nələr olardı – düşünmək belə qorxuludur. Bax, bu zaman demək olardı ki, iş, nəhayət, nəticələndi. Sxemin bu xəttinin işarələri hələ kifayət qədər zəif idi, hətta sayrışmanın görümlü tərəfində olsa belə, onlar qaldıqları tarixi keçmişdən muasir gözə güclə gəlib çatırdı. Ona isə bu zorla görünənlərdən o biri tərəfdə baş verənlər – sayrışmanın görünən yox, görünməyən tərəfi – Laokoona inanan Troya lazım idi.

Laokoon... Laokoon...

Vaqif müəllim sabah tezdən ofisdəki kabinetinə girib əlindəki qara diplomatını yazı masasının bir küncündə yerə qoydu. Sonra masanın arxasına keçib yerini rahatladı və vaxt itirmədən *"Laokoon! Yenə də lənətə gəlmiş bu Laokoon..."* masanın böyründəki düyməni basıb katibəsi, indiki halda – "elmi məsləhətçisi" Rüxsarəni kabinetə çağırdı. Ondan əvvəlcə qəhvə istədi və sonra belə bir tapşırıq verdi:

– Mənə hardan tapırsan bu adam haqda məlumatı, özün bilərsən. Yaz bu adı əlindəki dəftərə. Laokoon! Bir də deyirəm. Laokoon...

– Yazdım, müəllim. Narahat olmayın.

– Mən nədən narahat olacam, yaxşı qız?! Sən narahat ol ki, düz yazmasan neyləyəcəksən. Mən sənə on dəfə bu lənətəgəlmiş adı diktovat etməyəcəyəm. Bir də deyirəm. La...o...ko...on. "K"dan sonra iki dənə "o".

– Aydındı. – Qız bir də diqqətlə əlindəki dəftərə baxdı, dodaqaltı səssiz şəkildə, ürəyində bu çətin, ilk dəfə eşitdiyi əcayib adı hələ bir "oxudu" da. – Yazdım. Nə etmək lazımdı? Telefon nömrəsi var bu adamın?

– Nə dedin?! Telefon nömrəsi??? Allah, Allah, mənim günümə bax... Rüxsarə, get hələ bir qəhvəni gətir. Key Balaxanım!!!

Vaqif hərdən elə olurdu, özü də bilmirdi ki, gülsün, ya ağlasın. Bu da haman məqamlardan idi. Ömrə yazılası məqam. Onu unutmayacaqdı.

Rüxsarə başa düşmədi ki, sevimli müəllimini niyə əsəbiləşdirdi. *"Mən nə dedim ki?!"* Qız peşman-peşman özünü bayıra elə hövlnak atdı ki, qəbul otağında avaralanan Qüdrət müəllimlə Nəmidə ikisi də çaşıb qaldılar, amma qapı dalında hələ də səslənişi bitmək bilməyən qəzəbli "key Balaxanım!!!" qışqırtısından belə başa düşdülər ki, Vaqif müəllimin yanına azından bir saat ərzində girmək düzgün deyil.

– Yenə nə oldu bu adama?! Hansı ayağı üstdə durdu yuxudan?! – Qüdrət müəllim narahat halda dodaqaltı deyindi.

– Rüxsarə, sakit ol. Nə dedin ki sən buna?!

Az qala ağlamsına-ağlamsına Rüxsarə kövrəlmiş bir səslə Nəmidəyə başa salmağa çalışdı:

– Vallah, mən bir şey demədim. Qəhvə istədi. – Rüxsarə əlini atıb arxasındakı şkafın açıq dolabından tezəriyən qəhvə qabını götürdü və yenə də o biri dolabdan çəhrayı rəngli qəhvə fincanını alıb quru dəsmalla onu silməyə başladı. Çaydandakı isti suyun qaynamasına az qalırdı. – Heç nə. Mən yazıq. Mənə adam adı yazdırdı. Yəqin ki, zəng eləməliydim ona. Bir də eybəcər bir adı var... Mən yazıq nə dedim ki?! Soruşdum, bu adamın telefonunu tapım, ya neynəyim?

Rüxsarə çaydanı tokdan çıxarıb fincanı su ilə doldurdu, bir çay qaşığı qəhvə götürüb fincana atdı və onu qaşıqla hikkəli-hikkəli, bərk-bərk qarışdırdı. "*Neskafe*"nin bihuşedici qoxusu qəbul otağını başına aldı.

– Sənin bu qəhvəndən olmaz. Ver hələ görüm, kimin adını yazmısan. Bəlkə mən tanıyıram. – Qüdrət müəllim qıza yaxşılıq etməkdən çox adamın adını öyrənmək istədi.

– Yox, siz tanımazsınız. Deyəsən, xaricidi. Qoy hələ bu qəhvəni aparım.

Rüxsarə fincanın nəlbəkisinə düşmüş iki damcı suyu dəsmalla təmiz-təmiz sildi, diqqətlə fincanın o yan-bu yanını gözdən keçirib ayağa qalxdı və kabinetin qapısını taqqıldadıb cavab gözləmədən yenidən kabinetə keçdi. Vaqif müəllim onu görüb gülümsədi. Hirsi bayaqdı, uçub getmişdi.

– Gəl, görüm. Ceyranımdı bu mənim. Ceyransan e sən. Vallah, səndən yoxdu. Telefonunu tapdın o kişinin?!

Vaqif müəllim artıq tamam dəyişmişdi, üzündə və səsində qəzəbdən əsər-əlamət yox idi. Məsələnin məzəli tərəfi ağır gəlmişdi. O, maraq və diqqətlə Rüxsarəyə baxıb gülümsəyirdi.

"Kaş həmişə belə gülümsəyəydi bu. Əvəzi olmazdı", – Rüxsarə düşündü.

Rüxsarəyə elə gəldi ki, Vaqif müəllim şaqqanaq çəkib gülməyini güclə saxlayır. Amma bilmədi ki, o nəyə görə belə eləyir.

– Mən nə dedim ki?! Səhv dedimsə, bağışlayın, müəllim.

– Rüxsarə, ay yaxşı qız, ay key Balaxanım... – Bu dəfə də müəllimin səsində həmişəki tanış və sevimli, qəmli bir nəvaziş vardı. "Key Balaxanım" sözünün özü də təbəssüm içində səsləndi. – Bu Laokoon bədbəxt qədim yunan miflərindən keçən bir addır. Bizim eradan çox-çox əvvəl yaşayıb. Guya ki, yaşayıb. İndi sən bunun telefonunu hardan tapassan, deyə bilərsən?! Birdən yanımızda bir adam olaydı, qonaq, ya da Allah eləməsin, bir xarici... Nə olacaqdıq?!

Rüxsarənin dodağı qaçdı. Sonra o, dodaqlarını bərk-bərk dişlədi. *"Aman, aman, ay aman, mən nə sarsaq söz idi demiş oldum?!"*

– Heç nə. Biabır olacaqdım. Düz dediniz. Key Balaxanımam mən. – Rüxsarənin səmimiyyətinə söz ola bilməzdi.

Rüxsarə ürəyində özünü söydü, səmimi şəkildə naşılığını etiraf etdi. Qəhvəni Vaqif müəllimin stolunun üstünə qoyub tez otaqdan çıxmaq istəyirdi ki, yadına düşdü:

– Nəmidə ilə Qüdrət müəllim burdadılar. Gəlsinlər dünənki intervüyə görə?!

Vaqif müəllim əsas mətləbi yadına saldı:

– Bilmirsən sən, nə təhər oldu bunun dünənki intervüsü?! *"Bu biri key Balaxanım da burdaymış..."*

Rüxsarə ehtiyatlı tərpəndi:

– Yox, bilmirəm. *"Bilsəm də, ağzımı açarammı?"*

– Gəlsinlər. – Vaqif müəllim birdən-birə ciddiləşdi.

Rüxsarə qəbul otağına dönüb "ölüm hökmləri"ni gözləyən Qüdrət müəllimlə Nəmidəyə gizli bir sevinc hissi ilə:

– Girə bilərsiniz içəri, – dedi. *"İndi sizin başınıza görün nə oyun açacaq..."*

İçəri keçməzdən əvvəl Qüdrət müəllim özünəməxsus bir tərzdə gülümsədi "yenə dodaqları getdi qulaqlarına tərəf" və o, Rüxsarəyə dedi:

– Vallah, dəftərin açıq idi. O adı gördük. Laokoon... Mən də tanımadım.

Rüxsarə bilmədi ki, bu kişi onunla məzələnir, ya düzünü deyir. *"Get, get, kabinetdən çıxanda baxarıq halına..."*

Vaqif müəllim kabinetə girənləri bir-bir əvvəlcə yorğun halda gözdən keçirdi, sonra səsinə bilərəkdən biganə bir ton verərək sözünə başladı:

– Hə, üz-gözünüzdən görürəm ki, intervünü yaxşı səviyyədə yola vermisiniz. Necə keçdi?

– Əla! – Qüdrət müəllim keçib oturduğu yerdən öz sevimli "əla" sözünü həvəslə, heç nəyə əsaslanmayan yüksək optimizmlə dilə gətirib intizamlı və şux bir səslə cavab verdi. – Nəmidə desin. Məncə, bütün mühüm istiqamətləri əhatə etdik. Yaxşı alındı. Əla! Qüdrətin səsi pioner şeypurun yalançı pafosu ilə dolu idi.

Nəmidə isə özünü boğub xeyli ciddi oturmuşdu. Hətta Vaqif müəllimə bir an elə gəldi ki, o qaşqabaqlıdır.

– Bəs o zaman sən niyə belə qaşqabaqlısan? – Vaqif müəllim gizli bir şübhə içində Nəmidədən soruşdu.

– Kim, mən?! – Nəmidə az qala qorxdu. Vaqif müəllimin səsi sərt çıxsa da aydın olan o idi ki, bu səsin buzu hələ əriməyib.

– Yox, mən. Qüdrət, bu qıza neyləmisən?! Sözünüz çəp gəlib?

– Xeyr, Vaqif müəllim. Dünən xeyli çalışdıq. Bəlkə yorulub?! Nəmidə, noolub sənə?! – Qüdrət yalançı bir canfəşanlıqla Nəmidəyə tərəf döndü. Elə bil, bütün dünyada buna Nəmidədən yaxın adam yox idi.

– Yorulmamışam. – Nəmidəyə hardansa, kimsə gözlənilməz şəkildə kiçik bir qətiyyət payı göndərdi. Səsi bir az ötkəmləşdi. Eşitmək istəmədiyi sözün qarşısını almaq istədi. Yəni *"mənə bu sözü deyəmməzsiniz, mən sizin üçün key Balaxanım deyiləm"*.

– Pis olmadı, Vaqif müəllim. Özlərinin də xoşuna gəldi. Qüdrət müəllim hər nə işki bizim tərəfdən görülmüşdüsə, bu sonuncu ay ərzində, hamısına toxundu. Xeyriyyə tədbirləri, sönməyən kəvakib, təqaüdlər...

– "Pis olmadı" ilə "əla" arasındakı fərqi bilirsən də sən? – Vaqif Nəmidənin sözünü yumşaq şəkildə kəsdi. Vaqifin ürəyi nə isə xoşagəlməz bir hisslə doldu. – Bu, "əla" deyir, sən deyirsən – "pis olmadı". Dərmanlar barədə danışdı?! Almaniyadan Çələbinin göndərdiyi dərmanları deyirəm.

– Dərmanları deyə bilmərəm. *"Mən heç vaxt yalan danışmamışam"*. Ancaq cəbhə xəttinə getməyinizdən, mədəniyyət işçilərilə əsgərlərimizin görüşlərindən söhbət getdi... Dərmanlar... bəlkə mən arada otaqdan çıxmış-

dım. Telefona şağırdılar. O zaman danışıb?! – Nəmidənin üzü pörtdü və o, başını aşağı dikdi.

Vaqif üzündə sual zəndlə Qüdrətə baxdı. Qüdrət ağzına su alıb heç nə olmamış kimi sakit-sakit oturmuşdu.

– Qüdrət! – Vaqif müəllimin səbr kasası aşırdı. Artıq anlamışdı ki, onun Qüdrətə xüsusi olaraq tapşırdığı mövzunu bu sərsəri ən yaxşı halda belə deyək, yadından çıxarıb.

– O barədə bir söz soruşmadılar, Vaqif müəllim. – Qüdrət bu sözləri gözlərini inadla yana qaçırmış halda elə arxayınçılıqla dedi ki, sanki onlar soruşmasaydılar, məsələ dilə gəlməməli idi.

– Onlar soruşmadılar, soruşmadılar, tutalım ki, onların ağlı yox idi, onlar bunu bilmirdilər, bəs sənə nə gəlmişdi, hörmətli Qüdrət müəllim?! Sən söhbəti sala bilməzdin bu barədə? Bəs mən sənə bu barədə dünən xüsusi olaraq tapşırıq verib getmədim?! Sənə bunun əhəmiyyətini başa saldım, ya salmadım?

Qüdrət müəllimin başı getdi sinəsinə, nə isə mızıldaya-mızıldaya qaldı, başa düşmək olmadı ki, bu adam nə deyir.

– Taqsır əsla səndə deyil. Taqsır bilirsən kimdədi?

– Kimdədi? – Qüdrət bir anlıq sevinən kimi oldu.

Qüdrət bu bir anın içində nəyə görəsə ümid elədi ki, Vaqif müəllim taqsırı onunla söhbətləşən jurnalistdə görəcək, ona görə də qəribə bir ümidlə ona baxıb deyəcəyini təsdiqləməyə hazırlaşdı.

Vaqifin aldadıcı sakit əhvalı birdən-birə kükrəyən çaya döndü. Səsi gur-gur guruldadı:

– Taqsır məndədi!!! Məndədi ki, sənin kimi… sənə inandım. Məndədi ki, mən belə vacib məsələni sənə tapşırdım. Əlbəttə ki, taqsır məndədi. O boyda iş görən adamlara bir kəlmə ilə də olsun təşəkkür etmədik. Sən heç başa düşürsən, neyləmisən?!

Qüdrət müəllim məktəbdə sinif otağının pəncərəsini sındırmış və məktəb direktoru tərəfindən suç üstündə yaxalanmış, amma etdiyini boynuna almayan tərs uşaqlar kimi pörtüb-qızarmışdı. Öldürsən də belə uşaqlar günahlarını boyunlarına almırlar. Bir kəlmə dinib danışmırlar. Gözləri

də elə hey yana baxır. Vaqifə elə gəldi ki, pörtsə də, qızarsa da, Qüdrət müəllim daxilində bəlkə də bu saat tamam başqa bir şey barədə düşünür. Uşaqların məktəbi – ola bilər. Özünə təzə qış paltosu – ola bilər. Arvadından nəyə görəsə üzr istəmək – ola bilər. Qüdrətdən kənarda bu saat nə baş verirdisə Qüdrətə bunun heç bir dəxli yox idi.

"Bu belə gönüqalındısa, mənə nə olub, hirslənirəm, özümdən çıxıram?! Özünü ələ al, Vaqif. Allah bilir, təzyiqin qalxdı kəlləçarxa... Görəsən, bilə-bilə bu belə edir?!"

– Nə edirsiz, necə edirsiz, özünüz bilərsiz. – Vaqif bu dəfə artıq özünü zor-güc ələ alıb çox sakit bir tərzdə sözünə davam etdi. – Gedirsiz, qəzetçiləri tapırsız, intervünü saxlayırsız. Mən mətnə baxmamış bir sətir də getmir. Anladız?? – Sonra cavab gözləmədən Vaqif üzünü Nəmidəyə tutdu. – Sənə də iş tapşırdıq, Nəmidə. Yaxşı yarıtdın. Sağ ol.

Kabinetdən çıxandan sonra Qüdrət müəllim hələ də Nəmidəyə sübut eləmək istəyirdi ki, onun bu işdə bircə qram da günahı yoxdur.

– Sən özün gördün axı, Nəmidə, onlar mənə bu dərmanlarla bağlı heç bir sual vermədilər. – Qüdrət Nəmidəni "köməyə" çağırdı. Mən, hətta onlara diktofonu saxlayıb dərmanlardan söhbət elədim. İstəsəydilər, buna aid sual verərdilər, istəmədilər. Mən nə edə bilərdim?! İşə düşmədik?!

Nəmidənin başı ağrımağa başlayırdı. Vəziyyətin namünasibliyi ona yaxşı agah idi. *"Bu adam, yəni doğrudan da, heç nə başa düşmür, ya özünü vurub anlamazlığa?! Məndə, deyir, günah yoxdu. Əsl məndə yoxdu günah. Mənə Vaqif müəllim özü bu dərmanlarla bağlı bir göstəriş verməmişdi..."*

– Yaxşısı budu, Qüdrət müəllim, siz təcili redaksiyaya zəng edin, onlar materialı saxlasınlar. Həqiqətən, biz gərək nəyin bahasına olsaydı da, dərmanları göndərənlərə təşəkkür edə idik...

Qüdrət dodaqları arasında nə isə mızıldayıb tez-tələsik otağına keçdi. Nəmidəyə elə gəldi ki, bugünkü qanqaraçılıq Qüdrət müəllimə zərrə qədər də təsir etməyib və indi əgər o harasa, kiməsə zəng edirsə, bu, onun ya evidi, ya da dostlarından biridir. Həm də o bunu sevimli opera ariyalarından birini dodaqaltı mızıldaya-mızıldaya edir.

Nəhayət ki, Ruxsarə ona Laokoon barədə mükəmməl bir material gətirdi. Qız son günahını yumaq üçün əməlli-başlı canfəşanlıq etmişdi. Saytı sayta, materialı materiala vurmuşdu – qəzetlər, kitablar, elmi məc-muələr... Doğrudan da, Vaqif müəllim səhv etmirdi. Laokoona qədim yunan mifologiyasının tanınmış simalarından biri olan Sofokl hətta faciə həsr etmişdi. Ancaq bu faciə günümüzə qədər gəlib yetişməmişdi. Maraqlı şəxsiyyət idi. Troyadakı Apollon məbədinin kahini idi. Yəni, Apollon məbədində həm xidmətçi idi, həm orada yaşayırdı, həm də insanların Apollona ünvanladığı sözləri, sovqatı öz dualarını ilə ölməz Allaha çatdırırdı. İrəlini görə bilirdi. Həmən məşum gün isə o, Troya üçün faydalı bir iş görmək, doğma şəhərini labüd faciədən qurtarmaq istəmişdi. Amma onu anlamayanların qəzəbinə tuş gəlmişdi. Heç kim ona inanmırdı. Laokoon heç kimi dediklərinə inandıra bilmirdi. O, həqiqi bir inamsızlıq mücəssəməsinə dönmüşdü.

Troya atını Laokoon nə illah elədisə, qalaya gətirməsinlər, olmadı. Atı sürütləyə-sürütləyə qalanın içinə saldılar. Laokoon yorulmaq, usanmaq bilmir, nizə ilə yunanların qoyub getdiyi bu taxta hədiyyənin ora-burasına vurur, ətrafındakıları öz sözlərinə, atın Troya üçün bir təhlükə olmasına inandırmaq istəyirdi. Laokoon atın məğrur və amiranə duruşuna bax;ıb onun küt üzünə yunan sərkərdələrinin amansız simasını görürdü. Bu görüntünün ən əsas yerində gözləri hiylə dolu məğlubedilməz Odissey dururdu. Allahlar Laokoonun belə canfəşanlığını görüb onu cəzalandırmaq istədilər. Apollonun, başqa mətndə Afinanın onu öldürmək üçün göndərdiyi heybətli ilanlar onun və oğullarının həyatına son qoymalı idi.

Belə də olur. Bu hadisəni dəhşətli bir səhnə kimi çox sonralar yunan heykəltəraşları əsl dahiyanəliklə mərmər daşın dilinə çevirə bildilər. Laokoonun və oğlanlarının çəkdikləri əzab və məşəqqət anları möhtəşəm bir heykəldə yüksək sənətkarlıqla yonulub əbədi yaşayan sənət əsəri kimi bu gün də insanları ovsunlayır. Nəhəng ilanlar ata Laokoon və onun oğullarının qıvrılıb əzələləri gərilmiş bədənlərinə daraşıblar. Xilas olmaq üçün onlar bütün gücləri ilə çırpınır, amma həm mifoloji rəvayətə görə xilas ola bilmirlər, həm də heykəlin ümumi ruhuna və ahənginə görə bu onlara müyəssər olmur.

Bəs nə üçün Laokoon? Niyə o? Bu ad niyə onun beynindən heç cür çıxmır. Onun "sonsuz lüğət"ində bu ad varmıydı? Yəqin ki, yox idi. Olsa idi, onu axtarmazdı. Tanış lüğət, belə çıxır ki, ayrı-ayrı adamlara görə formalaşırmış. Mən onu tanımıramsa, deməli, o mənim üçün yoxdur. O zaman belə düşünək: bu ad tanış olmayan, yad "sonsuz lüğət"in elementidir. Əksini təsəvvür edək. Yox, əgər mən bu adı tanıyıramsa, deməli, o, mənə tanış olan sonsuz lüğətə məxsusdur. Belə çıxır ki, hər adamın öz tanış "sonsuz lüğət"i mövcuddur?! Öz dünyası kimi?! O zaman onun tanımadığı neçə-neçə adlar başqa "sonsuz lüğət"lərdən gəlib onu nə üçün narahat edir? Nə üçün o, işini-gücünü atıb başqa "sonsuz lüğət"ə girməli, onun içində nə isə axtarmalıdır?! Bu təhlükəli deyilmi?! Hər halda təhlükəsiz də deyil.

Laokoon... Laokoon... Mənim beynimdə sənin qəflətən peyda olmağın heç də səbəbsiz deyil. Mən bunu anlayıram və qəbul edirəm. Bunu yadımızda saxlayaq. Bəlkə sən məni hansısa istiqamətə yönəltmək, nəyəsə inandırmaq istəyirsən?! Bəlkə elə indinin özündə də hansısa faciənin qarşısını almaq istəyirsən?! Amma… axı bu avara, mən elə belə də bilirdim, bir sadə intervünü də adam kimi verə bilmədi. Bəlkə bilə-bilə edir bunu?! Gərək özüm bu işlə məşğul olum. Dünyanın o başından adamlar canları bahasına dərman alıb, özü də nə qədər alıb göndəriblər, əsgərlərə məhəbbətdi bu, burda da tərcüməçiləri, həkimləri yığıb dərmanların instruksiyalarına qədər tərcümə elətdirmişik, adlarını Avropadakı adlarla dəyişmişik, həkimlər bunların hansının hansı mərəzə aid olduqlarını dərmanın elə üstündəcə bir sözlə yazıblar, indi gəl sən bunlara adicə təşəkkür də eləmə. Adamda vicdan, vallah, yaxşı şeydi. Bu adama söz tapşırılası deyil, vəssalam. Yaxşı, Qüdrət, sən indi bundan sonra görərsən... Mən bir də sənə inanarammı?! Laokoon, sən gəl, bundan sonra mənim talismanım ol. Heç kim inanmasa da, mən sənə inanıram. Mən bilirəm, sən mahiyyətin içinə nüfuz edə bilirsən. Başqalarının görə bilmədiyini görə bilirsən. Əşyanın o biri tərəfindəkilər, qaranlıqdan o tərəfdəki işıq sənin üçün gizli deyil. Sənin üçün sirr-ixuda yoxdur. Sirr yoxdur. Sən sirdən azadsan. Bu, ən böyük xoşbəxtlikdir. Amma həm də bunun dəhşətli bədəli var. Sən böyük əzaba sinəni gərdin. Sən qəhrəmansan. İndi görək, sən həm də səxavətlisənmi?! Mənə lazım

gələrsə, kömək əlini uzadarsanmı?! Nə zaman ürəyimdə səni çağırsam, mənə düzgün, ədalətli hərəkət eləməyim üçün bir işarə göndər. Laokoon... nə gözəl adın var sənin... Laokoon... Laokoon, sən artıq mənim üçün məhrəm bir varlığa çevrildin. Allah, Allah, bu gün bu qızdan xəbər çıxdı, yoxsa çıxmadı, mənim yadımda deyil, sən nə deyirsən?! Laokoon...

Bu adı öz-özünə pıçıldaya-pıçıldaya Vaqif nə zaman yuxuya getdiyinin fərqində olmadı. Amma yox, birdəfəlik yuxuya getməmiş yadına son düşən o oldu ki, bu gün Firəngiz həqqən ona telefon eləmədi. O da qızı axtarmamışdı. Onların üç illik tanışlıqları zamanı belə bir hadisə olmamışdı. Vaqif, Vaqif, bu nədi, sən kinli imişsən ki!.. Xeyr və bir daha xeyr. O, kinli ola bilməz! Heç vaxt! O, dünənkinin "intiqamını" almırdı. Sadəcə, gün ərzində əlinə, ayağına dolaşan işlərdən başı açılmamışdı. Əlbəttə ki, qəzetlə də özü danışmalı oldu, intervünü saxlatdı, elə onun özü ilə günü bu gün qəzetçilər artıq söhbət etdilər. Bütün nigaran məqamların üstündən özü xətt çəkdi, bütün nüanslar öz əksini, nəhayət ki, tapdı. İntervüdə alman və türk dostlar ilə bərabər bakılı dilçilərə və həkimlərə də təşəkkür... əlbəttə ki, qeyd edildi. Qəzetçilər intervünün onun adından getməsinə və şəklinin də yer almasına icazə istədilər və o, buna razı oldu. Bu da Qüdrət müəllimə özözlüyündə əsl cəza kimi alındı. Sonra da Həsənağa ilə, Vaqiflə, Azərlə yemək-içmək... Dodaqlarına yüngül bir təbəssüm qondu. Yəqin, Firəngiz bütün günü gözləyib zəngimi. Əlbəttə ki, "o axşamkı daha zəng eləmə mənə" sözləri cəfəngiyyatdan başqa bir şey deyildi. Ay Allah, niyə bu dünyada bütün sevgilər bir-birinə bu qədər oxşayır?! Bütün təbiət hadisələri bir-birinə oxşayan kimi. Məsələn, gücünü nəzərə almasaq, harda baş verir versin, bütün zəlzələlər kimi... Bütün qar sürüşmələri kimi... Bütün qasırğalar kimi... Qərəz, bütün təbii fəlakətlər kimi. Mən axı... Bir sözlə, gərək belə olmayaydı.

Nə qədər ayıb olsa da, etiraf etmək lazımdır. Firəngizə zəng eləmək, özü də dünənki söhbəti unudub zəng eləmək yadından çıxıb, vəssalam. O isə gərək bunu edəydi. Eybi yox, sabaha qalsın. Görək sabah kim daha tez zəng edəcək?! Kimin əsəbi daha möhkəmdir?! Beş, altı – Firəngiz. Yox, Firəngiz yox, Firəngiz. Yeddi-səkkiz, qapını ört... Yox, yenə də Firəngiz... Laokoon, Laokoon... Sənin bu atın qarnına vurduğun nizələr niyə onun

taxta qarnını deşmədi və niyə sənin troyalıların bu atın qarnındakıları görüb, nəhayət, sənə inanmadılar?!

…həmən məşum axşam hava hələ qaralmamış Laokoon əzgin və yorulmuş bir halda yaşadığı Apollon məbədinə qayıtdı, hücrəsinə çəkilib bir az əvvəl baş verənləri beynində götür-qoy eləməyə çalışdı. *"Yox, bu şəhərdə yaşamağa dəyməz. Bu şəhərin sakinləri başlarını tamamən itiriblər, Apollon onların ağıllarını əllərindən alıb. Burdan getmək lazımdır. Mən belə də edəcəyəm. Oğlanlarımı da götürüb burdan qaçmaq, heç kimin ağlına gəlməyən bir yerə getmək lazımdır".*

Hər axşam oğlanları onun yanına məbədə gələrdilər. Laokoon onlara yemək hazırlayar, onlarla bir yerdə Apollonun şəninə nəğmə söyləyib sonra axşam yeməklərini yeyərdilər. Bir azdan onlar gəlməli idi. Budur, gəldilər.

– Ata, sən niyə adamların qərarına qarşı çıxdın? – Böyük oğlunun ilk sualı bu oldu.

– Ata, sən bilmədin ki, qoca Priamın özü bu atın şəhərə salınması əmrini vermişdir?

Oğlanları bir-birinin sözünü kəsə-kəsə içəri girən kimi atalarını ittiham etməyə başladılar.

Laokoon oğlanlarının qabağına keçi pendiri ilə suda bişmiş paxla qoydu. Amma onların iştahları qaçmışdı. Bəlkə də şəhərdə əllərinə keçəni yemişdilər. Onun üçün də ənənəvi məbəd yeməyinə məhəl qoymadılar.

– Sabah atı şəhərə sürüyüb gətirəcəklər. – Böyük oğlu heç kimin üzünə baxmadan dilləndi.

– Necə, necə? – Laokoon fikirli halda sual etdi. – Siz dəqiq bilirsiz ki, bu əmri Priam vermişdir?

– Bəli, ata, biz bunu dəqiq bilirik. – Böyük oğlu başını aşağı dikib cavab verdi.

Elə bu zaman məbədə arxa qapıdan qara paltarlı iki kişi daxil oldu. Onları heç kim görmədi. Onlar arıq, ucaboylu idilər və bədənləri az qala yerlə sürünürdü. Onlar bir-birilə yavaşdan və fısıldaya-fısıldaya danışırdılar. Məbədə daxil olan kimi…

Vaqif və qırx quldur

Ertəsi gün xeyli ağır keçdi. Gün ərzində başını qaşımağa, necə deyərlər, vaxt tapmadı. İlin axırındakı hesabata hazırlıq, ilsonu yekun müşavirəsi, beynəlxalq xeyriyyə təşkilatları ilə bayramlaşma... Artıq axşam düşmüşdü. Yadına saldı ki, Firəngizdən hələ də səs-səmir yoxdur. Vaqif ofisində oturub kağız-kuğuzunu evə getməzdən əvvəl səliqəyə salırdı. Narahat şəkildə qolundakı saata baxdı. O, həmişə saniyələrin, dəqiqələrin necə ağır-ağır keçməsinə məəttəl qalırdı. Günlər, aylar sürətli idi, saniyələr və dəqiqələr isə ağır-ağır gəlib saatlara dönürdü. Gözünü saata dikib çəkməyəndə, deyirlər ki, bu belə olur. Vaqif, nəhayət, anladı ki, daha doğrusu, fəhmi ona dedi ki, Firəngiz bu gün də ona zəng etməyəcək.

Bu yana Firəngiz öz otağında divana uzanaraq hər iki əli ilə bərk-bərk sinəsinə sıxdığı kitabı oxuyurdu. Daha doğrusu, oxumağa çalışırdı. Bu kitabı ona Vaqif vermişdi. Bu vaxta qədər Lermontovdan və Çingiz Abdullayevdən başqa heç kimi oxumamış Firəngiz indi bu əcaib kitabın əlində avara qalmışdı. Birnəfəsə oxumaq olmurdu – çoxlu tanış olmayan sözlər vardı. Onları Vaqifdən çox zaman soruşmağa da üzü gəlmirdi. Kitabın adı da Kitab idi: "Kitabi-Dədə Qorqud". Elə də qalın kitab deyildi. İçində rəngli şəkillər var idi. Sevib-sevilən gənclər, pəhləvanlar, təpəsində bir gözü olan sikloplar... Bir də bir qoca kişi rəsmi vardı. Əlindəki sazı çalırdı və guya ki, mənalı-mənalı sözləri olan nəğmə oxuyurdu. Bu kitab on iki nağıldan ibarət idi. Bir də bir müqəddiməsi vardı. Firəngiz əvvəlcə vaxt və səbr edib o müqəddiməni başından axırına qədər oxudu. Nağıllar hissəsini adda-budda vərəqləsə də onların heç birisini hövsələsi çatmamışdı ki, diqqətlə oxusun. "Oxuyuram" deyə-deyə Vaqifin başını aldadırdı.

– Bax, soruşacağam ha... – Vaqif hərdən onu qorxudurdu.

– Hələ tezdi, vaxtı deyil. Vaxtı gələndə mən özüm sənə deyəcəyəm. O zaman soruş nə qədər soruşursan.

Vaqif Firəngizə inanırdı və onu bir dəfə də olsun imtahana çəkməmişdi. Vaqif çox istəyirdi ki, Firəngiz bu kitabı oxusun, hökmən oxusun.

Vaqif inanırdı ki, Firəngiz kitabın ən dərin qatına baş vura biləcək. Adi gözlə görünməyən bir çox mətləblərə diqqət yetirəcək. Nəhayət, Firəngiz qoy anlasın ki, Vaqif hansı işlə məşğul olur. Yoxsa, elə-belə deməklə məsələ bitmir: işim var, yazı yazıram… Firəngiz gözlərilə görməli idi bu işin çətinliyini və… müqəddəsliyini. Vaqif hesab edirdi ki, bəli, o, müqəddəs bir işlə məşğul olur. Əlçatmaz, müqəddəs, vacib bir işlə. Firəngiz bunu anlamalıdır. Vaqifin nəyi sevdiyini Firəngiz də sevməlidir. Məhəbbət başqa cür olmur. Ancaq sənin sevdiklərini sevən adamı sən özün sevə bilərsən. Sənin sevdiklərini sevməyəni sən sevə bilməzsən. Bu kitabı isə Vaqif həqqən sevirdi. Çünki orada deyilənlər, yazılanlar ənlik-kirşandan əvvəlki zamana aid idi. Bütün uydurmalardan əvvəlki idi. Uydurmasız, yalansız həyat… Orada hamı bir-birinə inanırdı. Orada, hətta Yalançı oğlu Yalançıya da inanırlar. Şöklü Məliyə də inanırlar. Təpəgözə də inanırlar. Orada tanısaydılar Laokoona da inanardılar. Sadəlövh idilərmi?! Yox, daha çox, sadədil idilər. Vaqifə maraqlı idi. O, bunu çox bilmək istəyirdi: Firəngiz bu kitabı anlayacaqmı?! Sevəcəkmi o ənlik-kirşansız sadədil qəhrəmanları?! Düzgünlükdən başqa bir sözləri, işləri olmayan insanları?! Amma görəsən Firəngiz üçün bu Kitabın elə yerlərinin üstündən elə pərdələr götürmək lazım gələcəkdimi bu qəhrəmanlar onun üçün daha yaxın, daha məhrəm olsunlar?! Buna ehtiyac var idimi?! Hərdən Vaqifə elə gəlirdi ki, buna ehtiyac hökmən var. Kitabın yox, Firəngizin romanını yazmaq lazımdır. O Firəngizin ki, onun sevdiklərini sevməyə özündə cəsarət və qüdrət tapa bilsin. Vaqifin Firəngizdən bunu eşitməyə ehtiyacı vardı: "sənin sevdiklərini mən də sevdim. Mənim çiyinlərimdə pudluq daşlar var idi. İndi yoxdular. Onlar hara yox oldular?! Mən çəkisizəm. Mən azadam. Mənə elə gəlir ki, uçmaq istəsəm, uça bilərəm. Sən də mənimlə uça bilərsənmi?!"

Vaqif çox istərdi ki, bu məqamda ona *"uçaram, elə uçaram sənlə..."* cavabını versin, amma bu sözlərə hardansa gəlib bir "amma" sözü də

hökmən özünü calayırdı: *"uçardım, elə uçardım səninlə, amma... amma bu dünyada mənim ayaqlarımdan sallanıb qalmış və məni göylərə buraxmayan pudluq daşlar var. Qüdrət müəllim var, Rüxsarə var, Sitarə var, Nəmidə var, sən məni bağışla, Firəngiz var. Anam Nisə arvad var. Qardaşım Zöhrab var. Mən səninlə uça bilmənəm. Onlar qoymaz. Ona görə yox ki, onlar mənim xoşbəxtliyimi, azadlığımı istəmirlər. Ona görə ki, onlara elə gəlir, belə yaxşıdır. Yer üstündə yerimək, özü də yıxılmadan yerimək uçmaqdan daha yaxşıdır. Ona görə də mən səninlə bu dünyada, yer üzündə xoşbəxt ola bilərəm, amma uça bilmənəm... bağışla, bağışla məni... Sən mənim taleyimdə varsan, yoxsan, mən bilmirəm. Sənin sevdiklərini tanıyandan, biləndən sonra bu mənə aydın olacaq. Həyatımda isə sən varsan. Bunu danmaq imkansız. Səni sevirəm. Səni çox sevirəm. Amma uça biləcəyim qədərmi sevirəm – bunuda bilmirəm..."*

...Firəngiz gözlərini "Kitab"dakı Müqəddimədən sonrakı səhifəyə – ilk nağılın birinci səhifəsinə dikmişdi. Qalın və vahiməli bir meşənin qarşısında balaca bir uşaq necə qorxa-qorxa büzüşüb qalarsa "özü də axşamın düşdüyü vaxt", Firəngiz də eləcə bu birinci nağılın birinci səhifəsinin qarşısında ürəyi həyəcandan şiddətlə vura-vura durub gözləyirdi. *"Mən qorxuram. Kitabı oxumağa başlaya bilmirəm. Elə bil, sən məni bir kapsulun içinə salıb kosmosa, yox, kosmos yaxşıdı, gedər-gəlməzə göndərirsən. Mən orada neyləyəcəyəm?! Mən axı orada heç kəsi, heç nəyi tanımıram. Ordakılar məni qəbul edərlərmi?! Onlar artıq kimə sevilmək olar sualının cavabını özləri verir. Vaqif bir dəfə Mona Liza ilə bağlı anekdotu necə danışmışdı?! Mona Lizaya əsrlər boyu o qədər adamlar vurulublar ki, o artıq özü seçir ki, kim onu sevsin, bəyənsin, kim isə sevə bilməsin, bəyənməsin. Sənin sevdiklərin mənə o səlahiyyəti verəcəklərmi – onları sevmək səlahiyyətini?! Onlar istəməsələr, mən axı onları necə sevə bilərəm?! Hər şey axı bununla başlayır?! Allah, niyə bu dünyada iki, hətta yanaşı sevgi bir-birinə oxşamır?! Kim deyir ki, oxşayır? Yox oxşamır. Niyə?! Biz niyə bu qədər acizik, ilahi?!"*

Firəngiz gözləri az qala yumula-yumula birinci nağılı necə bitirdiyini və necə yuxuya getdiyini özü də bilmədi. Anası Əsmər xanım qızının işığı yanan yataq otağına girəndə alışmadığı qəribə mənzərə ilə qarşılaşdı. Firəngiz bir əli başının altında, o biri əli isə bir kitabın açıq səhifəsində, üstüaçıq yuxuya getmişdi, hətta anasının onu necə çağırdığını da eşitmədi,

üstünə atılan qalın adyal da onu yuxudan oyandırmadı. Əsmər xanım divardakı saata baxdı. On ikiyə iyirmi beş dəqiqə işləyirdi. Qadın astaca əyilib çarpayının yanında sahibsiz pişik kimi büzüşüb qalmış telefonu götürdü və eləcə asta-asta yataq otağından çıxdı.

Firəngiz, həqiqətən də, sanki Vaqif tərəfindən göndərildiyi kosmosa düşmüşdü və tamam başqa ölçülü koordinatlarda mövcud idi. O, qəribə bir yuxu görürdü. Yuxuda Vaqifi qırx quldur tutub əllərini arxasından bağlamış və harasa aparırdılar. Onunla bir yerdə bir qoca kişinin də əllərini bağlamışdılar və onu da atın önünə salmışdılar. Firəngiz özü də öz yuxusunun içində idi. O bu yuxuya həm özü maraqla baxırdı, həm də baxdıqca qorxurdu. Xüsusilə, bu namərd adamlar öz aralarında uzun-uzadı onun başa düşmədiyi bir dildə və tərzdə nə isə danışdıqdan sonra araya alıb Vaqifi qılınclayanda Firəngiz daha çox qorxdu. Bu zaman elə bil, dili açıldı. Yerə yıxılmış Vaqifə ürəyi hövr edə-edə *"Vaqifim, canım mənim, qalx, qalx ayağa... ölmə, ölmə, noolar ölmə.. gözlə, gözlə məni, gəlirəm..."* deyə-deyə qaldı. Səsi gah çıxırdı, gah da boğazında nəysə ilişib qalırdı.

Firəngiz görən yuxunun vaqeələri tez-tez dəyişirdi. Yuxunun bir başqa vaqeəsində Firəngiz yuxuda özünü də gördü. O bu vaqeədə Vaqifin anası idi, oğlunu, yəni, Vaqifi axtara-axtara qalmışdı. Beynindən isə amansız şəkildə bu sözlər keçirdi: *"İşə bax, bu mənim sevgilim deyilmiş, bu mənim oğlum imiş... Ona görə mən bunu belə çox sevirmişəm... İndi sən baxarsan mənim səndən çəkdiklərimin bədəlini necə verəssən... Sən görəcəksən, Vaqif... Gözlə, gözlə məni, gəlirəm"*.

Başqa bir vaqeədə Firəngiz namərdlər tərəfindən yaralanmış Vaqifi, nəhayət, tapıb yarasını öpdükcə öpür, ətrafdakı dağ otlarından qaynadıb məlhəm hazırlayır, onun yarasına sürtürdü. Vaqifin bədənindəki dərin qılınc yarası göz görə-görə qaysaqlanır, bağlanırdı. Vaqif sağalırdı. Amma o namərd quldurlar alçaq, uca dağlar arasıyla hələ də yol gedirdilər. Bu yol qurtarmaq bilirdimi, bilmirdi. Nəhayət, Firəngiz Vaqifi sağaltdı. – Vaqifin yarası elə bir hala gəldi ki, daha qanı axmadı, tamamən birləşdi və tamamən görünməz oldu. Vaqif sağalınca Firəngiz ona belə dedi:

– Balam mənim, oğlum mənim, Vaqifim. O kişi ki var səni yaraladı, o kişi sənin doğmaca atandır. Səni ona şərlədilər, dedilər ki, sənin məndə güya gözün varmış. Gözləri çıxsın. Atan da həqiqəti bilmədən sənə, öz doğmaca oğluna qıydı. O sənə qıydısa, sən ona qıyma. Sənin atan qırx naməd quldurun əlində əsirdir. Get, oğlum, get, sevdiyim, get, atanı düşmən əlindən qurtar. Məni də unut və məni bir daha arama. Bir daha mənə zəng eləmə. Sənin ki səndə, mənimki məndə. Əlvida, əzizim, əlvida. Biz ana-bala imişik, özümüzün də bundan xəbərimiz yox...

– Sən nə danışırsan, Firəngiz. Nağıl quraşdırma özündən. Belə bir iş dünyasında ola bilməz. Mən səni sevirəm. Sən mənim anam ola bilməzsən.

– Yox, sən bilmirsən. Mən buna inanıram ki, mən sənin anan imişəm. Sən də mənim oğlum. Get, atanı düşmən əlindən qurtar.

Yuxunun bu yerində vaqeə yenə də dəyişdi. Firəngiz gördü ki, onlar Vaqiflə "Şəbəkə"də dənizin lap qırağında, bərəlmiş qaya gözünün yanında-dılar, yalın ayaqlarını ləpələr yalayır, onlar isə öz sevimli masalarının arxasında oturub zoğal mürəbbəsi ilə çay içirlər.

Vaqif ağzı yana-yana qaynar çayını rahatca (əslində ağzı yanmışdı, ağzından buğ çıxırdı) və ona baxaraq şübhəli-şübhəli gülümsəyirdi:

– Deməli, sən məni, deyirsən, ölümdən xilas elədin? Məni niyə öldür-mək istəsinlər ki?

– Guya sən məndən xoşlanmısan. Mənimlə... başqa mənada… söhbət eləmisən. – Firəngiz utanıb başını yana çevirdi.

– Noolsun?! Bu ki heç kimə sirr deyil?! "Mən bundan xoşlanmışam" … sözə bax. Yuxuda kəşf elədin bunu?!

– Düzdür, bu, sirr deyil. Sirr olan odur ki, mən mən deyiləm. Mən, əslində, sənin ananam...

– Nəyimsən???

– Anan...

– Allah səni güldürsün.

– Güldürsün. Qoy Allah səni həmişə güldürsün. Amma səni axı qılıncla kəsdilər. Əsas məsələ odur ki, sən sağaldın. Yəni mən səni sağalt-dım. O boyda yarandan əsər-əlamət qalmayıb. Bəlkədə qalıb?! Gözlərini

qaldır, qaldır bu böyründən. Bax, bax yaranın yerinə. Görürsən bu şırımı?! Vaqif gözlərini qaldırıb Firəngizin göstərdiyi yerə baxdı. Bitişmiş, amma izi qalmaş bir yara gördü.

– Bunu deyirsən? Bunun bir başqa səbəbi var. Hə…Demək, sən mənim anamsan...

– Hə də, burada təəccüblü nə var ki?! – Firəngizin dodaqları büzüldü.

– Heç nə. O zaman qalx gedək.

– Hara??? – Firəngizin dəhşətdən gözləri dörd olmadımı, oldu, səsinin içinə faciə dolu bir titrəyiş doldu. *"Bunun məni bağa aparmaq istəyi olmasın?!"* – Yox, qurbanın olum yox. Heç hara getməyək.

– Dur, qalx dedim sənə. Səni evə aparmalıyam. Sənin gecənin bu aləmi burda nə işin var, ana? – Vaqif sarsılmışdı, amma Firəngizə elə gəldi ki, bir o qədər də yox. Deyəsən, Vaqif məsələnin ağırlığını axıracan başa düşmürdü.

Maşın "Şəbəkə" dikdirini qalxıb şəhərə tərəf yol alanda yalnız bu zaman Firəngizin cadar olmuş ürəyinə rahatlıq yağışının damcıları çiləndi. Vaqif ondan heç nə soruşmadan maşını şəhərə tərəf sürdü. "Qorxulu" bağ yolu arxada qalmış, Firəngiz asudə nəfəs almışdı. *"Evə, əlbəttə, evə, daha hara ola bilər ki?!"* Firəngiz bağa gedə biləcəklərini, özlərinin o bağda tək və tənha qalacaqlarını düşünəndə ürəyi qorxudan az qaldı, dayansın.

Maşın dikdiri qalxıb bir qədər irəliləyəndən sonra Firəngiz özünü də, Vaqifi də daha maşında deyil, qara, nəhəng atların belində gördü. Atlar dəli atlar idi, ağızlarından buğ çıxara-çıxara, bütün əzələlərini qorxulu bir qüvvə kimi az qala gözünə soxaraq var güclərilə çapırdılar.

– Canım oğlum, Buğacım! Bircə tez yetişə idik. Bu namərd qırx quldur atana bir zərər verməyə idilər. – Firəngiz üzünü Vaqif tərəfə çevirib bu sözləri ona qışqırdı. Bu zaman hardansa uça-uça gəlib bayaqdan Firəngizin boynuna dolanmış bənövşəyi şarf qızın boynundan açılıb havaya uçdu və sürətlə arxada qaldı.

Vaqif atın üstündə dimdik oturmuşdu və Firəngizə elə məhəbbətlə baxırdı ki, qızın az qalırdı ürəyi sinəsindən sıçrayıb çıxsın. *"Mən nə edim ki, bu məni bu cür sevməkdən əl çəksin, mən nə edim?! Ay Allah, bizim bir-birimizi*

sevməyimiz də adam kimi deyil… Mən buna necə sübut edim ki, mən bunun anasıyam?! İnanmır, görürəm ki, inanmır mənə".

Firəngiz başını döndərib təzədən yola baxanda bir də onu gördü ki, irəlidə bənövşə rəngində bir zolaq var. Bu zolaq havada fırlanır, fırlanır və yaxınlaşdıqca dönüb şarf olurdu. *"Bu ki mənim sevimli şarfımdır. Vaqifin bağışladığı şarfdır bu".* Bənövşəyi şarf necə olmuşdusa Firəngizin boynundan açılıb arxaya uçandan sonra indi də uça-uça onların qarşısına keçmişdi, elə bil, nəyə görəsə özünü naza qoyur, havadaca əzilib-büzülürdü. Firəngizə elə gəldi ki, bu şarf sanki onların yolunu finiş lenti kimi kəsmək istəyir.

…atlar, dəli atlar isə var güclərilə çapır, çapır, amma nə illah edirdilərsə, bu bənövşəyi finişə heç cür çata bilmirdilər.

Zoğal mürəbbəsi

Firəngiz səhər yuxudan ayılıb yerindən durmaq istəyəndə bunu edə bilmədi. Heyi yox idi. Başı da, bütün bədəni də bərk ağrıyırdı. Güclə də olsa, öskürüb qupquru qurumuş boğazını arıtladı, ah-zarla mətbəxdən anasını səslədi:

– Ay, vay, ay Əsmər xanım, hardasan?! Yerimdən qalxa bilmirəm. Tez ol. Gəl. Mən öldüm axı...

Əsmər xanım mətbəxdə olsa da, bir qulağı qızının yataq otağında idi. Tez özünü yetirdi:

– Ölsün səni istəməyənlər, elə niyə deyirsən?! Nolub, haran ağrır? Tut, tut qolumdan, qalx, mənim gözəlim, qalx görüm. Sənin, deyəsən, qızdırman da var. – Əsmər xanım dodaqları ilə qızının alnına toxundu. – Rəngi-rufun da qalmayıb ki sənin. Harda tutdu səni bu virus? Eşitməmisən, şəhərdə virusnı qrip gəzir. Sən, gözəlim, ondan tutmusan yəqin. Gözə gəlmisən.

– Ana, elə bil, məni bütün gecə xub döyüblər. Bütün bədənim ağrıyır. Məni necə edirsən, özün bilərsən, noolar, apar sal qaynar duşun altına. Ana, ana, ay ana...

"Ana" deyib inlədikcə Firəngiz, elə bil, bədənindəki ağrını canından çıxarırdı. Ağrı ilə bu cür inildəməklə "mübarizə" onun köhnə üsulu idi. Anası hər dəfə bu iniltiyə aldanırdı.

– Vay, vay... Nə gündəsən sən, ay bala?! Sən bu hal ilə hələ bir duşun altına girmək istəyirsən? Vallah, doğrudan da, dəlisən. Ölərsən, eşidirsən məni, ölərsən. – Əsmər xanım ürəyində ah-nalə, səsinə nikbinlik verə-verə Firəngizi vanna otağına tərəf apardı.

– Gəl, gəl, əlini, üzünü yu. Mən sənə bir böyük stəkan çay düzəldim, içində də zoğalı, limonu. İçən kimi düzələcəksən. Bütün gecəni də kitab

oxuyarlar?! Ax, gözəlim, gözəlim, bunu oxuyanacan odur hazır filmi var, kasetini alaq, filminə bax, qurtarsın getsin də. Sən niyə belə edirsən, bilmirəm. – Əsmər xanım dodağının altında deyindi.

"Zoğal" sözünü eşidən Firəngizin dodağı qaçdı. Aslanın zoğalı yadına düşdü.

– Hə, mama, düz deyirsən, mənə zoğal lazımdı, özü də barmaq boyda zoğal... Sən mənə çoxlu zoğallı çay içirt. – İndicə az qala təbəssümə qərq olmağa hazır dodaqlar nə oldusa, birdən-birə büzüldü. Firəngiz hıçqırdı.

– Ay Allah, bu nə gündü verirsən bizə?! Allah sən özün baisin evini... – Firəngiz hıçqırığını saxlayıb qəfildən dayandı, hələ də anasına söykənə-söykənə ona necə tərs baxdısa, Əsmər xanım əlüstü sözünü dəyişdi. – Allah baisin evini yıxmasın. Nə deyirəm ki, mən, gözəlim?! Pis bir şey demirəm ki...

Bu yana, Vaqif də yuxudan duranda özünü dincəlmiş kimi hiss eləmədi. Pəncərədən bayıra boylandı. Yağış çisəyirdi. Belə havada nəinki evdən çıxmaq, hətta yataqdan da qalxmaq istəmirsən. Yenidən yatmağı gəldi. *"Bəlkə yıxılım qalım evdə bu gün?! İşə getməyim?! Nə düşbərə-qutab havasıdı... Məliki də çağırardım. Gələrdi, əlli qramla nərd vurardıq..."*

Bu ləzzətli və cazibəli fikirləri tez başından qovdu, yalançı gümrahlıqla eləcə alt tuman-köynəkdə əlini, ayağını ata-ata gedib vanna otağına girdi. Anası mətbəxdə ola-ola hiss elədi ki, Vaqif yuxudan durdu. Çaydanı təzədən qazın üstünə qoydu. O, yeməyə oturana qədər Nisə xalanın düz yarım saat vaxtı var idi. Hələlik isə o biri oğlu Zöhrabla məşğul idi.

– Ay ana, mənim darağımı yenə kim götürüb? – Vanna otağından Vaqifin hirsli səsi ətrafa yayıldı.

– Daraqdı da, kimə lazımdı?! Mənə niyə elə baxırsan? Mən götürməmişəm. Guya ki, dünya dağılıb... – Mətbəxdə çayını içən Zöhrab şəstlə anasının üzünə bozardı. – Harda qoyub ordadı. Yaxşı baxsın.

– Sənin bu sabah dərsin yoxdu, belə rahat-rahat oturmusan?! Niyə qalmısan evdə? Axırıncı ilindi, bala, bu boyda zəhmətini özün öz əlinlə puç eləmə. Adam kimi qurtar bu universiteti... sonra götür başqasının darağını... Eh...

– Aşağı gözə baxsın. Mən getdim.

Zöhrab ildırım sürətilə yox oldu. Nisə xala vanna otağına yaxınlaşıb qapının arxasından:

– Aşağı gözdədi, bala. Oraları təmizləyəndə yadımdan çıxıb mən qoymuşam. Hirslənmə.

– Tapdım. Yaxşı eləmisən gizlətmisən. Yoxsa bu avara yenə bu darağı götürəcəkdi. Bilir, mənim acığım gəlir, yenə götürür. Bu nə cür adamdı?! Yaxşı, ay ana, sən get, mən çıxıram.

Vaqif alt tuman-köynəkdə vanna otağından sivişib çıxdı və tez öz otağına keçdi.

Vaqif mətbəxə girərkən süfrə hazır idi. O, keçib öz yerinə oturdu və hər səhərki kimi südlü aşını yeməyə başladı.

– Bu yenə dərsə gec qaldı? Səsi gəlirdi. Evdədi hələ də?

– Yox, vaxtında gedib. Birinci dərsi yox imiş... Çayını da özü qoymuşdu. Mənə daha bir elə əziyyət vermir. – Nisə xala gülümsədi. *"Mən bunun paxırlarını nə vaxta qədər ört-basdır edəcəyəm?!"*

– Ana, ana, kimdən danışırsan sən? Qonşu Həsənqulunun oğlundan? Pir mənimdi, kəramətin mən bilirəm. Bəs deyil, sən bunu belə əzizləyib durmusan?! Burax onu başlı-başına, özünə çay hazırlamaq nədi, bir stəkan çay tökə bilməz...

– Sən də ağ eləmə. Daha o dərəcədə deyil... Evlənsin, düzələcək.

Vaqif söhbətin hara yön aldığını əlüstü duydu, tələsik axırıncı loxmanı ağzına qoyub uddu, anasını oturduğu yerdəcə qucaqlayıb saçlarından öpdü, qapı ağzına çıxdı. Diplomatını götürdü, yenə də pəncərədən bayıra baxdı. Onun arxasınca gələn anasına dedi:

– Kim evlənsin – bu?! Ondan evlənən çıxmaz. Həmişə məni bəhanə edib duracaq. Mən evlənməyincə bu hərəkət etməyəcəkmiş... Ona de, elə bilsin, mən gedib evlənmişəm. Ona elə belə də de. Mən plaş geyim, geymə-yim? – Vaqif qapı ağzındakı bədənnüma güzgüsündə özünə baxdı. – Yox, gec olar. Ana, mənim plaşımı şifonerdən çıxararsan. Havaya ver. Sabah geyəcəm. Hə, bir də. – Vaqif anasına sarı döndü. – Sən Allah, gör varındısa zoğal mürəbbəsi qoy stolun üstünə. Sən yenə onu gizlədib bir də yayda üzə

çıxarassan. O indi lazımdır. Qış gəlir. Xəstələnməyək. Mənə çayı həmişə onunla ver. Olar?

– Mən nə vaxt mürəbbə gizlətmişəm?! Allah, Allah... Bircə bu qalmışdı... Taparam. Niyə tapmıram?! Baş üstə. – Nisə xala əlini əlinə vurub ağzına tutdu.

– Ana, ana. Demədim ki, inciyəsən. Başın gül qönçələr üstə. Sağ ol. Mən getdim. Özünə yaxşı bax. Çörəksatan podruqava da məndən salam deyərsən. Plaş yaddan çıxmasın.

Vaqif dəri kurtkasını əyninə geyə-geyə evdən çıxdı. Blokun düz qabağında duran göy rəngli "Volqa" artıq yavaş-yavaş güclənən yağışın altında qalıb səbrsizləşirdi. Elə bil, əl-ayaq açmaq, hərəkət eləmək, silkələnib üstündəki yağış damlalarını ətrafa dağıtmaq istəyirdi. Vaqif qabaq qapını açıb özünü içəri verdi. Sonra açarı yerinə salıb maşını dilləndirdi. "Sözəbaxan uşaq" yenə də itaətkarcasına öskürə-öskürə *("Zöhrab bunun qədər də olmadı...")* hərəkətə gəlməyə başladı. Vaqif maşının qabaq şüşə təmizləyicilərini işə saldı. Şüşəyə yapışmış yağış damlaları ətrafa dağıldı. *"Yağı dəyişməyin vaxtıdı. Gərək bu Zöhrab adlı avaraya verəm, aparıb yağını dəyişsin. Sonra da bütün gün maşını gözləyəcəyik".* Vaqif bununla bağlı yaxında baş vermiş əhvəlatı yadına salıb hirslənmək istədi, amma bunun əvəzinə dodaqları qaçdı.

“Fotoqraf adam deyil?!”

Xarici qonaqlar bir azdan gələcəkdilər. Qonaqlar Almaniyada yaşayan tanınmış türk iş adamı, din xadimi Musa Sərdarın rəhbərlik etdiyi cəmiyyətin üzvləri idi, deməli, onun adamları sayıla bilərdi. Musa Sərdarın yaratdığı və neçə illərdir başında durduğu dini-mədəni cəmiyyət Avropa ölkələrinin bir çoxunda öz şöbələri vasitəsilə türk aləminin xeyrinə çalışmaqdaydı. Musa Sərdar bütün Avropa Türkləri arasında xüsusi və böyük hörmət sahibi idi. Cəmiyyətin üzvləri onu milli hərəkatın liderlərindən biri kimi qəbul edirdilər. İndi xarici qonaqlarla bu cəmiyyət və onun Almaniyanın müxtəlif şəhərlərindəki, Avropanın müxtəlif ölkələrindəki şöbələri ilə bir yerdə Füzuli günlərinin keçirilməsi ilə bağlı müştərək layihəni müzakirə edəcəkdilər. Almaniyanın müxtəlif universitetlərində, qurumlarında, camilərdə böyük şairin yaradıcılığına həsr edilmiş bədii, musiqili tədbirlər keçirilməsi nəzərdə tutulurdu. Eyni zamanda, hər tədbirdə Musa Sərdarın fikrincə, böyük şairin yaradıcılığı ilə bağlı elmi mühazirə olmalıydı. Vaqifin dostu Musa Sərdar bəy bu mühazirələri məhz onun deməsini istəyirdi. Sərdar bəy Vaqifin Füzuli ilə bağlı televiziyadakı çıxışlarını eşitmişdi, sonra Vaqifin özü ilə bu barədə söhbətlər etmişdi. Vaqif hələ nə “hə” demişdi, nə də “yox”. İki həftə Almaniyanın müxtəlif şəhərləri, yeni tanışlıqlar, yeni əlaqələr, əlbəttə ki, Vaqifi həyəcanlandırırdı. Öz doğma qurumu ilə qurula biləcək yeni perspektiv onun üçün əlaqələr çox cəlbedici idi. Sərdar bəy hər cür dəstək göstərəcəyini vəd eləmişdi. Onsuz da o özü çox nüfuzlu bir cəmiyyətin yaradıcısı kimi candan sevdiyi Azərbaycana böyük köməkliklər göstərirdi. *“Bu dərmanlar od qiymətinə idi. Gör nə qədər əsgərimizə nə boyda kömək oldu. Sağ olsunlar. Almaniyaya səfərə gələndə isə... Baxaq görək. İki həftə uzun zamandır. Qurumu atıb getmək necə olar, necə olmaz?! Qayıdıb görərəm ki,*

Qüdrətin yaxından iştirakı ilə qurum bir parça əppək olub çıxıb göyün yeddinci qatına..." Vaqif düşünürdü, daşınırdı.

Qonaqlar üçün elə kabinetdə çay süfrəsi düzəldilmişdi. Həsənağanın teatrda masasının gözündən çıxarıb heç bir səbəb olmadan ürək genişliyinə ona bağışladığı xarici konyak şüşəsini Vaqif seyfindən çıxarıb o tərəf-bu tərəfinə baxdı, sonra köksünü ötürüb onu da paxlavaların yanına qoydu. *"Xaricdən gəlirlər. Bunlar onsuz da içən deyillər. Yenə də qoy olsun süfrədə..."*

Rüxsarə və Nəmidə hərəsi bir tərəfdən süfrəyə qiymətverici baxışla son dəfə baxıb otaqdan çıxdılar.

– Rüxsarə! – Vaqif müəllim səsləndi. Rüxsarə tələsik özünü otağa saldı:

– Bəli, Vaqif müəllim.

– Birinci, süfrəyə mürəbbə üçün nəlbəki qoy. Qaşıq da olsun. İkinci. Bunlara nə hədiyyə verəcəkdik? Hardadı hədiyyələr?

– Burdadı. Sizin masanızın altında. Üç paketdir. Hər birinin içində Qurumun kitabı, bir Bakı mənzərəsi, bir də sizin hekayələr kitabınız... Bu da rozetkalar... – Rüxsarə otaqdakı balaca dolabdan çıxardığı mürəbbə üçün nəlbəkiləri stolun üstünə düzə-düzə cavab verdi.

– Yaxşı. Bunlar, dediniz neçə nəfərdilər?

– Üç nəfərdilər, Vaqif müəllim. Bir də bir fotoqrafları var, özləri ilə gətirəcəklər.

– Bəs ona nə verəcəyik?

– Fotoqrafa?

– Fotoqraf adam deyil? Tez eyni bağlamadan onunçün də hazırla. Tez olun.

...qonaqlar pilləkənlə ikinci mərtəbəyə yuxarı qalxanda Şükufə başını içəri salıb sirli bir əda ilə "gəldilər" dedi və Vaqif müəllim bu sözdən sonra otaqdan çıxdı. Qəbul otağında Qüdrət müəllim əlində nə üçünsə papkası hazır durmuşdu. *"Bilir ki, qonaq gəlir, bu dar macalda vaxt tapdı sənəd gətirməyə..."* Vaqif müəllim Qüdrət müəllimə heç bir fikir vermədən dəhlizə çıxdı. Qonaqları kabinetin ağzında qarşıladı. Hamı ilə bir-birilə, səmimiyyətlə görüşdü. Fotoqraf zirək birisi idi, tez əl-ayaq elədi. Dalbadal şəkillər çəkməyə başladı.

Sevilya. "Əlqəzər" qəsri

Belə fərz edirlər və getdikcə buna haqq qazandırırlar ki, *("məncə, bu, Folknerdən sonra, onun "Hay-küy və hiddət" əsəri ilə bağlı dediklərindən sonra baş verdi")* hər hansı romanın yazılışı hansısa təəssüratdan doğur. Bu təəssürat bir obraz ola bilər, bir xatırlama ola bilər, bir işarə, bir impuls ola bilər. Beləliklə, yazarlar böyük-böyük romanların yazılma səbəbini xüsusi bir impulsa bağlayırlar. Böyük bir ağacın yaranışının səbəbi kiçik bir toxum olan kimi hansısa bir obraz da bir böyük romanın yaranmasına təkan verə bilər. *"İndi mən də deyə bilərəm: Mənim yazdığım mətn də belə bir obrazdan yarandı".*

Doğrudan da, bu istiqamətdən nəzər salmağa çalışsaq, Vaqifin də yazdığı mətnin yaranmasına gətirən bir obraz yox deyildi. Bunu yalnız onun özü bilirdi və hələ ki, o heç kimə bu barədə bir kəlmə söz belə deməmişdi. Deyə də bilməzdi. Çünki romanın özü hələ yox idi, deməli onun yaranışı ilə bağlı ola biləcək sual və ya suallar da yox idi. Hələ ki, roman beyində yazılırdı. Amma Vaqif gözəl bilirdi ki, onun yaradıcılıq bətninə bu yük haradan və nə zaman gəlib düşüb. Heç şübhə yox idi ki, hər şey Sevilyada başlamışdı.

Özünə qalsa indi də başa düşə bilmir ki, nə üçün o zaman İspaniyaya getməyə heç bir xüsusi həvəsi yox idi. Səfər o qədər də cəlbedici səfərə oxşamırdı. İspaniya adına təyyarədən-təyyarəyə minib ancaq Sevilyaya gedib üç gün orada qalırsan və yenə də eyni şəkildə əziyyətlə geri, Bakıya qayıdırsan. İdman yarışları, idman yarışları, yenə də idman yarışları. Yol yorğunçuluğundan başqa – heç nə. Bir neçə dəfə təyyarə dəyişirsən və… bu özü yenə də yol yorğunçuluğudu. Səfərdən yaxa qaçırmaq isə heç cür alın-

mırdı. Vacib olan Sevilyadakı idman yarışlarında rəsmi nümayəndə heyətinin tərkibində ölkənin idman və ziyalı elitasını təmsil etmək idi.

"Mən Sevilyanı çox sevdim. Az qala addım-addım hər bucağını bu üç gündə gəzdim, yenə də doymadım. Bəzən idman yarışlarından da qaçdım, şəhərin dar küçələrində yol ölçməkdən yorulmadım. Sevilya böyük bir İçərişəhərə bənzəyir. Burada təəccüblənəsi bir şey yox idi. Amma orası var ki, bu dar küçələr bir anın içində çox məhrəm və doğma ola bilirlər. Bir də görürdün ki, küçənin bir tərəfində kiçik bir restoran qədər olan ərazidə üzbəüz qonşu evlərin başına brezent, ya da başqa parçadan çətir çəkib əməlli-başlı tavan düzəldiblər və bu yer də olub həyət. Günəşin amansız işığını öz üzərinə alan dam-çətir bu yerə qəribə və çox gözəl bir sərinlik, kölgəlik verir. Bu həyət sənin alışdığın həyətdir. Əsl Bakı həyəti. Nədənsə bizimkilərin ağlına gəlməyib küçədə belə bir rahatlıq düzəldələr. Belə səsli-küylü həyətlərin (restoranların) birində oturub yemək sifariş verəsən, sevilyalı ofisiantlar sənə biradamlıq, amma olduqca böyük qabda o qədər yemək gətirələr ki, üç adam onu zorla yeyə, ya yeməyə. İspan qonaqpərvərliyi budur.

Sevilya qədim qəsrlər şəhəridir. Onlardan biri diqqəti xüsusilə cəlb edir. Bu, orta əsrlərin əsl memarlıq möcüzəsi olan məşhur Alqazar qəsridir. Yəni, ərəb formasına salsaq – Əlqəsr. Qədim ərəb sözü özünü burada da gizlində qoruyub saxlaya bilib. Bir az dərinə enib gizlənmiş kimidir, amma o var. Qəsr ərəblərin vaxtında tikilib, o zaman ondan məscid kimi də, qəsr kimi də istifadə ediblər. Bu qəsrin otaqlarını gəzdikcə adamın qəlbini həzin bir nisgil bürüyür. Hər yerdə divarlar boyunca latın hərflərilə nələrsə yazılıb. Yəqin ki, bu yazılar həm də latın dilindədir. Ümumi olaraq belə başa düşmək olur ki, bu yazılar Allaha müraciətdir.

Otaqların birində qəflətən qəribə bir mənzərə ilə qarşılaşdım. Latın dilində yazılmış bir yazının rəngi getmiş və o ağarmışdı. Bu ağartının altından isə gizli-gizli və qorxa-qorxa başqa bir yazı boylanırdı. Bu gizlənmiş yazı ərəb hərflərilə yazılmışdı. Mən o yazıya yaxınlaşıb diqqətlə ona və ətrafındakı başqa rəngi tam getməmiş latın yazılarına nəzər salanda gördüm ki, bunların hamısının altında ərəbcə yazılardır ki, qorxa-qorxa boylanıb qalıblar. Əgər əl ilə, ya da hansısa bir məhlul ilə bu latın hərflərini silsəydilər, hamısının altından gizlindəki ərəb yazısı aşkarlanıb işıq üzünə çıxacaqdı".

Bu görüntü bütün divarlarda az, ya çox dərəcədə özünü göstərməkdə idi. Vaqif düşündü. *"Görəsən bu daha dərində gizlənmiş ərəb yazıları nədən bəhs edirmiş?! Onları ora yazanlar hansı arzularını və kimə bildirirdilər?! Sonra anladı. Onlar da latıncada olan eyni məzmunu öz dillərində Allaha ünvanlayıblar. O dövrün qalib xristianları elə sanıblar ki, bu ərəbcə olan yazıları ağardıb üstündə latınca yazı yazanda Allaha bir hərf qalınlığı qədər daha yaxın olacaqlar. Sadədilliyin ibrətamiz aldanışı... Əgər bu belə idisə, yəni, hər iki yazı eyni mətləblə yüklənib iki eyni yüklü dəvə karvanı kimi göylərdəki vahid allaha doğru yol alırdısa və Allah bu yazıların ikisini də eyni məhəbbətlə gözləyirdisə, əsrlər boyu baş tutan bütün bu qarşıdurmaların, savaşların, din uğrunda ölüb-öldürmələrin nə mənası vardı?!"*

Bir-birinin üstündə özünə yer eləmiş o yazılar Bakıya dönərkən təyyarədə əngin səmaya balaca pəncərədən baxanda da Vaqifin gözlərinin önünə ağ buludlardan libas geyinib gəlib dikildilər. *"Bunlar, elə bil, indi də, qucaqlaşıb durublar..."*

Vaqif Bakıya döndüyü elə həmən axşam bu fikrin həyəcanı ilə evdə yazı masasının arxasına keçib əvvəlcə bir xeyli mətləbə qəti dəxli olmayan cızma-qara ilə məşğul oldu. Sonra yenə də gözlərinin önünə sonsuz səmada qucaqlaşmış bulud yazılar gəlib durdu və bu zaman o, öz romanının birinci cümləsini yazdı. Nə üçün bu cümləni yazdı, necə yazdı, bu zaman nə isə hiss etdimi – xeyr, bu barədə o düşünmürdü. Onun ilham aldığı başqa məqamlar var – kitabdakı gizlindən aşkara, işığa gələn o sirli yazıların arxasında nə dururdu?! – sual bu idi. Bu, bir sayrışma kimi idi. İşıqdan və qaranlıqdan ibarət sayrışma. Bilinəndən və bilinməyəndən, bunların bir-birinin içində əriməsindən ibarət sayrışma. Sayrışmadırsa, iki tərəfi var. Onlar əgər sayrışırdılarsa, sayrışmanın iki tərəfi, yəni, iki üzü olmalıydı. Sayrışmanın işıqlı tərəfindəkilər hamıya məlum və aydın idi, amma sayrışmanın qaranlıq tərəfləri bizə nə deyəcəkdi?! Ümumiyyətlə, onların deməyə sözləri varmıydı?! *"Mən nəyi özüm üçün hədəf götürmüşəm?! Qaranlığımı?!"*

...sayrışmalar – işıqdan qaranlığa, qaranlıqdan işığa keçmələr isə elə sürətlə baş verirdi ki, onlardakı məlumla naməlum bir-birinin içində, birbirilə qaynayıb-qarışmış, qucaqlaşmış halda təsəvvür etməkdən başqa çarə

qalmırdı. Vaqif əmin deyildi ki, işıqla qaranlığı rəngbərəng iplər kimi bir-birindən səbrlə ayıra biləcək.

Bu nəhəng işin sonu barədə düşünmədən Vaqif böyük bir həvəslə romanı yazmağa davam elədi. Birinci cümlədən sonra ikinci, üçüncü cümlə gəldi. Qəribə olan o idi ki, bilavasitə kitaba keçid birdən-birə alınmırdı. Sayrışmanın onun üçün donub qalan qaranlıq tərəfi XII əsrdə baş vermiş Gəncə zəlzələsi oldu. Roman da bu zəlzələyə işarə ilə başladı. Vaqif hələ bilmirdi ki, sonunda o, yenə də Gəncə zəlzələsinə qayıdıb onu bir daha təsvir edəcək. Zəlzələ sanki ikiyə ayrılıb romanda təsvir edilən Dədə Qorqud və Şah İsmayıl dönəmlərini öz içinə alacaq, öz yarığında itirəcəkdi. Bəlkə də bu şəkildə zəlzələ onları öz dərinliyində birləşdirəcəkdi. Üzdəki ayrıntı dərindəki birləşmə olacaqdı.

Boşluqlardakı Beyrək

Vaqifə qəribə gələn və eyni zamanda, ona təskinlik verən o idi ki, kitab mətninin müxtəlif yerlərində özünü göstərən boşluqlar kitabdakı başqa-başqa nağıllara aid olsalar da, yenə də bir-birilə əlaqəli və birləşmiş kimidirlər. Bu boşluğun biri o birini izah edir, o birini aydınlaşdırırdı. Deməli, belə çıxırdı ki, boşluqlar məqsədli boşluqlar deyil, onlar, hətta üslubi səciyyə də daşımırlar. Boşluqlar tarixin dağıdıcı mahiyyətinin qurbanı kimi təzahür edirlər. Onları bərpa etmək, ən azından anlamaq kitabı daha dərindən dərk edə bilməmizə şərait yaradır. Ay səni Beyrək! Sən ki bu qədər qəhrəman idinsə, sən ki, öz bəylərbəyinin yolunda ölümə belə getməyə hazır idinsə, sən ki sevgilinə qovuşmaq üçün on altı il Bayburd əsirliyində gecəli-gündüzlü zillət çəkmisən... yox, bu sonuncu Beyrək biz tanıdığımız deyil. Əgər bu sonuncu Beyrək dəxi biz tanıdığımızdırsa, o zaman "Bayburd bəyinin bikr qızı"nı biz mətnin harasında gizlədək?! Hər Beyrəyi görməyə gəldiyində onu "şən, deyib-gülən gördüyünü" hara yazaq?! Beyrəyin əsirlikdən qaçması məqamında bu genişqəlbli qıza (onu əsirlikdən qaçıran elə haman qızın özü idi) verdiyi sözlə nə edək?! Bir nəfər belə bu barədə yazmayıb. Belə bir Beyrəyin var olması heç kimin diqqətini çəkməyib. Bəlkə kimsə yazacaq, amma bu yazı Vaqifin romanının üzə çıxmasından sonra olacaqdı, kimlərsə ola bilər ki, əvvəl yazdıqlarına sonradan düzəlişlər versinlər. Guya bu barədə əvvəlcədən fikir sahibi olduqlarını ortaya qoysunlar. Amma tarix var, nəyin əvvəl, nəyin sonra ortaya çıxması göz qabağındadır. Bu Beyrəyi bizdən bütün Kitabsevərlər gizlədib. Özü də bilə-bilə gizlətməyib, bilməyə-bilməyə gizlədib. Onlara elə gəlib ki, Beyrək dediyimiz elə belə də olmalıdır. Əgər biz bu gün hər ezamiyyətə, gəzməyə getdiyimiz şəhərdə bir sevgili qoya biliriksə, sevimli əcdadımız niyə hər

əsirliyində bir sevgili qoymasın?! O vaxtın əsirliyi kitabdan göründüyü kimi buna imkan verir. O vaxtın əsirliyi bu günün əsirliyi kimi deyil. O öz əsirliyində kifayət qədər azad idi. Bu biri yandan Banuçiçəyin, görəsən, kafir qızından xəbəri varmıydı?! Toy gecəsi nişanlısını "israrla" tanımaması ilə kafir qızının çox-çox dərində bir əlaqəsi ola bilərdimi?!

Bu boşluqlar dolandan sonra üzə çıxan hiyləgər Beyrək bizim yadımıza kimi salır? Troya qalası önündə yunan qoşunlarının unudulmaz sərkərdələrindən biri Odisseyi, deyilmi?! Faktiki olaraq Odisseyin də ləqəbi vardı. Onu hamı "hiyləgər Odissey" kimi tanıyırdı. Və o öz ləqəbini hərəkətləri ilə doğruldurdu. Yunanlara Troya önünə nəhəng bir at qoyub getmələrini məhz Odissey məsləhət görmüşdü. Hərbi hiylə?! Əlbəttə! Bu atın içinə Odissey özü ilə bərabər onlarla yunan əsgərini dolduracaqdı. Troyaya çəkilib aparılan atın içindəki döyüşçülər öz vaxtlarını – gecənin düşməsini və özlərinin atın qarnı içindən çıxmalarını gözləyəcəkdilər. Əgər kimsə onların hiyləsindən xəbər tutub troyalıları bu "hədiyyə"ni qəbul etməkdən çəkindirməsə, o zaman... Troya batdı.

Odisseyin hiyləsini anlayan adam, sadəcə, Laokoon adlı bir kahin oldu. O duyurdu ki, atın içində kimlərsə gizlənib. Laokoon əlinə aldığı nizə ilə atın taxta qarnını deşib o adamları troyalılara göstərmək istəyirdi. Amma hiyləgərlik saflığa qalib gəldi. Laokoona inanmadılar. Hətta onu cəzalandırmaq istədilər. Allahlar iki nəhəng ilan göndərdi və qəziyyənin sonu məlum...

Beyrək, özü də hiyləgər Beyrək, Odissey (hiyləgər Odissey), Laokoon. Hələ ki, bunları heç nə birləşdirmir. Bunların bir-birilə əlaqəsi barədə söz demək çətindir. Amma artıq dərində, gözlə görünməyən gizlində bunların bir-birilə əlaqəsi üzə çıxacaq, onların bir vahid sxemdən budaqlar kimi boylandıqları görünəcək. Laokoon onların başı üstündə Damokl qılıncı kimi daim qınından çıxmış və sıyrılmış şəkildə duracaq. Beyrək hələ Bayburd qalasına əsir aparılmayana qədər Odisseyi xatırlatmayacaq. Beyrək sonra öz nişanlısı Banuçiçəyin toyuna gəlib yetişdiyi zaman Odisseyləşəcək. Kitabın sonunda isə inanmalı olmadığı Aruz Qocanın hiyləsinə uyaraq, ona inanaraq Aruzun evinə getdiyi zaman Laokoon yada düşəcək. Lakin artıq

gec olacaq. Beyrək Aruz Qoca tərəfindən ağır yaralanacaq və at belində evinə göndəriləcək.

Vaqifi belə bir düşüncə heç cür sakit buraxmırdı. Niyə axı məhz Beyrək Kitabda qətlə yetirilir?! Heç bir başqa Oğuz qəhrəmanı deyil, məhz Beyrək?! Odissey İtakada düşmənlərinə qalib gəldikdən sonra şad-xürrəm yaşayır. Beyrəyin toyundan sonra da sanki hər şey artıq düzəlmişdir. Vaqif düşünürdü: *"Düz deyirlər ki, ömür boyu əzab, məhrumiyyət içində yaşayan adam hər şeyə dözür, bəzən heç xəstələnmir də. Amma elə ki, bu adamın bütün işləri düzəlir, bütün problemləri çözülür, o ağ işıq zolağına çıxır və rahatlığa qovuşur, bax, bu zaman bir də görürsən ki, hər şey dağılır. Adam bir anın içində ya sağalmaz dərdə düçar olur, ya da başına iş gəlir, eləcə ölür"*. Beyrək də belə. Hər işi düzəldi və... Beyrək öldü.

"Hökmən bunun bir cavabı olmalıdır. Niyə Basat yox, Buğac yox, Uruz yox, Qazan yox, Yeynək yox?! Niyə süjet fırlanıb-fırlanıb Beyrəyin taleyini qamçılayır?! Bəlkə o, sadəcə olaraq, zavallı sadədil idi – ona görə?! Bəlkə Beyrək yeni qəhrəman tipi idi – bunun üçün?! O biri qəhrəmanlar birxətli, birxarakterli idilər. Onların hamısının bir psixoloji dəyəri var idi. Beyrək isə yox, belə deyildi. Beyrək mürəkkəbləşdirilmiş obraz idi. Müəllif tərəfindən bilərəkdən "işlənmiş" obraz idi. Yazı mədəniyyətinin nümayəndəsi idi. Psixoloji baxımdan yekrəng deyildi. Təbiətində həm sadiqlik, həm eqoizm, həm hiyləgərlik, həm mərdlik, həm dostcanlılıq, həm də yalançılıq bir yerdə bir-birini çulğamış şəkildə idi.

Bu qəhrəmanı necə yaradırdılar?! Nə üçün yaradırdılar?! Beyrəklə ədəbiyyat özünün hansı dönəminə qədəm qoymağı planlaşdırırdı?! Laokoon, Laokoon... Sən o lənətəgəlmiş taxta atın qarnına nizə atanda içəridən heç kimin səsi gəlmədimi?! Sən də, o biri troyalılar da atın qarnından çıxan heç bir hənirti duymadınızmı?! Troyalıların sənə verə biləcəkləri sənin özünün və oğlanlarının məşum ölümündən neçə əsr sonra yaratdıqları möhtəşəm ölüm səhnəsinə həsr edilmiş abidədən başqa bir şey olmadı. Bəs bu zaman bizim Beyrək nə edirdi?"

...yaralı Beyrək at üstündə özünü güclə saxlaya bilirdi. Evinə çatanda onu at kişnərtisinə çıxan nökərləri və Banuçiçək qarşıladı. Beyrəyi ehtiyatla əlləri üstə alıb yataq otağına gətirdilər və çarpayısına uzatdılar. Beyrəyin huşu gedib qayıdırdı. Bədənindəki qılınc yarası çox dərin yara idi. Yaşama-

ğına ümid yox idi. Başının üstünü sevimli arvadı Banuçiçək kəsdirib durmuşdu.

– Bəyim, igidim, sənə kim qıydı, canım igidim?! – Banuçiçək sel kimi axan göz yaşlarını saxlaya bilmirdi.

Bu dəfə Beyrəyin huşu özünə gələndə gücünü bir yerə yığıb zəif səslə olsa da, bunu deyə bildi:

– Ağlama, sevgilim, – dedi. – Bu yaradan mənə dirilik yox. Qoy mən ölüm, sonra ağlarsan, sonra bozlarsan. İndi isə məni diqqətlə dinlə. Mən At ağızlı Aruzun sözünə aldandım. Ona inandım. Evinə çağırdı, getdim. Kaş ki, getməyə idim.

– Kaş ki, getməyə idin... Aruz sözünə inanılası birimiydi?! – Banuçiçək hıçqırığını zorla saxladı.

– Salur Qazana... xəbər göndərin. Ona deyin ki, tez... özünü mənə yetirsin. Beyrək sənin yolunda... qurban getdi, deyin. Dayın Aruz Qoca onu xainliklə qılıncladı, deyin... Mən Qazana sədaqətimi qorudum, deyin. Qazana namərd çıxmadım. Qazan mənim intiqamımı... yerdə qoymasın. İndi isə...

Beyrəyin huşu onu yenə tərk etdi. Banuçiçək Beyrəyin alnının tərini əlindəki bənövşə rəngli böyük dəsmal ilə sildikcə sildi. Tər isə axdıqca axırdı və dayanmırdı.

– Qazan özünü mənə yetirsin... – Beyrək təzədən huşa gəlib pıçıldadı. – Eşit məni, sərvboylum. Qazana deyin. Aruz oğlu Basat gəlməyincə, evimi-eşiyimi viran etməyincə, sən halalımı at üstündə evinə aparmayınca Qazan özünü mənə yetirsin. Səni, Ağca üzlü halalımı oğlu Uruza alsın. Mənim intiqamımı əgər Qazan Aruzda qoyarsa, qiyamət günü mənim əlim Qazanın yaxasında olacaq. Bəlli bilsin.

Bunları deyib Beyrəyin başı yana əyildi və Beyrək canını tapşırdı. Banuçiçəyin qaraqışqırığı evi başına götürdü, evi dolanıb evdən çıxıb həyəti başına götürdü. Qaravaşlar bu haraya təzə haray qatdılar, Oğuz elini başdan-başa ağlaşma səsləri bürüdü.

Zərif kəpənəklər

"Bu necə olur ki, bir elin, obanın, bir tayfanın adamları bir-birinə qarşı bu cürənə düşmən kimi hərəkət edə bilirlər?! Bəs bu adamların vətən, xalq məhəbbəti, bir-birinə sədaqəti, düşmənə qarşı birləşməsi harda qaldı?! Mən elə bilirdim ki, bunlar hamısı bir-birilə dost olublar. Düşmənçiliyə bax, ay Allah... Gərək Vaqifdən bunu soruşam. O bilər. Durub yerimə girib yatsam yaxşı olacaq. Yoxsa bu Kitab yenə məni səhərəcən qoymayacaq gözümə yuxu getsin. Yox, "yuxu" yox, "uyqu"... "Uyquya getdi". Bu sözlər necə gözəldilər... Yuxu – yox bir. Amma – uyqu? Zərif kəpənəkdi, elə bil. Uçur, uçur... "Yuxu" çox kobuddu, çox. Uyqu..."

Firəngiz hiss edirdi ki, hansısa tanış olmayan, amma son dərəcə xoş bir əhvalın içinə girir. Yeni sözlər, yeni ifadələr onun gözlərini, elə bil, daha geniş üfüqlərə açır. Ətraf qat-qat rəngli görünür. İndiyə qədər ona tanış olmayan sözlər oxuduğu bu Kitabın səhifələrində, elə bil, yuxuya yox, uyquya (!) gedib onun gəlişini gözləyirdilər. Kitabla təmas baş verdikcə, haman tanış olmayan sözlər onun həyatına girdikcə o, həm də nədənsə ayrılırdı, nəyisə tərk edirdi. Firəngiz yuxuya getməmiş bunları ancaq düşünə bildi. *"Gərək Beyrək inanmayaydı Aruza. Necə idi bunun ayaması?! At ağızlı Aruz Qoca. Bir adamın ki, ağzı at kimi ola, sən də ona inanasan?! At ağızlı... Niyə at ağızlı?! Niyə at?! O atın adı nəydi?! Vaqif deyən atın?! İçinə adamlar girmişdilər. Sonra gecəyarısı çıxıb şəhəri yerlə-yeksan etdilər, nəydi oranın adı?! Troya! Hə, elədi ki, var. Atın da adı Troya atı idi. At ağızlı Aruz Qoca və Troya atı... Yox, bəsdi, yatmaq lazımdır, sabah ona zəng edəcəm. Bəs nə deyəcəm?! Sənin ananam, xəbərimiz olmayıb?! Ya at ağızlı Aruz niyə belə qəddardı?! Bu yazığın Beyrəyin, günahı nəydi?! Qoy bircə-bircə danışsın. Elə belə də deyərəm. Kitabla bağlı zəng edirəm. Bəzi qaranlıq yerlər var, mənə aydın deyil. Buyur, zəhmət çək, başa sal. Özün deyildin, sən demirdin ki, mənə sənin kimi oxucu lazımdı?! Heç nə*

barədə əvvəlcədən təsəvvürü olmayan oxucu?! Deyirdin! Buyur, mən – o oxucuyam. Başa sal görüm, necə başa salırsan?! Necə oldu ki, Beyrək aldandı at ağızlı birinin sözünə?! Necə oldu ki, Kitab məni sənin anana çevirdi?! Necə oldu ki, Təpəgöz ölmək üçün Basata yalvardı?! Və necə oldu ki, Beyrək öz son sözündə halalca arvadını Qazanın oğlu Uruza vəsiyyət elədi?! Di cavab ver bu suallara. Elə bilir, asandır. Görəcəyik, görəcəyik...”

Qəzetdə çap edilmiş intervünü bütün qurum işçiləri ilə birlikdə müzakirə etdilər. Böyük bir yazı alınmışdı. Bütün istədikləri öz əksini tapmışdı. Vaqif ən axırda hamıya təşəkkür elədi. Xüsusilə, Qüdrət müəllimə və Nəmidəyə. Bir halda ki, sonunda bütün məsələlər onun istədiyi kimi həll olunmuşdu, bu adamların da könlünü almağı unutmaq doğru olmazdı. Lap axırda intervünü ümumi çay içmə mərasimi ilə qutladılar. Elə bu vaxt da Vaqifin ürəyini yerindən oynadan həmən zəng səsi eşidildi. Əvvəlcədən də nədən desəydilər Vaqif mərc gələrdi ki, bu zəng edən Firəngizdir. Elə bil, zəngin səsində qəribə və anlaşılmaz bir doğmalıq var idi. Firəngizin intonasiyası zəngin intonasiyasına qarışmışdı, zəng səsi xeyli doğma olmuşdur. Vaqif bu doğmalığa yaxşı bələd idi.

Bu dəfə Firəngizin öz səsində doğmalıqdan əsər-əlamət yox idi. Quru, laübalı, laqeyd, hətta bir az etinasız... Vaqif bir istədi ki, bu nüansları qızın növbəti hiyləsi kimi qəbul eləsin, sonra gördü yox, Firəngiz bu səfər, deyəsən, “oynamır”. Bu quru səs ancaq Firəngiz “zərif kəpənəklər” mövzusuna keçəndə yumşsldı, həlimləşdi. Bu keçidin özü də çox təbii alındı.

– Necə gözəl sözlər var imiş tarixdə... Biz bunları niyə işlətmirik, Vaqif?! Niyə onları unutmuşuq?! Qalmışıq kobud sözlərin əlində. Bax, məsələn – uyqu... Zərif kəpənəkdir, elə bil. – Vaqif, hətta telefonda belə Firəngizin xam baxan gözlərinin ləzzətdən necə qıyıldığını hiss elədi.

– Gözəldi. Yoxsa ki – yuxu... – Vaqif təkcə sözləri ilə yox, səsi ilə də qıza yarınmağa hazır idi. Beynindən isə bu amansız sözlər keçirdi: *“Qızım, sən bilmirsən, o zərif kəpənək dediyin sözlər nəhəng qara dəlik kimi olub səni öz içinə ahənrüba çəkir. Mən sənə gərək bu barədə məlumat verə idim. Mənim səhvimdir, sənə bu barədə heç nə deməmişəm. Onlara, bu zərif kəpənəklərə aldanmaq olmaz. Onlara inanma. Onlar bizə, sənə, mənə tanış olmayan yad sonsuz lüğətin*

amansız elçilәridir. Onlar bizim qarşımıza dikilәn nәhәng vә ölümcül Troya atlarımızdır. O atları biz içәri, öz qәlbimizә aparmağa mәhkumuq".

– Hardan bildin?! Mən də onu deyəcəkdim. Hələ o gün gör yuxuda nə görmüşəm?! Vaxtın var danışmağa? Yanında bir adam yoxdur?!

– Var, niyə yoxdu. Vaxtım da var, adam da var. Çox maraqlı məsələlərə toxunursan. Amma... deyirəm bəlkə...

– Nə?! Nə bəlkə?! Bəlkəni əkiblər, bitməyib. Özün deyirdin ki...

– Yox, bu dəfə bitib. Hələ yarpaqlayıb da. Bəlkə axşam görüşək, sakit-sakit danışaq?! Sənin Kitabla bağlı fikirlərin mənim üçün çox qiymətlidi. – Vaqif ətrafdakıları nəzərə alıb səsini bacardıqca qısdı.

– Dolayırsan məni?

– Yox, vallah, yox... Darıxmışam sənin üçün. – Vaqif artıq ürək titrədən pıçıltı ilə danışırdı.

– Bax, Vaqif, mənim sözüm sözdü. Mənim sənlə görüşmək niyyətim yoxdu. Amma işlə bağlıdısa...

– Kitabın xətrinə... – Vaqif özü öz düşük səsinə və çeynətüpür sözünə nifrət elədi.

Və elə bu zaman Vaqif həm də onu anladı ki, bu üçgünlük mübarizədə o, Firəngizə məğlub olub. Firəngiz bu mübarizədən qalıb çıxmışdı. O, Vaqifin onu göndərdiyi gedər-gəlməz səfərdən qayıda bilmişdi. Dəyişmiş şəkildə olsa da qayıda bilmişdi. Bu o demək idi ki, belə səfərə ya heç getmirlər, ya da gedib getdikləri yerdə qalırlar, geri dönmürlər, qayıtmırlar. Hər ikisi – məğlubiyyət...

Firəngiz qayıtmağına qayıtmışdı, amma necə qayıtmışdı?! Əvvəlki Firəngiz var idimi?! Vaqif buna birmənalı cavab verə bilmirdi.

Yenə tanış "Şəbəkə"

Hadisələr yenə də bizə tanış "Şəbəkə" adlı məkanda, hətta sahilin ləpədöyənində, qayalığın bərəlmiş gözünün yanında elə haman stolun ətrafında davam etdi. Ləpələr sanki gizli-gizli, qorxa-qorxa onların ayağına qədər gəlir və "hardaydınız bu vaxta qədər, niyə yox olmuşdunuz?!" deyə soruşmaq istəyir, amma cürət etmirdilər. Çəkilib gedirdilər, su olurdular. Firəngiz hərdən ayağını ayaqqabıdan çıxarıb yaxınlaşan köpüklü ləpəyə tuturdu. O, əməlli-başlı ilhama gəlmişdi, dil-boğaza qoymurdu. Elə bil, onun vulkanlar kimi yatmış ruhunun içindən əsl intellektual lava fışqıraraq aşıb-daşmağa başlamışdı. Elə bil, o, ixtisası üzrə bir gün də işləməmiş, təəssüf etmədən atmış həkim yox, kükrəyib-daşan bir filoloq, bir mədəniyyətşünas idi. Əminliklə heç nə bilmədiyini anlamayan, buna görə də doğru olaraq hər şeyi bildiyini güman edən, ha tərəfə baxsan oradan görünən bir alim. Bu alim əvvəlcə Kitabın birinci nağılını (Firəngiz dastandakı boylara təkidlə nağıl deyirdi) oxuyub bitirdiyi gecə gördüyü "uyqunu" bütün nanə-turşusu ilə birnəfəsə Vaqifə danışdı.

– Nə yeyəcəksən? – Xörəkpaylayan onların stoluna yaxınlaşdığından Vaqif ehtiyatla Firəngizin sözünü kəsdi.

– Nə olsa... Aaaa, mən nə əcəb belə acmışam?!

– Balığımız təzədi. Məsləhətdi. – Xörəkpaylayan yavaşdan, sirr açırmış kimi pıçıldadı.

Vaqif baxışını döndərib restoranın içinə – bufetə tərəf baxdı. Aslanın başı müştəriyə qarışıq olsa da, o da vaxt tapıb Vaqifə əl elədi: *"Təzədi, düz deyir…"*

Oğlan sifarişi alıb gedəndən sonra Firəngiz yenidən "qızışdı":

– Hə, mən sənə demədim axı, artıq ikisini oxumuşam. Nağılın.

– İkincisi hansıdı? Sən yəqin başqa bir həyatda filoloq olmusan?! Yadında deyil?!

– İkincisi lap axırıncısıdı. – Firəngiz Vaqifin atmacasına fikir vermədi. – Biri – birinci idi, ikincisi – axırıncı... Sən özün demədin ki, hansını nə vaxt oxuyursan oxu, fərq eləməz...

– Bircə axırıncını dedim, lap axırda oxu... – Vaqif ehtiyatla qızın yadına salmağa çalışdı.

– Hə, düz deyirsən. Nə isə... Hövsələm çatmadı. Dedim, görüm axırı necə qurtarır.

– Nəyin axırı?!

– Nağılın da. Ağlamalı qurtarır. Bu Beyrək niyə ölür axı?! Gərək onu öldürməyəydi.

– Kim? – Vaqif sorğu-sualı ilə qızı yavaş-yavaş mətnin reallığına qaytarırdı.

– Necə yəni – kim? Müəllif. Dədə Qorqud. O yazmayıb?

"Nə yaxşı, Aruz Qoca demədi. Düzgün istiqamətdə düşünür". Vaqif Firəngizlə razılaşdı:

– O yazıb. Bəlkə də o yazmayıb, kim bilir?! Ortadakı... nağılları oxusan Dədə Qorqudu da hərdən görəcəksən personajların arasında. Təsəvvür edirsən?

– Doğrudan? – Firəngiz sidq-ürəklə təəccüb etdi.

– Doğrudan. Elə buna görə də bu dastan çox unikal əsərdi. Sən heç Homerin özünü öz yazdıqlarının içində bir personaj kimi təqdim etdiyini təsəvvür edə bilərsən? Ya da Şekspiri?

– Yox, heç Çingiz Abdullayev də belə etməzdilər.

– Etməzdi, etməzdi. Xətircəm ol. Tolstoy da, Dostoyevski də, Turgenev də... Çingiz Abdullayev də... belə etməzdi.

– Amma o edir...

– Amma o edir. Bilirsən, sənin yuxun çox qəribə yuxudu. Sən fikir verirsən, kitabın qədimliyini həm də o sübut edir ki, bir sevimli məxluqda iki adam birləşir...

Firəngiz bu yerdə düşündü: *"Düz deyir. Mənim atam və anam kimi. Mən yüz faiz bilirəm. Bu adamlar bir-birini bu gün də sevirlər. Ata, ana mənimdir, mən bilirəm".*

– ...ana və sevgili kimi. Bu, bizim dastandan keçən çox dərin məsələdir. Görürsən, o bu barədə necə ehtiyatla yazır. Özü də bilmir ki, XIX əsrdə bu motivi – ana və sevgili motivini demək olar ki, bütün say-seçmə əsərlərdə axtaracaqlar.

– Hə, elədi. Bilirəm, bilirəm, sən indi Freyddən danışırsan, eləmi? Amma Dədə Qorqud çox ehtiyatlı yazıçıdır. Bu məsələni (Firəngizin qaşları oynadı) açıq-aşkar yazmır. Sadəcə, işarə edir.

Freydin xatırlanması söhbətin uyğun səviyyədə aparılması üçün Vaqifə balaca bir ümid verdisə də, "Dədə Qorqud və ehtiyatlı yazıçı" yanaşması o ümidi uçurub puç elədi və Vaqifin içini elə tərpətdi ki, sanki əti ürpəşdi, bir müddət söhbəti dəyişdirmək, bir də tezliklə ona qayıtmamaq istədi. İllah da ki, yüngül yeməklər gəldi və başları yeməyə qarışdı.

– Vaqif, bilirəm, məndən soruşacaqsan... o günkü axşam söhbətini... gəl bu məsələyə bir daha qayıtmayaq. Bir zaman... vaxtı gələndə mən özüm sənə danışaram nə üçün mən o axşam elə dedim. Yaxşı? – Firəngiz söhbəti özü üçün əsas olan məsələnin üstünə gətirdi və onu üzən sözləri, nəhayət, imkan edib az qala birnəfəsə dilinə aldı.

– Yaxşı... olsun. – Elə bil, Vaqifin çiyinlərindən pudluq daşlar götürüldü. Bu mövzunun altından necə çıxacaqdı, o özü də bilmirdi. Müqayisə edilsəydi, "ehtiyatlı yazıçı" söhbəti daha maraqlı və hər tərəfdən münasib mövzu idi.

Firəngiz gözlərini ləzzətdən süzdürə-süzdürə yeməyini tələsik yeyib qurtardı, "ay, nə dadlı idi..." deyib ev məhsulu olan zoğal kompotunu ləzzətlə içdi və səbirsiz halda yenə də əsas söhbətə qayıtdı:

– Di, bax, söylə mənə, niyə kitabın sonunda Beyrək öldürülür? Aruz niyə belə edir? Bunlar bəyəm bir tayfanın, bir xalqın adamları deyillər?

– Bir tayfanın adamlarıdır, amma...

Firəngiz tez Vaqifin sözünü kəsdi:

– Mən də onu deyirəm. Bəs o zaman...

Firəngizin qaşları ikisi də birdən yuxarı qalxdı. Bu isə o demək idi ki, o, çox dərin, yaxud çox incə, hər nə isə çox vacib nəsə deyəcək. Qısa teatral pauzadan sonra Firəngiz deyəcəklərini avtomat kimi Vaqifin başına sıxdıqca Vaqif bir daha inandı ki, Firəngiz öz potensialında külçə ağıl sahibidi. Onu, sadəcə, hansısa hərəkətə doğru istiqamətləndirmək gərəkir.

Vaqif fərq elədi ki, qızın dedikləri onun da beynində dolaşan fikirlərin bu və ya başqa tərəfidir. Hətta bəzi məqamlarda qızın dedikləri onun ağlına belə gəlməyən mətləblərə işarə edirdi. Xüsusilə, At ağızlı Aruz və Troya atı arasındakı "at" arxetipinə söykənən fantastik "əlaqə" ilk anda onun yadına "ehtiyatlı yazıçı" Dədə Qorqudu saldı. Bir-birindən uzaqlığın ifadəçiləri kimi. Daha sonra Vaqifin yadına dahi fizik Nils Borun vaxtilə özü də böyük fizik olan dostu Pauliyə Nyu Yorkda söylədiyi sözlər gəlib düşdü. Nils Bor bir elmi tədbirdə fantastik dərəcədə inanılmaz elmi iddialarla məruzə edən köhnə dostunu həmişə real düşünən gənc amerikalı fiziklərin tənqid atəşindən qurtarmaq məqsədilə belə demişdi:

– Sizin ideyalarınız kifayət dərəcədəmi ağlasığmazdırlar ki, həqiqət kimi qəbul edilsinlər, yoxsa belə deyil?!

Vaqif Kitabı Firəngizə oxutmağından hədsiz dərəcədə razı idi. Yeni baxış, özü də orta oxucunun, Kitabdan xəbəri olmayan oxucunun münasibəti nəinki maraqlı, həm də elə indicə aydın olduğu kimi faydalı idi. Bu baxış Vaqifə ən azından öz ideyalarını aprobasiya eləmək üçün imkan verirdi.

– Sənə deyim, çox maraqlı bir müqayisə obyekti tapmısan. İcazə versəydin, onu səndən hədiyyə kimi qəbul edərdim. – Vaqif dediyi sözlərə bir az zarafat, bir az da ciddilik qatdı. Qıza indiyə qədər baxmadığı ləyaqətli bir elmi opponent kimi baxdı.

Firəngizi isə Aruz və Troya atı mövzusu artıq o qədər də maraqlandırmırdı. O, öz "bombasını" partlatmağa hazır idi.

– Deyə bilərsənmi, nə üçün bu eyni olan tayfanın nümayəndələri birbirini qırmaq, öldürmək istəyir? Niyə?

– Çətin sualdır. – Vaqif ehtiyatla qısa bir cavab verdi və əsl ovçular kimi əsas qəniməti gözləməyə üstünlük verdi, altdan-altdan isə Firəngizə

baxmağa davam etdi. Firəngizin gözlərindən artıq əməlli-başlı "qan damırdı". Ov ovçuya çevrilməkdə idi. Vaqif bunu gözləmirdi.

Firəngiz qətiyyətlə davam etdi:

– Niyə Beyrək ölüm ayağında Salur Qazana xəbər göndərir ki, özünü mənə yetirməsən Aruzun oğlu Basat gəlib mənim ev-eşiyimi talayacaq, qızgəlinimi, arvadımı əsir edib aparacaq?! Basat kim idi ki?! O, bəyəm Banuçiçəyi sevirdi? Elə çıxır ki, bu Basat əlverişli məqam gözləyirmiş.

"Dəlidən doğru xəbər!! Bu xətti hökmən romanın mətninə yeritmək lazımdır. Tutarmı?! Tutar. Basat-Banuçiçək-Beyrək xəttinin axırı olduğu kimi hökmən əvvəli də yox deyil". Vaqif böyük bir maraqla Firəngizin üzünə baxdı. Firəngiz başa düşdü ki, Vaqifi zərbə, necə deyərlər, tutub. *"Bu günlük bu qədər bəsidi. Yoxsa bu elə bilir ki, bir budu kitabı oxuyub fikir deyə bilən..."*

– Sən əməlli-başlı tədqiqatçıymışsan ki... Bə bunu niyə bizə xəbər verməmisən? – Vaqifin zarafatla şivəyə keçən səs tərzində, əlbəttə ki, məharətlə gizlədilmiş başqa çalarlar da yox deyildi. – Əziyyətlə, min kitabı oxuya-oxuya gəl çıx güclə tapdığın bir fikrin astanasına, bu həkim xanım da bu barədə heç nə bilmədən ("Heç nədən xəbəri olmaya-olmaya demək yaxşı deyil") bir gecə yuxu görməklə eyni yerə gəlib çıxsın. Hələ sənə bu cür mərhəmətli bir baxışla da baxsın. *"Bu nədi, yoxsa mən qısqanıram?! Ayıbdı, Vaqif müəllim, yekə kişisən, ayıbdı. Məqalələrin, kitabların... Lüğətimizdə bir "ayıb" sözü var".*

Çayçı oğlan çaydan gətirdi. Vaqif çayı stəkanına töküb içməyə başladı. Firəngiz isə sakitləşmiş halda, şad və xürrəm oturub dənizə baxır və ürəyində sevinirdi ki, Vaqifə özünün ağıl və dərrakə sahibi olduğunu, nəhayət ki, sübut edə bildi. *"Adamın dərsini belə verərlər..."*

– Qaynar içmə, boğazın yanar. – Firəngiz mədəni qaliblərin yersiz lütfkar nəvazişi ilə birdən-birə onun qayğısına qaldı.

Vaqif çəçidi və əlindəki çay stəkanını qaytarıb nəlbəkiyə qoydu, yazıq-yazıq üzünə baxdı:

– Başa düşdük, mənə yazığın gəlir. – Vaqif zarafat etmək isdədi, sonra birdən-birə ciddiləşdi.

– Gedək? – Vaqif ürəyində gizli qorxu ilə soruşdu.

– Gedək! – Firəngiz hara getmək barədə bir kəlmə deməsə də, Vaqif onun sol qaşının mənalı-mənalı yuxarı qalxmasından başa düşdü ki, o da bağa getməyi nəzərdə tutur.

Ən pozulmuş saatlar belə gün ərzində bir dəfə doğru zamanı göstərdikləri kimi Vaqiflə Firəngiz də bu gün ərzində ilk dəfə bir-birini doğru-düzgün anladılar. Ehtiyatlı yazıçı Dədə Qorqud bəlkə də belə deyərdi.

“Gecən xeyrə, Buğacım...”

Vaqif özü də başa düşmürdü ki, yaşıl “Volqa” “Şəbəkə”dən bağa qədər olan bu qısa və tanış yolu getdikcə onun ürəyi niyə belə həyəcanla vurur. Hər gün görüşən, hər saat telefonla ən azından uzun-uzun bir-birinə eyni sözü “sevirəm, sevirəm” deyib sağollaşan adamlar üçün üç günlük müddət uzun bir ayrılıq sayıla bilərdi. Firəngiz altdan-altdan Vaqifə baxır onun həyəcanını görür və gülümsəməyini heç cür saxlaya bilmirdi. Daha doğrusu, saxlamaq istəmirdi. Vaqifi isə gah titrətmə tuturdu, gah tualeti gəlirdi, gah da nəfəsi çatmırdı. Amma o vardı ki, nəfəsi yanında oturmuşdu. Bu, Firəngiz idi. Nə zaman o bunu anlayacaqdı?! Nə zaman o başa düşəcəkdi ki, onlar bir-birinin yanında yalnız qaranlıq və işıqdan ibarət sayrışma deyillər. Onlar bir yerdə, yəni, birlikdə gur işıq topasıdılar?!

…gecənin bir aləmi Vaqif yuxudan hövlnak oyandı. Oyanmağı, gözünü açmağı və diksinməyi bir oldu. Firəngiz başını yaxınlaşdırıb adəti üzrə iki gözünü də gen açaraq onun düz üzünə, daha doğrusu, gözlərinə baxmaqda idi. Bunu tez-tez edərdi. Onun bu hərəkətindən Vaqifin heç vaxt xoşu gəlməmişdi. Az qala bundan vəhimələnirdi. Qızın özünə də demişdi. Faydası yox idi.

Vaqifin yuxudan oyandığını görən Firəngiz:

– Vaqif, noolar, ayağının altında ölləm, mənimlə bir də heç, heç bir zaman özünü elə aparma ki, guya mənə minnət edirsən görüşdüyünçün, – dedi.

Vaqifin nə isə demək istədiyini hiss edən Firəngiz əlini aparıb onun ağzına dayadı:

– Qurtardı. Bu söhbət burda qurtardı. İndi də sən çək mənim qarovulumu. Mən yatdım. Gecən xeyrə... Burda ehtiyatlı ol, hər tərəfdə düşmən

casusları gəzişir… – Firəngiz yalandan qorxulu bir səslə pıçıldadı və çox istədi Vaqifi Kitabdakı gözəl adlardan biri ilə çağırsın, yadına düşən ad təkcə bu oldu:

– Gecən xeyrə... Buğacım... Hə, sənə təzə xəbərim var. Sən axı mənim Buğacımsan... Amma bunu heç kimə demə ha... Heç kim bunu hələ bilmir. Bu bizim sirrimiz olsun. Gecən xeyrə, Buğacım…

“Heç kim... heç kim... heç kim...”

Firəngiz bu gecə tamam başqa bir yuxu görürdü. Yuxusunda görürdü ki, Beyrəyin ölümündən sonra Basat bir dəstə adamla onun evinə hücum edib.

Atlılar Beyrəyin həyətinə ley kimi girdilər. Beyrəyi ağlayan qaravaşlar tələsik iç otaqlara çəkildilər. Banuçiçək və ətrafındakı nökərlər atlıların qarşısına çıxdı.

Atlıların başındakı cəngavər Banuçiçəyin yanında atın başın çəkib saxladı. Bu, Basat idi. Basat atından endi:

– Xanım, başsağlığına gəldik. Eşitdik, Beyrək Allahın rəhmətinə gedib.

– Başınız sağ olsun... – Basatla gələnlər də atlarından enib başsağlığı verdilər.

Banuçiçək ədəblə bunlara cavab verdi:

– Siz sağ olun, əsən olun. Beyrək haqqa qavışdı. Hamımızın başı sağ olsun. – Bunları deyib sonra Banuçiçək üzünü Basata tutdu:

– Bəy yigid. Xəbər sizlərə nə tez yetişdi? Beyrək bu sabah evə gəldi. At üstündə yaralı. Bir az əvvəl canını tapşırdı.

Basat buna heç bir cavab vermədi. Keçib adamlarının yanına getdi. Bu gələnlər evin içinə girmədilər. Elə həyətdəcə bir tərəfə çəkilib həyətdəki başı gözləri dələ Qarağacın altında oturdular.

Nökərlər bilmirdilər nə etsinlər və lal-dinməz Banuçiçəyin üzünə baxıb qalmışdılar. Banuçiçək bunlara dedi:

– Bu gələnlər yol gəliblər, yorulublar. Bunlara yemək verin yesinlər, şərbət verin içsinlər.

Banuçiçəyin qəsdi bu idi ki, vaxtı uzatsın. Salur Qazana ki xəbər getmişdi, Qazan ola ki, artıq yol ölçürdü, bir azdan gəlib yetişəcəkdi.

Firəngiz yuxuda ikən düşünürdü: *"Nə gözəl bir dil ilə danışırlar bunlar bir-birlərilə. Mən niyə bu dili bilmirəm?! Bu ola bilsin ki, Kitabdakı sonuncu nağıldır. Elədirsə, gərək tapım bir daha oxuyum"*. Firəngiz yuxusundakı bu vaqeəyə hələ ki, kənardan baxırdı.

Yuxunun bu yerində haradansa Vaqif peyda oldu. Basat da, ətrafdakı adamlar da dumana dönüb uçub getdi. Vaqif üzünü Firəngizə tutub dedi:

– Mən heç vədə səni özümdən aşağıda görməmişəm, biləsən. Mənəm sənə layiq olmayan. Sən azadəsən. Sən sevirsən. Deyirlər, sən Buğacı sevirsən, bəy qızı?! Doğrumu deyirlər?! Sən onu tanırsan?!

Uyqunun bu yerində Firəngiz də dönüb oldu Banuçiçək. Banuçiçək Vaqifə dedi:

– Yox, sən yanlış edirsən, mən Buğacı tanımıram. Mən səni tanıram. Sən Basatsan, demi?!

Vaqif elə o dəqiqə çevrilib bu dəfə olur Basat:

– Bəli, mən Basatam. Bilirmisən, mən buraya niyə gəldim?!

– Mənimçünmü gəldin, bəy oğlu?!

– Bəli, xanım. Sənin üçün gəldim. Mənimlə xoşluqla gedərmisən, yoxsa zorla aparım səni?!

– Mən sənlə gedə bilmənəm. Mənim ər igidim, yatağımın sahibi, Qazan Xanın inağı, Boz atlı Beyrəyim elə indicə bu dünyadan ayrılıb uçub gedibdir, mənim indi sənlə bu evi tərk etməm doğru olmaz. İki dünya bir olursa belə mən sənlə getmənəm... *"Ay Allah, mən nə zaman öyrəndim belə gözəl danışmağı?! Necə rahatam... Amma birdən bu məni zorla aparmaq dilər, o zaman necə olsun?! Evin içində sevdiyimin cəsədi, Qazan xan yolda... hələ bir Vaqif bunu bilsə?! Vallah, öldürər məni"*.

– O zaman iş zora qaldı. Günah məndən getdi... – Basat əlini dizinə basıb uru durdu.

Elə bu zaman at üstündə bir ağır cəngavər, ətrafında seçmə qoşun dəstə-dəstə həyətə daxil olmağa başladı. Bu ağır cəngavərin başındakı dəbilqədən ətrafa işıq saçılırdı. Baxışları xeyli sərt idi. Üz-gözündən bilinirdi ki, kədərlidir. Nökərlər, qaravaşlar, qul-xəlayiq "Qazan gəldi, Qazan gəldi" deyə qışqırıb asudə nəfəs aldılar. Banuçiçək dəxi qəlbində sevinc "Qazan

gəldi...” deyib bu gələnlərin qarşısına çıxdı və üzünü atlıların önündə gələn bu ağır cəngavərə tutdu:

– Uca-uca dağlarımın qarı əridi, əridi. Qamən axan çaylarımın suyu qurudu, qurudu. Uca-uca ağaclarım yıxıldı, yıxıldı ola... *“Nə gözəl danışıram. Bu mənəm?!”* Qazan xan, sənmisən, gəldin?! Dayın Aruz, biləsən, Beyrəyi evinə çağırdı. Sənə asi olsun istədi. Beyrək sənin çörəyini tapdamadı. Sənin ayağını vermədi. Dayın Aruz Beyrəyi namərdcəsinə qılıncladı. Beyrək yaralı olub evə döndü. Qisasımı Qazan alsın, dedi. Evimi, qız-gəlinimi qorusun, dedi. Bunları deyib haqqa vasil oldu. İndi, ağam Qazan, budur, Aruz oğlu Basat vaxtı itirmədən çaparaq gəlmişdir. Odur həyətimdə qarağacın altında oturub məndən cavab gözlir. Evimi, eşiyimi, qullarımı, kənizlərimi alıb aparmaq istir. Mənim özümü dəxi aparmaq istir. Beyrək isə məni sən Qazanın oğlu Uruza vəsiyyət etdi. Nə dersən?! Xanım Qazan, söz sənindir.

Qazan xan qaşlarını çataraq eləcənə at üstündə Banuçiçəyi çox, çox böyük bir diqqətlə dinlədi. Banuçiçək sözünü bitirəndən sonra atından düşər-düşməz Qazan xan dönüb oldu Vaqif. Bu dəfə Vaqif belə dedi:

– Sevgilim, bir yastığa baş qoyduğum, üç öpüb bir dişlədiyim, bu sənmisən?!

Vaqifi tanır-tanımaz yenidən Firəngizə dönmüş Banuçiçəyin ürəyi sevinclə vurdu.

– Mənəm, – deyə Firəngiz cavab verdi. – Sən burada da gəlib məni tapdın.

Vaqif *“Sənin əlindən yer üzündə, göy üzündə rahatlığım olmadı”* düşündü.

– Nə yaxşı gəldin. Az qalmışdı Basat məni atın üstünə yıxıb aparsın. Mən ona “yox” deyib durdum, o başa düşmədi. *“Guya ki, sən məni başa düşürsən?!”*

Firəngizi Vaqifin gəlişi xeyli ürəkləndirmişdi. İndi onu qorxuda biləcək heç nə yox idi. İndi onun istəyi Vaqiflə bir yerdə buralardan itib getmək, heç kimin onları tapa bilmədikləri elə bir dünyaya yetişmək idi ki, Aruz, Qazan, Basat, Beyrək, Buğac o dünyada olmasınlar. Orada maşın olsun, telefon olsun, anası ona zoğallı çay hazırlasın. Həftədə bir dəfə, iki dəfə Vaqiflə bir yerdə onun Bilgəhdəki bağına getsinlər. “Şəbəkə”də oturub dənizin ləpələri

ayaqlarını yalaya-yalaya yemək yesinlər. Vaqif qaynar çayı içməyə çalışsın, Firəngiz hirslənsin, qoymasın. Sevişsinlər. Dünyada heç kim bir-birini onlar sevən qədər sevməyib. Lazım olarsa, o bunu hamıya sübut edə bilər. Onlar bir-birləri üçün yaranıblar. Bunu hər kəs ya bilir, ya da bilməlidir. Vaqifdən başqa heç kim, heç kim, heç kim...

Bağ yeri belədi, azacıq yatsan da yuxunu ala bilirsən. Sabah yenicə açılmış, Vaqif yuxudan oyanmışdı və əllərini gen açaraq ürəkdən gərnəşəndən sonra yataqdan qalxıb onun yanında mışıl-mışıl yatan Firəngizin üzünə məhəbbətlə baxdı. *"Hər gün bu adamı yuxudan duran kimi görmüş olsam, görəsən necə olar?! Bezdirər məni?! Mən bundan soyumaram ki?!"*

Vaqif mətbəx tərəfə keçmək istəyirdi ki, birdən Firəngizin yuxuda dalbadal təkrar elədiyi "heç kim... heç kim... heç kim..." sözləri onu az qala diksindirdi. *"Buna nə olub?! Bu ki, yuxuda heç zaman danışmazdı. Bu da təzə çıxdı?!"*

Firəngiz Vaqifin anlamadığı bu sözləri halsız şəkildə yuxuda pıçıldaya-pıçıldaya... gülümsəyirdi. Vaqif başını buladı və mətbəxə keçib çaydanı qaz piltəsinin üstünə qoydu.

Sevgi var isə, deməli, qısqanclıq da var imiş...

"Əlinə qələm alasan və nə yazacağını bilməyəsən. Dumanın, çənin içində yol gedəsən, gözün bir addım irəlidə heç nəyi, heç kimi seçməyə. Və xəbərin olmaya ki, bir addım sonra nəyə çarpılacaqsan. Yoxluqdan, qaranlığın içindən qara, zəhmli bir Troya atı sıyrılıb peyda ola, sən ağzından, burun pərələrindən buğ çıxan və canlıdan canlı olan o Troya atı önündə mat-məəttəl quruyub qalasan və nə edəcəyini bilməyəsən. Laokoonlu, ya da Laokoonsuz. Troyalıların bəxtindən yanlarında Laokoon var idi. Ona inanan olmasa da, dəridən-qabıqdan çıxır, bildiyi həqiqəti zavallı troyalılara çatdırmaqdan ötəri özünü həlak edirdi. Sonunda özünü də, oğlanlarını da məhv etmədimi, etdi. Mənim yanımda isə Laokoon yoxdur. Mənim yanımda olan Qüdrətdir.

Amma bunun da öz gözəlliyi var. Əsas məsələ Kitabın ana xəttini... yox, qətiyyən, ana xəttini yox, ana xətt istisnadır, əsas məsələ süjet dolambaclarını unutmaqdır. Onları öz əqlin, öz mərifətinlə yenidən doldurmaqdır. Haman ana xəttə əlavələr etməkdir. Bunu etsən, Kitabı yenidən dünyaya gətirə bilmək şansın var. Yoxsa – yox".

Vaqif yatsa yuxusuna belə girməzdi ki, Firəngizin dedikləri onu bu cürənə maraqlı mətləblərlə üzbəüz qoyacaq. O hiss elədi ki, orta səviyyəli oxucunun diqqəti "Basat-Banuçiçək" xəttinə ilişib orda qala bilər. "Banuçiçək-Uruz" xətti arxa planda itər. Həqiqətən də, necə ola bilər ki, sən Basat o boyda Təpəgözə qalib gələsən, Oğuzu məhvolma fəlakətindən qurtarasan, bu qəhrəmanlığın ancaq Dədə Qorqud tərəfindən təsvirin sonunda iki–üç cümlə ilə quruca tərif edilsin?! Bəs ətrafdakı adamlar?! Bəs cəmiyyət?! Bəs, nəhayət, bu cəmiyyətin qadınlar zümrəsi?! Bizim zəmanəmizdə

belə bir hadisə olsaydı, bu günkü "Oğuzdakı" bütün qızlar – gözəlli, kifirli hamısı Basata vurulardı.

"Görəsən Oğuz qızları xarici görünüşləri ilə daha çox gözəl olublar, yoxsa..." Çirkin demək istəmədi. *"Gözəl, yoxsa gözəl olmayan"*, – bu necədi?! Bu da alınmadı. *"Bu gün mənim vətənimdə qızlar, əslində, üç cürdür. Birinci cür – heç şübhəsiz gözəllərdir. İkinci cür – kifirlərdir. Üçüncü cür özəl cürdür. Bunlar nə gözəldirlər, nə də kifir. Orta cürdürlər. Onlara gözəl də demək olmur, kifir də deməyə dilin gəlmir. Oğlanlar da yəqin, elə bu cürdülər".*

Vaqifin gözləri önündə Firəngizin obrazı canlandı. O, heç şübhəsiz, gözəllər qrupuna daxil idi. Qışda da, yayda da eyni şokolad rəngini bədəninə yığmış azərbaycanlı nigeriyalı, yox, azərbaycanlı efiopiyalı gözəl... Allah, Allah, insana şokolad rəngi bu qədər yaraşarmış... Kəsik, qapqara saçları, buna tam uyğun qaralmış üzü, azacıq xam baxan gözləri, zərif, tük qədər incə qaşları, tarım bədəni – "adamın yadına Kitabdakı hamiləliklə bağlı bənzətmə gəlir: gilas yesəydi, elə bilərdilər hamilədi...", dik burnu, bütün digər ölçüləri – ideal... Oğuz zamanında onun qiymətini bilərdilərmi?! Bu gün bilərdilərsə, o zaman da bilərdilər yəqin. Amma Vaqifdə zərrə qədər qısqanclıq yox idi. Bəlkə də bu onun üçün belədir ki, Firəngiz sevgidə təkcənəliyə üstünlük verənlərdəndir. Ona bir sevgili kifayət qədər yetərlidir. Amma bəlkə də Vaqifin xasiyyəti belədir, qısqanclıq ona, ümumiyyətlə, yad bir hissdir və belə olması Firəngizin təkcənəli sevgini çıxış yolu tapmış baxışını formalaşdıran əsas məqamdır?! Vaqif qəflətən diksindi. *"Evrika! Niyə bu mənim ağlıma əvvəlcədən gəlməyib?! Ağıl var ki məndə?!"* Vaqifə elə gəldi ki, möhtəşəm sayrışmanın görünməyən tərəflərində gizlənən son dərəcə vacib olan bir psixoloji məqamın üstünə o elə indicə işıq saldı. Yenə də Firəngizə görə o bunu edə bildi. İndi həm də onu anladı ki, qızı bu oyuna daxil etməklə çox ağıllı iş görüb.

"Mən bir məsələni Kitabda qətiyyən axtarmamışam. Necə olub ki, bu mənim diqqətimdən yayınıb?! Qısqanclıq! Əlbəttə, qısqanclıq! Sevginin meyarı budur! Başqa bütün meyarlar uydurmadır. Oğuzda qısqanclıq olub, yoxsa olmayıb?! Kim kimi kimə qısqanıb?! Sevgi olubsa qısqanclıq da, deməli, var imiş. Yüzdə yüz bu belədir. Amma bu xətti məntiqlə davam etdirsək, deyə bilərikmi, qısqanclıq

olmayıbsa sevgi də olmayıb?! Bu çox qəliz mətləblərin üzə çıxmasına yol açа bilər. Romana bu xətt hökmən yeridilməlidi. Amma hara? Adamın yadına Selcan xatunun kuzeni düşür. O kuzen ki, Selcan xatunun atasını qızını Qanturalıya verəndən sonra "fitilləmişdi" ki, sözünü geri götürsün, Qanturalı ilə Selcanın arxasınca qoşun göndərsin. Belə etməsi Selcanın Qanturalı ilə qaçdığı gecə qısqanclığından gözünə yuxu getməyən, sevdiyini birdəfəlik itirmənin nə demək olduğunu qəflətən anlayan bir insanın son çabası deyilmi?

Ya da Bayburd bəyi yada düşür. Beyrəyi oğurlayıb aparması Banuçiçəyə sevgisindən irəli gəlmirmi? Banuçiçəyin atası baybecan özü bu ittifaqı dəstəkləməmişdimi?! Bu sevginin özü də qısqanclıq sayıla bilər.

Bunların ikisi də – Bayburd bəyin də, Baybecan bəy də iç Oğuzdan kənar adamlardır. Oğuz içində necə – belə sevənlər varmı-yoxmu? Suallar, suallar…

Doqquz-on, bizimki... Qısqanclığı Kitabda hökmən axtarıb tapmaq lazımdır. O olmasa, deməli, sevgi də yoxmuş. O olmasa onu Kitab üçün yenidən bərpa, yaxud yenidən icad etmək lazım gələcək. Qısqanclıq! Necə olub, ağlıma gəlməyib?! Qüdrət müəllim, Zöhrab "müəllim" ağıl qoyublar ki, məndə?! Roman üçün bundan gözəl tapıntı ola bilər?! Ola bilməz. Bir, iki – daşaltı... Eh, Laokoon, Laokoon..."

“Nisə xala dəli olub...”

...onu da demək lazımdır ki, Zöhrab “müəllim” (Vaqif məzələnərək qardaşına “Zöhrab müəllim” deyirdi) Vaqif üçün çox böyük bir ustalıqla evdə Qüdrət müəllimi əvəz edirdi. Bu bir balaca başqa səpkidə baş verirdi. İşdə – Qüdrət, evdə Zöhrab, elə bil, Vaqifi hirsləndirməyi, özündən çıxarmağı qarşılarına məqsəd qoymuşdular. İşə çatan kimi Zöhrabdan zəng gəldi:

– İşdəsən?! Evə zəng elə, Nisə xala dəli olub. Bütün gecə səni gözləyib. Bizi də yatmağa qoymayıb...

Cavab gözləmədən dəstəkdəki səs kəsildi. Zöhrab dəstəyi yerinə qoymuşdu.

Vaqif dərhal ev nömrəsini yığdı:

– Ana, salam. Necəsən?!

– Salam, ay bala. İşdəsən? Salamatçılıqdı?

– Hə, hər şey yaxşıdı. Mən axı sənə demişəm.

– Hə, yadımdadı. İkinci gecə səndən xəbər çıxmasa, o zaman nigaran qalım.

– Ay sağ ol. Bəs bu nədi, gecə deyir, yatmamısan...

– Mən? Yatmışam. Onu kim dedi?! Gecənin bir aləmi yuxudan ayıldım, gedib gördüm, Zöhrab yatmayıb, oturub gözlərini dikib qaranlıq pəncərəyə. Ona hirsləndim. Sonra yenə getdim girdim yerimə. Mən yatmışam. O, səhərəcən yatmayıb.

– Bəlkə Zöhrab müəllim sevgilisi ilə sözləşib, dava ediblər? Soruşardın...

– Yox, soruşdum.

– Bəs nə olmuşdu?

– ...

– Ana! Söz soruşdum axı…

– Səndən niyaran idi...

Vaqifə lap gənclik yaşlarından elə gəlirdi ki, Zöhrab onu atası sağ olarkən atasına, o da rəhmətə gedəndən sonra anasına qısqanıb. Zöhrab elə bilib ki, valideynləri həmişə onun böyük qardaşını ondan çox seviblər. Bunun belə olmasında Vaqiflə anasının da "günahı" yox deyildi. Axşamlar hamı bir yerdə çay süfrəsinə yığışan zaman beş yaşlı Zöhrab nadinclik edib ya süfrəyə çay dağıdanda, ya da qəndlə oynayanda Vaqif Zöhraba işarə edib anasına zarafatla deyərdi:

– Ay ana, bu oğlana o qorxulu sirri açıb dedin, ya hələ bilmir?

– Yox, hələ deməmişəm, bilmir.

– Bunun çamadanını yığışdırmısan?! Paltarlarını, ayaqqabısını?! Havalar soyuyur. İsti paltarlarını qoy. Di, yığışdır gətir.

Sonra Vaqif özü gedib o biri otaqdan bir çamadan gətirər, bayır qapısının ağzına qoyardı.

– De buna, qoy bilsin. Əvvəl-axır biləcək onsuz da.

Söhbətin bu yerində Zöhrab susub başını aşağı dikərdi. Ürəyi "gup-gup" vurardı. Gözünün bir qırağı ilə qapı ağzındakı yekə çamadana baxar, oturduğu yerdə sakitcə və tərpənməz qalardı. Vaqif isə heç nə olmamış kimi öz amansız zarafatına davam edərək və anasından soruşardı:

– Bu gün aparaq bunu öz evlərinə, ya sabah?! Bu uşaq axı bilməlidi ki, onun əsl ata-anası qonşu həyətdəki Nənəxanımdı. Semiçkasatan Nənə-xanım…

Zöhrabın az qala ürək döyüntülərini eşidib Nisə xalanın ürəyi daha dözməzdi. Gülə-gülə Zöhrabı yanına çəkib sinəsinə sıxardı.

– Yox, aparmayaq. Bu gün də aparmayaq, sabah da aparmayaq. Qoy həmişə bizdə qalsın.

– Sən bunlara fikir vermə, bala, çayını iç... – Atası Hacıbala gülməyini güclə saxlaya-saxlaya uşağın pərtliyini aradan qaldırmaq üçün başını sığallardı.

Zöhrab anasından qaçıb atasına qısılar, bir kəlmə də danışmaz, ağlayıb eləməz, eləcə çənəsi titrəyə-titrəyə qalardı. Sonralar məktəbin aşağı

siniflərindən başlayaraq ta bu günə qədər anasını təkidlə "Nisə xala" çağırması, yəqin ki, keçmişdəki həmən "faciəli" çay süfrələrinə onun gecikmiş cavabı idi. Vaqif bunu qardaşının qısqanclığına yozardı. Amma düşünərdi: *"Qısqanclıq varsa, sevgi də var, əlbət".*

Anası Vaqifə deyərdi:

– Fikir vermə, keçib gedər... Atasız böyüdü, ona görədi.

Vaqif də belə hallarda gülümsəyərək düşünərdi: *"Uşaqdır, keçib gedər..."*

Zöhrabın qəribə xasiyyəti vardı. Orta məktəbi qurtarana qədər Zöhrab qardaşından əməlli-başlı qaçar, ona qaynayıb qarışmazdı – o olan yerdə oturub durmamağa çalışar, heç vaxt onunla oturub nə barədəsə söhbət etməz, suallarına qısa və yığcam cavablar verər, sözünü kəsməz, sözü qabağında söz deməzdi, bütün tapşırdıqlarını dinməz-söyləməz yerinə yetirərdi. Deyib güldüyü yerdə, kefinin kök olduğu zaman əgər Vaqif qapını açıb içəri girsəydi, o saat özündən asılı olmadan ciddiləşər, az qala qaşqabağını tökər, daha dinib danışmazdı. Başqaları bunu böyüyə hörmət kimi qəbul edərdilər. Yavaş-yavaş Vaqif də bu kiçik teatrda öz yerini tanıyıb bildi və rolunu doğru-düzgün ifa etməyə alışdı. Aralarında neytral vasitəçi açı anaları Nisə xala idi. Zöhrab müəllim bu günə qədər anasını eləcə "Nisə xala" çağırırdı. Sanki bununla belə demək istəyirdi: *"Sən Vaqifin anasısan. Mənim isə xalamsan. Mənim əsl anam özünüz deyən kimi semiçkasatan Nənəxanımdı..."* Onun bu qəribə hərəkətlərinə artıq qonum-qonşular, dost-tanışlar, qohumlar da alışmışdılar. Hamı görüşdüyündə ondan nə isə qəribə bir hərəkət gözləyirdi. Zöhrab müəllimdə heç kimin ümidini qırmırdı.

Vaqif Zöhraba təkcə böyük qardaş olmamışdı. Vaqif Zöhraba atasını əvəz eləmişdi. Ataları Hacıbala kişini ölümünə yaxın paraliç vurmuşdu, dili söz tutmurdu. Paraliç vurandan iki ay sonra Vaqifi axşama yaxın əl edib uzandığı divanın yanına çağırdı. Vaqif divana yaxınlaşıb atasının havada oynayan əlindən tutdu. Bu əl bütün günü hərəkətdə idi. Havada cürbəcür cızıqlar çəkirdi. Elə bil, ancaq özünün gözünə görünən kiməsə əl edirdi. Ya da heç kimim bilmədiyi hərflərlə yazı yazırdı. Vaqif atasının havada dolaşmaqdan yorulmayan əlini dodaqlarına apardı. Hacıbala kişi nə qədər hıqqandısa yenə də bir söz deyə bilmədi. Ancaq gözləri ilə

divanın başında özünə yer eləmiş Zöhrabı göstərə-göstərə qaldı. Amma elə bil ki, kişinin çox vacib bir sözü vardı və o sözü Vaqifə hökmən deməli idi. Deyə bilmədi. Haman gecə kişi rəhmətə getdi. O, rəhmətə gedəndə Zöhrabın on yaşı vardı. Vaqif isə universiteti artıq bitirib aspiranturanın sonuncu sinfində oxuyurdu. Gecələr axşam fakültəsində dərs deyirdi. Atası onu alim görmək istəyirdi. Görə bilmədi. Qismət olmadı. Sovet dövlətinin dağıldığı vaxtlar idi. Bəlkə də Vaqif başqa bir işin dalınca düşüb getsəydi, daha çox xeyir qazanardı. Bu barədə çox düşünmüşdü. Ya siyasətçi olardı, ya biznesmen olardı, ya özünə başqa bir karyera qurardı.

Bir dəfə təsadüfən bir "vor zakon"la eyni məclisə düşmüşdü. Üzbəüzündə oturan sakit, ciddi baxan neştər gözlərilə Vaqifin üzünü deşən bu adam qəflətən ayağa durub balkona siqaret çəkməyə çıxdı və başı ilə Vaqifə işarə etdi ki, sən də gəl. Siqaret çəkə-çəkə ona dedi:

– Sənə baxıram, xoşuma gəlir hərəkətlərin, danışığın. Nə iş görməyini bilmirəm. Mənimlə gəl. Gedək dünyanın o biri başına. Yaxşı olar sənin üçün.

Vaqif bu adama təşəkkür eləmişdi. Təklifini qəbul etməmişdi, amma sonralar zaman-zaman balkondakı o söhbəti xatırlamış və həyatının bir an içində necə bir yola düşəcəyini fikrinə gətirib dodaqlarına təbəssüm qondurmuşdu.

Cürbəcür "razborkalar", sərgüzəştlər, koloniya həyatı bir an içində xəyalından gəlib keçmişdi. Ən əsas – azadlıq! İstədiyini edə bilmək! Amma yox. Bu yola düşə bilməzdi. Qarşısındakı digər yollardan hər hansı birini seçsəydi də, uğur qazana bilərdi. Amma o bunu etmədi. Atasının ruhuna hörmət kimi ancaq elmin arxasınca getdi. Bəzən bundan peşmançılıq duydu, bəzən duymadı, amma həmişə bununla fəxr elədi. İndi, Allaha şükür, kafedra müdiri, professor, məşhur xeyriyyə qurumunun müdiri... Atası bunları görsəydi...

Ailənin bütün yükü onun çiyinlərində idi. "*Görünür, qısqanclıq keçib gedən hiss deyil. Bu adam uşaqlığından necə idisə, indi də eynilə o cürdür. Mənə deyir, gecəni anam yatmayıb, amma özü yatmayıbmış. Səhər tezdən də neçə dəfə işə zəng edib. Anonim zəngləri ki, Rüxsarə deyirdi, kimsə edib, "otboy" verir, Zöhrab*

idi, yüz faiz o idi. Bu da belə sevir, neyləmək olar?! Sözə bax: Nisə xala dəli olub... Düzəlmir də bu adam. Neynir eləsin, sən Allah..." – Vaqifin yadına balaca Zöhrabın qapı ağzına qoyulan çamadana altdan-altdan baxıb dodaqlarının büzülüb çənəsinin əsməsi düşdü, özünün dodağı qaçdı. *"Neynir eləsin, bircə mənim darağımı götürməsin, neyləyir eləsin..."*

Qısqanclıq və sevgi

Vaqif bu qısqanclıq məsələsini əməlli-başlı beyninə saldı. Sonra da romanın bütün yazılış müddətində bu sualın cavabını axtardı. *"Burada kim kimi kimə qısqana bilərdi?! Qısqanclığın əsər-əlaməti və yaxud rüşeymi Kitabda var idimi?! Yox idisə, bu o demək idi ki, – Vaqifin belə bir absurda inanmaqdan başqa bir çarəsi qalmırdı – deməli, qədim oğuzlarda əsl sevgi də olmayıb..."* Bütün qəhrəmanları bir-bir gözünün önündən keçirir, amma bir nəticəyə gələ bilmir, bu ağır sualına cavab tapmırdı.

Beyrək qısqanc ola bilərdimi?! Banuçiçəyi kimə qısqanmaq olardı?! Adamın ağlına heç kim gəlmirdi.

Banuçiçəyi daha kim qısqana bilərdi?! Bayburd qalasının bəyi bunu edə bilərdi. Casus gəlib ona xəbər verəndə ki, "Baybecan bəy sənə verəcəyi qızını (yəni, Banuçiçəyi) Boz atlı Beyrəyə verir, Bayburd qalasının bəyi bu xəbərin müqabilində Beyrəyi oğurladıb qalasında əsir edir. Bunun özü qısqanclığın bir əlaməti ola bilərmi?! Yaxşı, niyə bəs Banuçiçəyi yox, Beyrəyi oğurladılar?

Amma Bayburd bəyinin qısqanclığı "Oğuzdakı qısqanclıqla" eyniləşdirilə bilməz. Həqiqətənmi, görəsən, qısqanclıq ancaq Oğuzdan kənarda mövcud imiş – qısqancın biri Trabzonda – Selcan xatunun kuzeni, o biri Bayburdda?! Bəs Oğuz içində Banuçiçəyin istəkliləri necə?

Yalançı oğlu, düzdür, Banuçiçəyə evlənmək istirdi, ondan xoşlanmışdı, amma onun qısqanması Vaqifin bağındakı həyətdə gəzib dolaşan toyuqların yeganə xoruzu qısqanması kimi idi.

Basat?! Onların, yəni Banuçiçəklə Basatın bir-birini tanımasına Kitabda kiçik bir işarə belə yox idi. Yalnız axırıncı boyda Beyrəyin ölüm ayağında

dediyi sözlər ona işarə edirdi ki, Basat Beyrək öləndən sonra gəlib onun yurdunu darmadağın edə bilər, onun halalını, yəni Banuçiçəyi alıb apara bilər.

Salur Qazan?! Ağlabatan deyildi. Burla xatunun ərinin, Xanlar xanı Bayındır xanın kürəkəninin Oğuz içində başqasına gözü düşə bilməzdi. Elə Oğuzdan kənarda da bu barədə heç nə deyilmir. Digər tərəfdən, Beyrəyin də öz vəsiyyətində halalını Qazanın oğluna verilməsi barədə aşkar işarə var. Bundan başqa, Beyrəyin kafir qızı ilə "qəziyyəsi" fakt kimi qarşımızda durur və o biri Oğuz bəylərinin müvafiq, ya da oxşar vəziyyətdə hansı hərəkəti edəcəyinin, hansı addımı atacağının "deşifrə" olunacağını mümkünlük çərçivəsinə salırdı.

Daha kim qaldı?! Vaqifin beynindən bir-bir gəlib Buğac, Bəkil, Uruz, Şirşəmsəddin, Dəli Dondar, Qarabudaq keçdi. Amma heç biri Basat qədər onun axtardığı psixoloji vəziyyətə uyğun gəlmədi. Əslində, Basat da ağlabatan deyildi. Kifayət qədər cəmiyyət qayğılarından azad, təkbaşına, təbiət həsrəti ilə yaşayan, heç kimə qaynayıb-qarışmayan bir Oğuz igidi idi. Onun hansısa bir Oğuz gözəli ilə ilgilənməsi, kimisə sevməsi Kitabın ümumi ruhuna uyğun deyildi. Banuçiçək və Basat. Bu iki ad bir-birinin yanında normal şəkildə dura bilmirdi. Bəlkə belə bir hal nəzəri cəhətdən mümkün bir variant kimi diqqəti cəlb edə bilərdi. Ancaq nəzəri cəhətdən. Bu sadalanan Oğuz və yabançı bəylər arasında Banuçiçəyə Basatdan daha uyğun olan yeganə igid Qazanın oğlu Uruzdur.

Beyrək öz vəsiyyətində açıq şəkildə Qazandan rica edir ki, ağca üzlü halalını, yəni, Banuçiçəyi oğlu Uruza alsın. Banuçiçəyin adı ilə bağlı kişilər arasında Uruz da beləcənə ortaya çıxır. Uruz, Beyrək, Bayburd qalasının bəyi, Basat, Yalançı oğlu Yalançı – hamısı bir yerdə Banuçiçəklə adı bir çəkilən qəhrəmanlardır. Bu yerdə Vaqif "Banuçiçək və onun istəkliləri" mövzusunun ağırlığından diksindi – bu mövzu xüsusi roman mövzusudur, adam girsə, batar. "Bizə indiki halda dəxli yoxdur".

Oğuz normal bir cəmiyyət kimi inkişaf edirdisə, o zaman bu cəmiyyətdəki qız-gəlinlər öz simpatiyalarını cəsurluq, igidlik meyarlarının kimdə nə cür təcəssüm etməsi ilə müəyyənləşdirə bilməli idilər. Kimin adı dillərə düşürdü?! Kimin əməli, şöhrəti Oğuzu addım-addım gəzirdi?! Kim Dədə

Qorqudun şəninə layiq görülürdü. Oğuznamə qoşulurdusa, onu dinləyirdilər, deməli. Oğuznamə isə yuxarıda adları çəkilən Oğuz cəngavərlərinin hamısının şərəfinə qoşulmuşdu. Və bu oğuznamələrdən bəlkə də ən möhtəşəmi Basatın şərəfinə qoşulan idi. Cəmiyyətdəki qızlar ona niyə vurulmayaydılar?! O cümlədən, Banuçiçək niyə o qızların içində olmayaydı?!

Amma mətnə görə Banuçiçəyin sevdiyi Beyrək vardı. Banuçiçək bir başqasını daha sevə bilməzdi. Oğuzda bu cürənə bir halı müşahidə etmək nədir, xəyala gətirmək belə mümkün deyil. Bununla yanaşı, onu da qeyd eləmək lazımdır ki, Beyrək on altı il Oğuzdan ayrı düşüb. O, Bayburd qalasında əsirdir. Amma bunu biz bilirik, bunu Banuçiçək bilmir. Bunu Oğuzada heç kim bilmir. Beyrəyin harda olması Oğuz üçün bir sirdir. Buna görə də, Banuçiçək, nəhayət, Beyrəyin ölüm xəbərini gətirən Yalançı oğluna ərə getməyə razılıq verir. Bu müddət (on altı il) ərzində Banuçiçək Beyrəyi sevməyə davam edə bilərdimi?! Banuçiçək bu barədə tanımadığı Ozana – Oğuza geri dönmüş Beyrəyə etiraf edir, onu illər uzunu səbrlə gözlədiyini dilinə gətirir. Bəs bu zaman ərzində Basat fenomeni özünü göstərə bilməzdimi?! Buna əmin olmaq üçün biz ən azından Basat – Təpəgöz çarpışmasının nə zaman baş verdiyini bilməliyik. Bu çarpışma Beyrəyin əsir məntiqi əsasə olduğu on altı iləmi təsadüf edir?! Basatın şöhrəti bu müddətdəmi parlayır?! Əgər cavab müsbət olarsa, Dastanın sonuncu boyunda Beyrəyin tələşının olacağına (Basatın o öləndən sonra) gəlib Banuçiçəyi aparacağına, beləliklə sayrışmanın qaranlıq tərəfindən işıqlı tərəfinə üz tutacağımıza inanmaq olar. Basat onu vaxtilə sevən Banuçiçəyin arxasınca gələ bilər! Yenə sual: "bu sevgi birtərəfli idimi?"

Tanış olmayan "sonsuz lüğət" bizi yenə də öz mövcudiyyəti ilə sarsıdır. Yox, əgər, belə bir hal özünü göstərmirsə, Basatın qəhrəmanlığı ilə Beyrəyin Bayburddakı əsirliyi arasında toqquşan məqam yoxdursa, bunlar bir-birindən kənarda baş veriblərsə, məsələ yenə də qəlizləşir, sayrışmanın qaranlıq tərəfi qatılaşır və tanış "sonsuz lüğət" öz sərhədi içərisinə yad ünsürü – tanış olmayan "sonsuz lüğət"i buraxmır.

Bu məsələni necə həll etmək mümkündür?! İndiki halda Beyrək-Banuçiçək-Basat xətti bizə möhkəm bir ipucu vermir. Başqa qısqanclıq hissinin daşıyıcıları necə – varmıdılar Dastanda?!

Birdən, özü də əməlli-başlı qəflətən Vaqifin beyni qəribə bir şəkildə işıqlandı. Axı o özü qısqanc olmaya-olmaya Dastandakı qısqanclıq hissinin nümayəndələrini necə üzə çıxara bilər?! Bunu üzə çıxarmaq işini qısqanc bir adam daha münasib şəkildə reallaşdıra bilməzmi?! Məsələn, Vaqif öz sevgilisi Firəngiz qədər qısqanc bir adam həyatında tanımayıb. Niyə də olmasın – Firəngiz bu işi həyata keçirə bilməzmi?! Əlbəttə, Firəngiz! Əlbəttə, keçirə bilər!

"Əlbəttə, Firəngiz. Ancaq Firəngiz qəlbində yaşatdığı böyük bir qısqanclıqla "daha kim qısqanc ola bilər?!" sualına cavab tapar. Onu yenidən bu işə qaytarıb qatmaq lazımdır. O, Kitabı sonadək oxumalıdı. Cavabı ancaq o verə bilər. Firəngiz Laokoonun özü qədər şübhə dağarcığıdır. Ax, Laokoon, Laokoon!.. Yenə də sən məni düz yola çıxardın. Yenə də sən. Yeddi, səkkiz – qapını ört... Doğru cavabı ancaq Firəngiz verə bilər, o da verməsə, deməli, bu cəmiyyətdə qısqanclıq hissi heç əvvəldən olmayıb. Beş, altı – bizimki. Bu o deməkdir ki, ya bu dastan lap əvvəllərin məhsuludur, o əvvəllərin ki, o zaman hisslərin ilkin vəziyyəti ilə, ənlik-kirşandan əvvəlki sıfır vəziyyəti ilə qarşılaşırıq, ya da ki, bizim bu cəmiyyət qısqanclığın sirrini bilməyibsə, o, deməli, sevginin də mövcudluğunun fərqinə varmayıb, onun yanından, sadəcə, ötüb keçib".

Vaqif bunları düşünüb Firəngizi Kitabı axıra qədər diqqətlə necə oxumağa yönəltməyin yolları barədə düşünməyə başladı.

...Firəngiz bir həftədən sonra Vaqifə zəng etdi və xeyli yorğun bir səslə bildirdi ki, sənin "göstərişini" yerinə yetirdim. Vaqif onun nə demək istədiyini əvvəlcə başa düşmədi. Ürəyi həyəcanla vurdu.

– O nə göstəriş idi?! – Vaqif məsələni yüngül zarafat məcrasına salmaq istədi.

– Heç. Demədin oxu bu kitabı?! Kitabı oxuyub bitirdim. – Firəngiz ciddi tərzdə bunları deyib susdu.

– Təbriklər, təbriklər... – Vaqif az qala şoka düşmüşdü. Onu çaşdıran qızın səsində əvvəllər özünü büruzə verməyən və ona qəribə gələn bu ciddilik idi. Bu dəfə ciddilik çox təbii alınmışdı və bu ciddi səsin arxasında Firəngizin ciddi baxışı, ciddi görüntüsü dururdu. Qız dəyişmişdi. Səsində, baxışında, deyişində qəribə bir dərinlik var idi. Dünyalar gəzib gəlmiş bir

adam kimi idi. Bu dəyişikliyi, ancaq Vaqif duya bilərdi. Başqası üçün Firəngiz yenə də haman ənlik-kirşanlı Firəngiz idi.

– Hə, doğrudan da, mənə təbrik düşür.

Axşam saat səkkiz olardı. Vaqif hələ də işdə idi. Yazıb-pozurdu.

– Bəlkə görüşək? – Vaqif oğrun-oğrun təklif etdi.

– Yoox. Heç halım yoxdu. Elə yorulmuşam... Gedirəm yatmağa. Sən məni işə saldın, unutma. Sən həmişə necə deyirsən? Zülmlə bağlı. O şəhərin adı nəydi?

– Sivas?

– Hə...

– Sivas Sivas olalı belə zülm görməmişdi.

Firəngiz yavaş səslə, xısın-xısın, amma ürəkdən güldü:

– Gəl sabah görüşək. Mən də özümə gəlim.

– Oldu. Sabaha qalsın. Sənə elə paxıllığım tutur. Kitabı ilk dəfə təzəcə oxuyub bitirdiyinə görə. Nə boyda ləzzət almısan…

– Paxıllığın tutmur. Qısqanırsan. Kitaba qısqanırsan məni. – Firəngizin səsi o qədər yorğun, o qədər zəif idi ki, Vaqif onun xəstələnməsindən qorxdu. *"Bu niyə məsələni qısqanclığa gətirdi? Yoxsa... bu da mən düşünənləri düşünür?!"*

– Mən? Səni? Kitaba? Qısqanıram? Ay səni... Sən özün hələ bir de görüm necəsən? Yaxşısan? Səsin birtəhərdi. Bir yerin ağrımır ki? – Vaqif özözlüyündə, nəhayət, boynuna aldı ki, Firəngiz doğru deyir. Vaqif, deyəsən, doğrudanda qısqanırdı.

– Desəm, necə görəcəksən?! "De görüm"ə bax bir. Deyiləni də görərlər, yoldaş professor?! Yaxşı, yaxşı. Çox yorulmuşam. Sabah görüşərik, hər şeyi sənə danışacağam hər şeyi...

– Görüşək. Söz?

Firəngiz duruxdu:

– Söz! – nəhayət, dilləndi.

Firəngiz özü də bilmirdi ki, yavaş-yavaş ənlikli-kirşanlı dövrə qayıdır. Qayıdış asan deyildi.

Təpəgözün etirafı

"Vaqif, Vaqif, sən niyə bu qədər sadədilsən?! Sən gör kimə inanırsan?! Sən Təpəgözə inanırsan, Təpəgözə. O bədheybətə. Suyun ağzını tutub Oğuzu bir içim suya həsrət qoyan bu rəhmsiz bədheybətə. Niyə belə edirsən?! Bugünkü təpəgözlər də sənə ibrət dərsi olmurlarmı?! Qarabağda, Suqovuşanda suyun ağzını kəsib milləti suya möhtac edənlər bizə bəs deyillərmi?! Bir də bu suyun ağzı nə zaman açılacaq?! Artıq heç kim bu suyun ağzının açılacağına inanmır. Artıq heç kim heç kimə inanmır. Bir də Basat nə zaman doğular?! Amma doğulacaq. Nə zamansa bu olacaq. Tunelin sonunda işıq vardır. Biz o işığa gəlib çatacağıq. Bu, baş verəcək. Allaha pənah..."

Amma əgər o Təpəgözdə zərrə qədər də olsa əxlaq naminə nəsə arayıb tapmaq mümkün idisə, bugünkü təpəgözlərdə bu hissdən əsər-əlamət yoxdur. Bu şəksizdi. Kitabdakı Təpəgöz müasir təpəgözlərdən daha güvəniləsidir. Basatın məhv etdiyi Təpəgöz ölümqabağı Basata nələr demədi?! Hansı etirafları etmədi?! Onun səmimiyyətinə inanmamaq olmur.

Təpəgöz öz bəd əməllərindən peşman olduğunu boynuna aldı. Bu peşmançılıq qarşılığında özünü öldürməyi arzuladığını dilinə gətirdi. O, Basata etiraf etdi. Təpəgöz sui-qəsdəmi hazırlaşırdı?! Təpəgöz canınamı qıyacaqdı?!

Bəli, Kitab deyir ki, bu belə idi...

"Mən bunu elə belə də yazsam, mənə nələr deməzlər?! Hər yerindən duran küfr edər. Amma yenə də bir Allah bəndəsi gedib maraqlanmayacaq ki, bu bədbəxt Təpəgöz sallaqxanada mancılaq daşını göyə atıb başını onun altına niyə tutmaq istədiyini Basata deyib, ya deməyib?! Deyibsə, o isə bunu deyib, bu, bir etirafdır, yoxsa etiraf deyil?! O bunu niyə etmək istəyib?!

Mən bu gün Kitab barədə düşünməsəm daha yaxşı olar. Sabah yəqin ki, təzə gözlə baxış atılsa, bu Kitab yeni sözlər deyər. Sabah, mən inanıram, tanış olmayan, yad "sonsuz lüğət"in ağzı açılacaq, nə açılacaq. Firəngiz özü bunu hiss etməyəcək. Onun özü, sadəcə, ötürücü olacaq. Bircə, bu "sonsuz lüğət" onu çaşdırmayaydı. Və o, Niaqara kimi birbaşa onun başına tökülən bu yeni və nəhəng bilik bolluğundan qorxmayaydı".

“Kafirin casusu casusladı...”

Vaqif düşünürdü.

“Qədim Dastandakı qaranlıq boşluqlardan biri də havada kabus kimi dolaşan “casus” obrazıdır. Dastanda casus barədə iki-üç yerdə, özü də çox xəsisliklə deyilir. “Kafirin casusu!” Kimdir o?! Oğuzda nə işi var?! O başqa uzaq yerlərdən gəlirdi, yoxsa Oğuzda yaşayırdı?! Başqa sözlə, casus Oğuziçi bir adam idi, yoxsa Oğuzdan kənar adam idi?! Kafirə necə işləyirdi?! Hansı şərtlərlə?! Xəbəri necə ötürürdü?! “Kafirin casusu casusladı...” Sözə bax. Sözün, ifadənin dərinliyinə fikir ver. Şellinqin dediyi kimi sözün dərinliyində sayrışmalar var.

Kim bilir, bu casusluq konkret olaraq necə həyata keçirilir?! Bəs Oğuz bəylərinin öz əks-kəşfiyyatı yox idi?! Nə üçün Qazanın, Beyrəyin, Bəkilin başına gələnlərin Oğuzda qarşısını almaq barədə düşünmürlər?! Nə üçün casus Oğuzda cəzasız gəzib dolaşır?! Belə bir “xidmət” necə ola bilər ki, Bayındır xanın ətrafında, yaxud Salur Qazanın idarəçiliyində olmaya idi?! Yox idisə, deməli, belə bir məsuliyyəti daşıyan adamları uydurmaq lazım gələcəkdi.

Bu obraz bizim romanın məhək daşı ola bilər. Casusdan gələn xətlər sanki hər tərəfə dağılır. Casus Oğuzdan çıxıb yenə də Oğuza qayıdan yeganə fantomdur. Onu Oğuzdan “çıxanda”, yəni, işini yerinə yetirəndən sonra görürsən. Bir də onu “qayıdanda”, yəni, yenidən işinə başlayanda görürsən. Onu yalnız işinin “icrası” zamanı görə bilmirsən. İşarası casusu, həqiqətən də, uydurmaq lazımdır. O kimdir, kimin oğludur, kimin evində yaşayır?! Bu işə necə olub ki, başlayıb?! Kim tərəfindən görəvləndirilib?! Suallar, suallar, suallar...

Casusu təcili olaraq kiməsə oğulluğa vermək lazımdır. Oğuzda “xaricilərlə” təmasda ən çox kim olurdu? Salur Qazan olurdu. Bəlkə Qılbaş olurdu. Bayındır xanın məsləhətçisi Qəflət Qoca olurdu. Qanturalı və onun atası olurdu. Vəzifələ-

rinə, tutduqları mövqelərinə görə olanlar – bunlardır. Daha kimlər yada gəlir?! Çox adamın adı... gəlmir adamın ağlına – bunu açıq demək lazımdır.

Bəs Oğuza ətraf dünyadan, çeşidli kafir şəhərlərindən gələnlər olmurdumu?! Karvanlar gəlmirdimi?! Bu karvanlarla tacirlər, sənətkarlar, dövlət adamları, dərvişlər, qulsatanlar, kəniz alverçiləri, muzdlu əsgərlər, təzkiräçilər, səyahətçilər, nağıldanışanlar, başqa-başqa tayfalardan bəylər, ağalar, məliklər, özünə yeni vətən axtaranlar, pəhləvanlar, oyunbazlar, falçılar, sehrbazlar, cadugərlər, həkimlər, dərdəçarələr gəlmirdilərmi?! Belə idisə, o zaman onlar üçün Oğuzda əyləncə yerləri yaradılmamış deyildi. Onlara Oğuzda karvansaraylar tikilməzmiydi? Qulluqlarında duran xidmətçilər ayarlanmazdımı? Əyləncə və qalmaqal dolu gecələr onları gözləməzdimi?

Casus olaraq bu gələnlərdən kimisə Oğuzda buraxıb getmək, yaxud da ki, kimisə Oğuz içindən tapıb casus etmək o gecələrdə doğan məşum düşüncələrin nəticəsi deyilmiydi? Adamlara onların istədiklərini vermək lazım idi. Dünyanın ayrılmaz bir parçası yalnız bu cür olmaq mümkündür.

Digər tərəfdən. Oğuz tam bir bütöv cəmiyyət idisə, onun özünün içində ən qədim peşənin sahibləri də olmalıydı. Beyrəyin toyunda onu Banuçiçək adına çaşdırmaq istədikləri qadınlardan biri də məhz "qırx oynaşlı" Boğazca Fatma idi. Bu qadına xüsusi bir diqqətlə baxmaq lazımdır. Casusun anası roluna ondan yaxşı "namizəd" tapmaq mümkün deyil. "Qırx oynaşın" arasında yəqin ki, karvanla gələn yadellilərdən də kimlərsə var idi. Və casus böyüdükcə onun tərbiyəsi zaman-zaman bu adamların "nəzarətində" olurdu. Onun qədər heç kimə casusluq yaraşmazdı. Arxası "dərəcik" olan evlərində ("evinizin ardı dərəcik deyilmiydi?" – Beyrək boğazca Fatmadan belə sorur) böyüyə-böyüyə kimləri, kimləri görən bu balaca… Boğazca Fatmanın oğlu. Boğazca Fatmanın yeganə oğlu. Amma dərindən düşünürkən burada kiçik bir uyğunsuzluğun özünü göstərdiyini görməmək olmur.

"Boğazca" sözü tez-tez boğaza qalan, hamilə olan bir qadın üçün deyilər. Deməli, əslində, Boğazca Fatmanın çoxlu uşağı ola bilərdi. Ləqəb öz-özünə hər şeyi açıq şəkildə deyir. Bəs nəyə əsasən bizim romanda onun bircə oğlu olmalı idi?!

Digər tərəfdən, Beyrək üçün toy zamanı Boğazca ilə bərabər, Banuçiçəyin yerinə oynamağa başqa bir qadın da qaldırırlar. Bu qadının adı Qısırca Yengədir. Yəni, adından da göründüyü kimi, övladı olmayan biridir. Bu qadınları qarşılaş-

dırsaq, görərik ki, birinin heç övladı olmamasına, o birinin isə çoxlu övladı olmasına Dastanda onların adları ilə işarə edilir: Qısırca və Boğazca.

O zaman niyə Boğazca Fatmanın yeganə oğlu?! Onun axı çox övladı ola bilərdi. Bunun bir səbəbi var. Sadəcə, Dastanda yalnız Boğazca Fatmanın ən qədim peşə sahibi kimi adı çəkilir, ünvanı deyilir, hətta köpəyi Bəraqcuq ilə bu qadın son nöqtəsinə qədər identifikasiyadan keçirilir. Bəli, Bəraqcuq adlı iti olan, evlərinin arxası dərəcik olan, adı Boğazca Fatma olan qadın Oğuzda fəaliyyətdə olan casusun anası ola bilər. Bu rol ondan yaxşı heç kimin əyninə belə gözəl bir şəkildə biçilə bilməz. Oxucunun casusu niyə Qısırcanın yox, məhz Boğazcanın oğlu kimi qəbul etməsi isə müəllifin şansına qalır. Şans varsa, heç kim "Boğazca" sözünün mənasına fikir verməyəcək, sadəcə olaraq, onun ayamasından – "qırx oynaşlı" sözündən çıxış edəcəkdir. Casusun anasına "qırx oynaşlı" qadından yaxşı bir ana tapmaq çətin məsələdir. Bu kiçik uyğunsuzluq, inşallah, oxucunun diqqətini çəkməz". Casusun anasına "qırx oynaşlı" qadından yaxşı bir ana tapmaq qəliz məsələdir. Bu kiçik uyğunsuzluq, inşəallah, oxucunun diqqətini çəkməz".

"Hələ görək sabah Firəngiz bizi nə ilə sevindirəcək. Bu anekdotu gərək ona danışım. Çox uyğundur onun Kitabı oxumasına". Lətifəni yada saldığında Vaqifin üzünə təbəssüm yayıldı.

– Ana, sən bu adama dedinmi mənim sözlərimi?! – Üzbəüz oturmuş qardaşını nəzərdə tuturdu. – İndidən özünə birini tapsa, iki-üç ilə bu iş ancaq başa gələr. Əsl vaxtı olar. 25-26 yaşında toyunu eləsin. Mən bu evdə qalmayacağam. Sənինlə bir yerdə yaşasın. Yoğurmadım, yapmadım, hazırca kökə tapdım. Bu adam sən ki bilirsən, hazırca kökə işinin ustasıdır. Daha nə istəyir?!

Üçü də oturub axşam yeməyindən sonra ailədə artıq ənənəyə çevrilmiş birgə "axşam çayı" məclisi qurub televizora baxırdılar. Anası bu dəfə süfrəyə zoğal mürəbbəsi də qoymuşdu. Vaqif ləzzətlə bu mürəbbədən yeyir, çayını içir və çoxdan qardaşına demək istədiyi sözləri bu gecə, nəhayət ki, dilinə gətirirdi. Son ümidini hələ deyəcəyi sürpriz sözlərinə saxlamışdı. Həmişə olduğu kimi anaları ilə bir yerdə olanda Vaqif də, Zöhrab da bir–birinə ünvanladıqları sözlərini ona deyərdilər. Vaqif indi də elə etdi.

Zöhrab tanış mövzunu eşidib üz-gözünü turşutdu. Anası ona baxıb başını yellədi. *"Eh... bundan tərpənən olar?!"*

– Yaxşı, bu maşını da bağışlayıram ona. – Vaqif çoxdan ürəyində saxladığı niyyətini bomba kimi ortaya atdı. – Siz qoymazsınız adamı toy günü sürpriz eləsin. Mən bu xəbəri toya sürpriz kimi hazırlamışdım. Bax, indi əvvəlcədən deyirəm. Maşın – onunku! Daha nədi sözü?

– Nisə xala, heç hənanın yeridi? – Zöhrabın səsi bu dəfə elə yumşaq, elə yaltaqcasına, az qala elə zərif çıxdı ki, Vaqifi az qaldı gülmək tutsun. *"Səs də bu qədər sevinərmiş..."*

O, ürəyində niyyətini çoxdan tutmuşdu. Bilirdi bunu ki, Zöhrab müəllimin maşın eşqi az qala dəlilik dərəcəsinə çatır. Dəfələrlə içki məclisindən sonra Vaqif onu çağırıb evə qədər maşın sürməyini etibar eləmişdi. Zöhrabın gözləri… gözləri ləzzətdən elə qıyılırdı ki, Vaqif az qalırdı maşının açarlarını elə indicə ona versin, başını sinəsinə sıxıb üzündən öpdükcə öpsün. Nəhayət, düşünüb-daşınıb hədiyyəsini Zöhrab müəllimin toyuna saxladı.

Vaqif indi dediyindən özü də razı qaldı. Maşın söhbəti söz yox ki, öz işini görəcəkdi. O bunu hiss etdi. Bilsəydi bunu çoxdan deyərdi.

– Amma onu da deyim ki, bu təklifin müddəti var. Biləsiniz. Qış sessiyası bitənə qədər keçərlidir. – Vaqif Zöhrab müəllimin əl-ayağını birdəfəlik bağladı.

"Daha heş hara qaça bilməz".

Vaqif süfrə arxasından qalxdı:

– Ana, bax, mən yadına salmayana qədər bu zoğal mürəbbəsini bizə yedirtməyəcəkdin. Əladı. Sağ ol. – Vaqif yataq otağına keçməzdən əvvəl bu dəfə üzünü Zöhraba tutub:

– Sabah sən mənə lazımsan, – dedi. – Səhər məni işə atarsan. Sonra maşının yağına baxdırmaq lazımdır. Apararsan Məliyin yanına, tez də qaytarıb gətirərsən işə.

Cavab gözləmədən öz yataq otağına keçdi. Cavabsız da bilirdi. Ömründə ola bilməzdi ki, sözü yerə düşsün.

Zöhrab tapşırığı alandan sonra tez beynində sabahkı planlarını götür-qoy elədi. İş – bulvarın yanında. Məliyin profilaktoriyası – Kubinkada. Zöhrab yağ işlərini qurtarıb saat on ikiyə universitetə çata bilərdi. Üçüncü dərs "potok" idi. Qruplar birləşirdi. Sevinci hökmən görmək, bugünkü söh-

bəti ona çatdırmaq lazım idi. Maşın söhbətini boş buraxmaq olmaz. Onsuz da Sevinclə öz aralarında danışıb sözləşmişdilər, bu iş olmalı idi. Niyə də yox?! Hamı razıdısa, o da dünəndən razıdı. *"Yaxşı ki, özümü naza qoydum. Bu, pis olmadı. Buyur, faydasını da gördüm. Yoxsa elə hər evlən deyəndə adam durub evlənsə, hörməti də olmaz… elə maşını da".*

Vaqif gedəndən sonra anasının ona diqqətlə baxdığını görüb Zöhrab *"bu arvad hər şeyi hiss edir, intuisiyası güclüdür"* düşünüb yalandan qaş-qabağını tökdü:

– Baxarıq, görərik. Fikirləşmək lazımdır. Elə bilirsən, Nisə xala, asan məsələdi bu?! Bir maşınla həll elədin – bitdi?Asandısa özü niyə durub qalıb?! Hələlik qəti bir söz deyə bilmərəm. Mən bu barədə fikirləşərəm. – Zöhrabın səsi o qədər süni çıxdı ki…

– Ay qırışmal, gözlərinin dibinəcən görürəm səni. Gülməyini, sevincini güclə saxlayırsan. Utanmasan durub əl götürüb oynarsan. Noolar, adam kimi bir söz de, biz də, nəhayət, sevinək. Gördün qardaşını? Kimin belə qardaşı var?!

– Gördüm, Nisə xala, gördüm... – Zöhrab anasına yaxınlaşıb onu oturduğu yerdəcə boynundan qucaqladı. – Amma biz də çörəyi burnumuza yox, ağzımıza yeyirik. Siz mənə kələk gələ bilməzsiniz. Sənin oğlun bu səfər, elə bil ki, nədənsə xəbəri olan adamlar kimi danışırdı. Görəsən məni ona kim casuslayıb?! Sevinc xəbərini ona kim verib?! Sən bilmirsən?! Ay Nisə xala, ay Nisə xala... Evin içində casus varmış... Kimdi o casus? Kimdi?

Zöhrab anasının boğazını qolları arasında böyük bir məhəbbətlə elə sıxdı və hər iki yanağından elə bərkdən öpdü ki, Nisə xala güclə "burax, boğuldum mən ki, burax... boğazımı. Məni casus eləyirsən? Sağ ol, səni. Mən heç nə deməmişəm. Nə bilirəm ki, mən yazıq, nə də deyim?!" dillənə bildi.

Oğlunun coşub-daşan sevincini görən Nisə xanım qəhərlənmişdi. Sonra o da öz növbəsində qayıdıb Zöhrabın üzündən öpdü. Yaylığı ilə gözünün ucunu silərək belə dedi:

– Bax, ay bala, daha bəsdi, qardaşının sözünü yerə salma, ayıbdı. O Sevincdi, nədi, onunla danış, istəyirsən gətir evə, bizi tanış elə, istəyirsən, mən gedim onların evinə kişilərdən əvvəl... Qərəz bu işi bitirmək lazımdır.

Vaqif beyninə vurub ki, əvvəlcə səni evləndirsin, sonra özü evlənsin. İndi düz fikirləşir, düz fikirləşmir, özü bilər. Bu, bizim işimiz deyil. Amma belə çıxır ki, sən bilə-bilə onun evlənməyini yubadırsan. Onun da yaşı keçir axı. Hərəkət eləmək vaxtıdı. Amma o şipyon deyirsən, nə deyirsən, vallah, mən Vaqifə bu barədə bir kəlmə də deməmişəm, biləsən.

Vaqif yatağına uzanıb, sən bir işin "tərsliyinə" bax, Kitabdakı casus barədə düşünürdü. Bu qəhrəmanlıq dastanına, xalqın təmiz mənəviyyatının güzgüsü olan xalq dünyasının ensiklopediyasına "casus" personajını salmaq, bir çox məqamlarda bu casusa hadisələri tənzim edən əsas rol vermək dastanı formalaşdıran ideologiyanın hansı məqsədinə uyğun gəlirdi?! Vaqif, bax, bu suala cavab tapa bilmirdi. Amma aşkar olan bu idi ki, roman yazıldıqdan sonra və casus romanda "ətə-cana" gəldikdən sonra bu xamır çox su aparacaqdı. "Bu cəmiyyətdə casus ola bilməz! Keçmişimizə çamur atanlara ar olsun!" kimi şüarları Vaqif bəri başdan eşidirdi. Amma Vaqif belə bir prinsipdən çıxış etməyi qərara almışdı. *"Xalqını sevənlərə eşq olsun. Həqiqəti sevənlərə isə ikiqat eşq olsun!"*

Kitabdakı bir çox vacib məqamlarda casus öz işini görür – o, Qazanın ova çıxdığını, Bəkilin atdan yıxılıb, ayağını sındırdığını, Banuçiçəyin Beyrəklə toyunu Bayburd bəyinə xəbər verir. Kitabda casusun adı belə təqdim edilir: Kafirin casusu!

Vaqif duruxdu. *"Dayan, dayan. Oğuzda casus varmı? Var. Amma kim dedi ki, kafirin casusu hökmən Oğuz adamıdı, kafir elinin adamı deyil?! Laokoon özü gizli bir casus deyilmiydi?! Kim deyə bilər ki, bu kahin belə canfəşanlıq etməsəydi, ətrafındakıların diqqətini hay-küylə öz üzərinə çəkməsəydi, sakit troyalılardan biri əsrləri qabaqlayaraq "kral axı lütdür!" düşünüb bu nəhəng atın əvvəlcə qarnını yarmaq təklifini ətrafındakı çılğın başlara qəbul etdirməyəcəkdi?! Belə bir uzunluqda olan məsələnin hansı nöqtəsindədi Laokoon?!"*

Vaqif bu xeyli mürəkkəb məsələ ilə bağlı düşünmək belə istəmədi.

Şah-bənzər (Xızır)-Lələ

"Mən nə üçün yazıram?! Nə üçün süjet fikirləşirəm, nə üçün gah Beyrəyin və kafir qızının dalınca qaçıram, nə üçün casusu heç nədən həyata dəvət edib izləməyə başlayıram, mən axı bu mifoloji tarixdən nə istəyirəm?! Niyə real tarix məni bu qədərinə maraqlandırmır?! Hər şey hazır, yazılıb. Amma yox. Bu mənə lazım deyil. Mənə lazım olan sayrışmaların tarixidir, o uzaq dövrün, mifoloji tarixin gizlinləridir. Əlbəttə ki, məsələnin canı elə bu mifoloji tarixin üstündədi. Amma orası da var ki, təkcə mifoloji tarixlə iş keçməz. Real tarixə keçid lazımdır. Bunları – mifoloji tarixlə real tarixi bir-birinə vurmaq, bir-birinin içində əritmək! Bunları ən yaxşısı, bir-birinin yanında, bir-birini əvəzləyən tarix kəsikləri kimi göstərmək. Bax, bu olardı əsl, bütöv tarix. Amma hardadı o real tarix?! Mifolojiyə ən dərin qatı ilə həmdəm olan tarix hanı?! O dərin qatdakı ədəbi dəyərləri ilə bir yerdə.

Nizami dövründən yadda qalan bir unudulmaz məqam varsa, o da ona göndərilən kənizdir və şairin bu kənizlə evlənməsidir. Gör nə boyda ürəyin sahibi olmalısan ki, sənə kəniz kimi göndərilən biri ilə evlənəsən. İnsana bu boyda qiymət qoyma heç bizim mifoloji tariximizdə də olmayıb. "Kitabi-Dədə Qorqud"da belə buna bənzər motiv yoxdur.

Gələk üzü biz tərəfə. Nəsimi dövrü. Hürufilik. Amansız əqidə mübarizələri. Bunun arxasındakı dini və siyasi mətləblər. Yenə də ağlıma bir şey gəlmir.

Xətai. Təğyir-libas olub bazara çıxan şair-hökmdar. Şəhəri gəzən şah. Bax, bu artıq maraqlıdır. Nağıllardakı şah obrazı. Bənzərlərini ətrafa dağıdan hökmdar. Əsas bənzərinin adı nə idi? Xızır idi. Şah və onun bənzəri. Bəs bu bənzəri ona kim tapıb gətirirdi? Lələsi tapmalı idi, daha kim tapacaqdı?! Şahın lələsi və xeyirxahı olan Hüseyn bəy Lələ. Mürəbbisi, fədakarı. Yolunda həyatını qurban verməyə hazır şəxs.

Şah-Xızır-Lələ. Maraqlı üçbucaqdı. Bunun üzərində düşünməyə dəyər. Şah və şair – bir adamın timsalında. Bəlkə şah başqa, şair başqa idi? Nağıl! Amma adamın yadına Nils Borun sözləri düşür. O necə deyirdi: "O qədərmi ağlasığmaz şeylərdən danışırsan ki, həqiqətə bənzəsin?"

Dədə Qorqud aləmi ilə Şah İsmayıl dünyası mifoloji və real tarixin əks-sədaları kimi (sayrışmanın iki üzü kimi) bir-birini izləsə, bəlkə də bir-birini qovalasa, ortaya bizi düşündürən, bizimlə danışan, bizi bəzi mətləblərdən hali etmək istəyən gerçəkliklər çıxa bilməzmi?! Bəlkə də çıxar. Bunlar sayrışmanın iki üzü kimi – biri qaranlıq, o biri işıqlı üzü kimi bizi işıqdan qaranlığa, qaranlıqdan işığa ata-ata əsl həqiqəti ortaya qoya bilməzmi?! Birinin həqiqəti o birinin nağılında, o birinin nağılı digərinin həqiqətində deyilmi?! Və əsl həqiqət – keçid anında!

Sınayaq. Həqiqəti aşkarlamaq alınsa da, alınmasa da romanın bütövlüyünü şərtləndirəcək. Romanı daha möhkəm bünövrəli edəcək. Amma o böyük həqiqətə varmaq alınmaya da bilər. Məncə, alınmasa, daha yey. Cəhdin böyüklüyü bizi qəhr içində boğmazmı, boğar".

Vaqif bu fikirləri içində çabalaya-çabalaya qalmışdı və Firəngizlə görüşünü suyun dibindən suyun üzünə çıxmaq kimi gözləyirdi.

"Qızların yanına getmək istərəm!"

Vaqif əsas mətləbə keçməzdən əvvəl istədi ki, Firəngizə dünən xatırladığı lətifəni danışsın.

– Mən o qədər sevinirəm ki, sən, nəhayət, bu Dastanı oxudun. Bilirdim ki, nə zamansa bu qəhrəmanlığı edəcəksən. Anekdot var...

Elə bu zaman onların stoluna əlindəki boş podnosu barmaqları ilə qaval kimi dınqıldada-dınqıldada Aslan yaxınlaşdı:

– Salam, əzizi-mənlər. Necəsiz? Çoxdandı görünmürsüz?! Küsüb barışmısız, ya ki?..

– Aslan, sən xoşbəxt adamsan, bilirsən? – Firəngiz ciddi şəkildə Aslanla salamlaşıb üzünü yenə dənizə tərəf tutdu. Bütün təhər-tövrü ilə demək istəyirdi ki, zarafatlıq halı yoxdur.

– Yox, bilmirəm. Nöşün ki?

– Oşünkü bura kimi gözəl yer var dünyada? Gör bir sən harda işləyirsən? Düz dənizin qırağında. Ləpələrin səsi... göydə ulduzlar... ürəyində sevgi-məhəbbət... Düz demirəm, Aslançik?! Buraların qədrini bil.

Firəngiz ötəri olaraq Aslana nəzər salıb üzünü yenə dənizə çevirdi. Uzaqda, lap uzaqda məşum bir qaranlıq gizlənmişdi, o qaranlıq dənizin üstü ilə yavaş-yavaş sahilə tərəf sürünməkdə idi.

Aslan Firəngizin dediklərindən bir şey başa düşmədi:

– Biləsiz, bir-iki saata burda tufan qopacaq. Yeyin-için, yaxşı yol. Görürsən ordakı dalğaları, Fira?! Xəzri yaxınlaşır. – Aslan əlilə Firəngiz baxan səmti göstərdi.

– Yox, mən yemək istəmirəm. Mən çay istəyirəm. – Firəngiz Vaqifə tərəf çevrildi. – Vaqif, sən işdən gəlirsən, sən ye.

– Mən də – çay.

– Sizdən adama xeyir verən olmaz. O boyda yolu çay içməyə gəlmisiz? Çayı için evinizdə. – Aslan yarızarafat, yarıciddi söylənə-söylənə əlindəki boş podnosu yenə də işarə barmağı ilə qaval kimi dınqıldada-dınqıldada restoranın içinə qayıtdı.

– Nə anekdotdu, danışmaq istəyirdin?! – Firəngiz uzaqlarda Aslan göstərən yerdə həmin dalğaları axtarıb tapmaq istədi, tapa bilmədi. Sonra sualına cavab gözləmədən səsini əzdirə-əzdirə Vaqifə dedi:

– Mən istəmirəm, burda tufan qopsun, Vaqif. Bir şey elə, qopmasın. Eləyə bilərsən?

– Qopmayacaq, narahat olma. Biz burda olanacan tufan-filan yoxdu. Rahat-rahat çayımızı içəcəyik.

– Söz verirsən? – Firəngiz əllərini uzadıb Vaqifin əlini qamarladı. Gözlərini Vaqifin üzünə dikdi.

– Verirəm. Hə, anekdotu istəyirsən, danışım?

– Yox daha. İstəmirəm. Sonra. Noolar, incimə...

– Niyə inciyim?! İncimərəm. Sən necə istəyirsən…

Firəngiz bu dəfə qəribə bir ciddiliyin içinə girmişdi. Xüsusi həsrətlə Vaqifin üzünü-gözünü seyr edir, bənövşəyi şarfı boğazında dolaşdırır, mənalı-mənalı qaşlarını qaldırır, əlləri ilə Vaqifin əlini tumarlayır, hər bir hərəkəti ilə Vaqifə nəvaziş edirdi. Vaqif də onun hər hərəkətini diqqətlə izləyir, fəhmi ilə hiss edirdi ki, indi onun qarşısında oturmuş bu qadın onun tanıdığı əvvəlki nazlı-qəmzəli qız deyil. *"Bu daha çox Burla xatundur, bu, artıq beş nəfər istəklisi olan Banuçiçəyə oxşamır. Qısqanclıq məsələsi getdi quyunun dibinə, Məlikməmmədi gözləməyə. Bu xanım qısqanclığın qarşı tərəfini tapa bilməz. Sayrışma birtərəfli qaldı. İşıqlı tərəfi sevgi, qaranlıq tərəfi – naməlum. Belə isə, o zaman sayrışmanın özü də fantom kimi gözəgörünməzdir".* Vaqif düşünür, düşünür, ürəyində bütün sevənləri və qısqananları yamanlayırdı.

Vaqif çox qəribə bir durumu müşahidə etməkdəydi. Elə bil ki, Firəngizi dəyişdirmişdilər. Dəyişməyə sanki əsas yox idi. Amma onun xarakterini Vaqif heç zaman bu cür aydın hiss etməmişdi. Sakitliyin arxasında tələtüm yox idi, rahat tərzin arxasında tufan yox idi, ya da duyulmurdu. Firəngizə məxsus həmişəki sayrışmadan əsər-əlamət hiss edilmirdi, görünmürdü. İs-

tidən soyuğa, küydən səsə, qəmdən sevincə və əksinəsi yox idi. Sayrışmanın ahəngi pozulmuşdu. Birtərəfli qalmışdı. Və bu hal Firəngizi qəribə bir hüzur içinə salmışdı. Firəngiz başdan-başa hüzur idi və o, indi Vaqifi də bu hüzur çətirinin altına çağırırdı.

"Bu qızı, yəni Kitabmı belə dəyişdi?! Bu dəyişmə necə oldu, baş verdi?! Kitab hamınımı bu cür dəyişir?! Məni dəmi zamanında belə dəyişdi Kitab?! Yaxşıdımı bu, yoxsa yaxşı deyil?! Bu qız da qadınlaşıb, ahəngə düşüb, artıq düşünüb danışır. Bunu lap elə Kitabın qəhrəmanlarından biri kimi görmək də olar. Bu sevən birisidir. O zaman məqsədimizə, deməli, çatdıq. Sevirsə, qısqanır. Hər şeyi Firəngizdən öyrənmənin zamanı gəldi, deməli. İndi bunu bizə deyəcək. Sevdiyi kim olub, qısqandığı kim?!"

– Firəngiz, Kitab necə idi? Hər sözünü başa düşdünmü? Çünki elə sözlər var ki orada, asan deyil birinci dəfədən anlamaq. Mənim özüm bəzən lüğətlərə baxıram. – Vaqif altdan-altdan mətləbə uzaqdan başladı.

– Əvvəlcə, sən sağ ol ki, Kitabı verdin oxumağa. Bilirsən, sən düz deyirsən, bəzi yerlər çətin anlaşılırdı. Amma mən anlaşılmayan yerləri ümumi məzmundan başa düşməyə çalışdım. Tam qaranlıq yerlər də var idi. Aydın yerlərin fonunda onları da anladım. Qaranlıq – işıq, qaranlıq – işıq... Bunlar mən oxuduqca bir-birini əvəz etdi. Belə olmasaydı, çətin olardı.

– İnanırsan, mənim də üsulum o idi... – Vaqif bu üsulu özünün qıza dediyini unutdu. Və ona qəribə gəldi ki, Firəngiz də Kitabı onun üsulu ilə oxumağa girişib. *"O zaman Firəngizin özü mənim dünyamın mənə tanış olmayan "sonsuz lüğət"inin bir parçasına dönmədimi?!"*

– Ən çox kimdən xoşlandın? Mən qızları, qadınları nəzərdə tuturam. Burdakılardan kim sənə yaxın oldu? – Vaqif soruşdu.

– Hamısından xoşlandım. – Firəngiz gözlərini yumub özünü Kitabdakı aləmdə təsəvvür etdi.

– Hm... Kimin yerinə olmaq istərdin o dövrdə yaşasaydın?

Firəngizdən cavab gəlmədi. Bu barədə düşünməmişdi. Handan-hana:

– Mən? – deyə dalğın-dalğın soruşdu.

– Yox, mən. – Vaqif söhbətə zarafat çaları gətirmək istədi. Firəngiz buna fikir vermədi.

– Hamısına və heç kimə. Yox, bu cavab şablon oldu. Ən çox, bilirsən kimə oxşatdım özümü? Kafir qızına. Bayburd bəyinin qızına. Beyrək onu aldadır, eləmi? Söz verir, amma özünə toy edəndən sonra gəlib onu halallığa almır. Bax, məncə, Beyrəyi əsl sevən qız o idi.

– Niyə? Bəs Banuçiçək?

– Hə... Banuçiçək də. O da sevirdi. Amma o, elə bil ki, Basatı da sevmişdi. Hətta onun adı Bayburd bəyi ilə də çıxmışdı. Atası onu Bayburd bəyinə vermişdi. Beyrəklə doğulan kimi nişanlı olandan sonra. Banuçiçəyin atası ilə qardaşı bu nikahı müzakirə edirlər, yadında? Bu Banuçiçəyin nə qədər istəklisi olarmış?! Beyrək, Bayburd bəyi, Basat, Uruz, Yalançı… Yalançının biri yalançı, alçaq…

Vaqif ağzı açıq, qurumuşca susub Firəngizi dinləyirdi. Firəngiz, deyəsən, Kitabda bərq vuran sayrışmaların yanından keçərkən onların hamısını görmüşdü. Firəngiz indi Vaqifin gözündə Laplasın demonuna bənzəyirdi. Bütün nəticələri bilən və bütün səbəbləri üzə çıxaran Demon. Vaqif ağlına gələn bu sərsəri fikirdən diksindi.

– Vaqif, sənə noolub? Ağzın niyə açıq qalıb? Bağla ağzını, milçək girər.

– Fira, bəs bu qız, kafir qızını deyirəm, Beyrəyi Bayburd qalasından qaçırandan sonra onu qısqandımı kiməsə? Lap elə Banuçiçəyə?

– Onu bilmədim. Dayan, dayan, mən onu Beyrək qaçandan sonra bir dəfə də gördüm.

– Harda gördün? Bəs mən niyə onu görmədim? Kitabda bu yazılmayıb axı… – Vaqifin ürəyinə nəsə damdı.

– Axı Beyrək qırx yoldaşını Bayburddakı həbsdən çıxarmamış gərdəyə girmədi, yadında? Gərdək bilirsən nədi?

Vaqif yüngülcə gülümsədi. Firəngiz buna fikir vermədən davam etdi:

– Yəni, yatağa. Sən Allah, doğrudan bilmirdin?

– Yox, bilmirdim. Mən yazıq hardan bilim? – Vaqif özünü pəjmürdə olmuş kimi göstərərək Firəngizi təşviq eləmək istədi.

– Mən onu bir daha Beyrək qoşunla geri dönüb yoldaşlarını xilas edəndən sonra, yəni Baydurdu darmadağın edəndən sonra əsir kənizlərin arasında Oğuza qənimət kimi aparılarkən yolda gördüm. O çox, sən necə

deyirsən, məhzun idi... Sonra o, Beyrəyin toyunda bəylərə şərab paylayırdı. Banuçiçəyə də bu zaman çox böyük nifrətlə baxırdı.

– Banuçiçəyə niyə? O gərək Beyrəyə nifrətlə baxaydı... Qısqanc deyildi, deməli… – Vaqif düşüncəli halda dilləndi.

– Yox, qız Beyrəyə hələ də məhəbbətlə baxırdı. Banuçiçəyə isə nifrətlə...

– Qəribədi. Deməli, o qızda məhəbbət də var idi, nifrət də. Sən bunları axı Kitabdan oxuya bilməzsən. Bunlar Kitabda yoxdular.

– Yoxdular. Bu sən deyən sayrışmanın qaranlıq tərəfidir. Mən onu yuxuda işıq içində görmüşəm. Hər nağıldan sonra mən hər gecə o nağılın yuxusunu görürdüm. Kitabdakı qaranlıq və yuxudakı işıq. Bunlar mənim gözümdə bir-birini əvəz edirdilər. Sayrışmanın öz məntiqi var idi. Yəni, öz sirri...

– Düz deyirsən. Daha çox öz məntiqi.

– Yox, məncə, daha çox öz sirri.

Vaqif söz güləşdirmək istəmədi. *"Son nəticədə bu ikisi də eyni şey deyilmi?!"*

– Deməli, qısqanclıq yalnız bir qızda üzə çıxır, o da kafir bəyinin qızında?!

– Deməli, belə çıxır.

– Bəs Beyrək? O, Banuçiçəyi heçmi qısqanmadı Basata?

– Kimə? Basata? – Firəngiz bütün səmimiyyəti ilə təəccübləndi.

– Hə də. Kitabda axı buna işarət var...

– Mən hiss eləmədim. Basat bir gözü meşədə olan biri idi. Əslində, o, heç Təpəgözü öldürmək belə istəmirdi. Bilmək istəyirsən, Təpəgöz özü Basatı buna, demək olar, əməlli-başlı məcbur etdi. Yadında onların son döyüş səhnələri? Təpəgözün Basata etirafı? Mən bunları yuxumda görəndə Basat bilirsən nə edirdi? Basatın Təpəgözə yazığı gəlib ağlayırdı. Təpəgöz ona yalvarırdı, Basat isə onun başını dizləri üstünə alıb gözündən yaş tökürdü. Basatın göz yaşları Təpəgözün sifətini islatmışdı.

– Təpəgöz amma axı həm də yalvarırdı ki, Basat ona rəhm edib öldürməsin. Qardaş olmuşuq deyirdi... Kitabda belə yazır…

– Yox, elə deyildi. Sən düzgün anlamamısan o yeri. Təpəgöz yalvarırdı ki, Basat ona rəhm edib öldürsün.

– Niyə?

– Nə bilim, Vaqif?! Yəqin, həyatından bezmişdi. Ola bilməz?

– Bəs etiraf?

– Basat da elə bu etirafdan riqqətə gəlmişdi.

Qəribə məntiq idi. Sanki Kitabın bəzi yerlərinə indiyənə qədər işıq düşürdü, bəzi yerlərinə isə indi, bundan sonra işıq düşməyə başladı.

– Firəngiz, bəs Basatla Beyrək xətti necə göründü sənə? Bunlar bir-birini tanıyırdılar?

– Beyrək mənim yadımda bir qışqırığı ilə qaldı. Salur Qazanın yanında o qışqırdı: "Qadınların yanına getmək istəyirəm". Bax o qışqırığı ilə.

– Bu, bəlkə də, Kitabdan çıxan ən qədim qışqırıq idi.

– Niyə? Anlamadım. – Firəngiz təəccübləndi.

– Bunun öz mənası var. Mən bunu sənə vaxt gələr, açıqlayaram...

– Yaxşı... – Firəngiz asanlıqla razılaşdı. Başqa vaxt mübahisə edərdi.

Vaqif düşündü ki, yox, elə indi anlatsa yaxşıdır. Bu yozumu Vaqif yeni aşkarlamışdı və öz tapıntısı ilə fəxr edirdi. Qadınların yanına getmək məsələsi qədim primitiv cəmiyyətlərdə mövcud olan bir qanunun çox dəyişmiş əks-sədası idi. Bunu – yəni qədim primitiv cəmiyyətdəki adəti Vaqif fransız alimi Levi Bryulun əsərindən oxumuşdu. Hansısa qədim qəbilələrin birində cəmiyyətdən ayrı düşmüş, sonra yenidən haman cəmiyyətə qayıtmaq istəyən qəbilə üzvünü yenidən cəmiyyətə buraxmağın bir şərti olurdu. O adam ki cəmiyyət üçün ölmüşdü və ya "öldü" sayılırdı, gərək cəmiyyət üçün yenidən doğulaydı. Bunun üçün onu yenidən bir qadın doğmalı idi, daha doğrusu, onun doğuşunu imitasiya etməliydi. Yalnız bu prosedurdan sonra həmən adam yenidən qəbiləyə üzv ola bilirdi.

Beyrək də cəmiyyətdən düz on altı il idi ki, ayrı düşmüşdü. Onu da ölmüş bilirdilər və heç kim inanmırdı ki, bu qayıdıb gələn ozan məhz odur. Qadınların yanına getmək istəməsi həmən qədim, yaddan çıxmış adətin transforma uğramış əks-sədasından başqa bir şey deyildi. Qadınların ya-

nına getmək və oradan qəbilənin qəbul edilmiş üzvü kimi çıxmaq – Beyrəyin mıqsədi bu idi.

Bütün bunlara qulaq asıb Firəngiz yenə də təəccübləndi:

– Bu Beyrək nə yaman bir adammış... Əslində, mən onu yuxuda boyu balaca birisi kimi gördüm. İndi başa düşürəm ki, bunun boyunun yarısı yerin altında imiş. Rasim Balayevə heç oxşamır. "Dədə Qorqud" filmində Balayev oynamır Beyrəyi?

– Hə, o oynayır.

İkisi də gülüşdü.

– Amma sədaqətli idi. Qazana demirəm, o öz yerində. Sevgilisinə deyirəm. Ölüm ayağında da Banuçiçəyi düşünür. Onu yerbəyer eləmək istəyir. Qazana xəbər göndərir ki, Banuçiçəyi oğlu Uruza alsın. Hərçənd, kafirin qızına dönük çıxdı… – Firəngizin gözləri yenə dənizdə uzaqlarda nəyisə axtardı. – Bəzilərindən fərqlənir...

"Başlandı. Uzun müddət özün-özündən ayrı düşə bilməzsən. Harda olsan belə, nə qədər əlçatmaz, ünyetməz yerdə məkan qursan belə, o biri "özün" gəlib səni tapacaq, sənə qovuşacaq, sənin içində əriyəcək…"

“Qara başım qurban olsun sənə...”

– Bilirsən, mən bu Kitabla bağlı roman yazmaq istəyirəm. Neçə vaxtdı düşünürəm. – Vaqif bağdakı kabinet-otaqda Firəngizin yanında dəri divana yayxanıb Firəngizin başını dizləri üstünə aldı və qızın saçına sığal çəkə-çəkə, nəhayət ki, demək istədiyini dedi. Etirafını elədi.

– Mən bilirdim ki, sən bununla bağlı nə isə edəcəksən... Verərsən oxuyum?

– Hələ çiy haldadı. Qoy bir ətə-qana gəlsin. Sən mənə xeyli kömək elədin indi. Fikirlərim duruldu, qətiləşdi...

– Qara başım qurban olsun sənə... – Firəngiz bu sözləri düşüncəli-düşüncəli deyərkən xeyli ciddi idi. O hələ də, deyəsən, Kitabın içində idi. Bunları hiss etmədiyindən Vaqif anlamadı ki, Firəngiz bu sözləri deyərkən niyə gülmədi. Vaqifə görə gülməli idi.

– Ay dəli, sən bu Kitabı əzbərləmisən ki... Sənin qara başın mənə hələ çox lazımdı. Mənim qara başım...

– Susssss... – Firəngiz əlini Vaqifin ağzına tutub sözünü kəsdi. – Danışma. Bir kəlmə belə olmaz. Sən mənim başımın tacısan. Razılaş və sus.

– Susdum. Sən necə istəyirsən, qoy elə də olsun.

– Mən belə istəyirəm. Yuxuma bilirsən kim girirdi? Atam. Üzünü-gözünü aydın görəmmirdim, amma atam idi. İki balaca oğlan uşağı ilə. Bir də o qadınla bir yerdə. Elə pis olurdum... İstəyirdim, qışqıram, ana, ay ana, bəs sən hardasan, sən niyə burda yoxsan?! Qışqırmaq istəyirdim, səsim çıxmırdı. Yuxularda ən ağır məqam budur. Qışqırmaq istəyirsən, nə edirsən et, səsin çıxmır. Bir də belə hal Basat Təpəgözü qılıncla başını kəsəndə oldu. Atam da eynən Moskvaya köçəndən sonra Təpəgöz kimi mənə baxıb qorxa-qorxa gülümsünərdi. Bilirsən, Təpəgöz də qorxurdu. Mən bilən, o da

ölümdən qorxurdu. Hələ o uşaqlar... elə gözəl idilər... Mənim kimi qapqara deyildilər. Atamın uşaqlarını deyirəm. Mən niyə onları bu günəcən gedib görməmişəm?! Yuxuda mən onları əyləndirməyə çalışırdım. Cürbəcür uşaq oyunları... Biri bu idi. Sən bunu bilirsən. Bir-iki... – Firəngizin səsi o qədər yumşaq, həlim, o qədər zərif idi ki…

– Hə, bilirəm.

– Bir, iki – bizimki...

– Üç, dörd – qapını ört... – Vaqif gözünü yumub bu uşaq deyişməsini əzbərə deməyə başladı. Firəngiz onun dediklərini tamamlayırdı.

– Beş, altı...

– Daşaltı.

– Yeddi, səkkiz…

– Firəngiz.

– Doqquz, on…

– Qırmızı don.

Sözlər muncuq kimi bir-birinin yanına düzüldülər. Sonra bu sözlər ulduza döndülər, hərəsi bir ulduz oldu, çəkildi göyün üzünə. Bir-birinin yanında durarkən, Vaqif onlara baxıb tarıma çəkilmiş bir insan bədəni gördü. Bu, kişi bədəni idi, yanında da balaca bədənlər var idi. Bu bədənlərə nəhəng ilanlar sarmaşmışdı, Vaqif anladı: Bu, Laokoon və onun oğlanları idi. Onlar bu ulduz kompozisiyasının sxemi idilər.

– Ora bax, görürsən? – Vaqif soruşdu.

– Görürəm. Bir az əvvəl onlar orada yox idilər. İndi göründülər. – Firəngizin səsi sanki yuxudaymış kimi gəldi.

– Yox idilər. Bulud qarşılarını kəsmişdi.

– Sən inanırsan ki, onlar da bizi görür? – Firəngiz məsum bir uşaq təbəssümü ilə gülümsədi.

– Mən inanıram.

– Sən inanırsansa, mən də inanıram. O ulduzların adı nədir?

– Laokoon bürcü. Ata və iki oğlu. Onların əfsanəsini danışım sənə?

– Yox, danışma. Mən bunu bilmək istəmirəm. Mən, sadəcə, onlara baxmaq istəyirəm. Baxıb onların nə zamansa var olduqlarına inanmaq istəyirəm.

Mən onlardan başqa heç nə istəmirəm. Elə etsinlər ki, onlara inanım. Mən onlara inanmaq istəyirəm. Mən onlara indiyənə qədər niyə inanmamışam?!

– Mən də onlara inanmaq istəyirəm. Burda onlara heç kəs inanmadı.

– Bu pisdi. Gərək inanasan. Nəyə isə, kimə isə hökmən inanasan. Mən sənə inanıram.

– Mən də sənə. Mənim Laokoonum sənsən. Mən sənə həmişə inanacağam.

– Mənimki də sən.

Artıq bilinmirdi ki, bu sözləri kim kimə deyir, Firəngizin dediklərilə Vaqifin dedikləri bir-birinə qarışıb havada əriyirdi. Bəlkə bunun heç mənası da yox idi. Yəni, kimin nə dediyinin mənası yox idi. Mənalı olan o idi ki, tanış "sonsuz lüğət" bu sözləri, bu ifadələri öz içindən onlar üçün həvəslə buraxırdı, çünki onlar özlərinə, təkcə özlərinə aid olan məlum mətləblərdən danışırdılar.

Eynən min illər bundan əvvəl bu möhtəşəm və sirli Kitabı yazmaq üçün ona üz tutmuş o nurlu və tənha insana da sonsuz lüğət öz köksünü beləcə səxavətlə açmışdı.

Yenicə kəşf edilmiş Laokoon bürcünün ulduzları isə elə şövqlə bərq vururdular ki, sanki min ildi bu cür göyün yeddinci qatında məkan eləmişdilər və min ildən sonra da beləcə qalacaqdılar. Onlar durmadan sayrışırdılar. Qaranlıqdan işığa, işıqdan qaranlığa girirdilər. Bunu aşağıdan baxıb izləmək çox, mümkün olmayacaq dərəcədə çox çətin idi. Yuxarıda isə qaranlığın da min il ömrü var idi, işığın da. Və onlar bir-birini min ildən bir əvəz edirdilər. Rahat-rahat, tələsmədən...

Dəniz qırağında qumların arasında bərələn o tək göz bu iki nəfərə kişi ilə qadına təəccüblə baxmağında idi.

Və nəhayət, sonda onu əlavə etmək qalır ki, bu zaman ətrafda nə vardısa, nə yoxdusa hər şey bir kimsədən xəbərsiz bu ulduz sözlərin içinə girmişdi:

"...Qara başım qurban olsun sənə!"

Hekayələr

Bakı kəndlərinin birində...

Bakı kəndlərinin birində palçıqlı, yağışlı, tutqun göyləri ürəyə kədər gətirən payız ayının son günləri idi. İki gün əvvəl isə bu kəndə əsl bahar qayıtmışdı. Günəş buludların arasından sıçrayıb çıxmış, bütün ətrafı al-əlvan şüalara qərq eləmişdi. Həmidağa üzünü taraş etdirmək üçün Zakir ustanın bərbərxanasına getmişdi. Bir kənarda oturub növbəsini gözləyirdi. Zakir usta kresloda yayxanaraq tərpənməz qalmış müştərinin üzünü qırxa-qırxa Həmidağa ilə söhbət eləyirdi. Söhbət həmişəki söhbət idi:

– Mən vallahi, mat qalmışam. Səlim də özgəsi deyil... (Səlim Zakirə üzünü qırxdıran müştəri idi). Şəhərdə o boyda evin ola-ola (Təzəbazarın yanında ikiotaqlı mənzildən söhbət gedirdi, çoxlu qonşuları yaşayan və adını Böyük həyət adlandırdıqları həyətə girişin sağ tərəfində qoyulmuş zibil yeşiklərinin yanındakı ata-baba evi), sən gəlib girmisən burda balaca bir deşiyə. Əməlli-başlı müştərin də yoxdu... Köç get, yaşa. Yaşa! Burdakı evini də istəsən, lap elə mən alaram. Evə görə yox a... Bir dənə o tut ağacına görə...

Zakirin dediyi o "balaca deşik" Zakirin özünün gen-bol həyətinin divarına söykənmiş (əslində, qısılmış) komaya bənzər bir ev idi. Amma bu evin özünə aid balaca bir həyəti var idi. Necə olsa da bu həyət ancaq onun həyəti idi. Həmidağa əvvəllər buranı böyük şəstlə həyətim adlandırırdı. İçindəki yeganə tut ağacı həyətdəki evin özündən böyük idi və o, yelpazə kimi qol-budaq açıb ev adlanan bu komanı sanki kimdənsə qoruyurdu. Həmidağa bu həyətə indi nifrət edirdi. "Doğrudan da mən niyə bura belə bağlanmışam?! Şəhərdə qalmaq (yaşamaq!) burdakından çox-çox sərfəli olar. Uşağın da məktəb qurtarmağına az qalıb. Özümün də işim orda başımdan aşardı..."

"Əməlli-başlı müştərin yoxdu!" sözlərinə gələndə, demək lazımdı ki, Həmidağa taksi işinə baxırdı. Bir köhnə "Jiquli"si vardı. Atası ölən kimi Həmidağa onun həyatı boyu yığıb saxladığı, göz-bəbəyi kimi qoruduğu pulları anasından alıb (daha doğrusu, tələb edib) tələsik gedib bu "Jiquli"-yə vermişdi. Evin bərəkəti o gedən getmişdi. İndinin özünə Həmidağa ailəsilə bir yerdə həmən nimdaş "Jiquli"nin içində gəlib çıxmışdılar.

Kənd yeridi, müştəri həftədə iki dəfə olurdu, ya olmurdu. Arvadı Gülşən bir sehrbaz kimi nə təhər edirdisə bu kiçik ailə dolana bilirdi. Sağ olsunlar paltar yudurdan, ev təmizlədən bağ sahibləri, qonşular... "Jiquli"-nin əsas işi çirkli paltarları evə, təmiz, yuyulub ütülənmişləri isə evdən sahiblərinə çatdırmaq olurdu. Günlər, aylar beləcə sakit-sakit keçib gedirdi. Bəzən tez-tez, bəzən yavaş-yavaş...

Həmidağa qonşusu Zakir ustanın yanından fikirli ayrıldı. "Bu adam doğru söz deyir. Yolumu gərək şəhərdən salım, Böyük həyətə getmək, evə baş çəkmək lazımdır. Nə qalıb, nə qalmayıb?! Nə çatır, nə çatmır?! Bilmək olmaz, zalımın qızı bəlkə razılaşdı..." – düşündü. Gülşəni nəzərdə tuturdu.

Həmidağa əvvəllər Böyük həyətə qayıtmaq barədə Gülşənə ciddi şəkildə heç bir söz deməmişdi. Zarafatla ancaq eyham vurmuşdu. Təxminən belə. Uzun qış gecələrinin birində axşam nəylə məşğul olmağı bilməyəndə üzünü qızı Arzuya tutdu, əslində isə, Gülşənə eşitdirə-eşitdirə "İndi şəhərdə olsaydıq kinoya gedərdik..." dedi və nədənsə şit-şit güldü. Əlində köynək cırığı kötdəyən Gülşən əlüstü başa düşdü ki, Həmidağa Arzu ilə deyil, onunla danışır, ondan bir cavab gözləyir.

Arzu ki, dəftər-kitabını stolun üstünə töküb dərsi ilə məşğul idi, atasının bu sözlərindən sonra ağzını açıb gah anasının üzünə, gah da atasının üzünə baxa-baxa qaldı. Gülşən qızı ilə masa arxasında üzbəüz oturmuşdu, iynə keçirib kötdədiyi köynəyin ora-burasını işığa tutdu. Köynəyi xeyli diqqətlə gözdən keçirdi və dodağının ucundakı sözləri ox kimi tuşlayaraq Həmidağaya ünvanladı: "elə bircə kinomuz çatmırdı..." Həmidağa ta söhbəti uzatmadı. "Kino" məsələsi bir də Həmidağa Zakirin bərbərxanasından evə dönən gecə təkrar oldu və bu dəfə evdə ər ilə arvad arasına yüngülvari bir mübahisə də düşdü.

– İstəmirəm mən sənin şəhərini. Istəmirəm, başa düşürsən? – Birdən-birə Gülşən özündən çıxdı.

– Niyə axı istəmirsən, Gülşən? Bunun bir səbəbi olmalıdı, ya yox?! Elə-belə deməklə olmaz ki... Mənə səbəbini denən. Niyə? – deyə Həmidağa tənbəl-tənbəl soruşdu.

Cavab gəlmədi. Gülşən yuyulmuş paltarla dolu bir yekə tabağı qoltuğuna vurub həyətə çıxdı.

Gülşən ilə Həmidağa, əslində, qonşu idilər, haman Böyük həyətdə yaşayırdılar və hətta uzaq qohumluqları da var idi. Onlar eyni məktəbə gedirdilər. Təkcə onlar yox, bütün məhəllə eyni məktəbə gedirdi. Həmidağanın qonşu küçədə yaşayan əmisi oğlu Qadir də bu məktəbdə onlardan iki sinif yuxarı oxuyurdu. Günlərin bir günü Qadir Böyük həyətin açıq darvazasının qarşısında qəflətən arxadan "zühur" edib Həmidağanın qoluna girdi:

– Əmioğlu, nə var, nə yox?

Sonra cavab gözləmədən:

– Sizin bu qonşunuz var a, Gülşən, sən onu yaxşı tanıyırsan? Bir sinifdəsiz?

– Həri, bir sinifdəyik. Onlar həyətin o biri başında olurlar. Nədi, nöşün ki?

– Yox, elə-belə soruşuram. Gəzib-elədiyi bir adam yoxdu ki?!

– Mən bilən yoxdu. Xeyir ola, əmioğlu?!

– Dedim sənə axı, elə-belə soruşuram. – Qadir bic-bic güldü. – Bir şey olsa deyərəm. Hər ehtimal, gözün üstündə olsun. Sonra söhbət elərik.

Və o gündən Həmidağanın bir gözü Gülşənin üstündə oldu. Məktəbi bitirdilər. Qadir günlərin bir günü pul qazanmaq (özü deyirdi, maşın almaq) üçün Krasnoyarskda yaşayan dayısı oğlunun yanına getdi. Nəhəng Sibir şəhəri onu bir qar ləpəsi kimi öz rəhninə elə çəkib əritdi ki, bir daha səsi-sorağı gəlmədi.

Günlərin bir günü axşam saat 8 olardı. Həmidağa Böyük həyətin qabağında curları ilə deyə-gülə son zaman dillər əzbəri olmuş hind filmi "Sanqam" haqqında danışırdılar. Bu vaxt Gülşən küçənin o başında tini

buruldu. Oğlanlar söhbətlərini kəsdilər. Gülşən addımlarını yeyinlədib onların yanından ötərək həyətə keçdi. Oğlanlardan bir-ikisinin gözü qıyıldı. Ağzını açıb ortaya namünasib söz atmağa hazır olan Əbülfəzə tərs-tərs baxandan sonra Həmidağa qızın dalınca həyətə keçdi, arxadan yavaş və hətta belə də demək olardı, mülayim bir səslə onu səslədi:

– Bir dəqiqə. Bir dəqiqə olar səni?

Qız ayaq saxladı. Dabanı üstə fırlanıb ona sarı çöndü. Həmidağa özü də bilmədi ki, nə üçün Gülşənə bu cür pənbə buludlar qədər yumşaq bir səslə belə bir sual verdi:

– Xeyir ola, bu vaxtı sən hardan gəlirsən?! Axşam düşüb, qaranlıqdı...

Hava təzəcə qaralmağa başlayırdı. Günün ağırlığını çiyinlərinə almış Böyük həyət, nəhayət, hamını öz evinin içinə salmış və nəhayət, indi asudə nəfəs almağa hazırlaşırdı. Ətrafda heç kəs yox idi. Nə gələn var idi, nə gedən. Gülşən belə bir qəmzəli şəkildə Həmidağaya sarı çevriləndə Həmidağanın ürəyi quş ürəyi kimi çırpınmağa başladı. Tərs təbiəti ilə ad çıxarmış Gülşən yəqin ki, bu saat ona dişinin dibindən çıxanı deyəcəkdi. Hansı haqla Həmidağa onu belə bir sorğu-suala tutur?! Eyni həyətdə yaşadıqları üçünmü?! Ya bəlkə artıq heç kimin düzəməlli xatırlamadığı uzaq qohumluğa görəmi?!

Amma hər şey 180 dərəcə tərsinə oldu. Gülşən sanki Həmidağaya illər boyu hara gedib hardan gəldiyinin saatbasaat hesabını vermişdi. İndi də hesabat verəcək şəkildə:

– Rəfiqəmgildəydim, – dedi. – Anamgilin xəbəri var. İmtahana hazırlaşırdıq. Oldu?!

Yer-göy Həmidağanın başına fırlanmadımı, fırlandı. Ürəyindən ona indiyənədək tanış olmayan xoş bir gizilti keçdi. Onu sayırdılar, ona hesab verirdilər. Özü də kim – Gülşən. Daha heç nə soruşmadı. "Hesabatı qəbul etdim" mənasında başını bir-iki dəfə tərpədib sevincək (amma bu sevinci büruzə vermədən) həyətin girəcəyinə, uşaqların yanına geri döndü. Burada sükut hökm sürürdü. Kimi oğrun-oğrun siqaret çəkirdi, kimi də mənalı-mənalı susurdu. Məlumdu ki, onu gözləyirdilər. Həmidağa boğazını arıtlayıb ötkəm bir səslə ortalığa dedi:

– Podruqasıgildə imiş. İmtahana hazırlaşırmışlar. Evdən icazəliydi.

Sonra Gülşəni rəfiqəsigilə Həmidağa aparıb-gətirməyə başladı. Əvvəl arxasınca gizlənə-gizlənə, daha sonra artıq yanında, qızın gəzdiyi oğlan kimi. Sonra "həri" oldu, sonra nişan, sonra da toy. Gülşən eşidəndə ki onlar kənddə Həmidağanın babasından qalmış evdə yaşayacaqlar, çox sevindi. Ən çox da Böyük həyətdən ayrılacağına görə. Gülşən bu həyətə nifrət edirdi. Ata-anası öləndən sonra evlərini satmışdılar. Burada ona doğma olan heç nə qalmamışdı. O zaman Gülşən Böyük həyətlə bağlı öz fikirlərini ümumiləşdirib Həmidağaya belə demişdi:

– Nifrət edirəm bu həyətə. Evdən çıxıb həyətin qapısına gələnəcən, elə bil, hamı sənə baxır. Elə bil, rentgen altındasan. Adam öz beyni ilə, öz ürəyi ilə təkbətək qala bilmir. Belə də insanlar olar?! Gözlərilə, elə bil, sifət yox, asfalt deşirlər.

Həmidağa Gülşənin niyə belə dediyini anlamamışdı. Onların evi Böyük həyətin girəcəyində olduğu üçün o, darvazaya qədər yol ölçmürdü.

...Həmidağa səhər tezdən hələ yarıyuxulu halda gözlərini ovuşduranda ağlına gələn ilk fikir bundan ibarət oldu ki, Gülşənlə barışmaq yeni həyata qədəm qoymağın yaxşı bir başlanğıcı ola bilər. Yeni həyata qədəm qoymaq Həmidağa üçün Böyük həyətə qədəm qoymaq kimi bir şey idi.

– Mənim bu şalvarım hardadı görəsən? – Öz-özünə mızıldanıb Həmidağa yataq otağında ora-bura ha baxdısa gecə yatağa girmədən əvvəl soyunub hara gəldi tolazladığı şalvarını tapa bilmədi.

Şalvar isə onun bir addımlığında səliqə ilə stolun başına keçirilmişdi. Həmidağa dodağının ucuna təbəssüməbənzər heç bir məna verməyən bir ifadə qondurdu. Başını yırğaladı. Sonra şalvarını əyninə keçirdi və indi də köynəyini axtarmağa başladı. Əzik-üzük köynəyi həyət pəncərəsindən baxanda gördü ki, yaş-yaş, suyu hələ də axa-axa zivədə yellənir. Külək onu o tərəfə aparır, bu tərəfə gətirir. Bu zaman əlində təzəcə ütüdən çıxmış dama-dama köynək Gülşən otağa girdi. Dinməzcə köynəyi ona uzatdı. Bu, Həmidağanın sevimli köynəyi idi.

– Hə... Ütüləmisən ki bunu... – Həmidağa başqa söz tapıb deyə bilmədi. Gülşən də, əslində, ondan təşəkkür gözləmirdi.

Arzu artıq məktəbə getmişdi. İkisi səhər yeməyinə oturdular. Əlindəki çay stəkanlarını stolun üstünə qoyub Gülşən dedi:

– Bax, Həmid, bir də gəl bu söhbətə qayıtmayaq. Şəhərə köçmək nədi hələ?! Burda səni əzən, sıxan var? Öz evimiz, öz həyətimiz... Elə bircə bu tut ağacını şəhərdəki o boyda həyətə dəyişmərəm.

– Tut ağacı başqa aləmdi... Şəhərdə belə tut var?! – Həmidağa altdan-altdan Gülşənə baxdı.

– Bizim bu balaca həyətin dadı başqadı. Ordakının bir ucundan o biri ucuna gələnəcən elə bilirsən, iki ostanovka yol getdin. Sən burdan niyə ləzzət ala bilmirsən, mən başa düşmürəm.

– Niyə ala bilmirəm?! Bilirəm.

– O zaman bitdi bu söhbət.

Həmidağa susdu.

Amma söhbət bitmədi. Həmidağa bu dəfə başqa metod seçdi. Heç nədən ah-zara başladı. Bir də görürdün gah oturduğu yerdə köksünü ötürdü, gah gözlərini bir kənara dikib heç kimi eşitmədi və onu səsləyəndə də cavab vermədi. Bir-iki dəfə, hətta Gülşənə elə gəldi ki, Həmidağanın qızdırması var və onu yataqdan qalxmağa qoymadı. Gülşən Həmidağanın bütün bu hərəkətlərinə kədərlə baxır və başa düşürdü ki, Həmidağa bunları nəyə görə edir. Həmidağa şəhərə köçmək xülyasından hələ də əl çəkməmişdi.

Nəhayət, yaz günlərinin birində Həmidağa külfətini "Jiquli"yə mindirib ən vacib ev əşyalarını, yorğan-döşəyi maşına yüklədi.

Böyük həyətə çatdıqları zaman Gülşən dedi:

– Siz gedin yerləşin. Mən bazara dəyib gəlirəm.

Gülşən evə hava qaralanda gəldi. Həyətdə heç kimlə görüşmək istəmədiyi üçün tez qapını açıb içəri keçdi. Həyətdə qara-qara kölgələr peyda olmuşdu. Ay işığında onlar zəhmli görünürdülər.

Arzu ətrafın tozunu almış, çaydanı qazın üstünə qoymuşdu. İndi də çay dəmləyirdi.

– Siz özünüz bilərsiniz, mən burda yaşaya bilməyəcəyəm, deyəsən. – Bu sözləri deyib Gülşən oturduğu yerdəcə əllərini qoynuna aldı və onun

gözlərindən bıldır-bıldır, adətinə uyğun şəkildə sakitcəsinə yaş axmağa başladı.

– Sən burda bizim günümüzü məlum oldu ki, göy əsgiyə bükəcəksən. Durun ayağa. Yığışın görüm. Sizə yaxşılıq yoxdu. Qayıdaq. Qayıdaq kasıbçılığımıza davam edək. Qayıdırıq. Kəndə. – Həmidağa artıq hər şeydən bezmiş adamlar kimi qəti qərara gəldi.

Gecəyarısı ancaq gəlib kəndə çatdılar. Balaca, kimsəsiz həyətə girəndə yarpaqları büzüşüb bir-birinin içində gizlənən tut ağacı, elə bil, qəflətən cana gəldi. Ağacı, elə bil, kimsə dərindəki kökündən tutub bərk-bərk silkələdi. Yarpaqlar ay işığında bütün cilvələrini göstərdilər – hər biri ayrı-ayrılıqda bərq vurdu. Gümüşü ay işığı tutun budaqlarından, yarpaqlarından yavaş-yavaş süzülüb bütün həyəti öz nuruna bürüdü.

Gülşən tut ağacının altındakı skamyada təkcənə oturub maşından əşyaları endirən Həmidağaya baxır, qəlbinə yayılan rahatçılıq hissindən boğazına qəhər dolurdu.

Həyətdə

İsti bir yay sabahı idi. Belə sabahlar sakitlik sevər. Amma məhlədə bir-birinə qısılmış balaca evlərdən birinin həyətindən xəncər kimi sıyrılıb çıxan qışqırıq səsləri birbaşa göy üzünə büləndolurdu.

Yaşına yaraşmayan bir vəhşiliklə gözlərinin içinə qədər qızarmış Mərdəli kişi bağırırdı:

– Mənim adımı dilinə gətirənin dilini çəkib dibindən çıxardaram!!!

– Sən hələ get o gülcamal qızının dərdini çək, əgər ki, çəkib qurtara bilsən… Sənin adın çəkilirsə, ona görə çəkilir, bilginən. — Mərdəli kişinin bir il əvvəl ölmüş oğlu İsrafilin dul qalmış arvadı Səlmə səsini başına atmışdı. İlk dəfə idi ki, qayınatasının sözünün qabağına söz çıxarırdı.

– Mənim adımı çəkənin ağzına… şiş soxaram… – Mərdəli kişi həm səsinin tonunu, həm də dediklərinin kəsərini qaldırmaq üçün hər mənada zilə çıxdı. Onun rəngi-rufu qaçmışdı, əməlli-başlı hirs və qəzəb içində idi, bütün vücudu əsim-əsim əsirdi. Səsə yığışan həyətin qız – gəlininin yanında dediyi sözlərə görə özünə nifrət edirdi, amma ən çox gözünü yumub ağzını Allah yoluna qoymuş Səlməyə nifrət edirdi — ona bu sözləri dedirtdiyinə görə.

Səlmə sakitləşmirdi. Bir əlini elə hey dizinə çırpır, o biri əlini üzünə atır, dırnaqları ilə üzünü cırmaqlayıb qanlı şırımlar açırdı. O qədər qışqırmışdı ki, səsi də batmışdı. Kişi bir deyirdi, bu, boğuq səsilə iki deyirdi:

– Qızın… sənin o qızın var e, vay, vay, vay, vay. Aləmi bir-birinə qatan bax, odu. Tanıyan tanıyır, bilən bilir. Vaxsey… Şaxsey… Onu görüm, vaxsey… şaxsey… onu görüm…

– Məlum oldu. Sən məni qatil eləmək istirsən. Hardasan, ay İsrafil?! Ax… ax…

Su krantının ağzında köhnədən qalmış pilləkən vardı. Onun heç yerə aparmayan və gedib duvara söykənən yalançıq üç-beş pilləsinin dibinə toplanmış həyət adamının "vay-vay" deməkdən savayı əllərindən bir iş gəlmirdi. Pilləkənin ayağında oturmuş Paraliç Niftəli gözləri yaşarmış halda əllərini qaldırıb havada oynadır, nədənsə bir-birini didməyə hazır olan Mərdəli kişi ilə Səlməyə deyil, həyət adamına nə isə başa salmağa çalışırdı. Amma onun ağzından çıxan iniltinin hansı söz olduğunu heç kim aydın şəkildə anlamırdı. Paraliç Niftəli çoxdandı ki, sözləri aydın şəkildə tələffüz edə bilmirdi, səslər onun ağzında dəyirmanda üyüdülən dən kimi bir-birinə qarışıb həftəbecər olurdu.

Səlmə "şaxsey… vaxsey" deyə-deyə özünü didməyində idi. Birdən gözünə Zərnisə arvad sataşdı, ona baxıb özünə həmdərd tapdı:

– Ay sənə qurban olum, barı siz deyin, mən də bilim taxsırımı. Nədi bu mən çəkdiyim?

– Mənim qızımın adını çəkənin… – Mərdəli kişi dörd ətrafını hədəqəsindən çıxmış gözlərilə bir daha qəzəblə süzdü.

– Nədi bu çəkdiyim zülm?! Ay Allah, necə qıyırsan mənə?! Gecən olmasın, gündüzün olmasın. Bişir, düşür, yu, ütülə. Süpür, təmizlə. Mən… Mən bu evə gələn günə daş düşəydi, daş! Ay İsrafil, ay İsrafil… Şaxsey… Vaxsey…

– Elə demə, ay bacı, elə demə. Ruhuna xoş getməz. Vallah, mənim ürəyim partlayır sizi belə görəndə… – Zərnisə arvad doluxsundu.

Əlqədirin arvadı Elza:

– Məni demirsən… – deyib krantı açdı, stəkanı soyuq su ilə doldurub Səlməyə uzatdı:

– Al iç, ay qız, iç, bir özünə gəl…

– Mənim qızım barədə… – Mərdəli kişi yorğun gözlərini bir qaranlıq küncə dikmişdi, artıq öz-özü ilə danışırdı.

– İç, sən Allahın bunu al, iç…

– Nə??? Mən olam bu həyətdə bir qurtum su içəm. Abi zəmzəm ola içmənəm. Qızıl ola – yox! Şaxsey… Vaxsey… – Artıq Səlmənin əlləri üzünə, dizinə çox heysiz bir halda dəyib toxunurdu. – Mən çıxım gedim, bunlar

görsün. Uşağı da aparıb gedəcəm, bir də mənim siyapur üzümü heç kim görməsin. Həri, həri, mən axı siyapuram, siz bilmirsiz…

– Cəhənnəmə get, gora get…Elə danışır, elə bil, getməyə yeri var. – Mərdəli kişi saqqalına əl gəzdirib dodaqaltı mızıldandı. Nədənsə bu dəfə heç kimə yox, Paraliç Niftəlinin üzünə təəccüblə baxdı.

— Meşəyə gedəcəm. Dağ başına, mağaraya gedəcəm. Bircə sənin qızının üzünü görməyim.

— Axı nooldu birdən-birə sizə? Dünən axşam can deyib, can eşidirdiz. — Əliqədirin arvadı Elza əlindəki dolu stəkanı qaytarıb krantın daşının üstünə qoydu. — Atamdı demirdin sən bu kişiyə? Bəs sən, ay Mərdəli əmi?!

Suala cavabı tələm-tələsik həyətin o biri kümcündən Rəna verdi:

— Necə demirdi?! Deyirdi, deyirdi. "Atacan" deyirdi. Əmi də buna "qızımsan" deyirdi. Mən — şahid. Dünən elə burda çayı əminin qabağına qoyanda belə dedilər bir-birinə.

Həyətə təzə gəlin gəlmiş Rənanın gözləri qaynayırdı. Evinin açıq pəncərəsindən həyətdəkilərə acgözlüklə baxır, nə baş verdiyini, nə üçün baş verdiyini öyrənməkdən ötrü sinov gedirdi. Axşam Həsənağaya danışacaqlarını beynində götür-qoy edir, ən maraqlı məqamları əti sümükdən ayıran kimi ayırıb əti bir qaba, sümüyü o biri qaba yığırdı.

— Mən mən olmaram o çoxbilmişə bir-bir əməllərini üzünə saymasam. Nolar?! Görərik. Kim haqlıdı, kim yox, bilinər. Nolar… Şaxsey… Vaxsey…

Səlmənin ağzından çıxan sonuncu "şaxsey-vaxsey" daha çox məsələni qapamaq xətrinə deyildi, bir növ yekun xarakterli idi. Yəni, "Görərsiniz siz! Heç eybi yoxdu! Göstərrəm mən sizə! Şaxsey… Vaxsey…"

Bunları dedi və qəti fikrə gələn adamlar kimi Səlmə qəflətən əlini dizinə basıb gümrah bir tərzdə ayağa qalxdı. Gedib evin qapısını zərblə elə itələdi ki, qapının dalında durub qorxusundan yarpaq kimi əsən beşyaşlı oğlu Orxan az qaldı dalı-dalı çəkilib yıxılsın. Səlimə indi də onu yamanladı:

— Sən niyə əl-ayağa dolaşırsan, ay yetim?! Keç içəri, keç, hələ bir görüm, — Səlimə uşağın əl-qolunu qamarlayıb evin içinə itələdi və qapını arxasınca var gücü ilə çırpdı. Mərdəli kişi diksindi.

Həyət adamları könülsüz-könülsüz evli evinə dağıldı. Açıq həyət qapısından böyük maraqla içəri boylanaların üzünə qapını Zərnisə arvad bağladı, daha doğrusu, çırpdı, sonra öz-özünə söylənə-söylənə o da gedib komasına girdi.

Eyvanda oturub heykələ dönmüş Mərdəli kişidən başqa həyətdə kimsə qalmadı. Günortacda öz yerini almış günəşin yandırıcı şüaları üstü-açıq həyətə bir az əvvəlki səs-küydən sonra qandonduran bir sakitlik içində, səssiz-səmirsiz halda süzülüb gəlməkdə idi. Elə sonra baş verənlər də belə bir səssizliyin içində baş verdi.

Evin qapısı zərblə açıldı və Səlmə bir əlində sumax rəngli ata evindən gətirdiyi böyük çamadan, o biri əli ilə balaca Orxanın əlindən bərk-bərk tutmuş halda eyvana çıxdı. Elə addımlarını zərblə pilləkənə vurub həyətə enmək istəyirdi ki, birdən ayaq saxladı. Mərdəli kişi arxası ona kətildə oturmuşdu. Səlmə nədənsə gözünü döndərib onun büzüşmüş kürəyinə baxdı. Duruxdu. Kişinin çiyinləri oynayırdı. Mərdəli kişini həqqən hıçqırıq boğurdu. Gözlərindən səssiz-səssiz axan yaş, elə bil, bulaq suyu idi, axıb, axıb qurtarmaq bilirdimi, bilmirdi.

Səlmə bayaq şivən qopardığı yerdəcə quruyub qalmışdı. Addım atmağa taqəti yox idi. Özündən biixtiyar çamadanı əlindən yerə buraxıb sakit-sakit eyvanın taxta döşəməsinə çökdü. Kürəyini Mərdəli kişi outran kətilin ayaqlarına söykədi. Başı arxadan Mərdəli kişinin kürəyinə dirəndi. Kişi, elə bil, bunu gözləyirdi, çiyinləri titrədikcə titrədi, əsdikcə əsdi. Sonra Səlmə köksünün ən dərin yerindən yanıqlı bir ah çəkdi və ona qısılmış balaca Orxanı qucaqlayıb üzünü-gözünü öpə-öpə səsini bacardığı qədər qısıb için-için ağladı.

Kəklik

Kitabı əlinə alan zaman Rəşad güman etməzdi ki, onu sonacan oxumağa hövsələsi çatacaq. Amma elə birinci səhifədəki ad onun diqqətini ahənruba kimi özünə çəkdi. Məhz bu ad Rəşadın oxumaq həvəsini qıcıqlandırdı. Bu ad Kəklik adı idi. Romanın əsas qız qəhrəmanının adı belə idi.

Bu qəribə və az rastlanan ad, təsadüfə bax ki, Rəşadın üç ildən bəri iş yoldaşı kimi tanıdığı, evlərinə gətirib anası və kiçik bacısı ilə həvəslə tanış elədiyi sevgilisinin adı idi. Kəklik... Şəhərdə o inanmırdı ki, üçüncü adamın belə bir adı olsun. Bacısı Asudə ilk dəfə bu adı eşidəndə gülməyini güclə saxlamış, çay gətirmək bəhanəsilə mətbəxə az qala qaça-qaça getmişdi.

Amma hər şey bir yana, Kəklik adının qəribə bir aurası var idi. Adın sanki üzü var idi və adın üzündə belə yazılmışdı: "Yanıma gəl! Məni sev!". Bu, bir xahiş, bir dəvət deyildi, bir yalvarış heç deyildi, bu, bir hökm idi.

Roman bir qətlin tarixçəsindən danışırdı. Kəklik adlı bir qızın sevgilisi Ayazın öldürülməsi və qatilin axtarışından bəhs edilirdi. Əsl detektiv idi. Qatil bilinmirdi ki, kimdir. Əsərin qəhrəmanları çox əcaib və ucu-bucağı görünməyən bir labirintdə idilər. Qatilin axtarışı oxucu beynini əməlli-başlı məşğul etmişdi. Ən maraqlısı o idi ki, qatilin axtarışına Kəkliyin özü də qoşulmuşdu. Heç kimə – nə polisə, nə istintaq işçilərinə inanmayan Kəklik öz müstəqil istintaqını qurmuşdu. Romanın əsas qəhrəmanı Kəklik əsərdəki personajları bir-bir şübhə projektorunun gur işığı altına salır, onlardan hansınısa "təmizə" çıxarandan sonra bu işığı o biri personaja sarı çevirirdi. Çox maraqlı idi. Axşamlar evdə hamıdan (hamı deyəndə ki, evdə bir anası Zəhra xanım idi, bir də kiçik bacısı Asudə), demək olar ki, təcrid olunub arxa otaqda (bu otağı onun iş otağı kimi də başa düşmək olardı) divanın

üstündə uzanıq vəziyyətdə roman oxuması anasından çox Asudəni, məktəbin 10-cu sinfinə yenicə keçmiş bu gənc qızı xüsusilə rahatsız edirdi.

Asudə qardaşını o biri otağa televizora baxmağa aparmaq üçün əlindən gələni edirdi (Rəşadsız televizora baxmaq, müğənniləri, aparıcıları məsxərəyə qoymaq uzun yola maşın əvəzinə sınıq-salxaq avtobusla çıxmaq qədər mənasız bir iş idi), bir dəfə hətta az qala onu əllərindən yapışıb divandan yıxmaq da istədi.

– Rəşka, gəl də, bir yerdə baxaq. Bilirsən kimlər oxuyacaq? Hamısı bizimkilər... Gülməkdən öləcəksən. Noolar... Mama, de də buna...

– Ay qız, işin-gücün yoxdu sənin? Qoy adam kimi kitabını oxusun. Bəsdi qır-saqqız oldun...

– Ana, apar bunu burdan. Bax ayağa dursam, pis olacaq sənincün. Yaxşı, yaxşı, get başımın üstündən. Noolar, quzu bala, get sən baxmağa başla, mən də gəlirəm...

– Nooldu, sənin bu qatilin tapılmadı? Bir həftədi bir kitabı oxuyub axıra çatdıra bilmirsən. Ayıbdı, ayıb. – Asudə axırda sakitləşdi.

– İmkan versəydin, çoxdan qurtarmışdım. – Rəşad mızıldandı.

– Bu qatil bilinmədi kimdi?

– Hələ yox. – Rəşad yenidən gözlərini kitaba dikdi.

Səhər mətbəxdə yemək zamanı Asudə Rəşaddan soruşdu:

– Nə zaman qurtarassan bu kitabı? Belə maraqlıdı?

Rəşad çayını içə-içə:

– Çox... İstəyirəm özüm tapım qatili. Amma kimə ağlım gedirsə, o çıxmır, – deyə cavab verdi.

– Alibisi güclü olur?..

– Hə,.. elədi.

Zəhra xanım qaz plitəsinin üstündəki qızarmış kartof tavasını elə tavadaca stolun üstünə qoydu. Asudəyə çımxırdı:

– Ay qız, çək əlini, yandıracaqsan...

Asudə anasının sözlərinə fikir vermədi:

– Axırını oxu. Onda bilərsən qatil kimdi, – deyə Asudə qardaşına öz aləmində guya ağıllı məsləhət verdi.

– Elə şey olar? Onda oxuduğumun bütün ləzzəti itər ki...

– Bəs sən özün qatili tapsan ləzzət itməyəcək?.. Mən də o kitabı oxumağa başlayacam. – Asudə bu sözləri böyük bir sirr açan adam kimi dilə gətirdi. – Gəl mərc gələk. İki günə mən sənə deyim o qatil kimdi. Gələk mərc?..

– Yox, gəlməyək. Bax, bunu ağlına belə gətirmə. İndi bildim. Kitabı bu gecə tapa bilmirdim. Sənin işin imiş... Hardan götürürsən, quzu bala, ora da qaytar qoy. Onun yeri divanın dalındakı tumbuçkanın üstüdü. Ana, de də buna. – Rəşad "quzu bala" deməyi ilə (əslində, şıltaq bala deməli idi) ümidini anasına bağladı.

Aspiranturanın üçüncü kursunda oxuyan və kimya elmi üzrə dissertasiya yazan Rəşadın özü də belə bir həvəslə bədii əsər oxumağına məəttəl qalmışdı. Başı ancaq kimyəvi reaksiyalara qarışan Rəşad axırıncı bədii əsərini orta məktəbin sonuncu sinfində oxumuşdu. O da "Ovod" romanı idi. Və indi də bu detektiv. Ona elə gəlirdi ki, bu iki əsərin arasında bir gizli əlaqə var. Bəlkə var idi, bəlkə yox idi?! Bəlkə də başqa bir bədii əsər oxumadığından Rəşada belə gəlirdi?! Ola bilər. Amma hər şey gərək reallıqla ölçülsün. Reallıq isə bu idi ki, hər axşam, bəzən gecənin bir vaxtı (bu daha çox sevgilisi Kəkliklə bir yerdə vaxt keçirərkən olurdu) evə dönərkən beynində kimyəvi reaksiyalardan başqa heç bir şey olmadığı halda bu kitab onu özünə çəkirdi. Ona "gəl bura. Məni oxu. Məni sev" deyirdi. Kitabı əlinə alıb divana uzanan kimi bütün yorğunluğu uçub gedirdi. Fikrində, zikrində "qatil kimdir?" sualından başqa heç nə qalmırdı. Zəhra xanım oğlunun yorğunluqdan az qala ayaq üstə yatdığı bu halına baxıb ürəyi ağrımırdımı, ağrıyırdı. Rəşad isə divana uzanan kimi heç bir tərəfə çönüb eləmədən əllərini başı üzərindən arxaya atıb divanın yanındakı tumbuçkanın üstündən dünən ora qoyduğu kitabı əlüstü tapır, lazım olan səhifəni birbaşa açaraq oxumağına davam edirdi. Bu zaman özü də ləzzətlə hiss edirdi ki, canına hopmuş yorğunluq zərrə-zərrə, yavaş-yavaş harasa yox olur. Zəhra xanım bir adyal gətirib onun ayaqlarının üstünü örtürdü. Asudə "eh..." eləyib darıxmağına davam edirdi.

Bir dəfə Rəşad ağlına gələn belə bir fikirdən hətta diksinmişdi ki, o, kitabdakı Kəkliyi sevgilisi Kəkliklə müqayisə edir. Müqayisə zamanı Rəşad

istəyir ki, öz Kəkliyi kitabdakı Kəkliyə oxşasın. Kitabdakı Kəklik qətiyyətli, sədaqətli, qətlə yetirilmiş sevgilisi yolunda əzab-əziyyətə düçar olan, insanlarla üz-göz olan, polis işçilərinin istehzasına, həqarətinə tuş gələn Kəkliyin gözündə yaş, ürəyində ölməyən məhəbbət qatil axtarışına çıxması və bu yolda gənc qızın mətanəti, qətiyyəti, Rəşad inanırdı ki, bütün sıxıntılara rəğmən uğurla nəticələnəcək.

Romanda demək olar ki, bütün personajlar qatil libasında ortaya çıxa bilmişdi. Amma sonunda onların hər birinin yenə də, Asudə demiş, "alibiləri" güclü çıxırdı. Hətta öldürülmüş gəncin atası da şübhəli qismində qəbul edilə bilmişdi. Dostu Rəhman lap elə az qala əsərin ortasına qədər əsas qatil roluna çox yaxşı uyğun gəlirdi. Qonşuları Əlvan qətl hadisəsindən bir qədər əvvəl Kəkliyin sevgilisinin qapısını döymüşdü. Bunu həyət qapısının yanından keçdiyi zaman məhlənin gözəllər gözəli məktəbli Gülzar görmüşdü. Qapı açılmışdı, yoxsa açılmamışdı – bunu Gülzar deyə bilmirdi, çünki məktəbə tələsirdi və arxasınca hər sabah Əlvanın oğlu Qiyas düşdüyü üçün qızın ürəyi gup-gup vururdu, sağına, soluna baxa bilmirdi. Təkcə Qiyasgilin qapısından keçəndə gözucu baxıb Əlvanı pilləkənin başında gördü. Təəccüb elədi ki, Qiyas hələ də gözünə dəymir. Qərəz, qətl əsl müəmmaya dönmüşdü – açar nöqtəsi yox idi, kələfin ucu hər dəfə sürüşüb əldən çıxırdı. Bir dəfə işdə Rəşad təcrübə aparırdı, nəyisə, hansısa məhlulu nəyəsə qarışdırırdı, fikrini çaş-baş saldı, əlindəki kolbanı stolun üstünə yox, eləcə yenidən suyun altına buraxdı. H_2SO_4 kolbadan aşıb-daşdı, Rəşadın üstünə töküldü.

Qonşu otaqdan Kəklik gəldi. Rəşadın pencəyini haradansa tapıb gətirdiyi fen ilə qurutmağa başladı. Rəşad onun necə bir ciddi-cəhdlə pencəklə əlləşdiyini görüb düşündü: "Bu Kəklik də o Kəklik kimi yeri gəlsə, cəsarət sahibi və diribaş ola bilər. Gör pencəyi necə əzişdirir, elə bil, içində adam var. Çox zirəkdir. Ola bilər. Yox, o qədər də zirək deyil. Ola bilməz". Bu cür dolaşıq fikirlər içində Rəşad Kəkliyin ona uzatdığı yarıyaş, yarıquru pencəyi alıb əyninə keçirdi.

Həmin gün Kəkliyi evlərinə ötürərkən qız ondan soruşdu:

– Kitabı bitirdin? Kəkliyin romanını deyirəm.

– Yox, bitirə bilməmişəm. Çox maraqlıdı. Adam sona çatmaq istəmir.

– Az-az oxuyursan, yoxsa yavaş-yavaş?

– Yavaş-yavaş. Asudə deyir, axırını oxu, biləssən qatil kimdi.

Hər ikisi gülüşdü. Rəşad maşın sürürdü deyin, gülüşünü tez kəsdi.

– O gün Asudə mənə zəng eləmişdi, deyirdi, o da başlayıb kitabı oxumağa. Sizdən sonra mən də oxuyacam, – Kəklik dedi.

– Sənə ki hər şeyi mən danışıram, özü də nanə-turşusu ilə, daha sənin oxumağın heç maraqlı olmaz. Vallah, həyatda detektiv azlıq edirmiş. Bir yandan da bu kitab...

Kəklik onların sevimli oyununu xatırladı, gözləri güldü:

– Bir yandan da bu yağış...

Bu, hər ikisinin sevdiyi bir şeirin şah misrası idi. Şeir ovqatını onların əvvəllər gizli, indi isə aşkar görüşlərinə Kəklik gətirmişdi. Kəklik bu görüşlər zamanı ikinəfərlik şeir məclisi düzəldirdi. Qız Rəşadı da bu misraların, bu şeirlərin aşiqinə çevirmişdi. Onlar maşını bir sakit, qaranlıq yerə çəkərək sevdikləri şeirlərin şah misralarını sanki bir-birinə deyil, gecənin qulağına pıçıldayırdılar. Misralar bir-birinə zəncir kimi bağlanırdı. Bəzən misra içində olduğu şeiri axıra qədər dedirtdirirdi.

– "Bağışla məni, bağışla...".

– "Kəpənək qanadlarına..." – Rəşad da oyuna daxil oldu.

– Heç kimin ağlına gəlməz bu misranın dalınca nə gələcək. Adamı çox şeyə bağışlaya bilərlər. Adam aldadarsan, bağışlarlar. Adama zülm edərsən bağışlarlar. Nəhayət, hətta adam öldürərsən bağışlarlar. Düz demirəm, Rəşad?! Amma kəpənək qanadlarına... Kəpənək qanadlarına hansı günaha görə bağışlamaq olar?!

Kiçik bir sükutdan sonra Rəşad dedi:

– Mən də bilmirəm. Amma gözəldi...

– Gözəlliyi də odur ki, bilmirsən. Ancaq kəpənək qanadlarına... – Qızın gözləri qıyıldı.

– Ancaq və ancaq!

– Nə oldu? Gözlərini niyə yan qaçırırsan? – Rəşad bir gözü yolda, bir gözü Kəklikdə nigaran-nigaran soruşdu.

– Heç, vallah, heç... "Bir axşam taksidən..." – Kəklik bu dəfə həvəsiz halda şeir oyununa daxil oldu. Rəşada elə gəldi ki, o, sualdan qaçır.

– Düşdüm sizin evin qabağında... – Rəşad maşını sağa çəkib saxladı. Kəklik yaşayan evə çatmışdılar.

Kəklik susurdu. Maşından düşmək, ayrılmaq istəmirdi. Nəyi isə xatırlamağa çalışır, amma xatırlaya bilmirdi. Üz-gözünü büzüşdürdü. Alnını barmaqları ilə sıxdı. Birdən axtardığını tapdı:

– "Yenə bu şəhərdə üz-üzə gəldik..." – Kəklik bu misranı özü üçün az qala qələbə marşı ahəngində pıçıldayıb daha ləngimədi, maşından endi, qapını çəkib bağlamadan öncə:

– Bax, qatili bilən kimi hökmən mənə xəbər verirsən. Ona hökmü biz hamımız, ictimai birlik olaraq kəsəcəyik, – dedi.

"Görəsən, bu misra ilə nə demək istədi?! Yenə bu şəhərdə üz-üzə gəldik... Nəsə, reallığa bağlanan misraya oxşadı...".

Səhər yeməyi zamanı Rəşad yenə bacısını danlamağa hazırlaşdı. Dünən gecə kitab oxumaq vaxtı gəlib çatanda uzandığı divanda əllərini həmişəki kimi arxasına atıb kitabı tapa bilməmişdi. Kitab mətbəxdə yemək masasının üstündən tapıldı. Asudə haqq etdiyi danlağa qulaq asmazdan əvvəl "mən niyə susmalıyam?", – deyə fikirləşib qəflətən:

– Qatil Kəklikdi. Axırıncı səhifəyə bax, özün görəcəksən. Kimin ağlına gələrdi? Kəklik ha? Qatil ha?

Asudənin bu sözləri mətbəxdə bomba kimi partladı.

Rəşad rəngi qaralmış, pərt halda, bir kəlmə kəsmədən səhər yeməyini yarımçıq qoyub evdən çıxdı. O gedən kimi Zəhra xanım Asudənin üstünə düşdü, nə düşdü:

– Sən bilmirsən, bunun dincliyi, rahatlığı işdən sonra divana yıxılıb bu zəhrimar kitabı oxumaqnandı?! O, bir daha bu kitaba əlini vurmaz. Sağ ol, vallah, çox sağ ol. Sənin üzünü mürdəşir yumasın görüm...

Asudə heç ağlının ucuna da gətirməzdi ki, onun sözləri belə bir əkssəda yarada bilər. O dinməz-söyləməz oturduğu yerdəcə quruyub qalmışdı.

Bu hadisənin üstündən bir neçə gün keçdi. Rəşad həqiqətən anası deyən kimi kitabı oxumağı bir tərəfə buraxmışdı. Asudənin yalançı orakul

kimi partlatdığı xəbər onu əməlli-başlı sarsıtmışdı. Qatilin Kəklik olması nə qədər absurd, nə qədər inanılmaz bir sonluq idi, ay Allah?! Rəşad üçün az qala həyatın mənası itmişdi. Onu, elə bil, Şimal Buzlu okeandan çıxarıb Saxaraya atmışdılar və ya əksinə. Amma ən dəhşətlisi heç bu da deyildi. Kəklik, onun Kəkliyi öz görüntüsünü dəyişmişdi. Bu, bir paltar dəyişikliyi, yaxud bir saç düzəni dəyişdirilməsi deyildi. Bu həm əvvəlki Kəklik idi, həm də əvvəlki Kəklik deyildi. Kəklik göz önündə dəyişirdi. Durmadan, saatbasaat, günbəgün dəyişirdi. O daha sərt, daha amansız, daha dözülməz olurdu. Kitabdakı Kəkliyin cizgiləri gözəgörünməz, amma geridönməz bir şəkildə bu Kəkliyə keçməyə başlamışdı. Rəşad onu görmək istəyinin qəlbində yavaş-yavaş azaldığını hiss edirdi. Kəklik, hətta belə deyək, xaricən də dəyişirdi. Onun gülüşünü artıq həlim və mehriban yox, daha çox iblisanə adlandırmaq olardı. Üzündə, dodaqlarına yaxın yerdə bir xalı vardı, o xal birdən-birə böyüməyə başlamışdı. Və bütün bunlar bir yana, günlərin bir günü Rəşad nə oldu, nə olmadısa, düşüncələrinə belə bir sonluq verdi, qətiyyətlə belə düşündü: "Qatil ki öz adının quludur, ad hardadısa, qatil də ordadı. Qatil ölə bilər, amma ruhu ölməz, addan ada keçər. Mən bu adamla davam edə bilməyəcəyəm".

Belə bir nəticəyə gələndən sonra bir axşam işdən sonra Rəşad maşınına minib Kəkliyi gözləmədən iş yerindən uzaqlaşdı. Maşını sürərkən beynində ancaq bu misralar yelləncəkdəki kimi fırlandı: "Soldu nar çiçəkləri, indi nar yetişəcək...".

Kəklik işdən çıxıb həmişə onu gözləyən yerdə nə Rəşadı, nə də maşını gördü. Kəklik məsələni anındaca anladı. Dinməzcə, başını yerə dikib yaxınlıqdakı metroya tərəf addımladı. Gedə-gedə o tanış və sevimli misranı xatırlayıb belə düşündü: "Yenə bu şəhərdə üz-üzə gəldik... Yaxşı oldu, pis oldu – bilmirəm. Amma doğrusu da budu. Bu adam məni öz sevgisi ilə əvvəl-axır bezdirəcəkdi. Onunla bir addımlamaq düzgün deyildi. Ya bu adam mənim axırıma çıxacaqdı, ya da mən məcbur olacaqdım ki...".

Konsert

Zərnigar ərinin hərbi pencəyini şifonerin sağ gözündən alıb ora-burasına diqqətlə baxdı, pencəyin hər iki yaxasındakı orden və medalları barmaqları ilə sığalladı:

– Arif, bunu niyə geyinmək istəmirsən? – deyə-deyə yan otağa keçdi, əlindəki pencəyi silkələyə-silkələyə bütün cilvəsi ilə onun gözləri önünə tutdu.

Arif gözünün ucu ilə hər tərəfi orden-medalla dolu hərbi pencəyə ötəri nəzər salıb dodaqaltı mızıldandı:

– İstəmirəm. Ayıbdı. Adamlar elə bilər, özümü göstərirəm.

– Nəyi ayıbdı, bunları sən canını qoyub almısan. Səni tanıyan heç vədə helə deməz.

Axşam Arif Zəfər Gününə həsr edilmiş konsertə dəvətli idi. Ordudan sağlamlığına görə tərxis edildikdən sonra adam arasına ilk çıxışı olacaqdı. Tanış-bilişlə görüşəcəkdi. Arif heç kimdən fərqlənmək istəmirdi.

– Zərnigar, köynək nooldu?

Arif, nəhayət, mülki kostyumunu geyinib saçını güzgü qabağında neçənci dəfə darayandan sonra:

– Mən getdim, – deyə səsləndi və evdən çıxdı.

Konsert binasının qarşısında adam adam üstündə idi. Hamı giriş qapısından keçməyə can atırdı. Adamlar bir əlində bilet, o biri əlindəki telefonda kovidlə bağlı özlərinə aid informasiyanı axtarır, girişdə duran biletyoxlayanlara göstərməyə çalışırdılar. Biletyoxlayanların arasında cüssəli bir gənc xüsusi canfəşanlıq göstərirdi. Bu, qara kostyum, ağ köynək geyinmiş, qırmızı qalstuk taxmış bir aktivist idi. Civə kimi gah sağa, gah sola qaçır,

hərdən içəri keçir, hərdən bayıra çıxır, sürüşüb içəri keçmək istəyənlərin qarşısını alır, sırasını düzəldirdi.

– Qardaşım, sıranı pozma. Yerinə keç. Sıraya girin, qardaşlar. Sakitliyə riayət edin. Sakit olun. Arxayın olun. Konsert sizsiz başlamayacaq.

Qapı ağzındakı izdiham sakitləşmək bilmir, sıra yenə də pozulur, adamlar dalğa-dalğa gəlib qapıya çırpılır, gənc aktivistin geniş sinəsinə dəyib geri çəkilirdi.

Arif bu aktivistə, onun yersiz canfəşanlığına baxdıqca gülməyi gəlirdi. Bu oğlan qələbədən uzaqda "qələbə" qışqıranlara oxşayırdı. Arif düşündü: "Mən və yoldaşlarım "qələbə" bayrağını Vətən torpağının bağrına sancanda bu adamlar maşınlarının pəncərəsindən televiziya kameralarına "Qələbə!!!" qışqıra-qışqıra poz verirdilər".

Gənc aktivist çoxdan Arifin baxışlarını tutmuşdu. Bu baxışların arxasındakı rişxənd dolu təbəssümü də deşifrə eləmişdi. Girəvə axtarırdı Arifə cavab verməyə. Növbəti dalğa Arifi düz onun önünə atdı. Dalğa geri çəkiləndə aktivist Arifi arxadan bərk-bərk qucaqlayıb kənara çəkdi.

– Məni niyə aparırsan? Mənim sıram ordadı. – Arif aktivistə sıradakı yerini nişan verməyə çalışdı.

– Dayı, sən hələ gəl bu tərəfə görüm. Ayaq altında qalarsan. Əvvəla, göstər görək, sənin kovid icazən varmı? – Aktivist çox ciddi şəkildə Arifdən soruşdu.

Arif bu basabasda istədi, əlini cibinə atsın və telefonunu çıxarıb kovid icazəsi olan səhifəni açıb göstərsin, alınmadı, sağdan-soldan onu möhkəmcə sıxışdırırdılar:

– Qardaşım, bax, bu mənim konsertə dəvətnaməm... – Arif əlindəki dəvətnamə ilə məsələni həll eləməyə çalışdı.

– Onu saxla. Kovid icazəni göstər.

– Al, bax, bu da mənim kovid icazəm. – Nəhayət, Arif onu məngənə kimi sıxışdıranlardan canını qurtarıb telefonu çıxardı və lazım olan səhifəni tapdı.

– Hə... tutalım ki, bunu gördük, indi şəxsiyyət vəsiqəni göstər.

– O niyə? O yanımda deyil.

– Yaxşı, nə bilək ki, bu icazə sənə aiddir?

Arif inanmaq istəmədi ki; aktivist oğlan bu dərəcədə ciddi ola bilər. O isə bir əlilə Arifin əlindən bərk-bərk yapışaraq səbrlə gözləyirdi. "İndi görərsən başqasına rişxəndlə gülmək necə olur?!"

– Bax, qardaşım...

– Nə bax, bax salmısan?! Baxıram da... Görmürəm. Çəkil kənara. Camaata mane olma. Çəkil! – Gənc aktivist Arifi bir kənara itələyə-itələyə hiddətlə onun qulağına pıçıldadı: – Hə, niyə gülmürsən? Gülsənə! Bayaqdan rişxəndlə gülə bilirdin... Nooldu?!

Gənc aktivist, nəhayət ki, niyyətinə çatıb Arifi sıradan çıxardı. Sıradakılar yenidən qapıya hücum etdilər. Səs-küy yenidən yüksəldi. Arif matməəttəl qalmışdı.

Elə bu zaman konsert binasının iyirmi addımlığında bir hərbi avtobus dayandı. İçindən hərbçilər enməyə başladı. Bunlar zəfər konsertinə dəvət olunan müharibə qəhrəmanları idi. Hamısının başında qırmızı beret var idi. Boy-buxunları, əyin-başları göz qamaşdırırdı. Bir anın içində iki səf düzəltdilər. Sonra konsert binasına doğru əsl hərbçi addımları ilə "bir-iki, bir-iki" yaxınlaşmağa başladılar. Camaat bir anın içində giriş qapısının ətrafını boşaltdı. Qapıya qədər adamlardan ibarət canlı tunel yarandı. Gənc aktivist Arifi arxaya itələyib ön sıraya keçdi. Amma hələ də arxasında gizlətdiyi Arifin əlindən bərk-bərk tutmuşdu ki, əlini ondan qoparıb içəri sürüşməsin. Hərbçilər qapıya yaxınlaşdıqca qapı ağzına toplaşanlar əl çalmağa başladılar. Bütün məhəbbətlərini gözlərinə yığıb hərbçiləri böyük bir ruh yüksəkliyi ilə qarşılayan bu insanlar əllərinin ağrımasına fikir vermədən hərbçilərin addım ritminə uyğun əl çalırdılar.

Hərbçilər onlar üçün düzələn tuneldən keçməyə başlayan zaman irəlidə gedən taqım komandirinin peşəkarcasına sağa-sola qaynayan donuq gözlərinə birdən elə bil, işıq doldu. Gözləri sol tərəfə dirənib qaldı. Qapının dörd-beş addımlığında taqım komandiri qəflətən yerində saymağa başladı və bir an sonra komandirin bağırtısından yer titrədi. Bu bağırtı ətrafdakı çəpən səslərini qartal qıyı kimi batırdı:

– Diqqət... sola!!! Taqım dur!!!

Zəhmli, qaşqabaqlı hərbçilərin iyirmisinin də ayağı bir nəfər kimi yerə pərçimlənmədimi, pərçimləndi. Yenə haman tükürpədən bağırtı bu dəfə ətrafa hakim kəsilmiş sükutun bağrını yardı:

– Sola dön!!!

Hərbçilər bir nəfər kimi sola döndü. Qəflətən hamısının eyinləri açıldı, gözləri güldü. Hamısı öz köhnə komandirlərini görmüşdü.

Taqım hələ də farağat halında idi. Yenə taqım komandiri Mübarizin qartal səsi ucaldı:

– Komandiri salamla!!!

Hərbçilərin hamısı bir adam kimi hərbi salama durdu. Gənc aktivist qarşısında duran hərbçilərin ona tərəf dönüb hərbi salamda farağat dayanmasını başa düşə bilmirdi. O, əməlli-başlı çaşıb qalmışdı. Kürəyindən tumanınacan tər axdığını hiss elədi.

Hərbçilərin farağat şəklində durduqları hərbi salamın nə qədər sürəcəyini bir nəfərdən başqa heç kim bilmədi. Bütün ətraf çaşqın halda susub qalmışdı. Birdən gənc aktivist hiss elədi ki, arxasında gizlətməyə çalışdığı o çəlimsiz kişi əlini onun əlindən sıyırıb azad elədi. Sonra Arif əlini ovuşdura-ovuşdura gənc aktivistin arxasından çıxıb ona hərbi salama durmuş hərbçilərin qabağına keçdi. Bir anlıq Arif də farağat vəziyyətini aldı. Qarşısında illər boyu çörək kəsdiyi, ölümə gedib salamat geri döndüyü, yaralısını çiynində, xəstəsini qucağında daşıdığı döyüş yoldaşları donuq şəkildə mil durub onun – sevimli komandirlərinin əmrini gözləyirdilər. Ancaq onun əmri bu adamları farağat vəziyyətindən çıxara bilərdi. Arif onların hamısını bir-bir, ciddi baxışla süzəndən sonra yavaş, amma sərt səslə "Azad!" – dedi.

Hərbçilərin sevinci yerə-göyə sığmırdı. Onlar bir anın içində komandirlərini əhatə etdilər, kimi Arifi qucaqlayır, kimi öpür, kimi də əlini onun kürəyinə, qoluna toxundururdu. Deyə-deyə, gülə-gülə, qucaqlaya-qucaqlaya onlar Arifi az qala əlləri üstə alıb giriş qapısına tərəf apardılar.

Bir neçə an qapı ağzına toplaşmış adamlar hərbçilərin arxasınca dinməz-söyləməz durub baxdıqca baxdılar. Sonra yenə də konsert binasına yürüş başladı.

Gənc aktivist taqətsiz bir halda bu insan selinin qarşısından çəkildi. Bir müddətdən sonra o, tamamilə tək qaldı. Kənara çəkilib bir pilləkənin üstünə oturdu. Qalstukunu boşaldıb köynəyinin yaxasını açdı. Özü də bilmədi ki, qəhər onu niyə belə boğur.

Sarı camış

Məzhəbqulunun ağzından ilan kimi sürüşüb çıxan bu sözlərdən sonra çayxanaya ölü bir sükut çökəcəkdi və bu sükutu yarmaq heç də asan olmayacaqdı. Ona görə də Sarı Camışın qəzəbli təpkisi sükutun qarşısını alan kimi, elə bil, hamının çiynindən ağır bir yük götürüldü. Ortalığa səs-küy düşdüyü üçün çayxanadakılar rahatlıqla köks ötürdü. Sarı Camış, yenə də elə bil, hamının əvəzinə yumruğunu var gücüylə stolun üstünə vurdu. Bir-birinə qısılmış çay stəkanları bir-birinə dəyib cingildədi. Məzhəbqulunun kürəyindən tumanınacan soyuq tər axdı.

– Sən ağzını Allah yoluna qoyub kimin sözünü danışırsan, ə?! Sən heç bilirsən, nə deyirsən???

Sarı Camışın tarıma çəkilmiş nəhəng vücudu, yumruq zərbəsinə sıxışdırdığı qəzəbi, hədəqəsindən az qala çıxan gözləri, ağzından parıldaya-parıldaya çölə can atan sözlərin azğın intonasiyası – hamısı bir-birilə qucaqlaşıb çayxanada göz qabağındaca əcaib bir vəhşət yaratdı. Məzhəbqulunun canını qorxu bürüdü.

Sarı Camışın olardı qırx, qırx bir yaşı. Bu oturub çay içdikləri və sözlərinin çəp düşdüyü çayxana onunku idi. Sarı sifəti, sarı saçları, sarı kirpikləri var idi. Nəhəng vücudunu da bura əlavə eləsək, Sarı Camış ləqəbini niyə daşıdığı aydın olurdu. Öz adından heç xoşu gəlməzdi. Bilinmirdi qız adıdı, yoxsa oğlan. Əsl adı Qumral idi. Guya hansısa ulu babasının adı idi. İkisindən birini seçəsi olsaydı, elə özü də Sarı Camışı seçərdi. Üzünə hamı onu hörmətlə Sarı çağırırdı. İmanlı kəndində Sarı Camış Qırxlar məhəlləsinin bərkgedənlərindən idi – pulu pul kimi, qolunun gücü öz yerində – üç adamla asanlıqla bacarardı, beş adamın yeməyini mərc çəkib yeyər, mərci udar, üstündən beş yumurtanın beş pomidora çırpılmış

çığırtmasını istərdi. Ürəyi yuxa idi. Kənddə cibinə pul qoymadığı cavan, çaya qonaq eləmədiyi yaşlı qalmamışdı. Qoçaq idi. Harda qeylü-qal, orda Sarı Camış. Ədalətli idi. Elə haman Məzhəbqulunu əyyaşlığına görə düşdüyü polisdən dəfələrlə qurtaran da o idi. Çılğın, dəliqanlı idi. Müharibədə olmuşdu. Könüllü olaraq oxuduğu məktəbdə ona coğrafiya dərsi deyən sevimli müəllimi Əjdər müəllimin elə bircə "gəl, mənimlə gedək" sözü ilə onun başına yığdığı dəstəyə qoşulmuş və cəbhənin ön xəttində beş il müəllimi və komandiri ilə çiyin-çiynə vətən uğrunda vuruşmuşdu. Hərbi işlər qaydasına düşən zaman o da İmanlıdan olan digər kəndlilər kimi qayıdıb kəndlərinə dönmüşdü. Komandirlərinin ölümündən sonra əlləri-ayaqları sustalmışdı, elə bil, ruhdan düşmüşdülər. Komandirləri Laçın Əjdər hücum başlayan zaman bədənini döyüşçülərdən birinin – çavuş Həşəmətin qarşısında sipər çəkib onu düşmən gülləsindən xilas etmiş, özü isə şəhid olmuşdu. Əjdər komandir döyüşçülərin sevimlisi idi. Ondan maraqlı əhvalatlar danışırdılar. Döyüşməyə öz yanına gətirdiyi oğlu Mərdanla döyüşçülər arasında heç bir fərq qoymazdı.

Sarı Camışın özünün dəfələrlə çayxanada saldığı söhbətlərdən biri də bu idi. Komandirin oğlu Mərdanın snayper tərəfindən vurulduğu günlər idi. O, iki gün əvvəl hamının gözü qabağında, atasının qucağında şəhid olmuşdu. İki gün idi ki, Əjdər komandir özündə, sözündə deyildi. Sarı Camış ortalıqda dəli kimi gəzirdi. Sonra o yox oldu. Bir müddət keçdi və Sarı Camış şəxsən özü iki düşmən əsgərini səngərlərdən xeyli uzaqda yaxalayıb hərəsini bir qoluyla qoltuğunun altına sıxaraq sürüyə-sürüyə gətirib Əjdər komandirin ayağı altına atdı. Komandir önünə atılmış yerdə zorla qıvrılan bu canlı meyitlərə baxıb baxıb Sarı Camışa heç bir söz demədi, amma gözləri yaşarmağına yaşardı.

…Əsirləri zirzəmidən həyətə çıxardılar. Ətrafdakı əsgərlər gözlərində amansız nifrət onları dövrəyə aldı. Əsgərləri buraxsaydın, bu iki insanabənzər məxluqu öz əllərilə boğardılar. Sarı Camış hələ də heyifsilənə-heyifsilənə söyləyirdi ki, elə əlimi bıçağa atmışdım ki, komandir əlini qaldırıb mənə "dur" işarəsini verdi. O, gözlərini əsirlərdən çəkə bilmirdi. Çox diqqətlə bu gədələrə baxırdı. Niyə belə baxırdı, baş açmadım. Gədələrin isə

ürəyi bayaq getmişdi, ikisi də tir-tir əsirdi. Mən əlimi saxladım, durdum. Dedim, yəqin, özü bunların başını kəsəcək. Bıçağı ona uzatdım. Almadı. Mən təəccüb etdim.

– Bunları aparın təhvil verin qərargaha… – Oğlunun şəhid olmasından sonra iki gün ərzində dediyi ilk sözlər bunlar oldu. Sonra üzünü Sarı Camışa tutdu. – Sən – yox. Sən bunları aparmayacaqsan. Çavuş, Həşəmət, sən bunları apar şəhərə. Təhvil ver qərargaha, qayıt gəl. Sarı, səni də, – üzünü digər əsgərlərə tutdu, – sizi də, hamınızı da and verirəm göydəki o bir olan Allaha, bunlara bir xətər yetirməyin.

Bu sözləri deyib komandir gedib girdi kazarma qapısından içəri və daha bayıra çıxmadı. Hamı əsgərlər qaldılar mat və məəttəl.

Sarı Camış qəribə əda ilə onu da deyirdi ki, sevimli komandirlərinin bu hərəkəti əsgərləri elə çaşdırdı ki, beyinlərindən, hətta belə bir fikir də keçdi: "Bəlkə bu adam o boyda, nər kimi oğlunun ölümündən sonra yavaş-yavaş havalanır?!" Hamı xeyli pəjmürdə idi.

Əjdər komandir, cəbhədə qazandığı yeni adı ilə desək, Laçın Əjdər, müharibənin ilk günlərindən öz tanıdığı adamlardan – dərs dediyi köhnə şagirdlərindən, qonşularından, dost-tanışından ibarət bir dəstə düzəltdi. Sonra onlarla bir yerdə cəbhə xəttinə yaxın kəndlərə getdi və vətən uğrunda bir qaşıq qanından qorxmayıbq gecəli-gündüzlü döyüşdü. Demək olar ki, ilk gündən əsgərlə bir yerdə – hücum zamanı hücumda, müdafiə zamanı müdafiədə oldu, onunla bir səngərə girdi, onunla bir səngərdən çıxdı. Əsgərin qeydinə qalmağı ondan yaxşı heç kim bacarmırdı. Yuxusu gözündən tökülənin yerinə olurdu ki, keşikçiliyi də özü edirdi. On yeddi yaşlı yeganə oğlu Mərdanı kənddən gətirib öz dəstəsinə yazdırdı, əlinə silah verdi, ona güllə atmağı öyrətdi. Dedi: "Düşməndi, oğul, onun güllə payı bizdədi, ona güllə ata bilərsən, halaldı, amma başqasına, özününkü olana ata bilməzsən, bunu heç zaman etmə və bunu unutma".

Döyüşdüyü bu illər ərzində Laçın Əjdər düşmən vəhşiliyinin hər üzünü gördü. Amma tale pis yerdə yaxaladı onu. Laçın Əjdər Sarı Camış danışan hadisədən iki gün əvvəl bu dünyadakı yeganə oğlu Mərdanı itirdi. Snayper gülləsi Mərdanı onun əlləri üstünə salmışdı. Elə bil, Mərdan əvvəl-

əvvəl həmişəki kimi dincəlmək üçün özünü həyətlərindəki alma ağacının altına atırdı. Bu, elə gözlənilməz oldu ki… Mərdan qəfildən atasına söykəndi. Laçın Əjdər əvvəl-əvvəl heç nə başa düşmədi. "Buna nə oldu? Bəlkə ayağı sürüşdü, bəlkə burxuldu? Bu niyə belə hərəkətsizdi?! Bə bu niyə belə edir?!"

Səssizlik içində gələn güllənin ona dəyməsilə Mərdanın canını tapşırması bir oldu. Mərdanı atasının əllərindən zorla aldılar. Çavuş Həşəmət uşaqları qamarlayıb səngərin içinə saldı. Meyiti səngərdə bir küncə uzatdılar. Gözləri hələ açıq idi, başı yana əyilmişdi. Başının şapkası yox idi, harasa düşmüşdü. Kəkilini yel o yüz, bu yüzə vururdu. Hamının rəngi ağarmışdı. Heç kim başını döndərib Mərdanın üzünə, yel oynadan kəkilinə baxa bilmirdi. Hamı dil-dodağını gəmirirdi. Laçın Əjdər dinməz-söyləməz, kirimişcə bir tərəfdə, quru torpaqdaca hərəkətsiz oturub qalmışdı. Qəflətən nə oldu, nə olmadısa çavuş Həşəmət özünü Laçın Əjdərin üstünə atdı. Onu yerə yıxıb əllərini bir-birindən araladı:

– Tutun əllərini!!! – Həşəmət bərkdən qışqırdı və Laçın Əjdərin avtomatını ayaqlarının arasından alıb bir tərəfə itələdi. Bu an Sarı Camış çavuşun nə etdiyini anladı və avtomatı tez yerdən götürüb arxasında gizlətdi.

Uşaqlar komandirin əllərini bərk-bərk tutub onu yenidən yerində otuzdurdular. Komandir heç nə olmayıbmış kimi sakitcə onlara tabe oldu. Qapqara qaralmış Laçın Əjdərin gözləri heç kimi görmürdü. Dilindən bir kəlmə söz çıxmırdı. Dodaqları isə yana dartılan kimiydi. Buna təbəssüm də demək olardı.

Həşəmət səngərdən kazarmaya qayıtdıqdan sonra həyətdə siqaret çəkə-çəkə uşaqlara belə dedi: – Bəs axı mən onun, yəni, komandirin, nə zaman nə edəcəyini çox yaxşı bilirəm. Üç ildi bir yerdəyik. – Bu zaman Həşəmət gözlərilə Sarı Camışa iti bir baxış atdı. Köksünü ötürüb yenə davam etdi. – Onun əli yavaş-yavaş avtomata gedirdi. Mən bir saniyə geciksəydim, avtomatı çəkib özünü vuracaqdı.

İmanlı kəndində Mərdanın dəfni zamanı Əjdər komandir qürurlu görünürdü. Nə meyit məzara endiriləndə göyə atılan avtomat səsini, nə çalınan himni eşitdi. Beynində ancaq Mərdanla danışırdı, daha doğrusu, mü-

bahisə edirdi və beynindən ancaq bu sözlər keçirdi: "Niyə? Niyə mən yox, sən? Niyə mənim ağlıma gəlmədi ki, səni özümdən qabağa buraxmayım? Bəlkə sən bilmişdin, ya da hiss eləmişdin ki, nişana məni alırlar, ona görə məndən qabağa keçmişdin?! Mən səni beləmi qorudum?! Öz yanıma apardım ki, gülləyə tuş edim?! Niyə sən o an o nöqtədə olmalı idin?! Niyə?! Niyə mən yox, sən??? Səndən sonra mənə kim və nə lazım ola bilər?! Heç nə və heç kim! Hər şey bitdi, qurtardı, getdi işinə". Himnin son akkordları "Azərbaycan, Azərbaycan" deyirdi və bu "Azərbaycan" sözü dünyanın ən uzun sözü olmuşdu, qurtarmaq bilmirdi ki, bilmirdi.

Dəfndən sonra Sarı Camışı həyətdə bir tərəfə çəkib Laçın Əjdər ona belə bir tapşırıq verdi:

– Sarı. Məni, bax, sənə deyirəm… Mərdanın yanında… Ancaq burada. Bir tikəm də ələ düşsə, burada… Sənə vəsiyyətimdi. Qoymayasan, nəbadə, mənim cəsədimi düşmənə qoymayasan.

– Başa düşdüm. Arxayın ol, komandir… Əjdər müəllim… – Sarı Camış əlinin arxası ilə göz yaşlarını silə-silə komandirinə və ürəyinə dağ çəkilmiş əziz məktəb müəlliminə bərk-bərk sarıldı, qəhərini zorla boğaraq onu arxayın etdi.

Bu, iki həftə sonra baş verdi. Elə Mərdanın qətlə yetirildiyi həmən səngərin yanında Laçın Əjdərin əsgərləri bir axşamçağı komandirin əmri ilə səngərdən bir-bir qalxıb hücuma keçdikləri vaxt gözlərini qarşıdakı düşmən səngərindən çəkməyən Sarı Camış birdən gözünün bir qırağıyla sezdi ki, komandir irəli cuman yerdə qəfildən yerində dayandı və onun yanından ötüb keçmək istəyən çavuş Həşəmətin əlindən tutub saxladı. Elə bil, ona nə isə demək istəyirdi. Çavuş əvvəl-əvvəl bir şey anlamadı. Komandir cəld bir hərəkətlə çavuşu yana itələyib onu öz arxasında gizlətdi. Bu, bir anın içində oldu. Çaşqın hala düşmüş çavuş özünə gələnə qədər komandir əvvəl yüngülvari səndirlədi, amma yenə də özünü saxlayıb ayaq üstə dura bildi. Çavuş Komandirə ümid və sədaqətlə baxıb "ura" qışqırdı, sonra qaçıb özünü bir topa şahin kimi çölün düzünə açılmış dəstənin ön sırasına atdı.

Laçın Əjdər əlində tutduğu bayrağı bütün gücünü toparlayıb ayağının altındakı cod və palçıqlı torpağa sancdı. Bayrağın alt ucu bıçaq yağa

girən kimi torpağa girdi. Komandir bütün ağırlığını bu bayrağa verdi. Bayraqdan bərk-bərk yapışıb ayaq üstə durmağına davam etdi…

Hamı əsgərlər artıq təkcə ayaqları ilə deyil, ruhları ilə irəli uçurdular. Sarı Camış gözlərinə yaş, boğazına qəhər dola-dola, ləhləyə-ləhləyə, son gücünü toparlayıb özü də bilmədiyi hansısa sözləri bağıra-bağıra irəli qaçır və bu zaman geriyə qanrılıb səngər tərəfə baxmağa ürək eləmirdi. Beynindən çıxmırdı ki, geriyə baxsa, müəllimi və komandiri Laçın Əjdərin heykələ dönmüş vücudunu əli ilə tutub söykəndiyi bayrağın yanında görəcək.

…Çayxana zahirdə olmasa da daxildə tir-tir titrəyirdi. Məzhəbqulu başa düşmüşdü ki, gərək belə bir qələti eləməyəydi, amma iş işdən artıq keçmişdi.

– Mən nə dedim ki… – Məzhəbqulu peşman-peşman pıçıldadı. Elə bil, başa düşmüşdü ki, Sarı Camışın qəzəbinə tuş gələcək. – Mən eşitdiyimi dedim. Mərmərlidən bir nəfərlə avtobusda gəlirdim. O dedi. Guya Əjdər müəllim cəbhədə ikən iki erməni əsirini açıb buraxıb evlərinə. Düzmü edib?! Düzmü etməyib?! Kim bilir?!

Sarı Camışın da qəzəbli yumruğu elə bu zaman stolun üstünə çırpılmışdı…

Səngərdəki səs

Restoranın geniş və rahat xüsusi zalında oturub böyük bir şövqlə yeyib-içən bu adamların keyfləri kök, damaqları çağ idi. Deyib gülməklərinin ardı-arası kəsilmirdi. Sağlıq deyir, qədəh-qədəhə toqquşdurur, içkilərini içir, içəndən sonra da ləzzətlə öpüşürdülər.

Zalın bir küncündə milli musiqi alətlərini səsləndirən trio oturmuşdu. "Qarabağ şikəstəsi"ndən "Segah – zabul"a, oradan da "Çırpınırdı Qara dəniz"ə qədər çalırdılar. Oxuyan nədənsə gəlib çıxmamışdı. Ona görə də sözxaric musiqi özünü hara gəldi dürtürdü. Tost deyənlərə, hətta tarla kamançа astadan züy tuturdu, hərdən bu züyə balaban da qoşulurdu. Məclis məmnun idi.

Məclisin sahibi Əhməd müəllim idi. O, özünün beş nəfər ən yaxın iş yoldaşını Qarabağ müharibəsi zəfərlə bitəndən sonra cəbhədən qayıtmış uzaq qohumu cavan leytenantın görüşünə yığmışdı. Qonaqlıq cavan leytenantın şərəfinə verilirdi. Bu, son səkkiz gün ərzində onun üçün təşkil edilmiş üçüncü qonaqlıq idi. Digər cəbhə dostları da eyni vəziyyətdə idilər. Qohumlar, dostlar, qonşular cəbhəyə könüllü getmiş və zəfərlə qayıtmış bu utancaq, məclisdəki hər hərəkətlərindən ehtiyatsızlıq və peşmançılıq yağan cavan zabit və əsgərlərin şərəfinə qonaqlıqlar verməyi özlərinə müqəddəs borc bilirdilər. Məclislər də ki… təbii olaraq, hamısı bir-birinə oxşayırdı – eyni sözlər, eyni baxışlar, eyni hisslər…

On günə yaxın olardı ki, cavan leytenant və onun cəbhə yoldaşları – bu gənclərə səngər dostları da demək olardı – doğma şəhərlərinə geri dönmüşdülər. Onların bir-birini görmək üçün burunlarının ucu göynəyirdi, amma hələ vaxt eləyib görüşə bilməmişdilər. O biri müharibə qaliblərinin də şərəfinə ardı-arası kəsilməyən məclislər düzənlənməkdə idi.

…Əhməd müəllim ayaq üstə tost deyirdi. Kamançanın səsi onu astadan müşayiət etməyə başladı. Bu səs bəzən zar-zar ağlayan və inləyən insan səsinə yaxınlaşır, sonra ondan uzaqlaşır, amansız və ötkəm əmrlər verən tamam başqa bir səs olurdu. Bu səsi dinlədikcə kamançadan gözünü ayıra bilməyən cavan leytenantın gözlərindən axan yaş yanaqlarındaca iki çaya çevrilmişdi və çənəsinin hər iki tərəfi ilə axıb damla-damla birbaşa süfrəyə tökülməyə başlamışdı. Cavan leytenantın ürəyi sıxıldıqca sıxılır, az qala hövr eləyirdi. Özü də bilmirdi niyə, amma elə bil, onu dərin bir quyuya salmışdılar, oradan çıxa bilmirdi. Birdən o, sərt bir şəkildə əli ilə stolun üstündəki qab-qacağı, badələri stolun bir tərəfinə itələdi. Əllərini eynən səngərdəki kimi daraqlayıb başını əlləri arasına aldı və alnını çirkli süfrəyə dayadı. Hıçqırıq onu boğurdu.

Əhməd müəllim necə ki stolun başında ayaq üstə durmuşdu, eləcə də durduğu yerdə donub qaldı. "Mən nə dedim ki, bu adam belə bir hala düşdü?! Bunun birdən-birə belə dəyişməyi nə deməkdir?!" – Əhməd müəllim düşündü. Amma o səhv edirdi. Cavan leytenantı bu halsız duruma salan Əhməd müəllimin sözləri deyildi. Bu sözlər məclisdə hamının ürəyindən gələn sözlər idi: müzəffər ordumuz, igid əsgərlərimiz, zabitlərimiz, qalib Baş komandanımız, düşmən əsarətindən, nəhayət, qurtulmuş Vətən torpaqlarımız, şəhidlərimiz, qazilərimiz, arxa cəbhə, Azərbaycan tarixi, ədəbiyyatı… Və daha nələr, daha kimlər…

Əhməd müəllim şövqlə danışdıqca zaldakı musiqiçilər tarda, balabanda, xüsusilə də, kamançada ona züy tutmaqlarında idi. Cavan leytenant da elə bu zaman yanaqlarından biixtiyar axan göz yaşlarını saxlaya bilməmişdi. Kamança sanki tarla mübahisəsini bir tərəfə atıb unutmuşdu, o, daha Əhməd müəllimə də züy tutmurdu, kamança cavan leytenantın gözlərindən axıb gələn damlalara süfrəyə düşmələri üçün qısa yol göstərirdi.

Kamança çaldıqca cavan leytenantın yumulu, qaranlıq gözləri içində tamam başqa bir mənzərə canlanırdı. O səngərdədir, adətkərdə şəkildə başını əlləri arasına alıb gizlətməyə çalışır. Səngərin üstü ilə sağdan sola, soldan sağa mərmilər uçur. Ətrafda bombalar partlayır. Qulağına yenə də haman

səngərdəki səs gəlir: "Yat yerə, başını çıxarma. Yenə atacaqlar. Gir səngərə. Hələ tezdi. Əmri gözlə. Əmr olsun, o zaman. Tələsmə. Heç tələsmə!.."

…Kamança yanıqlı-yanıqlı çalmağında idi. Eynən adam səsi idi kamançanın səsi. Özü də eynən səngərdəki səs idi. Başqa səs deyildi. Cavan leytenant buna təəccüb etmədi. O artıq bilirdi ki, ətrafdakı səsləri səngərdəki səslə tutuşdurmağa başlayıb. Dünən də evdə on iki yaşlı bacısının səsinə oxşatmışdı səngərdəki səsi. Və bu tutuşdurma, cavan leytenant bunu da bilirdi, həyatının sonuna qədər onu rahat buraxmayacaqdı, səngərdəki səs onu artıq həyatının sonuna qədər müşayiət edəcəkdi.

Məclisə isə sükut çökmüşdü. Hamı səmimi bir nigarançılıq içində, mat-məəttəl halda bir-birinin üzünə baxmaqda davam edirdi. Hamının beynindən bir sual keçirdi: "Biz nə etdik?! Biz nə etməli idik, etmədik?! Əhməd müəllim!.." Əhməd müəllim ona ünvanlanmış lal sualları duyur və məclisdəkiləri qaş-gözünün yalnız onun özünə bəlli işarələri ilə sakit eləməyə çalışırdı.

…Sağ da, sol da insan cəsədi idi. Artıq ayırmaq olmurdu düşməninki hansıdı, bizimki hansıdı. Bir-birinə oxşayan əllər, ayaqlar, başlar, bədənlər ayrı-ayrılıqda göyə uçur, yerə dəyir, sonra yenidən göyə qalxır, göydə uçuşlarını davam edirdilər. Əzalar hamısı bir-birinə qarışmışdı. Onları yenidən birləşdirə bilən, bir-birindən ayrı düşmüş bu əzalara yenidən "yaşa!" əmrini verə bilən bir qüvvə olsaydı, onların belə qatmaqarışıq birləşməsindən yeni, amma bu dəfə tamam başqa, bir-birinin qəsdinə durmaq istəməyən adamlar yarana bilərdimi?! Cavan leytenant hıçqırığını boğub acı-acı gülümsədi.

Səslər isə kəsilmişdi. Nə mərmi, nə bomba səsi var idi, nə də səngərdən səs gəlirdi. Hər şey səssiz kinodakı kimiydi. Ancaq ayrı-ayrı qollar, ayaqlar, təəccüb dolu iri gözlərin yapışdığı başlar havada ora-bura uçuşurdu. Səngərdən baxanda adama elə gəlirdi ki, onların hər biri havada uça-uça öz doğma əzasını axtarır. Çünki onlar da qorxurdular ki, kimsə onlara "yaşa" əmrini verə bilər. Və onlar ayrı-ayrı cəsədlərə məxsus müxtəlif əzaların birləşərək yarada biləcəyi adam olmaq istəmirdilər.

Nəhayət, kamança iztirablı bir "ah" çəkib susdu. Cavan leytenant o uzaq səngərdən restoran zalına "qayıtdı". Başı hələ də əlləri arasında idi. Oğrun-oğrun ətrafa göz gəzdirdi. Gördü ki, hamı məclisdəkilər ona maraq və təəccüblə, bir az da qorxa-qorxa baxmaqdadılar. Başını yenə də eynən səngərdə olan kimi son dərəcə ehtiyatla əlləri arasından çıxarıb qaldırdı. Üzünə günahkar təbəssümə bənzər ifadə qondu. Məclisdəkilər bunu gözləyirmiş kimi rahat nəfəs aldılar. "İçkidəndi. Eyb eləməz, indi havaya çıxarıq, keçib gedər" Əhməd müəllim yanında durmuş həmkarının qulağına pıçıldadı.

– Azərbaycan əsgərinin şərəfinə! Ura! – Nəhayət, Əhməd müəllim natamam qalmış sağlığının məntiqli və layiqli sonluğunu tapdı, cibindən çıxardığı yaşıl dəsmalla «uf!..» eləyib alnının tərini sildi. Ətrafdakılar tez onun sözünün ahəngini tutdular:

– Azərbaycanın şərəfinə!..

– Vətən sağ olsun!..

– Yaşasın ordumuz!..

Məclisdəkilər hər biri öz bildiyi kimi sağlığın sonunu dəyişdirib sözləri sözlərə, qədəhləri qədəhlərə vuraraq araqlarını başlarına çəkdilər. Cavan leytenant stol üstündəki qarışıqlıqda öz qədəhini birtəhər tapıb – kimsə onu tələsik araqla doldurdu – başına çəkməzdən əvvəl hamıya qoşulub o da nəsə demək istədi. Bunu hiss edən məclis əhli anındaca susdu. Cavan leytenant sifətində həmən qondarma təbəssüm sərxoş-sərxoş məclisdəkilərin üzünə baxa-baxa:

– İçək… içək… Gəlin bunu da içək…

Kamançaçı niyə axı elə bildi ki, o elə məhz bu zaman öz iniltili səsi ilə cavan leytenantın sözlərinə müdaxilə etməlidir?! Kamança dillənən kimi cavan leytenant yenə də harda olduğunu unutdu. İçdiyi içkinin təsiri bir anda uçub getdi və o özünün son dərəcə ayıq halına qayıtdı. Gözlərini kamançanın pərdəsinə dikib ayıq səslə:

– İçək! – deyə təkrar etdi. Bir anlıq ləngidi, sonra əlindəki qədəhi başına çəkdi.

Cavan leytenant sakitcə yerinə oturdu. Cürbəcür içki şüşələrinin arxasında yenə də eynən səngərdə olan kimi başını əlləri arasında gizlətdi.

İndi yalnız kamançanın səsi idi gəlirdi və bu səs kamançanın içindən yanıqlı-yanıqlı çıxaraq yenə də haman səngərdəki səsə qarışırdı:

– Dayan, tələsmə! Hələ tezdi. Çıxarma başını. Qoy əmr olsun, sonra! Tələsməyin. Sakit olun! Əmr! Əmri eşidin! Hazır ol! Əmr gəldi… gəldi. Azərbaycan əsgəri! Əmri dinlə! İrəli! Hücum! Vətən uğrunda, irəli!!!

Cavan leytenant özünü səngərdən bayıra necə atdığını və "İrəli!" bağıra-bağıra, əlindəki avtomatı sinəsinə sıxaraq düşmən səngərinə tərəf necə sürətlə götürüldüyünü hiss eləmədi.

…Məclisdəkilər heyrətlə ona baxırdılar.

Asudə

Üzüyuxarı gedən küçə ilə qalxıb bizim tinə çatanda sağa dönərkən quru yerdəncə altlarına köhnə cır-cındır salıb üstündə oturan üç, ya dörd arvadı həmişə orda görərdim. Biri semiçka satardı, biri alça, o biri ev lavaşı… Onlara başçılığı məhəlləmizdə Nənəxanım adlı balacaboy, yumrusifət bir qadın vardı, o edərdi. Nənəxanımın satdığı tum ətrafdakı bütün tumsatanların tumundan dadlı idi. Onun yanında oturan kök, hətta xeyli kök, hətta gombul üzüyanıq arvadı mən tanımırdım. O birilər isə məhəllə arvadları idi. Səlmə satmağa lavaş çıxarırdı, Nuridə kişmiş, quru meyvə satırdı, Xoşqədəm hərdən nə gəldi, bəzən qatıq, bəzən süd, hərdən də uşaq oyuncağı, karandaş, şarik…

…Mən onların yanından keçərkən tez-tez yox, həftədə bir dəfə, iki dəfə Nənəxanımdan soruşurdum:

– Təzə nə xəbər? – Mən bu sualı hər dəfə gözlərimlə verirdim.

Nənəxanım da mənə eynilə o cür – gözlərilə cavab verirdi:

– Təzə heç nə yoxdur.

Bu səssiz dialoqun deşifrəsi belə idi: "Asudədən xəbər var? – Asudədən xəbər yoxdur".

Asudə bizim məhəllənin, yox, bizim qəsəbənin, yenə də yox, dünyanın ən gözəl qızı idi. Nazim və Asudə dastanı ilk hərfindən sonuncu hərfinə qədər bizim məhəllədə yazılmışdı. Nazim mən idim. Bu uğursuz məhəbbətin həm qurbanı, həm də cəlladı. Amma mən bu qızı sevə-sevə onun uzaq paytaxta getmək həvəsini dəstəklədim və hətta ora getməyinə kömək etdim. Ona tanımadığı şəhərdə ilk vaxtlar qalmağa yer tapdım. "Bilirsən, burda, elə bil, boğuluram. Azad deyiləm burda. Asudə deyiləm. Deyə bilmirəm niyə, amma boğuluram…" Onun bu sözləri deyərkən kövrəlib

hıçqırmağına mən dözə bilmədim. Ürəyimi, elə bil, məngənəyə salıb sıxdılar.

Bir müddət paytaxtda mənim tapdığım o evdə yaşadıqdan sonra Asudə bir parça əppək olub yoxa çıxdı. Elə onun arxasınca məhəllədəki evlərinin qapısına bir qara qıfıl vurub atası da, anası da yox oldular. Heç elə bil, belə bir qız, belə bir ailə bu küçədə əvvəldən yox imişlər. Məktəbdən qayıdar-qayıtmaz Nənəxanımın yanından əl çəkməyən, arvadın dalandakı evindən satmaq üçün təzə qovrulmuş tum daşıyan, kim xahiş eləsə, yardımına gedən, ehtiyacı olanların ev işlərini görən Asudə məktəbin onuncu sinfini də bitirmədi. Hamı oğlanları özünə məftun edib yoxa çıxdı. Amma mən onu bir dəfə də olsun, nə öz sinfimizdə, nə da kənarda heç kimə qısqanmadım. Çünki bizim onunla dastanımız artıq yazılmış, nöqtəsi də qoyulmuşdu. Və mən bilirdim: o məni sevirdi. Başqa heç kimi nə indi, nə də sonra sevə bilməzdi. Məktəbdə, məhlədə hamı belə düşünürdü: Bu qız bu oğlan üçün, bu oğlan da bu qız üçün yaradılıb. Allah onları xoşbəxt eləsin.

– Bəs sən ki onu bu qədər sevirdin, niyə icazə verdin ki, başqa bir yerə – gözündən uzaq başqa bir şəhərə köçüb getsin? – Dostlar arasında hərdənbirdən, özü də içki məclisində belə bir sorğu-sual ortaya düşürdü. Bu sualı mənə tez-tez İlqar verirdi. Elə bil, yaramı qaşımaqdan ləzzət alırdı.

– Nə bilim, niyə. Nə bilim mən ki, bu yox olacaq? Məktəbi qurtarandan sonra mən də onun yanına gedəcəkdim. İnstituta girəcək idim…

– Ay-hay… Bir ilə də adam gözdən qoyarlar?! O boyda şəhərdə elə bir qızı boş buraxarlar heç?! Öz günahındı. Çiy iş tutmusan, incimə.

Mən incimirdim. Özü yıxılan, necə deyərlər, ağlamaz.

İndi isə… bütün bu illər ərzində bir tərəfdən partlaya-partlaya qalmışdım, o biri tərəfdən hələ də gözləyirdim. Nooldu buna? Başına bir işmi gəldi?! Harda axtarım onu?! Uzun müddət nə edəcəyimi bilmirdim.

Bu minvalla il ilə calandı. Bu illər ərzində mən çox zaman özüm-özümə təskinlik verməyə çalışdım: "Bəlkə xoşbəxt olub?! Bəlkə özünün həqiqi ikinci yarısını tapıb?! Bəlkə məni unudub, bəlkə, bəlkə, bəlkə… Bəlkələr çox idi, onları əkmişdilər, amma biri də bitməmişdi".

Düz deyirlər ki, hər şeyin zamana ehtiyacı var. Zaman keçdikcə mənim də yaralarım yavaş-yavaş sağalmağa başladı. "Asudə əgər məni unuda bildisə, mənə nə gəlib?! Mən onu ondan əvvəl unudaram". Özüm-özümü Asudəsiz həyata artıq alışdırmışdım.

…Haman gün Asudənin itməyindən düz on il keçən gün idi. Axşamın elə bir vaxtı idi ki, gün işığı hər yerdən çəkilmişdi, amma qaranlıq hələ düşməmişdi. Ürəklərə qüssə dolan vaxt idi. Üzüyuxarı küçəylə məhləmizə qalxanda mənə elə gəldi ki, bu dəfə o yoxuşu, elə bil, on ilə qalxdım. Tinimizə çatıb əvvəlcə nəfəsimi dərdim. Sağa burulub qoşa tut ağacına tərəf getmək istəyirdim ki, elə bil, kimsə mənə dedi: "küçənizin sən alışdığın düzənində, nəsə dəyişib. Tapa bilərsənmi – nə?" Ora-bura boylandım. Hə, nəhayət, başa düşdüm. Nənəxanım öz həmişəki yerində deyildi. Onun oturduğu yerdə, tinin başında bircə o gombul, üzü yanmış arvaddan başqa heç kim yox idi. Mənim bu kök arvaddan heç xoşum gəlməzdi. Nə vaxt köçmüşdü məhləyə yadımda da deyildi. Elə bil, gözəllər gözəliydi, adamın üzünə baxmaz, öz yanmış üzünü də hamıdan gizlədərdi. Qəribə köklüyü vardı, elə bil, xəstəlik keçirmişdi. Mən onun səsini də eşitməmişdim. İndi də onun yanından həmişəki kimi başımı yerə dikib keçdim və qoşa tut ağacının altındakı evimizə tərəf addımladım. Qəflətən arxamda bomba kimi bir səs partladı:

– Asudə xala, Asudə xala!!!

Nənəxanımın on iki yaşlı nəvəsi Orxanın səsi idi. Var gücü ilə qışqırırdı:

– Asudə xala, nənəm səni ça…! – Orxan nə oldusa xapdan səsini kəsdi.

Mən "Asudə xala" sözlərini eşidən kimi yerimdəcə quruyub qaldım. Geri dönüb baxmağa taqətim yox idi. Dizlərim titrəməyə başladı, ürəyim hövrlə vururdu. Bircə onu hiss etdim ki, arxamda kimsə var, o da donub yerindəcə qalıb. Nəhayət, yavaş-yavaş geri döndüm. Nə gördüm, ilahi?! Mənimlə üzbəüz haman gombul, üzü yanıq arvaddı, dayanıb durub. O da yerindəcə donub qalmışdı.

O zənlə mənə baxırdı. Mən birdən xatırladım ki, bu gombul arvadın gözlərinin içinə axı mən heç vaxt baxmamışam. Baxmaq belə istəməmişəm. Olsa-olsa baxışlarım onun yanmış üzünün dərin qırışlarının içi ilə sürüşüb keçib. Mən bu arvadla bağlı bircə onu bilmişəm ki, əri ilə məhləyə, Asudəgilin həyətinə köçüb orada yaşayırlar. Əri deyirdilər ki, şikəstdi, bir ayağını Ağdam savaşında itirib. Evdən heç hara çıxmır. Bu da ona qulluq edir. Mən bu arvadın gözlərinə ilk dəfə idi ki, baxırdım.

Asudənin gözləri nəmlənmişdi. Özünün hiss etdim ki, danışmağa halı yoxdur. Yorğunluq hər əzasından gümrah-gümrah boylanırdı. Birdən bu şişman arvadın içindən duman kimi sıyrılıb o uzaq illərin Asudəsi çıxdı. Şuxluqla mənə baxdı. Həmişəki kimi gözlərinin dərinliyində sonsuz bir məhəbbət var idi. Amma gözlərindəki nəm də heç hara getməmişdi. Nəmli gözləri ilə gülümsəyib o illərin Asudəsi mənə bunu dedi:

– Bilirəm, indiyənə qədər məndən niyaransan. Məndən niyaran qalma. Biləsən, mən öz seçimimi özüm etdim. Allaha da xoş gedən elə budu. Sən özün isə… məni bağışla…

Birdən bu nəmli gözlərin içinə hardansa gəlib bir ovuc işıq doldu. Asudənin gözləri parıldadı, səsi qətiləşdi:

– Bilirsənmi, mən azadam. Mən azadam və mən xoşbəxtəm. Sən məni anlamalısan… məni bağışla… – Bunları deyib o illərin Asudəsi gedib yenə gombul arvadın içində yox oldu.

Mən onu anladım və mən onu bağışladım. Başımı bir neçə dəfə tərpədib onun dediklərini təsdiqlədim və geri döndüm, dərindən köks ötürüb ürəyimdə mənə tanış olmayan qəribə bir rahatlıq qoşa tut ağacının altındakı evimə, heç kimin məni gözləmədiyi evimə tərəf getdim.

Gülçöhrə xanım və Əsgər ağa

Miladi tarixlə 1919-cu il təzəcə girmişdi. Bakıda havalar bir o qədər də soyumamışdı. Payızın izi-tozu hələ hiss edilirdi. Haman gün sabahdan xeyli keçmişdi. Vəli mərmər pilləkənlərlə mülkün ikinci mərtəbəsinə hövlnak qalxıb Əsgər ağanın kitabxana otağına girdi. Əsgər ağa elə buradaca sübh yeməyini yemiş və indi yazı masasının arxasında oturub fikirli-fikirli pəncərədən küçəyə baxırdı. Fikirləri bir-birini qovurdu, nə barədə düşündüyünü bəlkə heç özü də bilmirdi. Pəncərənin altında balaca uşaqlar bir-birləriylə "dava-dava" oynayırdılar. Qışqırtıları burayacan gəlirdi. Vəli müti bir görünüş alaraq əlini əlinin üstə qoyub mızıldandı:

– Ağa, iranlı Məşədi Cabbar gəlib. Aşağıda qonaq otağında oturub səni gözləyir. Deyir, Əsgər ağa ilə vacib söhbətim var.

Əsgər ağa əvvəl-əvvəl anlamadı ki, Vəlinin dediyi nədir və Vəli ondan nə istəyir.

– Kim gəlib dedin? Aydın danış…

– Ağa, Məşədi Cabbar iranlı gəlib. – Bu dəfə Qulunun səsi ucadan və aydın şəkildə eşidildi.

Əsgər ağa oturduğu masanın arxasından dik durdu, gəlib kitabxana otağından dəhlizə çıxdı. Vəlinin yanından keçəndə boynunun arxasından yüngülcə bir şapalaq vurdu:

– Sən bu uşaqları pəncərənin altından nə zaman qovacaqsan, Vəli ağa?! Dava-dava oynamağın vaxtıdı?! Davası bitdi, bunlarınkı bitmədi?

Məşədi Cabbar mülkün birinci mərtəbəsindəki qonaq otağında xalça üzərində yerdəncə bardaş qurub əyləşmişdi. Gözlərini zilləmişdi Əsgər ağanın atası rəhmətlik Kəblə Səcdəlinin rəssam tərəfindən son dərəcə dəqiq bir tərzdə çəkilmiş və qonaq otağının divarında yuxarıdan asılmış cavanlıq

rəsminə. Bu rəsmdə Kəblə Səcdəli sanki köhnə dostuna üzügülər bir halda yalnız ikisinə aid köhnə əhvalatları xatırladaraq "yadındamı?.." deyirdi. Məşədi Cabbar hər dəfə cavanlıq dostu Kəblə Səcdəlinin bu rəsminə baxdığında ürəyində "yadımdadı, dadaş, yadımdadı" cavabını verib köhnə unudulmaz günləri yada salaraq həm gülümsəyir, həm də başını tərpədə-tərpədə kövrəlirdi. Bu cürənə iki əziz dost bir-biri ilə bu otaqda görüş-dükləri zaman beləcə "söhbət" edərdilər.

Əsgər ağa qonaq otağına daxil oldu. Atasının əziz dostunun ayağa qalxmağına imkan vermədi, iti addımlarla ona yaxınlaşıb çiyinlərindən qucaqladı və Məşədi ilə xeyli mehriban görüşdükdən sonra o da Məşədiyə hörmət əlaməti onunla üzbəüz yerdən əyləşdi.

– Sən rahatını pozma, Ağa Əsgər. Keç sandalyada əyləş. Sən ona alış-mısan. – Məşədi Cabbar Əsgər ağaya mehriban bir nəzərlə baxaraq həlim səslə dilləndi.

Əsgər ağa halını dəyişmədi və necə ki, yerdən Məşədinin qarşısında əyləşmişdi, eləcə də əyləşməyinə davam etdi.

– Elə şey olarmı, Məşədi?! Olmaz! Sən heç rahatsız olma. Hələ bir söylə görüm, necəsən, nə təhərsən? Nə zaman Rusiyadan qayıtdın?

Məşədi Cabbar təzəlikcə Rusetdən qayıtmışdı. Əsgər ağa bu xəbəri elə dünən dostu Süleymandan almışdı. İkisi də bu Məşədinin gəlişini səbrsizliklə gözləyirdi. Süleymanla söz bir edib onun görüşünə getmək və Rusetdə son zamanlar baş verən qaranlıq və qarışıq vaqeələrdən, olanlard-an – olmayanlardan xəbərdar olmaq istəyi onları rahat buraxmırdı. Budur, Məşədi özü onları qabaqlamışdı.

– Ağa Əsgər. İki gün olar ki, qatardan düşmüşəm. Elə o iki gündür evdə yerimdən qalxıb çölə çıxa bilməmişəm. Canımdakı yorğunluq hələ də məni tərk etməyibdir. Bir zülm çəkdim bura yetişənəcən, bir zülm çək-dim… Allah-təala o zülmü inşallah heç bir bəndəsinə bir daha göstərməz.

Əsgər ağa bilirdi ki, Vəli qapının ağzındadı və qulağını dayayıb qapıya onun əmrini gözləyir, başını döndərmədən:

– Vəli!.. – deyə ucadan səsləndi. – Çay gətirin və yemək tədarükünü görün.

– Yox, yox, nuri-didəm. Çay içərəm, amma yeməyə qala bilməyəcəm. Hacı Nurinin dükanına getməliyəm. Ona Peterburqdan xeyli vacib xəbər gətirmişəm. Gecikdirə bilmənəm. Bəlkə də artıq gecikdirmişəm. Bilmənəm ki… Məni məzur tut.

– Nə təhər istərsən, Məşədi… Öz evindi, istərsən qalarsan, istərsən gedərsən. Niyə bəs sənin gəlişin bu qədərinə uzandı?

Vəli ləngimədi. Bilirdi ki, ağası çay istəyəcək, arvadı qulluqçu Tellini qapının ağzında hazır saxlamışdı. Məcməyini Tellinin əlindən aldı və Əsgər ağanın Məşədi Cabbara son sualı ilə Vəlinin əllərində meyvə məcməyisi, üstündə çay dəsgahı içəri girməyi bir oldu. O, gətirdiklərini yerbəyer edib unudulmaz ağası rəhmətlik Kəblə Səcdəlinin sevimli dostu Məşədi Cabbara məhəbbət dolu bir nəzər saldı, elə bil, soruşdu, məni unutmamısan ki, Məşədi ağa, sonra dal-dalı gedib qapıdan çıxdı. Məşədi Cabbar ki, Vəlinin hərəkətlərinə diqqət edirdi, o otağı tərk edən kimi nədənsə dərindən bir "ah" çəkərək Əsgər ağanın sualına bu zaman cavab verdi:

– Ağa Əsgər, onu heç sorma. Mən hələ bir ay bundan öncə gəlib bura yetişəsi idim. Mən çoooxdan məmləkətdə olmalıydım. İndi orda da bütün işlərim tökülüb qalıbdır yəqin. Allaha həmd olsun. Üç-dörd günə Arazı keçərəm, inşəallah.

– İnşəallah. Yəni Rusetdə vəziyyət belə qəliz bir hala düşübdür, Məşədi?!

– Çox qəliz bir hala düşübdür, çox qəliz bir hala düşübdür… – Məşədi Cabbarın bir anlıq gözünün qabağından gördüyü dəhşətli vaqeələr ildırım sürətilə keçmədimi, keçdi. Məşədi çay stəkanını əlinə alıb çaydan dərin bir qurtum aldı. Əsgər ağa diqqətlə ona baxdı.

Əsgər ağanın Rusetdə baş verənlər barədə ümumi bir təsəvvürü yox deyildi, var idi. Amma bu qəzetlərdə, xüsusən, "Azərbaycan" qəzetində yazılanlardan və bazarda gəzən söz-söhbətdən başqa bir şey deyildi. İndi isə Məşədi Cabbar öz ayağı ilə gəlib vəziyyəti danışırdı və Rusetlə alış-veriş işini bundan sonra necə qurmaq lazım gəldiyini Əsgər ağa daha etibarlı və güvənli şəkildə düşünməli idi.

– Mən bu qədərinə pis bilmirdim… – Əsgər ağa kiçik şüşə nəlbəkiyə Məşədi üçün mürəbbə qoya-qoya dedi.

– Əsgər ağa, vəziyyət çox pisdi. Hökumət – yox, tamamən hərc-mərclik… Adamlar bir-birinə qarşı düşmən kimi durublar. Hər birində silah… Qardaş qardaşını öldürməyə gedir. Bölünüblər qırmızılara, bir də ağlara. Hər yerdə də bolşeviklərdi… Kim kimi vurdu, kim kimi kəsdi, bir kəsi rahatsız etmir. Fəhlə işləmir, bazar çalışmır, dükanlar qapalı… Ölkə dağılıb durub. Bu yandan da qış, şaxta… Bir ara hamı ancaq səhər-axşam dəstə-dəstə toplaşıb ağızlarından bolluca buğ çıxa-çıxa nitq deyir, nitq eşidirdi. Şaxtanın deyəsən, bunlara bir karı, əsəri yoxdur. Yollarda talan, qarışıqlıq… Qərəz, eşitdiklərimdən yadımda qalan bu oldu ki, oteldəkilər danışırdılar, rusların başbilənləri deyirlər ki, almanlar bizi aldadıblar, biz öz torpaqlarımızı qaytarmalıyıq. Şah zamanındakı torpaqları. Qafqazları yəni… Buraları.

– Eləmi?! Bəs bizimkilər buna nə deyir?! Bu barədə bir məsələ, zənnimcə, hələ qalxmayıb hökumətdə. Parlaman da təzədi, hələ ki, susur…

– Biləsən, Əsgər ağa. Bunu sənə mən deyirəm. Bolşeviklər əvvəl-axır buraları geri alacaqlar. Rusetdə hamı bunu danışır. Əvvəlcə, deyirlər, içimizdəki satqınları qovaq, ağları məhv edək, sonra padşahın torpaqlarını geri alaq. Gələcəklər buralara qədər. Hələ, Allah eləməsin, İrana da keçməsinlər, inşəallah. Amma nə bilmək olar?! Bir də gördün ora da keçdilər… Ah, oh…

– Keçməzlər. İran nə zamandan onlarınkı oldu?! Buralara da… nə deyim vallah, yəni, bunlar buraları təzədən gəlib tutmaq istərlər?! Bizim hökumət gün-gündən güclənir. Süleyman deyir ki, Avropa ilə yeni-yeni müqavilələr hazırlayırlar.

– Nə deyim?! Mən eşitdiyimi deyirəm. Odu, ağların qoşunu gəlib Qafqazın göbəyinə çıxıb. Təhdid edirlər buraları. Sən hər halda işini ağıllı tut. Ağa Əsgər, sənə bir tövsiyəm var.

Əsgər ağa gülümsündü, onun ürəyinə damdı ki, Məşədi nə deyəcək. Hər onunla görüşəndə bu tövsiyəni Məşədidən eşidirdi. Məşədi onu İrana

çağırırdı. Həmişəlik gəlməyini tövsiyə edirdi. Ticarətini onun ticarətinə qatmağı təklif edirdi.

– Ağa Əsgər, sən mənim əziz dostumun, canbir qardaşımın yadigarısan. Onun ruhuna and olsun ki, mən bu işlərin burada bir sonunu görmürəm. Geci, tezi var. Gələcəklər bunlar, oğul. Gəlməyə bilməzlər. Yaddaşlarında bu torpaqlar qalıbdır. Nöyütün iyinə gələcəklər. İranda isə əmin-amanlıq hökm sürür. Hökumət var, şah var. Malın, mülkün – toxunulmaz. Düzdü, sizinkilər biz iranlı tacirlərə əngəl törədirlər, burdan Rusetə yol keçən alverimizə yeni-yeni töycülər qoyurlar. Amma bu da keçər. Nə vaxtdı sənə deyirəm. Daşı tök ətəyindən. Gəl köç elə gedək İsfəhana. Mülklərimin birində ürəyin istəyən qədər yaşa. Hansını bəyəndin sənə peşkəşdi. Ticarətini qur. İstərsən mənimlə qur, istərsən özün tək qur. Xaricilərlə əlaqəni yenidən başla. Fransa ilə bütün əlaqələrin mənim boynuma. Amerikaya qədər sözüm yetişir. Bilirsən ki, mənim bir övladım yoxdur. Sən mənim övladım ol, oğul. Mən ölüb getdikdən sonra malım da, mülküm də sənin olsun. Bax, rəhmətlik Səcdəlinin özü burda deyil, ruhu ki, burdadı. And olsun bizi yaradan Allaha…

– Məşədi, Məşədi… Bilirəm, bilirəm ki, bütün bunları dəfələrlə demisən, özü də sidq-ürəklə deyirsən, bilirəm. Sən mənə rəhmətlik atamın əmanətisən. Əmisən mənə. Amma düşünməm lazım. Həm də ki, bu qərarı mən təkbaşına verə bilmənəm. Evdəkilərlə də məsləhət etməyimə ehtiyac var.

– Olsun. Et məsləhətini. Mən hələ 4-5 gün burdayam. Mənə qərarını söylə ki, mən də gedim oralarda sənin gəlişinə özüm əvvəlcədən tədarükümü görüm. Vallah gəl, billah gəl. Buraların axırı yoxdur. Hər nəyin var, alarlar əlindən, bunların Allahı yox, imanı yox. Adamın, xudanəkərdə, canını da heç nədən alarlar, heç nədən. Mən, vallah, gördüyümü gördüm…

Əsgər ağa fikrə getdi. Bu dəfə Məşədinin sözlərini ciddi qəbul etməyə bilməzdi. Son zamanlar hadisələr heç də ürəkaçan istiqamətdə cərəyan etmirdi. Rusetdən gələn xəbərlər günü-gündən ağırlaşırdı. Hər bir ağıllı adama bəlli idi ki, orada baş verən hadisələr öz xoşuna bitən deyil. Bunu qəzetlər də yazırdı, bunu gedib qayıdanlar da deyirdi. Əsgər ağa hər şeydən əvvəl zövcəsi Gülçöhrə xanımla danışmalı, sonra vəkil dostu Süley-

mandan məsləhət almalı, daha sonra ciddi bir qərara gəlməli idi. Əsgər ağa üzünü Məşədi Cabbara tutdu:

– Məşədi, səndən təvəqqem budur. Mənə üç gün möhlət ver. Ən geci üç gündən sonra sənin yanına gəlib fikrimi söylərəm. Elə bilirəm, gec olmaz. Nə deyirsən?

– Gec olmaz, nuri-didəm, gec olmaz. Gözləyəcəyəm. Di, mənə icazə. Mən daha müraxxəs olum. Salamat qal, Ağa Əsgər, Allaha əmanət ol…

Məşədi Cabbar çayını içib qurtardı, stəkanı ədəblə süfrəyə qaytarıb qoydu və əllərini yerə dayaq edib quş kimi ayağa qalxdı. Əsgər ağa da oturduğu yerdən dik durdu. Məşədi qapıya yönəlməzdən əvvəl dostu Səcdəlinin şəklinə tərəf baş əydi. Məşhədi və ağa Əsgər bir-birini qucaqlayıb qonaq otağından çıxdılar. Vəli içəri girib qab-qacağı yığışdırmağa başladı.

Gülçöhrə xanım günorta yeməyi zamanı Əsgər ağanı evdə görüb təəccüblənsə də, bunu büruzə vermədi. Adətən günorta yeməyini Əsgər ağa bazardakı dükanında edərdi. Bu gün belə olmayacağını isə o, heç Gülçöhrə xanıma da xəbər verməmişdi. Gülçöhrə xanım hələ onu bilmirdi ki, Əsgər ağa bu gün səhərdən bəri evdən çıxmayıbdır. Onu da yemək bitincə Tellidən öyrəndi. Nigaran qaldı.

Gülçöhrə xanım günorta yeməyindən sonra ərinin xahişi ilə kitabxana otağına gəldi. Ərini fikirli gördü:

– Əsgər ağa, indicə eşitdim ki, bu gün evdən çölə çıxmamısan. Gözümün işığı, xeyirdimi? Özünü necə hiss edirsən? – Gülçöhrə xanım narahat halda soruşdu.

– Bir şeyim yoxdu. Narahat olma. Məşədi Cabbar gəlmişdi. Onunla söhbət etdim. – Əsgər ağa çalışdı ki, səsinə gümrah bir ifadə versin. Amma Gülçöhrə xanım buna aldanmadı.

– Yox, yox, məni aldatmağa çalışma. Əgər bir şeyin yoxdursa, o zaman halın niyə pəjmürdədi? – Gülçöhrə xanımın səsindəki rahatsızlıq bir az da artdı. O, ərinin dediyinə inanmadı.

Əsgər ağa arvadını yaxşı tanıyırdı. Bilirdi ki, onun içduyumunu aldada bilməyəcək. Ona ancaq həqiqəti söyləsə, doğru olacaq. Gülçöhrə

xanım məsələnin kökünü öyrənmədən əl çəkən deyil. Ona görə də söhbətə birbaşa keçməsi məsləhətdir. Əsgər ağa dedi:

– Yaxşı, yaxşı, anlaşıldı, sənin də gözündən bir şey qaçmır. O zaman mənə diqqətlə qulaq as, canım-gözüm, sənlə ciddi söhbətim var.

– Qulağım səndədi, buyur.

Əsgər ağa həmişə hər hansı mürəkkəbliyə düşərsə, doğru yola çıxmaq üçün cani-dildən sevdiyi zövcəsinə üz tutar, onun dediyinə əməl edər, nəticənin uyğun olacağına əvvəlcədən əmin olardı. İndi də bilirdi ki, Gülçöhrə xanım öz fitri qabiliyyəti ilə, bütün ruhu ilə doğruluq, təmizlik istiqamətinə yönələcək və ona yenə də yeganə həqiqi yolu tapmaqda kömək edəcəkdir. Onlar ikisi bir yerdə bu çətinliyin də öhdəsindən gələcəkdilər.

– Gülçöhrə, canım-gözüm, həyatım, ölkədəki vəziyyət get-gedə pisləşməkdədir. Yox, yox, narahat olma. Elə bir şey yoxdu. Lap doğrusu budur ki, Məşədi Cabbarın söylədiyi kimi, Rusetdə vəziyyət qarışıbdır. Adamlar bir-birini yeyirlər. O, özü Rusetdən iki gündür ki, qayıdıb gəlib. Onun dediyinə görə, ruslar buranı yenə işğal edəcəklər. Bizim buralarda qalmamız, gələcək həyatımız sual altındadır. Bir sözlə, Məşədi bizi İrana çağırır…

– Həmişəki kimi… – Gülçöhrə xanımın dodaqları qaçdı.

– Bəli, həmişəki kimi. Amma bu dəfə, məncə, onun sözlərinə ciddi qulaq vermək gərəkir. Elə bil, daxilimdə bir səs mənə deyir ki, Məşədiyə qulaq ver.

– Mən sənə bir söz deyimmi?

– De, canım-gözüm.

– Gözümün işığı, mənim də daxilimdə bir səs mənə deyir ki, heç yerə tərpənməyək. Elə evimizdə, yurdumuzda qalaq. Gediriksə də, birbaşa Fransaya gedək. Oralar indi sakitlikdi. Müharibə də qurtarıb gedib.

– Fransa sənin üçün ikinci vətən kimidir.

– Bəli, dillərini bilirəm, səni də öyrədərəm. Fransa gözəldi… Fransızlar dünyanın ən mədəni xalqıdır. Amma gözümün nuru, əvvəlcə dərindən bir düşünək. O qədər eşitdik ki, bu cür qorxulu söhbətləri. Gəl heç hara getməyək. Bu cür rahatlığımızı niyə verək yellərə?! Hər şeyimiz var, evimiz, eşiyimiz…

– Amma şər deməsən, xeyir gəlməz, deyərlər… – Əsgər ağa son dirənişini etdi.

– Deyərlər, düzdü. Nə şər deyək, nə xeyir. Allah nə deyir, onu deyək.

– Bəs o zaman de görüm, Allah nə deyir?!

– Bilmirəm. Bəlkə Süleymanla bir məsləhət edəsən?! O, xariciyyə məsələlərini yaxşı bilir.

– Edəcəyəm. Səndən sonra onunla da görüşüb danışacam. Bir bilsən Rusetdə nələr baş verir?! O zaman belə rahat olmazdın.

– Təsəvvür edirəm, gözümün işığı. Bəlkə sən belə edəsən?! Ürəyin rahat olsun deyi, Məşədinin ardınca İrana gedəsən, ehtiyac olarsa, gedəcəyimiz yeri-yurdu əvvəlcədən görüb danışasan?! Lap elə bir mülk alasan…

Əsgər ağa dirçəldi. Elə bil, axtardığını tapıb ona vermişdilər.

– Bax, ağıllı məsləhət dediyin elə budur. – Əsgər ağaya sanki ruh gəldi. – Düz deyirsən, canım-gözüm. Mən Məşədi ilə bahəm olmasa da, sonradan onun arxasınca gedim ki, qəfildən yolumuz o tərəfə düşərsə, gedib rahat şəkildə bəlli bir yerdə yerləşək. Çox doğru deyirsən.

Əsgər ağa dərindən və rahat bir nəfəs aldı. İndiki qeyri-müəyyən vəziyyətdə bundan daha ağıllı addım atmaq mümkün deyildi. O, Məşədinin ardınca İrana gedər, xudmani bir mülk gözaltı edər, bəlkə də pulunu verib alar, şəraitlə tanış olar, öz ticarət şirkətini orada qurmağa cəhd göstərər, işin bəri başdan yarısını görmüş olar. Əgər Məşədinin Rusetlə bağlı dedikləri düz çıxmazsa və onların buralardan köç etməsinə ehtiyac qalmazsa, İranda onun ticarət şirkətinin bir şöbəsinin dəxi açılmasının heç kimə zərəri olmaz. Günü sabah Süleymanla görüşüb bu barədə danışmaq lazımdır.

– Canım-ciyərim, sənə burdan oralara getmək, yeni bir yerdə qərar tutmaq çətin olmayacaq ki?!

– Olmayacaq, gözümün işığı. Sən harda isən, mən orda sənin ayaqlarının altında ölmək istərəm. Sənin hara kölgən düşsə, o yer mənim üçün cənnət olar.

Əsgər ağa hiss elədi ki, gözləri nəmlənir. Söhbəti dəyişdi:

– Heç bilirsən, o gün Qulu mənə nə deyir?!

– Nə deyir, gözümün işığı?!

Əsgər ağa dedi, Gülçöhrə xanım güldü. Gülçöhrə xanım dedi, Əsgər ağa güldü. Vaxt beləcənə keçib getdi.

Ertəsi gün axşama yaxın yağış çisəməyə başladı. Əsgər ağa Qubernat bağının içindən keçib Cümhuriyyət caddəsinə çıxdı. Bir qədər irəliləyib sola döndü. Sağdan gələn faytonu buraxdı və üzü yuxarı küçə ilə addımladı. Nəhayət, bir binanın qabağında dayandı. Bura dostu Süleymanın advokat kantoru idi. Əlini uzadıb qapının zəngini basdı. Qapını əziz dostu Süleyman özü açdı. Gözləri sevincdən parıldayırdı:

– Sən yolmu azdın, bəradər?! Keç, keç içəri. Xoş gəlmisən, səfalar… amma deyəsən, heç nə gətirməmisən… Sən Allah, əliboş gəlmisən? – Süleymanın şux səsi və qəhqəhəsi ətrafı bürüdü.

İkinci mərtəbəyə, Süleymanın iş otağına qalxdılar.

– Səni işindən-gücündən elədim. Türk qardaşlarımız demiş, qüsura baxma… – Əsgər ağa söhbətə belə başladı.

– Qətiyyən. Dedim, evə gələrsən, dedin – yox. Asya səndən incidi, biləsən. Gülçöhrəni də götürüb bizə gələrdiniz, nolardı… Çoxdandı qızlar da bir-birini görmürlər.

– Onu da edərik. Ay – çox, il – çox… Həftə – çox.

Süleyman dostunu yaxşı tanıyırdı. Bilirdi ki, əgər Əsgər ağa evə yox, kantora, özü də tək gəlməyi tərcih edibsə, deməli, onu rahatsız edən bir şey var. Ona görə də Əsgərin kantorda görüşmə təklifini gətirən Vəliyə əlavə bir söz demədi, sadəcə, Əsgər ağanın söylədiyi vaxtı təsdiqlədi.

Əsgər ağa onu narahat edən məsələyə birbaşa keçdi:

– Süleyman, sən bilirsən ki, mən sənin lə olan dostluğumuzu necə qiymətləndirirəm. Amma mənə elə gəlir ki, bizim bir-birimizdən ayrılma saatı yaxınlaşır.

– Heç bir şey anlamıram. Niyə, bəradər?

– Bizdən asılı olmayan səbəbə görə…

– Nooldu, sən Allahın, uzatma görüm. Dur, dur, dayan, mən tapdım nə olubdur. İstərsən sənə deyim nə olub. Məşədi Cabbar sənin yanına gəlib, eləmi?!

Əsgər ağanın təəccübdən gözləri bərəldi. Süleyman onun bu halını görüb yenə də gülüşünü cilovlaya bilmədi, yenə onun şaqraq səsi bütün kantoru bürüdü. Süleyman Əsgər ağanı təəccübləndirməyi çox sevərdi. Elə bil, balaca bir uşağa fokus göstərib aldatmaq kimi idi. Bu onu xüsusi əyləndirirdi.

– Dayan, dayan. – Süleyman bəy gülüşünü güclə saxladı. – Bunu da deyəcəyəm. Yenə bu adam səni İrana çağırır?

– Bu, daha lap ağ oldu. – Əsgər ağa başını buladı.

– Hə… Dur bir görüm, nə deyib sənə?

– Süleyman, əzizi-mən, sən bütün bunları hardan bilirsən? Məşədini görmüsən? – Əsgər ağa sidq-ürəklə təəccüblənməyini heç cürə gizlədə bilmirdi.

– Canım üçün, canın üçün görməmişəm.

Əsgər ağa hardan biləydi ki, dünən Vəlini Süleymanın yanına göndərəndə Süleyman da Vəlidən evə kimin gedib-gəldiyindən xəbərlər alıb. Hətta öz-özünə belə bir nəticəyə də gəlib çıxıbdır ki, Məşədi Cabbar Əsgər ağaya Rusetdəki son hadisələr barədə qara-qura məlumatları veribdir. Sonunda da necə ki, həmişə bunu edir, Əsgər ağanı İrana, öz yanına aparmaq təklifini edib. Bu edər iki üstəgəl iki. Süleyman bəyi bu cürə xoşbəxt edən o idi ki, Əsgər ağa bu adi, sadə şeyləri diqqətindən qaçırır, onlara əhəmiyyət vermir, nəticədə, Süleymanı xeyli ağıllı, müdrik, hətta bir az da sehrbaz və ən azından kələkbaz kimi tanıyır.

– Bəradər, sən lap sadədilmişsən ki… Bax, de görüm, Vəlini dünən bizə göndərmisən?

– Göndərmişəm. Noolsun ki…

– O olsun ki, o mənə Məşədinin sizə gəldiyini bir saniyənin içində xəbər verdi. Məşədi də ki, səni həmişə İrana dəvət etmirmi? Edir.

– Ay səni, Süleyman. Sən necə bir kələkbaz imişsən…

Əsgər ağa belə sadə məsələni nə üçün bəri başdan anlamadığını, nəhayət, dərk edib dilxor oldu. Süleyman onun bu halını görüb daha dərinə getmədi və söhbəti dəyişdi:

– Sənə çay deyim, ya qəhvə içəcəksən?

– Çay içərəm.

– Asya, – Süleyman bəy səsini qapıdan o tərəfə ucaltdı. – Eşidirsən bizi? Əsgər qardaşın çay içir.

O biri otaqdan Asyanın səsi gəldi:

– Eşidirəm, eşidirəm. Bu saat. Gəldiiim.

Asya Süleyman bəyin zövcəsi idi. Bu gün onun da şirkətdə olmağının səbəbi Əsgər ağanın bəlkə Gülçöhrəni də özü ilə gətirməsi ehtimalı idi. Asya ilə Gülçöhrə xanım əmiqızı idilər. Toyları da bir gündə olmuşdu. Bu toy əhvalatının öz maraqlı tarixçəsi var idi. Bakıda hər kəs bunu bir-birinə danışıb ürəkdən gülərdi. Süleyman Əsgər ağanın evlənməsini təşkil etməmişdimi, etmişdi. Əsgərin əlinə arşın verib Bakı həyətlərinə salmamışdımı, salmışdı. O da qızı əvvəlcədən görüb bəyənmiş, sonra da evlənmişdi.

Asya əlində stəkan-nəlbəki, arxasınca qulluqçu Nisə, o da əlində balaca samovar otağa daxil oldular.

– Xoş gəlmisən, yeznə, səfa gətirmisən. Bəs bacımı niyə gətirmədin? – Asya həmişəki kimi Əsgər ağanı gülərüzlə dindirdi.

– Xoş günün olsun, Asya. Vallah tələsik oldu. Dükandan birbaşa gəldim. Mən sənə borclu. Gələn səfər – hökmən! – Əsgər ağa söz verdi.

– Evdə, Allaha şükür, sağ-salamatlıqdı? – Asya stəkan-nəlbəkini masanın üstünə düzərək çayları süzdü və sualına cavab gözləmədən:

– Bax, yeznə, gözləyəcəyəm. Sən mənə borclu qaldın, biləsən, – deyib otaqdan çıxdı, Nisə də onun arxasınca.

Çaylar isti idi. İkisi də çayları stəkandan nəlbəkiyə süzdülər, bir-birinə altdan-altdan baxa-baxa hortultuyla içməyə başladılar.

Söhbətləri uzun çəkmədi. Süleyman məsələnin ciddiliyini anındaca başa düşüb zarafatı qoydu bir kənara və Əsgər ağaya belə dedi:

– Bəradər, məsələ, həqiqətən, Məşədi deyən kimidi. Rusiyada inqilab bu gün də davam edir. Bolşeviklər hər şeyi alıblar əllərinə. Orda bolşeviklər var, qırmızılar, ağlar var – onların öz aralarındakı hakimiyyət davasıdı, baş alıb gedir. Xaricilər də istirlər ki, Rusiya parçalansın. İnqilab yavaş-yavaş artıq vətəndaş davasına keçdi. Bunlar bir-birini qırdıqca qıracaqlar. Ağların generalı Denikin gəlib Vladiqafqazı tutub, oradan bizi təhdid edir.

Bolşeviklərin naziri Çiçerin də bu biri tərəfdən deyir, qoşulun bizə, Denikinə qarşı çıxın. Bunların ki, başı qırğına qarışdı, qıra-qıra gedəcəklər, bunlar üçün fərq etməz ki, qırdığı kimdir – özününküdür, ya bir başqasıdır. Onların başbilənləri bu qırğını biz tərəfə yönəldə bilərlər. Burada Məşədi doğru deyir. Düşünmək lazımdır. Fikrin nədir?

– Vallah, qəti bir fikrim yoxdu hələ ki. Gülçöhrənin də ağzını aradım, dedi, sənlə məsləhət edim. Deyirəm, Süleyman, bəlkə gedim Məşədinin yanına, İrana, bir növ kəşfiyyata… Baxım görüm oralarda nə var, nə yox, mən orada öz işimi qura billəm, yainki…

– Bax, bu, doğru qərardır. – Süleyman əlüstü bu fikri dəstəklədi. – Get bir gör, bax, dəyərləndir. Köçmək həmişə var. Yerini-yurdunu düz-qoş… Hələ bolşeviklər bura nə zaman gələr, onu Allah bilir.

– Bəs siz Parlaman olaraq nə edəcəksiniz ruslar gələndə? Qabaqlarına çıxa bilməyəcəksiniz?

– Bəradər, coşqun və dəli bir dağ selinin qarşısında balaca bir quzu neyləyə bilər?! Biz də onu edəcəyik.

– Deyirsən, heç ümid yoxdu?

– Bunu sənə deyirəm. Başqa heç kimə bunu demənəm. – Süleyman ciddi bir tövr aldı. – Bəradər, ağlarla qırmızıların arasında qalmışıq. Gəlsələr, heç ümid yoxdu…

…Əsgər ağa getmək üçün ayağa qalxanda küçədə yağış artıq yağıb kəsmişdi. Əsgər ağa Süleymanla vidalaşıb evdən çıxdı. Fayton saxlamayıb piyada getməyə qərar verdi. Ürəyə kədər gətirən bir axşam idi. Dənizdən əsən xəzrinin təmiz nəfəsini ciyərlərinə çəkə-çəkə Əsgər ağa yolboyu fikirləşdi ki, İrana nə zaman getsin – Məşədi Cabbara qoşulub onunlamı yola düşsün, yoxsa ondan bir-iki gün sonra səfərə çıxsın. Amma getməyə artıq tam qərarlı idi. Evə çatanda Süleymanla aralarındakı söhbəti olduğu kimi Gülçöhrə xanıma danışdı. Gülçöhrə xanım ona dedi:

– Bir-iki gün gözlə, sonra get. Onunla getsən, Məşədi yolboyu sənin beynini elə doldurar ki, İrana çatanda sən artıq başlarsan onun kimi fikirləşib düşünməyə. Orda isə sənin hər bir məsələyə dair öz baxışın olmalıdı. Bunu unutma!

…Aradan bir il və bir neçə ay keçdi. Onlar İrana köç etdilər. Amma bu iki sevgili üçün İran da vətən olmadı. Sadəcə, qürbət oldu. Günlərin bir günü Əsgər ağa Gülçöhrəni İrandan Fransaya yola saldı. Vəli ilə Tellini də ona qoşdu. Gülçöhrə xanım nə qədər ağladı-sısqadısa da, olmadı. Əsgər ağa özü onunla getmədi. Vətənə dönüb olan-qalan malını-mülkünü satmaq üçün Bakıya qayıtdı. Bunları edəndən sonra niyyəti bu idi ki, keçsin Türkiyəyə və artıq Türkiyədə məskunlaşmış dostu Süleymanın köməyilə İstanbuldan Marselə paraxodla yola düşsün. Amma alınmadı. Rus qoşunları Bakını işğal etdilər. Bu işğaldan cəmi iki gün öncə gizli şəkildə Bakıya gələn Əsgər ağa daha şəhərdən çıxa bilmədi. Bir gecə rus əsgərləri Əsgər ağanın mülkünə doluşdular. O, evdə tək idi. Əsgərlər onu tutub Bayıldakı həbsxanaya apardılar. Evinə "arest" qoydular. Sonra məhkəmə oldu. Onu fəhlə və kəndlilərin qanını içən bir müftəxor kimi Sibirə sürgün etdilər. Daha sonra Əsgər ağa qocalmağa başladı. Saçları ağardı, dişləri töküldü. Artıq keçmiş günləri güclə yada salırdı. Fransanın Marsel şəhərində hələ də həsrətlə onun yolunu gözləyən Gülçöhrəni Əsgər ağa xatırlamağa belə qorxurdu. Qorxurdu ki, bir dəfə də olsa, o xatirələr cığırına düşərsə, bir daha oradan çıxa bilməyəcək. Xatırlasa, məhv olacaq. O isə məhv olmaq istəmirdi. Heç istəmirdi. Ona yaşamaq, yaşamaq lazım idi. Bu nə üçün ona lazım idi – özü də bilmirdi.

Günlərin bir günü həbsxana zonasına dustaqlar üçün yeni bir film gətirdilər. Soyuq bir payız gecəsi idi. Nəzarətçilər dustaqları filmə baxmağa yığırdılar.

Gombul kapitan filmin nümayişi üçün tövləyəbənzər bir yerə doldurulan dustaq cərgələrinin arası ilə gəzə-gəzə soruşdu:

– Aranızda azərbaycanlı varmı? Bu film Azərbaycan filmidir. Azərbaycanlı varsa, keçsin qabaq sıraya…

Heç kimdən səs çıxmadı. Hırtıldaşaraq adamlar bir-birinin üzünə maddım-maddım baxıb hərə öz yerində qaldı. İşıqlar söndü və filmin nümayişi başladı.

Tövləyəbənzər bu yer buz kimi soyuq idi. Filmə baxa-baxa yerindəcə büzüşüb yumağa dönmüş Əsgər ağanın özündən bixəbər gözündən iki damla yaş süzülüb yanağına yapışmışdı. Sanki burada təsvir olunan hadi-

sələri o nə zamansa özü yaşamışdı. Burdakı adamların hamısı ona tanış gəlirdi. Bax bu, Süleymandı, bu, Vəlidi, bu, onun mehriban xalasıdı… Bu isə odur! Onun əzizi, onun yeganəsi, gözünün işığı… Görəsən, o, indi hardadır?! Özünə vətən tapa bildimi?! Xoşbəxt oldumu?! Hökmən, hökmən xoşbəxt olmalıdı. Bəs bu, bu mahnını mahnı dalıyca oxuyan, gözəl səsli bu cavan, amma artıq tosun kişi kimdir? Adı da onun adıdır – Əsgər ağa. Əhvalat da onun başına gələn əhvalatdır. Arşın mal satan kimi həyət-həyət gəzib qız görmək və seçmək fikri isə Süleymandan gəlmişdi. Eyni gündə onların və Süleymangilin toyları oldu – bu da filmdə göstərildi. Qızı qaçırmaq – bu da olmuşdu. Gülçöhrə və Əsgər əhvalatı o zaman bütün Bakıda dildən-dilə gəzirdi. Deyirdilər ki, hətta Üzeyir bəy özü bu əhvalatı yazmaq istəyir. O xatırlayırdı. Bu nə səs-küydü? Küçədə dava-dava oynayan uşaqların çığırtısını ancaq Vəli kəsə bilər. Hardadı bu Vəli?! Hərdən bu adam bir parça əppək olub çəkilir göyə, yox olur… Ah… Aman Allah, yəni bu qədər asan imiş bu…

Film bitdi. Hamı doyunca gülüşdü və dustaqlar bir-bir, iki-iki dağılışmağa başladılar. Hardansa süzülən zəif işıq parçası son dəfə sönməmiş gombul kapitan dustaqların oturduğu sıralara baxıb əmin olmaq istədi ki, tövləyəbənzər bu yerdə daha adam qalmayıb, amma gördü ki, bir nəfər hələ də arxa sırada öz yerində hərəkətsiz, tək və tənha oturub tərpəşmir.

SON

Bir yas mərasiminin 7-ci günü

Mərhumun 7-si idi. Yas yerinə az adam yığışmamışdı. Çadırdakı söhbət ümumi deyildi. Adamlar dörd-dörd, beş-beş oturmuşdular və çaydan içib halvadan yeyə-yeyə, aralarındakı mövzunu didişdirə-didişdirə uzun bir söhbətin səyahətinə çıxırdılar. Bu səyahət onları okean dalğalarının ağuşundaymış kimi yavaş-yavaş dərin suların ortasına aparırdı. Ayrı-ayrı stollardakı söhbətin elə bir məqamı idi ki, hər bir şəxs lütüryan olub mərhum barədə qəlbinin dərinliklərindəkini deməyə başlamışdı. Stolların birində mərhumun köhnə iş yoldaşları oturmuşdu. "Sərpayılığı" Əkrəm edirdi. O dedi:

– Ay sizin Allahınıza qurban olum. Düz deyirdi Zakir. Rəhmətliyin verən əli vardı. Yaxşılığı eləməyi bacarırdı. Özü də bunu üzə vurmazdı. Bu adamda sağ əlin verdiyini sol əl bilməzdi… Allah rəhmət eləsin. Belə deyil?!

– Rəhmətlik ürəyiyumşaq idi. Ağzını açmaq istəyirdin ki, nəsə istəyəsən, o dəqiqə sözünü kəsirdi. "Nə qədər lazımdı?" deməyilə əlinin cibinə getməyi bir olurdu. – Zakir Əkrəmin dediyi "belə deyil?" sualını özünə götürüb sözünə davam etdi.

– Düz dedin, ay Əkrəm, yaxşılığı eləməyi də bacarmaq lazımdır. Bu bacarırdı. – Bu sözləri də Ədhəm ah çəkərək ortaya atdı…

Qonşu stolda mərhumun dostları oturmuşdu və onlar dünənki nərd oyununu müzakirə edirdilər. Birdən İsaxan nə isə yadına salıb qəfildən söhbəti dəyişdi.

– Qurtarın bu nərd söhbətini. – O, dünən o ki var uduzmuşdu. – Nəhayət ki, bu yazıq canını qurtardı. O biri dünyaya köçdü. Nə əziyyət çəkdi, deməklə qurtarmaz…

Bu sözlər lazım olmayan yerdə şaqqıltıyla nərd taxtasına düşüb onu görənləri mat qoyan "şeş qoşa" kimi səsləndi. Söhbətin məcrası dəyişdi. "Şeş qoşa"nın küləyi başqa yerdən gəlmişdi deyin, elə bil, okeanın ortasına yol alan yelkənli gəminin dor ağacı əyildi, yelkənlər yeni küləklə doldu və gəmi bu dəfə başqa istiqamətlə, amma yenə haman ortalığa doğru üzməyə başladı.

– Hə, elədi. – Zabil səsini qısdı – Vallah, canını götürüb aradan çıxdı. Buna nə zülümlər edirdilər öz evində öz doğmaca övladları. Yaxında aparıb qocalar evinə qoyacaqdılar yazığı…

– Sən Allah düz deyirsən? – Mərhumun yaxın dostlarından biri olan Səbzəli təəccüb etdi. – İşə bax… Mən bunu bilmirdim.

– Bilmirdin? – Öz növbəsində Zabil də təəccübləndi. Bunu bütün yaxınları bilirdi ki… Oğlundan nə zülmlər çəkmirdi bu?! Necə olub sən bilməmisən?!

– Mən Yasamalda yaşayıram axı…

– Həəə… Ola bilər. Dünyasını dəyişdi, canını qurtardı.

– Elə bu cür sakit bir halda keçinməyi yaxşı oldu. Əzab-əziyyətsiz…

Qonşuların stolunda mərtəbə qonşusu Qulam müəllim yenə də deyinirdi.

– Ətiacı adam idi. Üz-gözündən zəhrimar tökülürdü. Bir dəfə…

Onun sözünü üzbəüz binada yaşayan Həmid kəsdi.

– Yaxşı yadıma saldın, bir dəfə həyətdən keçib gedən yerdə külək əsirdi, bunun başından şlyapasını götürüb apardı. Qaçıb şlyapanı yerdən götürüb gətirib buna verirəm. Bu mənə nə desə yaxşıdı?

– Yaxşı bir şey deməz…

– Nə dedi?

– Dedi ki, yerə dəyməmiş bunu tuta bilməzdin? Bilə-bilə yerə sürtüb gətirdin?! Mat qaldım.

– Ay səni…

– Hə, ətiacı idi. Yaxşı söz ağzından çıxmazdı. Nəhayət ki… getdi.

– Övladları…

Bu biri stolda isə danışanların səsini özlərindən başqa kimsə eşitmirdi.

– Allah böyükdür. O, hər şeyi görür və bilir. Bax, necə aldı bunun canını?! Cəhənnəmə vasil oldu. Başqa yerə yox. Birbaşa cəhənnəmə.

– Cəhənnəmə dedin qoydun?! Birbaşa gorbagor oldu. Bir dəfə buna deyirəm. Noolar, gəlmə bu məhkəməyə. Sən gəlib yalandan nə isə deyəcəksən, aləm yenə qarışacaq bir-birinə. Mənə deyir ki, yox, olmaz. Bu adam deyir, sən bir sözə bax, bu adam, deyir, iyirmi il əvvəl mənə bir dəfə sən mənim işlərimə qarışma dedi. Mən indi onun işlərinə qarışım, o da görsün. Zülmkar idi. Murdar oldu

– Elədi. Oldu.

– Gorbagor…

Mollanın naqafil səsi ucaldı.

– Fatihə…

Sükut çökdü. Hamı ovcunu açıb yan-yana tutaraq üzünə yaxınlaşdırdı və guya namaz surəsini deyərək, amma ürəyində ağlına gələn arzu-diləyini Allahdan istəməyə başladı. Kimi yeni maşın almaq istədi, kimi nəvəsinin universitetə daxil olmasını arzuladı, kimi ölən mərhuma "dərin gedəsən" deyə arzusunu dodaqaltı pıçıldadı. Axırda hamı bir ağızdan "fatihə" deyib əllərini üzünə çəkdi. "Allah rəhmət eləsin" səsləri yer-yer çadırı bürüdü.

Yas dağıldı. Amma yox, çadırın bir küncündə on-on bir yaşlı bir oğlan uşağı təkcənə bir halda oturub göz yaşını saxlamadan çay içə-içə halva yeməkdə idi. İki gözünün ikisindən də yaş axıb-axıb tükənmək bilmirdi. O, hərdən başını qaldırıb mərhumun divardan asılan şəklinə baxır, bu zaman ah çəkir və yenidən halvadan bir qaşıq götürüb ağzına aparırdı.

SON

Məhəbbət adası

Deyirlər ki, halva-halva deməklə ağız şirin olmaz. Düz deyirlər. Bir dəfə desən, olmaz. İki dəfə desən, olmaz. Əlli dəfə desən də olmaz.

Amma sən bunu sabah tezdən günəş çıxınca deməyə başlasan və axşam günəş batıncaya qədər aramsız desən, ölü-ölü keçən günlərin bir günü, əslində, günlərin yox, gecələrin bir gecəsi qəflətən yuxudan ayılıb ağzının dərin bir guşəsində, boğazına yaxın bir yerdə vaxtilə əziz bir adamının yas mərasimində udquna-udquna yediyin o şirindən şirin zəfəranlı halvanın unudulmuş dadını hiss etməyə başlayacaqsan. Sən əvvəl-əvvəl bu dadı tanımayacaqsan. Sən onu unutmusan. Amma yox, belə deyil. Bu unudulmuş dad sənin ağız boşluğunun dərinliyindən qarşısıalınmaz lava kimi baş qaldıracaq, dişlərinin ətinin dibinə çökəcək, oradan onu sovurduqca gəlib dilinə qədər çatacaq, dilinin üstünə, arxasına, yanlarına – hər tərəfinə yayılacaq, dilindəki bütün uyumuş dad sinirlərini məst edərək yavaş-yavaş, nəhayət ki, özünü sənin yadına salacaqdır. Bəli, bu odur. Unudulmuş, amma qayıtmış halva dadı.

İndi isə təsəvvür edin ki, "halva" yerinə sidq-ürəklə "Allahım, sən mənə qanad ver" deyirsən. Yenə də hər gün aramsız deyilən bu sözlər deyildiyi yerdən hansısa ucalığa yol alır, orada o sözlər bəlkə də dəfələrlə deyildiyindən zəhlə tökməyə başlayır və sən gecələrin birində, yox, bu dəfə sübh açılarkən hiss edirsən ki, çiyinlərində qəribə bir ağırlıq var. Arxana boylana bildiyin qədər boylanıb görə bildiyin qədər görə bilirsən ki, çiyinlərindən iki qara qanad pardaxlana-pardaxlana çıxmaqdadır. Allahının sənə, inanırsan ki, yazığı gəlmişdir və o səni əfv etmişdir. Sənə məhkum olunub salındığın bu həbsxanadan qaçmaq imkanı vermişdir.

...Qanadlar sənin vücudundan tam çıxıb məsələ bitəndən sonra mən çiyinlərimdə yenə də əvvəlki yüngüllüyü hiss etdim. Heç kimin gözünə gö-

rünmədən alatoranlıqda o tərəfə, bu tərəfə qaçdım, yeni halımı sınaqdan keçirməyə çalışdım. Uçmaq mənə əvvəl-əvvəl inandırıcı gəlmədi. Amma ayaqlarım yerdən ayrılırdı, mən görürdüm ki, mən az qala boşluğa addım ata-ata uçuram. Qanadlarım dəniz dalğalarının üstü ilə qayığı irəli aparan iki böyük avar kimi məni az qala ucsuz-bucaqsız səmaya uçururdu. Qanadlarım başımın üstündəki nəhayətsizliyə can atırdı, səmaya doğru çırpınırdı. Bu, bir möcüzə deyildi. Bu, bir həqiqət idi. Bəli, yalnız bu zaman mən inandım ki, mənim səsimi eşidiblər, məni bağışlayıblar və bu mənfur adadan, onun özü boyda həbsxanadan uçub qaçmaq üçün mənə qanad veriblər. Sanki deyiblər: Sən indi uça bilərsən. Mən xoşbəxt idimmi?! Bəli, mən özümü xoşbəxt sayırdım.

Mən gözdən, qulaqdan uzaq, səs çatmayan, ün yetməyən bu qərib məkanda – hamı tərəfindən unudulmuş bu adadakı onun özü boyda həbsxanaya atılıb illərlə orada məhbus olub qalmışdım. Bu ada dünyada yaşayanların hamısından gizli şəkildə öz həyatını sürməkdə idi. Onun varlığı barədə dünyadakıların heç birinin məlumatı yox idi. Sakit okeanın ortasında qəribə parametrlərdə və qəribə maqnit burulğanlarının arasında yer alan bu kiçik ada onun yanından nadir hallarda üzüb keçən gəmilərin belə gözünə görükmürdü. Uca göylərdən bu adanın başı üstündən uçub keçən təyyarələr də onu sezmirdilər. Bizim dünya ilə bu adanın bütün əlaqələri kəsilmişdi. Göydəki ulduzlar yanımızdakı və nə vaxtsa bizim dünyamız olan dünyadan bizə sanki daha yaxın idilər. Bu ada kənardan baxanlar üçün tamamilə görünməz bir məkan idi. Özü də başdan-başa həbsxanadan ibarət məkan.

Bu həbsxananın divarı, qoruması yox idi. Oradakı məhbuslar ada daxilində nə istəyirdilər edirdilər. Hara istəyirdilər gedirdilər. Bir-birilə yoruluncaya qədər gəzişib ünsiyyət bağlayırdılar. Bu adada boy atıb ucalan cürbəcür ağaclarda ilboyu yetişən cürbəcür meyvələrdən yeyirdilər. Okeanda istədikləri qədər çimirdilər, qumluqda istədikləri qədər istirahət edirdilər. Onların sanki hər şeyə ixtiyarı çatırdı. Bu adamları sanki belə bir əcaib həbsxanaya salıb sonra unutmuşdular. Onlara əbədi istirahət bəxş etmişdilər. Amma bu istirahətin çəkilməz, ağır məqamı da yox deyildi. Bu

məhbuslar üçün ən əzablı olan bu idi - onlar bilirdilər ki, o uzaq və sevimli dünya artıq əlçatmazdır. Onlar əbədi olaraq bu gözdən uzaq adada yaşamağa məhkumdurlar. Buradan çıxış yolu axtarıb tapmaq əbəsdir. Hər gün eyni yeknəsaqlıq. Hər gün eyni simalar. Hər gün eyni söhbətlər. Bu onları - üzmürdümü, bu onları üzürdü.

Mən özümü o adadan qaça bilmiş yeganə məhbus hesab edirdim və indi bu ahıl çağımda, gəlib yenidən sevdiyim, amma məni unutmuş dünyaya dönməyimlə özümü xoşbəxt sayırdımmı?! Bilmirəm. Qanadlarım çiyinlərimdən çıxan sabah mən hamıdan gizlənə-gizlənə sahildə heç kimin gəzib-dolaşmadığı bir yerə gəldim. Yaşıl ot üzərində sahilə tərəf yeridikcə çiynimdəki qanadlar arxamca sürünürdü. Düşünürdüm ki, işimi bitirdikdən sonra onları öz yerinə – kürəyimə necə qaytara biləcəyəm?! Bu fikir ideya-fiks olub məni heç cürə rahat buraxmırdı.

Adadakı həbsxananın adını, daha doğrusunu desəm, adanın adını məhbuslar özləri qoymuşdular. Adanın adı Məhəbbət adası idi. Bura məhbuslar yarızarafat, yarıciddi Məhəbbət həbsxanası da deyirdilər.

Məhəbbət həbsxanasına oradakı məhbusları dünyanın müxtəlif yerlərindən yığıb gətirmişdilər. Onların yeganə günahı dünyada yaşadıqları zaman öz sevdikləri şəxsi hər şeydən, hər kəsdən artıq sevməkləri olmuşdu. Onlar sevdikləri qadını hər şeydən, hətta Tanrıdan artıq sevmişdilər. Bu azmış kimi bunu hər yerdə bəyan belə etmişdilər. Və indi belə məlum olurdu ki, Tanrı onları buna görə bağışlaya bilmir. Və Tanrı onları bu adaya salmaqla, dünya ilə əlaqələrini kəsməklə cəzalandırırdı. Tanrının prinsipi bu idi – hər şey qədərində olmalıdır.

Bura gətirilənlərin gəlişi qəribə şəkildə baş verirdi. Hər dəfə gətirilən yeni məhbus okeanın sahilində, sarı qumların üstündə özündən getmiş şəkildə tapılırdı. Onları bu adaya ucsuz-bucaqsız okeanın suları gətirirdi. Heç birinin yaddaşında bura necə gəlib düşdükləri barədə kiçicik də olsa, bir şey qalmırdı. İlk vaxtlar bu ada onlara ekzotik bir yer kimi görünürdü. Sonra isə depressiya dövrü başlayırdı. Dünyada qoyub gəldikləri və itirdikləri heç bir şey bu adamları rahat buraxmırdı. Bu adamlar saatlarla, günlərlə sahildə ağac kimi dayanıb okeanın nəhəng hüdudsuzluğuna baxırdılar. Bax-

dıqca baxırdılar, yorulmurdular. Xatirələrin qoynundan heç cür çıxa bilmirdilər. Xatirələr bu adada verilən ən ağır işgəncə idi. Tanrının qisası bundan ibarət idi.

Onu da deyim ki, geri qayıtmaq yolunu mənə qanadlarım öyrətdi. Göy üzü ilə qanadlar özləri məni aparırdı. Okeanın üstü ilə uçduqca qanadlarım öz-özünə hərdən tənbəl-tənbəl, hərdən isə yeyin-yeyin yellənirdi və mən tamamilə heç bir iş görmədiyimdən, boş-bekar olduğumdan həyatımdakı cürbəcür hadisələri yaddaşımda canlandırır, onları gözümün önündən kino lenti kimi keçirməyə çalışırdım. Yadıma vaxtilə kimlərəsə dediyim və bununla qəlblərə dəydiyim sözlər, bədxah sandığım adamlara qarşı yönəltdiyim haqlı və haqsız əməllər düşürdü. Suallar, suallar məni rahat buraxmırdı. Niyə məni sevənlər bu qədər çox sevdilər, niyə mənə nifrət edənlər bu qədər çox nifrət etdilər?! Hər şey qədərincə olsaydı, biz daha rahat və daha hüzurlu həyat sürməzmiydik?!

Ən vacib sual isə mənim üçün bu idi. "Dəyərdimi?!" Məhəbbət adasına düşməyimin səbəbkarı dünyadan – mənə əziz olan adamlardan, sevdiyim şəhərdən, sevdiyim küçələrdən, meydanlardan, bağçalardan, məni sevən dostlarımdan, evimdən, eşiyimdən ayrılmağıma, əldə etdiklərimi itirməyimə, ən vacibi isə geridönməzliklə az qala barışmağıma dəyərdimi?! Mən o məzlumbaxışlını Tanrıdan daha artıq sevdiyimi bəyan eləməyimlə kimə, nəyi sübut elədim?! Uça-uça mən vaxtilə necə də böyük səhvə yol verdiyimi düşünürdüm. Mən vaxtilə düşünürdüm ki, bu boyda məhrumiyyətlərə bu boyda sevgi yəqin ki, dəyməzdi. Mən onun yaddaşından, əlbəttə ki, silinib getmişdim. Onun məzlum baxışları məni daha heç yerdə axtarmır. Beynimdən "axtarmır" sözü keçdi, yadıma məni sarsıdan haman söhbət düşdü.

...Mən itəndən sonra məni düz bir ay axtarmışdılar. Nə ölüm, nə dirim barədə heç bir məlumat əldə edə bilməmişdilər. Polis məmuru, nəhayət, gəlib dostlarıma və ona belə bir elan etmişdi:

– Bu adamı çox axtardıq. Onun nə ölüsü tapıldı, nə də dirisi. Onu mərhum kimi qeyd edirik. Başqa çarəmiz yoxdur. Başınız sağ olsun.

Dostlarım içərisində ən yaxın bildiyim Hamlet bu zaman demişdi.

– Onu daha axtarmağa dəyməz. Çünki o elə adamdır ki, sağ olsaydı, bu qədər gizlənməyə, sadəcə, hövsələsi çatmazdı. Üzə çıxardı.

Mən bu söhbət barədə hardan bilirəm?! Sonralar adaya gətirilən məhbuslar içərisində haman polis məmuru ilə rastlaşdım. O özü mənə yaxınlaşdı. Mənə tanışlıq verdi və danışdı ki, mənim itməyimdən sonra ilk baxışda məzlum görünən o qadın onlara öz sakit oturuşu, heç nə bildirməyən baxışı ilə necə işkəncə verirmiş. Bu, əlbəttə, o idi. O məzlum görünməyi bacarırdı.

Qara buludların arasına girirəm. Nə aşağı görünür, nə də yuxarı. Ürəyim şiddətlə vurur. Amma qanadlarım məni az qala ildırım sürətilə bir qədər də ucalara, bu qaranlığın üzərinə qaldırır. Artıq o qara buludları özümdən aşağıda görməyə başlayıram. Ürəyimin zərbələri yavaşıyır. Uçuş yenə də öz sakit məcrasına düşüb rahat şəkildə davam edir.

...Onunla mənim aramda qəribə mübahisələr olurdu. Biz bir-birimizlə hər məsələdə anlaşa bilirdik. Amma bir məsələdə heç cür eyni fikrə gələ bilmirdik. Kimsə buna güləcək. O deyirdi ki, sən mənim qafiyəmsən. Mən deyirdim ki, yox, sən mənim qafiyəmsən. İndi düşünürəm ki, heç bunun da üstündə mübahisə edərlər?! Biz ikimiz də bir-birimizin qafiyəsi idik. Qafiyələrin hansı hansınındır – bunu bilmək olarmı?!

Polis məmuru mənə danışırdı.

– Bir ay bu qız bizim başımıza oyun açdı. Hər gün eyni vaxtda səhər saat 9-da idarəyə gəlirdi, məzlum-məzlum bir küncdə oturub bizə baxdıqca baxırdı. "Mən onu burda gözləyəcəyəm" deyirdi. Gözlərinin dərinliyindəki kədər o qədər böyük idi ki, onu oturduğu yerdən ayırıb çölə çıxarmaq heç kimin ağlına gəlmirdi.

– Sonra, sonra nə oldu? – Mən hövsələsiz halda soruşdum.

– Bir aydan sonra biz onu bir daha görmədik. Bir gün əvvəl qərarımızı sənin dostlarına, yaxınlarına söylədik. O da orada idi. Axtarışlar əbəsdir, biz əlimizdən gələni etdik – dedik. Bu adam bir daha üzə çıxmayacaq. O bunu dinləyib susdu, cınqırını da çıxarmadı. Heç bir söz belə biz bu qızdan eşitmədik. Nə nalə, nə bir hənirti. Nə yalvarış, nə təhdid... Bircə o yadımda qalıb ki, üzü daşa dönmüşdü. Məzlum baxışları yox olmuşdu. Elə o daş üzlə də oturduğu yerdən ayağa qalxıb sakitcə çölə çıxdı. Bir daha onu görmədik.

"Bir ay... Bu adamın vəfası bircə aya qədər çəkdi..." – mən düşündüm.

Polis məmuru mənim çaşqınlığımı duyub susdu. Mən hiss elədim ki, o yenə nə isə demək istəyir. Düşünür ki, desin, ya deməsin. Əlacsızlıqla gözləməyə başladım.

– Sən bilmirsən, burdan qaçıb gedən olub, ya necə? Ümumiyyətlə, bu mümkündürmü? – Polis məmuru ümidlə mənim üzümə baxdı. Üz-gözümdən, naümid baxışımdan hiss elədi ki, doğru sual verməyib, bu sualın cavabı yoxdur və bir "ah" çəkib mənim mövzumu davam etdi.

– Bilmirəm, bu məsələyə, yəni, o qıza nə qədər dəxli var, ya yoxdur - Polis məmuru söhbətini yavaş-yavaş tamamlayırdı, – amma bir məsələni də istəyirəm, sənə deyəm. Bizim bəyənatımızdan iki gün sonra şəhərimizdəki Sultan qayasını bilirsən, sıldırım bir qayadı. Oradan bir qız, məlumat gəldi ki, özünü dənizə atıb. Nə qədər axtardıq, o qızın cəsədini tapa bilmədik. Bəlkə də sənin ilə heç bir əlaqəsi yoxdur. Amma hər halda... O qızı heç soruşan, itdiyini maraq edən olmadı. Sən yəqin bilərsən, sənin adamının bir qohumu-zadı var idi?

Mənim qafiyəmin heç kimi yox idi. Tənha idi. Tale onu mən yaşayan şəhərə necə, nə təhər, niyə atmışdı, bunu mən onda da bilmirdim, indi də bilmirəm.

Polis məmuru gözünü okeanın nəhayətsizliyinə dikərək söhbətinin sonunda bir də bunu dedi.

– Sultan qayasından tullandığı o yerdə...

– Nə? Nə? Məktubmu qoymuşdu? Bir işarətmi buraxmışdı?

– Yox, yox, boş ver. Bunun məsələyə yəqin ki, dəxli yoxdur. Qayanın üstündə bizimkilər balaca kağız parçası tapmışdılar.

Mənim az qala nəfəsim dayanacaqdı.

– Kimsə kağızı yazandan sonra cırmışdı, yazılanları qaralamışdı. Bir sözü oxumaq isə çətinliklə də olsa mümkün oldu. "Qafiyə..." Hə, o çətin oxunan söz "qafiyə" idi... Bizim hamımıza qəribə gəlmişdi. "Qafiyə"nin məsələyə nə dəxli vardı?! Biz o kağızı itmiş qızın işinə heç tikmədik də...

... Adadan qanad çalıb 500 kilometr okeanın üstü ilə uçandan sonra Qrinviçlə 38 dərəcə sağa döndüm və bir qədər keçdikdən sonra uzaqda hansısa işıqların yandığını gördüm. Əlbəttə ki, bu şəhər mənim şəhərim deyildi. Və bu şəhərdə Sultan qayası adlanan sıldırım qaya yox idi. Amma bu artıq mənim dünyam idi və ürəyimdə mənə daha bir şans verdiyinə görə Allahıma dualar etdim. Ondan daha çox heç nəyi və heç bir şeyi sevməyəcəyimə özümə bir daha söz verdim. Vaxtilə belə etsəydim, bütün başıma gələnlər də olmayacaqdı. Qafiyələr də bir-birinin yanında durub bir-birinin qarovulunu çəkəcəkdilər. Amma indi mənim qafiyəm mənə daha lazım olmayacaqdı. Sultan qayasını mən unutmalı idim. Mən yaşamalı idim.

Qanadlarımdan necə xilas olacağam, onları nə edəcəyəm sualı özözünə həll oldu. Ayağım torpağa - əsl torpağa dəyən kimi bu qanadlar çiyinlərimdən öz-özünə yox oldu, əriyib getdi. Sanki onlar əvvəldən olmamışdılar, mənim kürəyimdən çıxmamışdılar və məni okeanın üstü ilə bu nəhəng və qorxulu məsafədən keçirib bura gətirməmişdilər.

Ayağım sahilə toxunandan sonra ətrafa boylandım. Yaxınlıqda bir kolluq vardı. Bu kolluqdan qarışıq və ehtiraslı səslər gəlirdi. Kişi və qadın səsləri idi. Bir-birinin sözünü kəsə-kəsə, nəfəsləri bir-birinə qarışa-qarışa aramsız danışırdılar. Mən hələ insan dilini tam unutmamışdım. Bu adamlar bir-birinə tükənməz məhəbbətlərini bəyan edirdilər. Bir-birinə kimin o birini daha çox sevdiyini sübut etməyə çalışırdılar. "Təki bir-birinə deməsinlər ki, mən səni hər şeydən artıq sevirəm" fikrini ağlımdan keçirməyə belə macalım olmadı. Kolluqdakı kişi səsi qürurla pıçıldadı.

– Mən səni... hər şeydən artıq sevirəm.

O kolluğa təəssüflə baxıb oradan tez aralandım.

SON

Pyeslər

Casus

Redaktə edilmiş, işlənmiş, yeni variant

I şəkil

Qiraətxana. Tam sakitlik. Kitabların oxuculara verildiyi pəncərənin önündə üç nəfər bir-birinin ardınca növbəyə durmuşlar. Üç nəfər ayrıca stol arxasında oturub kitab oxuyur. Hərdən də qarşılarındakı dəftərə nə isə yazırlar. Səhnə kitab şkafları ilə sərhədlənib. Səhnənin düz ortasında, şkafların arasında qədim bir saat var.

Kitabxanaçı qız əlində bir bağlama kitab gəlib pəncərənin arxasında kitabları səliqə ilə bir-birinin yanında rəf üstünə düzür.

Saat hərəkətə gəlir. Saatın içindən bir quşcuğaz çıxır. Saatın əqrəbləri düz 10-u göstərdiyi üçün saatın hər gurultulu vuruşunun ardınca quşcuğaz 10 dəfə xoruz kimi banlayır.

Növbədə duranlar saatın səsinə heyranlıqla qulaq asırlar.

2-ci adam. Bir dəfə də olsun, bilmirəm, xoruz deyim, tutuquşu deyim, bu quş vaxtı qaçırmayıb. Bax *(1-ciyə)*, saat düz 10 tamamdır.

1-ci adam. Elədi. 10-dur. 3, 4, 5... Bunun səsi mənə musiqini xatırladır.

3-cü adam. Klassik musiqini... 7, 8...

Stol arxasında oturanlar təlaş içində yerlərindən sıçrayıb qalxırlar. Qiraətxanada tavandan asılmış lüstralar tərpəşməyə başlayır.

3-cü adam. 9, 10...

Qiraətxanadakılar. *(vahimə içində).* Ah... Aman... Allah-Allah... Zəlzələ, zəlzələ... Aman...

Kitabxanaçı qız. Sakit. Səs salmayın. Heç nə olmayıb. Sakit olun. Panika olmaz. Qorxmayın. Heç nə yoxdu. Heç nə yoxdu. Bura, bura... Aman, Allah... Bura... Aman...

Kitabxanaçı qız danışdıqca qiraətxana göz önündəcə dağılmağa başlayır. Həqiqətən, zəlzələ baş verir. Kitablar, rəflər səhnədəkilərin başının üstünə tökülür. Kitabların altında qalanlar – hərəkətsiz. Hər yeri qaranlıq bürüyüb. Səhnənin ortasındakı saat heç nə olmamış kimi sağ-salamat. O, yenidən səs salmağa çalışır. Quşcuğaz zorla da olsa başını çıxarır və bu dəfə onun səsi bülbül səsi-ni xatırladır. İşıq qaranlıqdan 1-ci adamı tapıb çıxarır. 1-ci zorla üstünə tökülmüş kitablardan sıyrılıb çıxır, təəccüblə ətrafı gözdən keçirir. Ətrafdan ah-nalə səsləri eşidilməyə başlayır.

Səslər. Allah-Allah...bu nə cürə zülm idi ki, sən bizi düçar elədin?! Mən bədbəxt, mən biçarə... İmdad, imdad... Gəl, gəl, qalx hələ... bircə sən ölmə, nə edirsən et, amma ölmə. Nolar, aç, aç gözünü. Canım, gözüm... Allah- Allah... Allah, sən özün bizə kömək ol...

1-ci. *(Ayağa qalxır, ətrafına boylanır).* Burda nə baş verib?! Bu adamlar hara yox oldu?! Yəni, doğrudan da, zəlzələdi?! Aman, Allah...

Ətraf azacıq işıqlanır. Kitabxanaçı qız əlində bir əlyazma 1-ciyə yaxınlaşır.

Qız. Budu siz istəyən əlyazma. Müdir bunu, özü dedi, sizə verim. Əvvəli *(əlyazmanı vərəqləyir)* Gəncədə XII əsrdə baş verən dəhşətli zəlzələnin təsviri ilə başlayır. Amma bu aldadıcıdır. Təsvir qəfildən başqa bir mətləbə keçir. *(Yenə ətrafa boylanır)* Burda təmir edəcəklər. Hər tərəfi söküblər… Fikir verməyin. Bu tərəfə gəlin. Baxın, siz indi bu əlyazmanı məndən aldığınıza görə bura qol çəkməlisiz. Yəni, burda deyilir ki, siz söz verirsiz, əlyazmaya xələl gətirməyəcəksiz.

1-ci. Hara imza atmalıyam? Harda? Biz hardayıq?! Bəs dedilər, burda zəlzələ olub...

Qız. Yox, yox... Narahat olmayın. Gəlin bura. İmza bura lazımdı. Bəli, bura.

1-ci hansısa kağızı imzalayır.

Sağ olun.

1-ci. Mən bunu apara billəm?

Qız. Bəli. Görmürsüz, təmiri? Burda harda oxuyacaqsız?! Təmir 3-4 gün çəkər. Aparın evinizdə rahat-rahat oxuyun. Burda kirildə də yazı var. 3 gündən sonra gətirərsiniz. Mən... mən sizə inanıram.

1-ci. Mənə? Niyə?

Qız. Bilmirəm niyə. Özümə də qəribə gəlir – niyə? Amma... Yəqin, müdirimiz tapşırıb ona görə. Yoxsa... biz evə kitab vermirik. Qaydamız belədi. Məni başa düşürsüz?!

Səslər eşidilməyə başlayır. Şivən, ağlaşma...

Səslər. Zülmdü bu zülmdü... Mən bədbəxt, mən biçarə... Hara gedirsən, getmə ora. Ev başına uçar. Ona ordan xilas yoxdu... Ax, ax, gözəl Gəncə... Hara sən yox oldun, hara itdin?!

1-ci. Bu səslər hardan gəlir? Ah, gözəl Gəncə, biçarə Gəncə… Siz eşidirsiz?

Qız. Hansı səslər? Mən burda ancaq saatın səsini eşidirəm *(qulaq verir)* o da daha gəlmir. Təmirlə bağlı isə.... Dedim axı, 3 günə qurtarar. Müvəqqəti na-

rahatlığa görə üzr istəyirik. 3 gündən sonra əlyazmanı gətirib mənim özümə qaytararsınız... Yaxşımı? Alın əlyazmanı. 3 gündən sonra burda görüşürük.

1-ci. Burda, yəni... harda?

Qız. Siz mənimlə zarafat edirsiz? Burda, yəni, qiraətxanada. Qiraətxanadı bura. Başqa harda görüşəcəkdik ki?! Yoxsa, siz...

Qız son sözlərini şaqraq bir gülüşlə bitirir və nazla fırlanıb səhnədən çıxır. Səhnəyə qədim geyimli adamlar axsaya-axsaya, bir-birinə dəstək ola-ola, ah-nalə içində daxil olmağa başlayır.

1-ci. Yenə məni qara basır, deyəsən. Bunlar hələ kimdilər?! Mən hardayam? *(Səhnəyə daxil olanlardan birinə)* Ay qardaş, ay qardaş!

1-ci qardaş. Nədi, qardaş? Hələ de bir görüm, sənin bağrına yara necə basılıb?! Kimlərini itirmisən?! Gedək bizimlə. Şəhər başbilənləri hamını Cümə məscidinə toplayır.

1-ci. Qardaş, bura haradı? Qurbanın ollam, mənə söylərmisən, bura haradı və burda nə baş verib?!

2-ci qardaş *(onlara yaxınlaşır).* Nədi, sən şəhərdə deyildin? Bilmirsən nə oldu? O boyda zəlzələni görmədin? Hər yan, hər yan dağılıb, görmürsən?

1-ci. Yox, görmədim, mən buralı deyiləm. Gəlməyəm.

2-ci qardaş *(1-ci qardaşa).* Gəl, qardaş, gəl gedək. Qoy bir sənə kömək edim. Bu isə, deyəsən... düz-əməlli biri deyil, elə bil, casusa oxşayır. Suallarına bax hələ bunun. Gəl biz çıxaq gedək. Bizim dərdimiz bizə bəsdi.

1-ci qardaş *(1-ciyə).* Qardaş, bax, əgər bizi ələ salmaq niyyətin varsa, bu, biləsən, insanlıqdan kənar əməldir. Burda hamının kimisə o dünyalıq olub. Hamı dərd və qəm içində ah-naləyə bürünüb. Günahdı, vallahi və billahi, günahdı...

2-ci qardaş. Get, çıx get burdan. Bir daha səni buralarda görməyək. Casusun biri, casus...

1-ci. Qardaş, qardaş... mən bir...

1-ci və 2-ci qardaşlar səhnədən ah-nalə ilə, yıxıladura çıxırlar.

1-ci. Allahım, mən hansı zəmanəyə düşmüşəm?! Allahım, bura haradır?! Mənim bu kitabxanada nə işim var idi? Mən... mən... mən niyə bu qədərinə sirr hərisiyəm?! Neynirdim mən bu əlyazmanı?! Niyə mən onun dalınca gəldim. Nə etdisə, haman əlyazma etdi. İndi mən bunu dəqiq bilirəm. Bais əlyazmadı. Sirr bunun 1-minci cümləsindədi. Necəydi o cümlə?! *(Əlyazmanı çıxarıb açır və 1-ci cümləni oxuyur):* "Şəhər başbilənləri amansız zəlzələdən əziyyət çəkən gəncəlilərdən rica edirlər ki, Cümə məscidinə toplaşsınlar. Ehtiyacı olanlara mal-pul, ehtiyacı olmayanlara təsəlli vermək niyyətləri vardı. Əldən-heydən düşmüş əhali birtəhər özündə güc-təpər tapıb məscidə toplaşdı... Elə haman gün Bayandır xan iki atlı göndərib məni yanına istədi. Mən Xanın dərgahına özümü yetirib ədəblə baş əydim". Bu nədi? Bu artıq başqa bir mövzudu. Qız düz demişdi. Bu, artıq başqa bir mətləbdir. Gəncə zəlzələsi əsas mətləbə giriş imiş.

Bayırda at kişnəyir. İki Oğuz igidi səhnəyə daxil olub 1-ciyə yaxınlaşır.

1-ci Oğuz. Qorqud, sənə salam olsun. Haqtaala, könlünə daim ilham versin. Qaibdən daim dürlü xəbərlər söyləyəsən...

2-ci Oğuz. Amin!!! Qorqud, Bayandır xan səni gözlir. Sənin Xan dərgahına getməliyik. Səni xeyli axtarmışıq. Harda idin? Bura haradır? Bura ki… Gəncədir. Sənin Gəncədə nə işin varmış?! Gəl, gəl...

1-ci. *(bunlar danışdıqca dəyişir, Qorquda dönür).* Gedəlim, igidlər. Xanlar xanı Bayandır xanı gözlətməyəlim. Hadi, atlanalım.

Oğuzlar və Qorqud səhnədən çıxırlar. Saat yenə vurmağa başlayır. İşıq yavaş-yavaş sönür. Sönən kimi də birdən və daha gur yanır. Yenə haman qiraətxana. Burada heç bir dağıntıdan əsər-əlamət yoxdur. Hər şey zəlzələdən əvvəlki kimidir. Saat 10 dəfə vurur. Vurub qurtarınca.

2-ci. Musiqidi, vallah, əsl musiqidi...

3-cü. Qədimi... maldı.

Qız. *(1-ciyə yaxınlaşır).* Baxın, bu əlyazmadı siz istəyən. Amma sizin üçün maraqlı olmayacaq. Əvvəlində 1-2 cümlə XII əsrdə Gəncədə baş vermiş dəhşətli zəlzələdən yazır. Sonrası isə... sonrası bir başqa mətləbdi.

1-ci. Mən bunu evə apara bilərəm?!

Qız. Nə danışırsız?! Ömründə ola bilməz. Biz evə kitab vermirik. Bura qiraətxanadı. Sizə... ancaq ayrıca otaq verə billik. O da müdir tapşırıb ona görə. Sakit bir yerdi. Təkcə oturub oxuyarsız. Gəlin.

Səhnə fırlanır. İndi onun bir küncü qiraətxananın ayrıca otağıdır. Stollar, stullar və kitab rəfləri. 1-ci bura daxil olur və keçib oturur. Ətrafı və sonra əlyazmanı diqqətlə nəzərdən keçirir. Qız onun başı üstdə durub.

Qız. Açın bunu. Baxın burda. Mən deyənlər burda yazılıb. Oxuya bilərsiz. Baxın: "Zəlzələdən əziyyət çəkən Gəncə əhlini şəhər başbilənləri Cümə məscidinə topladılar və onlara yardım etməyə başladılar. Kiminə pul-para, kiminə də sözlə təsəlli verdilər. Ah-nalə, ağlaşma səsləri asimana qalxır, amma yenə də camaatın sağalmaz yarasına məlhəm tapılmırdı. Elə haman gün..." Fikir verin, burdan o tərəfə artıq başqa bir mətləb başlayır. Bunlar bir-birindən heç bir işarə ilə ayrılmayıblar. Qucaqlaşıb durublar, elə bil *(Qız özünü əyildiyi stoldan ayırıb stolun bu biri tərəfinə keçir).* "...Elə haman gün Bayandır xanın dərgahından iki adam gəldi, məni tapıb xəbər verdilər ki, Xan səni istir, bəs dərgaha getməlisən". Baxın, əsl mətləb də elə bu cümlələrlə başlayır. Bundan sonrası əməlli-başlı bir Oğuznamədir. Baxın: "Bayandır xan məni görcək soruşdu: Qorqud, oğul, gəldinmi? Mən baş endirib ədəblə cavab verdim: Bəli, şövkətli Xanım, gəldim".

Qız danışdıqca səhnənin qiraətxana otağının qarşısındakı tərəfi göy rəngli işıqla dolur. Bura Bayındır xanın dərgahıdır. Yuxarı başda taxt var. Taxtda Bayandır xan əyləşib. 1-ci ona yaxınlaşır. Qız qiraətxana tərəfdə qalmışdır və əlyazmanı varaqlamaqla məşğuldur. 1-ci Bayandır

xana yaxınlaşdıqca yenə də dönüb olur Qorqud. Qorqud gəlib taxtın önündə dayanır. Baş endirir və elə belə də quruyub qalır.

İşıq artıq ancaq bu ikisinin – Bayandır xanın və Qorqudun üstündə. Qiraətxanadakı saat hardasa hərəkətə gəlmək istərkən.

I şəklin sonu

II şəkil

Səhnədə ancaq Bayındır xanın dərgahı. Artıq burada qarşı tərəfin qiraətxanası yoxdur. Xan taxtda outrub. Qarşısında Qorqud baş əyib durub.

Bayındır xan. Qorqud, oğul gəldinmi?

Qorqud. Bəli, şövkətli Xanım, çağırdın, gəldim.

Bayındır xan. Əyləş hələ. Rahat-rahat keç əyləş.

Qorqud Xanla üzbəüz keçib oturur. Sənə bir-birindən bəd xəbərim var. Biləsən dərdli xəbərlərdi.

Qorqud. Qadir Tanrı Xanın ömrünü uzun eləsin. Dərd varsa, dərmanı da vardır, əlbət.

Bayındır xan. Bilməm. Heç bilməm. Varmı dərmanı, yoxmu? Bunu sənlə bir yerdə biləcəyik.

Qorqud. Xəbər nə xəbərdi, Xanım?

Bayındır xan. Biriminci bəd xəbər budur ki... Oğuzda casus var, Qorqud.

Qorqud. Olurmu, Xanım? Oğuzda casus?

Bayındır xan. Bəli, oğul. Şaşırdınmı? Oğuzda casus var.

Qorqud. Şaşırmamış ola bilərəmmi? Çox şaşırdım, Xanım. Kim ola bu casus?

Bayındır xan. Hələ bir dur. Əcələ etmə. İkinci bədxəbər bundan da betərdir.

Qorqud. Bundan daha betər olan noola bilər ki, Xanım?

Bayındır xan. Bundan daha betər olan odur ki, bu casusu şanlı Oğuz bəyləri tutuqlamışlar...

Qorqud. Nə gözəl etmişlər…

Bayındır xan. Doğrudur, çox gözəl etmişlər. Amma sonrası nə olmuş, bilirmisən?

Qorqud. Yox, bilmirəm, həşəmətli Xanım. Nə olmuş ki?

Bayındır xan. Sən qayət öylə bildin ki, tutuqlayandan sonra onu kəsmişlər, asmışlar, şaqqalamışlar? Oğuzda bundan sonra hamıya görk olsun deyə ən ağır cəzaya layiq bilmişlər?

Qorqud. Bəli, Xanım, mən öylə bildim.

Bayındır xan. Sən yanlış bildin, Qorqud.

Qorqud. Necə olur bu? Bəs casusa nə yapmışlar?

Bayındır xan. Sənə deyim. Burla xatun qızımız gəlmiş idi, o söylədi ki, Qazan, Aruz, Bəkil, Şirşəmsəddin məşvərət etmiş, sonra dustaq quyusunun ağzını açıb casusu anasına vermişlər və demişlər: ilim-ilim itib burdan get, heç kim də bilməsin ki, səni biz buraxdıq. Heç ağlına gələrdimi?

Qorqud. Gəlməzdi. Bəs axı neyçün böylə etsinlər, Xanım? Məqsudləri nə imiş?

Bayındır xan. Ola bilər, casusun anasının bu işlə bir bağlılığı vardır. Anası, sən də tanırsan, bilirəm, bilirəm, qaçırma gözünü, tanırsan, "qırx oynaşlı" Boğazca Fatma adında bir qarı imiş. Qırx oynaşlı... Ola da bilər tamam başqa bir səbəbi var bu əməlin. Biz səninlə bunu çözəcəyik, Qorqud. Hazırmısan…

Qorqud. Bəli, Xanım, mən hazır. Nə etməliyəm?

Bayındır xan. Məni diqqətlə dinlə, Qorqud. Biz səninlə bu bəyləri bir-bir istintaqa çəkəcəyik. Əsas məsələni – casusu qaçırmalarının sirrini öyrənəcəyik. Nə dersən?

Qorqud. Xan nə der, mən də onu derəm.

Bayındır xan. Çağırmışam, birinci dərgaha Qazan gələcək. Çox suallarım var ona. Görək hələ bu sualların cavabı olacaqmı?!

Qorqud. İnşallah, olar, Xanım.

Bayındır xan. İnşallah. Get, dinlən, yol gəlmisən. Qazan gələn kimi onunla bir yerdə gələrsiniz yanıma. Get.

Qorqud qalxıb Xana baş əyir və səhnədən çıxır. Bayandır xan fikirli-fikirli qalxıb dərgahda gəzişməyə başlayır.

Bayındır xan. Ax Oğuz, ax Oğuz... Dünyanın hələ bir gör hansı zəmanəsində yaşayırıq?! Artıq odlu mancanaqları da icad etdilər. İndiki zəmanədə casus heç ağlasığan bir iş deyil. Ax, ax Oğuz…

İşıq sönür. Qaranlıqda saatın zəng səsləri.

II şəklin sonu

III şəkil

Salur qazanın evi. Qazan və Şirşəmsəddin üzbəüz oturublar.

Qazan. Şirşəmsəddin. Bilirmisən, Bayındır xan məni dərgaha, yanına istir. Xandan buyruq gəldi.

Şirşəmsəddin susur.

Şirşəmsəddin, sənnənəm. Eşitmirsən məni?!

Şirşəmsəddin *(elə bil, yuxudan ayılır).* Ağam Qazan, buyur. Qulağım səndədi.

Qazan. *(bərkdən).* Deyirəm, Xanlar xanı məni görmək istir. Sən necə bilirsən, niyə?! *(Yavaş səslə)* Nagahandan gələn bu dəvətin məqsudi nədir?

Şirşəmsəddin. Mən bilmənəm ki…

Qazan. Sən nəyi bilirsən ki, bunu da biləsən?! Mənə bax hələ, gör kimdən nə soruşuram...

Şirşəmsəddin. Amma...

Qazan. Amma?

Şirşəmsəddin. Yox. Ola bilməz. Ağlıma bir fikir gəldi. Amma yox. Həqqən yox…

Qazan. Tanrı səni güldürsün. Sənin? Ağlına?

Şirşəmsəddin. Mənim, bəyim, mənim. Allah, Allah. Sən səni bilirsən, sənin məndən xəbərin yox.

Qazan. Di, haydı, söylə, aslanım mənim, şirim mənim. Özünə zülm etmə. Söylə... Söylə!!! Olmaya yenə Burla xatun... gizlicə gedib Xan babasının yanına, məndən xəbər aparıb? Bu xatun yorulmadı xəbər aparıb gətirməkdən... Xəbərçiymiş bu, xəbərçi...

Şirşəmsəddin. Bilməm ki. Bəlkə də. Amma. Amma deyirəm, bəlkə Dış Oğuz bəylərini ki, sən son dəfə evini yağmaladanda sayıb yağmaya çağırmadın, deyirəm, yəqin ki, onun xəbərini Xana aparıb çatdırıblar? Əlbəttə, bizi kimsə casusladı Xana, bunsuz deyil.

Qazan. Hə... bax, bu, ağlabatandı. Amma… Yağmadan nə keçdi ki?! İkicə gün. Nə tez bunu Xana xəbər verdilər...

Şirşəmsəddin. Bəli, bəyim. Məəttəl qalası işdi. İki günə nə tez getdi xəbər, görürmüsən?! *(Qalxır)* Xanım, mən bir həyətə çıxım. Beyrək sənlə görüşməyə gələsiydi. Bir baxım, gəldi, gəlmədi?!

Qazan. Get.

Şirşəmsəddin çıxır.

Qazan. Şirin dediyi ağlabatana oxşayır. Əgər belədisə, deməli, Xanın qəzəbi də tutmayacaqdır. Öz doğmaca övladı demədimi dayın Aruzu mənim evimə talana çağırsan, Xan babama varıb səndən şikayət edəcəm?! Burla xatun demədimi bunu?! O dedi. Aydındı ki, Aruz gəlməsə, o biri Dış Oğuz bəyləri də yağmaya gəlməyəcəkdi. Bunu hamı bilər, hətta Şir də bilər. Heç gəlməsinlər. Aman Tanrım, nə cürənə adətdi bu?! İldə bir dəfə evinə gəlib nə istəsələr götürsünlər, sən də baxa-baxa qal. Əslində, xatun düz elədi. Amma... Yox, amma Dış Oğuzun götürmədiyini bu dəfə İç Oğuz əhli elə rahat götürdü… İki dəfə çox götürdü. Götürüb gedən bir də qayıdıb gəldi. Nə isə...

Şirşəmsəddin və Beyrək gəlirlər. Beyrək baş endirib durur.

Qazan. Beyrək, qoçum. Xoş gəldin, səfalar gətirdin. Necəsən? Sağmısan, əsənmisən? Toyundan bir həftə keçdi. Üzünü görmədik. Sən heç yağmaya da qatılmadın...

Beyrək. Ağam Qazan! Uca-uca qarlı dağların...

Qazan *(hövsələsiz halda).* Onları saxla. Sonra. Onlar sonra. Hələ gəl bura. Gəl əyləş. Belə. Rahat ol. *(Şirşəmsəddinə)* Şir! Sən bir çıx həyətə. Mənim Beyrəklə öz söhbətim var.

Şirşəmsəddin sanki eşitmir.

Qazan. Şir!!!

Şir. Bəli, şövkətli bəyim...

Qazan. Sən deyirəm, yemə-içmə tədarükündə ol. Çıx buradan, çıx get həyətə.

Şirşəmsəddin istəməyə-istəməyə çıxır.

Beyrək. İnciməsin, ağam, bu. Ürəyi kövrəkdi…

Qazan. İncisin. Dünəndən incisin *(Nəsə düşünür).* Deyirsən inciyər?.. İnciməz. İncisəydi, dərdimiz nəydi?! Bunları düşünmə. Hə... Sən hələ bir söylə görüm, Bayburdda nə vardı, nə yoxdu? On altı il əsirlikdə yadında qalan nə oldu? On altı il az vaxt deyil. Özünə orda bir yuva qura bildinmi?

Beyrək. Bəyim, məni utandırırsan...

Qazan. Burax görüm... Heç utanılası mətləb deyil. Bu on altı ildə, Beyrək, ürəyin ki partlamadı, böyük işdi. Baban, anan nə günə düşdülər... Hələ sevdiyin nişanlın...

Beyrək. Bəli, bəyim, Banuçiçək çox əziyyət çəkdi...

Qazan. Elədi, elədi. Mən əsir olarkən, yadında? Yox, hardan yadında olsun ki?! Sən özün o zaman Bayburdda əsir idin. Mən də əsir düşdüm axı. Əsirliyin nə olduğunu mən bilmərəmmi?! Şöklü Məlik şərəfsiz məni uyquda ikən adamları gəlib oğurlayıb apardılar. *(Fikirli-fikirli)* Kim xəbər vermişdi görən?! Sirri-müəmma. Qərəz, kafirin casusu casusladı, onlar da gəlib apardılar. Guya ova çıxıb fikrimi dağıdacaqdım. Yaxşı dağıtdılar xanimanımı. Burnumdan gətirdilər.

Beyrək. Eşitdim, ağam Qazan, eşitdim. Mən bu xəbəri Bayburdda eşitdim. Çox da pis oldum. Gecə-gündüz sənə dualar etdim. Amma bilə-sən, ağam. Kimsə vardır. Baiskar kimsə yox deyil. O kimsə daima oralara xəbər ötürür. Oğuzda nə olur, nə olmur, kafirlər anındaca bilirlər.

Qazan. Eləmi?

Beyrək. Elə, ağam, elə. Şəkk-şübhən olmasın.

Qazan. Hə... Görünür, məsələ xeyli ciddidi.

Beyrək. Bəli, ağam Qazan, xeyli *(düşünür, bir qərara gəlir).* Bilirsən, bir məsələ var, əvvəl-axır mən bunu sənə deməliyəm.

Qazan. Hə...

Beyrək. Ağam Qazan, Oğuzda...

Qazan. Nədi, nə oldu? Oğuzda...

Beyrək. Casus var, ağam. Oğuzda casus var.

Qazan. Yox, canım. Hələ bu hardan çıxdı? Harda, harda – Oğuzda? Ömründə ola bilməz. *(Fikirli-fikirli)* Olurmu?!

Beyrək. Sən ova çıxdınmı, ağam? Casus casuslamadımı? Səni, dilim-ağzım qurusun, əsir edib aparmadılarmı?

Qazan. Hə... öylə oldu...

Beyrək. Uruzu, Burla Xatunu, ananı, evini-eşiyini...

Qazan. Hə...hə... uzatma, Beyrək.

Beyrək. Bəkil atdan yıxılıb ayağını sındırmadımı? Yorğan-döşəyə düşmədimi?

Qazan. Kafirlər o saat xəbər tutdular. Arvadı, dedilər, qaravaşa söylə-mişdi...

Beyrək. Bütün bunları bəs kafir hardan bildi? Kim bu xəbəri ona çat-dırdı, ağam Qazan, kim?

Qazan. Kim?

Beyrək. Casus, ağam, casus.

Qazan. Beyrək!

Beyrək. Bəli, ağam, Qazan.

Qazan. Beyrək, eşit və agah ol. Oğuzda casus var! Oğuzda casus var!! Var! Var! Var! Şirşəmsəddin! Hardadı bu? Lazım olanda tapılmaz. Şir, har-dasan?

Şirşəmsəddin gəlir.

Gəl keç bura. *(Yer göstərir)* Otur! Təzə xəbəri eşitmisən, Şirşəmsəddin?

Şirşəmsəddin. Yox, mən həyətə çıxmışdım. Eşitməmişəm.

Qazan. Heç dəxli var?! Həyətdə olmasaydın guya eşidəcəkdin. Bəs o zaman dəstur ver, mən deyim, sən eşit. Oğuzda casus var.

Şirşəmsəddin. Oğuzda? Casus? Mənim də xəbərim yox? Ola bilməz!

Qazan. Bəli, qoçum. Sən də bunu bilmirsən. Bax, bunu doğru dedin.

Şirşəmsəddin. Ağam Qazan...

Qazan. Sus! Otur oturduğun yerdə. Bunu mənə sən deməlisən. Bu xə-bəri sən mənə verməlisən. Amma bu xəbəri mənə Beyrək gətirir. Mənim xə-bər aparıb gətirənim sənsən, ya ki, Beyrəkdir? Bəs belə isə sən nəyə lazım-san? Sən, bir söylə görüm, nəyə lazımsan???

Şirşəmsəddin. Ağam... *(susur).*

Qazan. *(xeyli pərişan).* Gedin, gedin... Məni tək qoyun. Beyrək, sən qal. Şirşəmsəddin! Mənim tükqabımı yataq otağından gətir gəl mənə. *(Əl atıb ciblərini yoxlayır).* Yox, getmə. Cibimdədi. *(Cibindən bir tükqabı çıxarır).*

Beyrək. Ağam Qazan bu nə tükqabıdı elə? Əcəb qəşəngdi.

Qazan. Bu o tükqabıdı ki, Dədə Qorqud mənə vermişdi və demişdi. Bu mənim tükümdü, demişdi. Lazımın olanda yandır. Yandıran kimi yanında olacam. Bu, Dədəmizin tüküdü *(tükqabıdan dartıb bir uzun tük çıxarır).* Dədə olanda nolar? Biz bunu bir yoxlayaq. Yaman da uzunmuş… Görək gələcək?! *(Şirşəmsəddinə)* Şamdanı bəri uzat.

Şirşəmsəddin yanan şamdanı Qazana uzadır, Qazan tükü oda tutur. Tük yanan kimi işıqlar sönür. Hər yan qaranlıq.

Beyrək. Aman.

Şir. Tanrım...

Qazan. Ah...

III şəklin sonu

IV şəkil

İşıq yanır. Qazanın evi. Səhnədə Dədə Qorqud Qazan bəyin qarşısında bardaş qurub oturmuşdur. Şir və Beyrək ayaq üstdə.

Qazan. Dədə, sən yəni, gəldin?

Qorqud. Çağırdın, gəldim, Qazan. Bunlar kimdilər? *(Beyrəyə)* Sən Qanturalı deyilsən? *(Şirşəmsəddinə)* Dəli Domrul?

Qazan. Yox, dədə. Nə Dəli Domrul?! Bizim Şirdi. Dəyişib zavallı. Pişiyə oxşayır. Əvvəli belə deyildi. Qocalıb. Bu da Beyrəkdi. Əsirlikdən təzə qaçıb gəlib.

Qorqud. Hə... Gözlərim daha əvvəlki kimi görmür. Gəlin, igidlərim, siz də əyləşin. Necəsiniz? Sağmısınız, əsənmisiniz?

Qazan. Dədə, mən çox hikmətlər görmüş idim. Amma beləsini görməmiş idim. Sən yoxdan peyda oldun. Kəramətinə şükür, Dədə.

Şirşəmsəddin. *(hələ də özünə gəlməyib)* Dədə, Dədə...

Beyrək. Ömrün uzun olsun, Dədə... Ver əlini öpüm *(əlini çox-çox öpür).*

Qorqud. Şirşəmsəddin, özünə gəl *(başına sığal çəkir).* Beyrək dediyim, indi tanıdım səni. Əlimi öpməyindən tanıdım. *(Qazana)* Qazan, məni niyə çağırdın, bunu mən bilirəm. Amma elə et ki, sonunda peşiman olmayasan.

Qazan. Hardan bildin? Yaxşı, de görüm, Dədə, niyə çağırdım? Amma çətin biləsən. Çox gizli xəbərdi bu.

Qorqud. Oğuzda casus var.

Qazan. Allah, Allah… Casus var? Oğuzda? Hamı bilirmiş ki, bunu məndən başqa. Uf, ax...

Şirşəmsəddin. Ağam...

Qazan. Sən sus. Sus! Bəli, Dədəm Qorqud, bəli, düz bilirsən. Oğuzda casus var.

Qorqud. Bilmək dilərsən ki, kimdi bu casus? Məni də bunun üçün çağırmadınmı?

Qazan. Bəli, əziz Qorqud. Bilmək istərəm. Kimdi bu... casus? Kimdi bu xəbər aparıb gətirən... ya gətirənlər? Bunu mənim bilməm lazım.

Qorqud. Bax, Qazan, deməyinə, səndən gizlətməyib deyəcəyəm. Amma sonra peşiman olmayasan. Olarsansa, mənlik deyil.

Qazan. Olmanam, Dədə, olmanam. Söylə, Dədə. Ağzın üçün ölüm, Dədə. Dilin üçün ölüm, Dədə.

Şirşəmsəddin. Biz də. Ağzın üçün ölək, Dədə.

Beyrək. Dilin üçün ölək, Dədə. Bayburdda sən hər gecə yuxuma girirdin.

Ortalığa sükut çökür. Qorqud nəvazişlə Beyrəyin başını sığallayıb ayağa qalxır. Hamı intizar içində.

Qorqud. Siz Boğazca Fatmanı tanırsınız. Tanırsınız, tanırsınız. Hamınızın gəncliyinin Fatması idi o. İndi isə eşidin və agah olun. Casus, Boğazca Fatmanın yeganə oğlu var, odur.

Qazan. Eləmi?? Ax, Boğazca, Boğazca... Belə de. Eşitdin, Şirşəmsəddin? Tez gedirsiz Fatmanın evinə. Evi... dərənin ardında idi... deyəsən. Bir iti də var idi. Nəydi adı? Bəraqcuq. Bəraqcuq... Nə isə... O məlun casusun qollarını arxasından bağlayıb gətirirsiz salırsız həyətdəki dustaq quyusuna. Bircə an da ləngiməyin. Tez. Tez. Çıxın! Gedin! Tapın! Gətirin!

Şirşəmsəddin və Beyrək çıxırlar.

Qorqud. Amma yenə deyirəm, sonra peşman olmayasan.

Qazan. Olmanam. Sən arxayın ol, Dədə. Bəraqcuq... Ay səni, Bəraqcuq… Bilirsən nə var, Qorqud?! Sən daha dayanma, işin, gücün var, sən get istərsən... Biz bu işlə özümüz məşğul olarıq. Mən hələ gərək Xana hesabat hazırlayam... Bu casusa isə bir cəza veriləcək ki, təkcə bizimkilər yox, dünya-aləm ibrət götürəcək. Götürəcək!.. Oğuzun gələcəyi...

Qorqud. Aydındı. Sən səni bilirsən, Qazan. Amma... mən də dediyimi dedim. Ehtiyat... Bir daha ehtiyat...

Qazan. Ehtiyat, bir daha ehtiyat. Bəli, Qorqud, mən bunu unutmanam. Sağ ol, əsən ol, Dədə.

İşıq sönməkdə ikən yenə də son dəfə saatın üzərində ləngiyir. Saat hərəkətə gəlmək istərkən.

IV şəklin sonu

V şəkil

Boğazca Fatmanın evi. Fatma evdə tək. Ağlayıb özünü döyür.

Fatma. *(zarıya-zarıya).* Ax, balam, of, balam... Ağ əllərin arxasından bağladılar. At önünə saldılar, apardılar. Mənim əziz, mənim təmiz, mənim kimsəsiz balam... Kim dedi ki, bu casusdu?! Kim dedi ki, bu quduzdu? Kim dedi ki, dələduzdu?.. Mənim ac-susuz balam... Mənim uğursuz balam.... Tək balam, casus balam... Kim dedi ki, mənim balam, göyçək balam casusdu?! Casus balam, casus balam... Əfsus balam... Dodağı cadar balam, susuz balam... Sus, sus, sus, sus... Mənim balam – casus?! Mənim balam aydan arı, sudan duru – dələduz?! Ax, of... of, ax... Kimə gedim, kimə deyim dərdimi?! Mən Dədəni hardan bulum?! Mən Dədəni necə tapım?! Ah, Dədə, of, Dədə, yetiş, yetiş dadıma. Səndən başqa kimsəm yox. Müsibətim böyük, Dədə, dərdim çox... Dədə, sən məni böylə bir günümdə tək qoymazsan, mən bilirəm, Dədə...

İşıq sönür və yanır. Səhnədə Fatmanın yanında Dədə Qorqud peyda olur.

Qorqud. Fatma, sakin ol. Özünə gəl. Dərd varsa, dərmanı da vardır – düşün, unutma.

Fatma. Ağzın üçün ölüm, Dədə. Dilin üçün ölüm, Dədə. Dədə, sən ki məni eşidib gəldin, şükürlər olsun Tanrıya. Qədəmlərinə qurban olum. Bə sən hardan gəldin, Dədə? Qapıdanmı girdin, damdanmı düşdün?

Qorqud. Fatma bu sözlərin, sualların yeri deyil. Zamanımız azdır. Sənə yardıma gəldim. Hardan gəldim, nə dəxli var?! Məndən yardım istərmisən?

Fatma. Elə istərəm. Elə istərəm, Dədə. Oğlumu... bircə oğlumu Qazanın adamları at önünə salıb elə indi, indicə dustaq quyusuna salmağa apardılar. Dədə, Dədə, mənim... oğluma şər atdılar. Casussan dedilər. Ona casus deyən dillər quruyaydı. Ona casus deyənin...

Qorqud. Fatma arvad, həqiqəti bilmək dilərsənsə, sənin oğlun həqqən casusdur.

Fatma. Mənim oğlum dilsiz, ağızsız, bəxtsiz bir...

Qorqud. Casusdu, Fatma, casusdu. Amma onu xilas etməyin yolu vardır. Mən sənə bunu deyəcəyəm.

Fatma. Mənim oğlum dələduzdu, uğursuzdu, amma casus deyil, Dədəm Qorqud. Deyil.

Qorqud. Yaxşı, yaxşı, Fatma. Onları saxla. Diqqətlə nə dediyimi dinlə. Amma bəri başdan şərtləşək. Mən sənə oğlunu dustaqdan qurtarmağın yolunu göstərsəm, bu sirri sən heç bir kəsə açmazsan ki?

Fatma. Mənmi? Haşa! Haşa! Heç bir kəsə! Heç bir zaman. Mən sirr açana oxşadımmı heç, Dədə? Bu vaxta qədər mən kimin sirrini açdım?!

Qorqud. Açmadın. Bunu mən bilirəm. Onunçün də burdayam. Dinlə məni, Fatma arvad. Diqqət ilə dinlə məni. Durub gedəcəksən Qazanın evinə. Ona deyəcəksən ki...

Dədə Qorqud və Boğazca Fatma ikisi xosunlaşmağa başlayırlar. Səhnə qaranlıqlaşır.

V şəklin sonu

VI şəkil

Qazanın evi. Qazan və Şirşəmsəddin üzbəüz əyləşiblər. Qəfildən hayla-küylə Burla xatun gəlir.

Burla. *(hirsli).* Qazan, bu nə məsələdi? Bu da təzə çıxdı? Bu nə oyundu sən oynayırsan?

Qazan. *(mat-məəttəl).* Nə var, nə olub ki? Neyləmişəm mən yenə?

Burla. Daha bundan artıq neyləyəcəkdin? Boğazcanın oğlunu niyə tutmusan? Sən guya bilmirsən ki, əsl casus kimdi?

Qazan. Yoox, bilmirəm. Kimdi ki? Sən bilirsən… Şirşəmsəddin, bəlkə sən bilirsən, əsl casus kimdi?

Şir. Mən Boğazcanın oğlun bilirəm. Başqasını bilmirəm.

Qazan. Mən də onu bilirəm. Sən kimi bilirsən, söylərmisən?..

Burla. Kim bunu dedi, kim? Bu cansız, saqqalsız uşaqdan casusmu çıxar? Bilmək istərsən, casus kimdi. Casus Aruzdu.

Qazan. Xatun, Allahını sevərsən, qoy işimizlə məşğul olaq. Heç nədən tonqal çatma. Yenə Aruz, yenə Basat... Casus Boğazcanın oğludu. Qorqud özü belə dedi.

Burla. *(hirsi yatır).* Qorqudmu dedi bunu? Nə zaman dedi? Gəlmişdimi o buraya?

Qazan. Bəli, gəlmişdi. Dünən gəldi, dedi. Mən də Xana hesabat verəcəyəm. Oğuzda casus var idi. Oğuzdakı casus tutuqlandı. Vəssalam. Cəzası ağır olacaq, biləsən.

Burla. Qazan, ay Qazan... Qaazan...

Qazan. Nədi, yenə nə deyirsən?

Burla. Deyirəm, axı bəlkə casus heç bu yazığın oğlu deyil? Bəlkə həqqən casus Aruzdu? O sənin ayağının altını nə zamandır qazır. Sən ki bunu bilirsən. Qoy casus Aruz olsun.

Qazan. Xatun, yenə başlama. Casus bəyəm mənim kefimlə olur?..

Burla. Qaazan...

Qazan. Hə...

Burla. Biləsən. Casus Aruzu de. De… Deməsən, Xan babama mən vararam. Casus Aruzdur - özüm ona deyərəm.

Qazan. *(hirslə).* Sən... sən... İndi mən yerimdən durummu? Qara qamçımı əlimə alımmı? Can necə dadlı olur, sənə göstərimmi? Mərdi qova-qova namərd etmə, Xatun. Get, öz işlərinlə məşğul ol.

Burla. Bu, elə mənim işlərimdi. Bəri baxgil, Qazan bəy. Sən niyə dayın Aruzu belə qorursan, onu anlamıram. Sənin yerinə bəylərbəyi keçmək istir, onamı görə?

Qazan. Allah-Allah... Casusu Dədə Qorqud dedi, eşidirsən? Dədə Qorqud. İstərsən, onu çağır, onunla danış. Mən kiməm ki? (*Şirşəmsəddinə).* Sən çıx hələ görüm.

Şirşəmsəddin çıxır.

Burla. *(nazla).* Qaazan...

Qazan. *(sərt və ciddi).* Mən yoxam.

Burla. Qaazan... Nə zaman gəldi Qorqud? Mən görmədim.

Qazan. Mənə inanmırsan, odu get Şirşəmsədindən soruş.

Burla. Qazan, deyirəm, axı yazıqdı bu arvad. Anadı. Ana haqqı, Tanrı haqqı demədimi Qorqud özü?! Dedi. Amma haqqımızı verən oldumu bizim, olmadı. Olmadı mənim haqqımı verən!

Qazan. Yenə hərzə-hərzə danışırsan. Nooldu sənin haqqına?! Kim aldı haqqını sənin əlindən?! Axırıncı yağmaya dayım Aruzu çağırmağa da qoymadın...

Burla. Bəli, qoymadım. Niyə? Onu da ərz edim. Belə dayın Aruz sənin ala taxtına gözünü dikib. Dayın Aruz Xan babamın yanına gedib. Səndən o ki var Xan babama deyib. Təpəgözdən kim qurtardı Oğuzu – mənim oğlum Basat qurtardı, deyib. Bəs belə isə ver Bayındır xan mənim mükafatımı – belə deyib.

Qazan. Öyləmi… Xan baban nə deyib?

Burla. Nə deyəcək mənim Xan babam?! Qocalıb heydən düşüb mənim Xan babam. Baxarıq deyib. Nə istəyirsən sən mənim Xan babamdan?

Qazan. Mən? Mən yazıq? Mən heç zad istəmirəm. İstəmənəm də. Mən Salur Qazanam. Unutma. Səksən min ər gördümsə, səksənmədim...

Burla. Onları saxla. Onları yüz dəfə eşitmişik. Bu Aruzun, deyirəm, işi-gücü bəyləri sənə qarşı qaldırmaqdır, biləsən. Bu işdən hərb qoxusu gəlir, bəyim, hərb qoxusu.

Qazan. Gəlir? Nolar, gəlsin. Unutma. Mən... on min ər gördümsə, ona saydım... Hərbdisə, qoy olsun. Əsl düşmən elə öz içimizdən imiş. Oğuzun gələcəyi...

Burla. Hə... Bu da belə. Daha söhbətin bir mənası qalmadı.

Şirşəmsəddin gəlir.

Şirşəmsəddin. Ağam, Boğazca Fatma gəlib, səni istir. Deyir, təklikdə görüşməliyəm, bəyə sözüm var.

İşıqlar sönür.

VI şəklin sonu

VII şəkil

İşıqlar yanır.

Yenə haman məkan. Qazan, Burla xatun, Şirşəmsəddin.

Şirşəmsəddin. Boğazca Fatma gəlib, deyir, bəyi görməliyəm. Özü də vacib. Təklikdə sözüm var ona deyir.

Burla. *(lağla).* Necə-necə… Təklikdə sözü var imiş...

Qazan. Nə sözü var imiş? Özü də təklikdə... Yalvarmağa, sısqamağa gəlib yəqin. Vacib sözü varmış... Sonra, sonraya qalsın. Bəylərin müşavirəsindən sonra.

Burla. Deməli, sonraya qalsın, həmi? Mən burda bir an da dayanıb durmanam. Mən səhərdən sənə bunun oğlu üçün yalvarıb yaxarıram, mənə yox deyirsən, indi Boğazca Fatma ilə sonra, məndən sonra görüşmək istirsən?! Görüşün sonra. Salın yadınıza sevişdiyiniz günləri. Heç eyb eləməz. Vararam mən Xan babamın yanına. Açaram dərdimi mən Xan babama. Sən isə Qazan... verginən qara yellərə aramızda olanları. Heç eyb eləməz *(hirslə səhnədən gedir).*

Qazan. İlan vursun bu Fatmanı. İşə düşmədik oturduğumuz yerdə?! *(Şirşəmsəddinə).* Sən elə gərək bunun yanında deyəydin ki, Fatma gəlib?! Səndə bu qədərinə ağıl yoxdur. Nə donub qalmısan? Çağır gəlsin kafir qızını.

Burla. *(başını içəri, səhnəyə salır).* Deməli, çağır gəlsin, həmi? Nolar, sən Qazan ol, mən də Bayındır xanın qızı. Baxarıq *(yox olur).*

Qazan. Xatun, axırda məni qova-qova namərd edəcəksən. Get, Xatun, qoy Oğuzun müşkülü ilə məşğul olaq, canım. *(Şirşəmsəddinə)* Hamısı taxsırlar səndədi *(hirsini basır).* Bunun oğlu quyuda özünü necə aparır? Nə deyir, nə danışır?

Şirşəmsəddin. Heç nə demir, ağam, heç nə də danışmır. Nə su içir, nə əkmək yeyir. Lal-dinməz. Ancaq nəfəsidi ağır-ağır gedir, gəlir.

Qazan. Yaxşı bəs sən bilmədin ki, bu qarı arvadın bizdən istədiyi nədir? Bilmir ki, casusa, xainə aman yoxdur, ola bilməz?! Sözü varmış... Yox bir. Neynirəm mən sözü? Sözlə yara sağalar?! Nə deyəcəkmiş, bilmirsən?!

Şirşəmsəddin. Bilmirəm.

Qazan. Sən nəyi bilirsən ki?!

Şirşəmsəddin. Ağam, qovum getsin?

Qazan. Yox, qovma. Qoy hələ bir gəlsin görək sözü nəymiş?! *(lağla)* Xatunun sözü varmış...

Şirşəmsəddin çıxır. Fatma gəlir.

Fatma. Ağam Qazan. Rəhminə sığınmağa gəlmişəm. Gen ətəyinə bürünməyə gəlmişəm. Ölmüşəm, dirilməyə gəlmişəm. Ağam Qazan, mənə mədəd!.. *(Qazanın ayaqlarına yıxılır).*

Qazan. Qalx, ey xatun. Məqamın sirri var. Məqam rəhm məqamı deyil. Söylə, sən övladının bu gününü irəlicədən niyə görmədin? Oğuzun başına bəlalar gətirdi.

Fatma. İrəlicədən necə görə bilərdim?! İrəlini görməyi axı təkcə Qorqud bacarır...

Qazan. Hə... orası elədi...

Fatma. Mən nə biləydim, ağam? Mən necə görəydim, bəyim? Amma Qazan, ümid yerim sənsən. Deyil casus mənim oğlum. Mədəd eylə.

Qazan. Bilirsən, xatun?! Bu artıq sübut olunmuş bir məsələdir. Sənin oğlun Oğuza xain çıxıb. Casusluq edib. Cəzasını da alacaq. Bunu məndən

bütün Oğuz tələb edir. Mən kiməm ki?! Mən Oğuzun iradəsiylə oturub duran bir adamam. Mənlik deyil.

Fatma. Sən də babasan, Qazan.

Qazan. *(hirslə).* Bəli, mən də babayam. O bircə oğlum Uruz az qalmışdı sənin məlun oğlunun əməlinin cəzasını çəksin. Hələ öz əsirliyimi demirəm. Bəkili demirəm... Beyrəyi demirəm… Oğlun idi bizim hər hərəkətimizi Oğuzdan o tərəfə – Trabzona, Bayburda xəbər verən. Bəli, bəli. Oğlun idi. Qazan ova getdi, gəlin, məqamdı. Bəkil ayağın sındırdı, məqamdı... Oğlundu sənin.

Fatma. *(yavaş səslə).* Qazan, sənin oğlundu...

Qazan. Hələ Beyrəyin oğurlanıb əsirliyə aparılmasını demirəm, hələ... Nə dedin sən? Necə? Hələ Qanturalı... *(çaşıb susur).*

Fatma. Qazan, məni unutdunmu?!

Qazan. Sus. Yavaş ol.

Fatma. Sən ki məni bəyənmişdin, Qazan... Evimizin yerini unutdunmu? Ardı dərəcik idi. Həyətdəki itimizi unutdunmu? Adı Bəraqcuq idi. Adını ki sən qoymuşdun onun. O da bircə sənə hürməzdi. Unutdunmu? Unutmadın, demi, Qazan?!

Qazan. Yavaş, Tanrı eşqinə yavaş. Bu nə sözdü – unutdun, unutmadın? Unutmadım elə. Nə olacaqmış ki?! Sənin... oğlun axı casusdu, Fatma...

Fatma. Sənin oğlun, ağam Qazan.

Qazan. Sənin! Sənin oğlun casusdu, cəzasını da almalıdı. Sən nə danışdığındı hərzə-hərzə?!

Fatma. Dinlə məni, ağam Qazan. Bunu sənə uzun illər demədim, sirrimi sinəmdə gəzdirdim. Dədə demişdir: oğul kimdən olduğun ana bilər. Mənim oğlum səndəndi, Qazan. İndi özün bilərsən, istərsən, as, istərsən kəs, istərsən...

Qazan. Bu nə danışır?! Nə deyib, nə qoyursan sən?! Pah, pah, bir də pah... Daha dözə bilmirəm. Sənin adın... "qırx oynaşlı" Boğazca Fatma deyilmiydi? Nədən oğul məndən olsun? Nədən başqa bir Oğuz bəyindən olmasın? Söylərmisən?

Fatma. Oğul kimdən olduğun ana bilər. Səndəndi oğul, ağam Qazan. Bizim qara başımız qurban olsun sənə.

Qazan. Yavaş ol. Yavaş. Sən... sayıqlayırsan. Mənim bir oğlum da varmış və mənim bundan xəbərim yoxmuş. Bəlkə səhv edirsən? Bə niyə bu çağacan mənə bu barədə neç nə deməmisən?

Fatma. Bir mənası varmı idi?! Basıb kəsən, şücaətli biri deyildi ki, yanına salıb vuruşlara aparasan. Sakit, fağır, dinməz-danışmaz bir oğul idi. Səndən mənə əmanət idi. Bax ona, Qazan, diqqətlə bax. Oğlun Uruzu görəcəksən onun üzündə, gözündə.

Qazan. Sus. Sən bilirsən, nə danışırsan? Sən mənim ürəyimə xəncər saplayırsan, Fatma. Sən mənim...

Fatma. Unutma o aylı gecələri, Qazan, unutma.

Qazan. Yenə başladı. Mən heç nə unutmamışam. Elə salmısan: unutma, unutma... Unutmağa onsuz da heç bir şey, heç bir adam yoxdu. Sən bir kimsəyə dedinmi indi mənə dediklərini?

Fatma. Yox, ağam, heç kimə demədim. Heç kim bilməz bunları.

Qazan. Ya bəs Burla xatun bilərsə?!

Fatma. Bilməz bəyim, bilməz ağam. Mədəd eylə, Qazan doğmaca oğluna qıymagil.

Qazan. Sus. Sus deyirəm sənə. Bir insana danışmayacaqsan bunu. Mənim günahım nəydi, qadir Tanrı?! Nəydi mənim günahım?! Fatma, indi get. Get deyirəm sənə. Sabah. Sabah gələrsən. Sabah gəl. Amma bax. Bir də deyirəm. Bir adam bunu bilsə...

Fatma. Göydə Allah, yerdə sən Qazan. Mədəd eylə, ağam Qazan...

Fatma səhnədən çıxır.

Qazan. Qadir Tanrı. Mən indi neyləyim?! Elə bil, ürəyimə dammışdı ki, bunun bir zibili çıxacaq. Qorqud yazıq dedi də. Dedi, sonradan peşman olacaqsan, dedi. Mən indi neyləyim, uca Tanrı?! Neyləyim?!

VII şəklin sonu

VIII şəkil

Gecədir. Salur Qazanın həyəti. Həyətin bir tərəfində böyük bir quyu ağzı. Şirşəmsəddin var-gəl edir. Fatma gəlir.

Şir. Kimsən? Dayan. Dur.

Fatma. Mənim igid Şir. Mən biçarə, mən zavallı.

Şir. Fatma qarı, sənmisən?

Fatma. Qarımı? Olsun. Bəli mənəm, Şirim mənim.

Şir. Şirim mənim?.. Bilirmisən, bəy indi uyumuş olar. Get, sabah gələrsən.

Fatma quyunun ağzına tərəf getmək istəyir.

Şir. Dur. Ora olmaz. Nə edirsən?

Fatma. *(kənardan).* Balam, balam, vay balam... Doqquz ay dar qarnımda gəzdirdiyim balam mənim...

Şir. Toxda bir. Get evinə. Sabah gələrsən. Bəyin ürəyi yumşaqdır. Hələ bir gördün, sənə oğlunla görüşmək üçün izn də verər.

Fatma. Şirim mənim. Sən səni bilərsən, sənin məndən xəbərin yox. Amma... dayan, sənin heç səndən də xəbərin yox.

Şir. Nə dediyindi sənin?! Mən bir şey anlamadım.

Fatma. Yadındamı, şümal kimi oğlan idin. Qarğı kimi boyun vardı. Daş kimi, qaya kimi qolların vardı. Qara-qara gecələrə bənzər qaynar gözlərin vardı. Zərif-zərif barmaqların, qıs-qıvraq vücudun vardı. Sən gənc idin, Şirim mənim. O aylı gecə yadındamı?

Şir. *(elə bil, yuxudadı).* İtinizin adı Bəraqcuq deyilmiydi? O aylı gecə evinizin ardındakı dərəni keçib həyətinizin çəpərini aşan yerdə bir hürmək başladı ki... Sən gözəl idin, Fatma...

Fatma. Səni istədiyindən elə hürdü. Ancaq sənə elə hürərdi. Getdi o günlər. Birdəfəlik getdi. İndi... Mənə imdad səndən, ancaq səndən gələr. Ancaq sən...

Şir. *(özünə gəlir).* Nə imdad, qarı arvad? Sən nə danışdığındı?

Fatma. Getdimi birdəfəlik o günlər?.. Getdi. Amma nişanəsi qaldı. Məni o aylı gecə yüklü qoydun sən. Məndə sənin əmanətin qaldı. Heç kimə, heç vaxt bu sirri açmadım mən.

Şir. Sən hansı sirdən danışırsan, qarı arvad? Sənin əqlin çaşıbdır, qayət.

Fatma: Əqlim çaşmayıbdır, Şirim mənim. O sirdən danışıram ki, bax, indi burda dustaq olan mənim oğlum...

Şir. Mənim... sənin oğlun...

Fatma. Bax, bax, dil çaşar, doğrusun söylər. Bəli, Şirim mənim. Sənin oğlun. Mənim oğlum sənin oğlundur. O, haman aylı gecənin əmanətidir. Balam mənim, balam mənim... Sən balamıza qıymazsan, igidim mənim. Sən... sən atasan.

Şir. Nə təhər, nə təhər? Dur bir, dayan. Gen dünyanı sən başıma dar elədin. Mənim oğlum bu casusdu? Bu dünyada sən məni xar elədin. Mənim oğlum bu casusdu? Alca qanın qılıncımla töküm derdim. İndi mənim oğlumdu bu? Sinəsindən ürəyini çəkim, söküm derdim. İndi mənim oğlumdu bu? Fatma, Fatma, bu xəbəri verməyəydin mənə gərək. Fatma, Fatma, ürəyimə qara dağlar vurmayaydın mənə gərək. Qadir Tanrı, özün mənə bir yol göstər. Fatma, Fatma... dur ayağa. Burda belə qalma. Get evinə. Get, mənə zaman ver. Bir düşünüm, bir daşınım... Mənim oğlum imiş. Ürəyimə dammışdı. Ürəyimə dammışdı. Bilirdim ki, bunun bir zırıltısı çıxacaq.

Fatma. Qıyma ona, igidim, aslanım... Balamıza qıyma. Sən atasan, unutma. İmdad...

Fatma son sözlərini deyə-deyə səhnədən çıxır.

Şir. Gördüm axı. Qollarını arxasından buranda mənə məhzun bir baxış atdı. Bahar vaxtı çöhrəsinə yapa-yapa qarlar yağmışdı elə bil. Küskün idi. Oğlum. Övladım... Mən indi neyləyim, Qadir Tanrı? Neyləyim? Söylərmisən? Neyləyim?

Danışa-danışa Şir quyunun ağzına gəlir, yerə oturur.

VIII şəklin sonu

IX şəkil

Fatma bir evin qarşısında.

Fatma. Düzmü gəldim?! Burasıdımı Bəkilin evi? *(çağırır)* Bəkil, Bəkil! Evdəmisən, igid Bəkil? Səni deyib gəlmişəm. Bəyim Bəkil. Qapıya çıx.

Bəkilin evindən bir qaraltı çıxır.

İgid Bəkil, sənmisən? Bəli, sənsən. Tanıdınmı, Fatmayam mən. Bədbəxt Fatma. Bilirmisən, nələr oldu?! Qazan bəydən buyruq oldu. Mən biçarənin yeganə oğlunu tutub dustaq etdilər. Ala canından ayırmaq istərlər balamı. Casus damğasını vururlar ona. Mənim tək balam fağır, kimsəsiz, ata olan yerdə yetim baladı. Duyursanmı məni, Bəkil? Xatırladınmı? Evimizin ardı dərəcik idi. İtimizin adı Bəraqcuq idi. O ulduzlu gecələri, sənlə baş-başa qaldığımız o gecələri yada salırsanmı? Biz gənc idik, Bəkil.

Bəkilin qaraltısı tərpənir.

Bəli, mənəm. Sənin Fatmanam. O zamandan məndə əmanətin qalmışdı. İndi gətirmək istədim, alınmadı. Bu, mənim sirrim idi. Onu təkcə sənə açıram – balamın atasına.

Qaraltı yerə çökür.

Noldu sənə, igid Bəkil? Duydunmu məni? Qoyma oğlumuza qıyalar. Bəylər məşvərət edəcəklər. Söylə Qazan bəyə, istərsən, söylə Bayındır xana. Yalvarırsan yalvar, igidliyinə bağışlasınlar atalıq eləmədiyin övladını. Qoyma balamıza qıyalar... Yeganə ümidim sənsən, igid Bəkilim... Bəkilim hey...

Qaraltı çökdüyü yerdən sərt bir halda qalxır. O indi döyüşə getməyə hazır bir Oğuz igididir. İşıq Bəkilin evinin üstündə zəifləyir...

IX şəklin sonu

X şəkil

İşıq bu dəfə Aruzun evinin üstündə. Fatma evin qabağında.

Fatma. Uf. Bu da Aruzun evi olsun gərək *(çağırır).* Aruz, igid Aruz, səsimi eşit, ünümü dinlə *(sükut).* Sənə pənah gətirmişəm *(sükut).* Gen ətəyinə sığınmağa gəlmişəm *(sükut).* Fatmayam mən. Başıbəlalı, biçarə Fatma. Bir zamanlar "gözəlim" deyib oxşadığın, öpüb-öpüb dişlədiyin, doymadığın Boğazca Fatma. Aruz bəyim, bilirmisən, nələr oldu? Qazan bəydən buyruq oldu. Dedi, mən hər şeyi hamıdan yaxşı bilirəm. Hamıdan böyük mənəm. Heç demədi, Təpəgöz gəlib Oğuzun başının üstünü alanda o özü hardaydı. Basat olmasa idi, hamımız zəbun olacaqdıq, bəyim. Bunu bütün Oğuz usanmadan söylir.

Aruzun evindən bir qaraltı çıxır.

Aruz Qoca, sənmisən, bəyim? Sənsən, bəli. Qazandan buyruq oldu. Tək balamı dustaq edib ağ əllərin arxasından bağladılar. Adını casus qoydular.

Qazan nə səni, nə də o biri bəyləri saya saldı. Bilirmisən, bu yaxında nələr oldu?! Evində yağma oldu. Nə səni, nə də o biri Dış Oğuz bəylərini çağırdı. Qazan səndən hayıf almaq istir, bəyim. Bilirmisən, o hayıfın adı nədir?! Bilmirsən. Mənim oğlum həm sənin oğlundu. O aylı-ulduzlu gecələrimizin əmanətidi.

Qaraltı yerə çökür.

Əmanətin sənin uzun-uzun illərin sirri idi. Əmanətinin varlığını səndən də gizləmişdim, bağışla məni, bağışlaya bilsən. Əmanətini qoruya bilmədim. Bağışla məni, bağışlaya bilsən. Barı, sən qoru əmanətini. Mənim oğlum, sənin oğlun casus deyil, Aruz. Qoyma oğlumuza qıyalar. Qoyma Qazan oğlumuza cəza versin. İgid Aruz. Alp Aruz.

Qaraltı ayağa qalxır. Cəsur bir pozaya durur. Həm Bəkilin evinin üstündəki zəif işıq, həm də Aruzun evinin üstündəki gur işıq sönür.

X şəklin sonu

XI şəkil

Səhnənin bir tərəfində Fatmanın evi. Fatma və Qorqud. Fatma halsız, uzanıb qalıb.

Qorqud. Fatma, sağmısan, əsənmisən? Səsin gəlsin. Nooldu buna, uca Tanrım?! Bayıldımı?!

Fatma gözünü açır, ora-bura baxır.

Fatma. Dədə, mən hardayam?!

Qorqud. Öz evindəsən, Fatma.

Fatma. Dədə, mən uyquyamı getmişdim?

Qorqud. Yox, Fatma. Sən uyquya getməmişdin. Sən Gürcüstan ağzına, Bəkilin evinə, Dış Oğuza Aruzun evinə getmişdin. Getdin də, gəldin də. Bilәsən, oğluna zaval yoxdu.

Fatma. Ağzın üçün ölüm, Dədə. Dilin üçün ölüm, Dədə. Bir də söylə.

Qorqud. Oğluna qıymayacaqlar. Bəylər bir araya gəlib məşvərət edəcək. Amma heç biri ölüm hökmünü dilinə gətirməyəcək.

Dədə Qorqud danışdıqca Qazan bəy, Şirşəmsəddin, Aruz Qoca, Bəkil səhnənin qarşı tərəfində bir araya gəlirlər. Ayaq üstdə bir-birinin qarşısında dururlar. Bəkillə Aruz Qoca yenə öz qaraltılarının pozasını alırlar.

Qorqud. Bir bax onlara. Bir-birinin üzünə də baxa bilmirlər. Sən öz işini gördün, Fatma. Bax hələ. "Casus" deyib bağıran Qazana baxarmısan?..

Qazan. İndi iş belədi, bəylər. Bu casus deyilən oğlan bir cavan oğlandı. Gələcəyi var. Oğuza da ki, bu gün cavanlar lazım. Oğuzun gələcəyi naminə...

Aruz. Hələ bir dayan. Onları saxla. Bir dəqiqə. Bir dəqiqə. Casus olduğun kim dedi bunun, biz də bilək.

Şir. *(tələsik).* Beyrək dedi. Xəbər Beyrəkdən çıxdı. On altı ilin əsirliyindən bu xəbəri gətirdi.

Qazan. Şir! Sən bir susarmısan?!

Aruz. Aydındı. Hər şey mənə aydın oldu. On altı il əsirlikdə olasan, sağ-salamat çıxıb gələsən, burnun da qanamaya... Üstəlik bir başqasına cəza istəyəsən.

Bəkil. Beyrək igid ərdi. Amma o da dediklərini sübut etməlidi. Biz düşünülməmiş addım ata bilmənik. Varmı sübutu?

Aruz. Bax, Bəkil, deyirəm, dinməyim, olmur. Sən Beyrəyin igidliyini nədə gördün, bəy? Əsir getməyindəmi gördün, əsirlikdə özünə isti bir bucaq düzəldib xoş keçirdiyi günündəmi gördün? Oğuza verdiyi xeyirdəmi gördün? Nədə gördün bunun igidliyini? Təpəgöz Oğuzun başının üstünü qara tayfun kimi alanda hardaydı Beyrək dediyiniz? Bayburd bəyinin məhbub qızının incə ağuşunda?! Ağzımı mənim gərək açmaya idiniz...

Qazan. Başlandı. Aruz Qoca! Söhbət Basatdan, Beyrəkdən getmir. Söhbət bu... cavandan gedir. Sən də başlamısan yenə Təpəgöz belə gəldi, Basat belə getdi. Başımıza əcəb qaxınc oldu bu Təpəgöz. Bilirik bunları, bilirik. Mətləbə gəl.

Aruz. Taxsırı sübutsuzdur.

Bəkil. Taxsırı sübutsuzdur.

Şir. Sübutsuzdur.

Qazan. Bunu siz dediniz. Noolar, mən bəylərbəyi olsam da, madam ki, siz hamınız belə deyirsiniz, mənə də o qalır ki, qoşulum sizə. Olsun. Mənə görə də taxsırı sübutsuzdur. Noolar?! Biz casusu başqa yerdə axtararıq, Aruz.

Aruz. Axtar, axtar. Tapanda bizə də deyərsən.

Bəylər havaya qarışıb yox olurlar. Yenə işıq Fatmanın evində Fatma ilə Qorqudun üzərində.

Qorqud. Gördünmü, xatun? Qadir Tanrı tək balanı sənə çox görmədi.

Fatma. Şükürlər olsun, uca Tanrım. Şükür sənin birliyinə. Dədə, bəs indi mənim balam ömrü boyu həbsdəmi çürüyəcək? Bu işi ki, sən başladın, məni yarı yolda buraxma.

Qorqud. Qorxma, Fatma qarı. Bax, diqqətlə bax. Nə görürsən? Şövkətli Oğuz bəylərini görürmüsən?

İşıq səhnənin o biri başında quyunun yanında Qazan ilə Şirşəmsəddinin üzərində.

Qazan. Şir. Bu gecə bir uzun, ağır gecədi. Sən də çox yoruldun, igidim. Get evinə. Bir az dinlən.

Şir. Aman, ağam. Heç olarmı?! Dustaqda gözüm olması lazım. Yox, ağam, sən get dinlən. Mənim uyqum yoxdur. Gecə dedin, bu, bir məhzun gecədi. Mən burada qalacağam.

Qazan. Tərs oğlu tərs. Bu nə zaman düzələcək, Qadir Tanrı?!

Qazan səhnədən çıxır. Aruz gəlir.

Aruz. Şir, necə varsan?

Şir. Sağ ol, bəyim. Yaxşıyam. Sən niyə Dış Oğuza getmədin?

Aruz. Bilirmisən, Şir, ürəyim sıxıldı. Dedim gecə yola çıxmayım. Gecənin xeyrindən, səhərin şəri yaxşıdır.

Şir. Bəli, ağam. Doğru buyurursan. Amma yorğun dəydin gözümə. Get bir yer bul, dinlən.

Aruz. Yox, sən özün yorğun görükürsən. Sən get, dinlən. Get evinə. Uyu bir az. Mən buralarda dolaşacam.

Şir. Yoox. Mən gedə bilmənəm. Bəs bu dustağı kimə tapşırım gedim?! Mənim burda qalmam lazım. Sən get, bəyim.

Aruz. Ay Allahın bəndəsi, yeri get evinə, eşiyinə. Sənin bu əfəl dustağına nə olasıymış?! Quş quşluğuyla buralardan uçub keçə bilməz.

Şir. *(quyu ağzına yaxınlaşır, sanki onu gözəgörünməz düşməndən qorumaq istəyir).* Yox! Mən qalacağam burda. Sən getsən məsləhətdi, Aruz Qoca. Sən get!

Aruz. Yaxşı, noolar?! Mən gedərəm. Qanmaz oğlu qanmaz.

Şir quyunun ağzında yerə uzanır. Aruz gedir, Bəkil gizlənə-gizlənə gəlir.

Bəkil. *(yavaş səslə).* Bu kim ola uzanıb burda uyquya qalıb?!

Şir. Mənəm. Səsini qısma.

Bəkil. Şir?

Şir. Bəli. Mənəm. Kim olacaqdı ki?!

Bəkil. Gecənin bu vaxtında burda nə edirsən? Evin-eşiyin yoxmu sənin?

Şir. Var. Nə üçün olmasın?! Ağam Qazanın dövlətindən hər şeyim var. Sən söylə hələ. Niyə döndün?

Bəkil. Nə bilim? Yol uzun. Gecə yola çıxmaq istəmədim. Dustaq burdadı?

Şir. Burdadı. Burdadı. Sənə nə? Çıx get burdan bir yer bul, sən də dinlən.

Bəkil. Bəri bax. Onsuz da mənim bir gedəsi yerim yox. Mən qalım buraların keşiyin çəkim, sən get evinə dinlən.

Şir. Sən nə danışırsan?! Heç elə iş olar?! Sən qonaqsan. Hələ Qazan bəy nə deyər?! Bayaq mənə bərk-bərk tapşırdı ki, buralardan heç hara getmə. Mən buraları heç kimə etibar edə bilmənəm. Durma daha. Get. Get bir yer tap, dinlən *(yalandan uzandığı yerdə əsnəyir).*

Bəkil. Sağ ol səni. *(Yavaşdan)* Zalım oğlu, zalım.

Bəkil gedir. Bir az sonra Qazanın, Aruzun, Bəkilin qaraltıları bir-birindən gizlənə-gizlənə gəlir.

Şir. Bunlar kim ola, Tanrım?! Kafirlərdi, əlbət. Bizim casusa cəza verməyə gəlməsinlər?! "Öldürək, sirr faş olmasın!" *(qışqırır).* Aha, məlun kafir! Kimsiniz siz? Dayan, qaçma. Qaçma dedim, itim kafir.

Qaraltılar yox olur. Qazan gəlir.

Qazan. Şir. Bu nə hay-haraydı? Kim var buralarda?

Şir *(Qazanı tanımır).* Sən hələ kimsən?

Qazan. Mənəm, mənəm. Sakin ol.

Şir. Hə... sənsən, ağam.

Qazan. *(quyuya tərəf boylanır).* Dustaq harda, yerindəmi? Səs-səmiri gəlmir bunun.

Şir. Yerində. Yerində. Qaçdılar məlunlar. Kafirlər idi. Bunu öldürməyə gəlmişdilər qayət. "Öldürək, sirrimiz faş olmasın!".

Qazan. Öyləmi?

Şir. Öylə. Öylə. Qovdum getdilər. Sən arxayın ol, ağam. Buralar mənə əmanət. Get evinə, dinlən.

Qazan. Ax, ax, Şir...

Qazan gedir.

XI şəklin sonu

XII şəkil

Qazanın divanxanası. Qazan və Burla xatun. Burla xatun oturub. Qazan gəzişir.

Qazan *(öz-özünə).* Bu kafir oğlu kafir Şir olmasaydı, oğlanı açıb buraxacaqdım...

Burla. Şirə nooldu?

Qazan. Heç nə olmadı. Neçə gündür uyumur. Deyirəm, bəlkə evinə getsin bu gecə?!

Burla. Nə təhər getsin?! Bəs buralara kim baxacaq? Hələ dustaq?.. Mən çox narahatam. Sənin özün neçə dəfə durub dışarı çıxmadınmı?! Səsküy vardı...

Qazan. Heç. Elə bir şey deyildi. Bəylər məşvərətə gəlmişdilər.

Burla. Eşitdim. Aruz Qoca da gəlmişdimi? Qazan gəlmişdi. Burla. Yağmaya çağırmadıq deyin, şikayət edirdi?! Yoxsa yenə Basatın şücaətindən danışırdı?!

Qazan. Səninki də elə Basat olsun, Aruz olsun. Dustaqla bağlı məşvərət oldu, Xatun. Aruz idi, Bəkil idi, Şir idi, mən idim...

Burla. Məşvərət etdiniz? Bəs mənə niyə demədin? Nə qərar çıxdı bəylərdən?

Qazan. Heç inanmazsan, xatun. Hamısı bir səslə dedi ki, bu casusun casusluğu sübutsuzdur. Mat-məəttəl qaldım.

Burla. Sübutsuzdur??? Necə yəni? Bəs Beyrək dedikləri? Bəs Dədə Qorqud?

Qazan. Mən də elə onu deyirəm. Amma qaldım təklikdə. Sübutsuz imiş.

Burla. Deməli, Aruz Qoca yenə sizi istədiyi kimi fırlatdı çeçələ barmağına.

Qazan. Xatun, bilirsən nə var?! Bəylərin sözü sözdü. Mən bir şey edə bilmənəm.

Burla. Bəs Beyrəyin sözü söz deyil? Bəs Dədənin sözü söz deyil. Casusluğunu ki, Dədə dedi bunun. Cəzasını almalıdı, bəyim.

Qazan. Mən nə edə billəm ki?!

Burla. Cəzasını almalıdı. Almazsa...

Qazan. Almazsa...

Burla. Mən bilərəm neylərəm. Xan babamın yanına mən vararam.

Qazan. Yenə başlandı.

Burla. Sən inanma, görürsən. Xan babamın önündə qara başım əyərəm, deyərəm: Xan baba, Aruz Qoca casuslara himayədarlıq edir. Oğuzun düşmənləriylə onun ilişkisi var. Deyərəm, elə bilirsən, demərəm?!

Qazan. Canım mənim, nə casus, nə ilişki? Sənin də hər künc-bucaqda casus görünür gözünə. Ha-ha-ha... Bəsdi! Qoy yaşayaq...

Burla. Görükür! Çünki qorxubdu mənim gözüm. Çünki bircə balamı itirəcəkdim az qala. Çünki səni qeyb edəcəkdim əbədi.

Qazan. Gəl, canım mənim. Gəl, səni bağrıma basım...

Burla xatun Qazana yaxınlaşır, onlar qucaqlaşırlar.

Qazan. *(Kənara).* Bu nə həyatdı mən yaşayıram, qadir Tanrı?! A bəylər, belə də zülm olar?!

Burla. Aruz düşməndi, bəyim. Heç düşməndən əskik deyil.

Qazan. Yaxşı, yaxşı... Sakin ol. Özünə gəl. Hər kəs layiq olduğu cəzanı alacaq.

Şir gəlir.

Şir. Ağam! Fatma xatun yenə gəlib. Deyir, Qazana sözüm var. Bəylər də burdadılar. İstərsənsə...

Qazan. Aydın oldu. Əlbəttə, siz hamınız söz qoyubsuz ki, mənim axırıma çıxasız. Aydındı. Bəylər gözləsin, Fatma gəlsin. Yox, Fatma gözləsin, bəylər gəlsin. Dayan görüm *(Burla xatuna).* Xatunum mənim. Sən get gir öz odana. Bu işlərə baş qoşmaq sənlik deyil. Qanını qaraltma, deyirəm.

Burla. Belə de. Mənim işim deyilmiş... Bəs nəymiş mənim işim?! Elə mənim işimdi bu, qanım-zadım da qaralmır. Şirşəmsəddin, Beyrəyi də çağır gəlsin.

Qazan. Niyə? Hələ Beyrək nə üçün gəlsin?

Burla. Gəlsin. Mənim ondan soracaqlarım var. Qoy Bayburdda eşitdiklərini mənə də danışsın.

Qazan. Xatunum mənim. İşin-gücün yoxmudur sənin?! Get, öz işlərinlə məşğul ol. Mənim səbrimi tükətmə...

Burla xatun qədd tutub durur.

Qazan. Yaxşı, çağır Beyrək də gəlsin.

Burla. Eşitdin, Şir? Hələ Beyrəkdən əvvəl Boğazca Fatmanı gətir bura. Mənim yanımda danış onunla, bəyim. Qoy o da sənin zərb-dəstini görsün. Oğuzun qanun-qadağasının gücünü bilsin.

Şir. Ağam Qazan...

Qazan. Yaxşı da. Məndən daha heç nə sorma. Mən kiməm ki?! Çağır gəlsin Fatmanı, çağır.

Şir gedir.

Qazan. *(Burlaya).* Xatun, bəlkə sən... Aydındı. Nolar, qal. Əlbət, bir zaman gələr, sən də mənim zərb-dəstimi görərsən.

Burla. Hə, hə... Göstərərsən, görərik.

Fatma gəlir.

Fatma. Ağam Qazan, səni deyib gəlmişəm. Burla xatun?! Qara başım qurban olsun, sənə. Səni də deyib gəlmişəm. Qazan, mədəd!..

Qazan. Bilirmisən...

Burla. *(Qazanın sözünü kəsir)* Bilirmisən, Fatma?! Sənin oğlun Oğuzun casusluğun elədi. Ağır bir günahdı bu, çooox ağır. Cəzası da ağırdır. Sənin dərdin böyükdü. Aruz Qoca nə dedi sənə? Bilirəm, bilirəm, görüşmüsən onunla... Dedimi, sənə ki, oğlun casusluğu boynuna götürsə, sənə ənam verəcək?! Dedi, demədi?

Fatma. Burla xatun. Aruz Qoca mənə heç bir söz demədi. Anam mənim, qız qardaşım, bacım mənim Burla xatun! Bu sözləri ki sən dedin, bunlar hamısı sənin xam xəyalındı. Deyil mənim oğlum casus. Kimdi casus – onu da bilmirəm. O Aruz, o siz – özünüz bilərsiniz. Oğlumu qaytarın mənə. Çıxım buralardan ilim-ilim itim gedim. Elə gedim, desinlər ki, bunun kimi gedən olmadı. Bəxtimizə qoy bizim qürbət çıxsın. Buralar bizə vətən olmadı.

Burla. Necə ola bilər bu?! Sənin oğlun suç işləmiş. Cəzasını almalıdı. Xan babam nə deyər?! Qorqud nə deyər?! Qalın Oğuz nə deyər?! Qazan, sən söylə.

Fatma. Qazan, bəyim, sən söylə. Sənin sözün qoy qanun olsun. Mən səni deyib gəlmişəm.

Burla. Sözlü adama oxşayırsan, Fatma.

Fatma. Mən?

Burla. Sən, sən!..

Qazan. Qoyun biz də bir kəlmə söz deyək. Elə ikiniz də gözünüzü yumub ağzınızı, maşallah, açmısınız... *(Birnəfəsə).* Belədi məsələ. Bəylərlə məşvərət etdik. Bəylər sənin oğlunun günahını sübutsuz saydılar. İş bu, məsələ belədi. Oğlun azad olacaq. Uff.

Fatma. Ağzın üçün ölüm, bəyim, dilin üçün ölüm, bəyim.

Qazan. Get, Fatma qarı, get. Şirşəmsəddin! Bunun... oğlunu açın buraxın, getsin. Get... Fatma daha durma, get.

Fatma. Qadir Tanrı, sənə şükürlər olsun.

Şir *(kənara, sevincək).* Şükür olsun sənə, Uca Tanrım.

Fatma və Şir gedirlər.

Qazan *(Burlaya).* Sən niyə donub qalmısan?

Burla. *(birdən ayılır).* Qazan, bu arvadla sənin aranda yenə nəsə var.

Qazan. Bununla?? Ha-ha-ha... Bununla? Tanrı səni güldürsün. Get xatun, get odana. Erkək işlərinə qarışma. Şir!

Şir gəlir.

Qazan. Bəyləri çağır gəlsin.

Burla. Qaaazan... Xan babama...

Qazan. Xatun, daha bəsdi. Dədəm Qorquda and olsun ki, bəsdi! Mən də insanam, dəmirdən deyiləm. Gedirsən get var xan babana, var, görək nə edəssən?! Xan qızı al, axırı da bu. Allah, mən nə günah eləmişəm?! Sən özün mənə kömək ol *(Burlaya).* Get odana, dedim. Getmirsən ki? Özün bilərsən. Onda... mən gedərəm. Mənə Dədəni tapın! Dədə, Dədə hardasan?

Qazan və Şir çıxırlar.

Burla. Yaxşı, mən nə dedim ki?! Bəy niyə belə sinirləndi? Fatma buna nə vəd verib, görəsən? Qorqud niyə ortada yoxdur?! Necə oldu ki, Aruz da Qazan da eyni şeyə səs verdilər? Şir bəs casusun azad olmağına niyə belə sevindi? Beyrək! Hələ bu Beyrək hardadı???

Burla çıxır. İşıq sönür.

XII Şəklin sonu

XIII Şəkil

Qazanın həyəti. Dustaq quyusunun ağzı.
Qazan gəlir.

Qazan. *(yavaş səslə).* Şir... Hardasan?

Şir. *(quyunun arxasından çıxır).* Burdayam, ağam Qazan.

Qazan. Qışqırma. Bəylərin qərarını yerinə yetir. Burax bu dustağı. Bəylər gəlsin. Onlar da görsünlər.

Aruz, Bəkil gəlirlər.

Qazan. Siz dediniz, bəylər, bunun taxsırı yoxdu.

Bəylər. Dedik.

Qazan. O zaman aç bu quyunun ağzını, Şir.

Şir ağır-ağır quyunun ağzını fırladıb açır. Bəylər üfunətdən burunlarını tutur.

Qazan. Fatma hardadı? O niyə yoxdur?

Fatma. *(o da quyunun arxasından çıxır).* Burdayam, Qazan. Burdayam *(quyunun başına yıxılır).* Of, balam, ax, balam...

Aruz. Arzuna çatdın, daha buralarda qalma. Köçünü sür, get.

Bəkil. Get. Özünə bir təzə ocaq qur.

Qazan. Dədəni tapmadınız? O da gəlib görsün. Peşman olacaqsız deyirdi. Mənim tükqabımı gətirin *(ciblərini axtarır).*

Dədə gəlir. Hamı ehtiramla onu salamlayır.

Qorqud. Tükqabı lazım deyil, Qazan. Sən hər dəfə tükümü elə yandırırsan ki, başımdan alov çıxır.

Qazan. Qorqud, biz oğlanı açıb buraxırıq. Sən nə dersən?

Qorqud. Siz nə dersiniz, mən də onu derəm. Çıxıb getsin, ilim-ilim itsin buralardan. Siz belə demirsinizmi?

Aruz. Qorqud doğru deyir. İtib getsin.

Bəkil. Getsin.

Şir. Getsin.

Qazan. Nə dersən, Fatma qarı?

Fatma. Verin mənə oğlancığımı. Verin, qüdrətli, şövkətli bəylər. Biz buralardan çıxıb gedərik. Buralar bizə vətən olmadı.

Qazan. Şir, di çıxart oğlanı.

Şir oğlanı quyunun ağzından çıxarır, oğlan anasına tərəf gedir, onlar qucaqlaşırlar. Bəylər hər biri çalışır gəlib oğlanın üzünə baxsın. Fatma imkan vermir. Oğlunun başını sinəsinə sıxıb gizlədir. Ağır musiqi səsləri altında ana və bala səhnədən çıxırlar. Musiqi kəsilir.

Qazan. Dədə, bax, Bayındır xan sənin boynunadır. Unutma.

Qorqud. Unutmaram, Qazan.

Aruz. Buralar soyuq oldu, üşüdüm. Qış havasıdı elə bil.

Bəkil. Bəylər, bir biz tərəflərə də gəlin, noolar? Ova çıxaq. Gürcüstan ağzı dağlarda gözəl... ceyran-cüyür olur.

Aruz. Mən sənə iki ceyran göndərmişdim, aldınmı? Sağ qolu qulağına oxla pərçim edilmişdi.

Bəkil. Aldım. Sağ ol, bəyim.

Aruz. *(Qazana).* Hər rastıma keçdiyində Bəkilin nişanəsidir deyib, ona göndərirəm. Hünərlidi Bəkil.

Qazan. Hünərlidi dersən... Öyləmi? Amma hünər, atınmıdır, Bəkilinmidir?

Bəkil. Bəyim...

Qazan. Beyrək deyir, hünər atındır...

Bəkil. Beyrək mənim üzümə desin, o zaman görək kimdi hünərli…

Bu zaman səhnə arxasından astaca it hürüşü eşidilir. Gənc və gözəl bir qız səhnəyə qaça-qaça daxil olur. Bəylərin arasında kimisə axtara-axtara və çağıra-çağıra şuxluq ilə dövrə vurur. Səhnədə sükut. Hamı donub qalıb. İt yenə hürür.

Gənc qız. *(bəyləri görmədən ora-bura baxıb axtararaq şaqraq səslə). Bəraqcuq! Bəraqcuq, Bəraqcuq... (səhnədən qaçıb çıxır).*

SON

Beyrəyin taleyi

(İkihissəli dram)

İştirakçılar:

Dədə Qorqud
Beyrək
Banuçiçək
Baybura
Baybecan
Aruz Qoca
Basat
Dəli Dondar
Əmən
Şir Şəmsəddin
Qılbaş
Burla xatun
Qısırca Yengə
Boğazca Fatma
Bayburd
Kafir qızı
Xatun
Yalançı

Bəzirganlar, naiblər, Oğuz igidləri, kafirlər, casuslar, kölgələr, ozanlar, çobanlar, bacılar.

I şəkil

Dış Oğuz bəyi Aruz Qocanın evi. Oğuz bəyləri üçün 10-12 nəfərlik məclis qurulub. Amma hələ səhnədə heç kim görünmür. Məclis üçün ayrılmış yer səhnənin uzaq bir yerindədir. Məclis ilə tamaşaçı zalı arasında pərdə çəkilib. Hər şey görünür, eşidilir, amma bu tül pərdə, əslində, tarixi keçmiş kimi göstərmək məqsədi güdür. Tül pərdə arxasında epik qəhrəmanlara xas əlamətlər daha aydın cizgilər kəsb edir: ağırlıq, ləngərlik, sanbal, qeyri-dəqiqlik...

Tamaşanın bütün digər qəhrəmanları tül pərdənin önündə görünür. Qərib xəyal kimi bir-birinə fikir vermədən ötüb keçirlər.

Aruz Qoca görünür. Narahat-narahat gəzişir. Hiss etmək olur ki, qonaqların gəlişini səbrsizliklə gözləyir.

Aruz Qoca. Bu bəylər yamanca ləngidi. Ləngimələrinə səbəb olmaya gərək. Qulağım səsdə qaldı *(Susub yenə gəzişir. Birdən durur. Qulaqdeşici sükut).* Gəlmədilər. Qorxdular. Qazanın xofu tutdu onları. Qalalar alan, yigidlər yaxan bəylər – Dış oğuz bəyləri! Oğuzun güvənc bəyləri! Adınız batsın. Başınız...

(Bəylər bir-bir, sakitcəsinə gəlib içəri girməyə başlayırlar. Aruz onları görüb duruxur, amma özünü itirmir).

...başınız uca dağlar kimi daim yüksəklərə ucalsın, bəylər! Oğuzun güvənc bəyləri! Sizi salamlamaq mən Qoca Aruza şərəf gətirir.

Dəli Dondar. Aruz Qoca! Evin-eşiyin, yurdun-yuvan sahibsiz qalmasın. Uca dağlardan axan sərin-sərin suların ürəklərə qüvvət versin. Arzuları dilə gətirsin. Səni salamlamaq Dəli Dondara şərəf verir.

Əmən. Yurdun, yuvan, məskənin...

Şirşəmsəddin. Daim bərəkətli, daim abad, basılmaz olsun. Səni salamlamaq mən Şirşəmsəddinə...

Əmən. Mən Əmənə şərəf gətirir.

Bəylər. *(birbəbir)* Bizim hamımız şərəfləndik, bəyim.

Basat. *(tələsik, gecikdiyini anlayan günahkar kimi içəri girir)* Bəy babam, mən gecikdim.

Aruz Qoca. *(Onun üzünə də baxmaq istəmir).* Bəylər, xoş gəldiniz, səfa gətirdiniz, oturalım, yiyəlim-içəlim, günümüz xoş keçsin.

Bəylər gəlib otururlar.

Basat. Bəy babam. Mən gecikdim.

Aruz Qoca. Bəylər, nə xoş gündür bu gün. Tanrı mənə bir gözəl gün bəxş etdi. *(Basata baxır, ancaq onun eşidə bilməsi üçün)* bir də kor bir övlad.

Şirşəmsəddin. Aruz Qoca! Bizim hamımız xoş bir günün içindəyik.

Bəylər. *(təsdiqləyirlər).* Hamımız. Hamımız...

Şirşəmsəddin. Amma de bizə, bəyim. Nə üz verdi, Oğuza? Düşmən gəldimi gözəl yurdumuzun üstünə?

Basat. Bəy baba! Məsləhətə-məşvərətə ehtiyac varmıdır? Təpəgözdən yenicə qurtulduq.

Şirşəmsəddindən başqa hamı Basata baxır. "Əhsən, min əhsən Basat bəyə". Basat ayağa durur. Aruz əli ilə onun çiynindən basıb yerə oturdur.

Şirşəmsəddin. *(Basata tərəf baxmır, əksinə, arxasını ona çevirir, üzünü bəylərə tutur. Arxası həm də Aruz Qocayadır).* Aruz Qoca! Qılıncımızın kəsərinə Oğuz içində bələd, igidliyimizə şahidsən. De bizə. Bu büsat nə üçün, kim üçündür. Yoxsa elə-belə, heç bir səbəb olmadan...

Bəylər. Bəyim, biz yeyərik, içərik. Amma səbəbi yox deyil bunun...

Əmən. Bəylər! Aruz Qoca bizim ağsaqqalımız, Dış Oğuzun başbiləni-dir. Lazım bilib bizi bir yerə yığıb. Lazım bilər özü deyər, lazım bilməz... Nə vecimizə?

Aruz. Bəylər, hamınız təklifimi qəbul edib gəldiniz. Var olun. Bəyim Şirşəmsəddin, nə Oğuzun açıq-aydın səmasına qara buludlar girib, nə dağ-larımın suyu qurtarıb, nə də təzə bir Təpəgöz peyda olub.

Bəylər. Əhsən olsun Basat bəyə! Min əhsən!

Basat ayağa durmaq istəyir. Aruz Qoca çiynindən tutub aşağı basır.

Aruz Qoca. Bəylər, məni dinləyin. Ürəyimdə sözüm, dilimdə naləm var. Bağrım partlayır. Gecələr yata bilmirəm, gündüzlər gəzə bilmirəm. Bu uca dağların geyiki, maralı, ovçusundan uzaq düşüb, nalə çəkir.

Əmən. Aruz Qoca gözəl danışdı, bəylər. Ava çıxalım. Bu yazıq heyvanların göz yaşları qurusun. Həsrətləri son versin. Avlayalım onları, bəylər.

Aruz Qoca. Sonra, igidim Əmən. Sonraya qalsın ava çıxmaq. İndi ondan müşkül işimiz var.

Bəylər. *(yeryerdən)* Nədir o müşkül iş, bəyim Aruz? Qılıncımızmı pas atıb, oxumuzmu kürtəlib? Söylə bizə, Aruz.

Aruz Qoca. Hamısını deyəcəyəm, darıxmayın. *(Basata)* Kənizlər şərabın itisini gətirsinlər.

Basat. Baş üstə, ağam. *(çıxır).*

Aruz Qoca. İçəlim, deyirəm, bəylər. İçəlim, unudalım yaxın bildiklərimizin dönüklüyünü.

Şirşəmsəddin. Yaxın bildiklərimizin dönüklüyünü?!

Əmən. Unudalım.

Dəli Dondar. Aruz Qoca. Yüyrək axan suların aydından aydın. Uca dağların görümlüdən görümlü. Bədöy-bədöy atların yüyrəkdən yüyrək. Dediklərin isə dumanlıdı, qafamıza girmədi. Sucan ömrün olsun, sözlərini suca aydın elə, bəyim.

Kənizlər şərab gətirirlər, bəylərin piyalələrini doldurur və şəklin sonunadək onlara qulluq edirlər, girirlər, çıxırlar.

Aruz Qoca. Bəylər, sağ olun, var olun. Oğuz sizsiz olmasın. Şirşəmsəddin!

Şirşəmsəddin. Mənəm, bəyim.

Aruz Qoca. Sənsən, igidim, sənsən. Sənsən, aslanım! İcazəsiz Bayındır xanın düşmənini basıb keçən, altmış min kafirə qan qusduran, Qəflət Qoca oğlu! Sən sağ ol, əsən ol!

Bəylər. Sağ ol, əsən ol! *(içirlər).*

Aruz Qoca. Dəli Dondar!

Dəli Dondar. Mənəm, bəyim.

Aruz Qoca. Sənsən igidim, sənsən qartalım. Dəmirqapı Dərbənddəki dəmir qapını təpib alan, Qazanı üç dəfə atından yıxan, Qıyan Səlcuq oğlu – sən sağ ol, əsən ol!

Bəylər. Sağ ol, əsən ol! *(İçirlər)*

Aruz Qoca. İgidim Əmən!

Əmən yeməkdən ayrılıb səs vermək istərkən Basat içəri girir. Aruz Qocaya yaxınlaşır, nəsə demək istəyir.

Aruz Qoca. Bəylər, Dış Oğuz sağ olsun!

Bəylər. Sağ olsun! Düşmən üzü görməsin! *(içirlər).*

Aruz Qoca. Bəylər, sizi niyə çağırdım, deyim. Qazan evini yağmalatdı, biz qaldıq. İç Oğuz hamısı cəm olub yağmaladılar. Biz – Oğuzun söykənci – Dış Oğuz bəyləri layiq bulunmadıq.

Bəylər susub qulaq asırlar.

Aruz Qoca. *(Basata)* Get qonağa de, gözləsin. Dış Oğuz məşvərət edir.

Dəli Dondar. Qonaq kimdi, bəyim?

Şirşəmsəddin. Biz ki hamımız cəmik.

Əmən. Bir Beyrəkdən başqa. Bizdən qız almışdır.

Şirşəmsəddin. Amma Qazan xanın yaxınıdır.

Əmən. Arvadı bizdəndi, özü də bizdən olur.

Dəli Dondar. Bəyim, qonağın kim idi?

Aruz Qoca. Bəylər, qonaq Qazanın yaxını Qılbaşdır. Özü gəlib.

Bəylər. Qılbaş? O nəyə gəlib?

Aruz Qoca. Bəylər, Qılbaşdan əvvəl biz sözü gərəkdir bir edək. Qazan bizi it yerinə saymadı. Mən ona düşmənəm, bilsin. Siz nə dersiniz?

Şirşəmsəddin. Qazan evin yağmalatdı, malın böldü – bizsiz. Biz ona düşmənik.

Əmən. Bəyim Aruz! Kəsəsi, sənin dostuna dost, düşmənina düşmənik. Bilginən, sən nə dersən, Dəli Dondar?

Dəli Dondar. *(susur)* Mən nə derəm? Üç gəz Qazanı atından yıxmışam. Dördüncü gəz dəxi yıxaram. Siz nə dersiz, mən də onu derəm.

Bəylər. Biz Qazana düşmənik. Bizim bəyimiz sənsən.

Aruz Qoca. Sağ olun bəylər, var olun. İndi Qılbaşı çağıraq görək nəyə gəlib, nə xəbərlə gəlib (*Basata)* çağır gəlsin Qılbaş.

Basat çıxır.

Əmən. Qılbaş soruşmazmı məşvərət nə üçündü?

Aruz Qoca. Bəylər, Qılbaş duyuq düşməsin. İşimizi fəndlə quraq, bundan öyrənək suçumuz nə oldu, yaddan çıxdıq…

Basat və Qılbaş gəlirlər.

Qılbaş. Aruz Qoca! Oğuzun açıq səmasını qara buludlar aldı, üstümüzə düşmən gəldi. Qazan xan az qaldı əzilsin. Düşmən saysız, biz az. Qazan dedi: Aruz Qoca igid bəyləri ilə Dış Oğuzdan mənə köməyə gəlsin. Yoxsa İç Oğuzun halı yaman olacaq. Qız-gəlinimiz əsir gedəcək yad ellərə. Mərd oğullarımız qırılacaq düşmən oxlarından. Yağı bizi yaman yerdə haxladı. Amandı, Aruza de özünü mənə yetirsin. Ümid onadır. Qazan belə dedi, Aruz Qoca.

Bəylər dönüb diqqətlə Aruzun nə deyəcəyini gözləyirlər.

Aruz Qoca. Qızılbaş, nə oldu ki, biz Dış Oğuz bəyləri Qazanın yadına düşdük? Gün hardan doğdu? Malını İç Oğuza bölüşdürəndə biz niyə yada

düşmürdük? Qoy o gələn yağı birdisə – yüz olsun, Qılbaş. Yüzdürsə – min olsun. Qazana düşmənik biz – Qazan bilsin.

Qılbaş. Aruz Qoca! Sən də bəlli bilginən. Oğuza yağı düşmən yaxın düşmədi, gəlmədi. Qazan bu gün yerindən durcaq məni çağırdı, dedi, məni salama gələn bəylər arasında Aruz Qoca yoxdu, görmədim. Dedim, deyirlər sənə kin bağlayıb, düşmən kəsilib. Dedi ola bilməz. Dedim oladı, xanım. Dedi səhih öyrən bunu, Qılbaş, de mənə. Ürəyimdə bilirdim ki, düşmənsən sən İç Oğuza. İndi yəqin etdim. Qazan evin yağmalatdı, siz bəyləri çağırmadı – bunun da səbəbi var, vaxt gələr bilərsiz…

Aruz Qoca. *(onun sözünü kəsir).* Qılbaş! Dedik ki, biz Qazana düşmənik. Xoş get.

Qılbaş. Xoş qal, Aruz. Bayındır xanın qulaqlarından uzaq. Oğuzu parça-parça elədin, Aruz Qoca.

Aruz Qoca. Get. Oğuzu parça-parça edən sizsiniz, biz yox.

Bəylər. Get, Qılbaş, xoş get, Qılbaş.

Qılbaş. Xoş qalın, bəylər *(gedir).*

Məclisə, elə bil, soyuq su çilədilər. Hamı narahat Aruza baxır.

Aruz Qoca. Bəylər, işlər qəlizləşdi. Beyrək dediniz, onu da çağıraq, gəlsin sözünü desin. Bizdən qız alıb, qızı biz vermişik ona. Beyrək də bizim yolumuzun yolçusu olsun.

Bəylər. Çağıraq, bəyim. Beyrəyin igidliyi Bayburd hasarınacan söylənir. Ali ərəndir. Niqablıərdi Beyrək.

Şirşəmsəddin. Bəs necə çağıraq, nə deyək gəlsin?!

Aruz Qoca. Deyək ki, gəl bizi Qazanla barışdır. Bizimlə bir olursa olsun. Olmazsa...

Bəylər. Olmazsa...

Aruz Qoca. *(sərt).* Olmazsa, mən saqqalın tutum, siz qılınclayın.

Basat qorxa-qorxa lap küncə çəkilib qısılır.
İşıq sönür, yanır. Beyrək bəylərlə üz-üzə.

Aruz Qoca. Beyrək, bilirmisən səni niyə çağırdıq?!

Beyrək. Niyə çağırdınız?

Aruz Qoca. Biz hamımız Qazana asi olduq, and içdik.

Beyrək. Nədən?

Aruz Qoca. Evin yağmalatdı, bizi yaddan çıxardı.

Bəylər. Biz Qazana düşmənik. Sən də düşmən ol. Bizim bəylər-bəyimiz Aruz Qocadır.

Beyrək. Mən Qazana düşmən ola bilmənəm. Olsam, çörəyi məni tutar.

Bəylər. And iç. Bizim düşmənimizə düşmən ol. Sənə qız vermişik.

Beyrək. *(pafosla).* Mən Qazandan dönə bilmənəm. Dönərsəm, əynimdəki qaftanları kəfən olsun mənə. Dönərsəm, yeyib-içdiyim otlaqları cəhənnəm olsun mənə. Dönərsəm...

Aruz Qoca. Zindanlarda az çürüməmisən, Beyrək. Kəfənin də tikilər şimdi. *(Beyrəyin üstünə yeriyir, bəylər Beyrəyi əhatəyə alırlar).* And iç!

Beyrək. İçmənəm.

Aruz *(Beyrəyi saqqalından tutur).* Vurun!

Bəylər. *(geri çəkilirlər).* Beyrəyə qıya bilməzik. Beyrəyə əl qalxmaz. Beyrək boz ayğırlı, niqablı ər yigitdi.

Aruz Qoca. *(Basata).* Sən vur!

Basat tir-tir titrəyir.

Aruz Qoca. Tfu! *(Bəylərə).* Vurun!

Beyrək. Aruz Qoca! Qatı düşmən! Mənə bu işi edəcəyini bilsəydim, bura tək gəlməzdim. Niqabımı taxardım, zirehimi geyinərdim, qılıncımı götürərdim. Yemək-içmək üstündən aldadıb çağırdın məni. Aldadıb iş görmək arvad işidir. Arvadındanmı öyrəndin bu işi sən?

Aruz Qoca. Gəbər! *(Beyrəyi qılınclayır).*

Beyrək. Yüz para eylə. Mən Qazandan dönmənəm. *(yıxılır).*

Basat. *(uzaqdan)* Öldü?!

Aruz Qoca. *(Bəylərə).* Aparın mindirin atına. Buraxın atın başını dərə-təpəyə. Atdı yolu tutub gedər. Soruşsalar, düşmən pusqusuna rast gəldi, düşmənlidi, yağı öldürdü deyin.

İşıq sönür. Qaranlıqda səslər. Bu səslər anlaşılmazdı, onları başa düşmək elə bil asandı, amma mümkün deyil. Bilinmir ki, bu ağıdı, layladı, iniltidi, ya haraydı? Bir o bilinir ki, bu səsdir. Səs tufanıdı.

Və birdən bu səs tufanının içindən qaranlıqdan işıq kimi Beyrək sıyrılıb çıxır. Yaralı Beyrək güclə üzünü səsə tutur, elə bil o səsin içindən nəsə axtarır və tapır. Rahatlanır, yıxıla-yıxıla səhnədən çıxır. Yenə yavaş-yavaş qaranlıq bütün səhnəni bürüyür. Səs yavaş-yavaş çoxalır. Beyrəyin səsi gəlir uzaqdan, yaxından – bilinmir.

Qaranlıqda Beyrəyin səsi. Bu da mənim axırım. Canım-gözüm, Boz-ayğırım. Mən nəhayət, öz sonuma çatasıydım.

Boz ayğırım, çatdır məni öz evimə, öz yurduma. Allah, mənə qüvvət ver. Allah, məni yarıyolda qurda-quşa yem eləmə. Düşmənlərimi güldürmə. Allah, mənim ömrümü alırsan, özün al, saxlayırsan, özün saxla. Bu kimdi elə yol qırağında durub?! Bu sənsənmi, kafir qızı?! Necə də gözəlsən. Bayburd hasarında belə gözəl deyildin. Əsirlik səni püxtə gözəl eyləyib, kafir qızı. Mənim sənə borcum varmış. Söz verdim – qılıncıma doğranayım dedim, gəlib səni halallığa almasam, qaçır məni bu hasardan... Kafir qızı, sən məni həyatıma qaytardın, mən sənə həyatımı borclu qaldım. Öz sözüm addım-addım arxamca düşüb məni izlədi – bu gün Aruz Qoca məni öldürdü. Amma mən bu gün ölmədim. Mənim ölümüm çoxdan başlamışdı, anadan olmazdan çox-çox əvvəl. Kafir qızı...

II şəkil

Yenə də tül pərdə. Şadlıq, büsat. Bəylər iki-iki, üç-üç gəzişir. Cavan, gözəl Oğuz bəyləri – Aruz Qoca, Baybura, Baybecan, Şirşəmsəddin, Qılbaş, Dəli Dondar, Əmən, Dədə Qorqud.

Baybura. Dədə, Əmən gedib peyğəmbərin üzün görüb gəlib. Ona itaət borcumuzdur.

Dədə Qorqud. Peyğəmbər adamın ürəyində olmalı, bəyim. Niyyətin düzlüyündə. Gedib görməknən deyil.

Aruz Qoca. Baybura bəy, belə isə, bizim itaətimiz Dədə Qorqudadı. Biz peyğəmbər tanımırıq.

Dədə Qorqud. Oğuzun itaəti Tanrıyadı, Baybura bəy.

Əmən. Allah tanrını qorusun, Dədə.

Baybura. Tanrı, peyğəmbər... Bir oğlum olsun, hansı verirsə - itaəti də ona edəlim.

Dədə Qorqud. Sənin istəyin bumu, Baybura?

Baybura. Bəli, bu!

Əmən. *(tez-tələsik)* Ya Allahım, Baybura bəndənə bir oğul inayət elə. Amin!

Baybecan. Əmən, mənə də qız dilə. Qızım olsun.

Dədə Qorqud. Baybecan bəy! Sənin də istəyin bumu?

Baybecan. Budur, Dədəm, budur.

Aruz Qoca. Şimdi Dədəm Qorqud verəcək sizə övladı, yoxsa Əmən?

Bəylər gülüşür. Bəzisi "Əmən", bəzisi "Dədə Qorqud" deyir.

Baybura. Əmənin bığlarından qan damır, bəylər. Zarafatı buraxaq.

Qılbaş. Bəylər, əl qaldıraq, dua edək həm tanrıya, həm Allaha – Baybecan bəyə bir qız övlad, Baybura bəyə bir oğlan övladı diləyək.

Şirşəmsəddin. Nələrinə gərəkdir?! Bayburanın qızları var, Baybecanın oğlu var. Bəsinə deyilmi? Oğuzu adamla dolduracaqsınızmı, bəylər?!

Qılbaş. Sənin övladın yox, arvadın yox, nişanlın yox. Sən səni bilərsən, sənin bizdən xəbərin yox. Biz övlad istərik. Biz Oğuza qoruqçu oğullar, Oğuza qoruqçular doğan qızlar istərik.

Dəli Dondar. Qılbaş! Bəs biz nəyik? Bizi unutdunmu?

Qılbaş. Dəli Dondar, mən səni unutmadım. Sən bu gün varsan, sabah yoxsan. Mən də, bu bəylər də həpsi öylə. Yeni-yeni oğuzlar lazımdır Oğuz yurduna.

Dədə Qorqud. Qılbaş gözəl söylədi, bəyim. Qazan xana yeni-yeni naiblər gərək. Əl qaldıralım, dua edəlim. *(Əl qaldırır, dua edir)* Baybecan Məlik, sənə bir qız istədim. Qızın olacaq. Xatununa xəbər elə. Əl qaldıralım, dua edəlim, Baybura bəyə bir oğul istəyəlim. *(Əl qaldırır, guya dua edir)* Baybura bəy, xatununa xəbər eylə, bir oğlan da sənə tərəf gələ-gələ durur.

Əmən də bu arada cidd-cəhdlə dua edir.

Baybecan. Bəylər, siz şahid olun. Əgər Dədə Qorqudun sözü ilə, Əmənin duası ilə mənim qızım olursa və əgər Bayburanın oğlu olursa, mənim qızım Bayburanın oğluna beşikgərtmə nişanlı olsun.

Baybura. Mənim oğlum sənə qul olsun. Bəylər, tanıq olun.

Əl-ələ verirlər. Bəylər onları əhatəyə alırlar.
İşıq sönür.
Yenə səslər. Həmən qarışıq, bir-birini kəsən musiqiyə oxşar səslər. Və bu qaranlıqda Beyrəyin səsi.

Beyrəyin səsi. Mənim bəxtsiz taleyim bu andiçmədən başladı, Boz ayğır. Məni evimə-eşiyimə çatdır, qurda-quşa yem eləmə.

At deməzəm sana, qardaş derəm,
Qardaşımdan yey!
Başıma iş gəldi yoldaş derəm,

Yoldaşımdan yey!

Boz ayğırım, məni öldürənləri sevindirmə. İnanclarını puç elə, kül elə, göyə sovur.

Səslər güclənir, Beyrəyin səsi itir.

III şəkil

Qaranlıq səhnə. Yenə də həmən səs tufanı. Səslər azaldıqca səhnənin bir tərəfi işıqlaşır. Baybura bəyin evinin önü görünür. Evin qarşı tərəfində kölgələr.

Səslər. *(səhnənin qaranlıq yerindən).* Baybura bəy! Muştuluq ver! Gözümüz aydın oldu!

Baybura bəy. *(evin eyvanına çıxır)* Nə oldu?

Səslər. Oğlun oldu, Baybura bəy. Oğlun oldu. Qalın Oğuza güvənc oldu. Arzun hasil oldu.

Baybura bəy *(əllərini göyə qaldırır).* Çox şükür, Tanrım. *(bəylərə)* bəylər, qırx gün yeyəlim, içəlim.

Səhnə yenə qaranlığa bürünür. Yenə səs tufanı. Bu dəfə səslər yavaşıyarkən səhnənin o biri tərəfi işıqlanır. Eyni simmetriya ilə bu tərəf Baybecan bəyin evidir.

Səslər. *(Səhnənin qaranlığa bürünmüş tərəfindən – Baybura bəyin evi tərəfdən)* Baybecan bəy! Baybecan bəy! Muştuluq! Gözümüz aydın oldu, muradımız hasil.

Baybecan bəy. *(evinin eyvanına çıxır)* Xatunlar, nə oldu, bu şadyanalıq nədən ötrü, kimdən ötrüdür?

Səslər. Qızın oldu, Baybecan bəy. Ondan yana Qalın Oğuz bəyləri sənə gözaydınlığına gəldi. Diləyimiz qəbul olundu.

Baybecan bəy. *(əllərini göyə qaldırır).* Tanrım, çox şükür. *(bəylərə)* Bəylər, qırx gün yeyəlim, içəlim.

İşıqlar sönür. Səs tufanı, əvvəl güclü, sonra yavaş-yavaş zəifləyən səs tufanı. Baybura bəyin evi işıqlanır. Səs tufanı yatır.

Səslər. Baybura bəy! Baybura bəy! Çağırmışdın bizi, gəldik. Buyur görəlim, sözün nə, əmrin nədir?

Baybura bəy. *(Evinin eyvanında görünür)* Bazirganlar, axtarmışdım, tapıldınız, çağırmışdım, gəldiniz. Oğlum oldu, o böyüyəndə bir igidə yaraşıq əlbisəsi, silahı, yarağı olsun deyirəm. Gedin dünyaya varın. Mənim oğluma layiqli mallar alın, gətirin.

Səslər. Baş üstə, bəyim. Sən sağ qal, tək oğlun sağ qalsın. Biz gedər olduq. Sağ qal, bəyim.

Səhnə qaranlığa bürünür. Səs tufanı. O biri səs tufanları kimi bu dəfə yavaş-yavaş yox, birdən kəsir. Bu məqam indi gedəcək söhbətin son dərəcə ciddi olacağına işarədir. Səhnədə tam sükut və birdən-birə Baybecan bəyin evi işıqlaşır və o eyvanda görünür.

Səs. *(Bayburd bəyinin səsi, qaranlıqdan, pıçıltı ilə)* Biz gəldik çıxdıq, Baybecan bəy.

Baybecan bəy. Xoş gəldiniz. Evimin qapısı hamının üzünə açıqdır. Buyurun.

Səs. *(Bayburdun səsi)* Baybecan bəy! Dış Oğuzun güvənci, qarşı yatan qarı dağların yiyəsi. Mənim də qara-qara dağlarım var Bayburdda. Sərin-sərin suları axar o dağların. O dağların geyikinə ox çatmaz. Salqum-salqum yelləri əsər o dağların. O dağların göy-göy otlarını min-min qoyun-quzular otlayar. Mənim axçam-pulum var, Baybecan bəy. Sən Oğuzun önəmli bəyisən. Mənə Oğuzda arxa ol. Bayburd hasarının içində həmişə ən rahat yerlərdən biri sənin olsun.

Baybecan bəy. Bayburdda mənim nə işim olacaqmış?!

Səs. *(Bu səs Dədə Qorqudun səsidir).* Bəyim, dünya böyük dünyadı. Tək Oğuzdan ibarət dünya deyil. Nə olar, qoy bir dostun, bir arxan da Bayburdda olsun. Məsləhətdir, bəyim.

Baybecan bəy. Dədə, bəs bunu Oğuzda bilən olursa...

Səs. *(Dədə Qorqudun səsi).* Oğuzda bunu kimsə bilməz. Əgər biz Bayburd kimi bir hasar bəyini Oğuza dost ediriksə, bunu indi hər bir oğuzun bilməsi gərək deyil. Hər kəs bu işi anlamaz. Anlamadığı üçün də min yerə yozar. Tanrının buyruğu ilə bu dostluq başa gəlib gerçəyə dönürsə, o zaman bəyan edərik bunu bütün Oğuza.

Baybecan bəy. Dədə, sənin sözündən mən dönmənəm. Bu gündən mən Bayburda dostam.

Səs. *(Bayburdun səsi)* Bu gündən mən Baybecan bəyə dostam.

Baybecan bəy. Oğuza dost ol, məlik.

Səs. *(Dədə Qorqud)* Bəyim, işlər addım-addım başa gələr. Bayburd məliki səninlə bu dostluğu saziş üstündə qurmaq dilər.

Baybecan bəy. Sözümüz sözdür. Saziş nəyə gərək, Dədə?

Səs. *(Bayburdun səsi)* Şövkətli bəy Baybecan! Sən bütün Oğuzda ad qazanmış bir yigid ərsən. Adını hünərinlə, verdiyin əkməyinlə qazandın. Səninlə dostluq mən Bayburd üçün böyük şərəfdir. Amma mən də istərəm ki, səninlə ancaq dost yox, qohum dəxi olam. Sənin ağüzlü qızın doğmuşdur. Qızını özümə istəyirəm, bəyim.

Baybecan bəy. Dədə, mən qızımın sözünü verdim axı...

Səs. *(Dədə Qorqud)* Baybecan bəy, Bayburd bəylə yaxınlıq hamımıza xeyir gətirər. Sən qızının sözünü verəndə o doğmamışdı. O söz havaya getdi.

Bu zaman yavaşca, elə bil, çox uzaqdan səs tufanı başlayır.

Səs. *(Dədə Qorqud)* Söz veriləsi məqam indidir. Qızın doğub.

Baybecan bəy. Məsləhət nədir?

Səs. *(Dədə Qorqud)* Məsləhətdir, bəyim.

Baybecan bəy. Əvvəl verdiyim sözə Oğuz bəyləri tanıq olmuşdular. Dədə, o söz məni addım-addım izləməzmi?

Səs *(Dədə Qorqud).* Tanrının köməyi ilə izləməz. Bu saziş bizim oldu, bəyim. Sənin, mənim, bir də Bayburd məlikinin, bu sazişi üçümüz bildik. Dördüncü şəxs bilməsin. Xeyirli olsun, bəyim! Bəlkə bu saziş Oğuzu böyük dünya yoluna çıxardı, ilahi, amin!

Səs tufanı artmağa başlayır. Baybecan bəy həyəcanlıdır. İşıq yavaş-yavaş sönür. Səs tufanı kəsilir. İşıq Baybura bəyin evi tərəfə düşür. Baybura bəy eyvanda, artıq xeyli yaşlı.

Səslər. *(şadlıqla)* Bəyim, şad xəbər, bəyim, xoş xəbər! Bəzirganlar döndü, bəyim. İllərdən bəri yolunu gözlədiyin bəzirganlar şükürlər olsun gəldilər, çıxdılar. Bəyim, muştuluq!

Baybura bəy. Qoyunlar kəsilsin, şadlıq, yemə-içmə olsun. Bəzirganlar hüzura gəlsinlər.

Birinci Bəzirgan. *(Gəlir)* Biz gəldik, bəyim. Uzun-uzun illər bizi yormadı. Oğuz həsrəti bizi yordu. Bu həsrətə sarılıb yaşaya bildik.

Baybura bəy. Mənim tapşırıqlarım noldu?

İkinci Bəzirgan. *(Gəlir)* Bəyim, həpsini tapdıq! Bəyim, bir ərməğanlar alıb gəldik, heç Oğuzda onları görən yox. Çətin oldu, az qala malımız getmişdi, Gürcüstan ağzında qaçaq-quldur bizi öldürəcəkdi. Göydə Allah, yerdə bəndəsi bizi qurtardı.

Üçüncü Bəzirgan. Mal nə mal, bəyim. İki göz istəyir tamaşa qıla.

Baybura bəy. O necə maldır, bəzirganlar, Oğuzda heç kilsə görməyib?

Birinci Bəzirgan. Bəyim, bura zəhmət çək gəl, malları gör, bəyən, sevin, bizə də sağ ol deyərsən.

Baybura bəy. Oğlum Beyrək gəlsin, birlikdə baxalım.

Səhnə bütün işıqlaşır. Səhnədə Baybura bəyin həyəti. Bəzirganlar, Baybura bəyin ev adamları, kənizlər, nökərlər...

Səslər. Bu tozlu yay, bu altıpərli gürz, bu da Boz ayğır...

Baybura bəy həyətə düşür. Baybura bəyin yanında oğlu Beyrək. Hər ikisi gəlib bəzirganların önündə durur.

Bəzirganlar Beyrəyi görən kimi qarşısına yüyürür, baş əyir, əlini öpməyə çalışırlar.

Baybura bəy. *(Hirslə)* Axmaq uşağı axmaqlar! Bəzirganlar, nə etdiyiniz, nə qıldığınızdır? Ata duran yerdə oğul əli öpülürmü?

Birinci Bəzirgan. Bəyim, bu igid sənin oğlundurmu?

Baybura bəy. Bəli, oğlumdur.

İkinci Bəzirgan. İncimə, bəyim, əvvəl onun əlini öpdüyümüzə.

Üçüncü Bəzirgan. Əgər sənin oğlun olmasaydı, bizim bütün malımız Gürcüstan ağzında gedəcəkdi. Bu igiddi bizim malımızı qaçıranlardan alan, bizə qaytaran.

Baybura bəy. Canım-gözüm, bəzirganlar! Deyin mənə. Mənim oğlum başımı kəsdi, qanmı tökdü, igidlikmi göstərdi?

Birinci Bəzirgan. Bəli, bəyim, baş kəsdi.

İkinci Bəzirgan. Qan tökdü.

Üçüncü Bəzirgan. İgidlik göstərdi. Həm də nə cür!

Baybura bəy. Bəs belə isə bu oğlana ad qoyasıcan varmı? Layiqdirmi?

Bəzirganlar. Var, bəyim, var. Layiqdən layiqdi, bəyim. Artıqdı, bəyim.

Baybura bəy. Çağırın Oğuz bəylərini, çağırın Dədə Qorqudu, qonaqlayalım dörd ətrafı. Oğlumun ad qazanan, adlanan günüdür, xoş keçəlim. *(Beyrəyə)* Oğul, bu gün sənin xoş günündü, qutlu olsun. Mənim ömrüm sənin ömründə yaşasın. Ömründə "neynim" deməyəsən. Gəlimli-gedimli dünyadı. Qadir Tanrı səni namərdə möhtac eləməsin. Çaparkən boz ayğırın büdrəməsin. Çalışında qara polad qılıncın kütəlməsin. Oğul, oğul, sən məni

sevindirdin, Tanrı səni sevindirsin. İznindi, al yar yoldaşını, ətrafına var, get başı qarlı qara dağların ətəyinə. Av avla. Könlün dəxi şad olsun. Avın qutlu olsun, oğul!

İşıq sönür. Beyrək təkcə işıq altında: Baybecan bəyin evinin üstünə də işıq düşür. Amma o tərəfdə heç kim yoxdur. Beyrək Baybecan bəyin evinə, işığa tərəf, elə bil, öz taleyinə doğru gedir. Səs tufanı.

IV şəkil

Ov əhval-ruhiyyəsini verən musiqi. İt səsləri, at kişnərtisi,"tut, qoyma qaçdı" nidaları. Uzaqda gözəl bir çadır qurulub. Beyrək naibi ilə gəlir. İkisi də son dərəcə qızğın. Beyrək, üzüniqablı.

Beyrək. Mən avımı əldən verə bilmənəm. Bu geyik harda olsa yaxındadı, uzaq gedə bilməz.

Naib. Yaxında olmağına yaxındadı, köpəklərin ağzından qaçıb qurtara bilsə heç...

Beyrək. *(birdən çadırı görür).* Ya Rəbb, bu otaq kimin ola?

Naib. Bilmirəm, bəyim. Amma olsa-olsa, avımızı bu otaqdakılar alıb götürüblər bəlkə?

Beyrək. Yeri gör, kim var, kim yox orda.

Banuçiçək və Qısırca Yengə otaqdan çıxırlar. Beyrək və Naibi görüb dururlar.

Banuçiçək. Bunlar kim ola?

Qısırca. Bilmirəm, qız. Amma duruşlarından bəy oğlu bəyə bənzəyir.

Beyrək. Bunlar kim ola?

Naib. Bilmirəm, bəyim. Ola ki, otağın yiyələridir.

Beyrək. *(Qəhrəmancasına gəzişir).* Hə, olursa olsun, hələ biz avımızı alalım. Di sor görək.

Banuçiçək. Dayə, bu qavat oğlu qavat bizə ərlikmi göstərir? Var bundan pay dilə. Avından bizə versin. Görək nə deyir.

Qısırca. *(Beyrəyə tərəf gəlir, Naib yolunu kəsir).* Hey, bəy igid!

Naib. Nə deyirsən?

Qısırca. Bəyinə de, vurduğu geyikdən bizə pay versin.

Naib. *(Beyrəyə)* Pay istər, bəyim.

Beyrək. De ki, mən avçı deyiləm. *(Dözməyib özü Qısırca Yengəyə)* Mən avçı deyiləm, bəy oğlu bəyəm. Həpsi sizin! *(Naibə)* vurduğumuz geyiklərin həpsini verdim bunlara. *(Qısırcaya)* amma sormaq eyib olmasın, bu otaq kimindir?

Qısırca. Bəy igid, bu otaq Baybecan bəyin qızı Banuçiçəyindir.

Beyrək ədəblə baş əyir. Naib də hörmətini bildirir. Qısırca Yengə Banuçiçəyə dönür.

Banuçiçək. Dayə, bu igid nə igiddir? Xoşuma getdi.

Qısırca. Vallah, sultanım, bu igid üzü niqablı, yaxşı igiddir. Bəy oğlu bəy imiş.

Banuçiçək. Hey, hey. Dayəciyim, babam mənə uşaqlıqda mən səni üzüniqablı Beyrəyə vermişəm – deyərdi. Olmaya kim, bu ola? Çağır gəlsin, xəbərləşək.

Qısırca. *(Beyrəyə)* Bəyim, yaxın gəl. Söz sormaq dilərik.

Beyrək yaxınlaşır.

Banuçiçək. Bəy, gəlişin hardan?

Beyrək. İç Oğuzdan, xanım.

Banuçiçək. İç Oğuzda kimin nəyisən?

Beyrək. Baybura bəy oğlu Bamsı Beyrək dedikləri mənəm.

Banuçiçək. *(son dərəcə maraqlı)* Sənsən? Məsləhətə gəldin, ya nəyə gəldin, igid?

Beyrək. Baybecan bəyin bir qızı varmış, onu görməyə gəldim. Deyirlər at çapmaqda, ox atmaqda ər igidə bərabər bir xanımdır. Sınamaq istərdim, xanım.

Banuçiçək. Ol qız elə adam deyildir kim sənə görünə. Amma mən Banuçiçəyin dayəsiyəm. Gəl, igid, səninlə ava çıxaq. Əgər sənin atın mənim atımı keçərsə onun atını dəxi keçərsən. Həm səninlə ox atalım. Məni keçərsən, onu dəxi keçərsən və həm səninlə güləşəlim, məni basarsan, onu dəxi basarsan. Nə dersən?

Beyrək susur.

Banuçiçək. Susursan, igid. Beyrəyi igid deyirlər. Bəlkə sənin niqabının arxasındakı heç Beyrək deyil?

Beyrək. Xoş ola, atlanaq xanım. Buyur.

Çıxırlar. Səhnədə Qısırca və Naib. Uzaqdan yarışı seyr edirlər.

Naib. Keçdi getdi boz ayğırlı Beyrək birinci çatdı. İndi dəxi ox atırlar. Beyrəyin oxu qızın oxunu göydə yardı. Ağam Beyrək igid ərdi. Gürəşməyə başladılar.

Qısırca. Banuçiçək yenəcək.

Naib. Bu qızmı Banuçiçək?

Qısırca. Odur, odur, yenəcək.

Naib. Amma Beyrək yenir, qızı yerə vurmaq istər.

Qısırca. Yox, yox, Banuçiçək Beyrəyi yerə vurmaq istər. Aha, bir az dəxi güc ver, qız!

Naib. Ah, Beyrək, bu qıza basılacaq olursan qalın Oğuz içində başımıza qaxınc, üzümüzə toxunc edərlər. Aha, ağam Beyrəyə qeyrət gəldi. Aha, aha! Beyrək qızı yerə vurdu. *(Qısırcaya)* Beyrək belə igiddir. Əhsən! Əhsən!

Beyrək və Banuçiçək gəlirlər. Naib və Qısırca hər biri öz yerinə çəkilir.

Banuçiçək. İgid! Mənim atımı kimsə keçdiyi yox, oxumu kimsə yardığı yox. Sən bildinmi kiminlə gürəşib kürəyini yerə vurdun?

Beyrək. Bilmədim, amma bilmək istərəm, xanım.

Banuçiçək. İgid, Baybecanın qızı Banuçiçək mənəm. Sən dəxi mənim beşikgərtmə nişanlımsan.

Beyrək. Bəli xan qızı, mənəm. Boz ayğırlı, üzü niqablı Beyrək dəxi mənəm *(barmağından üzüyü çıxarır).* Məsləhətdir ortamızda bu nişan olsun. Xan qızı, düyünün qanlı olsun *(üç dəfə Banuçiçəyi öpür).*

Banuçiçək. Sən məni... Çünki belə oldu, həmən indi irəli durmaq gərək, bəy oğlu.

Beyrək. Hə olar, xan qızı, baş üstə. Gözüm gördü, könlüm sevdi səni.

Banuçiçək. Bəy igidim. Bəli, ürəyim uşaqlıqdan həsrətinin qonduğu ürəkdir. Sən mənim yuxularımın Beyrəyisən. Səni gördüm, səni sevdim, könül verdim. Sənsiz mənim bundan belə günüm olmasın. Şah igidim! Şahbaz igidim! Gözüm gördü, könlüm sevdi. Sən məni... *(əlini ürəyinə sürtür)*

Beyrək. Xan qızı! Mən babama varalım. Deyəlim ki, səni gördüm. Deyəlim ki, səni sevdim. Deyəlim ki, səni... Səndən başqa kimsə mənə gərək deyil. Evləndir məni, baba-deyəlim. Elçiləri gözlə xan qızı! *(Naiblə çıxır).*

İşıq sönür

V şəkil

Baybura bəyin evi. İşıq eyvanda dayanmış Baybura bəyin üzərinə düşüb.

Baybura bəy. Beyrək ava getdi, qayıtmadı. Oğuzda ər başına nə qəza gəlsə avda gələr. Xaini var, casusu var. Kafiri var-pusquda. Beyni qanla dolu igiddir. Evləndirmək vaxtı yetişdi. Baybecan bəy Oğuzun adlı bəyi, ehsanlı kişisiydi. Söz verdi qızını bizə dedi getdi. Amma ölüm qabağı xəbər

göndərdi. Bayburd məliki ilə sazişini açıqladı. Peşmanlıq onu əzib-əzib qıldan nazik etdi. Boğazından su keçmədi. Yorğan-döşəkdə göz yumdu bu dünyaya. Oğuzda iz adına bir dəli oğlu qaldı, bir dəxi qızı. Qızı Banuçiçək bizim beşikgərtmə nişanlımız. Baybecanın geniş-geniş dərələri-düzləri, qoyun-quzu sürüləri, dağları, çayları, meşələri... Dövlətli bəyliyi bəyliyimizə qarışsa həm söz yerinə yetər, sözün ağırlığı Baybecanı əzən kimi bizi dəxi əzməz, həm də bəyliyimizin Oğuzda qüdrəti artar. Oğul Beyrək qayıtmadı, gecə düşdü.

Beyrək gəlir.

Oğul Beyrək! Sən qayıtdın, gözüm aydın. Avın necə keçdi?

Beyrək. Av bəhanəydi, Baba. Oğuza çıxdım. Dosta, arxadaşa baş çəkdim.

Baybura. Söhbət qılaq, oğul. Oğuzda nə gördün, nə görmədin?

Beyrək. *(susur).*

Baybura. Oğul, Oğuz o günəmi qaldı, söz-söhbətlik bir işi yox?

Beyrək. Oğuzda söz-çox, söhbət-çox. Nə görəcəkdim mən? Oğlu olan evləndirmiş, qızı olan köçürmüş.

Baybura. Oğul, Oğul, ay oğul. Söz səndəymiş, söhbət dəxi səndəymiş. Səni evləndirməkmi gərək, oğul? Susma, danış.

Beyrək. Bəli, ağsaqqallı əziz baba. Evləndirmək gərək.

Baybura. Sənə Oğuzda kimin qızını alıb verəyin oğul? Necə qız dilərsən özünə?

Beyrək. Baba, mənə bir qız alıb ver ki mən yerimdən durmadan o durmuş olsun. Mən qaraqoç atıma minmədən ol minmiş olsun. Mən qırıma varmadan ol mənə düşmən başı gətirmiş olsun. Bunun kimi qız alıb ver, baba, mana.

Baybura. Oğul, sən qız istəməzsən, kəndinə bir savaş yoldaşı istərmişsən. Oğul, oğul, yaxınıma gəl. Mən sənə bir söz demək istəyirəm.

Beyrək. *(yaxınlaşır, diz çökür).* Eşidirəm, əziz baba.

Baybura. Oğul, Baybecan bəy deyilən Oğuzun ər igidi vardı. Ol igidin bir oğlu vardı, amma qızı yoxdur. Ol zamandan mənim dəxi qızlarım vardı, oğlum yoxdu. Əl qaldırdı qalın Oğuz bəyləri Tanrıya dua etdi – mənə oğul, Baybecana qız dilədilər. Baybecan dedi – bəylər tanıq olsun. Mənim qızım olsa, Bayburanın oğlu olsa, mənim qızım Bayburanın oğluna beşikgərtmə nişanlı olsun. O gündən aylar, illər keçdi. Sən doğdun, Baybecanın qızı doğdu. Mən bilirəm, oğul. Oğuzda çox bəy istər ki, Baybecanın qızına sahib çıxsın. At ağızlı Aruz Qoca yatıb-yatıb yuxusunda görür bunu ki, Baybecanın qızını oğlu Basata gəlin gətirir – onun malını, dövlətini öz malına, dövlətinə qatır. Oğul, mən Baybecanın qızını Aruz Qocaya verə bilmənəm.

Beyrək. Bəs nə edəlim, Baba? Mən dəxi Baybecanın qızını Banuçiçəyi gördüm, sevdim.

Baybura. Eləmi, oğul?! Sən məni sevindirdin. Sənə o qızı alalım, oğul. Amma onun bir dəli qardaşı var. Elçiliyə gələni öldürür-deyirlər. Elçiliyə onun yanına mən vararam, həşəmətli Oğuz bəyləri varar. Dədə Qorqud varar. Sənin dəli ilə işin yox. Belə edək. Qalın Oğuz bəylərini evimizə çağıraq. Məsləhətli don gen olar.

İşıq sönür və yanır.

Bəylər – Baybura, Qılbaş, Dədə Qorqud, Şirşəmsəddin, Aruz, Dondar, Əmən, Beyrək Bayburanın evində.

Baybura. Bəylər, sizi niyə çağırdım, bildinizmi?

Qılbaş. Bilmədik, bəyim.

Baybura. Bəylər! Tanrım mənə oğul verdi-önünüzdədir. Qılıncla, hünərilə ad qazandı – Beyrək oldu. Hamınızın oğlu ad qazansın. Aruzun oğlu, gün olsun, meşədən evinə dönsün.

Bəylər hamısı – Aruzdan başqa "sağ olsun" deyir.

İndi Beyrəyin vaxtı yetişib. Evləndirmək istərəm onu. Siz nə dersiniz?

Bəylər. Bəli, bəyim, vaxt yetişib. Gözəl igid, ər igid olmuşdur.

Baybura. Dədə, sən nə deyirsən?

Dədə Qorqud. Vaxt yetişib, Baybura bəy. Məsləhətdir.

Baybura. Bəylər, siz tanıqsınız. Baybecan bəy qızı olmadan əvvəl söz verdi – mənim qızım olarsa, Bayburanın oğluna beşikgərtmə nişanlı olsun, – dedi. Tanıqsınızmı?

Bəylər. Tanıqıq, bəyim.

Aruz. Baybecan bəy artıq ölüm yuxusunda...

Baybura. Amma, Aruz bəy, sözü bizim yaddaşımızdadır *(Dədə Qorquda).* Sən idin deyirdin: necə ki, sözü demisən, sənsən onu ağası, sözü dedinsə, odur sənin ağan.

Aruz. Söz var, yolu yoxdur, Baybura bəy.

Dədə Qorqud. *(Aruzu saxlayaraq).* Demişdim, Baybura bəy.

Baybura. Bəs onda, Dədə, irəli durmaq gərəkdir. Bu oğlanın elçiliyini edəlim.

Əmən. Baybecan bəyin bir oğlu var. Adına Dəli Qarcar deyirlər. Qız qardaşın diləyini öldürür.

Şirşəmsəddin. Nə deyib öldürür?! Böylə iş olurmu?

Əmən. Öldürür, bəyim, öldürür! Nə sənə baxır, nə mənə.

Dondar. Qılbaş, bundan Bayandur xanın, Qazan xanın xəbəri varmı?

Bəylər Qılbaşa baxır.

Qılbaş. Yoxdur Qazan xanın xəbəri bundan. Mən dəxi ilk dəfədir bu xəbəri eşitdim.

Baybura. Bəs nə edəlim, bəylər?

Dədə Qorqud. Baybura bəy. Dəli Qarcar, bəylər deyir, qız qardaşın istəyəni öldürür. Nə məqsədi, nə fikri var – Tanrı bilər. Baybecan bəy bu dünyada yox. Bir kimsəyə söz demək bu barədə imkansız. Sənin oğluna bu geniş dünyada qızmı qəhətə çıxdı? Gedəlim Dış Oğuza, gedəlim Dış Oğuzdan o yana ucsuz-bucaqsız kafir ellərinə – Trabzona, Bayburda-bir gözəl alalım sənin oğluna. Babasız qızı neylərsən, Baybura bəy?

Baybura. Dədə, bu sözü dedin, bir də demə. Mən oğluma Oğuzdan qız almaq dilərəm. Oğuza Oğuz qızı gərək.

Dədə Qorqud. Mən sözümü dedim. İndi artıq Oğuz bəyləri necə bilərlər, o cür də edəlim.

Qılbaş. Baybura bəy! Dədə burda düz deyir. Dünya geniş dünyadır. Dünyanın gözəl-gözəl ölkələri, şəhərləri var. O ölkələrdə, o şəhərlərdə gözəl-gözəl qızlar var ki, bizim igid oğullarımız onları Oğuza gətirsələr Oğuz yeni bir qüvvə, yeni bir təravət tapar. Dünya böyük dünyadır, Baybura bəy. Biz sıxılıb qalmışıq Oğuzun içində. O dünyaya varmaq, o dünyanın böyüklüyündən, gözəlliyindən dad almaq zamanı gəldi.

Baybura. Qılbaş! Bu sözü sən də demə. Mənim oğluma Oğuz qızı gərəkdir. Mənim oğluma beşikgərtmə nişanlısı Baybecan bəy qızı Banuçiçək gərəkdir. Onun elçiliyini edəlim, Tanrıya da xoş gedər, bəndəsinə də. Siz tanıqsınız, elçi dəxi siz olun.

Bəylər. Olaq bəyim, Tanrıya da xoş gedər, bəndəsinə də.

Əmən. Amma necə edəlim???

Dəli Dondar. Bu qızı istəməyə kim vara bilir?

Aruz. Məsləhərdir, öncə Dədə Qorqud varsın. Görsün dəli nə deyir, nə demir...

Bəylər. Məsləhətdir Dədə Qorqud varsın, məsləhətdir.

Dədə Qorqud. Bəylər! Çünki məni göndərirsiz, bilirsiniz ki ol Dəli Qacar qız qardaşını diləyəni öldürür. Barı Bayandur xanın tövləsindən iki şahbaz yüyrək at gətirin, bir keçibaşlı Keçər ayğırı, bir toğlu başlı Duru ayğırı. Nagah qaçma-qovma olarsa birisini minəm, birisini yedəm.

Baybura. Məqbuldur, Dədə. (Qılbaşa) Qılbaş! Bu ayğırları Bayandur xanın tövləsindən gətirə bilirikmi?

Qılbaş. Olur, bəyim.

Baybura. Di atları gətirin. Dədə varsın, yolçu yolda gərək.

İşıq sönür. İşıq yanır. Dədə Qorqud və Aruz.

Aruz. Dədə, bu elçilik heç yerinə düşmədi, nə deyirsən?

Qorqud. Aruz, var get Dəli Qarcara bu əhvalatı qandır. Ona de ki, mən izn verirəm mənimlə kafir düşmənlə danışan tək danışsın, öylə rəftar qılsın. Qızı almaq üçün elə şərtlər qoysun ki, heç bir ağıla sığmasın. Qız Beyrəyə çatmamalıdır. Qız...

Aruz. Dədə, Tanrıya qurban olum. Bayburanın arzusu baş tutmasa, Baybecanın qızını mənim oğluma alırmısan?

Qorqud. Baxalım, görəlim, Aruz. Sən var Dəli Qarcara dediklərimi çatdır.

İşıq sönür.

VI şəkil

Dəli Qarcar və yoldaşları.
Dədə Qorqud gəlir. Uzaqda durur.

Dədə Qorqud. Salam əleyküm, oğul Qarcar.

Dəli Qarçar. Əleykəssalam! Ey əməli azmış, fe'li dönmüş. Qadir Allah ağ alnına qara yazmış. Ayaqlılar buraya gəldiyi yox. Ağızlılar bu suyumdan içdiyi yox. Sənə nə oldu? Əməlinmi azdı? Fe'linmi döndü? Əcəlinmi gəldi? Buralarda neylərsən?

Yoldaşlar. Eh vah, Dəli Qarcar, həqqən dəli oldunmu ya? Görmədinmi, tanımadınmı kim gəlib durub divar önündə? Dədə Qorqudu bəyənmədinmi? Dəli Qarcar bunca danışmaq sənə yakışarmı? Dədə Qorqud tanrısı buna nə deyər?

Dəli Qarcar. Siz susun. Dədə bilər, mən bilərəm. Susun, tanıq olun söhbətimizə. *(Qorquda)* Buralarda neylərsən, söylə baxalım.

Dədə Qorqud. Hey Dəli Qarcar, dəli oğul!
Qarşı yatan dağını aşmağa gəlmişəm.
Axıntılı görklü suyunu keçməyə gəlmişəm,
Gen ətəyinə, dar qoltuğuna qısılmağa gəlmişəm,

Tanrının buyruğu ilə, qovlilə,
Aydan arı, gündən görklü qız qardaşın... Banuçiçəyi...
Bamsı Beyrəyə diləməyə gəlmişəm.
Budur gəlişimin məqsədi, oğul Dəli Qarçar.

Dəli Qarcar. *(yoldaşlarına)* Mərə! Nə dediyimi yetirin. Qara ayğırı yarağıyla gətirin.

Yoldaşları. Etmə, Dəli Qarcar, Dədə Qorquda əl qaldırma. Tanrıya xoş getməz. Evinə bəla gələr.

Dəli Qarcar. Nə dediyimi yetirin mənə. Qara ayğırı! Yarağımı!

Dədə Qorqud çəkilib çıxır.
İşıq sönür... Səs tufanı. Qovhaqov və at kişnərtiləri.

VII şəkil

İşıq yanır.
Yenə də Bayburanın evi. Həmən Oğuz bəyləri.

Baybura. Dədə Qorqud gəlib çıxmadı, bəylər. Nə edəlim?

Əmən. Ola ki, dəli dədəyə əl qaldıra. Tanrısı da ola ki, köməyinə yetməyə.

Bəylər. Bu dəli Qarcar Oğuza bir bəla olmasın. Bayandur xan bilə, qəzəb qıla.

Baybura. Bəlkə adam göndərəlim, bir xəbər gətirə? Ya izilə gedəlim?

Bəylər. Kimi göndərəcəksən, Baybura bəy?

Beyrək. *(gəlir).* Baba, Dədə Qorquddan xəbər gəldi.

Baybura. Nə xəbər gəldi, oğul? Söylə.

Beyrək. Baba, dəli Qarcarın naiblərindən biri gəldi. Deyir dəli Qarcar dədəyi görən kimi hədyan danışdı, dədəyi bihörmət etdi. Dədə məqsədini deyəndə at minib, yaraq taxıb dədəyi qovdu, ardına düşdü. Dədəm Qorqud dəxi durmadı, qaçdı. Dədənin altındakı toğlu başlı Duru ayğır yoruldu...

Bəylər. Ah, Dədəni qovub çatdımı?

Beyrək. Hələ çatmadı, bəylər. Dədəm Qorqud keçi başlı Keçər ayğıra sıçradı mindi. Dədəyi qova-qova Dəli Qarcar on yelək yer aşırdı. Ondan sonra Dədəm Qorqud ardından dəli Qarcar yetişdi.

Bəylər. Dədəyə qıydımı?

Beyrək. Qıydı, ya qıymadı-bilinmir. Danışıq edirlər – naib bunu dedi *(çıxır).*

Baybura. Onda deyirəm gözləyəlim, bəylər.

Bəylər. Düz deyirsən, gözləyəlim, bəyim. Biz nə edəcəkmişik?!

Əmən. Dədəyə qıyarmı qıymazmı, dəli Qarcar?

Beyrək. *(sevincək gəlir).* Baba, bir xəbər dəxi gəldi.

Bəylər. Oğul, nə xəbər gəldi, danış.

Beyrək. Xəbər gəldi ki, dəli Qarcar istəmiş Dədəm Qorquda həmlə qıla, diləmiş ki, başından qılıncla çala.

Bəylər. Ah, Dədə...

Əmən. Çaldımı?

Beyrək. Çalamadı. Dədəm Qorqud demiş: Çalarsan əlin qurusun. Tanrının buyruğu ilə dəli Qarcarın əli yuxarıda asılı qalmış.

Bəylər. Min şükür. Zira Dədə Qorqud vilayət yiyəsidir. Diləyi onun-çün qəbul olunub.

Əmən. Əli yuxarıda asılı qaldı. Bəs sonra nə oldu, oğul Beyrək?

Beyrək. Sonra Dəli Qarcar yalvarmış mədət, aman istəmiş. Tanrının birliyinə iman gətirmiş...

Əmən. Dəli Qarcarmı? Ah, ah , ah...

Beyrək. Bəli, bəyim, dəli Qarcar. Sonra demiş:

– Dədə, sən mənim əlimi sağalt, mən dəxi Tanrının buyruğu ilə, pey-ğəmbərin qovlilə qız qardaşımı Beyrəyə verəyim.

Əmən. Peyğəmbərin qovlilə demiş?

Beyrək. Bəli, bəyim, öylə demiş. Sonra üç kərə ağzından iqrar eləmiş. Günahına tövbə eləmiş.

Baybura. Bəs Dədə nə etmiş, oğul?

Beyrək. Baba, Dədə dəxi dua eyləmiş, dəlinin əli haqq əmri ilə sapasağ olmuş.

Bəylər. Olamaz. Yəni, dəlinin əli sağalmışmı, Beyrək?

Beyrək. Bəli, həşəmətli bəyim, sağalmış.

Baybura. Oğul Beyrək! Bəs Dədə şimdi nərədə? Niyə gəlməyi uzansın?

Dədə Qorqud daxil olur.

Bəylər. Dədə, xoş gəldin.

Beyrək irəli çıxıb Dədənin əlini öpür.

Baybura. Dədə! Oğlanmısan, qızmısan?

Dədə Qorqud. Oğlanam, bəyim.

Bəylər. Sağ ol, Dədə. Sevindirdin bizi.

Baybura. Bəs necə qurtardın dəlinin əlindən? İmanına şükür olsun, Dədə.

Dədə Qorqud. Allahın inayəti, ərənlərin hümməti oldu, qızı aldım, Baybura bəy.

Əmən. Allah köməyin olsun, Dədə.

Bəylər. Tanrı köməyin olsun, Dədə.

Baybura. Dəli nə qədər mal istədi, Dədə?

Qorqud. Yarımasın, yarçımasın. Dəlinin əli mənim duamla sapasağ olan kimi sordu: qız qardaşımın yoluna mən nə istərəm verərmisən? – dedi. Dedim: Verərəm. Di, de görüm, nə istərsən?

Bəylər. Nə istərsən, di de görəlim. Nə istəsən verəlim. Biz dəxi Oğuz bəyləriyik.

Qorqud. Bəylər! Dəli Qarcar elə mal istədi ki, heç bitməsin.

Bəylər. Nə mal ola o mal, Dədə?

Qorqud. Min ayğır diləyibdir kim, qısrağa aşmamış ola. Min dəxi buğra nər dilədi kim, maya görməmiş ola. Min dəxi qoç diləyibdir kim, qoyun görməmiş ola.

Bəylər. Bah, elə bunlarımı dilədi dəli?

Qorqud. Elə bunları diləmədi dəli. Min dəxi quyruqsuz, qulaqsız köpək dilədi.

Bəylər. Bah?..

Qorqud. Min dəxi qaraça-qaraça birələr dilədi.

Bəylər. Birəmi?

Qorqud. Birə dilədi, birə. Dedi: bu nəsnələri gətirəcək olarsız, qız qardaşımı verərəm. Gətirməyəcək olursan, gözümə görükməyəsən, yoxsa...

Bəylər. Yoxsa?

Qorqud. Yoxsa səni öldürərəm. Dəli Qarcar böylə dedi.

Baybura. Bəylər fikrə getdiniz?! Nə edəlim?

Bəylər. Nə edəcəyik, bəyim?! Köpəklə birə hardan tapılır – kim bilər?

Baybura. Dədə, mən bu nəsnələrin üçünü bulsam, ikisin sən bularmısan?

Qorqud. Bəli, bəyim, bularam.

Baybura. Onda, Dədə, köpəklə birəyi sən bul.

Bəylər. Baybura bəy! Dədə oğlan qayıtdı...

Baybura. Yeyəlim, içəlim, bəylər. Beyrəyin anasına, qız qardaşlarına, bizə arxa Oğuz bəylərinə müştçü getsin. Baybecanın qızını Beyrəyə aldıq desin. Bu günümüz xoş keçsin, bəylər. Nökər, naib, tez durun. Tovla-tovla atlarıma varın, min ayğır seçin. Qatar-qatar dəvələrimə varın, min buğra nər seçin, qoyunlarıma varın min qoç seçin. Gətirin, Dədə varsın dəli Qarcara.

İşıq sönür.

VIII şəkil

İşıq yanır.

Yenə də Dəli Qarcarın məkanı. Dəli Qarcar yoldaşları ilə kef məclisində. Dədə Qorqud gəlir.

Dədə Qorqud. Oğul Qarcar mən gəldim.

Qarcar. Görürəm gəldin, amma mənim dediklərimi dəxi gətirdinmi?

Qorqud. *(Qarcarı kənara çəkir, yavaşdan).* Oğul Qarcar, sən dediyin nəsnələr hazır. Yoldaşların qoy görsün ki, mən onların hamısını gətirdim. (Bərkdən). Bu ayğırlar, oğul! (Yavaşdan). Oğul, işlər qəlizləşdi. Oğul! Baban Baybecan bəyin Bayburda verdiyi söz yadındamı? O sözə yiyə durmaq gərək. Qız qardaşını Bayburda vermək gərək. Baybura oğlu Bamsı Beyrək ortaya çıxalı iş qəlizləşdi. Şimdi qız qardaşın əldən gedə bilər. (bərkdən) Bu dəvələr, oğul Qarçar (yavaşdan) bir tövrlə Bayburda xəbər getməsin. (bərkdən) Bu, qoçlar, oğul!

Dəli Qarçar. Bəs birələrlə köpəklər hanı, Dədə?

Qorqud. *(yavaşdan).* Oğul sən deyən birə, köpək bulunarmı? Mən Baybura bəyə "bularam" dedim, məndən şübhələnməsin. Sən dəxi de ki, buldun. (bərkdən) Bu köpəklər, oğul Qarcar!

Qarcar. *(bərkdən).* Ha-ha-ha. Nə gözəl köpəklərdir, Dədə? Bəs mənim birələrim hanı?

Qorqud. *(guya ki, birələri bir torbadan çıxarıb Qarcarın başına atır).* Bu da birələr, oğul Qarcar.

Qarcar guya birələrlə əlləşir. Yoldaşları gendən baxır, inanırlar.

Qarçar. Dədə, mədət! Dədə kərəm eylə! Allah eşqinə bu birələrdən məni qurtar!

Qorqud. Oğul Qarcar, nə qarğış edərsən? Götür, seç, gombulu sənin olsun, arığını at getsin. İstərsən qaytar mənə.

Qarcar. Hay-hay, Dədə. Sultan tanrı bunun gombulunu da alsın, arığını da alsın. Dədə, mənə mədət! Qurtar məni, Dədə!

Qorqud. Var, oğul, özünü suya vur. Birədir, suya axar, gedər.

Qarcar çaya tərəf qaçır. Yoldaşları Qorquda yaxınlaşıb itaətlə önündə dururlar. Onlardan biri Bayburanın xəbərçisi gizlicə aradan çıxır. Dəli Qarcar sudan çıxıb gəlir.

Qarcar. *(yavaşdan).* Dədə, indi nə edəyim?

Qorqud. *(yavaşdan).* Yoldaşların eşitsin: qızı verdim de. Mən dəxi Bayburda xəbər göndərim. Bir əlac buluna bu işə.

Qarcar. Qızı verdim, Dədə. Gedəlim, ağır düyün yarağın görəlim.

İşıq sönür

IX şəkil

İşıq yanır.
Dədə Qorqud öz məkanında. Bir nəfər əyilə-əyilə gəlir.

Qorqud. Qarcar qızı verəsi oldu. Məsləhətə baxmadı. Mən dəxi bir iş görə bilmədim. Bayburda gedərsən. Məliyi görüb gedərsən: Baybecan məlik əvvəl sənə verəcəyi qızı boz atlı Beyrəyə verdi. Gərdəyə girəcək.

Kölgə. Məlik sorsa, nə edəlim, – desə?

Qorqud. Adam göndərsin, qızı oğurlatsın. Yolu bu! Böylə məsləhətdir.

İşıq sönür. Qaranlıqda səs tufanı. Bir səs gəlir.

Səs. Baybura bəy! Muştuluq! Qız qardaşını Dəli Qarcar söz verdi. Muştuluq, Baybura bəy!

X şəkil

Qılbaş və gənc Oğuz igidləri: Beyrək, naib, Yalançı oğlu Yalıncıq, Qarabudaq...

Qılbaş. Gənc oğuzlar, vurub-yıxmağı bacardınız, baş kəsib qan tökməyi bacardınız – ad aldınız. Bəyiniz Beyrək bu gün-sabah öz adını sevdiyinin adına qatacaq. Murad verib murad alacaq. Toy toya qarışsın gərək.

Hamınızın toyu ola gərək. Oğuz eli öz içinə sığmasın gərək. Öz içindən gələcək onun genişliyi, sizinlə bir gələcək. O uzaq elləri (əli ilə uzaqları göstərir) görmədiniz, amma eşitdiniz. O uzaq ellər sizi gözlər qaldı. O ellərin qaza bənzər qızı-gəlini sizi gözlər qaldı. Oğuzun şöhrətini siz aparacaq, siz yayacaq, siz var edəcəksiniz, gənc bəylər!

Naib. Ağam Qılbaş. Bunca bizə anlatdın, anladıq. Yarın bəyimiz Beyrəyin toyudur. Biz toy necə olur-necə keçir bilmədik. Öyrənməmiz gərək. Onu dəxi anlatsan bizə...

Qılbaş. Oğul, naib! Oğuz toyu oxatmadan başlar, gedər. Bəyiniz adaxlıdı, yayını çəksin, oxunu atsın. Adaxlı bəyin oxu harada düşərsə orada gərdək qurular. O gərdəyin ətrafında yemək-içmək olar, amma düşmən bu pususundan ehtiyat! Qatı düşmən bir göz ilə öz evinin içinə baxar, bir göz ilə başqasının evinin içinə. Oxatmanın yarınkı günü yarış olar. Bəylər ox atar, qılınc tutar, at çapar, Salur Qazandan xələt almaq eşqilə min oyundan çıxar. Bu arada gəlini də gətirirlər gərdəyə. Aş qazanları qaynar, bardaqlara peydər-pey şərab süzər, Dədə Qorqud sazını çalar, dastan qoşar. İç oğuz Dış Oğuza qarışar, şadyanalıq olar. Bütün acları doydurar, bütün lütləri donatlar, sonra bəyi apararlar gərdəyə. Bəy gərdəkdə murad verər, murad alar, oğul. Arzusu hasil olar. Oğuz toyu belə keçər, oğul naib. Beyrək, oğul! Yayını çək, oxunu at! Yar-yoldaşın oxun arxasınca getsin, gərdəyini ox düşən yerdə qursun. Məsləhət belədir, oğul.

Naib. Yayını çək, ağam beyrək. Toyun mübarək olsun.

Beyrək. Bu toydan sizin üçün dəxi olsun, yoldaşlarım. Deyirsiniz yay çəkim, ox atim. Amma mənim bu yayımnan çıxan oxu tapmaq olmaz. Taparsanız uzaqlardan taparsınız.

Yalıncıq. Ver mən dəxi baxım *(yayı alıb baxır, çəkmək istəyir, gücü çatmır).*

Baho, Beyrək. Nə yaydı bu yay? Bunnan çıxan ox bərk uçar-gedər. Trabzona düşər, Bayburd hasarına düşər?! Gərdəyi də orda tikilə?!

Bəylər gülüşür.

Beyrək. Yaxşı, yoldaşlarım, mən oxumu atım, siz dəxi baxın tez atlara minin, ox uçan tərəfə çapın, atlarınız qanad açmasa oxu tapamayasız.

Qılbaş. Oğul, Beyrək! Danışıqdan bir şey çıxmaz çək yayını at oxunu.

Beyrək yayı Yalıncıqdan alıb çəkir və oxu atır. Qılbaşdan başqa hamı oxun atıldığı tərəfə qaçır.

Qılbaş. İgidlərim qalın Oğuzun güvənçi bəylər! Var olasız! Oğuz sizsiz, siz Oğuzsuz olmayasız.

İşıq sönür.

İşıq yanır. Əvvəl bir ox gəlib səhnənin ortasına düşür. Sonra o yerdə yaraşıqlı çadır artıq qurulub. Beyrək və gənc Oğuz bəyləri çadırın yanında oturublar. Yemək-içməyə hazırlıq, kənardan kölgə kimi yad adamlar görünür. Bu oturanları, elə bil, əhatəyə almaq istəyirlər. Kölgələrdən ikisinin söhbəti – pıçıltı ilə.

I kölgə. Hələ vaxtı deyil. Şərabın itisi içilməlidir.

II kölgə. Təkafür, məlik bizə dedi axı gərəkdir, qızı oğurlayaq çıxaq gedək. Oğlandan söz olmadı.

I kölgə. Sus! Mən hələ o günə düşmədim ki, yeddi yüz seçmə igidlə qız oğurluğuna çıxım. Bax, bunları oğurlayıb duralım, heç ruhları da inciməsin. Beyrək dəxi odur, içlərindədir.

II kölgə. Bəs məlik qeyzlənməzmi? O axı qızı gətirin dedi.

I kölgə. Məlik istər toy pozulsun. Hə fərqi var – qız, ya oğlan?! İkisindən də biri olmasa toy onsuz da baş tutmayacaq.

II kölgə. Beyindən çıxan sözdü, nə deyirəm...

Çəkilib gedirlər.

Beyrək. İsti oldu, bu şərabın itisi başa vurdu, yoldaşlarım *(qaftanını çıxarıb yerə atır)*

Yalançı. Yoldan səs gəldi, mən çıxım baxım *(çıxır).*

Beyrək. Bu nə səs ola? *(Naibə)* sən də bu tərəfə bax.

Naib də o biri tərəfə çıxmaq istərkən kafir əsgərləri naibi əhatəyə alır. Naib qılıncını sıyırır.

Kafirlər. Təslim ol! Həyat verəlim sana.

Naib. Kafir oğlu kafir! Təslim olmaram. Qara başımı ağam Beyrəyin başına qurban deyirəm.

Kafirlər. Onda gəbər!

Naibi qılınclayıb Beyrəyə tərəf gedirlər. Səs-küy düşür. Beyrəyin igidləri hamısı əsir düşür.

I kölgə. Hamı yoldaşların əsir düşdü. Səni də aparalım Beyrək. Toyunu Bayburdda edəlim. Gəl, adaxlı oğlan, düş önümüzə.

Beyrəyi aparırlar. Uzaqlaşan at kişnərtisi. Səhnədə heç kim yox. Yalıncıq gizlənə-gizlənə gəlir. Beyrəyin qaftanını yerdən götürür. Baxır, baxır, köynəyinin içinə soxub gizlədir.

Səs tufanı.

İşıq sönür.

İşıq yanır.

Səslər. Baybura bəy! Baybura bəy! Oğuzun başına bəla gəldi.

Baybura. Nə oldu, bəylər? Deyin mənə, nə oldu ki, Oğuz yasa batdı?

Səslər. Xan Beyrəyin gərdəyi görünürdü, görünməz oldu, Baybura bəy. Gərdək paralanmış. Naib şəhid olmuş. Kafir Beyrəyi də otuz doqquz yoldaşını da əsir edib aparmış. Oğlun talesiz oldu, Baybura bəy.

Baybura bəy. Ah, tərlanım Beyrək! Ah, talesiz oğlum Beyrək!

Evdən qadın səsləri. Oğul, oğul! Vay qardaş! Vay bəyim qardaş! Muradına, məqsədinə yetişməyən yalqız qardaş. Vay! Baybecan qızı Banuçiçəyin yolunda ölümə gedən qardaş! Talesiz oğul vay!

Baybura. Oğul, oğul, ay oğul. Toyu yasa dönən oğul. Gözlərimin işığı oğul, gözlərimin mayası oğul, canım oğul, gözüm oğul *(ah-zar edir).*

İşıq sönür.
Banuçiçək səhnənin ortasında tək.

Banuçiçək. *(həzin-həzin)* Vay, al duvağın yiyəsi. Vay, alnım, başım ümidi. Vay, şah igidim. Vay, şahbaz igidim. Doyunca üzünə baxmadığım, xanım igid. Hara getdin məni yalqız qoyub, canım igid?! Göz açıban gördüyüm, könülilə sevdiyim. Bir yastıqda baş qoyduğum. Yolunda öldüyüm, qurban olduğum. Vay, Qazan bəyin inağı. Vay, Qalın Oğuzun güvəndiyi Beyrək. Mənə sənsiz həyat yoxdu. Ömür boyu yolunu gözləyib duraram. Ömür boyu yas içinə batıb duraram. Ömür boyu gülmənəm dəxi. Beyrək, Beyrək, xanım Beyrək! Hara getdin məni yalqız qoyub, canım Beyrək?! Taleyim Beyrək...

İşıq sönür.

I hissənin sonu

II hissə

XI şəkil

Bayburd qalası. Bayburdun sarayı. Dəbdəbə və əzəmət. Bayburd tək. Yarımqaranlıq.

Bayburd. Nəhayət ki, xəbər gəldi. Təkafür toyu pozmuş, Baybura oğlu Beyrəyi otuz doqquz arkadaşı ilə əsir edib gətirmiş. Bir nisgil qaldı – Banuçiçək nisgili. Baybecan bəyin dönüklüyü, verdiyi vədəsinə xilaf çıxmağı gərək cəzasız qalmayaydı. Qızı gərək babasının əvəzinə cavab verəydi. Deyirlər ki, gözəldi, ağ mərmərə bənzəyir Oğuz qızı Banuçiçək. Atası Baybecan məlik əvvəl-əvvəl mənə vermək istədi qızını. Son məqamda sözünə dönük çıxdı. Mənə verəcəyi qızını Baybura oğlu Beyrəyə vermək istədi. Göylər yerə qonub düşə, yerlər göyə birləşə, qoymanam bu izdivac baş tutsun. Beyrək Bayburdda, qız Oğuzda. Ömründə birləşməz onlar. Beyrəyi bir təhər ələ gətirib Oğuza qırım qoymaq, bəlkə lap gələcəkdə Oğuza bəylər bəyi eləmək pis olmazdı. Burdasan?

Casus elə bil, kölgə kimi qaranlıqdan çıxır.

Burdasan? Burdasan! Oğuzda təzə nə var? Beyrək gedəli nə tədbir qılırlar?

Casus. Bəyim! Bütün İç Oğuz bir-birinə dəymiş. Baybura bəyin qızları ağ çıxarıb qara geymiş. Salur Qazan bəyləri məşvərətə yığmış.

Bayburd. Məşvərət?! Məşvərətdən nə çıxar? Məşvərətdən bir şey çıxmaz. *(susur)* Baybecan qızı Banuçiçək nə edir?

Casus. O dəxi, bəyim, ağ çıxarıb, qara geyib. Yas saxlayır.

Bayburd. Yasmı?

Casus. Bəyim, Beyrəyin öldüsü ilə qaldısını Oğuzda bilən yox. Babası gecə-gündüz zar-zar ağlar. Dedilər ki, Beyrək öldü, ya qaldı xəbərin kim versə, ənam alacaq.

Bayburd. Mən Oğuzdan öz payımı alıram. Baybura oğlu Beyrək Baybecan qızı Banuçiçəklə murad verib almayacaq. Toy olmayacaq. Düyün toplaşmayacaq. Mənə verdi Baybecan öz yeni doğmuş qızını. Dədə özü şahiddi. Təkafür!

Təkafür. *(gəlir)* Buyur, bəyim.

Bayburd. Təkafür! Qalanı möhkəmlədin. Qoruqçunun sayını artıq edin. Oğuzdan quş gəlsə, quşluğu ilə Bayburd hasarını aşa bilməsin. Beyrək barədə heç bir xəbər də Oğuza getməsin.

Təkafür baş əyib çıxır.

Bayburd. Dədə bir məsləhət dedimi? İsmarışı varmı?

Casus. Bəyim Bayburd. Dədənin məsləhəti belədi ki, Beyrəyi Bayburd içində böyrək yağ içində kimi saxlayasan. Beyrəyi burda baş-ayaq edəsən. Ta ki, Oğuz, Bayburd üzbəüz durmaya. Qan tökülməyə.

Bayburd. Get. Dayan. Dədəyə de ki, məsləhəti qəbulumdur. Oğuzu isə o özü saxlasın, tərpənməyə qoymasın. O da mənimlə Banuçiçəyi başayaq eləsin.

İşıq sönür. Sonra səhnənin bir tərəfində yanır. Dədə Qorqud və Dəli Qarcar.

Qorqud. Oğul, Qarcar. Beyrək bacın Banuçiçəyin nişanlısıydı. İndi öldüyü, qaldığı bilinmir. Var get Qazan bəyə de ki, bacımı ərə vermək istərəm. Kim ölüsü xəbərini gətirsə, ona.

Qarcar baş əyir. İşıq sönür.
İşıq yanır. Bayburd sarayı. Hər yan al-əlvan. Bütün işıqlar yanır. Bayburd, xatunu, qızı.

Bayburd. Bizim əsirlərə baxmadınızmı?

Xatun. Oğuzdan gələnləri görmədik.

Kafir qızı. Əziz baba, qız-gəlinlər varmı aralarında?

Bayburd. Yoxdur, qızım. Gərək olaydı, olmadı.

Kafir qızı. Əziz baba, deyirlər, içlərində bir igid var – niqab taxarmış. Oğuzda niqabı niyə taxarlar, baba?

Bayburd. Oğuz eli gözdən, bəd-nəzərdən qorxar. Niqab gözdən saxlayır. Beyrək bununçün niqab taxardı.

Kafir qızı. Beyrəyə gözmü dəyəcəkmiş?

Bayburd. Niqab da kömək eləmədi ona. Bundan artıq nə göz dəyəcəkmiş? Ömrünün bu tərəfi Bayburdda keçəcək.

Xatun. Bayburd. Oğuz igidlərini çağır, biz də onlara tamaşa eləyək.

Bayburd. Təkafür!

Təkafür gəlir.

Bayburd. Gətir Beyrəyi. Amma əllərini bağlayın, sonra.

Təkafür gedir.

Bayburd. Beyrək xas Oğuz igididir. Baybura bəy deyilən Oğuz bəyinin oğludur. Babasının bəzirganlarını qaçaq-quldurdan qorumuş, Dədə Qorqud ona Beyrək adı vermiş.

Kafir qızı. Beyrək adı nədi, baba?

Bayburd. Mən bilmənəm. İndi gələr, özündən sor.

Beyrək və Təkafür gəlir.

Kafir qızı. Odur! Özüdür! Yuxularımda gördüyüm igiddi. Ah! Anacığım, odur...

Xatun. Qızım, sakit ol. Bir dur görəlim, bu igid necə igiddi. Sən onu yuxunda görə bilməzsən. O uzaq Oğuz elində yaşayırdı. Sən onu yuxunda necə görmüsən?

Kafir qızı. Yox, əziz ana, odur. Görən kimi tanıdım. Boz atlı igid odur.

Bayburd. *(son sözləri eşidir).* Bəli qızım. Boz atlıdır Beyrək. Sən bunu hardan bildin?

Kafir qızı. Baba, yuxumda görmüşəm.

Bayburd. Yuxunda görmüsən?

Kafir qızı. Bəli, əziz baba, yuxumda.*(Gəlib durur Beyrəyin qarşısında, diqqətlə baxır, baxır).* Odur babacığım, yuxularımın igididir bu igid.

Bayburd. Siz gedin.

Xatun və qız gedirlər.

Bayburd. Beyrək! Sənin təzə yurdun Bayburd oldu. Sevinirsənmi?

Beyrək. *(rişxəndlə)* Sevinirəm.

Bayburd. Sevinirsən?

Beyrək. Yerim daş, divarım daş. Geniş Oğuz yaylaqları, geyikli, çuyurlu yaşıl Oğuz dağları hər gün yuxumda. Mən sevinə bilərəmmi?

Bayburd. Mənim məsləhətimə baxıb dursan, Bayburd sənə Oğuzdan da əziz olar.

Beyrək. Bayburd bir qaladır, dörd tərəfi uca hasar.

Bayburd. *(yavaşdan).* İstərsən, o sənin ola bilər.

Beyrək. Mənimmi?

Bayburd. Qızım sənə vurulmuş, bunu duymaq asan bir iş. İndiyədək heç kim onun gönlünü avlaya bilmədi. Cəsur cəngavərlər yaxın-uzaq ellərdən gəldilər, bəyənmədi heç birini. Xatunum deyir, yuxuda butası verilib. Mən inanmırdım, indi inandım. Qızımı sənə verim, Baybura oğlu, ağır düyünün edim. Bu gün varam, sabah yox, Bayburda sənin kimi *(Təkafürə əl edib qovur. Təkafür çıxır)* mələk gərək.

Beyrək. Mənim nişanlım var, sevdiyim var.

Bayburd. Unut onu, Beyrək. Acı bir yuxu kimi unut. Bir dəxi onu görməyəcəksən. Onun düyünü həmişə qan üstündə qurulacaq.

Beyrək. Unuda bilmərəm, mələk. İstəsəm də unuda bilmərəm. Desəm ki, unudaram, yenə unuda bilmərəm.

Bayburd. Mən sənə onu unutduraram. Sən həbsdə yox, kefdə-şənlikdə yaşayanda unudarsan. Unudarsan. *(Səhnə arxasına).* Gəl apar bunu!

Təkafür gəlir. Beyrəyi qabağına salıb aparır.

Bayburd. Unudarsan!..

İşıq sönür.

XII şəkil

Beyrək həbsdə zindan olmağına zindan, amma xüsusi olaraq Beyrək üçün düzəldilmiş rahat yer. Beyrək elə bil evindədir, özünü bu həbs yerinin sahibi kimi aparır. İndi o yatır. Yatıb yuxusunda Oğuz elini, səs tufanı. Bu səs tufanının müşayiəti ilə kor olmuş və güclə yeriyən, heysiz Baybura bəy gəlib səhnədən keçir. Sonra Banuçiçək görünür. Yalıncıq oğrun-oğrun gəlir. Beyrəyin qaftanını qırmızı qana sürtüb ona uzadır. Banuçiçək geri çəkilə-çəkilə səhnədən çıxır. Dəli Qarcar səhnəyə gəlib qanlı paltarı Yalıncıqdan alır. Yalıncıq çıxır. Səhnəyə Qorqud, Aruz gəlirlər və Qarçarla birləşib üçlük düzəldirlər. Beyrək yuxudan ayılır.

Beyrək. Tanrım, bu nə uyqudur? Oğuz eli mən qoyub getdiyim deyil. Babamın gözləri tutulmuş, nişanlımın əlində mənim qanlı qaftanım... Dədəm Qorqud at ağızlı Aruz Qoca ilə, bir də Dəli Qarcar ilə...

İllər keçdi Bayburd hasarı mənə evimi-eşiyimi əvəz elədi. Babam, qız qardaşlarım şivənimi tutdular, yasa batdılar. Oğuz mənə yuxularımın ilğımı oldu. Nə baş verdi, nə baş vermədi, bu illərdə biləmədim. Bayburd hasarı ucadan uca, keçilməzdən keçilməz. Keçib gedə bilsəydim, bir anlığa gözlərimlə Oğuzu görüb geri dönsəydim...

Səhnəyə iki qız girib əllərindəki məcməyiləri Beyrəyin önünə qoyub çıxırlar.

Beyrək. Məhbub kafir qızı öz məhəbbəti ilə məni öldürüb qurtaracaq. İndi yenə çalıb çağıra-çağıra gələcək. Bir gün belə mənsiz yaşaya bilmir. Uca Tanrım! Ürəyimi avlayıb Oğuzu belə unutdurub mənə. Oğuz, sənin ağban evlərini, sərin-sərin pınarlarını, kölgəli-oturumlu çinarlarını, qız-gəlinini unutmaq olurmu? Arkadaşım, otuz doqquz yoldaşım burda Bayburdda əsir-yesir... Mən rahat olarammı? Ürəyim qan ağlar, köksümdə inlər, inlər Dədəm Qorqud sazı kimi. Mənim günüm-dirriyim əsirlikdə. Bayburd düzünü deyirmiş, unutdurdu o mənə Oğuzu. Unutdurdu. Ah, Oğuz, Oğuz... Babam yurdu Oğuz...

Bəzirganlar üç nəfər yavaş-yavaş səhnəyə daxil olur.

Beyrək. Kim ola bu adamlar? Bayburd hasarındakılara bənzəməzlər.

Bəzirganlar irəli gəlib baş endirir.

Beyrək. Kimsiniz siz? Haradan gəlib haraya gedirsiniz? Üzünüzdən-gözünüzdən doğma adamlara bənzəyirsiniz. Deyəsən, tanıdım sizi *(sevincək).* Bəy babamın bəzirganları, sizsinizmi?

Bəzirganlar. Bizik, bəyimiz Beyrək.

Beyrək. Bəs buralara necə keçib gəldiniz? Quş quşluğu ilə Bayburd hasarından uçub keçə bilməz ki...

Birinci Bəzirgan. Gözçünü satın aldıq, bəyim. Bəy babanın əmri ilə səni gəzə-gəzə gəlib çıxdıq Bayburda. Ölümünü, həyatını bilmək istər Oğuz.

Beyrək. Oğuzda nə var, nə yox? Eh Oğuz, Oğuz... Yuxularımın şirini, arzularımın şəkəri...

İkinci Bəzirgan. Oğuzda işlər fənadır, bəyim

Beyrək. Niyə? Səbəb? Nə olmuşdur Oğuza?

Birinci Bəzirgan. Bəyimiz Beyrək. Oğuz bəxti yaman Oğuz imiş. İnsan tamahından nə gələrsə başa, gəldi Oğuzun başına. Bir Təpəgöz peyda oldu. Başladı adam əti yeməyə. Az qaldı bütün Oğuzu yeyib qurtarsın. Yeddi dəfə hürkdü Oğuz, pəhləvanlar əlində zəbun oldu Təpəgözün. Ox batmadı ona, qılınc kəsmədi onu...

Üçüncü Bəzirgan. Xanım Beyrək!

Beyrək. *(diksinir).* Hə?!

Üçüncü Bəzirgan. Xanım Beyrək! Oğuzun qəhrəman oğlu Beyrək! Dinlə məni, ağam Beyrək. Təpəgöz dedikləri bir bəlaydı-gəldi, getdi. Alqış at ağızlı Aruz qoca oğlu Basat bəyə!..

Beyrək. Basatamı???

Bəzirganlar. Basata, bəyim, Basata. Hiylə ilə Təpəgözün mağarasına yol aldı Basat. Hiylə ilə bədənində yeganə əti olan yeri öyrənib bildi Basat. Gecə ilə süklüyü oda basdı, qızdırıb yanar dağ elədi Basat. Sonra onun tək gözünün qapağını qaldırdı Basat. Süklüyü gözünə soxdu Basat. Təpəgözü kor elədi Basat. Təpəgözü böyürdübən başını kəsdi Basat.

Beyrək. Basat, Basat... Mən yoxam ki, Basat da Basat oldu. Oğuzda Basat tanıyanmı vardı? Beyrəyi uzaqda gördü Təpəgöz, ya ölmüş gördü? Mənə Basat, Basat çox deməyin. At ağızlı Aruz oğlu Basatdan qeyri Oğuzda igid tapılmadımı?! Hiyləgərlik qadınların peşəsidir. Mən olsaydım Oğuzda, ox-yayımı əlimə ala bilsəydim Təpəgözmü davam gətirəcəkdi? Düzmü dedim, bəzirganlar?

Bəzirganlar. Düz dedin, ağamız Beyrək, şəkər yedin.

Beyrək. Tanrım yol göstərər, qayıdaram, görərik.

Bəzirganlar. Qayıt, bəyimiz. Bütün Oğuz eli yolunu gözləməkdən usanıb. Hamının dilində nakam Beyrək, talesiz Beyrək, ağam Beyrək...

Beyrək. Lap elə hamı gözləyir Beyrəyi?

Bəzirganlar. Hamı, bəyimiz, hamı. Baban, anan, qız qardaşların, nökərlərin...

Beyrək. Daha heç kim? Susursunuz, bəzirganlar?! Bəs mənim deyiklimin, nişanlımın, gözəl Banuçiçəyimin gözləri yol çəkməkdən yoruldumu? Yox, uyqularım məni aldatmadı. Məni o unutdu birinci...

Bəzirganlar başlarını yerə dikib susur.

Beyrək. Susursunuz, Bəzirganlar? Susmağınızı anlamadım.

I Bəzirgan. Ağam Beyrək! Sən burda, o orda. Biz də gəldik deyək sənə Oğuza dönməsən babana-anana varmasan, sevdiyinə sahib olmasan, Yalançı oğlu Yalançıya verəcəklər Banuçiçəyi.

II Bəzirgan. Sənin qanlı qaftanını "Beyrək öldü" deyə gətirmiş, sultanımız Salur Qazana vermiş. O dəxi Dəli Qarcarla məsləhət eləmiş, Dədəm Qorquda dəxi sormuşlar. Məsləhət olmuş ki, toy tədarükünü qılsınlar.

III Bəzirgan. Bəli ağamız Beyrək. Belədir ki, var.

Beyrək. On altı il bu dar qəfəs mənim üçün Oğuz oldu. Mən burda babamın, anamın həsrətini çəkdim. Baybecan qızı Banuçiçək hər gün mənim həsrətli gecələrimin mehmanı oldu... *(doluxsunur).*

Bəzirganlar hönkürtü vurur. Birdən qaval səsi gəlir. Qarabaşlar oynaya-oynaya kafir qızı ilə əllərində yemək məcməyiləri içəri girirlər. Bəzirganlar mat-məəttəl. Beyrək əli ilə işarə edib qızları qovur. Düşüncəli.

Beyrək. Bunlar kim idilər? Bəzirganlar! Deyin mənə. Mən gedəli mənim həsrətimlə təpə üstünə çıxıb yollara baxmadımı Banuçiçək? Ağ üzünü cırıb göz yaşlarını al yanaqdan axıtdımı Banuçiçək? Ərinmədən gələn elçiləri bir-bir geri göndərdimi Banuçiçək? Bunları etdimi, bəzirganlar? Deyin mənə. Qara başım qurban olsun sizə.

Bəzirganlar. *(Bir-birinə)*. Sən de. Yox sən de. Mən niyə? Nolar sən bilərsən de. Mən deyərəm.

Birinci Bəzirgan. Xanım Beyrək! Qarşı yatan qara dağım yıxılmışdı...

Beyrək. *(sərt, elə bil yuxudan ayılır).* Onları saxla. Dayan. İnandımı mənim ölməyimə Banuçiçək? İnandım ki, qaftanımdakı qan mənim qanımdır?

Bəzirganlar. İnandı, bəyim, inandı. İnanmayıb neyləsin – on altı ildir yoxsan. Xatundu bəyim. Xatunda ağıl olarmı?

Beyrək. Bax bir. Gör bir. İndi mən nə edim, Tanrım?!

Birinci Bəzirgan. Özünü Oğuza çatdırmağın gərəkdir, bəyim.

İkinci Bəzirgan. Necə olursa, olsun Oğuza dönməlisən.

Üçüncü Bəzirgan. Qoy qolunun gücünü, zəhmini, qeyrətini bütün Oğuz görsün. Oğuz... Oğuz... Oğuz...

Beyrək. Toy nə vaxtdır?

Bəzirganlar. Bu gün-yarın.

İşıq sönür.
İşıq yanır.
Beyrək fikirli. Kafir qızı gəlir.

Kafir qızı. Bəyim, Beyrək. Niyə belə fikirlisən, gözüm mənim, işığım mənim? Ömrümdə sevdiyim, gönül verdiyim. Səni görməyə gəldim. Sanki min il görməmişəm.

Beyrək. Dün gəlmişdin. Hər gün gəlirsən.

Kafir qızı. Gəlmişdim, bəyim, gəlmişdim. Səni görmədən yaşaya bilmirəm. Başımın tacı sənsən. İgid, qaplan Beyrəyim.

Beyrək çəkilir bir küncə. Dinməz-söyləməz.

Kafir qızı. Xanım Beyrək. Niyə susdun, canım mənim?! Beyrək, Beyrək, boz ayğırlı igid Beyrək, qaplan Beyrək. Susursan, başımın tacı? Neçin səxsən, fikirlisən, xanım igid? Gəldiyimcə səni şən görərdim. Gülərdin. Oynayardın. İndi noldun?

Beyrək. Necə səxt olmayım? On altı ildir ki, sənin babanın dustağıyam. Ataya, anaya, qohuma, qardaşa həsrətəm. Bir qaragözlü yavrum vardı...

Kafir qızı. Ah, Banuçiçəkmi?

Beyrək. Bəli, Banuçiçək! Banuçiçək... *(gəzişir).* Oğuzda Yalançı oğlu Yalıncıq deyilən bir kişi var. Nəfəsi yalan, sözü yalan. Varmış bir yalan dəxi söyləmiş bəyimiz Salur Qazana. Qanlı qaftanımı göstərmiş, məni ölmüş demiş.

Kafir qızı. Ah... ölmüşmü?

Beyrək. Bəli, ölmüş demiş. Qız dəxi ona inanmış, ona varar olmuş. Bundan sonra mənim dəxi bağrım burda çatlar, həqqən ölərəm...

Kafir qızı. Öyləmi dərsin?! Beyrək, Beyrək. Səni sevdim, sənin üçün nə istərsən etməyə hazıram. Mən nə edim? Söylə.

Beyrək. Kim məni bu dustaqdan qurtarar, kim? Heç olmasa bir anlığa Oğuza gedə bilsəm, gözümlə görüb qolum qüvvətimlə yalançıları yerləyeksan edə bilsəm... Babamı, anamı görə bilsəm...

Kafir qızı. Əgər səni hasardan aşağı orqanla sallandıracaq olursam, babana, anana sağlıqla varacaq olursan, məni burda gəlib halallığa qəbul edib alarmısan?

Beyrək. *(həyəcanla).* Doğrumu? Qılıncıma doğranayım, oxuma sancılayım, yer kimi gərtiləyim, topraq kimi sovrulayım. Sağlıqla varacaq olursam Oğuza gəlib səni halallığa almazsam.

Sükut. Səs tufanı başlayır.

Kafir qızı. Gözlə məni, hazır ol. *(çıxır).*

İşıq tufanı. Qaranlıq. Kafir qızı və Beyrək gizlənə-gizlənə zindandan çıxıb gedirlər. Beyrək səhnədən çıxır. Qız qalır. Qız geri qayıdır. Çaxnaşma. Səslər: "Qaçdı. Qoyma. Getdi. Bayburd, Beyrək qaçdı getdi. Beyrək Boz atına mindi, tez ardına qonun".

Beyrəyin səsi. Ehey, kafir, dinlə məni. Tanrı mənə yol verdi, gedər oldum. Otuz doqquz igidimi qoyub gedirəm. Otuz doqquz igidim əmanəti, kafir. Gələcəyəm. Birini əskik bulsam yerinə on kafir öldürərəm. Onun əskik bulsam yüz kafir öldürərəm. İgidlərim əmanəti, kafir. Gedər oldum, gələcəyəm.

Səs tufanı. Kafir qızı, elə bil, bu səsləri bir-bir görmək istəyir, anlamaq istəyir.

İşıq sönür.

XIII şəkil

Oğuz eli. Beyrək gəlir.

Beyrək. Bu da Oğuz. Yuxularımın Oğuzu. Baba yurdum. Gənclik oylağım. Oğuz dağları, sizləri görürdüm Bayburd həsrətimin yuxularında. Oğuz düzəngahları, sizlərin bulaqları, sizlərin çayları mənim on altı ilimin sərabına döndü. Heç kim yoxdur ki... Bu kimdir? Ozana oxşayır.

Ozan gəlir.

Beyrək. Bu ozanmış. Bir soralım, görəlim Oğuzda nə var, nə yox. Ozan, nə yerə gedirsən?

Ozan. Bəy igid, düyünə gedirəm.

Beyrək. Ozan, düyün kimindir?

Ozan. Yalançı oğlu Yalıncıq derlər bir kişinindir.

Beyrək. Ozan, kimin nəyini alır?

Ozan. Xan Beyrəyin adaxlısı vardı – Banuçiçək, onu alır.

Beyrək. Ozan, qopuzunu mana ver. Param – yox, əvəzində atımı sənə verərəm. Saxla atı, gələrəm, bahasını gətirərəm, geri alaram səndən.

Ozan. *(öz-özünə)*. Nə yaxşı oldu. Avazım gödəlmədən, bir atdır əlimə girdi. *(Beyrəyə)* Razıyam, bəy igid.

Beyrək. At orda, ağaca bağlı. *(Beyrək qopuzu alır.)*

Ozan. Vallah yaxşı igiddir, mürüvvətli igiddir. Kim ola bu igid? *(Gedir)*

Çobanlar yola daş ata-ata gəlirlər.

Beyrək. Ey çobanlar. Bir kişi yolda daş bulsa, qırağa qoyar. Siz bu yola bu daşı neçün yığırsız? Görüm hələ nə deyəcəklər?

Çobanlar. Ehey, bəy igid. Sən səni bilirsən, sənin bizim halımızdan xəbərin yox.

Beyrək. Nə halınız vardır ki?..

Çobanlar. Bəyimizin bir oğlu vardı. Ol altı ildir kim, ölüsü-dirisi xəbərin kimsə bilmədi. Yarımasın, yarımasın Yalançı oğlu Yalıncıq ölüsü xəbərin gətirdi. Adaxlısını ona verər oldular. Gəlir burdan keçər. Vurarıq onu, ona varmasın. Kimə varır, varsın, ona varmasın.

Beyrək. Üzünüz ağ olsun, çobanlar. Ağanızın ətməyi sizə halal olsun.

Çobanlar yerə daş düzə-düzə gedirlər.

Beyrək. Oğuz, Oğuz!.. Halal adamların ölmədi, yaşadı. Aha, bunlar da qız bacılarım olsun gərək.

Beyrəyin bacıları çiyinlərində su səhəngi gəlirlər. Beyrək onları tanıyır. Özünü tanımazlığa vurur. Qızlar ağlaşırlar.

Beyrək. Nə ağlarsız, qızlar, nə bozlarsız? Məgər sizin ağanız yox olubdur? Ürəyinə qaynar yağlar qoyulubdur? Ağa deyib nə ağlarsız, deyin mənə, qızlar.

Qızlar. Ozan, sənin bizdən xəbərin yox. Ürəyimizdə qara bağrımız dəlinibdir. Kölgəli qaba ağacımız kəsilibdir. Dünyəlikdə bir qardaşımız alınıbdır. Burda durma, burda çalma, ozan. Eldə toy-düyün var, düyünə var, öt get, bizim dərdimiz böyükdür.

Beyrək. Bağrı qan qızlar, aman, aman... Ağ çıxarıb qara geydiz, görürəm. Mən də üç gündür gecəli-gündüzlü yol gəlirəm. Qara sac altında yeməyə nəyiniz var? Qarnımı doyurarsınızmı? Geyməyə paltarım yox. Ağanızın başı və gözü sədəqəsi köhnə qaftandan nəyiniz var? Varsa verin geyim, düyünə varım. Düyündə işdi əgər əlimə qaftan girərsə qaftanınızı, əlbəttə, geri verərəm.

Beyrək keçib bir qıraqda oturur. Qızlardan biri yemək gətirir, digəri paltar gətirir. Beyrək qaftan geyir, yemək yeyir.

I Bacı. Ozan! Qarşı yatan dağlardan aşan yerdə, daşqın-daşqın sulardan üzən yerdə, adlı-adlı şəhərlərdən keçən yerdə Beyrək adlı bir igidlə buluşmadınmı?

II Bacı. Qara qıyma gözlərin çöngəlməsəydi, üzünü qara saç örtməsəydi, dəmir polad biləklərin solmasaydı, apul-apul yerişindən, aslan kimi duruşundan, qanırlıban baxışından...

Bacılar. Ağam Beyrək deyərdik biz, ozan, sənə. Kimsən, ozan, söylə bizə. Sevindir bizi, ozan.

Beyrək. *(öz-özünə).* Qızlar bu qaftanla məni tanıdılar. Qalın Oğuz bəyləri dəxi tanıyarlar. Bu qaftanla düyünə getmək olmaz. Görəlim, Oğuzda mənim dostum, düşmənim kimdir? *(Qaftanı çıxarıb yerə atır, qızlara).* Nə siz qalasız, nə Beyrək. Bir əski qaftan verdiniz, mənim başım-beynim aldınız. Gərək deyil, mən düyünə belə də gedərəm.

Beyrək ora-bura baxır. Yerdə bir atılmış çul görür. Götürüb boynuna keçirir. Gedir.

XIV şəkil

Düyünün şıdırğı yeri. İgidlərin ox atma yarışı. Beyrək gəlib sakitcə kənardan durub baxır. Kim atırsa "əlin var olsun" deyir. Ox atmağa Yalıncıq yaxınlaşır.

Beyrək. Əlin qurusun, barmaqların çürüsün, donuz oğlu donuz. Qurban olasan bu igidlərə.

Yalıncıq. Mənə, qavat oğlu qavat. Sən kimsən ki, mənə bunun kimi sözlər deyirsən?! Gəl qavat oğlu mənim yayımı çək. Yoxsa səni öldürərəm.

Beyrək gəlib yayı alır, dartıb çəkir iki parça edir.

Beyrək. Daz yerdə turağay atmağa yaxşıdı bu yay.

Yalıncıq. *(hirslə).* Gedin, Beyrəyin yayı vardır, onu gətirin.

Bəylər. Sən nə deyirsən?! Onu çəkə bilməz.

Yalıncıq. Çəkə bilməz, öldürərəm onu.

Yayı gətirirlər, Beyrək alır.

Beyrək. Yayım, yayım, ey yayım... Bəylər, sizin eşqinizə çəkəyim yayı, atayım oxu.

Yayı çəkib oxu atır.

Bəylər. Əhsən, min əhsən. Yaxşı igid, qüvvətli igid! Beyrəyin yayın çəkib oxun atan yox.

Naib. *(gəlir).* Dəli Ozan! Qazan xan səni gördü. Qazan xan xəbər göndərdi. Qazan xan deyər: Dəli Ozan nə dilərsə diləsin məndən. Çətirli otaqmı dilər, qul-qaravaşmı dilər, altun-axçamı dilər? Nə dilərsə verəyim.

Beyrək. *(səhnədə görünməyən, amma, elə bil, ruhu burada olan Qazan xana müraciətlə).* İgidlərin arxası! Biz miskinlərin ümidi. Bayandur xanın göyküsü. Tulu quşun yavrusu. Türküstanın dirəyi. Ümmət soyunun arslanı, Qaraçuğun qaplanı. Qonur atın yiyəsi. Xan Uruzun babası. Xanım Qazan! Sağda oturan sağ bəylər. Solda oturan sol bəylər. Eşikdəki inağlar. Dibdə outran xas bəylər. Qutlu olsun dövlətiniz.

Bəylər hörmət və təəccüb içində.

Naib. Nə dilərsən, dilə, ozan.

Beyrək. Sultanım! Məni qoysan da şülən yeməyinin yanına varsam, qarnım acdır, doyursan...

İkinci Naib. *(gəlir).* Qazan xandan buyruq oldu. Dəli ozan, təpdi. Salur Qazan bugünkü bəyliyim bunun olsun dedi. Qoyun nə yerə gedirsə getsin. Neylərsə eləsin.

Bəylər hörmətlə baş əyir, yol verirlər. Beyrək keçib gedən yerdə.

Beyrək. *(qışqırır).* Qızların yanına varmaq istərəm!

Səhnənin bir küncündə yarım qaranlıq. Dədə Qorqud, Aruz və Qarçar.

Qorqud. Tanrım mənə xəbər göndərir. Tanrım şükür, şükür, şükür...

Birdən üzünü Aruza və Qarcara tutur.

Düyünü pozan Baybura oğlu Beyrəkdir – bəli, bilin.

Aruz. Dədə, bəs neçin özünü dəliliyə vurub? Əsirlikdən qurtuldu, deməli.

Qorqud. Dost-düşməni tanımaqdan ötrü. Oğul Qarcar, Yalıncıq həpinizi aldatdı, Beyrəyi ölmüş dedi, Beyrək sağ. Var tap Yalıncığa cəzasını özün ver.

Qarcar. Dədə, qız qardaşımı indi Beyrəyəmi verəcəyik?

Aruz Qoca pərt.

Qorqud. Başqa əlac yox. Beyrək Bayburda varmaq, yoldaşlarını əsirlikdən qurtarmaq diləyəcək. Dönüb öz düyününü özü edəcək.

Aruz. Dədə, Bayburda xəbər göndərəkmi?

Qorqud. *(uzun fikirdən sonra).* Yox, Bayburdun qismətini Tanrım yazdı. Öz əlacını özü qılsın. Bizim bundan sonra Bayburd adlı bir tanışımız, bilişimiz yox, bəylər... gedin *(Aruz və Qarcar gedirlər.)*

Qorqud. *(Ən müxtəlif əşyalara müraciətlə)* heç kim yoxdu. Siz və mən. Sən nə deyirsən? Sən? Ya sən? Sən ki məni bir an belə rahat buraxmazdın. Bilmək istərdin Oğuzun başına gələcəkləri. İstərdin biləsən. İstərdin... duyuram... qanım mənə belə deyir: indi də istərsən biləsən. Ya yox? Mənə inanmadınmı dəxi? Bütün müşgülün həllin uca Tanrım mənə verdi. Oğuza bilici oldum. Qaibdən xəbərlər çox söylədim. Mən söylərdim, siz dəxi məni dinlərdiniz. Sən məni dinləmək istərmisən? Nə dersən? Ya sən? Sən?

İşıq yavaş-yavaş sönür.
İşıq yanır.

XIV şəkil

Qadınların toy otağı. Çalıb oynayan kim? Məcməyi daşıyan kim? Girib-çıxan kim? Banuçiçək, Burla xatun, Qısırca Yengə, Boğazca Fatma və Oğuz xanımları əyləşiblər.

II Naib. *(gəlir, Burla xatuna baş əyərək)* Xanım, Qazan xandan buyruq oldu. Bugünkü bəyliyim dəli ozanın olsun dedi. Vardı yeməyə getdi. Qarnını doyurdu, sonra qazanları təpdi, tökdü, çevirdi. Yəxninin kimini sağına, kimini soluna atdı. Haqlıya, haqsıza sataşdı. İndi Dəli Ozan bura gəlir.

Beyrək daxil olur.

Xanımlar. Kim ola bu Dəli Ozan? Yerişindən bəy oğluna bənzəyir. Duruşundan aslanlara oxşayır. Vüqarlı baxışlarıyla, dik başı, açıq alnıyla. Oğuzun yigidi ola bu yigid. Kim ola bu Dəli Ozan?

Burla xatun. Mərə qavat, sənə düşərmi bitəklif mənim üzərimə gələsən?

Beyrək. Xanım, Qazan xandan mənə buyruq oldu, mənə kimsə dolaşamaz.

Burla xatun. O zaman söylə. Nə dilərsən, nə istərsən, məqsədin nədir?

Beyrək. Xanım, məqsədim odur ki, ərə varan qız qalxa oynaya, mən qopuz çalam.

Burla xatun. *(yavaşdan).* Qız, Qısırca Yengə. Dur sən oyna. Nə bilir Dəli Ozan, kim kimdi?

Qısırca Yengə durur, oynamaq üçün əl-qol açan yerdə Beyrək bərkdən gülür.

Qısırca. Nə gülürsən? Ərə varan qız mənəm. Mən oynayacağam.

Beyrək. And içmişəm. Qısır qısrığa mindiyim yox. Evinizin ardından sarvanlar çox baxdı sənə. Çox izlədilər səni. Hardan gəldin, hara getdin on-

lar bildi. Sən onların yanına var, Qısırca Yengə. Muradını onlar verər bəlli bil. Sənlə mənim işim yox. Ərə varan qız qalxa, qol salıb oynaya, mən də qopuz çalam – məqsədim budu.

Qısırca. Boy, boy, Dəli Ozan məni tanıdı, görmüş kimi deyər.

Burla xatun. *(Boğazca Fatmaya)* Qız, Boğazca Fatma, qalx, sən oyna.

Boğazca Fatma. Birdən Dəli Ozan məni də tanısa necə?

Burla xatun. Tanımaz, dur oyna. Üzünü ört, başına duvaq sal.

Boğazca Fatma. *(durur, duvaq örtür, oynamaq üçün irəli çıxır)* Çal, Dəli Ozan, ərə varan qız mənəm, mən oynayım.

Beyrək. *(gülür).* And içmişəm boğaz qısrağa minməyim yox. Mən ki səni tanıram. Evinizin ardı dərəcik deyilmidi? İtinizin adı Bəraqcuq deyilmidi? Sənin adın...

Boğazca Fatma. *ah eləyib yerə çökür.*

Beyrək. Sənin adın "qırx oynaşlı" Boğazca Fatma deyilmidi? Get yerində otur. Sənlə mənim oyunum yox. Get, yoxsa qırx deyil, yüz eyibini açaram. Ərə varan qız yerindən dura, mən qopuz çalam, o qol salıb oynaya.

Boğazca Fatma tez durub yerinə qayıdır.

Xanımlar. Kim ola bu Dəli Ozan? Sirlər bilər, örtülü sandıqlar açar ozan. *(Banuçiçəyə)* Qız, dur oyna, bütün eyiblər açıldı. Bizi dəxi tanıyır. Dur, qız! Oynarsan oyna, oynamazsan, cəhənnəmdə oyna. Bilmirdinmi, Beyrəkdən sonra başına bu hal gələcəyin?

Burla xatun. Qız, qalx oyna. Əlindən nə gəlir?

Banuçiçək. *(qalxıb irəli gəlir).* Dəli Ozan, çal di. Ərə varan qız mənəm. Çal, bərkdən çal, mən oynayım. Bərkdən, lap bərkdən çal.

Beyrək. Xan qızı, sənsən, bəli, sənsən ki, varsan. Banuçiçəksən. Gözəllər gözəli Banuçiçək. Sənsən. *(Qopuzun çıxarıb sinəsinə basır, çalmaq istəyir. Banıçiçək də elə bilir, çalacaq, oynamağa başlayır. Amma Beyrək çalmır. Banuçiçək bir neçə saniyə musiqisiz oynayır).*

Xan qızı, barmağını gizləyirsən, soyuqmu apardı barmaqlarını? Ay camaat, xan qızının barmaqları eyiblidi. Əvvəl-əvvəl xan qızına gümüşdən

barmaq yonun, dırnaq yonun, sonra ərə varsın. Xan qızı, eyiblicə ərə varmaq eyibli olur.

Banuçiçək. Dəli Ozan, mən eyiblimiyəm ki, mənə eyib qoşursan? Bax, barmaqlarım yerində. *(Əllərini açıb göstərir, Beyrək üzüyünü görür).*

Beyrək. *(Qopuz çalır).* Beyrək gedəli təpə başına çıxdınmı, qız? Qanrılıb dörd yanına baxdınmı, qız? Qarğı kimi qara saçın yoldunmu, qız? Qara gözdən acı yaşın tökdünmü, qız? Güz alması kimi al yanağın yırtdınmı, qız? Gələn ilə gedəndən Beyrək xəbərin sordunmu, qız? Sevdiyim Bamsı Beyrək deyib ağladınmı, qız? Çünki ərə varırsan. Barmağındakı altun üzük mənimdir, qaytar onu mənə, qız.

Banuçiçək. Beyrək gedəli təpə başına çıxdığım – çox. Qara saçım yolduğum – çox. Hər gələndən xan igidim Beyrəyi sorduğum – çox. Ağladığım – çox. Sevişdiyim Bamsı Beyrək sən deyilsən. Altun üzük sənin deyil. Altun üzükdə çox nişan vardır. Altun üzüyü istərsən, nişanın söylə.

Beyrək. Sabah tezdən, xan qızı, yerimdən durmadımmı? Boz ayğırın belinə minmədimmi? Sənin evin üzərinə sığın-geyik yığmadımmı? Sən məni yanına çağırmadınmı? Səninlə meydanda at çapmadıqmı? Sənin atını mənim atım keçmədimi? Ox atanda mən sənin oxunu yarmadımmı? Güləşdə mən səni basmadımmı? Üç öpüb, bir dişləyib, altun üzüyü barmağına mən keçirmədimmi? Sevişdiyin Bamsı Beyrək mən deyilmiyəm?

Banuçiçək halsız Beyrəyin ayaqlarına yıxılır.

Xanımlar. Bəyim Beyrək, igidim Beyrək. Qara dağların yıxılmışdı, ucaldı. Qanlı-qanlı suların sovulmuşdu, çağladı. Qaba ağacın qurumuşdu, yaşardı. Babasına xəbər varsın. Oğlun on altı il əsir idi, gəldi. *(Banuçiçəyə)* Qız, qalx, göz yaşın qurudu, qalx, qayınatana, qayınanana xəbər apar, müştuluq al. Bəxtin açıldı, qız, daha durma, qalx.

İşıq sönür.

XV şəkil

Bayburanın evi. Kor Baybura qızları ilə. Banuçiçək tələsik gəlir.

Banuçiçək. Qayınata, muştuluq mənə nə verərsən? Şahbaz atın qarımışdı, köşək verdi. Ağayılda qoyunun qarımışdı, quzu verdi. Qızıl-qızıl dəvələrin qarımışdı, köşək verdi. On altı illik həsrətin oğlun Beyrək...

Baybura. Oğlum Beyrək??

Banıçiçək. Gəldi axır oğlun Beyrək!

Baybura. Yalansa, bu sözlərin gerçək ola, gəlinciyim. Dilin üçün öləyim, yoluna qurban olayım. Bütün varım-dövlətim sənə muştuluq ola, gerçəksə bu özlərin.

Bəylər, Qorqud və Beyrək gəlirlər.

Bəylər. Muştuluq, Baybura bəy, oğlun gəldi. Muştuluq!

Baybura. Oğlum olduğun ondan bilərəm ki, sırça barmağını qanatsın. Qanını dəsmalına dürtsün, gözümə sürəyim. Açılacaq olursa, oğlum Beyrəkdir.

Beyrək diz çöküb barmağını xəncərlə kəsir, qanı dəsmalına sürtüb Qorquda verir. Qorqud dəsmalı Bayburanın gözünə çəkir.

Qorqud. *(İrəli çıxır)* Tanrım sənin gözlərinə işıq versin.

Bayburanın gözlərinə işıq gəlir. Baybura, xatunu, qızları qucaqlaşıb Beyrəklə bir yerdə Qorqudun önündə diz çökürlər.

Yalıncıq qorxa-qorxa, əyilə-əyilə gəlir. Beyrək qılıncını qaldırıb vurmaq istəyir, sonra Qorquda baxır, onun təsiri ilə, qılıncı göydə saxlayır. Yalıncıq əyilib qılıncın altından keçir.

Bəylər. Beyrək, gəl. Muradına yetiş.

Beyrək Banuçiçəyə tərəf gedir. Durur. Qılıncını onunla özü arasında torpağa sancır.

Beyrək. Xanım Qazana varın, deyin. Yoldaşlarımı çıxarmayınca, Bayburd hasarını almayınca murada yetişmənəm.

İşıq sönür.

Döyüş səsləri. "Bayburd bizim olacaq. Dünya bizim olacaq. Oğuz adlı bu dünya oğuzlarla dolacaq. Oğuz, Oğuz, irəli. Hasarı almayınca Oğuz açmaz səhəri".

Səhnə işıqlanır. Beyrək Oğuz bəyləri və yoldaşları ilə.

Bəylər. Bir qiyamət savaş oldu, meydan dolu baş oldu. Bayburd Məliyi zəbun oldu, qoşunundan bir quruca ad qaldı. Kəlisalar yıxıldı, yerinə məscid yapıldı. Qızların göyçəyi Oğuza əsir getdi...

Beyrəyin qarşısından əsir kafir qızları keçir. Bayburdun qızı da onların arasında sarsılmış gəlir. Beyrəyi görür, ona tərəf getmək istəyir. Bir-iki addım atıb durur, diz çökür. Beyrək istəyir kafir qızına tərəf gedib onu qaldırsın, amma getmir. Arxasını kafir qızına çevirən yerdə.

Səs tufanı. İşıq sönür.

XVI şəkil

Qaranlıqda səs tufanı yavaşlayır. Beyrək öz evində. Yerdə uzanmış. Başı üstdə Banuçiçək və yigidlər.

Beyrək. Yigidlərim, yerinizdən tez durun. Boz ayğırın quyruğunu kəsin. Ağ çıxarıb qara geyin. Qazanın divanına çapıb varın. Sən sağ ol, Beyrək öldü deyin.

Kafir qızı Beyrəyin gözünə görünür.

Beyrək. Yenə sənsən? Sən məni izlədin, izlədin. Axır ki, məni öldürdün. Sənə verdiyim söz məni öldürdü. Taleyimə yazılmışdı o söz. Sən məni hara səsləyirsən? Hara?

Kafir qızı gözdən itir.

Beyrək *(Özünə gəlir).* Yigidlərim, Xan Qazana deyiniz. Namərd Aruzdan adam gəldi. Beyrəyi istəmiş, ol dəxi varmış. Hamı Dış Oğuz bəyləri yığınaq olmuş. Yemək-içmək arasında demişlər: Biz Qazana asi olduq, and içdik. Gəl sən dəxi and iç, demişlər. İçmədi, deyin. Mən Qazandan dönməzəm dedi, deyin. Namərd Aruz qalxdı, Beyrəyi qılıncladı, qana buladı...

Kafir qızı yenə görükür.
İşıq onun və Beyrəyin üstünə düşür.

Beyrək. Yox, məni Aruz qılınclamadı. Məni sənə dediyim söz qılıncladı. Bağışla məni, bağışla. Atanın-ananın ölümünə bais oldum. Səni əsir-yesir etdim. Aldatdım. Dönük çıxdım. Bağışlaya bilsən, bağışla. Bir vaxt gələcək...

Kafir qızı yox olur.
İşıq Banuçiçəyin və yigidlərin üstündə.

Beyrək. *(son nəfəsini yığıb).* Qazana deyin, yarın qiyamət günündə, mənim əlim Qazan xanın yaxasında olsun mənim qanımı Aruza qoyarsa... *(ölür).*

İşıq sönür, yanır.
Beyrək ölmüş, başının üstündə bir tərəfdə Banuçiçək, bir tərəfdə Kafir qızı dururlar.

SON

Yağışlı gecələr

Həqiqətəbənzər oyunun, oyunabənzər həqiqətin quraması

İştirakçılar:

Molla
Adəm
Ərgül
Salim
Mərifət
Yas adamı
Nənəxanım
Qadın
Qoruqçu
İki nəfər

I hissə

Yas məclisi qurulmuş bir otaq və ona bitişik mətbəx. Otaqda Molla, Adəm, Salim və iki nəfər oturublar. Mətbəxdə Nənəxanım stəkanları yumaqla, silməklə, çay dəsgahı ilə məşğuldu, amma bir qulağı da əvvəldən axıracan otaqda, danışılan söhbətdədi. Həmən iki nəfər durur ayağa.

1-ci nəfər. Allah rəhmət eləsin, son qəminiz olsun.
Salim. Allah ölənlərinizə rəhmət eləsin.

2-ci nəfər. Son qəminiz olsun.

Adəm. Əziyyət çəkdiniz, sağ olun.

İki nəfər gedir, Mərifət daxil olur.

Mərifət. Allah rəhmət eləsin. Salam-əleykum.

Salim. Ay salam, salam. Buyur, buyur keç ora. Sən hara, buralar hara?

Mərifət. Yox, narahat olma, burda oturacağam. *(oturur).*

Salim. Elə şey olar?! Qalx, qalx keç ora. Mən ölüm, keç ora.

Adəm. Xahiş eləyirəm, keç o tərəfə. Rahat otur.

Mərifət. Rahatdı, oturdum daha, lap rahatdı. Sağ ol *(Salimə)* Otur sən də, narahat olma, otur burda yanımda, gəl görək nə var, nə yox, gör bir haçandı görüşmürük. İki il olar?

Salim. Qoy bir gəlim yanına. Olar, iki ildən hələ çox da olar. Bir dəqiqə dayan *(mətbəxə boylanır)* Ay arvad, gələn var, gördün, gəl bura. Tanıyacaqsan.

Nənəxanım. Gördüm, gördüm, tanıdım, onun ağrısını alım. Gətirirəm, bu saat töküm çay, bu saat gətirirəm.

Salim. *(Qayıdıb Mərifətin yanında oturur)* Hə, belə-belə işlər...

Molla. Bismillahir-rəhmanir-rəhim... *(keçir dodaqaltı, ancaq özünün eşitdiyi bir pıçıltıya)*

Mərifət. *(pauzadan sonra)* Allah rəhmət eləsin.

Salim. Allah rəhmət eləsin.

Adəm. Allah ölənlərinizə rəhmət eləsin.

Nənəxanım çay gətirir.

Nənəxanım. Tanımadın məni, ay ciyəri yanmamış? Can, qadovu alaram, gəl bir üzündən öpüm. *(Mərifəti öpür)*

Mərifət. Sən... Yox, ola bilməz... Sən Nənəxanım deyilsən?

Nənəxanım. Tanıdı, saqqalı yanmış. Dəyişmişəm, amma sən tanıdın. Necəsən, ölüm ayağıvın altında? Məhlədən gedəndən sonra day buralara gəlmirsən... İşin-gücün necədi? Ailən, uşaqların?...

Mərifət. Vallah, iş-gücdü də.

Salim. Ay Nənəxanım, vallah kef sənindi, billah rahatlıq sənindi. Üçdə alacağın yox, beşdə verəcəyin. Dünya-aləm nə vecinə?! Deyirsən, elə dəyişmişəm, elə dəyişmişəm... Heç bir qırıq da dəyişməmisən. Dəyişən bizik. Saça bax, gör heç bir dənə qara tük taparsan?! Qocaldıq getdik. Keç, keç mətbəxə. Gələn olar, yaxşı deyil.

Nənəxanım. Bu saat, qadovu alım. Amma mənim də başım ağarıb. Tək onunku deyil. Allaha qurban olum, sizə nolub axı, cavansınız hələ. Uşaqlıqda bir vələdüznalıq edirdiniz ki... of... of... *(keçir mətbəxə).*

Mərifət. Mən bu günlərdə eşitdim xəbəri. Nəydi rəhmətliyin xəstəliyi? Cavan olmasa da o qədər qoca da olmayaydı gərək.

Salim. Yadına gəlmir Rübabə xala?

Mərifət. Belə dumanlı gəlir. Axırıncı dəfə sizin toyunuzda görmüşdüm onu. Nə qədər keçib...

Adəm. On beş il.

Mərifət. On beş il... Elə bil, min il keçib.

Salim. Mən elə bilirəm, dünən olub. Yadında sənin lə ləzginkanı mərcə oynamağımız? İndiyənəcən bir yeşik pivə borclusan mənə...

Mərifət. Həə, yadıma gəlir. Bir yeşik pivə məndə...

Salim. Məhlənin nə günləri vardı, hə?! Mənim atam yadındadı sənin? Zəhmi bütün məhləni götürərdi. Haqqımız nəydi yanından keçək gedək. Bir dəfə...

Mərifət. Yadımdadı, yadımdadı. Qapınızın lap ağzında Zəbi əmiylə nərd oynayırdılar. İki saat dayandıq tində, gəlib yanlarından keçib həyətə girə bilmədik, yadında?

Salim. Həri, yadımdadı. İndi hanı o kişilər? Soruşuram da, hanı? Kişi mənəm, sənsən? Xətrivə dəyməsin a. Bir dənə Ərgül kişi çıxdı aramızda...

Molla. Muhəmmədin gül camalına salavat zikr eləyin. Allahun məsəllu əla Muhəmmədin və ali Muhəmməd...

Hamı. Allahun məsəllu əla Muhəmmədin və ali Muhəmməd. Allah rəhmət eləsin.

Adəm. Allah ölənlərinizə rəhmət eləsin.

Pauza

Mərifət. Xəstəliyi nəydi rəhmətliyin?

Salim. *(yavaşdan, pıçıltıyla keçir)* Nə olacaq xəstəliyi. Zəmanənin üzü qara olsun.

Nənəxanım. *(gəlib başını salır otağa)* Çay verim, dərdinizi alım?

Salim. Ver. Halva qaldı orda? Sənə demişəm a, saxla bir-iki qab. Saxlamısan?

Nənəxanım. Saxlamışam. Saxlamışam. Arxayın ol. *(stəkanları yığışdırıb aparır).*

Salim. *(ehmalca Adəmə tərəf işarə edir)* Odu, görmürsən yazığı, ayaq üstə ölüb?!

Mərifət. Kim? Adəmi deyirsən?

Salim. Adəmi deyirəm, əlbəttə. Bəs kimi deyirəm?!

Mərifət. Qayınanasını belə çox istəyirdi?

Salim. Söz danışdın da. Yox, onunçün deyil.

Mərifət. Səndə söz var, elə bil?

Salim. Məndə söz zad yoxdu. Bir də ki. Sənin, yəni, doğrudan xəbərin yoxdu?

Mərifət. Nədən xəbərim olmalıydı ki?!

Salim. Yox, belə də. Heç.

Mərifət. Sirli-sirli danışırsan. Nə olub axı? Adam dilində danışa bilmirsən?

Salim. İndi bilirsən kim gələcək?

Nənəxanım əlində çay girir otağa.

Nənəxanım. Ay ona qurban olum. Ay onun qadasın alım. Noldu, bəs niyə ləngidi? Axşam oldu ki... *(çayları düzür, gedir mətbəxə).*

Mərifət. Kim gələcək?

Salim. Desəm inanmayacaqsan.

Mərifət. Sən Allah, kimdi o elə?

Salim. "Uçastkovı qərdeşimiz piyandı. Ayıq vaxtı var desən yalandı".

Mərifət. Sən allah?! Mən ölüm doğrudan? Ərgül? Ərgül burdadı bəyəm? Bəs mən eşitmişdim o tərəflərdədi, içəridə... Uçastkovı qərdeşimiz piyandı... Dalı necəydi?

Adəm. Bizim dalan ən birinci dalandı...

Salim. Qaçma, dayan, fitinə sənin quzu kəsim.

Mərifət. *(öz-özünə)* Yanındakı itinə sənin quzu kəsim, başındakı bitinə sənin quzu kəsim. Ərgül. Ay səni Ərgül. Bura gələcək? Hardan bildin? Çıxıb bəyəm?

Salim. Günorta biri gəldi, deyəsən, şoferiydi, dedi, axşam özü gələcək. Hardasa vacib işi var. Qurtaran kimi gəlməliydi. Vajnı adamdı, çox hörmətli adamdı. Day mən nə deyim? Bu qədər yatasan, çıxanda maşını gətirələr ayağının altına, şofernən bir yerdə, restoranın kupçasın, ikimərtəbə mülkün kupçasın, daha nə bilim nə, nə... Ayrı cür adamdı bu. Sözlə deyiləsi deyil.

Adəm. Gəlsəydi indiyənəcən gələrdi. Şofer deyəsən dedi ki, bəlkə gəldi.

Salim. Gələcək. Mən bilirəm. O gəlməsə olmaz *(yavaşdan)* Gəlməsə ürəyi partlar. Gəlib özünü bizə şan-şöhrətdə göstərməsə daha Ərgül olmaz ki bu. Gələcək.

Mərifət. Ay səni, Ərgül. Gör nə qədər vaxt keçib aradan. Elə bil min il keçib, hə?!

Salim. Mənimçün hamısı, elə bil, dünən olub. Yadına gəlir bizim bu piyaniskə uçastkovı bizi tutanda Ərgül nə sillə tutuzdurmuşdu ona?! Şarap. Səsi indi də qulağımdadı.

Mərifət. O gedən də getdi.

Salim. O getməsəydi biz hamımız gedəcəkdik. Zarafat deyil on altı yaşımız tamam olmuşdu? Olmuşdu. O boyda şüar yazıb otdeleniyanın qapısına yapışdırmaq zarafat gəlməsin sənə. Özü də o vaxt. İndiyə nə var...

Mərifət. Hə, elədi. Qanımızın arasına yaman girdi. Onun misrası hansıydı? "Uçastkovı qardaşımız piyandı". Mənimki bu idi: "Kim desə ki, ayıq olur, yalandı".

Salim. "Ayıq vaxtı oldu desən, yalandı..." Öz yazdığın şeiri də unutmusan ki...

Mərifət. Hə, belə-belə işlər...

Molla. ...Allahun məsəllu əla, Muhəmmədin və ali Muhəmməd... *(təsbeh oynada-oynada keçir öz-özüylə pıçıltıya)*

Pauza

Hamı. *(pauzadan sonra)* Allah rəhmət eləsin.

Adəm. Allah sizin də ölənlərinizə rəhmət eləsin.

Mərifət. *(Salimə)* Yaxşı, sən demədin axı nəydi bunun dərdi. Sirdi?

Salim. Mən mat qalmışam ki, sənin xəbərin yoxdu. Soruşmursan nədən öldü qayınana? Gör bir bu yazıq necə çöpə dönüb...

Mərifət. Mən soruşuram, amma sən cavab verirsən ki? Qayınana dərdindən də adam bu günə düşər? Nə fağırlaşıb... Yazıq olub ki bu.

Salim. Qayınana fikirdən getdi.

Mərifət. Nə fikirdən? Kimin fikrindən? Bunun fikrini edirdi?

Salim. Bilirsən?

İçəri yas adamı girir.

Yas adamı. Salam əleykum. Axşamınız xeyir.

Adəm. Buyurun bura, buyurun əyləşin.

Salim. Nənəxanım.

Nənəxanım. Eşitdim, eşitdim. Bu saat.

Salim. *(Mərifətə)* Tanıdın bunu? Heç xoşuma gəlmir bu adam. Harda aş, orda başdı. *(Mollaya)* Molla əmi, tanıdın müəllimi?

Molla. Ərrəhmanir-rəhim...

Yas adamı. *(Mollaya)* Axşamın xeyir... *(Salimə)* Axşamın xeyir. *(Mərifətə)* Axşamınız xeyir. Allah rəhmət eləsin.

Salim. *(başı ilə Adəmə işarə edir)* Ona, ona.

Yas adamı. *(Adəmə)* Son qəminiz olsun. Allah səbr versin.

Salim. *(Mərifətə)* Fikir verdin?

Mərifət. Kişiylə işin yoxdu. Demirsən indi gələcək?! Şuluq salma.

Nənəxanım çay gətirir, üz-gözünü əyib qoyur yas adamının qabağına.

Nənəxanım. *(Salimə)* Aaaa... Bu da gəlib ki. Bəxtəvər başımıza.

Salim. Yaxşı, yaxşı, sən get, çayı da hazır saxla.

Nənəxanım. Bax ciyəri yanmışa.

Nənəxanım çıxır.

Mərifət. Yaxşı, nəyin fikrini eləyirdi rəhmətlik?

Salim. Rübabə xalanı deyirsən?

Mərifət. Hə də. Rəhmətə gedən o deyil?

Salim. Odu.

Mərifət. Onu deyirəm də.

Adəm. *(Yas adamına)* Çayınızı soyutmayın.

Yas adamı. Narahat olma. Bu çay gətirən Nənəxanım deyildi? Heç qocalmayıb...

Salim. Molla əmi, sən o dəfə uçan tarelkalardan nə deyirdin?

Molla. Bismillahir-rəhmanir-rəhim...

Salim. *(Mərifətə)* Qızının fikrini eləyirdi. Qızının dərdi apardı yazıq arvadı.

Mərifət. Qızının?

Salim. Amma, bax a, mən ölüm oldu, öz aramızda, mən sənə heç nə deməmişəm. *(Adəmə işarəylə)* Bunun arvadının, deyirəm də, dərdindən getdi yazıq.

Mərifət. Hə... Başa düşdüm. Heç nə başa düşmədim. Salim, adam diliynən de görüm, nə olub axı? Sən öl, aramızda qalacaq. Sən bilirsən ki... Mən mogilayam...

Salim. Bilirəm.

Adəm. *(Yas adamının Salimə Mərifətin söhbətinə yönəlmiş diqqətini özünə tərəf çəkir)* Bir dənə də çay gətirsin...

Yas adamı. Olar, bu gün hava yaman istidi. *(Adəm və Mərifət tərəfə işarəylə)* Bacıoğlu mənə tanış gəlir.

Adəm. Uşaqlıq dostumuzdu. Əvvəllər bizim yanımızda olurdu. Qonşu idik. Nənəxanım, incimə, çay verməzsən bizə?

Yas adamı. Deyirəm axı, suyu şirin gəlir.

Nənəxanım çay gətirir, könülsüz halda qoyur yas adamının qabağına, çıxır.

Salim. Onsuz da eşidəcəksən, mənə çatmır ki, sən bunu indiyənəcən necə olub eşitməmisən?! Hamı bilir.

Mərifət. Eşitməmişəm də. Mən Montində yaşayıram.

Salim. Hə... Odu da. Ona bax, duyuq düşdü ki, kimsə vacib adam gələcək, durmayacaq, tanıyıram alçağı, axıracan oturacaq. Bunun arvadını oğurlayıblar.

Mərifət. Necə, necə? Arvadını oğurlayıblar?

Salim. Yox olub da arvad. Bir aydı yoxdu. Zəng eləyiblər, bir anbar pul istəyiblər.

Mərifət. Ola bilməz.

Salim. Olub da.

Adəm. *(Yas adamına)* Sizdə nə var, nə yox?

Yas adamı. Belə də. Yenə Allaha şükür.

Molla. Bismillahir-rəhmanir-rəhim. İki cür yuxu olur – Şeytani yuxu, rəhmani yuxu. Şeytani yuxu o yuxudur ki...

Salim. Ana qızın dərdindən öldü. Bunu da özün görürsən də...

Mərifət. Vay, vay, vay... Yazıq. İndi neyləyəcək bu? Dərdə bax...

Salim. Sən Allah, qoy görək bu molla yenə nəsə başladı. Keçən səfər uçan qablardan danışırdı. Yaman bilici molladı.

Mərifət. Vay, vay, vay...

Molla. ...o dünyaya o bir olan Allahın hüzuruna hamımız üzüqara gedirik. O ki qaldı sünni, şiə məsələsi, bunlar hamısı ingilislərin işidi, bəli, bəli...

Mərifət. Zəmanəyə bax e. Adam oğurlamaq olub maşın oğurlamaq. Almadı, elə bil, nədi bu? Milisə, polisə xəbər verib?

Salim. Rəhmətliyin oğlu... Sən, elə bil, aydan gəlmisən.

Mərifət. Hə, düz deyirsən. Onlar işi lap qarışdırarlar. Yaxşı, bəs bunun o qədər pulu var verməyə? Neyləyəcək bu?

Salim. Hələ ki danışıqlar gedir. Allahın köməkliyilə Ərgül də öz ayağıyla gəldi. Nə bilmək olar, bəlkə köməyi dəydi. Avtoriteti var, zarafat deyil.

Nənəxanım gəlir, yavaşdan Salimə.

Nənəxanım. Salim, çay verim sizə? Bəs nə oldu bu evi tikilmiş?

Yas adamı. Bir stəkan... Varsa...

Nənəxanım yas adamının qabağındakı boş stəkanı zəhmlə götürüb çıxır.

Salim. Getməyəcək. Axıracan oturacaq. Köpənəcən çay içəcək.

Mərifət. Eh, sən də qaraladın bu yazığı. Nəyinə lazım, qoy neynir elə-sin. Doğrudan, Ərgül nəsə gecikdi, elə bil, yox?

Salim. Yox. Mən bilirəm. Gəlməlidi. Onu Allah yetirib bununçün. Vallah düz deyirəm. Ürəyimə damıb. Bu gecə nəsə olmalıdı.

Adəm otaqdan çıxır, mətbəxdə Nənəxanıma yaxınlaşır.

Adəm. Çay noldu, ay Nənəxanım?

Nənəxanım. Adə, rədd elə getsin. Zəhləm gedirdi ondan, hələ bir... Adam nə qədər çay içər?..

Adəm. Nənəxanım, olmadı ki bu. Qonaqdı, çay istəyir. Bu nə söhbət-di? Ehsana da danışarlar?

Nənəxanım. Mürdəşir onun üzünü yusun. Sən onu tanımadın? Al-çaqların alçağıdı. Nə bilirsən, kimlərlə əlaqəsi var, bəlkə şipyondu, xəbər

öyrənməyə gəlib! Yaxşı, yaxşı, bu saat dəm alsın, gətirirəm. Bu da gəlib çıxmadı ki, dərdimizi deyək...

Adəm otağa qayıdır.

Molla. Bəli, günahlar özüdə iki cür olur: böyük günah, kiçik günah... Qullara qarşı olan günah Allah qarşısında olan günahdan ağırdır. Bizdə bunu çox adam bilmir.

Salim. Sən görürsən, nə deyir bu, hara vurur?

Mərifət. Hara vurur?

Salim. Vurur, vurur. Özü bilir hara vurur. Tuta bilmirəm e, sözünün canını...

Mərifət. Bu mollanı mən, elə bil, hardansa tanıyıram... Yuxusunu danışmayıb?

Salim. Bəs mən sənə səhərdən nə deyirəm? Yox, yuxusunu hələ danışmayıb.

Mərifət. Bunun bir dənə yuxusu var. Dəhşət. Danışsa özün görərsən. Adamın tükləri biz-biz durur.

Salim. Bilirəm, bilirəm. Uçan qab...

Molla. Bismillahir-rəhmanir-rəhim. Salavat çevirin müharibədə şəhid gedən qardaşlarımızın, bacılarımızın, əsgərlərimizin ruhuna...

Nənəxanım çay gətirir, şaqqıltıyla qoyur yas adamının qabağına.

Yas adamı. Çox sağ ol. Əlin-qolun var olsun.

Nənəxanım. Tanımadın məni?

Yas adamı. Yox, nəsə tanış gəlirsən, amma qorxuram, zənnim məni aldada.

Salim. Nənəxanımdı da. Onu bu məhlədə hamı tanıyır. Tində balaca budkası vardı...

Yas adamı. Ola bilər, ola bilər... Nə deyim, vallah. Molla əmi!

Molla. Buyur.

Yas adamı. Molla əmi...

Salim. Molla əmi, noldu sənin o dəfəki söhbətin, demişdin, gələn səfər axıra çatdıraram.

Molla. Sən hansı söhbəti deyirsən? Keçən dəfə çox söhbət oldu.

Salim. Nə bilim?! Uçan qablardan danışırdın. Quranda bu var?

Molla. Cəmi ölənlərin ruhuna salavat zikr eləyin.

Hamı dodaqaltı salavat deyir.

Molla. Bilirsən nə var, bacıoğlu, iki cür sual olur. Biri öyrənmək üçün verilən sual, o biri ələ salmaq üçün verilən sual.

Salim. Allah eləməsin. Mən öyrənmək üçün verdim bu sualı.

Adəm. Salim, gör bir bu Nənəxanım deyəsən səni istədi.

Salim. Yox e. Keçən səfər özü başlamadı bu söhbəti? Balam, mən də istəyirəm, biləm bu məsələni dibinəcən. Molla döyülsən? Buyur məni başa sal.

Adəm. Molla əmi, sən ona bənd olma.

Mərifət. Salim... Gör bir neçə ildi görüşmürük e...

Nənəxanım. *(elə bil, nəsə eşidir, çıxır, qayıdıb hövlnak girir otağa).* Adəmi soruşurlar.

Adəm. Salim!..

Salim çıxır.

Yas adamı. Allah rəhmət eləsin. Rəhmətlik yaxşı adam idi. Xəstəliyi nəydi?

Adəm. Kimin?

Yas adamı. Bu çayınız seylon çayıdı?

Adəm. Nə?

Mərifət. Deyəsən gələn var.

Molla. Fatihə...

Salim gəlir.

Salim. Gəldi. Gəldi. Qalxır yuxarı.

Molla. Allah-təalanı, hara çıxırsan çıx, göyün neçənci qatına qalxırsan qalx, bəyəm onun gül camalını görəcəksən? Sən Allah-təalanı öz qəlbində axtar. Öz ürəyində çalış tap onun işığın. Tapsan əgər...

Salim çıxır mətbəxə.

Salim. Nənəxanım. Bunlar gəlirlər. İki nəfərdilər. Çayı hazırla.

Nənəxanım. Çay hazırdı, qadovu alım. Sən keç, keç içəri, özüm gətirəcəyəm.

Salim. Özün gətirəcəksən?

Nənəxanım. Keç içəri, dayanma burda, halvaları da verim apar qoy stolun üstünə.

Salim. Yaxşı, ver halvaları.

Nənəxanım hardansa iki boşqab halva çıxarır, oraburasını düzəldib verir Salimə. Salim gedən yerdə.

Nənəxanım. Dayan, dayan. *(nəsə yenə halva qabında düzəliş aparır)* Get, indi get.

Salim gəlir otağa, halva qablarını qoyur stolun üstünə. Ərgül və Qoruqçu içəri girirlər.

Salim. Salam xoş gəldin. Buyur, qədeş, buyur keç bu tərəfə.

Ərgül. Salam əleykum. Allah əcr versin *(keçib Salim göstərən yerdə oturur).*

Salim. *(Qoruqçuya).* Buyur. Bura əyləş.

Qoruqçu. Narahat olma, mən elə burda oturram *(oturur).*

Molla. Bismillahir-rəhmanir-rəhim...

Yas adamı. Əlhəmdülillah rəbbil aləmin...

Pauza.

Ərgül. *(ətrafdakıları gözdən keçirərək)* Bir az gec gəldim, iş çıxdı.

Adəm. Əziyyət çəkmisən, Allah ölənlərinə rəhmət eləsin.

Salim. Allah Zəbi əmiyə rəhmət eləsin.

Ərgül. Allah atova rəhmət eləsin. Diriyə də rəhmət var a. Sağdı aton?

Mərifət. Bunun atası hələ onda... Yadında deyil?

Nənəxanım. *(əlində padnosda çay, qrafinkada gül gətirir)* Qadovu alım, necəsən, nə təhərsən? Həmişə sən gələsən. Yaxşı ki... Mağıl üzüvü gördük.

Ərgül. Nənəxanım, sənsən? Necəsən? Oğlun necədi?

Salim. Bunun oğlu...

Ərgül. Sən Mərifət deyilsən?

Mərifət. Yəni, belə dəyişmişəm?

Ərgül. Ay səni. "Uçastkovı qardaşımız piyandı..." Bu misra mənim idi, ya sənin? Evdə-eşikdə nə var?

Mərifət. Sən necəsən, Ərgül?

Ərgül. Belə də. Mənə bax. Bir dənə təzə xəbər çatıb qulağıma. Bunun arvadı Rübabə xalanın qızı deyildi? Düşərdik dalıyca düz məktəbinəcən?

Salim. Qayınanası odusa, arvadı da o olar. Odu. Amma... Yağışlı gecə yadında deyil?

Ərgül. Nə gecə? Sən bir dəqiqə dayan. *(Adəmə)* Sənin qayınananı tanıyırdıq hamımız, Allah ona rəhmət eləsin. Sən belə birtəhər dəyirsən gözümə, Molla əmi də bağışlasın məni, yanında artıq-əskik danışıram. Nolub?.. *(Salimə)* Mən bilirəm nolub, amma qoy özü desin.

Adəm. Heç. Çayını iç, heç nə olmayıb.

Yas adamı. *(Adəmə)* Bacıoğlu tanış gəlir mənə.

Adəm. Hə, sonra, sonra. *(Ərgülə)* Sən narahat olma, hər şey yaxşıdı, çayını iç. Bura bax bəlkə... Yemək təşkil eləsinlər?

Ərgül. Yox, yox. Nə danışırsan. Allah qəbul eləsin. Çayın özü ən yaxşı ehsandı. Allah qəbul eləsin.

Molla. Biləsiniz ki, ...qumardan, zinadan, əliəyrilikdən, sələmdən, oğurluğun özündən gələn gəlir haramdır. *(öskürür).*

Salim. Allah-təalanın hüzuruna hamımız üzüqara gedirik ki.

Mərifət. Necəsən, Ərgül? Anon necədi? Bacıların yəqin böyüyüblər.

Ərgül. Hə. Salamatdılar. Mən olmayanda arvad əvvəl-əvvəl əziyyət çəkdi. Bilirsən də, kişi ölmüşdü, yaxın duran qohumdan-qardaşdan olmadı. Bir azdan mən işlərimi orda – içəridə sahmana saldım. Onlar üçün də burda pis keçmədi. Pis deyillər, sağ ol.

Mərifət. Çoxdan... Çoxdan deyirəm çıxdın? Nəylə məşğulsan?

Ərgül. Belə də. Gəzirəm özüm üçün. Səyahət etməkdən ötrü uşaqlıqdan burnumun ucu göynəyirdi, sən ki bilirsən.

Salim. Bilirik, bilirik. Ay səni, yaxşı tutdun özünü. Biz necə vardıq, elə də qaldıq.

Yas adamı. *(Adəmə)* Bu bacıoğlu mənə tanış gəlir.

Adəm. *(Yas adamına yavaşdan)* Bizim uşaqlardandı, məhlədəndi. Tutulmuşdu, qayıdıb. Zəbi əmi vardı, onun oğludu, Ərgül. Sən çayını iç. Bir dənə də içirsən?

Yas adamı. Yox, sağ ol. Allah qəbul eləsin. Mən elə Molla əminin söhbətinə qulaq asacağam. Sən işində ol...

Salim *(Ərgülə).* ...heç elə bil bu, bu adam deyil. Dəyişdiriblər, elə bil, bunu. Sənə zarafat gəlməsin. Yadına gəlir də Rübabə xalanın qızı?.. Yağışlı gecə?!

Molla. Cəmi ölənlərin ruhuna salavat çevirin.

Pauza. Salim Ərgülə tələsik nəsə deyir.

Hamı. Allah rəhmət eləsin. Allah o dünyasını versin.

Ərgül. *(Adəmə)* Gəl bura, yaxın otur.

Adəm. *(Yerini dəyişir, gəlir Ərgülün yanına)* Çay gətirsinlər?

Ərgül. Yox, çay-zad lazım deyil. Bura bax, bu nə məsələdi?

Adəm. *(susur).* Belə də...

Salim. Mən danışdım qədeşə nə var hamısını.

Adəm. *(yavaşdan)* Nahaq. Niyə əziyyət verirdin?

Salim. Nə əziyyət?! Özgə adam zaddı bəyəm?! Düz demirəm, Mərifət?

Mərifət. Əlbəttə, düz deyirsən. Özgə adam zad yoxdu burda.

Ərgül. Həri, qəribə işdi. Özünü ələ al. De mənə, görüm. Kimdən görürsən bu işi? Ağlın kimə gedir?

Adəm *(ağlamsınır).* Vallah, heç bilmirəm, nə deyim. Mənim bu günümdə... *(Salimə işarəylə)* Qoy o desin. O hər şeyi bilir.

Salim. Mən dedim. Hamısını dedim. Axırıncı zəngləri üç gün əvvəl oldu.

Adəm. Elədi, üç gün əvvəl.

Salim. Mən də onu deyirəm.

Ərgül. Üç gün əvvəl... Şərtləri nəydi?

Salim. Pul istəyirlər. Bir dənə.

Ərgül. Belə. Deməli, bir dənə.

Mərifət. Nə az, nə çox. Sağ ol, vallah. Belə zəmanənin...

Molla. *(Yas adamına)* Quranda da yazılıb, sən mənə qulaq as, Qurani-Kərimdə də, deyirəm, yazılıb ki, hər kəsən öz işiylə məşğul olsun gərək, başqasının işinə burun soxmaq günahdı.

Salim. Nə dedi, sağ ol, vallah. Barışdım mən bu mollayla.

Molla. Vətən uğrunda ölən şəhidlərimizin ruhuna salavat çevirin... Allahun...

Pauza

Hamı. Allah rəhmət eləsin. Allah rəhmət eləsin. Allah səbr versin.

Ərgül. *(Adəmə)* Səbrli ol. Özünü ələ al. Allah dərd verirsə, dərmanını da verir. Səbrli ol. Sənin məsələn ciddi məsələdi. Bəyəm bu evdə az çörək yemişik? Az kef eləmişik burda sənlə? Hanı sənin şux səsin, hanı sənin zarafatların, deyib-gülməyin? Özünə gəl, sənə deyirəm, özünə gəl. Buna bax e...

Mərifət. Vallah, elə mən də sən deyəni demək istəyirdim.

Ərgül. Deyirsən, üç gün əvvəl oldu axırıncı zəngləri? Nə cür səs idi telefonda, hiss eləmədin?

Adəm. Vallah, heç özümdə oluram ki. Az qalıram, az qalıram vurum öldürüm... özümü.

Salim. Ağır məsələdi, neyləyəsən?

Ərgül. Yaxşı. Məsələ aydındı. Mənə aydındı məsələ.

Molla. ...Və mübarək cümə günü bu gələn adamlara rəsul əleyhussəlam buyurdular ki, bu bəxşeyişlər ki, mənə gətiribsiniz, bunlar mənim deyildirlər, bunlar sizindirlər.

Yas adamı. *(Bir qulağı o biri söhbətdə)* Bəli, bəli, kəlamın gücünə şükür.

Ərgül. Hə, yaxşı yadıma düşdü. Pul düzəldə bilmisən? Heç olmazsa bir hissə. Ya...

Adəm *(ağlamsınır).* Yox... Ümidim sənədi...

Salim. Ümidimiz sənsən. Vallah bir dənə qəhrəmanlıq edərsən ki.

Ərgül. Aydındı, aydındı. Mənə hər şey aydındı. Məsələ, deməli, bu cürdü. *(Qoruqçuya)* Bura gəl. Get o tərəfdə zəng elə. Yığ camaatı, özün bilirsən hara. Denən gəlirəm.

Qoruqçu çıxır.

Molla. Allah-təala buyurub: Sizlərdən kiminizi zənginliklə, kiminizi də kasıblıqla sınağa çəkirəm. İmtahandan çıxmaq özü qəhrəmanlıqdı.

Ərgül. Bu molla nə molladı, səsi elə bil tanış gəlir mənə.

Salim. Əvvəllər dostluq elərdi. Bu da yatıb çıxıb.

Ərgül. Hə? Doğrudan deyirsən?

Salim. Tövbə eləyib. Mənnən dostdu. Hara deyirəm, otkaz yoxdu. Lazım olsa…

Mərifət. Allah eləməsin.

Salim. Bəs mən nə deyirəm, əlbəttə, Allah göstərməsin. Alim molladı. Uçan qablardan bir əntiqə şeylər danışır, gəl görəsən.

Qoruqçu gəlir, əyilib Ərgülün qulağına nəsə deyir.

Ərgül. Çıx bayıra. Gözlə.

Qoruqçu çıxır.

Yas adamı *(qoruqçuya işarəylə).* yaman suyu şirin gəldi bu bacıoğlu mənə…

Ərgül. Yaxşı. Deməli, belə. Mən indi gedirəm. Siz dağılışmırsız, gözləyirsiz məni. Bir saat, həri, bir saata gəlirəm Allahın köməkliyilə. Elə bilirəm, yaxşı olar.

Salim. Bu nə qəhrəman adamdı, Allahına qurban olum.

Mərifət. Allah səni... Əskik eləməsin. Biz lazım deyilik?

Ərgül. Yox, lazım deyilsiz. Oturun gözləyin. Mən bu saat (*qalxır ayağa).*

Nənəxanım *(Gəlib qucaqlayır Ərgülü).* Mənim qəhrəman balam. Ölüm ayağıvın altında, Allah səni həmişə güldürsün, Allah muradıva yetirsin səni, qadovu alım, mənim nəvəm var, işi yoxdur… *(ağlamsınır)*

Salim. Nənəxanım yaxşı. Yaxşı. Görürsən gedir, saxlama. Gələr, nə lazımdı…

Adəm (*Salimə).* Çək onu kənara, çək onu kənara. (*Ərgülə)* Nənəxanımdı da, tanıyırsan özün.

Ərgül. Yaxşı, yaxşı. Nənəxanım, sən də gözlə, gəlirəm indi. (*Adəmə)* özünü ələ al. Kişi ol. Gəlirəm. Siz bir stəkan çay için. Nənəxanım bir dənə təzədəm çay hazırla, mən bir azdan qayıdıb gəlirəm (*çıxır).*

Salim. (*Arxasınca)* Allah səni bizə çox görməsin.

Nənəxanım. Amin, amin. Ona qurban olum. Çay dedi ciyəri…Evi tikilmiş, mən gedim təzə çay dəmləyim (*Salimə).* Limon lap az qaldı ha, bilə-sən. (*Çıxır)*

II hissə

Yenə həmən otaq. Oturublar Molla, Adəm, Yas adamı, Salim və Məhəbbət. Nənəxanım o biri tərəfdə, mətbəxdə çay dəmləyir.

Yas adamı. Nəsə uzun çəkdi bunun getməyi. İki saatdan çox keçdi. İndiyənəcən gərək qayıdaydı. Yəqin çətinə düşdü iş.

Salim. *(Mərifətə)* Görürsən əclafı? Nəs gətirdi.

Adəm. *(Yas adamına)* Allah ölənlərinizə rəhmət eləsin. *(Salimə)* Bu gedəcək bu gün?

Salim. Getməyəcək. Öldür onu, qovala onu, getməyəcək.

Mərifət. Nə təhər adamdı bu?!

Adəm. *(Yas adamına)* Allah ölənlərinizə rəhmət eləsin.

Yas adamı. Allah sənin də qayınanana qəni-qəni rəhmət eləsin. Əlimizdən nə gəlir?! Bir gün yaranan bir gün ölməlidi.

Adəm. Molla əmi...

Molla. İnşəallah, yaxşı olar. Alınan iş uzanar. Alınmayan iş anında bitər. İnşəallah, bu iş də düzələr. Allahın köməyilə. Amin.

Mərifət. *(Salimə)* Daha him-cimlə, yavaşdan danışmağın mənası yoxdu. Bunlar işin lap içindədirlər.

Salim. Düz deyirsən *(bərkdən).* Nənəxanım, çay gətir hamıya. İslanmışın yağışdan nə arı?! Elə deyil? *(Adəmə)* Darıxdırma özünü, ürəyimə damıb, düzələcək.

Adəm. Molla əmi, bəlkə işin-zadın var; nə vaxtdan burdasan, yorulmusan, istəyirsən sən get... Yola salım səni. Biz də elə dağılırıq. Bu iş belə asan düzəlməz.

Molla. Yox, ola bilməz. Molla məclisi bağlamadı, ondan nə molla?! Gözləyəcəyəm. Axıracan gözləyəcəyəm. Gəl bir az da gözləyək.

Nənəxanım çay gətirir.

Yas adamı. Nənəxanımın çayından olmaz. Amma bu gecikdi, deyəsən.

Nənəxanım *(çayları paylaya-paylaya).* Qurban olsun ona qoca nənəsi. Gecikib eləmədi. Mənim qəhrəman oğlumdu o. Gəlməyinən işi düzüb qoşmağı bir oldu. Heç gecikib eləmir *(Yas adamına tərəf).* Qadası olsun pis-pis adamların ürəyinə. *(çıxır).*

Salim. Əla.

Mərifət. Dedi də sözünü. Saxlamadı ürəyində.

Adəm. Elə bil, aşağıdan səs gəldi. Siz eşitmədiz?

Salim. Darıxdırma özünü. Gələndə gələcəklər. Səs-zad yoxdu. Çayını iç. Molla əmi... *(Mərifətə)* Sənin yadındadı?

Mərifət. Nə? Nəyi deyirsən?

Salim. Birdən düşdü yadıma. Bunun, Ərgülü deyirəm, Rübabə xalagilin hasarından aşıb pəncərələrinin altında dayanmağı. Bərk də yağış yağırdı.

Mərifət. Yox, yadımda deyil.

Salim. Mənim yadımdadı. Birdən düşdü yadıma. Elə islanmışdı ki, bir ay qripdən yatdı.

Adəm. Bəlkə deyirəm, bir şey alınmayıb?! Bu da utanıb gəlmir?!

Mərifət. Sən də lap ağ eləmə. Helə də iş olar?! Olmaz. Ələ al özünü. Bu qədər ki sən dözmüsən, bir saat, iki saat dözə bilmirsən? *(Salimə)* Yadıma düşdü.

Molla. Bismillahir-rəhmanir-rəhim... Mən sizə bir vaqeə danışım...

Salim. Aha, başladı. Mən deyirdim, axı o əhvalatı danışacaq.

Molla. Bəli, qulaq verin. Vaxt da gəlib keçər. Heç olmasa baş qarışar.

Salim. Danış, danış, molla əmi. *(Mərifətə)* Deyirdim a sənə... Ölürəm də bunun bu söhbətiyçün.

Mərifət. Dayan bir. Macal ver.

Adəm. Yəni, bəlkə heç gəlmədi də? Ola bilər belə bir şey?

Mərifət. Olmaz. Dedi, gələcək. Biz onun üçün uşaq-muşağıq bəyəm?!

Yas adamı. Bəlkə də...

Salim. Molla əmi, sən söhbətini başla, bunlara çox bənd olma. Adama bir sözü neçə dəfə deyəllər? Bunun işi qalıb Allaha... Bir də Ərgülə.

Molla. Nə deyirəm. Qulaq asırsınız, qulaq asın.

Mərifət. İmkan verin.

Adəm. Elə bil, səs gəlir.

Salim. Yox, mane olmayın. Səs-zad yoxdu. Mane olma.

Yavaş və həzin musiqi, elə bil, uzaqlardan, çox-çox uzaqlardan süzülüb otağa tökülür. İşıq yığılır və ancaq Mollanın üstünə düşür. Yağış səsləri.

Molla. Bismillahir-rəhmanir-rəhim. O gecə bərk yağış yağmışdı. Yağışlı gecələr başqa aləmdi. Qaranlıq otağım birdən-birə qəribə bir işığa bürünməyə

başladı. Amma gözlərim əvvəl-əvvəl bir şey seçmədi. Nə gördüm sonra, yavaş-yavaş gördüm. Otağıma süzülən bu işıq topasının içindən iki qanadlı mələk peyda oldu. Kürəklərində, doğrudan da, həqiqi qanadlar var idi, otağın içində bu böyük qanadlar o qədər lazımsız görünürdü ki. Elə bil, çiynindən atdığın pencək idi, yerlə sürünürdü. Əvvəl-əvvəl təbii, elə bildim yuxudu, yuxu görürəm. Amma sonra başa düşdüm ki, yox, bu, yuxu deyil. Mələklərin biri üzündə zərif, çox zərif bir təbəssüm mənə nəvaziş edirdi. O biri mələk isə sərt idi. Cod baxışları vardı... Hərəsi yapışdı bir qolumdan və biz... İşıq topasının içi ilə uçub getdik. Mən də onlarla uçdum, istəyirsiniz inanın, istəyirsiniz inanmayın. Özümdə, sözümdə deyildim. Handan-hana özümə qaytardılar, elə bil, məni. Özümə gələndə gördüm ki... Başdan-başa qövsi-qüzehin içindəyəm. Üç-beş bu mələk kimilər alıblar məni araya. Dedim, yəqin əcəlim çatıb, mən də ölmüşəm. Bir az cəsarətləndim. O tərəf-bu tərəfə baxıb gördüm ki, ondan gördüm, uçan qab deyirlər, nə deyirlər – ondan. Mələklərin arxasında idi, rəngbərəng işıq verir, dayanırdı, işıq verir, dayanırdı. Mələklərdən biri nəhayət gördü, mən özümə gəlmişəm, əli ilə o birilərə işarə elədi, bunlar məni qaldırıb oturtdular quru yerdən. Sonra bu baş mələk üzünü yaxınlaşdırıb diqqətlə məni nəzərdən keçirməyə başladı. Baxdı, baxdı, döndü yoldaşlarına, nəsə bundan o birilərə elə bil tok keçdi. Yenə döndü mənə tərəf, üzündə də nə həlimlik, nə sərtlik, heç bir ifadə yox. Bizim öz dilimizdə, təmiz ana dilimizdə soruşdu məndən: "Qorxmursan?" Mən başımla "yox" dedim. "Qorxma" – dedi, "Bizdən sənə ziyan gəlməz. Sənin Allahın var, mən bilirəm, ona görə də qorxma. Sənin Allahını mən tanıyıram. Mənim dostumdu sənin Allahın. Qorxma" "Baş üstə, Allahıma qurban olum, qorxmuram, Allahım haqqı heç bir zərrə də qorxmuram". "Bax belə, yaxşı olacaq. Qaytaracaqlar səni evinəeşiyinə. Geriyə evinə qayıtmaq istəyirsən?" "Elə istəyirəm, elə istəyirəm, bəs mən ölməmişəm?" – soruşdum. "Yox, sən ölməmisən. Səni səhv gətiriblər. İndi də qaytarıb aparacaqlar geri". Bax burda qorxdum. Ürəyimi yarıb içinə elə bir qorxu girdi ki, dedim bu saat ölləm. Gözlərim öz-özünə yumuldu, sonra gözlərimi bir də açanda gördüm ki, öz evimdə, yorğan-döşəyimdəyəm, həmin o işıq topası da yavaş-yavaş otaqdan çəkilib gedir. Sonra yağış da kəsdi.

Musiqi susur, işıq çoxalır və hamının üstünə düşür.

Mərifət. *(Salimə)* Bunu deyirdin? Noldu sənə? Özünə gəl. Saat neçə oldu görəsən?

Salim. Mən... Mən elə istəyirəm, yay gəlsin, isti olsun, hər yan yaşıllıqlara bürünsün, böyük-böyük ağacların budaqlarının ağır kölgəsindən seyrək gün işığı gəlib düşsün üzümə. Bir də mən istəyirəm, yağışlı gecələr olsun. Yağışlı gecələri çox sevirəm.

Adəm. Bunda olur belə şeylər. Fikir verməyin. Keçib gedir.

Yas adamı *(Adəmə).* Bacıoğlu, heç özüm də bilmirəm. Nəsə soruşmaq istəyirdim, yadımdan çıxdı.

Adəm. Yadınıza düşər soruşarsınız. Yəqin vacib şey deyilmiş.

Yas adamı. Ola bilər.

Mərifət. Molla əmi, gecdi, bir dənə fatihə ver. *(Adəmə)* Yəqin, bu gəlmədi, sonra zəng edər bəlkə?

Molla. Nə deyirəm, necə məsləhətdi. Bismillahir-rəhmanir-rəhim...

Ərgül, yanında üzü aydın seçilməyən bir qadınla otağa girirlər. Hamı donuq.

Ərgül. Nolub sizə? Niyə belə donub qalmısız hamınız?

Molla. Bismillahir-rəhmanir-rəhim...

Qadın. *(ağlayır)* Ay ana, ay ana, ay ana...

Adəm qadına yaxınlaşır, sonra gedir oturur yerində.

Salim. Sonra deyirlər ki, qəhrəman belə gəldi, qəhrəman belə getdi. Əsl qəhrəmanlıq deyil bu, nədi? Sağ ol səni. Halal olsun. Gətirdi qızı.

Mərifət. Əhsən, halal olsun.

Ərgül. Olsun. Bir pud duz-çörək yemişik. Olar bəyəm belə iş? Gəl qardaş, gəl xanımını təhvil al.

Qadın *(yana-yana).* Ay ana, ay ana...

Adəm. Sən... Sən mənim boynuma elə bir minnət qoydun ki...

Mərifət. Bu boyda iş görüb, sən minnətdən danışırsan. Bu işin ağırlığı bilirsən nədi?

Ərgül. Yox, özündən söz düzəltmə. Heç bir ağırlığı zadı yoxdu. Zəhləm gedir yalandan minnət vurmaqdan. Bir sözüm, bircə sözüm bəs oldu.

Salim. Bir sözün...

Mərifət. Bir sözün?

Ərgül. Bir sözüm. İnanmırsız?

Nənəxanım *(gəlir).* Sənin qadovu alım. Kimdi sənə inanmayan? Keç, keç bu tərəfə, qızım *(qadın mətbəxə keçir, üzünü açır, çay işi ilə məşqul olur).* Ay sənin əlin-qolun var olsun, ay sənin bir sözün milyon dənə söz olsun. Səni görüm əlivin altından ministirlər keçsin. Səni görüm neynim deməyəsən. Gözü götürməyənlərin də gözü çıxsın *(gedir mətbəxə)*.

Yas adamı. *(Mollaya)* Bu bunun arvadıdı?

Molla. İnsan gərək Allahını tanıya, hər işini Allahla görə.

Adəm. Bir sözə, bu iş düzəldi deyirsən?!

Salim. Bəs siz hardaydınız? Beş saat biz qalmışdıq gözləyə-gözləyə?!

Nənəxanım çay gətirir.

Nənəxanım. *(Ərgülə)* Bu da sənin təzədəm çayın, iç, ayağının altında ölüm. Mənim pəhləvan oğlum. *(çıxır)*

Salim. Bəs niyə belə gec gəldiz?

Mərifət. Bəlkə yollar bu saat basırıqdı?

Yas adamı. Bu saatda yollar bomboş olur.

Molla. Bismillahir-rəhmanir-rəhim...

Pauza.

Salim. Ay səni. *(Ərgülə)* Mənə bax... Sən... Yadındadı?

Ərgül. Yadımdadı, yadımdadı. Yağışlı gecəni deyirsən də.

Salim. Bəs bir dəfə... Sən dedin ki...

Ərgül. Yox, o yadımda deyil. Dedim, yadımda deyil – yadımda deyil. Siz gedin, mənim Adəmlə balaca işim var.

Mərifət. Aydındı. Bəs sən...

Ərgül. Allah qoysa, yenə görüşərik. Mənlik bir işiniz olsa mən hazır.

Mərifət. Sağ ol.

Salim. Ay səni. *(Yas adamına)* Dur ayağa, səni mən aparacağam, dur daha gecdi, sonra avtobus zad tapmazsan, biabır olarıq.

Yas adamı. Siz narahat olmayın, mən yaxında oluram.

Molla. Fatihə. Gələn cümə axşamı yas sahibi hamınızı dəvət edir, mərhumənin ruhuna dua oxunacaq, buyurub gəlin.

Hamı. Allah rəhmət eləsin. Allah səbr versin.

Mərifət. *(Adəmə)* Gözün aydın olsun. Biz daha gedək. *(Salimə)* Gəlirsən?

Salim. Sağ olun. Gecəniz xeyrə qalsın. *(Ərgülə)* Görüşərik dedin? Ay səni. Nə deyim mən sənə? Deyirsən çıxıb da yadından... Uçastkovı qərdeşimiz piyandı, Ayıq vaxtı var desən yalandı, Bizim dalan ən birinci dalandı... *(gedir)*

Hamı bir-bir "Allah rəhmət eləsin" deyə-deyə çıxır. Nənəxanım istəyir özünü salsın bu biri otağa, nəsə düşünür, o da çıxıb gedir. Mətbəxdə işıq qadının üstündə, otaqda Ərgül və Adəm üzbəüz yarıqaranlığa girər-girməz…

SON

Elə bil qorx-qorxa...

Bir bölümlü, xəyali faciə

İştirakçılar:
Ruh.
Karvanbaşı.
Xacə.
Ağ Kölgə.
Qara Kölgə.
Səs.
Şah.
Vəzir Məşdəli.
Qarı Nənə.
Pərnisə.
Qadın.
Zəbulla.
Xidmətçibaşı.
Nökərlər, əsgərlər.

Balaca ağ təpəciklər və dumana bürünmüş bir məkan və əslində dünyanın var olan, mövcud olan dünyanın o biri üzü. Kölgələr ruhlara aiddir və onların bizə göründükləri, elə bil əyinlərinə keçirdikləri qara-ağ rənglərdir. Burdakı musiqi də canı üzür. Elə bil onun da ancaq iki ladı var: Qara və ağ.

Ağ kölgə və qara kölgə tənha oturmuş ruhun yanına gələrkən uzaqda boğuq, anlaşılmaz gəl-gəl səsləri eşidilməyə başlanır. Bu səslər gah zəifləyir, gah pıçıltıya dönür. Gah nərə kimi guruldayır, gah da yox olur.

Qara kölgə. Gedirsən? Bu səslər səni çağırır. Bilmirəm heç nə deyim sənə. Ağır olacaq.

Ağ kölgə. Amma baxma. Hər necəsə də maraqlıdır. Eşidirsən? Bir qulaq ver. Eşidirsən?

Ruh. Sən elə həmişə hər şeyi əvvəlcədən bilirsən. Nə bilirsən necə olacaq? "Ağır olacaq". Hardan bilirsən eşidirəm? Əlbəttə eşidirəm.

Qara kölgə. Mən bilirəm. Sən isə deyəsəm bir az... Elə bil...

Ruh. Səni bəs çağıranda sən qorxmamışdın?

Qara kölgə. Qəribədir. Mən azmışdım əvvəl-əvvəl. Amma indi hər şeyi unutmuşam. Sən də unudacaqsan.

Ağ kölgə. Məni isə bircə dəfə də çağırmayıblar hələ. Yəqin çox maraqlıdı.

Səslər... Səslər... Elə bil oynaq bir avazla oynayırlar. Gözlərimə görünmə gəl. Çağırmışam. Ərinmə gəl. Ağlamışam. Dirənmə gəl. Gəl... Gəl... Gəl... Sədaları yavaş-yavaş güclənir.

Qara kölgə. Məni çağıran zaman keçirdiyim o zülümü indi də sən keçirirsən. Bu səslər sənindir. Ancaq səninki.

Ruh. Bilirəm. İlk dəfədir ki, onları eşidirəm. Bu yol nə zaman açılacaq, nə zaman?

Qara kölgə. Səbirli ol. Açılacaq yol. Açılacaq. Sən gedəcəksən. Elə bilirsən hər şey asandı? Çağırdılar getdin, gördün, gəldin. Bax, bax... Gedirsən? Gözəldi.

Səslərin gəldiyi o uzaqlıqdan süd kimi ağappaq işıq şüası süzülməyə başlayır, yavaş-yavaş onların lap yanlarınacan gəlib dayanır.

Ağ kölgə. Necə qəşəngdir. Nə qədər gözəldir. Yol budu?

Qara kölgə. Yol budu. Sənin yolun açıldı.

Ağ kölgə. Nə xoşbəxt ruhsan sən.

Qara kölgə. Aparacaq səni. Sonra da geri gətirəcək. Yol budu. İndi sənə söz deyəcəklər. Diqqətli ol. Bizə aid deyil o söz. *(Ağ kölgəyə)* Biz gedək.

Ağ kölgə. Yolun açıq olsun. Gedək?

Qara kölgə. Yolun açıq olsun. Gedək.

Elə bil Ağ kölgə də, Qara kölgə də havadaca əriyib yox oldular. Yenə də həmin ruh, həmin ağ zolaq, həmin çağıran səslər amma daha təkidlə. Hər söz gup-gup guppuldayır ürək döyüntüsü kimi. Yavaş-yavaş bu səslər kəsilməyə başlayır. Və bu yarı sükutun içində lap yaxında aydın və yorğun səs. Və bu səs danışdıqca həm də gözəgörünmədən dörd bir tərəfi dolaşır. Dörd bir tərəfdən gəlir.

Səs. Hazırsan elə bil?!

Ruh. Bəli, hazıram.

Səs. Gözəl. O zaman dinlə məni. Diqqətlə dinlə məni. Budur, sənin yolun açıqdır. Sən qayıdırsan. Səni çağırdılar. Səni eşitmək istəyirlər. Başa düşürsən nə deməkdi bu?

Ruh. Mən onlara nə deməliyəm?

Səs. Baxır suala. Baxır səndən nə soruşmaq istəyəcəklər. Amma... Özünü darıxdırma. Bütün suallara cavabın olacaq. Mən isə sənə bir məsələni açıb deməliyəm.

Ruh. Söylə. Mən səni dinləyirəm.

Səs. Biz onların nə deyəcəklərini, nə soruşacaqlarını bilmirik. Hələ bilmirik. Amma əgər...

Ruh. Buyur.

Səs. Amma əgər sənə oralarda qalmaq, bura gəlməmək təklifi edilsə...

Ruh. Bilirəm, qalmamalıyam.

Səs. Elədi. Qalmamalısan. Amma qalmaya bilməyəcəksən. Gərək belə bir təklif yada düşməsin. Təklif olsa qalacaqsan. Olmaz. Heç olmaz. Sənin və sizlərin orda qalmanız nəzərdə tutulmayıb. Hələ ki.

Ruh. Mən necə etməliyəm bunu?

Səs. Bilmirəm. Mən də bilmirəm. Söyüş söy, qışqır, hay-küy sal. Qoy səndən zəhlələri getsin. Bir də çağırmaq ağıllarına belə gəlməsin. Artıq əziyyətdir. Sənə də, bizə də. Amma işdi, şayəd, sənə qalmaq təklif edildisə, qalacaqsan. Və bir də buralara gəlməyəcəksən. Sənin üzünə qapı birdəfəlik bağlanacaq. Avara ruh kimi dolaşacaqsan qara boşluqları. Eşidirsən? Olmaz. Hələ bir dəfə də bir ruh da aşağıda qalmayıb. Hamı gedənlər geri dönüb. Eşidirsən səsləri? Eşidirsən?

Çağıran səslər yenə yavaş-yavaş güclənməyə, ürək kimi bərkdən döyünməyə başlayır.

Ruh. Eşidirəm.

Səs. Qayıtmalısan. Qayda belədi.

Ruh. Mən qayıdacağam.

Səs. Səbirləri tükənir. Səni istəyirlər. Yolun açıqdır. Get.

Ruh. Mən gedirəm. *(ağ zolağın üstünə çıxır)*

Səs. Get və qayıt.

Ruh. Gedirəm və qayıdacağam.

Ağ zolaq onu udur. Ruh da yox olur. Səs də kəsilir. Bir anlıq sükutdan sonra bütün yer üzünə elə bil qaranlıq çökür və təpəcikləri də, kölgə və təpələri də öz içində əridir. Səssizlik. Amma bu sükut deyil. Belə səssizlikdə bir-birindən xoflanan səslər danışa bilirmiş. İşığa iki nəfər zərzibalı bir otaqda üzbəüz bardaş qurub oturmuş Karvanbaşı və Xacə çıxır.

Karvanbaşı. Gəlməyəcək.

Xacə. Gələcək, gələcək gözümün işığı.

Karvanbaşı. Gəlməyəcək. İnanmıram mən buna. Gəldiyi o dəfə, o açıq səmanın altında sağ-sol ulduz, o zaman, o yolda gələrdi gəlsəydi. Nə illah elədin, unutmusan?! Yadındadı? Əlahəzrət də bir dəfə öz atasını çağır-

maq istədi. Rəmmal ilan dili çıxartdı. Yenə gəlmədi. Mən o uzaq vaxtdan nəsə inanmıram o işlərə. Necə oldu, heç bilmirəm. Yenə də uydum sənə. O rəmmal cəzasına çatdı – biləsən.

Xacə. Səbirli olsun. Ürəyimə damıb. Bu səfər gələcək. Sən bir ləhzə sakitləş, hələ səsini çıxarma. Gözümün işığı, sakit ol. Sakit...

Karvanbaşı. Mənim ənamımı da əlbəttə qaytaracaqsan.

Xacə. Bəli, bəli. Qaytaracağam. Bəli, bəli. Allah səbirli bəndələrini sevir. Yoldadı bu. Yol gəlir. Gözlərimə görünmə, gəl. *(sükut)* Ağlamışam, dirənmə, gəl. *(sükut)* Sən ölmüşün, ərinmə, gəl. Gəl, gəl, gəl, gəl... *(ayağa durur, elə bil gözəgörünməyən kimsə uzaqdan görünməyə başlayır, təzədən oturur yenə)* Gözümə görünmə, gəl. Ağlamışam, dirənmə, gəl. Sən ölmüşün, ərinmə, gəl. Gəldi... Uff... *(ağ işıq zolağı ilə Ruh peyda olur)* Gəldi. Burdadı. Burdadı, gözümün işığı. Gəldi. Allah, min-min şükürlər... Di nə soruşursan soruş. Mən öz işimi gördüm daha. *(yorğun bir küncə çəkilir)*

Karvanbaşı. *(şübhə ilə)* Gəldi deyirsən? Gəldisə di onda Allah atana rəhmət eləsin. Gəldi deyirsən, eləmi?!

Sükutun sirri vardı və əlavə heç nə görünməsə də artıq o da həqiqət idi ki, bura daha əvvəlki məkan deyil.

Soruşa bilərəm daha?! Burdasan, ağa?! Burdasan? Bəs eləysə, mənə bir işarət elə.

Musiqimi, göymü guruldayır, ildırımmı çaxır və bir anlıq ruh bütün möhtəşəmliyi, bütün əzəməti ilə gəldiyini biruzə verir.

Karvanbaşı. *(sarsılmış)* Burdasan. Ağam mənim. Bu sənsən... Mən elə belə də bilirdim. Elə də var idin mənim yuxularımda. Bilirsən, ağa, necə kor qoydun məni, naəlac qoydun məni sən?! Sənnən ağabəyim. Bilirsən, "ata vay, qardaş vay" demədiyim bir gecəm olmadı ağlım kəsəli?! Bilirsən? Niyə susursan? Ağa...

Ruh. Ay səni elə həmişə vay içində olasan.

Karvanbaşı. Aman allah... Necə, necə dedin? Niyə? Tanımadın məni, ağa? Allahverdiyəm də mən, Allahverdi. Oğlunam.

Ruh. Kor idiz, kor da qalmısız. Gic adam, mənə nə sən kimsən, mənim nə taqsırım narahat eləmisən məni?! Hələ bir görüm məni niyə çağırmısan? Axmaq uşaq, axmaq. Hamınızın başı xarab olub, hamımızın. Heç dəxli var? Ağlayıblar bunlar. Sizə ağlayın deyən vardı? Ağlayırdız? Ağlamayaydız. Bəli. Sən. Sən. Ağlamayaydın. Neyniyim ağlamısan. Mənə nə? Sözə bax. "Ata vay, qardaş vay" demədiyim bir gecəm olmadı. Olaydı. Heç dəxli var? Heç dəxli var? Bunlara bax bir...

Karvanbaşı. Xudabəndi-aləmə qurban olum. Axı sən niyə bu qədərinə acıqlısan? Nə günah işləmişəm mən ki, sənin bu qədər qəzəbinə düçar olmuşam?

Ruh. Nə günah işləmişəm. Nə günah işləmişəm. İşləmisən günah. Məni niyə rahat qoymursan? Kimsən axı sən? Niyə çağırmısan məni? Allahverdidi bu. Paho. Nolsun? Heç dəxli var?.. "Nə günah işləmişəm?". İşləmisən günah. İşləmisən. *(sükut)* Gicinəqulu.

Karvanbaşı. Ayağının altında ölüm. Odu, ağamdı. Qurban olum sənin ayağının altındakı toza, ağa. Mənəm, bəli. Gicinəquluyam. Uşaqlıqda ağlım kəsməyəndə mənə dediyin söz qalıb ki huşunda. Oyam. Gicinəquluyam. Sənin gicinəqulunam. Sənin gicinəqulunam, ağa. Ağa, ağa, ağa... Nəfəsinə qurban olum. Bircə ləhzə səni görə bilsəydim...

Ruh. Görməsən yaxşıdı, gic, əbləh.

Karvanbaşı. Niyə sən bu cür qəzəbli danışırsan bəs? Məni bilsəydin sənin və böyük qardaşımın həsrəti nə günə saldı, bircə bunu bilsəydin. Ağa, həsrətiniz, nakam baxtınız məni hər gecə bu günün özünəcən üzür. *(pıçıltıyla)* Qoy sevindirim səni. Bilirsən, var-dövlət sahibiyəm, ağa. Böyük-böyük karvanlarım var. Dünyanın hər yerinə gedir, ən əntiq malları mən gətirirəm məmləkətə. Bilirsən, *(səsləri lap yavaşıdır)* şaha yaxınam. Çox adam qorxar məndən. Məsləhəti hər zaman mənnən eləyir ona görə. Şah da daha əvvəlki deyil. Oğludu indi şah. Bilirsən, əvvəlki, yəni sənin şahın yara çıxardı. On il əvvəl o dünyalıq oldu. Amma rahatlığım yoxdu, ağa. Səndən sarı, ağabəyimdən sarı yoxdu rahatlığım. Gecələr yuxuma girirsiz. Tutub boğazımdan boğursuz məni. Üzünüzü də görməmişəm amma yuxularım-

dan çıxmırsız ki çıxmırsız, ağa. "İntiqam, intiqam" pıçıldayırsız, ağa. Niyə, məndən istəyiniz nədi?

Ruh. Buna baxırsan bir?! Mənə nə, əbləh sənin yuxuna kim girir, yuxundan kim çıxır? Bizim heç kimin yuxusunda işimiz yoxdu. Yata bilmir bu... Yata bilmir. Yata bilmirsənsə, yatma da.

Karvanbaşı. Ağa, elə danışma, ağa. Mənə bir şey de...

Ruh. "Yata bilmirəm". Yata bilməmək asan məsələdir məgər? Bir zaman vardı, mən özüm də yata bilmirdim. Amma mənim yuxusuzluğumun bir səbəbi vardı. Bilirsən mən niyə yata bilmirdim? Bilmirsən. Hardan bilәsən? Mənim birinci qurbanım bilirsən kim idi? Bir arvad idi. İtələyib quyuya yıxmışdım onu. Yox, mən gənc idim. Amma sonrası daha asan oldu. Gah qulluğuna girdim, cəllad olub çoxlarını o dünyaya yolladım. Artıq asan idi. O arvaddan sonrası asan idi. Hələ bəzən ləzzət də alırdım. Adamları şahın əmri ilə cəhənnəmə vasil edəndə ləzzət də alırdım. Xoşuna gəldi? Ay səni gicinəqulu. Hə, necədi? Bunları bilirdin deyəsən. Dedi-qodu gəlib qulağına çatmayıb, nədi? Vəzir Məşdəli durur?

Karvanbaşı. Ağa, ağa, qurban olum sənə. Elə danışma. Elə danışma, qurbanın olum. Mən ölərəm, ağa. Mən ölərəm. Nədi mənim taxsırım, bir de görüm, nədi mənim taxsırım... Durur, vəzir Məşdəli durur. Elə ki o durur... Quru nəfəsidi gedir-gəlir. Onu niyə soruşursan? Bəs o dediyin arvad kim idi, ağa?

Ruh. Vəzir Məşdəli atamın dostu olmuşdu, mənim hamim idi, o idi anamın qətlini ört-basdır elədi, mən üzə çıxdım. Yoxsa dağda-daşda qurdquş yeyib qurtarmışdı məni. O arvad kim idi deyirsən? Unutmuşam. Nə baxırsan maddım-maddım? Hələ sənin də ananı... Mən... Bilmirdin?

Karvanbaşı. Yox.

Ruh. Mən, mən... Heç kim yox, mən göndərdim o dünyaya. Dağdan üzüaşağı... Qanadlarını qırıb quş kimi atdım dağdan üzüaşağı. Uçmaq istədi, uça bilmədi. Daş kimi düşdü dərənin dibinə, tərpənmədi daha.

Karvanbaşı. Yox.

Ruh. Sən də deyirsən ki, ağlamaqdan kor olmuşam. Gecələr yuxuma girirsən. Bəs anan necə, girirmi yuxuna? Ay səni gicinəqulu...

Karvanbaşı. Ağa, mən ölərəm axı, elə danışma, ağa. Mənə rəhmin gəlsin. *(Xacə tərəfə)* Nə danışır, ay allah bu? Bəlkə heç mənim ağam deyil bu, allah, allah, kimdi bu?!

Xacə. Ağamdı, gözümün işığıdı, odu. Möhkəm ol. Ağandı.

Ruh. Sənin ağanam mən. Sən mənim belimdən gəldin. Mənə görə sən varsan. Gicinəqulu. Necə də böyümüsən. Bir tikə idin, əl boyda. Qoca qarı səni nənni üstə oxşayardı. Yat... Yat... Yat... Yatmasan, şirin yuxuya batmasan, qışqırmağını atmasan – damdabaca gəlib aparacaq səni... Ay səni gicinəqulu. Ağanam mən sənin. Ağanam. Sənin bədbəxt ağanam mən.

Karvanbaşı. "Damdabaca gəlib aparacaq". Sonralar böyüyəndən sonra dünyasında damdabaca qədər qorxduğum heç nə olmadı bu dünyada. Damdabaca. Qarı nənəm demədi ki, demədi bu nədi. Elə "intiqam" dedi. Elə "intiqam" dedi. Bəlkə zarafat etdin mənimlə, ağa?! De ki, yalandan dedin. De ki, yalan dedin bu dediklərini. Nola, inannam.

Ruh. Eh... Sən axı nə cür adamsan?! Yalan istəyirsən məndən? Yox, yalan demədim. Bizlər yalan danışa bilmirik. İstəsək də deyək, bacarmırıq. Di yaxşı, başqa sözün yoxdusa, mən çıxıb gedirəm. Gicinəqulu. Gicinəqulularsınız elə hamınız.

Karvanbaşı. Söylə mənə, dayan, sən allahın, getmə, dayan bir ləhzə, söylə mənə, heç ağabəyimi görmüsən oralarda? Günahsız qanına qəltan edilən nakam ağabəyimi?..

Ruh. Bilmirəm sən nə danışdığındı?! Tanımıram mən onu, başa düşürsən, tanımıram onu, orda unuduram onu. Tanımadığım üçün də elə bilirəm hamı oğlumdu. Atamı da tanımıram. Elə bilirəm hamı atamdı. Biz ancaq buralara enəndə yaddaşımız oyanır, sizləri görüb hər şeyi xatırlayıram. Tanımıram onu. O da məni tanımır. Eh... Doğrudan da gicinəqulusanmış ki sən. Hələ bir de görüm nəyə məni çağırıb rahatsız etmisən?! Noldu, de də bəs?! Mən gedirəm. Eşidirsən? Mən gedirəm. Gedim mən. Daha bir də məni rahatsız etməyəsən. Çağırmayasan nə badə bir də məni buralara.

Karvanbaşı. Sən bu dünyada ömür sürüb yaşayanda, özünə ömürgün quranda, məni bu dünyaya gətirəndən sonra... Sonra, bəli, dəli olub

çöllərə düşəndə bəs demədin ki, mənim körpəm var, balam var? Gicinəqulum var – hara qoyub gedirəm onu?!

Ruh. Neynirdim mən? Sən tifil, dağ boyda şahveräni itirəndən sonra neynirdim heç ağlına gətirirsən? Bilirsən, ağabəyini nəyin üstündə... Bilirsən?! Şahın nökərləri başını kəsib leşini də bir çuvalın içinə qoyub evimin qapısına buraxdılar gecəyarı. Nə üçün, bilirsən? Bilmirsən. Sənin üstündə. Sənə görə. Sən dünyaya gəldin, mən o şəhərə, o evə pərçim oldum. Şahın əmrini pozdum, onunla geri dönmədim. Qalası oldum, buna görə. Sənin acığını çıxdılar məndən, bil bunu. İndiyənə kimi yoxsa yaşayırdım.

Karvanbaşı. Mənim acığımı çıxdılar ondan. Mən tifilin.

Ruh. Sənin dünyaya gəlməyinin qisasını aldılar məndən, a gədə. Mən qoşunla bir gəlmişdim sənin ananın şəhərinə. Qoşunla bir də qayıtmalı idim. Şahın əmri belə idi. Mən isə qayıtmadım. Sevmişdim ananı, bilirsən?..

Şah əsəbi, hirsli gəlir – həm ruha, həm də karvanbaşıya qəzəblə baxır. Onlar elə bil şahı görmürlər. Birdən heykəl kimi donub və bərkdən.

Şah. Kim mənim qoşunumla yola çıxıb gedibsə, o adam mənimlə də paytaxta geri gedəcək. Cürəti var, dönməsin. Kim məğlub olmuş məmləkətdə, şəhərdə qalıb məskun olmaq niyyətinə düşsə, bütün nəsli zay çıxacaq, çünki buranın havası da, daşı da, suyu da, arpası, çörəyi də, qərəz bu məğlubiyyəti görən nəyi varsa, hər şeyi artıq axtalandı. *(səsi əks-səda kimi uzanır... Axtalandı, axtalandı, axta... ax...)*

Şah qəfil gəldiyi kimi qəfil də yoxa çıxdı.

Xacə. Bax, bax, Şah idi bu. Rəhmətliyin özü idi, şahımızın babası...

Karvanbaşı. Kimdi deyirsən?

Xacə. Şah idi. Şah rəhmətliyin ruhu idi.

Karvanbaşı. Əlahəzrətin babası idi. Nəsə dedi getdi.

Ruh. Mən o səsi tanıyırdım. Mən o səsi yaxşı tanıyırdım.

Şah yenə də işığa çıxır. Qarşısında vəzir Məşdəli Müntəzir.

Şah. Bu lənətəgəlmiş axtalanmış şəhərdə qalmaq fikrinə fəqət məni istəyənlər düşə bilər.

Vəzir. Mənə gəlib deyir ki, yox, ağa, mən qayıdası olmadım. Gedib yıxılacağam, deyir, qibleyi-aləmin ayaqlarına, torpaq, torpaq, torpaq versin bir ovuc mənə. Yaşımın bu vaxtında daha torpaqdan başqa bir işin qulpundan yapışmaq istəmirəm. Mənə deyir, dil tərpət, ağa, mənimçün Şahın hüzurunda, yalvarır, ağlayır az qala...

Şah. *(qəzəbli)* Belə... Cəllad Məmmədqulu əvvəl-axır zatıqırıqlığını göstərəcəkdi, göstərdi, deməli. Hayıf, çox hayıf. Deməli, bizim qulluğumuzda durmağı yaraşdırmırdı özünə. Nəyə güvənib bu? Sən bəlkə biləsən, sən bilməmiş olmazsan, sənin adamındı, unutdunmu, sən çəkib çıxartdın bunu başımıza. Nə tez yadından çıxartdı? Mənim ki yadımdan çıxmayıb. Açılasıydı bu, pis, iş gördük, adam elədik, qulluq verdik. Cəlladbaşı dönük çıxırsa, o birilərdən nə gözləyək? Cəlladbaşı qaçırsa, daha nə oldu, elə hamı çıxıb getsin də öz ayağıyla, hələ məni neynirsiz, hə? Nədi, susursan... Nə deyirsən, düz demirəm bəlkə, vəzir, yadımdan elə bilirsən çıxıb bunun hekayəti? Sən danışmırdın məgər bunun uşaq vaxtındakı "şücaətindən"? Doğma anasını qətlə yetirən bir adam idi. Budurmu mənim xeyirxahlığımın əvəzi? Hayıf, çox hayıf. Hə, susub durmusan, sənin elə susmağın da şübhəlidi mənə.

Vəzir. Nə deyim, nə deyim mən biçara, mən ölmüşü, gözümün işığı, nə deyim, Allah əvəzim?! Günahım var. Var günahım. Mən, mən nə biləydim, qibleyi-aləm, çiy süd əmib, nə biləydim mən? Bunun üçün ağız açdım, dil tərpətdim sənə, doğru buyurursan, gözümün işığı, zatıqırıqmış bu, qudurdu, azdı yolunu...

Şah. Azdı, azdı.

Vəzir. Bir də deyir, oğlum qalır qulluqda, bəsdi. Belə deyir qudurmuş, gözümün işığı... Var əlbəttə, var mənim günahım...

Şah. O məlun, o xain Şahverdinin oğlunu deyir. Heç deoğma oğlu da deyil ki bunun, nəsli qırılmış Şahverdinin o küçüyünü öldürmədim, verdim buna, nəsə elə birdən yazığım gəldi bu tiflə. İndi nədi düşmənimin oğlunu əziz-xələf eləyib özünə, eləmi? Onu qoyacaqmış öz əvəzi, eləmi? Bu bişərəf mənə nə cür hərəkət edəcəyimi də hələ bir mənə əmr edəcəkmiş... Vəzir, mənim belə-belə boş işlərə sərf etmək üçün nə vaxtım var, nə həvəsim. Məmləkətin işlərinə baxım, bu cəlladın əmrdən çıxmağına baxım?! Heç bir həvəsim yoxdu, amma dərsini verməliyəm bu asinin, başqalarına görk olsun. O zaman olmadı. Eybi yoxdur, indi alar cəzasını. Yaxın gəl görüm, yaxın gəl. Deyirsən çox sevir oğulluğunu, hə? Öz doğma oğlu kimi sevir? Bəs elə isə tutarsınız bunun oğulluğunu, iki şaqqa eləyib atarsının qaldığı evin qapısı ağzına.

Vəzir. Bəs özünə, gözümün işığı?

Şah. Özünə? Heç nə etməzsiniz özünə. Qoy dursun. Qalmaq istəyirsə də qalsın bu şəhərdə. Amma cəzasını alıb qalsın.

Yenə işıq Şahla Vəzirin üzərindən gedir.

Karvanbaşı. Cəzanı verdilər, eləmi?!

Ruh. Cəzamı verdilər. Haqq oldu mənə. Mən əmrdən çıxmışdım. Cəzamı da almalıydım.

Karvanbaşı. Bəs ağabəyimi niyə? Niyə onu?

Ruh. Qibleyi-aləmin buyruğu belədi.

Xacə. Allaha təvəkkül, nə deyim vallah, allaha təvəkkül.

Ruh. Bir də Şahverəni soruşma məndən. Eşidirsən, soruşma. Əllərimlə bəslədiyim, boya-başa yetirdiyim şumal kimi oğlumu itirdim, nər kimi balama qıydılar. Qəbrini də bu əllərimlə qazdım, bilirsən?! Eh, sən nə bilirsən ki. Gicinəqulusan sən, Allahverdi deyilsən, Gicinəqulusan. Ha-ha-ha... *(öskürəkmi tutur onu, bilinmir ki, ağlayır, öskürür, qışqırır, zarıyır).*

Xacə. Vallah, bu ruh dəli ruhdu. Billah, bu ruh xəstə ruhdu. Nə deyirsən, gözümün işığı, bəlkə bəsdi?! Qovaq bunu getsin deyirəm bəlkə? Hə?

Karvanbaşı. Yox, dayan. Sən belə elə. Çıx eşiyə! Mənim bundan təklikdə soruşacağım var.

Xacə. Gözümün işığı...

Karvanbaşı. Nolar, çıx eşiyə, qoy təklikdə bir ləhzə qalım onunla. Ürəyimdə sözüm var.

Xacə. Yaxşı da, mən nə deyirəm?! Amma yaxındayam, gözümün işığı. Uzaq getmənəm. *(çıxır).*

Karvanbaşı ora boylanır, bura boylanır: Ruh hardadı? Əsər-əlamət yoxdu elə bil Ruhdan.

Ruh. *(Birdən vaqe olaraq)* Nə soruşmaq istədin soruşdun daha. Dövlətin, malın, evin-eşiyin, Şahacan sözün keçir. Dünya tüccarın oldu. Daha mən gedim.

Karvanbaşı. Ağa, bilirsən, mən sizin ikinizin də intiqamını alacağam.

Ruh. Nə intiqam? Kimdən alacaqsan sən intiqam? Nə danışır bu?

Karvanbaşı. Bir sözdü dedim.

Ruh. Yox, qaranlıq danışdın nəsə. De görüm nə demək istədin? Ancaq "intiqam" deyib yaşamışam. Gecələr "intiqam" sözü dodaqlarımda yuxuya getmişəm, səhərlər "intiqam" sözü ilə yuxudan ayılmışam. Qarı nənəm yuxuya gedəndə bu sözü pıçıldayardı qulağıma, öləndə də gözləri ilə dedi bu sözü. Gözləri ilə dedi ki, biedən unudarsan intiqamını ha, göyçək balam?! Dedim yox, rahat ver nəfəsini, unutmaram. Unutsan bax ha, damdabaca gəlib səni aparacaq. Əvvəl qorxa-qorxa unutmadım. Sonra hava ki uduram, bax bu hava kimi, yediyim çörək kimi, içdiyim su kimi unutmadım...

İşıqlar öləziyir, quru yerdə, yorğan-döşəkdə Qarı nənə, yanında cavan Karvanbaşı.

Qarı nənə. Biləsən, atandan bir küp qızıl qalıb. Birinci dəfədi deyirəm bunu. Səni yarıac, yarıtox böyütdüm, amma o küpə dəymədim. İndi deyirəm sənə. Ölən ayağımdı çünki. Quyu divarındakı çuxurun içindədi, ağzı-

na çör-çöp yığılıb, quşlar yuva qurub, ordadı atanın qızılları. Atanın, qardaşının qatili... *(öskürür).*

Karvanbaşı. Kimdi, kimdi qatili onların?

Qarı nənə. Of... Ax... Qoy bir az toxdayım. Nə deyirdim mən?!

Karvanbaşı. Sən deyirdin ki, mən atamın, qardaşımın intiqamını almalıyam. Kimdən, nənə, kimdən?

Qarı nənə. Bala, sənin atan cəllad Məmmədqulu şahın qoşunu ilə gəlib şəhərə girənlərdən biri idi. Şahın inanılmış adamıydı. Bizim evə yapışıq evdə qalardı. Pəncərələri düz bizim bu balaca həyətimizə çıxırdı. İndi yoxdu o pəncərə, daş qoyub tikdi atan onu bizim evə köçəndən sonra. Sənin anan, mənim qızım Pərnisə, uf ay allah, yadımda düşəndə odlanıram. Ax, ax, of, of... Vurulmuşdu sənin atana. O, pəncərədə durub axşamın ay işığında bu həyətə baxırdı, bu da həyətdən pəncərəyə. Ayın çəkilib getməsini, qaranlığın çökməsini gözləyirdilər. Bir də mənim yuxuya getməyimi. Amma mən yuxuya getmirdim, bala, mən özümü vururdum yuxuluğa... Neyləyəydim, cavan dul gəlindi, necə saxlayaydım onu qızmış gəlin "gəl-gəl" deyən odlu nəfəsindən?..

İşıq sönür. Yuxarıdakı pəncərə və balaca həyət ay işığı ilə işıqlanır. Pəncərədə cəllad Məmmədqulu və həyətdə gözəl Pərnisə. Pərnisə bir qab içindəki yuyulmuş paltarları sərməkdədi.

Pərnisə. Yenə baxır, allah, allah, yenə durub marıtdayıb məni, bircə kəlmə də danışmır ki, danışmır bu, niyə belə lal, səssiz-səmirsizdi, ay allah... Gör bir necə, gör bir necə pərişandı... Allah, allah, yəni bunların da allahları olurmuş, cəlladların da üz-gözündə rəhm olarmış...

Qarı nənə. *(içəridən)* Hansı cəhənnəmdə qaldın, qız, Pərnisə? Noldu, bu paltarlar sərilib qurtarmadı? Gəl çıx gir yerinə öl daha, gecədən keçdi, gəl, mən yatdım... Pərnisə...

Pərnisə tez-tələsik paltarı sərib, qurtarıb-qurtarmadı qaçıb getmək istəyir, evə girəndə birdən dayanır. Geri, pəncərənin altına qayıdır.

Pərnisə. Bil, sənə görə qaçmıram. Heç bir zərrə də qorxmuram mən səndən. Nədi, elə bilirsən yalan deyirəm?! Hamı qorxur, mən qorxmuram səndən.

Məmmədqulu. Baho, bax bir buna. Məndən niyə qorxmalısan ki sən? Düz eləyirsən. Qorxma məndən. Mən sənə bir pislik eləmərəm.

Qarı nənə. Ay qız, Pərnisə...

Pərnisə. Gəldim, ay nənə, hövsələn olsun...

Məmmədqulu. Çağırır, eşidirsən? Yəqin narahat olur səndən yana nənən. Hesab istəyəcək...

Pərnisə. Olsun. Məndən heç kim hesab istəyə bilməz. Mən özüm özümnənəm.

Məmmədqulu. Yaman dilli dilavərsən sən, qız, adın Pərnisədi, eləmi? Mənim də adım...

Pərnisə. Cəllad Məmmədqulusan sən, bilirəm. Bizim məhlədə hamı səndən qorxur. Mən... Qorxmuram. Bilmirəm niyə, amma mən qorxmuram.

Məmmədqulu. Sən qorxma. Qoy kim qorxur qorxsun, amma sən qorxma.

Pərnisə. Tək yaşayırsan sən? Bəs oğlun hardadı? O cavan oğlan sənin oğlun deyil?

Məmmədqulu. Oğlumdu. O ayrı, mən ayrı. O əsgərlərlə bir yerdə qalır, onbaşıdı. Yeməyi də onlarladı, içməyi də. İgiddi.

Pərnisə. Sənə nə olub? Hələ bir de görüm, sənin qılıncın, baltan burdadı? Necə baltan var, hə? Adam başı kəsən baltan var? Göstər də mənə...

Məmmədqulu. Baho... Buna baxırsan? Neynirsən sən bunları? Yoxdu burda bunlar. Mən qaldığım evdə belə şeylər saxlamıram. Hər şeyin öz yeri var.

Pərnisə. O gün çapar küçələri gəzib Şahın əsgərə fərmanını oxuyurdu. Xəbərin var fərmandan? Sənin adın vardı o fərmanda.

Məmmədqulu. Nə fərman?

Pərnisə. Bəs Şah deyir ki, bunlar, yəni biz, bizim, yəni sizin din qardaş-bacılarınızıq. Yollarını azmışdılar, deyir, biz də bir şapalaq vurduq, ağılları gəldi başlarına, öz məmləkətimiz, o əhalimizdi, qarət-filandan söz

ola bilməz. Qarət edən, ya barəsində şikayət gələn əsgər birbaşa özü öz ayağıyla mən demədən getsin cəllad Məmmədqulunun xidmətinə, cəzasını o verəcək, külli-ixtiyar onundu. Sən yəni belə ixtiyar sahibisən?

Məmmədqulu. Nə deyim vallah?! Əlbət elədi. Nənən yatdı deyəsən, daha səsi-səmiri gəlmir. O nərdivanı görürsən?

Pərnisə. Görürəm, nolsun ki?

Məmmədqulu. Onu götür, qoy bu pəncərənin ağzına.

Pərnisə yerdən bir nərdivan götürüb qoyur pəncərəyə.

Pərnisə. Qoydum, nolsun ki.

Məmmədqulu. İndi qalx yavaş-yavaş yuxarı.

Pərnisə. Kimi deyirsən? Məni deyirsən? Elə niyə baxırsan mənə? Allah, allah, nə istəyirsən sən məndən? Xudaya, səsə bax bir, indicə duracaq yuxudan, duracaq, dayan bir...

Pərnisə danışa-danışa qalxır pəncərənin qabağına və Məmmədqulu əlini salıb onun belindən tutur, quş kimi pəncərədən keçirib qoyur yerə. İndi işıq pəncərənin bu tərəfindədir. Məmmədqulu sarılır Pərnisəyə.

Pərnisə. Dayan deyirəm, buna bax e, elə bilirsən, səndən qorxuram, vallah bilirsən neylərəm, aman allah, aman allah, sən nə elədiyindi?! Eşitsə, bilsə, öldürəcək axı nənəm, qurban olum burax, burax məni gedim, mənim burda nə işim vardı, ay allah, sənə qurban ollam, gəl sabah görüşək, sabah gedəcək kəndə, yaxşımı, Məmmədqulu, bu gün burax gedim, daşqalağam mən, sən... sən... allah, allah, noldu mənə, allah, oyyy, məni burax, nolar, mən biçarəni, mən bədbəxti, nolar burax... Niyə, niyə mən? Eşidirsən, eşidirsən, niyə mən? Bu boyda şəhərdə başına arvad qəhətdi?!

Məmmədqulu. Səni, səni, səni, ancaq səni istəyirəm. Görən kimi istədim səni. Sən mənə baxan kimi. Danışma. Eşidirsən, danışma. Sən allahın sus...

Pərnisə. Dayan, dayan, səbrin olsun sənin, yoxdu sənin səbrin? Ay allah, niyə yoxdu sənin səbrin?.. Sabah, sabah bu vaxt, eşidirsən, sabah bu vaxt...

Pərnisə birtəhər Məmmədqulunun əlindən çıxıb nərdivanla aşağı düşür. Qaçıb evlərinin qapısına çatanda dayanıb durur, nə düşünürsə pəncərəyə tərəf əl edir, sonra girir evə. İşıq gəlib yenə də Qarı nənənin və cavan Karvanbaşının üstünə düşür.

Qarı nənə. Hər axşam gecə düşəndə o təmiz ayın qabağını bir parça bulud gəlib tuturdu. Ay onlarla əlbir olmuşdu elə bil. Bütün həyət qaranlığa qərq olurdu. Sənin anan hər gecə gedib nərdivanla qalxırdı atanın pəncərəsindən, girirdi otağına. Daha baxmırdılar mən yatmışam, yatmamışam...

Yenə işıq pəncərənin üstündən keçib otağa, yerdən oturmuş Pərnisənin və başını onun dizləri üstə qoymuş Məmmədqulunun üstünə düşür.

Pərnisə. Sevirsən?
Məmmədqulu. Sevirəm.
Pərnisə. Sevmirsən.
Məmmədqulu. Sevirəm.
Pərnisə. Sən də gedəcəksən şah çıxıb gedəndə onunla?
Məmmədqulu. Mən buyruq quluyam, getməyə bilmənəm.
Pərnisə. Bəs belə isə mənə məlum oldu: sevmirsən.
Məmmədqulu. Sən də gedək mənimlə.
Pərnisə. Yox, sən qal, getmə, nolar, söz ver, söz ver ki, getməyəcəksən.
Məmmədqulu. Gərək gedəm axı.
Pərnisə. Bəs mən?
Məmmədqulu. Nə sən?
Pərnisə. Mən də. Bəs sən sevmirsən məni?! Amma deyirdin sevirəm?!
Məmmədqulu. Sevirəm? Mən? Yaxşı, nolar, sevirəm. Demişəm, demişəm, deməli sevirəm. Bi şey fikirləşib taparıq. Allah kərim allahdı.

Pərnisə. Buy, buy, allahdan danışır bu. Allahdan danışana bax.

Məmmədqulu. Nədi, inanmırsan mənə?

Pərnisə. Yox, söz ver, inanım. Söz ver, söz. Yoxsa... *(qışqırır)* Bilirsən neylərəm sənə?

Məmmədqulu. Qız, yavaş bir az, qulağım batdı. Hamı gedəcək, bilirsən?..

Pərnisə. Nolar, qoy kim gedir getsin, kim gəlir gəlsin, səndən mən əl çəkən deyiləm, eşidirsən, mənə ər gərəkdi. Mənə dünən burda, sabah orda – yolölçən gərək deyil. Mənə səndən başqa heç bir adam gərək deyil, eşidirsən məni, sən məni atmazsan inşallah, ata bilməzsən, sən məndən heç hara qaça bilməzsən, düz demirəm mən, Məmmədqulu? Sən yolölçən deyilsən axı...

Məmmədqulu dik atılıb yerindən durur.

Məmmədqulu. Bu nədi, qulağıma elə bil səs gəldi. Yenə onun səsini eşitdim elə bil...

Pərnisə. Noldu sənə? Nə eşitdin sən?

Məmmədqulu. Heç, heç. Bilmirsən, bir arvad vardı. İndi yoxdu, ölüb gedib. Sən danışanda elə bil onun səsini eşitdim, əstəğfurulla, bu nə idi belə?!

Pərnisə. Gör bir necə dəyişdi halın... Nəyin idi bu arvad sənin? Nə zamandı ölüb?

Məmmədqulu. Mən o zaman yeniyetmə gənc idim. Bilirsən... Kim idi o? Anam idi, anam idi mənim...

Pərnisə. Noldu sənə, ay Məmmədqulu? Hara uçub getdin sən? Niyə belə edirsən? Anan idi deyirsən?!

Məmmədqulu. Mənim anam gözəl-göyçək, xanım-xatın bir arvad idi. Bilirsən, günlərin bir günü mənim atamın doğmaca əmisi nəvəsi tacir Zəbulla ilə bir yastığa baş qoydu. Təkqıç tacir Zəbulla, özü də bizim evin qonşuluğunda mülkü var idi. Atam o zaman təzəcə ölmüşdü. Bilirsən, səyyah idi atam. Ölkədən ölkəyə səyahət edərdi, kitab yazardı, tacirliyi vardı... Səyyah deyərdilər ona, səyyah Həsən. Aynan evdə olmazdı. O dəfə yenicə qayıtdığıydı. Anam məni də götürüb bazara çıxdıq. Evimizə quldurlar hü-

cum etdilər. Guya qarət edəcəkdilər, öldürdülər atamı. O quldurlardan ikisinin nişanını aldım, soraqlaşıb güddüm, gecənin bir yarısı Zəbulla ilə hasarın yanında bu ikisini, sözləşən gördüm onları. Zəbulla "sabah, sabah gəlin, qalanını da aparın" deyirdi. Dilimi dişlədim. Sonra o gecə yatmadım, yuxum ərşə çəkildi. Gördüm, bəli, budu, arvad, yəni anam yerindən qalxıb evdən çıxır... Düşdüm dalınca...

İşıq sönüb sonra həyətdə yanır. Burda böyük bir ağacın altındakı yorğan-döşəkdə təkqıç Zəbulla və Qadın uzanıblar yanaşı.

Zəbulla. Sabah, dedim, gəlin pulun yerdə qalanını aparın.

Qadın. Gərək elə deməyəydin.

Zəbulla. Olmazdı. Öldürərdilər məni. Bunlar üçün su içmək kimidi. Səyyahın yanına göndərərdilər bəs məni də?!

Qadın. Elə demə. Allah eləməsin.

Zəbulla. Birdəfəlik olardım. Yaxşısı budur ki, bunlarla halallıqla üzülüşək. Necə şərtləşmişdik o cürə.

Qadın. Nə deyirəm, sən bilən məsləhətdi, Zəbulla ağa.

Zəbulla. Gədə neynir? Bir şey danışmır?! Gecə mən bunlarla sövdələşəndə siz tərəfdən nə idisə bir qaraltı keçdi elə bil. Duyuq düşər, deyirəm.

Qadın. Yox, elə şey olar heç? Binəva, "ata" deyib səhər-axşam dərd eləyib. Deyir dağa-daşa düşəcəyəm, güdüb-güdüb tapacağam o quldurları. Onlar, deyir, yaşamayacaq bu yer üzündə. "İntiqam, intiqam" deyib dad qılır.

Zəbulla. Güdəcəkmiş bu quldurları deyirsən?..

Qadın. Hə... Elə deyir... Necə ki?

Zəbulla. Heç... Heç... Birdəfəlik bunlar da əkilib getsəydilər bu tərəflərdən...

Qadın. Gedərlər, gedərlər, daha nə qaldı ki?! Hər şey qurtardı inşallah. Hər şey yaxşı olacaq. Məmmədqulu da gedib şah qulluğuna inşallah girər. Vəzir Məşdəli dədəsinə söz vermişdi. Bizim kəbinimizi də ondan sonra kəsərik, elə, Zəbulla ağa?

Zəbulla. Elə. Elə. Səni mən heç cürə səyyaha buraxa bilməzdim. Bir gün burda idi, illərlə o məmləkət mənim, bu məmləkət sənin. Get, gəl, get, gəl. Həyat idi sən yaşayırdın? Bu məsələni artıq həll elədik, həmd olsun allaha.

Qadın. Allaha şükür, allaha şükür ki, həll elədik. Allah ona da rəhmət eləsin.

Zəbulla. Allah rəhmət eləsin.

İşıq pəncərəyə düşür. Məmmədqulu pıçıltı ilə Pərnisəyə.

Məmmədqulu. Bax, indi diqqətlə bax, qulaq ver, indi deyəcək, həmən qulağıma gələn sözləri indi deyəcək. Bir qulaq ver. Sakit ol, qorxma. İndi, indi saplayacaq ürəyimə o sözləri. Yox, yox, tələsdim deyəsəm, bundan əvvəl atamın, o biçarə atamın səsi gəldi qulağıma. Sonra anam öz sözlərini dedi.

Qaranlıqdan səs gəlir:

Səs. Bala, bala, sən mənim balam deyilsən məgər, bəs sən nə təhər yata bilirsən gecələr bilə-bilə ki, bu məlunlar sənin atanı söz qoyub öldürüblər, hər gecə də girirlər bu yatağa, söyürlər doyunca goruna. Nə təhər dözürsən sən buna bala, Məmmədqulu?! Mən intiqam deyirəm, Məmmədqulu, mən intiqam deyirəm.

Məmmədqulu. *(Pərnisəyə)* Hə, bax indi, qulaq ver...

Pərnisə. Zəbulla ağa, deyirsən, gedirdi-gəlirdi. Heç getməsəydi də. Mən sənsiz qalammazdım. Qoy kim gedir getsin, kim gəlir gəlsin, səndən mən əl çəkən deyiləm, bilirsən? Mənə səndən başqa heç bir adam gərək deyil. Eşidirsən məni, sən məni atmazsan, sən yolölçən deyilsən. Mənə yolölçən gərək deyil. İnşallah, sən məni atmazsan, ata bilməzsən. Biz sənnən bu işdən sonra day birdəfəlik birləşdik. Sən məndən heç hara qaça bilməzsən, heç hara yanımdan gedə bilməzsən, düz demirəm mən, Zəbulla ağa?.. Zəbulla, Zəbulla...

Zəbulla. Nəsə ürəyim su istədi.

Qadın. Bizim həyətin quyusunun suyu şipşirindi. Sənə gətirim, iç.
Zəbulla. Gətir.

Qadın durur gedir. İşıq sönür və yananda Qadın quyunun yanında görünür. Əyilib su çəkir. Arxadan səssiz Məmmədqulu yetişir.

Qadın. *(birdən çönür)* Sənsən, Məmmədqulu? Bəs sən bu vədə yatmamısan? Elə niyə durmusan, bir mənə bax, bax görüm gözümə. Niyə mənə baxmırsan, a gədə?

Səs. Mən intiqam deyirəm, Məmmədqulu. Mən intiqam deyirəm.

Qadın. *(o da səsi eşidir)* Ay allah... Ay aman... Uyyy... La ilahə illəllah... *(arxasını çöndərir Məmmədquluya)*

Məmmədqulu itələyib arvadı salır quyuya.

Məmmədqulu. *(çömbəlib oturur yerə)* Allah, allah, neylədim, neylədim mən?! Sən köpəkoğlu, sən gəbərməli məlun, sən alçaq, sən qatil...

İşıq sönür. Yananda Zəbulla ağacın altında tək. Məmmədqulu oğrun-oğrun gəlir.

Səs. Mən intiqam deyirəm, Məmmədqulu.

Məmmədqulu əlindəki qəməni saplayır Zəbullanın kürəyinə.

Zəbulla. Sənsən? Bəs... *(yıxılıb ölür)*.

İşıq yenə Məmmədqulunun və Pərnisənin üzərində.

Pərnisə. Sakit ol, sakit ol, eşidirsən? Bir də, bax, bu qara-qura fikirlərdən gətirmə beyninə. Olmayıb belə şey, olmayıb, eşidirsən, heç olmayıb...

Məmmədqulu. Gecdi, daha sən get, mən də bir az tək qalmaq istəyirəm, sabah səhərdən işim lap çoxdu, iş bitib tükənmir.

Pərnisə. Gedirəm, gözümün işığı, gedirəm, di sən də yat, yat, dincəl, daha sən də bir ləhzə də olsa dincəl. Rahat ol, rahatlıq tap...

Məmmədqulu. Bilirsən, sabah gedəcəyəm vəzir Məşdəlinin yanına. Sabah deyəcəyəm ona ki, qalmaq istəyirəm bu şəhərdə. Dil tərpət, deyəcəyəm, mənimçün şaha.

Pərnisə. Gözümün işığı mənim, gözümün işığı mənim, Məmmədqulu, həyatım mənim...

İşıq sönür. Yananda vəzir Məşdəli.

Vəzir Məşdəli. A gədə, gəl görüm bu yana.

Xidmətçibaşı gəlir.

De görüm, bu gün qapılarda gözətçilik kimin növbəsidi?

Xidmətçibaşı. Onbaşılardan Ramazandı, ağa.

Vəzir Məşdəli. Ona tapşır ki, mənim yanıma bir adam buraxmasınlar.

Xidmətçibaşı. Baş üstə. Ağa, günorta idi, cəllad Məmmədqulu gəlmişdi.

Vəzir Məşdəli. Nə deyirdi? Halı necəydi?

Xidmətçibaşı. Heç bir şey demirdi. Səni soruşdu, deyir, şahdan cavab gözləyirəm. Biləndə evdə yoxsan, dedi, axşam bir də gəlləm.

Vəzir Məşdəli. Bilirsən, bu gün nədisə bərk başım ağrıyır. Yatacağam. Heç bir kəsi də görmək istəmirəm. Mən evdə yoxam. Eşitdin?

Xidmətçibaşı. Eşitdim, ağa.

Vəzir Məşdəli. Nökərlərə de, bu gecə qapı-bacanı yaxşı-yaxşı bağlasınlar. Əsgərlərin biri yatsa tənbehini özüm verəcəyəm. Cavabdeh sənsən.

Xidmətçibaşı. Bəli, ağa. Arxayın ol, ağa. Sən dincini al, ağa. *(çıxır)*

Vəzir Məşdəli. Allah, sən özün bizə kömək ol. Bu bəladan da belə qurtardıq, şükürlər olsun, qəzəb bizdən keçdi, min şükür dərgahına, min şükür. Öz axmaqlığımdı. Denən nə işin var, hər sözü çatdırırsan şaha?!

"Məmmədqulu, qalmaq istərsən?! O şah, o da sən, di get, nə xahişin var, nə deyirsən, özün de". Bax, cızığından çıxarsan, cəzanı da alarsan. Belə olar.

İşıq sönür. Yananda Məmmədqulu və Pərnisə uzanıblar yanaşı.

Məmmədqulu. Bir oğlumuz olsaydı adını qoyardıq Allahverdi. Səni mənə ki Allah verdi, oğlumuzu da o verər inşallah... Şahverənə Allahverdi yaraşar. Nə deyirsən?

Pərnisə. Nə deyim vallah. Sən bilən məsləhətdi.

Bayırdan at ayağının səsi gəlir. Səs gəlib-gəlib həyət qapısının ağzında lapdan kəsir. Ölü bir sükut. Guppultuyla nəydisə yerə düşür.

Pərnisə. Bu nəydi belə? Sən eşitdin?

Məmmədqulu. Susss.

Bayırdan səslər. Xain Məmmədqulu! Xain Məmmədqulu! Al bu xainliyinin cavabını. Budu sənin cavabın, xain Məmmədqulu, xain Məmmədqulu, xain, xain...

At ayağı səsləri uzuqlaşır. Məmmədqulu heykəl kimi. Handan hana özünə gəlir, durub qapıya çıxmaq istəyir.

Pərnisə. Nə olub, hara? Nolar getmə...

Məmmədqulu qapıya yaxınlaşır. Qapının ağzında böyük bir torba. Məmmədqulu bu torbanın önündə taqətsiz diz çökür.

Məmmədqulu. *(pıçıltıyla)* Şahverən, sənsən?

Pərnisə. Uy, ay allah, uy, ay allah...

Məmmədqulu. Şahverən, vay...

İşıq sönür. Yananda yenə Ruh və Karvanbaşı.

Ruh. Lap yordun məni sən. İndi barı ürəyin gəldi yerinə?

Karvanbaşı. Alacağam intiqamınızı. Nə deyirsən de, alacağam intiqamınızı.

Ruh. Kimdən alacaqsan, ay Gicinəqulu, kimdən? Bir də, ağabəyim, ağabəyim deyirsən, o heç sənin doğma qardaşın da deyildi, bilirsən?..

Karvanbaşı. Fərq eləməz, heç fərq eləməz, amma alacağam intiqamını. Bilirsən, ağa, bacarmıram özümlə. Qarı nənəm elə intiqam, intiqam deyə-deyə bu dünyadan getdi. İndinin özündə də elə bil hər gecə gəlib burnunun altında mızıldayır: bax a, unutma, intiqam almalısan, intiqam... Yoxsa... Yoxsa, deyir, damdabaca gəlib səni aparacaq.

Ruh. Ha-ha-ha... İntiqam almaq istəyənə bax. İntiqam almaq istəyir bu.

Karvanbaşı. Bəli, intiqam almaq istəyirəm. İstəyirəm. Heç kimə görə də yox, özümə görə. İstəyirəm, gecələr rahat yatım, bilirsən?! Sən bəs öz ağanın intiqamını almadın? Aldın ki.

Ruh. Ona görə də bütün ömrüm boşuna getdi. İntiqam deyib yaşamaq olmaz. Gücün çatmaz yaşamağa.

Kqrvanbaşı. Qarı nənəm öləndə bir küp qızıl verdi mənə, dedi sənin əmanətindi. Atandan qalıb dedi. Düşmənin böyük, qəvi düşməndi. Bu qızılın üstünə gəl ki, əksiltmə. Ancaq qızılın gücünə ala bilərsən intiqamını...

Ruh. Ax, səni, küpəgirən qarı...

Karvanbaşı. Məni boya-başa çatdırdı. Əmanətə xəyanət eləmədi. Elə demə.

Ruh. Yamanca çəp baxardı mənə. Bütün bu vaxtı iki kəlmə kəsmədik. Həmişə elə bildim, zəhləsi gedir məndən. Amma vəfası da varmış...

Karvanbaşı. Bəs deyirdin sənin deyil qızıllar?..

Ruh. Kimin qızılı, malı-dövləti özününküdü? Düzdü, sən hələ bunu bilmirsən, amma biləcəksən. Deyirsən dövlətin, malın var. Mənim sərmayəmi birə min eləmisən. Bəyəm o sərvət sənindi, Gicinəqulu?

Karvanbaşı. Mənimki deyil, bə kiminkidi?

Ruh. Xeyr, o sərvət sənindi deyil. O sərvət şahın inayətilə yığılmış sərvətdi. Onunkudu deməli.

Karvanbaşı. Yox, yox, ağa, elə danışma, yalvarıram elə demə. Bilirsən, şah mənim ən böyük düşmənimdi.

Ruh. Bax hələ. "Düşmənimdi"... Nəyə görə? Yoxsa...

Karvanbaşı. Bəli, ağa. Sənə görə, ağabəyimə görə.

Ruh. Sən nə dediyindi, gədə?

Karvanbaşı. Bəli, ağa. Düzdü, sənə zülüm eləyən bu deyil, bunun babası idi, amma bil ki, sizin qanınızı mən yerdə qoyan deyiləm. Bundan alacağam intiqamımı. Qoymanam qalsın yerdə ağabəyimin qanı!!! Qoymanam. Gecələr qardaş deyib az zarımamışam. Nakam qardaş, biçarə qardaş, zavallı qardaş, binəva qardaş... Sənin də heç bir sözün mənim qəlbimdən qardaş eşqini çıxaran deyil, biləsən.

Ruh. Sən... Sən... Doğrudan da Gicinəqulusan sən...

Karvanbaşı. Bəli, olsun, Gicinəqulu deyirsən – olsun. Bilirsən, ağa, nə düşünmüşəm?! Mən axı karvanbaşıyam. Uzaq-uzaq məmləkətlərlə alverim var. Aylı gecə, uzun yol, bitib-tükənməz yol, ancaq dəvələrin zınqrov səsidi, bir də karvanın dalına düşən itlərin mırıldayıb hərdən ulduzlara hürməyidi... Çox düşüncələr gəlib keçib başımdan bu yollarda. Sən görərsən, sizin intiqamınızı mən, allah qoysa, allah qoysa, şah gorbagor oldusa da oğlundan alaram inşallah...

Ruh. Necə alacaqsan, ay binəva?

Karvanbaşı. Alacağam. Bilirsən, ağa, mən bunun ən inanılmış adamlarındanam. Birinci sövdəgəri mənəm. Arvadının, uşaqlarının bütün nə ki var sifarişləri mən ilədir. *(ora-bura boylanır)*. Zəhərləyərəm onu. Yavaş-yavaş ölüb gedəcək. İt əzabıyla, heç kim də duyuq düşməyəcək kimdən oldu bu iş. Şah olanda nolar?! Cavab versin qoy babasının əməllərinə. Nə deyirsən?!

Ruh. Sən bir körpə, əl boyda uşaq idin. Ananın ağ döşlərini əməndə elə göyçək olurdun ki. Gicinəqulu. Etmə bunu.

Karvanbaşı. Heç kim duyuq düşməyəcək. Ona bir əntiq əsa bəxş edəcəyəm. Kafir elində su içində şəhər var, ordan özüm gətirmişəm. Dayan bir, baxım görüm bu bədbaxt bizə qulaq vermir ki?! *(gedir qapını yoxlayır)* Yox, deyəsən sakitlikdi, qulaq verən zad yoxdu. Əlqərəz, o əsanın içi zəhərli hava ilə doludu. Hər dəfə əsanı yerə basanda, zəhər buxarlanıb dolacaq bu-

nun ciyərlərinə. Əsadan bərk yapışdı görən kimi. Yaman gözü düşdü. Uşaqlıqda ki yıxılıb, ayağı indiyənədək axsayır. İti varmış suya düşüb, bu da atıb özünü çıxartmağa, əzib ayağını, o vaxtdan topaldı. Bəli, ağa, çox ağıllı qurulub bu iş. Əlbəttə öldürəcəyəm onu.

Ruh. Niyə axı? Heç bir düşündün niyə? Bunun şah babası ölüb demədin, bəs özünün nə günahı var? Bir də ki, sənin bu əməlinin mənə bir savabı düşür?! Heç bir düşündün ki sən, burda, sizlərlə qalmaqdan, ora daha gözəl ola bilər?! Sən mənim hansı intiqamımı alırsan? Əbəsdi, bala. Əbəsdi.

Karvanbaşı. Yox, yox, əbəs deyil. Əzablarınızın əvəzinədi bu. Bu dünyanın öz haqq-hesabı var. Ola bilər, sizin oralarda hamınızın ağlı xarab olub, hər şeyi unutmusunuz, ola bilər. Bu dünya isə heç nəyi unutmur, ağa, unuda bilmir. Böyükdü günahı onun, əlbəttə, böyükdü.

Ruh. Sən nağıl danışırsan. Hamının günahı var. Kimin günahı yoxdu?! Mənim başıma gələnlər bəs boşuna idi? Mənim günahımdan idi. Vəlinemətimin sözündən çıxmışdım, o idi ki gəldi başıma. Cəzamı almalıydım mən əvvəl-axır...

Karvanbaşı. Yaxşı, bəs ağabəyim?

Ruh. Dedim ki, o sənin... Bilmək istəyirsən o da mənim güdazıma getdi. Binəva mənim əkdiklərimi yığdı. Onun heç bir günahı yox idi.

Karvanbaşı. Bax, gördün?! Gördün ki, özün deyirsən, binəva ağabəyimin heç bir günahı yox imiş...

Ruh. Bəli, onun heç bir günahı yoxdu. Amma ortalıqda günah vardı, bala. Mənim günahım, onun günahı, sənin günahın – nə fərqi var, ortalıqda günah var idi. Ağabəyim mənim güdazıma getdi... Sən görmə bu işi, bala *(əlini gətirir Karvanbaşının başına qoyur, sığal çəkmək istəyir elə bil)*.

Karvanbaşı. *(ona sıxılır)* Ağa, ağa, qurbanın olum, ağa, xeyir-dua ver mənə, ağa.

Ruh. Sən mənə qulaq as, bala, mənim balam... Sən mənə yaxşı-yaxşı qulaq as. Sən... Cavansan hələ, nə yaşın var sənin?! Sən nəsli yaşatmalısan. Bizim, mənim, sənin, mənim babamın nəslini. Çıxart ürəyindən bu intiqam alovunu, söndür onu, bala, yoxsa bu nə həyatdı sən yaşayırsan, hər şeyim deyirsən var, malım, dövlətim... Hanı bəs sənin rahatlığın?! Yoxdu. Yoxdu. Mənim sənə... yazığım gəlir, bilirsən...

Karvanbaşı. Ağa, deyirsən bəs görmə bu işi, eləmə, at başından, çıxart, nə bilim, ürəyindən, amma bil ki, mən bunu etməsəm ölərəm. Bir an dincliyim olmaz.

Ruh. Bəs eləsən, elə bilirsən, rahatlıq tapacaqsan?!

Karvanbaşı. Elədi, elə bilirəm.

Ruh. Tapmayacaqsan. Burda rahatlıq yoxdu, biləsən. Tapmayacaqsan olmayan bir şeyi. Səninki odu, bacar bu rahatsızlığınla uyuş, bir qoşquya gir, bacar onunla bir başa. Bütün cəzaları isə verən allahdı, a bala. Qoy kimə nə verəcək özü versin. Sən qarışma allahın işinə.

Karvanbaşı. Yox, yenə düzünə danışmırsan, insafı gör arada, ağa. Niyə insafı arada görmürsən sən? Mən axı səni niyə çağırdım bura? Niyə mən səni çağırdım?.. Yox, gərək səni bu iş bitəndən sonra çağıraydım. Sən mənim qolqanadımı vurub salırsan yanıma ki... Ağa, ay ağa, mən axı... bilirsən... o əsanı... deyirəm... axı artıq şaha bəxşeyiş etmişəm, ağa... mən neyləmişəm, bilirsən... Allahu-əkbər, mən niyə belə zavalı oldum, allahu-əkbər... Amma, ağa, alanda əsanı çox sevindi. Bəs peşkəşi necə geri almaq olar, hə?.. O qədərinə xoşuna gəldi ki. Bir görsəydin nə zərif ağacdı. İş işdən keçdi, ağa...

Ruh. Gicinəqulu, Gicinəqulu... Sən neyləmisən, ay oğul... Heç bir allah bəndəsi olan, allahın yer üzündəki kölgəsinə əl qaldırar?! Sən allah bəndəsi deyilsən.

Karvanbaşı. Ağa, indi sən deyən zəmanə deyil, bilirsən?! İndi şahın ancaq adı qalıb. Zülümü məşhur... İşgəncəsi dillərdə əzbər... Sən biləydin, nə ocaqlar, nə tifaqlar dağılıb viranəyə çevirib bu... Babası yanında yalandı. Ağa, mən düz eləmişəm.

Ruh. Sən mənim övladım olmazsan əgər gedib şahın ayaqlarına yıxılıb özünə əfv diləməsən. Yalvar, yalvar, günahından keçənə qədər yalvar. Özün aç məsələni, özün, mən bunları tanıram, özün hər şeyi açsan keçər günahından... bəlkə.

Karvanbaşı. Bu nə danışır, dərimə saman təpər...

Ruh. Yalvar. Ya da yox, belə elə. Oğurlat o əsanı. Sındır, qır, itir onu ilim-ilim yox olsun kafir quraması. Bu işi gör.

Karvanbaşı. Gecdi, ağa, daha gecdi.

Ruh. Onda mənim balam, o qarı nənəni verəydilər mənə, ona olmazın işgəncəni o qara qulumla bir yerdə mən özüm bilərdim qurğuşunu necə əridib dağ eləyib damcı-damcı boğazına tökərdim. Sənə "intiqam" pıçıldayan dilinə iynələrlə necə tikişlər qoyardım. Küpəgirən imiş o; küpəgirən. Aldı məndən nəhayət intiqamını, lənətə gəlmiş. Qızının intiqamını... aldı...

Karvanbaşı. Ağa, dilinə qurban olum, ağa, sözünə qurban olum, ağa, mənimçün belə yanırsan sən? Allah, mən necə xoşbəxtəm, allah, bilirsən mən necə xoşbəxtəm, ağa?!

Ruh. Səndən başqa mənim kimim qaldı ki burda? Heç kimsənəm qalmadı. Əlbəttə, səndən ötrüdü bu yanmağım. Amma bir də sənə bunu deyim: heç ağabəyin özü də sənin bu əməlindən razı qalmazdı – istəyirəm bunu da biləsən.

Karvanbaşı. Razı qalmazdı?! Bəs belə isə mən deməli boşuna yaşamışam bu dünyada indiyənədək?!

Ruh. Dur, arvadlar təkin ağlama. Dur, tələs şahın hüzuruna. Nə qədər ki, əsanın sirri faş olmayıb, tələs... Kafir quramasına etibar yoxdu, biləsən.

Karvanbaşı. Yox, gedə bilmənəm. Nə təhər baxaram mən onun üzünə, ağa?! Heç cürə gedə bilmənəm. Bəlkə gəlsələr, aparsalar, yıxılsam ayaqlarına... Bu nə səs-küydü belə?

Bayırdan səs-küy gəlir: "xain, xain, aç, aç bu qapını". Qapı döyülür.

Xacənin səsi. Gözümün işığı, gözümün işığı. Şahdan əsgər gəlib. Şah səni istəyir. Bu saat gətirin onu, deyir, hüzura.

Karvanbaşı. Əsgər gəlib deyirsən? Bəli, bu da belə. Deməli sirr aşkarlandı. Bu da belə.

Ruh. Əsgər gəlibsə getmə. Gecikdin daha, cəza verəcək sənə. Zülüm edəcək sənə. Mən bilirəm, səni nə gözləyir. Qaç. Dayanma daha burda. Get, gözlərin haranı görürsə, ayaqların haracan aparırsa səni get, ilim-ilim it, çıx, çıx aradan... Niyə sən donub qalmısan, Allahverdi, noldu bə sənə?

Karvanbaşı. Ağa, bilirsən, gəlməyini duyuq düşməyəsən, bir yaxşı şeyd bu ölüm... O uzaq gecələrdə dəvə üstündə yırğalana-yırğalana dəfən-dəfən gözümün qabağına gətirməyə nə cəhd elədim, alınmadı...

Xacənin səsi. Gözümün işığı, bunlar səbirsiz məxluqlardı, zor-güc evə girmək istəyirlər, deyirlər bəs... sən qaçmaq istəsən hamınızı qılıncdan keçirib öldürəcəyik, gözümün işığı...

Karvanbaşı. De ki, gəlir, bir ləhzə səbr etsinlər, abdəst alım, gəlirəm. Hara qaçıram?! Gəlirəm. Ağa, məni bağışla. Bağışla məni, ağa, bu səninlə mənim yəqin son görüşümüzdü.

Ruh. Qoca qarı, qoca küpəgirən qarı. Qoymadın qala, aldın məndən intiqamını, aldın.

Karvanbaşı. Ağa, eşidirsən məni, bağışla məni, deyirəm, ağa. Mən sənə muştuluq vermək istədim. Amma olmadı. Bağışla məni. *(gedir qapını açır, Xacə qorxmuş özünü təpir otağa)*. Gəl, bura gəl, sakit ol, dinlə məni, sakit ol, indi sənə bir sözüm var. Eşit, yaxşıca eşit. Səni mən ölümdən qurtardım, unutmamısan?!

Xacə. Unudarammı heç, gözümün işığı?! Tövbə, töbvbə.

Karvanbaşı. Di yaxşı, mən indi gedib çıxıram əsgərə. O bir körpəm sənə əmanət. Əlinə nə keçsə götür bu evdən, apar. Qızıllarımın, sərmayəmin də yeri bax burda yazılıb *(bir kağız parçası verir Xacəyə)* Al bunu get, körpəni də götür get, durma burda daha, tələs, tələs, tələs... *(Xacə yıxılır ayaqlarına)* Yox, əvvəlcə onlara de ki, mən gəlirəm, heç hara qaçası halətim yoxdu. Di bu da belə. Di, əlvida. Tərpən daha.

Xacə. Gözümün işığı, gözümün işığı... Əlvida, əlvida, əlvida...

Xacə çıxır.

Ruh. Sən bir qərara gəlmisən elə bil?!

Karvanbaşı. Ağa, ağa, ömrüm boyu mən sizin həsrətinizlə yaşadım. Anamı bir dəfə də yada salmadım, ağa. Ancaq siz – sən və ağabəyim. Heç bir qərarım yoxdu. Qərarı şah verəcək. Amma indi bilirsən, ağa, anam düşdü yadıma. Heç üzünü düz əməlli görmədiyim binəva, məzlum anam, niyə belə oldu, ağa?!

Ruh. Mən... Bilmirəm... Bala...

Karvanbaşı. Gicinəqulu de mənə, ağa, Gicinəqulu de.

Ruh. Amma yox, qoy danışım sənə. Ortalıqda günah vardı, bala. O binəvanın qanını yumalıydı anan. Mən anana görə idi qaldım o şəhərdə. Bu işlər də belə oldu. Günah vardı, bala. Gicinəqulu... Gecənin bir vaxtı idi... Anan mışıl-mışıl yatmışdı. Durquzdum onu mən, dedim: Qalx!

İşıq zəifləyir və yenə də Məmmədqulunun otağı işıqlanır. Pərnisə yatmış, Məmmədqulu onun yanında çömbəlib oturmuş.

Məmmədqulu. Qalx, eşidirsən, qalx, vaxtdı.

Pərnisə. *(yuxulu-yuxulu)* Məmmədqulu, nədi, Məmmədqulu?

Məmmədqulu. Vaxtdı.

Pərnisənin yuxusu elə bil göyə çəkilir. Cəld durub əyninə paltarlarını geyinir.

Məmmədqulu. Hazırsan? Hazırsan. Getməliyik, bilirsən? Nə deyirsən?

Pərnisə. Körpədən muğayat olarsan deyirəm.

Məmmədqulu. Gedək?

Pərnisə. Gedək.

Otaqdan çıxırlar və üzüyuxarı bir qaladı elə bil, onun düz başına Məmmədqulu irəlidə, Pərnisə onun dalınca qalxıb dururlar.

Məmmədqulu deyir: Ya allah.

Pərnisə. Ya allah. La ilahə illəllah.

Məmmədqulu alır Pərnisəni əllərinə, qaldırır başın üstünə.

Məmmədqulu. Ya allah, sən özün keç bizim günahımızdan.

Və birdən Pərnisə qeyb olur və sonra Məmmədqulunun əlləri göylərə açılı. İşıq sönür. Yanında yenə Ruh və Karvanbaşı.

Ruh. Daha hər şeyi bildin. Heç nə qalmadı. Heç nə. Qaç. Qaç get. Sən də qaç, qurtar canını. Yaşa.

Karvanbaşı. Ağa, ağa... Bu nəydi, ağa, bu nəydi? Yox, ağa, mən onlarla qaçsam, düşəcəklər dalımızca, tutmayınca hamımızı, əl çəkməyəcəklər. Qoy onlar rahat getsinlər. Uşağın nə günahı? Günah mənimdir. Özüm çəkəcəyəm. Özüm. Bunlara mən lazımam. Belə, ağa. Mən istəyirəm.

Bayırda səslər yüksəlir, əsgərlər qapını qırmağa başlayırlar.

Burdayam, allahu-əkbər, burdayam. Gəlirəm. Səbriniz olsun. Allahuəkbər.

Ruh. Nədi, bala, nədi sənin istədiyin?

Karvanbaşı. Mən istəyirəm, sən axı mənim... gözümə görükəsən...

Ruh. Bu... olan iş deyil, bala. Mən... bacarmıram bunu, biləsən...

Karvanbaşı. Hə, elədi, sən demişdin, biz bir-birimizi tanımayacağıq... eyni tərəfdə dursaq. Mümkün deyil.

Ruh. Mümkün deyil.

Karvanbaşı. Ağabəyimi də tanımayacağam, ağa?

Ruh. Onu da tanımayacaqsan.

Karvanbaşı. Bəs elə isə biz itirik, qeyb oluruq, əriyirik, ağa?

Ruh. Biz varıq. Biz mövcuduq.

Karvanbaşı. Ağa, mən anamı istəyirəm, ağa.

Ruh. Gecdi, bala, daha artıq bir azdan səbirsiz əsgərlər içəri dolacaq. Sən gecikdin, bala, Allahverdi, sən gecikdin.

Karvanbaşı. Gicinəqulu de, ağa, Gicinəqulu de.

Ruh. Gicinəqulu... Bilirsən nə var?! Götür bu xalçadan asılmış xancalı. Götür. Qoy əlin titeəməsin. Bax belə. Gəl bu işi gör.

Karvanbaşı divardan asılmış xancalı alır əlinə.

İndi qorxma. Hər günahın cəzası var. Yox deyil. Qorxma. Sapla ürəyinin başına əlindəkini. Əlin titrəməsin, elə bil, nəyisə yerinə qaytarırsan... Bax belə. Beləcə. Sağ ol.

Karvanbaşı. Nəyisə... yerinə... *(xancalı vurur ürəyinin başına)* qayta... rıram...? *(ölür)*

Ruh. Sağ ol, bala, sağ ol. Allahverdi, vay...

Bayırda səs-küy. Amma yavaş-yavaş işıq azaldıqca səs-küy də yatır, çox-çox uzaqlarda qalır və biz yenə də həmən dumana-sisə bürünmüş ağ təpəcikləri və Qara Kölgə ilə Ağ Kölgəni görürük. Ruh yorğun-yorğun gəlir.

Qara Kölgə. Qayıtdın?

Ruh. Qayıtdım.

Ağ Kölgə. Xoş gəldin. Nə yaxşı oldu – qayıtdın... Bəs niyə belə... kədərlisən?

Qara Kölgə. Yorğun deyilsən ki? Elə bil bir az da qorxa-qorxa qayıtmısan?!

Ruh. Yox, elə deyil. Sizə elə göründü, amma elə deyil.

Qara Kölgə. Hər şey öz yerindədi?

Ruh. Hər şey öz yerindədi. Artıq. Hər şey öz yerindədi.

Ağ Kölgə. Danışacaqsan bizə nə var idi, nə yox idi, aşağılarda.

Qara Kölgə. Dayan hələ, tələsdirmə onu.

Ağ Kölgə. *(ancaq Ruha)* Çağıran kim idi? Tanıdın?

Ruh. Orda olanda tanıdım. Danışacağam. Darıxma, xatırlasam, hamısını danışacağam. Nəfəsimi dərim qoy, xatırlasam, hökmən... Əlbəttə...

Beləcə söhbət edə-edə gedib təpəciklərin arxasında gözdən itirlər və ürək üzən bir musiqi başlayan zaman nəhayət ki, heç cür gəlmək istəməyən və səslənişi rahatlıq dolu bu.

SON

Pis oğlan

Adidən adi iki nəfərin I pərdəlik və ya I nəfəslik dramı

İştirakçılar:
Qadın
Kişi

Yarıqaranlıq bir yer. Otaq deyil, küçə deyil, məhz bir yer – gözü, baxışı özündə saxlayacaq heç nəyi olmayan bir yer. İki nəfər elə bil bu yarıqaranlığın içindən işıq yığa-yığa dikəlir. Onların biri Qadındır, o biri Kişidir. Həzin və ürəkağrıdan bir musiqi bu işığaçıxmanı nəvazişlə müşayiət eləyir. Bu musiqi ilə onlar bir-birinə yaxınlaşırlar, diqqətlə baxırlar bir-birinə və hərəsi öz küncünə – Kişi qırmızı işığa bürünən qırmızı küncünə, Qadın isə sarı rəngə boyanan sarı küncə çəkilirlər. İndi və tamaşa boyu onların danışığı ancaq telefon vasitəsilədir. Telefon dəstəyini ya əllərində tutur, ya qulaqlarına yaxınlaşdırır, ya itirib-axtarır, ya da, sadəcə, bir kənarda unudub atırlar. Bəlkə heç onlar deyil danışan, bəlkə heç bu səslər də adidən adi olan onların səsi deyil, bəlkə onlar səssizcə danışırlar bir-biri ilə, və bizlər, adi olmayan bizlər bu səsləri öz ürəklərində eşidir – bəlkə də, kim bilir?!

İndi bu telefon danışığı iki müxtəlif şəhər arasında gedir. Qadın başqa şəhərdədir. Qırmızı küncdən möhkəm yağış səsi gəlir.

Kişi. *(bərkdən, telefona həyəcanla qışqırır)* Mən səni pis eşidirəm, de görüm, həkimlərin axır sözü nə oldu?

Qadın. *(rahat-rahat, təmkinini pozmadan, adi səslə)* Məni qarşılamağa gəlmək istəyirsən?

Kişi. İstəyirəm. Gələcəyəm. Tez ol, reysini söylə, indi kəsəcəklər xətti.

Qadın. Havalar necədi orda?

Kişi. Yağış yağır. Möhkəm yağış. Ucundan tut, çıx göyə, reys nə oldu? *(öz-özünə)* Belə də leysan yağış olar?! Az qalır, dürtsün özünü evin içinə.

Qadın. Reys-514. Saat 3-də. Eşidirsən məni?

Kişi. 514. Eşidirəm. Saat 3-də. Yaxşı. Sağ ol, gələrsən, əməlli-başlı danışarıq. Amma... Alo *(pıçıltıyla)* Bura bax, bəs biz... mən səni... necə tanıyacağam? Necə tanıyacağam? Necə tanıyacağam deyirəm səni? Bu yağış da bir yandan...

Qadın. Nə dedin?

Kişi. Deyirəm ki, ...əynində nə olacaq?

Qadın. Saat 3-də uçur burdan, 3-də. Yaxşımı? Alo, heç nə eşidilmir... sağ ol, görüşənədək. *(ancaq ikisinə aid xüsusi bir ədayla)* Yaxşımı?

Kişi. Bəs... eşidirsən... eşidirsən nə deyirəm? Əlində qəzetdən zaddan bir şey götür. Qəzet olsun əlində...

Qadın. Qəzet... nə qəzet? Bura qəzeti? Neynirsən qəzeti?

Kişi. Mən səni necə tanıyacağam?

Qadın. Aaa, qəzet... Eh, lazım deyil. Mənim lap yadımdan çıxmışdı. Lazım deyil. Gəlmə qarşılamağa.

Kişi. Yaxşı, mən tutaram əlimdə qəzet. Eşidirsən, əlimdə qəzet olacaq –"525-ci" qəzet.

Qadın. Yox, istəmirəm. İstəmirəm. Lap uşaq-muşaq oyununa döndü bu. Mənə bax e, unutmuşam ki, bir-birimizi...

Kişi. Alo, bərkdən danış.

Qadın. Yaxşı, daha sağollaşaq.

Kişi. Mən sabah gəlirəm aeroporta...

Yağışın səsi kəsilir. Söhbət adi bir məcraya düşür.

Kişi. Bilirsən, otağı sən deyən kimi düzəltmişəm.

Qadın. Nəhayət. Necə olub?

Kişi. Əla. Mən heç belə bilməzdim. Kitab şkafı hər şeyi pozurmuş. Andıra qalsın.

Qadın. Gördün?! Bəs divan nə oldu?

Kişi. Divan? Keçdi o biri otağa. Kitab şkafı da onun yanına. Doğrudan da, indi daha yaxşıdı.

Qadın. Mən sənə nə deyirdim?! Tənbəl. Bayraqları götürdün böyük otaqdan, sən allah?!

Kişi. Bayraqları?

Qadın. Bəli, bayraqları. Neçə dəfə deyim sənə bunu – heç qonaq otağına da bayraq düzərlər? Beynəlxalq hava limanıdır qonaq otağı?

Kişi. Balaca bayraqlardı da, Türkiyənin, bir də bizim... kimə mane olur?!

Qadın. Bəs Estoniyanınkı? Yığışdır. Yoruldum, vallah, sənə deməkdən.

Kişi. Yaxşı, yaxşı, yığışdıraram.

Qadın. *(şıltaq)* Yaxşımı?

Kişi. *(xüsusi ədayla)* Yaxşımı.

Qadın. *(ciddi)* Söz?

Kişi. Söz.

Qadın. Onda sağ ol.

Kişi. Dayan, mənə bax e. Demədin axı özünü necə hiss edirsən?

Qadın. Gələrəm danışarıq. Yaxşı. Yox, əla. Yox, babat...

Kişi. Yalan deyirsən.

Qadın. Yalan deyirəm. Sən mənim sözümü niyə kəsirsən? Nəsə demək istəyirdim. Yadımdan çıxdı. Eh... yaxşı, bəsdi, gedək yataq. Sabah ağır günümdü. Bilirsən niyə? – yol. Yenə yol. Həmişə yol... inanırsan inan, inanmırsan özün bil... yola çıxmaqdan xoşum gəlir.

Kişi. Xoşun gəlir?! Bəs deyirdin...

Qadın. Yox, düz sözümdü – xoşum gəlir. Barışmışıq yolla. Daha xoşum gəlir. Baxır da hara gedirsən, hara qayıdırsan... Baxır hara aparır səni bu yol, kimin yanına aparır... Necədi, xoşuna gəldi?

Kişi. Sən belə danışanda mən lap... qoltuqlarım şişir.

Qadın. Şişsin qoltuqların. Qələt eləyir hamı. Sən. Sən. Sən. Eşidirsən burdan məni? Sən, sən, sən. Sən mənim bir dənəmsən. Bilirsən sən bunu? Bir dənəm. Qoy şişsin qoltuqların. Hamının, hamının acığına.

Kişi. Olsun. Sən də, sən də mənim bir dənəmsən. İlk dəfə sənə dediyim yadında? "Sən olmasan, mən olmasam, yəni, biz olmasaq..."

Qadın. "...Heç nə olmaz bu dünyada. Sənsən, mənəm..." Birinci dəfə yox, mənim yadımdadı, üçüncü dəfə idi, dedin bu gözəl sözləri öz bir danənə. Düz deyirəm?

Kişi. Hə, ola bilər. Huşumda qalmayıb...

Qadın. Beləsən də sən. Yaxşı, susdun deyəsən. Bilmirəm, niyə susdun. Amma bəlkə... sabaha qədər, hə?

Kişi. Nolar, sabaha qədər deyirsən, olsun sabaha qədər. Amma bax, sən dedin ha, sabaha qədər.

Qadın. Yaxşı, yaxşı, aləm dağıldı – mən dedim bu dəfə də, bəli, mən dedim.

Kişi. *(elə bil pəncərədən küçəyə boylanır)* Sabah gəlirəm aeroporta. Yağış kəsdi.

Yenə yağış səsi. Yenə söhbətin tempi canlanır.

Qadın. Sən qəti fikirdəsən ki, biz görüşməliyik? Peşman olmayacaqsan ki? Bax a, peşman olsan, birdən sənin xoşuna gəlməsəm, ölləm mən vaxtından qabaq – günahkar sən olarsan.

Kişi. Qurtar, qurtar. Mən bu söhbətə qayıtmaq istəmirəm. Mən də, sən də uşaq deyilik. Hərçənd sən... olmayacağam peşman. Birdəfəlik inan buna. Bir də soruşma bunu məndən. Olmayacağam peşman, heç zaman peşman olmayacağam. Sən də razılaşacaqsan mənimlə ki, belə yaxşıdı.

Qadın. Gecən xeyrə, əzizim.

Kişi. Nolar, xeyrə qarşı.

Sükut.

Kişi. Bəs noldu, razılaşdıq biz, ya yenə də sən deyən kimi qaldı hər şey?!

Yarıqaranlıq tamqaranlığa çevrilincə və Qadını, sonra da Kişini öz içində əridincə əvvəlcə yağışın səsi yavaş-yavaş kəsilir, naümidlik, inamsızlıq, qeyri-müəyyənlik Kişinin və Qadının səsindən, içindən çıxıb bu sirli yerə sanki hopmağa başlayır və bu zaman ancaq musiqi keçidi bizi hardansa yenidən peyda olmuş Kişi və Qadın arasında növbəti, başqa bir söhbətin başlanğıcına hazırlayır. Bu dəfə hər şey ağappaq işıq içindədir. Qadın səfərdən qayıdıb.

Qadın. *(elə bil günahını yumaq istəyir)* Vallah, bilmirəm, məni bağışlaya biləcəksənmi? İş çıxdı, anamla bacım bir yer vardı, ora dəyməliydilər... Mən dedim. Dedim ki, tək uçaram, qoymadılar. Reysi dəyişdik. Çox gözlədin? *(Zarafatla)* Çaşıb başqa qadına zada yaxınlaşmadın ki? Susma. Susma da. Bacarmadım. Başa düş məni. Bacarmadım. Məncə, bacarmayacağam heç zaman. Səni görə bilmərəm... görməməliyəm. Sən bilmirsən, sənin görüşmək mənim üçün necə ağırdır. Sən təsəvvür eləmirsən. Bilirsən heç nə gündəyəm? Bilmirsən. Görsən məni, qorxarsan...

Kişi. Gəl, söhbəti dəyişək. Eybi yox. Bu gün olmasın. Başqa bir vaxt olsun. Sən hazır olanda deyərsən mənə.

Qadın. Hə, hə... özüm... *(ağlamsınır)*

Kişi. Bay, bay, bay. Sən deyəsən, o söz... ayıb olsun, noldu sənə? Uşaq...

Qadın. Mənə uşaq demə. Bilirsən. *(göz yaşını silə-silə)* Bilirsən, bizim işimiz ki belə Allaha qalıb... ədalətsizlikdi bu. Mən daha dözə bilmirəm. Mənə bax. Gəl bir də görüşməkdən danışmayaq. *(gülür)* Sən məni gözəllər gözəli bil, mən də səni qəhrəmanlar qəhrəmanı. Hərdən-birdən uçan xalçaya minib uçaq özümüz üçün, divlərin, pərilərin başı üstündən. Hə, nə deyirsən?

Kişi. Kefin düzəldi, deyəsən. Bax bir də görsəm, eşitsəm, ağlayırsan... Bil a, mən onda özüm-özümə nifrət eləyərəm. Bəs mənim sənin üçün elə-

mək istədiyim bu olur?! Belə çıxır, vallah, belə çıxır. Ağlamaq bir də olmasın. Yaxşımı?

Qadın. *(xüsusi ədayla)* Yaxşımı.

Kişi. *(söhbəti dəyişdirmək məqsədilə gümrahcasına)* Bura bax, bu gün televizorda fərli bir şey var?

Qadın. Bilmirəm. Televizora baxmıram ki. Köhnə jurnallar var bacımda qalaq-qalaq. Bütün gün onları oxuyuram.

Kişi. Bəs proqram yoxdu sizdə?

Qadın. Bəlkə də var. Soruşum?

Kişi. Yox, lazım deyil.

Qadın. Qoy soruşum.

Kişi. İstəmirəm. Həvəsim qaçdı. Mən də baxmayacağam heç nəyə.

Qadın. Sən niyə? Sən niyə baxmayacaqsan? Bəlkə nəsə maraqlı bir şey var?

Kişi. Yox, yazım var, məruzə də... gərək yazım qurtarım. Ağır yükdü üstümdə, heç cür bitirmirəm. Amma... bir tərəfdən baxanda kimə lazımdı bu – yazdım, yazmadım... hamısı boş şeydi.

Qadın. Buna bax e. İndi də sən başladın?! Qurtar. Qurtar bu qara-qura fikirlərini. Get otur yazınla məşqul ol. Söz ver. Heç yeridi? İndi duraq diri-diri özümüzü qəbirə qoyaq deyirsən?! Sağ ol, sağ ol, get, get, işlə, yorulanda istəsən, zəng elərsən. Mən hələ yatmayacağam. Gözləyəcəyəm zəngini. Yaxşımı?

Kişi. Səninki oldu nə deyim, vallah... *(Qadının onu eşidəcəyindən qorxaraq)* Yaxşımı. Yaxşımı.

Və yenə də qaranlıqda iki siluet. Tam sükut içində Qadının ağır-ağır tövşüməsi hiss edilir. Bu başqa bir vaxtdır.

Kişi. *(narahat)* Keçdi?

Qadın. *(ağır-ağır)* Keçdi, keçdi. Narahat olma.

Kişi. Yenə həmənki yerdən?

Qadın. Hə. Yaman pis tutdu məni. İndi yavaş-yavaş özümə gəlirəm. Yazını yazdın?

Kişi. Belə də. Bir az...

Qadın. Sənə proqram tapmışam. Oxuyum? Bilmək istəmirsən gecə kanallarında nə var?

Kişi. Yox, istəmirəm. Sən istəyirsən, oxu, eşidirəm.

Qadın. Nə oldu yenə sənə? Mənə görə qanın qaraldı?

Kişi. Həkim gəlmişdi? Qanım qaraldı deyirsən?! Hə, qanım qaraldı.

Qadın. Eeee. Gör bu nəyi fikirləşir. Gəlmişdi, gəlmişdi. Gəldi, getdi. Nolsun, təzə şey var burda? Bax qulaq as, birinci proqramda...

Kişi. İynəni vurdu?

Qadın. Vurdu.

Kişi. Nə dedi?

Qadın. Həkim? Nə deyəcək? Nə deyəcəksə hamısını deyib qurtarıb da. Təzə sözü var? Sən niyə belə eləyirsən? De görüm, sən niyə belə eləyirsən, hə? Pis oğlan. Sən pis oğlansan.

Kişi. Söz tapmısan da özünçün. Neyləyirəm ki, mən?

Qadın. İmkan vermirsən mənə sözümü deyib qurtarmağa.

Kişi. Eee. Mənim də ürəyim ağrıdı. Elə bil, iynə soxdular ürəyimə. Bəs o boyda getmişdin müalicəyə, noldu bunlar? Sonra da gəl inan bu həkimlərə...

Sükut.

Qadın. O oldu ki, bu dərd, əzizim, əlacsız dərddi, həkim buna neyləsin? Sən də ki... hərdən özünü elə aparırsan, elə bil... Qulaq as, proqramı oxuyuram, saat 1-in yarısında...

Kişi. İstəmirəm, demədim sənə? Gedirəm yatmağa. Televizorluq deyiləm. Kino var?

Qadın. Mənə görədi bunlar? Kino axtarırsan guya sən?!

Kişi. A balam, özün demədin bu yazını yaz, bitir, indi nə deyirsən? Bunu yazıb qurtarmalıyam, ya yox? Kino... mən kinoluq deyiləm. Elə-belə soruşdum.

Qadın. Yaxşı. Get, yaz. Düz bir ildir deyəsən yazırsan bu məqaləni. Heç cür bitmək bilmir. Nəsə sonluğu gəlmir, ya gəlmək istəmir deyəsən, hə?! Daha sənə mane olmayım, pis oğlan, bax a, nə vaxt bitirdin... mən yatmıram. Bir-bir bütün kinolara baxacam.

Kişi. Yaxşı, hələlik. Çalış, yat.

Qadın. Yox, mən yatmıram, yatmıram dedim. Noldu? Yenə, sən Allah, xətrinə dəydim? Düzünü de. Xətrinə dəydim, xətrinə dəydim... Ay, ay, ay. Bir məqaləyə görə can sirdaşına belə işgəncə vermək yaraşarmı sən kimi bir qəhrəman pəhləvana, hə? Necə dedim? Yaxşımı?

Kişi. Çay daşdı. Hələlik. Bir azdan. Bir azdan.

Qadın. Gözləyirəm.

Kişi. Yox, dedim, bir azdan.

Qadın. Oldu, baş üstə. Amma məndən incimə. Hökmən zəng elə. Zəng elə ha... Yaxşımı? Niyə susdun? Yaxşımı?

Kişi. Yaxşımı. Yaxşımı.

Qadın *(Nəvazişlə).* Canım mənim...

Və hər şey sükuta qərq olur. Sonra yavaş-yavaş hardansa radioda müxətlif dalğalar bir-birinə qarışır. Səsləri gah yüksəlir, gah azalır. Dalğaların səsi azalınca zəif bir işıq çarpayıda uzanan Qadının üzərinə düşür. Kişinin qırmızı küncündə isə işıq gurdur. Başqa bir gün.

Qadın *(halsız).* Bilirəm. Sənsən. Təzə gəlmisən işdən?

Kişi. *(o da uzanıb)* Belə də. Biraz var.

Qadın. *(halsız).* İndi neynirsən?

Kişi. Heç. Oturmuşam divanda. Sən necəsən?

Qadın *(halsız).* Yox, oturmamısan. Uzanmısan sən, tənbəl. Pis oğlansan sən.

Kişi. Uzanmışam. Hardan bildin? *(durub oturur)*

Qadın *(halsız).* Gəlim sənə çay töküm? Ana, ay ana...

Kişi. Nə təhər, yəni, gəlim? Kimiynənsən sən?

Qadın *(halsız).* Heç. Anamı çağırıram. Nəsə çay istədi ürəyim. Ana... Düz sözümdü, vallah, elə düz sözümdü...

Qadın. Tanısaydım evini, yurdunu, yuvanı... Amma lap elə tanısaydım da. Artıq gecdi, deyəsən. Qaranlıqdı ki. Vay-vay, mənə bax, gör bir subay oğlana nələr deyirəm mən. Mən canı yanmış. Fikrindən keçdi bu?

Kişi. Yox, keçmədi. Nə deyirsən ki sən? Guya sən dedin, mən də beş yaşlı uşağam – inandım. O sənsən...

Qadın. İnandın, inandın. Denən inandım, nolar? Bura bax, mənə nə olub ki... Sən pis oğlansan.

Kişi. Yenə başladın uşaqlığına, səsin niyə belə halsızdı?

Qadın. *(ciddi)* Mənə uşaq demə.

Kişi *(ayağa qalxır, mahnı üstündə məzəlik eləmək istəyir)* "Bəs nə deyim sənə, mən, nə deyim?"

Qadın. *(bir balaca canlanan kimi olur, səsi gümrahlaşır, o da təklif olunan zarafat dalğasına keçir, amma guya gülür)* Ha-ha-ha, arsızmış ki bu. A kişi, sən nə arsız bir kişisən, hə?! Allah-allah, ətimiz töküldü. Bunun mahnı oxumağına bax. Sən hələ mahnıdan əvvəl, cənab, hesabat ver, bəli, hesabat ver görək, neyləmisən bu gün, nəylə məşğul olmusan, lap elə nəylə məşğul olmamısan – onu da de. Bircə-bircə danış mənə. Hamısını, bax, hamısını danış. Hesabat. Tam və hərtərəfli hesabat. Kimə sən baxmısan? Kim sənə baxıb?! Buna bax e, mən səni, görəsən, niyə qısqanmıram, hə? Dayan, qoy yerimi rahatlayım. Bu iynə elə bil... tikandı lap, uf, yandı canım.

Yalnız indi çarpayıda uzanmış Qadının üzərinə tam işıq düşür və biz bu çarpayının yanında Qadının əlinə bağlanmış, həkim dili ilə desək, "sistem" görürük.

Kişi. Nə iynə? *(oturur yerinə)*

Qadın. İynə? Hansı iynə?

Kişi. Dedin "bu iynə". İynəni bəs vurub qurtarmışdılar?

Qadın. İynəni? Vurub qurtardılar.

Kişi. Bəs nədi, yeridi ağrıdır?

Qadın. Yeridi, yeri, yaman ağrıdır, bilsən necə ağrıdır, abses olmuşam. Amma dözmək olar. Bu adlarını həkim qoyanlar... iynə nədi, onu da vura bilmirlər. Adam kimi uzana bilmirəm. Canım ağrıyır. Yanım ağrıyır, yanım. Başa düşürsən də məni?! Yanım.

Kişi. Anladıq. Başa düşdük. İndi kimdi arsız – mənəm arsız? Bir az da mənəm arsız. Sözün nədi? Lap elə mənəm. Sözü qaçırma. Gözünü də qaçırma. Unutmamışam ha...

Artıq Qadının səsi gümrah və amiranədir, elə bil, hər şey onun yadından çıxıb, dərdi-səri ancaq və ancaq bu zarafatın üstündədi.

Qadın. Nəyi unutmusan? Mən heçnə bilmirəm. Tez ol. Hesabat ver. Başdan danış. Əvvəldən. Bəli. Eşidirəm. O nə səsdi gəlir sənin evindən? Radionun səsidi? Söndür onu.

Kişi. Xətdədi səs yəqin. Mən eşitmirəm.

Qadın. Yaxşı, yaxşı, fikrini dağıtma. Mən tam sükut içindəyəm. Əgər bu səsi hesaba almasaq. Dinləyirəm. Di, başla.

Kişi *(qalxır ayağa).* İşə düşmədik? Evdən çıxdım, saat belə olardı, 9... *(susur)*

Qadın. Hava necəydi?

Kişi. Hava... belə də. Sən bilmirsən bəyəm necəydi hava? Bəs sən çıxmamışdın bu gün evdən?

Qadın. Sizin tərəflərdə deyirəm, görəsən, necəydi hava? Çıxmışdım mən də. Çıxmışdım.

Kişi. Bizim tərəflərdə? *(udqunur və yenə də oturur)* Yağış... Şıdırğı yağış... kəsib deyəsən *(elə bil, bayıra boylanır).* Bizim tərəflərdə...

Qadın. Sizin tərəflərdə dayna. Nə oldu boğazında nəsə qaldı, nə çox udqunur bu, ay Allah?!

Kişi. Bizim tərəflərdə, indi daha hava yaxşıdı, gün də çıxıb, isti də adamı bişirir. Diqqətinizə görə təşəkkürlər, küçük xanım.

Qadın *(yalançı hirslə).* Mənə, yüz dəfə demişəm...

Kişi. Nədi, balam, küçük xanım da pis sözdü bəyəm?! Uşaq demə buna, cırtdan demə, küçük xanım da demə. Yavaş-yavaş böyüyürsən də özünçün. "Xanım qız" necədi?

Qadın. Xanım qız. Bir yerdə olsa pis deyil, olar məncə. Səslənir. Ancaq bir yerdə – xanım qız yox – xanımqız, yaxşımı?

Kişi. Yaxşımı. Bizim məhlədə bir semiçkasatan vardı – Nənəqız...

Qadın *(bu sözü eşidir, eşitməzliyə vurur özünü).* Belə... Mövzudan yayınmayaq, davam edək. Saat 9-da çıxdınız evdən. Hava gözəl idi və təbiət siz cənabı qələbələrə səsləyirdi, və... və... sonra!..

Kişi. Nə "və"? Niyə "və"?

Qadın. "Və", əlbəttə ki, "və".

Kişi. Yox bir, nöqtə.

Qadın. Yox, nöqtə yox. Nöqtə olmaz. "Və", hökmən "və". Onunçün ki, davamı, davamı var. Və...

Kişi. Yaxşı "və" deyirsən "və" olsun. Mən bir şey demirəm. Və... Və işə gəldim. Saat 6 idi, işdən çıxdım, evə gəldim. Vəssalam. Hesabat bitdi.

Qadın. *(onu yamsılayır)* "İşə gəldim, saat 6-da işdən çıxdım, evə gəldim. Vəssalam". Sağ ol. Çox sağ ol. Elə bu? Sən, doğrudan da, pis oğlansan. Çox sağ ol. Nənəqıza salam deyərsən.

Kişi. Kimə? Nənəqız kimdi, mən belə adam tanımıram. Yaxşı, daha nə danışım axı mən yazıq sənin üçün? Nə danışım? İş yoldaşlarımdan biri ərizə verib işdən çıxıb. Bir dənə zırıltı ərizə yazıb ki, rəhbərliyə, ay nə bilim sizinkilərlə bir yerdə işləmək istəmirəm, ay bağ belə, ay bostan belə... Üç gündü bizim əjdahalar yalvarırlar buna ki, ərizəni dəyişdir, ərizə belə yazılmaz, bu razı olmur. Nə danışım mən sənə? Maraqlıdı bu?

Qadın. Heç nə danışma, heç nə. İstəsən elə maraqlı danışarsan ki. Əlbəttə, sən düz deyirsən, nə danışmalısan ki mənə? Üzümü də görməmisən. Mən səni başa düşürəm. Anlayıram, anlayıram.

Kişi. Başlandı. Beş dəqiqədən sonraya qalsın söhbətimiz. Yağım daşdı, çayım qaynadı. Yox. Yağım qaynadı, çayım daşdı. Fasilə. Tənəffüs. Reklamnaya pauza.

Qadın. Nə deyirəm?! Olsun. *(birdən son dərəcə ciddi)* Xəstəxanaya getmişdin bu gün? İşığa saldılar səni? Deyirdin bu günə qalıb. Getdin, soruşuram, xəstəxanaya?

Kişi. *(o da ciddiləşir, var-gəl edir)* Getdim.

Qadın. Nə dedilər?

Kişi. Heç nə.

Sükut.

Qadın. Sən ürəyinə salma. Onların sözü qurtarır bizə çatanda *(birdən şaqqıltıyla)* Zato bizim sözümüz qurtarmayıb. Pozma kefini. Qram da pozma. Getsinlər hamısı işlərinə. Necədi o: hələ bilinmir ki...

Kişi. Kimin bəxti daha çox gətirir... yaxşı sözdü. Sən hardan bilirsən bunu? Mənə bax...

Qadın. Yaxşımı?

Kişi. Yaxşımı. *(gəlib oturur yerində)*

Qadın. *(nazla)* Sən nə pis oğlansan...

Kişi. *(uzanır, öz-özünə)* Bir dəli şeytan deyir ki... Yox, heç nə demir dəli şeytan.

Yenə də yavaş-yavaş qaranlıqlaşan bu yerdə bir Qırmızı, bir də Sarı işıq işıldamağına davam edir. Tam qaranlıqda da biz onları görürük. Və yuxularımızda çox nadir hallarda eşitdiyimiz həmin musiqi. Hər şey rənglər, səslər, Kişi və Qadın – hər şey, elə bil, yavaşıdılmış vəziyyətə düşüb. Və tamam başqa bir zaman.

Qadın. Bu gün sənə sözüm olacaq deməyə. Bilirsən, nə olub bu gecə?

Kişi. Nə olub ki, bu gecə? Mən hardan bilim, nə olub.

Qadın. Səni bu gecə yuxuda görmüşəm.

Kişi. *(həyəcanla var-gəl edir)* Məni? Yuxuda? Sən məni yuxuda görmüsən? *(elə bil gülmək istəyir).*

Qadın *(gözlərilə onu izləməyə çalışır).* Sən gülürsən?... Nuşi-can. Gül, gülə bildiyin qədər. Həmişə gülməkdə. Qoy həmişə sevinc və nəşə sənə yar olsun.

Kişi. Mən gülmürəm. Amma... sağ ol səni, vallah. Deməli, sən yuxuda məni görmüsən. Sağ ol... Necə dedin – "Sevinc və nəşə sənə yar olsun..." Ay səni...

Qadın. Yenə gülürsən. Gülüb qurtaranda xəbər ver. Uğunarsan birdən, nəfəsin gedər, gəlməz. Yavaş ol, asta-asta gül. Bax belə...

Kişi. Sən axı məni yuxuda necə görə bilərsən? Amma çox qəribədi. Özü də bu gecə. Danış görək, sən Allah, çox maraqlıdı.

Qadın. Bu saat, bu saat, bir dəqiqə... Bilirsən nə var, mən başa düşdüm ki, sən bunu... necə deyim, başa düşə bilməzsən. Bu sənincün məqalə yazmaq deyil.

Kişi *(öz aləmindədi).* Yox e, qulaq as, sən məni bu gecə yuxuda görmüsən, bunu mənə deyirsən, mən də gülməkdən uğunub gedirəm. Doğrudu?

Qadın. Doğrudu.

Kişi. Bəs soruş da, niyə gülürəm mən?! Niyə soruşmursan, hə?!

Qadın. Soruşuram da. Qoyursan heç ağzımı açım? Niyə gülürsən sən? Elə hey gülürsən...

Kişi. *(gülməyini güclə saxlayır)* Bu gecə mən də səni yuxuda görmüşəm.

Qadın. *(mat qalır)* Sən də məni?.. Necə yəni, lap elə doğrudan...

Kişi. Doğrudan, doğrudan.

Qadın. De vallah.

Kişi. Vallah.

Qadın. Qəribədi.

Kişi. Çox qəribədi. Bir-birinin üzünü görməyən iki nəfər bir-birini yuxuda eyni vaxtda görür. Yəni, olur da belə şeylər. Qiyabi institut kimi bir şeydi də. Qiyabi yuxugörmə.

Qadın. Yaxşı da, salma yenə zarafata, sən Allah, danış da mənə, nolar. Nə gördün, necə gördün məni? Danış. Əvvəlcə sən danış, sonra mən danışacağam. Tutuşdurarıq, hə... Başla.

Kişi. Səni qaranlıq bir otaqda qapqara paltar geymiş zənci qızı kimi gördüm.

Qadın. Aaaaa...

Kişi. Ancaq dişlərin parıldayırdı, gülürdün, elə hey aramsız gülürdün. Mənə də nəsə deyirsən, gülürsən. Ağzından sözlər çıxır, dümağ, süd kimi sözlər...

Qadın. Dişlərim deyirsən parıldayırdı? İndi mən sənə danışım gördüyümü – inanmayacaqsan. Sənin dörd tərəfini ağappaq, süd kimi ağappaq buludlar tutmuşdu. Sən də yorğan-döşəkdə idin elə bil, amma bunlar yelkənə dönürdülər, sən də harasa uçurdun. Elə hey gülürsən, gülürsən. Mən də soruşuram: Nədi, kefin kökdü deyəsən, cənab pis oğlan, bütün işlərini həll edib qurtarmısan ki, belə şad-xürrəm, azadsan? Bunu mən soruşuram. Heç bir cavab vermirsən. Elə hey gülürsən. Sonra birdən-birə qaranlıq bir tunelə girdin. Ora girəndə mənə diqqətlə baxıb, elə bil ki, deyirsən: "Bağışla məni". "Niyə, niyə bağışlayım səni, nədi günahın?" – çağırıram, amma sən artıq eşitmirsən, tunelə girib yox olursan. Tuneldi, otaqdı, nədi, amma çox qaranlıq bir yerdi. Üç bayraq asılıb – bizimki, Türkiyəninki, bir də Estoniyanınkı... Daha heç nə seçə bilmirəm. Səni görmürəm, amma bilirəm ki, burdasan. Ancaq dişlərin parıldayır. Azadam deyirsən...

Kişi. Aman, aman. Buna baxe. Tutub eləyiblər bəyəm məni, yuxuda azadlığa çıxıram?!

Qadın. Dişlərin. Yadımda ağappaq parıldayan dişlərin qalıb. Sonra gülürsən, həm də bir-birinə bərk-bərk sıxırsan onları, elə bil, nədisə içində yapışıb qalıb, çölə, üzü bəri buraxmaq istəmirsən... Ağ kəlbətin kimiydi dişlərin. Qıcamışdın onları bir-birinə. Qorxdum mən birdən, təsəvvür edirsən? Yamanca qorxdum. Heç belə olmamışdım.

Kişi *(astadan).* Bacıların yanında deyil ki indi?

Qadın *(o da astadan).* Yox, necə bəyəm, nə oldu?

Kişi. Anan?

Qadın. Yox, o da yoxdu. Niyə soruşursan?

Kişi. Heç... heç... *(yavaş-yavaş və çətinliklə öz qırmızı işığının altından çıxıb qaranlığın içiylə Qadının sarı işığının altına doğru gəlir, gələ-gələ)* Bax, qorxma, qorxma ha, mənəm. Görürsən məni?

Kişi sarı işığa çatınca musiqi gurlayır, onlar üz-üzə, nəfəs-nəfəsə, göz-gözə. Hər ikisi əsim-əsim əsir. Kişi var gücüylə qucaqlayır Qadını.

Qadın. Sən... sən neynirsən? Sən neynirsən?..

Kişi. Qorxma, təki sən qorxma. Mənəm, tanımadın? Təki sən... qorxma. Hanı? Hanı? Hanı sənin...

Qaranlığın çəkməsi yəqin onu göstərir ki, hadisələrin cərəyanı bir müddət sonra baş verir. Yenə həmən yarıqaranlıq, yenə həmən Qırmızı və Sarı işıqlar, yenə həmən gah kölgələşən, gah da açıq-aydın görünən bu dəfə hər biri öz yerində görünən Kişi və Qadın. Amma bu da başqa bir gündür.

Kişi. Bu gecə daha bir şey görməmisən yuxuda?

Qadın. *(halsız)* Bu gecə? Heç yata bilmişəm ki... Pis oğlan...

Kişi. Yenə mən pis... Niyə?

Qadın. Eh, birin bilirsən, birin bilmirsən. Ağrılarım başlayıb. Əvvəlkilər yalanmış. Dərman da kömək eləmədi bu gün.

Kişi. Hə... nəsə, elə bil, təngnəfəs kimisən. Keçib gedər.

Qadın. Nəfəsim gedir, gəlmir. Təngnəfəs nədi? Şahlıqdı təngnəfəslik. Ölürəm. Aman allah, bircə tez bitəydi bu iş, mən bezdim, vallah bezdim.

Kişi. Elə demə. Bura bax, yaxşı yadıma düşdü. Nə qədər xal varmış İrəvanda...

Qadın. Bezdim. Bəsdi. Bəsdi, bezdim daha. Səndə də olacaq bu ağrılar, elə bilirsən olmayacaq, onda bilərsən, xatırlarsan məni. Hələ qabaqdadı sənin-ki. Heç zarafatlarından qalmırsan. Adamın sənin yanında sirri olmasın... Hazırla özünü indidən. Denən sənə əvvəldən morfi vursunlar. Dözüb zad eləmə ağrıya. Qəhrəmanlıq da göstərməyə çalışma, qəhrəmana bax. Uf, Ay allah. Dözə bilməyəcəksən onsuz da ağrıya. Mən bu gecə ölürdüm. İnanmazsan.

Kişi. Bu gecə? İndi nə təhərsən?

Qadın. Bu gecə. Bu gecə. İndi bir azca, lap az yaxşıyam. Bacılarım gəldilər... səhərə yaxın. Lap əldən düşdülər səhərəcən yazıq qızlar. Bütün gecəni yanımda oldular. İndi hərəsi bir tərəfdə yatışıb. Elə bildilər ki, mən yuxuladım. Bəlkə də heç yatmayıblar, nə bilim vallah, amma yox, yatarlar yəqin. İnanırsan, ölmək bir zülmdü, amma yaşamaq da az zülm deyil. Bircə bitəydi, qurtaraydı bu əzab, bu əziyyət. Heç nə istəmirəm daha, heç nə...

Kişi. Bəlkə sən də dincələsən? Yatasan deyirəm, bəlkə? Sonra söhbət edərik. Yat, özünü zorla, yat. İstəyirsən...

Qadın. İstəmirəm. Sən allah, qoy bir az da ağrısızlığın ləzzətini çəkim. Yavaş-yavaş azalan ağrının ləzzətindən savayı hər şey yalandı. Yazıqlar yatdılar görəsən, qızları deyirəm.

Kişi. Aydın oldu, bir mənə qulaq as, ağlıma bir fikir gəldi. Bizdən sonra qalanlara ən isti təsəlli səncə nə ola bilər? Hə?... İstəyirsən biləsən, nədi bu təsəlli?

Qadın. Səs-səmir gəlmir, yatışıblar deyəsən, bunlar quzu kimi. Hə, nədi o təsəlli, de görüm. Yüz dəfə eşitmişəm bunu axı. Yorulmadın sən?

Kişi. Qulaq as. Bunu eşitməmisən. Bu təzədi. Özü də bunu özüm tapmışam. Bax, eşit: hələ bilinmir kimin bəxti daha çox gətirib – bu dünyadan gedənlərin, yoxsa bu dünyada qalanların...

Qadın. *(dirçəlir)* Çox fikirləşmisən bunu tapanacan? Amma yaxşı tapmısan.

Kişi. Xoşuna gəldi?

Qadın. Hələ bilinmir kimin bəxti daha çox... gətirib – necə, necə?..

Kişi. Qalanların, yoxsa gedənlərin.

Qadın. Gedənlərin, yəni, bizim də – ölüb gedənlərin. Nə həqiqət olduğunu, nə də yalan olduğunu bunu sübut etmək mümkün deyil. Özü də əsl bizə lazım. Yox, bizə yox e, əsl bizim üçün saç yolanlara lazımdı bu sözü demək.

Kişi. Elədi.

Qadın. Kimin bəxti daha çox gətirib. Yəni, bizim bəxtimiz olsaydı, ikimiz də sappasağ olardıq, indiyəcən bir adamın toyuğuna "kiş" deməmişik. Bəxtimiz olsaydı, bir-birimizin yanında olardıq, dörd ətrafımızda... balaları-

mız. Bizim bəxtimiz yoxdu. Yoxdu bəxtimiz. Nə deyim, bəlkə də var? Bilmirəm.

Kişi. Bəlkə də... Eh, bilirsən nədi?! Sənin bəxtin var, mənim bəxtim yoxdu, mənim bəxtim var, səninki yoxdu – ikimizin bəxti var, ya yoxdu – nə bilirik bəxt nə olan şeydi, hə? Yəni sağlamlıqdısa, bu yoxdu, sözünü, ürəyindəkini demək sevincidisə, əlbəttə ki, var. Səndə yoxdu, məndə yoxdu?..

Qadın. Sən peyda olandan sonra – var.

Kişi. Mən kiminlə belə açıq, belə səmimi danışa bilirdim?! Sən mənimçün bütöv bir dünya oldun. Ancaq sözdən, səsdən, hənirtidən ibarət dünyasan sən. Bilirdin bunu? Bacılarından səs-səmir var?

Qadın. Bilirdim. Mənimçün sən də elə... Bacılarımı neynirsən?

Kişi. Heç. Bax, sən olmasaydın bu dünyadan getmək, özü də belə getmək, bu çağımda getmək, vallah, qat-qat çətin olacaqdı mənimçün. İndi elə bilirəm, lap əl-ələ verib gedəcəyik. Sən də elə bilirsən, elə deyil?

Qadın. Bərk sıx əlimi, əlim əlindən sürüşüb düşər...

Kişi. Eşidirsən məni? Qorxma, əsas məsələ odu ki, heç qorxma. Mən sənin yanında... olacağam, elə deyil?! Bəlkə bir az tez, bəlkə bir az gec... Kim var indi yanında?

Qadın. Məqamında olsaydın... Hamı, hamı yanımdadı, arxayın ol. Amma sən tez gəlsən nə gözəl olar? *(səsi yavaşıyır)* Tez gəl, nolar, tez... tələs... əzizim, tələs bir az... sən gecikirsən... tələs... Ən qorxulu şey bilirsən nədi?

Kişi. Nədi? Yenə başladın qorxmağa? Bax a...

Qadın. Yox, qulaq as. Ən qorxulu şey – əzab-əziyyətlə gedib çıxırsan ora. Gəlirsən tövbə eləməyə, əməllərini bircə-bircə danışmağa gəlirsən. Orda isə təsəvvür edirsən artıq hər şeyi, Allah, Allah... hər şeyi bilirmişlər...

Kişi. Mən də elə bilirəm, deyəcəksən dur gəl yanıma.

Qadın. Birdən-ikidən demişəm sənə bunu?

Kişi. O gün bəs demirdin qorxuram?

Qadın. *(əsnəyir)* Səninki oldu – ...oy, oy... gözlərim lap bağlanır, səninki oldu oynamıram...

Kişi. Noldun? Elə bil yuxuya gedirsən?!

Qadın. Mən... mən ağappaq buludların üstü ilə sənin yanına gəlirəm. Yuxu dərmanıdı, indi təsirini göstərir. Tələssən yaxşıdı, əlimdən bərk tut. Gəl, gəl sən də, noldun, harda qaldın? Gəl, hamı yatıb, heç kim də yoxdu yanımda. Hardasan sən?

Yenə həminki kimi musiqi gurlayır və yenə Kişi bu işıq sərhədini keçir, gəlib naz-qəmzəylə guya yuxuya getməkdə olan Qadına baxır, baxır, yorğanını düzəldir.

Kişi. Yat. Gecən xeyrə qalsın. *(geri dönür)*

Qadın. Hara? Eh... Xeyrə... qarşı deyirsən, xeyrə... qarşı. Ana... ay ana... hardasız siz?

Bu dəfə işığın sönməyilə yanmağı sanki bircə anın içində baş verir. Heç Kişi düz-əməlli qayıda da bilmir. Bircə musiqi susmağa macal tapır. Bir daha başqa bir vaxt.

Kişi. *(son dərəcə canlı)...* Unutmusan, deyəsən. Elə isə salıram yadına. Mən sənə, sən mənə ancaq həqiqəti söyləyəcəkdik, həqiqəti. İtirdiyimiz nədi? Ancaq həqiqəti. Nə duyuruqsa, nə düşünürüksə – onu. Heç kimə deyə bilmədiklərimizi ancaq və ancaq – bir-birimizə. Unutdun? Unutmusan...

Qadın. *(heysiz)* Mənim bu gün nədisə hamıdan acığım gəlir.

Kişi. Məni demirsən... hamıya nifrət eləyirəm. Özü də ən çox mənimlə bir yerdə işləyənlərə... düzdü, onlar hələ bir şey bilmirlər, amma gec-tez biləcəklər.

Qadın. ...evdə bacılarımdan, anamdan, qoca nənəmdən, 85 yaşı var e nənəmin, nəsə başlayıb acığım gəlməyə. Bəlkə ondandı ki, onlar biləni mən də bilirəm. Nə bilim vallah, hər hərəkətləri məni, belə, necə deyim, özümdən çıxarır. Bəlkə düz eləmirəm, hə?! Amma yox, düz eləyirəm, hamıdan acığım gəlir. Televizora baxıram, diktor havadan danışır, baxıram gözlərinə, yad bir şey görürəm gözlərinin dibində – iyrənirəm. Belə əməlli-başlı iyrənirəm. Necə də birik hər işimizdə sənninlə, ay Allah. Yəni eyni xəstəlik eyni xasiyyəti gəlib tapırmış, işə bax, Allah. Sən necə bilirsən, bizim xəstəli-

yimizdi bizi məcbur edir, hamıya belə nifrət etməyə? Hə, xəstəlikdi bu, sən bilən? Mən istəmirəm. *(ağlamsınır)* istəmirəm nifrət edəm, acığım gəlsin axı. Vallah istəmirəm. Amma bacarmıram. Sən olmasaydın, vallah, bəlkə ürəyim partlayardı, ölərdim, inanırsan? İnanırsan?

Kişi. İnanıram. Mən də eləyəm. Elə mən də... acığım gəlir hər şeydən. Bu həyatda ürəkaçan heç nə yoxdur. Sən ürəyini sıxma.

Qadın. Sən Allah doğrudan deyirsən?

Kişi. Yox da, mən olanı deyirəm. Ürəkaçan – heç nə. Hava deyirsən – dəhşətdi. Necə udmaq olar bu havanı? Başa düşmürəm. Adamlar deyirsən, hamının, hamının olmasa da yarıdan çoxunun o söz... yoldaş, dost, qohum – hamı özü üçün, ancaq özü üçündü. Ağıllanıb camaat daha – hər kəsən özü üçün yaşamağa başlayıb. Heç nə. Heç nə qalmadı. İnan mənə... Bu saat gözlərimi... yumam, bir qram da heyifsilənmərəm.

Qadın. Elə demə.

Kişi. Niyə? Düz sözümdü.

Qadın. Elə demə, Allaha xoş getməz.

Kişi. Daha nə xoş getsin, nə xoş getməsin?

Qadın. Yox, elə demə. Bəyəm, Allah, ancaq bu dünya üçündü? Sənin o dünyadakı yerini bəs kimdi verən, Allah deyil? Elə demə. Bir də ki... sənin hələ vaxtına var... sən hələ... mənsizliyə qulaq verəcəksən. Hələ darıxacaqsan mənimçün. Sən hələ... nə bilmək olar... *(susur)*

Kişi. Nədi? Niyə danışmırsan?

Qadın. Deyirdim, hələ darıxacaqsan mənimçün. Buna bax...

Kişi. Çox az. İnanmıram, elə də çox vaxtım qalıb. Gözün aydın, mənim də ağrılarım başlamaq istəyir deyəsən. Necə demişdin, düppədüz eləyi. Yavaş-yavaş, amma dönmədən artan xətlə. Hələ ki, yavaş-yavaş ağrıyır *(qoca arvada)* xala, ay xala...

Qadın. Gözaydınlığı niyə verirsən mənə?

Qoca arvad muticəsinə sarı işığın yanından gedib qaranlığa tərəf.

Kişi. Elə-belə. Nədi ki. Zarafat kimi qəbul elə. Bənd olma. Yəni, deyirəm, bəlkə ağrılarını unudasan... hanı bu? Yox oldu, sənə yaman qulaq asır... anan...

Qadın. Sənə qalmayıb. Belə də. Deməli, sən məni belə çıxır ki, lap vəhşi kimi bir şey hesab edirsən. Nədi, dedim ki, hamıdan acığım gəlir, onunçün?

Kişi. Heç ağlıma da gəlmədi. Onun bura nə dəxli var?

Qadın. Bir dəqiqə dayan. Bir dəqiqə. *(Kənara)* Ana... mənim işim var axı. Qalsın. Qalsın. Sonraya.

Qadın. Qulaq as bura. Sən mənə ilk dəfə öz xəstəliyindən söz açanda bu ilk söhbətimiz idi, eləmi, təsadüfən zəng eləmişdin, düşmüşdün mənim nömrəmə, istədin ki, mənim sənə yazığım gəlsin, bəli, bəli, ilk dəfə idi ki, mənə telefon edib naməlum bir adam öz ümidsiz, əlacsız xəstəliyindən danışırdı və... buyur ləzzət al, kef elə, düz onluğa vurdun, qanım üşüdü. Tanımadığım bir nəfər mənə mənim dərdimi danışırdı. Pis oldum mən. Özümə görə yox. Unutmuşdum öz dərdimi. İnanmırdım çünki bu dərdə. Və birdən-birə sənin etirafından sonra mən öz xəstəliyimə, bilirsən, inandım. Mənə elə gəlirdi ki, heç zaman bu dərdlə barışmayacağam, heç zaman inana bilməyəcəyəm bu dərdə – amma, işə bax, inandım. Sən məni buna inandırdın. Həkimdən başqa heç kimə, heç anama da, bacılarıma da danışmamışdım – ilk dəfə sənə danışdım xəstəliyimi. Bilirsən, gözlərimə, elə bil, işıq gəldi. Bu işığı sən göndərmişdin, başa düşürsən? Gözlərimə işıq gəldi. Sən, sən elədin bunları. Biz sənin söz-zad vermədən, danışıb eləmədən and içdik. Hər birimiz ürəyində, elə deyilmi?! Bir günümüz belə bir-birimizsiz keçməsin dedik. Eyni dərdimiz bizi bir-birimizə tərəf atdı, elə deyilmi?! O gündən sənsən, mənəm...

Kişi. Sənsən, mənəm – bizik bu dünyada bir-birimizçün. Bütün bunları niyə deyirsən? Məlum şeylərdi bunlar.

Qadın. Yox, dayan, qulaq as. Sənin sözün mənə yer elədi. Mən sənə elə alışdım ki, güləcəksən, bax gülmə ha, elə bildim... ərimsən sən mənim, doğmamsan sən mənim. Qiyabi ər – necə səslənir, hə?! Yavaş-yavaş öz dərdim yadımdan çıxdı. Başa düşürsən nə deyirəm?

Kişi. Başa düşürəm, əlbəttə, başa düşürəm. Bu ki, pis deyil… Yəqin belə məsləhətmiş...

Qadın. Belə məsləhətmiş... Allaha yalvaranda, gecələr, hər gecə mən Allaha yalvarıram, ona qurban olum, hər gecə ona dua edəndə kömək istəyirəm ondan, güc istəyirəm, bilirsən kimə? Birinci – sənə. Əvvəlcə sənin üçün yalvarıram, əvvəlcə sənin üçün şəfa diləyirəm. Axı sən gərək mənə o sözü deməyəydin?! Necə dilin gəldi?! Sən gözaydınlığını mənə vermə. Sən... sən... yaxşı oğlan olma. Çalışma, yaxşı olasan.

Kişi. *(riqqətə gəlib)* Bağışla məni, bağışla, sən Allah, sən bilməlisən, o bir zarafat idi.

Qadın. Yaxşı, qurtaraq bu söhbəti. Amma bunu bil. Ağrıyla, əzabla, əziyyətlə zarafat eləmirlər. Onlarla bacar həmişə "siz"lə danış. Ehtiramla. *(birdən qəfil şuxluqla)* Yaxşımı?

Kişi. *(sevincək)* Yaxşımı.

Qadın. Əzizim mənim... *(Kənara)* Ana, ay ana, orda neynirsən sən? Ay arvad, get yat daha, elə bilirsən bilmirəm, bəsdi durmusan orda, bəsdi, bəsdi... *(Kişiyə)* gecən xeyrə qalsın.

Sarı və qırmızı işıqlar hər ikisi bir-birinə tərəf yaxınlaşır və təbii ki, Kişi ilə Qadını təklikdə və qaranlıqda qoyurlar. Hər iki işıq saçağı bir xeyli üzbəüz durur və yenidən geri qayıdarkən... qaranlıq. Bu qaranlıqda əvvəlcə Kişi ilə Qadının səsləri eşidilir, sonra yenə onları öz yerlərində, öz işıqları, elə bil, qucaqlayır. Bir başqa gün.

Qadın. Bu gün səhər bir qohumumuzu, atasını, qoca kişiydi, güclə yeriyirdi, maşın vurub öldürüb. Elə sevinmişəm ki...

Kişi. Dünən maşına benzin doldururam, dəli şeytan birdən dedi ki, bir dənə spiçkadı, yandır, at benzinin üstünə, maşını da sür çıx aradan, aləm qarışsın bir-birinə...

Qadın. Anamın axşam başı bərk ağrıyırdı. Əvvəl olaydı, ürəyim partlardı, indi, təsəvvür eliyirsən, indi vecimə də gəlmədi. Deyirəm, sən necə bilirsən, deyirəm... bəlkə görəsən biz... quduzlaşmırıq ki?! Elə qorxuram...

Kişi. Yox, quduzlaşmırıq. O qədər quduz var ki, dörd tərəfimizdə... biz... bizə nolub ki? Heç olmasa, ağlımıza nə gəlir onu da qoyuruq ortaya. Ürəyimizdəki o saat yazılır üzümüzdə.

Qadın. Amma bu orta dediyin yerdə, əzizim, bir sənsən, bir də mənəm.

Kişi. Orası elədi. Bəs ona nə deyirsən, mənim bir qonşum var, gəlib o gün yanıma, dərdini guya bölüşür mənimlə. Bax indi yadıma salıram. Hirs vurur hələ də başıma. Arvadından danışır. Özü də içib. Az da içməyib. Görürəm, elə fırladıb-fırladıb özü-özünü aldadır. Yox deyir, qıraqdan görünmür, sözə bax e, qıraqdan deyir, elə yaxşı görünmür, məni bərk sevir, arvadı, yəni, bunu bərk sevir. Nədi, nədi bilirəm axı, torbada pişik gizlənib...

Qadın. Nədi ki, niyə elə deyir?

Kişi. Bunu yüz faiz arvad özü göndərib mənim yanıma. O gün bir qəşəng maşında görmüşəm onu. Çaşıb əvvəlcə mənə salam da verdi.

Qadın. Nolsun? Adam maşına minə bilməz?

Kişi. Niyə minə bilməz?! Amma bu elə oturmuşdu ki, maşında, belə birtəhər oturmuşdu – əvvəlcə çaşdı, başa düşürsən, məni gördü, bilmədi, neynəsin, salam versin, verməsin. Çox fikirləşdi başını tərpədənəcən.

Qadın. Bu başqa məsələ. Ağır cinayətdi.

Kişi. Aha... sən zarafata salırsan. Amma bax indi əri gəlib xanımı təmizə çıxardır. Bu adamdı?! Bu adam bədbaxtın bədbaxtıdı. Özü-özünə yalan satır. Dəhşət budu. Gözündən görürəm axı, qaçırdır bədbaxt gözünü, qaçırdır. Dediyinə özü də inanmır. Yüz faiz ki, arvadı göndərib onu – razvedkaya.

Qadın. Yazıq adamdı. Nə istəyirsən sən ondan?!

Kişi. Yazıq?! Bunların hansı yazıq deyil? Arvadı bunun yazıq deyil?! Arvadını maşında gəzdirən o qırmızışarf yazıq deyil?! Qırmızını da... elə dolayıb ki boğazına... hamısı yazıqdı, hamısı bunların yazıqdı.

Qadın. Atam uşaqlıqda oturdardı məni dizlərinin üstündə. Saçımı tumarlaya-tumarlaya deyərdi: Ağıllı qızım mənim, qulaq as, sənə bir nağıl danışacağam. Danışardı nağılı. Biri vardı, biri yoxdu, deyərdi. Bir padşah vardı, deyərdi. Bu padşahın da üç oğlu... atam şirin-şirin danışardı. Mənim bir qulağım nağılda olsa da, elə bil, beynimin hansısa bir hissəsində sarımtıl bir işıq yanırdı. *(sarı işıq titrəməyə başlayır, güclənir)* atamın səsi yavaş-

ıyırdı, mənim başımdaysa səslər bir-biriylə savaşa çıxmışdı. Bir gurultu qoparırdılar ki. Niyə atamın səsi belə qəmlidi? Nəyin xiffətini çəkir bu kişi? Mənə, mən uşağa elə gəlirdi ki, onun böyük dərdi var. Elə bilirdim, atamın çox qəddar, çox güclü bir düşməni var, atam da ondan qorxur. Elə yazığım gəlirdi ki ona. Qocalmağa başlamışdı. Ürəyi tez-tez ağrıyırdı. Gözlərinin altı həmişə şiş idi. Saçları ağappaq... onda mənə gülməli gəlirdi, səhərlər elə cidd-cəhdlə idman eləyirdi ki, düşünürdüm, düşməni var, bütün bunları ona görə edir. Mənə bax e... özünə yaman baxırdı, çayı-çörəyi vaxtında, dərmanlarının vaxtı-vədəsi... heç nəyin dərdini çəkməzdi. İndi yadıma salanda onu, elə yazığım gəlir... ölümündən, sən demə, qorxurmuş atam. Özü də belə... necə deyim, pis qorxurdu. Yazıq kişi qorxurdu. Kişi kimi deyildi onun qorxmağı. Atamın düşməni ölümü imiş. O vaxtdan ölümündən uşaq kimi qorxan adamlara yazığım gəlir. Belə-belə işlər... məncə yazıq deyəndə, ancaq bunlara yazıq demək lazımdı. O biriləri niyə yazıq olurlar?! O birilər yazıq deyillər. Hər nədilər, amma yazıq deyillər.

Kişi. Bəs nədilər?

Qadın. *(kəskin)* Bilmirəm nədilər, amma yazıq deyillər. Aman-aman, gözüm niyə belə torlaşdı? Elə bil, hər şey ikiləşdi gözümdə. Səndə belə olur?

Kişi. İkiləşdi deyirsən?! Hərdən olur məndə də. Amma keçib gedir.

Qadın. *(rahatlıqla)* Di onda, Allaha şükür ki, keçib gedir. Deməli, məndə də keçib gedəcək.

Ürəyə ümid gətirən musiqi sədaları altında bu iki işıq saçağı elə itirlər, elə əriyirlər ki, elə bil, məhrəm bir yer kimi qaranlığın içinə qısılırlar. Bir başqa dəfə.

Qadın. Bu qədər konsert olar, televizorda hansı kanalı açırsan, hara baxırsan konsert, camaat evini satıb pulunu qoyub banka. Bank da, bu pulu yeyib üstündən də su içib, xalq qan ağlayır – burda isə gündə konsert. Düz demirəm, sən Allah?.. söndürdüm. Daha heç nəyə baxmaq istəmirəm.

Kişi. Sənin bəyəm pulun batıb? Sağ ol...

Qadın. Mənim? Niyə mənim? Bilmək istəyirsənsə mən təzə açılan banklara əvvəldən inanmadım. Qonşumuz var, yazığın biridi, nəyi vardı

satıb qoydu banka. Ayda bir dəfə alırdı faizini. İki dəfə aldı, ya üç dəfə aldı... batdı pul. Belə də hərc-mərclik olar?! Mən belə işlərə dözə bilmirəm.

Kişi. Sən keçdin siyasətə.

Qadın. Mən bilmirəm nəyə keçdim. Ancaq onu bilirəm ki, bu insafsızlıqdı. Adamın burnundan gələr belə qazanc. Düz demirəm?!

Kişi. Nə deyim vallah... düz deməyinə... mənim özümün də elə bir balaca...

Qadın. *(gülür)* Aaa, sən də yanmısan? Gör a, sən Allah, səni də aldadıblar, eləmi? Gör a, daha sənin kimi ağıllı-kamallı bir adam gəlib tora düşəndə bizim kimi biçarə, məzlum xalq neyləsin?

Kişi *(gülür).* Eh, salma yadıma. Nə bilim vallah? Mənim işim lap komediya oldu. Desəm gülərsən. Yadıma düşəndə birtəhər oluram. Elə bil, gözümü götürüb bağladılar. Özüm zorla, güclə, xahişlə, minnətlə apardım verdim öz əlimlə pulları. Komediyadı.

Qadın. Ay səni. Mənə isə dayım oğlu düz iki ay dil tökdü, heç bir damcı da inanmadım. İndi özü qalıb əlimyandıda.

Kişi. Sən ağıllı balasan. Məndə ağıl var?!

Qadın *(yalançı hirslə).* bura bax, yenə çaşdın? Çaşdın! Yenə başladın yuxarıdan aşağı danışmağa mənimlə? Mənə lazım deyil sənin belə nəvazişlərin...

Kişi. Sənə lazım deyil, mənə lazımdır. Asma qulaq, sən asma. Mən o sözləri onsuz da deyəcəyəm. Mən o sözləri, mənim balam, deməsəm olmaz, ölərəm, ürəyim partlar – canım, ciyərim, cırtdanım, xort... yox, növcavanım, xəyalım, arzum, günəşim, ceyranım, maralım, akulam, nə bilim daha nəyim. Söz zapasım tükəndi, nə bilirdim, dedim hamısını.

Qadın. Belə az? Səndən şair çıxmaz.

Kişi. Heç lazım da deyil mənə.

Qadın. Hə, şeir-zad yazma. Alınmayacaq.

Kişi. Məndə alınmayacaq? Uşaq vaxtı bilirsən necə yazırdım...

Qadın. Yox, alınmayacaq. Nahaq yerə zəhmət çəkmə. Bura bax, mən yenə başlamışam adamları iki görməyə. Başım da tez-tez fırlanır. Az qalıram huşumu itirəm. Elə bi, nəsə qorxuram durub burdan otağın o biri başına getməyə, elə bilirəm, biri əlimdən tutmasa yıxılacağam. Səndə belə olur?

Kişi. Olurdu. İndi məndə nəsə səhərdən axşamacan başım ağrıyır, təngnəfəs oluram, nəbzim 120 vurur, bir söz, yaxşı deyiləm...

Qadın. Mənə həkim dünən deyir ki, guya özünü ağıllı sayır bu, indi belə xəstəliyi elə müalicə edirlər ki, guya izi-tozu da qalmır. O deyir, anam deyir, anam deyir, o deyir. Mənə deyirlər e... mənə eşitdirirlər. Mən də oturub quzu kimi qulaq asıram. Həkim durub gedəndən sonra arvad susub oturur, bir kəlmə də danışmır. O susur, mən susuram. Mən uşaq-zadam bəyəm? Başa düşmürəm, nədi?! Mənə yazıqları gəlir. Özlərini ağıllı sayırlar.

Kişi. Anandı da, neyləsin? Sən onları qınama. Bax, mən özümdən götürürəm, elə mən də hiss edirəm, vəziyyət yaxşı deyil, çox qalmayıb...

Qadın. Hiss edirsən sən də? Bax, görürsən…

Kişi. Əlbəttə. Başqa cür ola bilməz. Hiss edirsən də sözdü? Amma ətrafdakılar mənə ürək-dirək verəndə gülmək tutur məni, özümü elə göstərirəm ki, guya inanıram onlara. Bilirsən, belə yəqin onlar üçün də asan olur, onlar da yüngülləşirlər. Bu axı, mən bilirəm sağalmaz zəhrimardı.

Qadın. Yox! Yox, yox, yox, yox. Mən onlar üçün uşaq zad deyiləm. Nənəmin ağlamaqdan gözləri kor olub, anam əldən gedib, ayaq üsdə ölüb, bacılarım... üz-gözlərində daha hər şey yazılıb da, məni görəndə adam nə qədər yalandan gülər? Gərək axmaq olasan ki.... başa düşürlər, məni aldada bilmirlər, amma özlərini elə göstərirlər, guya mənim onlara inandığıma bunlar da inanırlar. Fu, çaşdım lap.

Kişi. Çox çaşma, dayan. Sən onlara imkan ver. Niyə özündən qaçırırsan axı onları? Sənin üçün də asan olar. Belə yaxşı deyil?

Qadın. Sən varsan, mənimçün onsuz da asandı. Mənim bəsimdi. Düz demirəm?

Kişi. Düz deyirsən. Amma...

Qadın. Amma sözümüz sözdü ha. Son zəng mənim zəngim olacaq. Sən mənim son zəngimdən sonra bir daha mənə zəng etməyəcəksən. Axtarmayacaqsan məni. Yaxşımı?

Kişi. Yaxşımı.

Qadın. Qəhərləndim mən, deyəsən.

Musiqinin zəif səsi eşidilməyə başlayır. Yenə qaranlıq yavaş-yavaş onları udur və yenə hər şeydən bir "son nəfəs" hənirtisi gəlir. Musiqi susunca qaranlıq. Və işıqlar yenə də adamlar kimi öz yerlərini tutur. Bu dəfə də bir başqa dəfədir.

Qadın. Sən, mənə bax, inanırsan o biri dünyaya?

Kişi. Mən inanıram.

Qadın. Mənsə inanmıram.

Kişi. İnansan yaxşıdır.

Qadın. Niyə?

Kişi. Axı nə əsasla inanmırsan? Sübutun var inanmamağa? Yoxdu. Ona görə inanmalısan.

Qadın. Bəs sənin sübutun var?

Kişi. Mənim də sübutum yoxdu.

Qadın. Qəribədi. Deyirsən inanım?

Kişi. İnan. İnanmasan çətindi. Hələ orda o qədər görəcəyik bir-birimizi. Ora-var!

Qadın. Görüşəcəyik? Yoxsa telefonla hələ də bir-birimizə zəng edəcəyik? "Ora-var"... Yaşıl bir ada kimi...

Kişi. Sənin ağlın olsaydı, biz çoxdan görüşərdik. Bir-birimizdən o qədər də uzaq olmuruq. Axşamlar hərdən çıxıb Yaşıl parkda gəzərdik, hə? Nə deyirsən? Kim var yanında?

Sükut.

Qadın. Mən evdən çıxmıram. Sənə deməmişdim?

Kişi. Nə vaxtdan?

Qadın. Bir həftə olar.

Kişi. ...

Qadın. Niyə susdun?

Kişi. Gərək məndən gizlətməyəydin... bəs deyirdin o gün rəfiqənlə birlikdə...

Qadın. Yalan deyirdim. Bağışla. Mən indi, mənim əzizim, kapelnitsa altındayam. Gecə-gündüz iynə davamlı surətdə bədənimə qan vurur. Lap bezmişəm. İstəyirəm hərdən vuram-dağıdam bu zir-zibili. Vallah, yenə bu evdəkilərə yazığım gəlir. Deyirəm, qoy sonra özlərinə təskinlik versinlər ki, əllərindən gələni etdilər. *(Zarafatla)* Sən öz tərbiyənin bəhrələrini hiss edirsənmi, əzizim?

Kişi. Edirəm. Səndən yoxdu.

Qadın. Var, o qədər var. Özü də sağlam, gənc, gözəl, safürəkli... o qədər var... bəlkə də, nə bilim, yoxdu. Yoxdu deyirsən, yoxdu. Sən zarafatla deyirsən, amma doğrudan, yoxdu. Bilirsən, necə sevərdim hamını? Bilirsən, necə fəda edərdim özümü... elə hər kəsə? Bilirsən...

Kişi. Bilirəm. Sakit ol.

Qadın. Nifrət edirəm hamıya. Niyə mən?! Bunu mənə deyə bilərsən? Niyə mənim bəxtim belə gətirdi? Niyə mən lap elə indi, bax, əlimi uzadıb bu kapelnitsanı sındırmağa qorxuram. Elə bilirsən, anamçün qorxuram?! *(ana gəlmək istəyir)* hələ yox, sonra, sonra. *(arvad çəkilir)* Yox. Yox, əzizim, anamçün yox, deyəsən özüm üçün qorxuram. Bir az da. Bir az daha. Bir gün daha çox. Gülməlidi sənin̂çün? Səndə belə həsrət olur? Dəqiqə həsrəti?!

Kişi. Olur.

Qadın. Hə?! Amma mən elə bilirdim, təkcə məndə elədi. Amma yox, sən özün də elə mənim günümdəsən. Sənin̂çün də tezi-geci var. Mən gedən yolla, təəssüf ki, sən də gedirsən. Mənim dalımca. Necə də tapışmışıq sənin̂lə? Yadında, sən özündən deyəndə mən... birdən-birə çox doğma bir adama çevrildin. Dərd necə də birləşdirir. Aman Allah, ağrı necə də birləşdirir adamları. Mən sənə ağrılarımı danışırdım. Sən də mənə həmin ağrıları çox yaxşı tanıdığını deyirdin. Allah, mən həm sevinirdim, sən Allah, bağışla məni, mən həm sevinirdim, həm də ürəyim parça-parça olurdu...

Kişi. Sakit ol. Özünü ələ al. Burda nə var ki?!

Qadın. Ola bilər belə şey?

Kişi. Ola bilər, əlbəttə ola bilər.

Qadın. Ola bilməz.

Kişi. Ola bilməz – ola bilməz.

Qadın *(əsəbi).* Məni sakitləşdirmə.

Kişi. Yaxşı. Yaxşı. Üzmə belə özünü...

Qadın. Mənə dərs oxuma, dedim. Hələ bəlkə bilmək olmaz... bu həkim bəlkə elə düz deyir, mən hər şeyi iki gördüyümdəndi ki, bunu da özümdən quraşdırmışam. Bilmək olmaz. Bəlkə dəyişdi hər şey. Hamıda hər şey tərsinə oldu, hə?

Kişi diksinir.

Qadın. Sən nə dedin?!

Kişi. Heç nə. Mən həmişə sənə bunu deməmişəm? Əlbəttə, bilmək olmaz.

Qadın. Sən necə adamsan?

Kişi. Necə bəyəm?

Qadın. *(narazı və əsəbi)* Necə adamsan sən? Niyə sən mənə acımalısan, bilmək olar? Özünə acısana. Sən məndən uzaqda deyilsən. Heç uzaqda deyilsən, unutma, dalımca gəlirsən. Hənirtin artıq boynumu dalayır. İsti nəfəsini duyuram. Səsin, səsindən bilirəm vəziyyətini, niyə sən gizlətməyə çalışırsan? Guya güclüsən, eləmi? Amma səsin, səsin səni satır. Səsin deyir ki, vəziyyətin, əzizim, çox da yaxşı deyil. Özün də bunu bilirsən. Necədi, xoşuna gəlir?

Kişi. Sənə yaraşmır.

Qadın. Yaraşmır mənə?

Kişi. Belə danışmaq...

Qadın. Nə dedin? Sən nə dedin? Mənə dedin yaraşmır???

Kişi. Bəlkə...

Qadın. Yaraşmır mənə... sən nə bilirsən nə yaraşır, nə yaraşmır mənə? Hardan bilirsən? Sən... sən kimsən axı?!

Kişi. Mən? Bilirəm. Bir onu bilirəm ki, sən belə deyilsən. Sən belə ola bilməzsən. Mən bunu bilirəm. İstəsən də ola bilməzsən. Olma, olma belə. Heç zaman belə olma. Son nəfəsinəcən belə olma. Bir şey söylə. Söylə ki, sən belə deyilsən. Belə olmayacaqsan. Heç bir zaman. Söylə. Danış. Razısan? Razı ol, razılaş mənimlə... söylə mənə...

Qadın. *(peşman və zərif).* Bağışla məni. Yaxşımı?

Kişi. *(yorğun-yorğun)* Bax belə. Yaxşımı.

Yenə qaranlığa qərq olmağa başlayır hər şey. Və bu dəfənin də əvvəlki dəfələrdən bir fərqi o olur ki, bu dəfə "son dəfə"dir. Yenə iki işıq və yenə həmin adidən adi iki nəfər.

Kişi. *(əlində məktub)* Dünən sənə, bilirsən, bir məktub yazmışam. İstəyirsən oxuyum? İstəmirsən...

Qadın. Məktub yazmısan? Niyə? Bəyəm gündə danışmırıq bir-birimizlə? Məktub niyə yazmısan?

Kişi. Belə də. Bilmirəm. Oturdum, birdən gəldi öz-özünə sözlər, düzüldü varağa. İstəmirsən, lazım deyil. Oxumaram.

Qadın. Sonra da bir həftə mısmırığını sallayacaqsan. Yox, astarı üzündən baha gələr. Oxu. Dayan. Gözlə, yerimi rahatlayım. Bir dəqiqə. Aha, belə. Hə, məktub yazmısan, deməli? Mən hazır. Oxu. Dinləyirəm.

Kişi. Bilirsən, adama elə gəlir ki, sözlə deyə bilmədiyini nəsə kağıza yazmaq daha asandı, kağız tam açılıb sənincün, yıxıb özünü, ağappaq, qabağına, bir qalıb...

Qadın. Ona sahib olmaq...

Kişi. ...Bir qalıb ona söz söyləmək. Sağ ol səni...

Qadın. Oxu, oxu, görək nə yazmısan, çəkmə ürəyimizi.

Kişi. Qulaq as. Başlayıram. Başlayım? Başladım. İstəyirsən, lap gözlərini də yum. Bəlkə lazım deyil?

Qadın. Öldürdün sən məni. Bax gözlərimi də yumdum. Başla.

Kişi. Hazırsan?

Qadın. Hazıram.

Həzin bir musiqi yavaş-yavaş...

Kişi. *(məktubu oxuyur)* "Mənim əziz və sevimli qəlbimin sirdaşı. Salam. Hər gün biz sənlə telefonla danışırıq, bizi bir-birimizə tərəf hansısa gözəgörünməz qüvvədi dartır, dartır, gülürük, qəmlənirik, hətta dava da eləyirik, sən

mənə ərk edirsən, mən sənə ərk edirəm, küsürük, barışırıq. Amma... yəqin ki, duyuq düşdün bu "amma"dan sonra nə gələcək. Amma əzizim, biz bir-birimizi bir dəfə də olsun görməmişik. Görməmişik bir-birimizi. Nə sən məni görmüsən, nə mən səni görmüşəm. Bununla belə, nədisə mən bu bizdən doğma, bizdən məhrəm insanlar təsəvvür edə bilmirəm. İlk dəfə mən sənə o gizli dərdimi bilmirəm niyə, nə üçün açdım. Mən bir adam, tanımadığım, bilmədiyim, amma doğma nəfəs həsrətində idim. Sənə təşəkkür edirəm. Bu nəfəsi mən səndən aldım...

Sükut. Kişi var-gəl edir. Dayanır.

...Sən mənə səbrli və dözümlü olmaq dərsi verdin. Sən mənə ağrılarımı dişimlə sıxmaq və içimdən buraxmamaq, ağrılarıma alışmaq, ağrıdan, əzabdan bacarıb ləzzət almağı öyrətdin.

Sən mənə çox şeylər öyrətdin.

Yadındadısa, biz bir-birimizə söz verdik ki, nə olursa olsun həqiqətə, öz içimizdən gələn həqiqətə xain çıxmayaq. Səmimiyyətə xəyanət etməyək. İkimizin də dərdi eynidi, bu dünyada sən də, elə mən də aydındı ki, qonağıq. Günlərimiz, bəli, sayılıb. Xəstəliyimiz əlacsız. Ona görə də nə düşünürüksə olduğu kimi, nə hiss ediriksə olduğu kimi, nə ağlımızdan keçirsə, olduğu kimi bir-birimizə deyəcəyik.

Sən mərd qadınsan. Mən bunu sənə, inan, bütün kişilərin adından deyirəm. Ağlaya-ağlaya gülməyi bacaran, son nəfəsini gözləyə-gözləyə kimsə ümid verməyə çalışan – sən böyük hərflə yazılan Qadınsan.

Əzizim mənim. Allah şahiddir ki, mən əlimdən gələni etdim. Sənin hər bir gününü nə iləsə doldurmağa çalışdım. Həkimlərdən, xəstəxanalardan, səni aldatmağa çalışan anandan, bacılarından, əmilərindən, dayılarından sonra səni tək qoymamaq üçün daha neyləyə bilərdim, daha neyləyə bilərəm?

Sənin ağrın mənim ağrıma döndü, sənin dərdin, doğrudan da, mənimki oldu. Mən də əlacsız xəstə olmasaydım belə, səndən sonra çətin ki, yaşaya biləydim, yaşamaq istərdim.

Bağışlaya bilsən, məni bağışlamanı xahiş edirəm. Bilmirəm niyə, amma mənə elə gəlir ki, mənim sənin qarşında nəsə böyük bir günahım var,

nədi bu günah, anlaya bilmirəm. Kimin üçünsə pisdir, kimsə əzab çəkir – mənim günahımdır – elə bilirəm. Sən mənə görə gülürsən, danışırsan, yaşadığını, bundan zövq aldığını mənə göstərirsən, hamısını anlayıram. Amma anlaya bilmirəm ki, mənim taxsıram nədi, ümumiyyətlə, bu taxsır var, yoxsa yoxdu?! Mən, bilmirəm, bunu necə yazım, mən başqa cür hərəkət edə bilməzdim. Nə üçün bunu yazıram, özüm də bilmirəm. Amma sən məni bağışlayacaqsan. Bilirəm ki, bağışlayacaqsan.

Bəlkə gərək mən sənə bunu yazmayaydım. Çünki burda yazdıqlarımın çoxunu mən sənə dəfələrlə demişəm, biz bunları o qədər danışıb bir-birimizin zəhləsini tökmüşük ki. Niyə bu məktubu yazıram?! Niyə – bilmirəm.

Musiqi susur. Sükut.

Bağışla məni, bağışla məni, bu dünyada da, o dünyada da günahım varsa, məndən əvvəl, mənim əvəzimə əfv dilə mənimçün. Yaxşımı? Yaxşımı? Yaxşımı?

Sükut.

Bitdi. Mən qurtardım. Niyə susmusan?

Qadın *(hər şeyi qəfildən anlamış kimi təkrar edir).* "Mən başqa cür hərəkət edə bilməzdim. Mən başqa cür hərəkət edə bilməzdim. Bağışla məni". Maraqlıdı. Bağışla deyirsən. Belə de. Gör bir... yadındadı, sən mənə bir dəfə belə demişdin?! Xəstə dostunun yanına baş çəkməyə getmişdin.

Kişi. Sən mənə cavab ver. Yaxşımı dedim, yaxşımı?

Qadın. Və xəstə dostunun əhvalının ağırlaşdığı bir zamanda orda olan bir başqa dostun gümrahlığından, sağlamlığından, çəkdiyi keflərdən, bir sözlə... nələrdən danışmayıb...

Kişi. Dayan, dayan. Nə demək istəyirsən? Məktub qaldı bir tərəfdə, sən başlamısan...

Qadın. Xəstə susub və birdən dostunuz da sözünü yarımçıq kəsib, nəhayət, başa düşüb ki, nə böyük günah işlədir. Sən elə belə də demişdin: "Nə böyük günahdı xəstə yanında sağlamlığınla fəxr edəsən". Mən o zaman mültəfit olmamışdım.

Kişi. Sən mənə bir söz de: "yaxşımı?", "yaxşımı" de, qurtaraq bu söhbəti.

Qadın. Mən indi anladım. Mən indi hər şeyi anladım. Sənin məktubun hər şeyi açıb dedi. Ay yay-yay... gör a... səni bağışlamağımı istəyirsən? İşə bax. Mən, doğrudan da, uşaq qədər anlamaz olmuşam ki. Cocuq olmuşam mən, dilbilməz olmuşam mən... sən nə yaxşı oğlanmışsan... sən... sən necə bacardın bunu? Bu qədər yalanı özünhaqqında quraşdırdın...

Kişi. Yaxşımı?

Qadın. Sən bunu necə bacardın? Deməli, bütün bu zaman boyu sən mənə ürək-dirək verirdin...

Kişi. Yaxşımı?

Qadın. Necə də kövrək qəlbin varmış... Bu qəlbinlə... sən necə yaşaya biləcəksən? Mənim əzizim, bircəm, yeganəm, belə bir qəlblə sən necə yaşaya biləcəksən sonra? Bütün bu komediya axı bir adamlıq yük deyil... Sən… getməyəcəkdinsə necə qalacaqsan? Doğrudan da, nöqtə imişsən sən. Nöqtə. "və" ola bilmədin.

Kişi. De mənə: Yaxşımı?

Qadın. Necə yaşaya biləcəksən? Yaxşımı?! Elə bu? Bununla da hər dərdin əlacı tapılır, eləmi? Olsun, nə deyirəm. Alırsan al bu sözü məndən. Bu dəfə mən onun əvəzinə səndən heç nə istəmirəm. Al, götür. Yaxşımı deyirsən? Yaxşımı! Yaxşımı, yaxşı... *(səsi kəsilir və üstündəki işıq sönür)*

Kişi. Yaxşımı, yaxşı... ya... yağış, bu yağış ki başladı, kəsməyəcək, heç kəsən yağışa da oxşamır bu yağış... Min il yağacaq. Bu ev yenə başladı dammağa?! Nə idi unutdum, nə, yaxşımı, yoxsa yağışmı?.. Hardan gəldi girdi beynimə bu söz, yaxşımı nədi, bu nə sözdü yapışıb dilimə, düşmür, yağış, əlbəttə, yağış, yağışmı, yaxşımı???

Elə bil, yağış başlayır. Bütün işıqlar sönür. Bütün səslər də kəsilincə

SON

Gülçöhrə və Əsgər

(telefilm)

1-ci şəkil

Musiqi. Telefilmin titrləri:

1-ci şəklə aid titr: Miladi tarixlə 1919-cu il. Nəhayət, iki sevgili xeyli macəradan sonra bir-birinə qovuşdu. Böyük düyün oldu, şadyanalıq hər tərəfi bürüdü. Əsgər ağanın əvvəlcə görüb sonra özünə yar tapmaq və evlənmək üsulu bütün Bakıda dillərə düşdü. Toydan altı il keçdi...

Əsgər ağanın mülkünə kənardan baxış. Kamera mülkün güllü-çiçəkli, hovuzlu həyətinə, oradan da açıq qapıdan keçərək mülkün içinə daxil olur. Mərmər pillələrlə yuxarı mərtəbəyə qalxmamışdan əvvəl birinci mərtəbədəki qonaq evinə "baş çəkir", orada yerdən bardaş qurub oturmuş Məşədi Cabbar hövlnak başını qaldırıb kameraya baxır və sonra kamera qayıdıb yenidən pilləkənlərlə yuxarı mərtəbəyə tələsən Vəlinin arxasınca düşür, gəlib onun dalınca Əsgər ağanın kitabxana otağına girir. Titirlər bitir. Musiqi kəsir. Musiqi kəsiləndən və titirlər bitəndən sonra.

Kitabxanada Əsgər ağa sübh yeməyini elə indicə bitirib çay içməkdədir. O, fikirli halda pəncərədən çölə baxır. Dodaqaltı özü-özü ilə sanki danşır, barmaqları ilə nəsə sayır. Pəncərənin altında küçədə balaca uşaqlar qışqırışa-qışqırışa "dava-dava" oynayırlar. Vəli tələsik daxil olur.

Əsgər ağa. *(sanki yuxudan ayılır, fikirli halda)* Nə var, nə oldu, Vəli, nə belə qaçaraq gəlmisən?

Vəli *(müti bir duruşla qapı ağzındadır. O, tələsik danışır).* Ağa, iranlı Məşədi Cabbar gəlibdi. Aşağıda qonaq otağında oturub səni gözləyir. Deyir, Əsgər ağa ilə vacib söhbətim var.

Əsgər ağa. A kişi, bir aydın şəkildə başa sal, görüm, nə deyirsən?! Kim gəlib?

Vəli *(ucadan və aydın şəkildə).* Ağa! Məşədi Cabbar vardı ha, rəhmətlik atanın dostu, o gəlib. Məşədi Cabbar. İranlı!

Əsgər ağa bu sözləri eşitcək çayını yarımçıq qoydu, oturduğu yerdən dik qalxıb gəlib otaqdan çıxan yerdə qapı ağzında duran Vəlinin boynunun ardından zarafatla bir "şapalaq" vurur.

Əsgər ağa. Sən bu uşaqları mənim pəncərəmin altından nə zaman qovacaqsan, Vəli ağa?! Səslərindən qulaq tutulur. Dava-dava oynamaq vaxtıdı?! O boyda cahan davası bitdi, hamı sülh bağladı, bunların savaşı bitmədi.

Vəli. Bəli, ağa, baş üstə, ağa...

Kamera Məşədi Cabbarın üstündə. O, həsrətlə divardan asılmış şəklə – Əsgər ağanın atasının rəsminə baxır, əlinin dalı ilə göz yaşını silir. Əsgər ağa qonaq otağına daxil olur. Məşədi Cabbar onu görcək ayağa qalxmaq istəyir. Əsgər ağa buna imkan verməyib tez ona yaxınlaşır, həm qucaqlayır, həm də çiynindən basıb yerinə otuzdurur.

Əsgər ağa. Xoş gəldin, Məşədi, səfalar gətirdin. Otur, otur, sən Allah, heç rahatsız olma. Mən sənin üzbəüz elə yerdən oturacağam.

Məşədi Cabbar. Salam, əzizi – mən. Xoş gördük, xoş gördük, ağa Əsgər. Sən keç sandalyada rahat əyləş. Sən ona alışmısan.

Əsgər ağa *(yerdən oturaraq bardaş qura-qura).* Elə şey olarmı, Məşədi? Olmaz! Sən qətiyyən rahatsız olma (qapı ağzındakı Vəli tərəfə çönmədən). Ay uşaq! Çay, meyvə, yemək hazırlayın! Məşədi, könlün nə istir?

Məşədi Cabbar. Yox, yox, nuri-didəm. Çay içməyinə içərəm. Amma yeməyə qala bilməyəcəyəm. Hacı Nurinin dükanına gedəcəyəm. Ona Peterburqdan xeyli vacib bir xəbər gətirmişəm. Gecikdirə bilmənəm. Amma nə deyim?! Bəlkə də gecikdirmişəm. Yeməyə məni məzur tut. Qalammanam.

Əsgər ağa. Vəli, çay olsun. Nə təhər istərsən, Məşədi. Öz evindi. İstərsən qalarsan, istərsən gedərsən.

Vəli otaqdan çıxır. Qapının arxasında əlində məcməyi Vəlinin arvadı qulluqçu Telli durub. Vəli Tellinin əlindən çay məcməisini alıb içəri qayıdır. Çayı, mürəbbələri, qəndi Əskər ağanın və Məşədi Cabbarın önünə düzür. Sonra Məşədi Cabbara məhəbbət dolu bir nəzər salıb sanki deyir: "məni unutma, ağa" və otaqdan çıxır. Əsgər ağa Məşədinin nəlbəkisinə mürəbbə qoya-qoya.

Əsgər ağa. Yaxşı, Məşədi, sən hələ bir söylə görüm, özün necəsən, nə təhərsən? Nə zaman qayıtdın? Biz sənin barəndə elə dünən idi, Süleymanla danışdıq. O da niyaran qalmışdı.

Kadr dəyişir. Süleyman və Əsgər ağa oturublar Süleymanın kontorunda üzbəüz.

Süleyman. *Əsgər, bəradər, bilmirsən, bizim bu Məşədi Rusetdən qayıtdı, qayıtmadı? Oralarda da vəziyyətin,"v"-sı düşüb, qalıb - əziyyəti, biləsən.*

Əsgər ağa. *Vallah, bilmirəm. Bəlkə Hacı Nuri bilə. Onların oralarda şərikli işləri vardı. Qayıtmadı həlbət, qayıtsaydı, biz də bilərdik.*

Süleyman. *Bir ay əvvəl gəlib keçməliydi İrana... Nooldu bu kişiyə?Mən çox narahatam.*

Görüntülər əriyir. Yenə Əsgər ağa və Məşədi Cabbar – qonaq otağında.

Əsgər ağa. Hə, sən axı bir ay əvvəl geri dönməli idin... Nə baş verdi, Məşədi?!

Məşədi Cabbar. Ağa Əsgər. İki gün olar ki, qatardan düşmüşəm. Bu iki günü də ancaq evdə yorğan-döşəkdə oldum. Yorğunluğum, qurban olum, canımdan hələ də çıxmır *(çaydan içir).* Bir zülm çəkdim mən, bir zülm çəkdim mən ki, gəlib bura yetişənəcən, Allah Təala bu zülmü heç bir bəndəsinə bir daha göstərməz, inşəallah...

Əsgər ağa. Sən Allah? Niyə bəs belə oldu?

Məşədi Cabbar. Ağa Əsgər. Onu heç sorma. Mən hələ sən demişkən bir ay əvvəl gəlib bura yetişəsiydim. Mən çoooxdan məmləkətdə olmalı idim *(çaydan içir).* İndi orada da bütün işlərim tökülüb qalıbdır. Allaha həmd olsun. Artıq buralardayam. Üç-dörd günə də ki, Arazı keçərəm, inşəallah. *(Çay içir).*

Əsgər ağa. Yəni, Rüsetdə vəziyyət belə qəliz hala düşübdür?

Məşədi Cabbar. Çox qəliz bir hala düşübdür. Çox qəliz bir hala düşübdür. Qayda yox, qanun yox. Yollar pozulub, dağılıb, parovozlar işləmir... Allah, Allah...

Əsgər ağa. Burada "Azərbaycan" qəzetində bəzi şeylər yazırdılar. Biz də elə bilirdik ki, padşahdan sonra orda işlər düzəlməyə doğru gedir?!

Məşədi Cabbar. Haşa, nuri-didəm, haşa. Əksinə! Əksinə!

Əskər ağa. Mən vəziyyəti bu qədərinə pis bilmirdim. İşə bax bir...

Məşədi Cabbar. Ağa Əsgər, hökümət – iflic, ətraf tamamən hərcmərclik... Adamlar bir-birinə – düşmən. Hər birində – silah. Qardaş gedir qardaşın üstünə. Bölünüblər qırmzılara, bir də ağlara.

Xala daxil olur. Məşədi və Əsgər ayağa qalxırlar.

Xala. Heç rahatsız olmayın. Siz Allahınız, əyləşin. Məşədi, eşitdim burdasan, xoş gəlmisən, səfa gətirmisən. Bə niyə bu qədər gec gəldin? Bizi niyaran qoydun...

Əsgər ağa. Çox əziyyət çəkib Məşədi. Ruset çox qarışıbmış, xala.

Xala. Eləmi?

Məşədi Cabbar. Elə, elə. Sanki Rusetdən buraya qədər pay-piyada gəldim. Məndə, vallah, taqət qalmadı. İşlər də ki, heç biri tutmadı. Sizlər yaxşısız, inşallah?

Xala. Gördüyün kimiyik. Canın təki sağ olsun, fikir eləmə. İş düzələr, Məşədi.

Məşədi. *(üzünü Əsgərə tutur).* Əsgər, axşama bir sözün varmı?

Əsgər. Yoxdu, xala. Məşədi yeməyə qalmayacaq. İşləri varmış.

Xala. Eləmi? O zaman mən çıxım, sizə mane olmayım. *(Süfrəyə baxır).* Çay, meyvə qaydasındadı? Bəli. Di siz söhbətinizi edin.

Məşədi. Allah sizdən razı olsun.

Xala çıxır. Məşədi fikirli halda sözünə davam edir.

Hə, harda qaldım mən?

Əsgər. Qırmızılar deyirdin, ağlar deyirdin...

Məşədi. Qırmızılar, ağlar... Kim kimi vurdu, kim kimi kəsdi, bir kəsi rahatsız etmir. Fəhlə işləmir, bazar çalışmır, dükanlar qapalı... Ölkə dağılıb durub. Bu yandan da şaxta, qış... Hamı ancaq səhər-axşam dəstə-dəstə toplaşıb ağızlarından bolluca buğ çıxa-çıxa nitq irad eləyir, nitq eşidir. Şaxtanın, deyəsən, bunlara heç bir karı, heç bir əsəri yoxdur. Yollarda talançılıq və qarışıqlıq... Əlqərəz, oteldə danışılanlardan belə anladım ki, rusların başbilənləri deyirlər ki, almanlar bizi aldadıb sərfəsiz sülh bağlayıblar, biz öz torpaqlarımızı hökmən geri qaytarmalıyıq. Padşah zamanındakı torpaqlarımızı da, o cümlədən, Qafqazları, yəni ... buraları!

Əsgər ağa. Eləmi? Bəs bizimkilər buna nə deyər? Bu barədə bir məsələ, zənnimcə, qalxmayıb hökümətdə. Parlaman da təzədi, hələ ki, susur...

Məşədi Cabbar. Biləsən, Ağa Əsgər. Bunu sənə mən deyirəm. Bu bolşeviklər ki, var, əvvəl-axır buraları geri alacaqlar, onlar heç nəyə baxan deyillər. Onlar o zaman ki, ağların işini bitirdilər, buralar batdı. Rusetdə bunu hamı danışır. Əvvəlcə, deyirlər, içimizdəki satqınları qovaq, ağları məhv eləyək, sonra da padşahın torpaqlarını geri alaq. Vallah, mən ki, bunları belə gördüm, gələcəklər buralara qədər. Hələ Allah eləməsin, xudanəkərdə,

İrana da keçməsinlər, inşəallah. Amma nə bilmək olar?! Bir də gördün ora da keçdilər... Ah, oh... Sən bilən keçərlər İrana, ağa Əsgər?

Əsgər ağa. Keçməzlər. İran nə zamandan onlarınkı oldu? Buralara da... nə deyim, vallah, yəni, ağlım heç kəsmir ki, bunlar buraları təzədən gəlib tutmaq istərlər. Bizim hökümət gün-gündən güclənir. Süleyman deyir ki, Avrona ilə yeni-yeni daşdan keçən müqavilələr hazırlayırlar...

Məşədi Cabbar. Nə deyim? Təki sən deyən olsun. Mən, ağa Əsgər, eşitdiyimi söylədim. Odu, bəs buna nə deyirsən, ağların qoşunu gəlib Qafqazın göbəyinə çıxıb – Vladiqafqaza. Ordan da hamını təhdid edirlər. Deyəssən etmirlər? Sən, oğlum, işini ağıllı tut. Ağa Əsgər, sənə bir tövsiyyəm var.

Əsgər ağa gülümsünür. Çünki o, Məşədinin nə tövsiyə edəcəyini bilir.

Bilirəm, bilirəm, deyəcəksən ki, bu qoca Məşədi elə hey eyni şeyi deyib durur.

Əsgər ağa. *(gülümsünə-gülümsünə)* Əstəğfurulla, Məşədi, sən – hara, qocalıq – hara? Mən heç elə deyərəmmi?

Məşədi Cabbar. O zaman sözümə qulaq ver. Ağa Əsgər, sən mənim, bax bu rəsmə *(əli ilə dostu Səcdəlinin divardakı şəklinə işarət edir),* sən mənim bu aslan qardaşımın oğlusan. Onun ruhuna and olsun, mən bu işlərin axırını yaxşı görmürəm. Görmürəm, dadaş, görmürəm. Gəl daşı ətəyindən tök, geci-tezi var. Gələcəklər, oğul, bunlar, gəlməyə bilməzlər. Bu torpaqlar onların yaddaşında qalıbdır. Nöyütün iyinə gələcəklər. İranda... İranda isə əmin – amanlıq... *(çaydan içir).*

Əsgər ağa Məşədi Cabbara çaydandan çay süzür.

Sağ ol, əzizi – mən *(stəkanı qaldırıb işığa tutur).* Çay – budur, yoxsa orda? Nə deyirdim mən?

Əsgər ağa. İranda əmin-amanlıqdır...

Məşədi Cabbar. Bəli, belədi ki, var. İranda hökümət var, şah var. Qanun var, qayda var. Malın-mülkün toxunulmazdı. Hara ilə istərsən,

alver et. Düzdü, sizinkilər başlayıblar şuluğa, biz iranlı tacirlərə əngəl törədirlər, burdan Rusetə yol alan alverimizə yeni-yeni töycülər qoyurlar. Heç yeridi? Amma... olsun. Bu da keçər...

Əsgər ağa. Əlbəttə, keçər. Sən darıxdırma özünü.

Məşədi Cabbar. Görək. Təki sən deyən olsun. *(çaydan bir qurtum alır).* Bax, nə vaxtdı sənə deyirəm. Daşı tök ətəyindən. Böyük sözünə qulaq as. Gəl köç elə gedək İsfəhana. Mülklərimin birində ürəyin istəyən qədər yaşa. Hansını bəyəndin – sənə peşkəşdi. Ticarətini qur. İstərsən, mənimlə qur, istərsən özün təkcənə qur. Fransa ilə bütün əlaqələrin mənim bax bu boynuma. Amerikaya qədər sözüm yetişir, biləsən. Əsgər ağa, mənim bir övladım yoxdur *(ah çəkir, gözləri dolur).* Allah, sənə də, nəhayət, bir övlad versin.

Əsgər. İnşallah, Məşədi, inşallah.

Məşədi Cabbar. Sən mənim övladım ol, oğul. Mən ölüb getdikdən sonra malım da, mülklərim də sənin olsun. Bax, rəhmətlik Səcdəlinin özü burda deyil, ruhu ki, burdadı *(divardakı şəklə əli ilə işarə edir, "bu azdır" düşünüb ayağa qalxır, şəklə tərəf baş əyir).* And olsun bizi yaradan Allaha...

Əsgər ağa. Məşədi, Məşədi... bilirəm, bilirəm ki, sən bütün bunları sidq-ürəklə deyirsən, bilməz olurmuyam?! Sən mənə rəhmətlik atamın yadigarısan. Əmisən sən mənə. Allah... Allah... Sənə inamım sonsuzdur. Amma... düşünməm lazım. Həm də ki, belə bir qərarı mən təkbaşına verə bilmənəm. Evdəki ilə də məsləhətə ehtiyac var.

Məşədi Cabbar. Olsun. Elə məsləhətini. Mən hələ 4-5 gün burdayam. Gözlərəm. Mənə qərarını söylə ki, mən də gedim oralarda sənin gəlişinə əvvəlcədən tədarükümü görüm. Köç eləmək – asan iş deyil. Nolar, düşün. Mən gözlərəm.

Əsgər ağa. Elədi, köçüb birdəfəlik getmək asan iş deyil.

Məşədi Cabbar *(ilhamla).* Vallah gəl, billah gəl. Buraların axırı yoxdu. Hər nəyin var, alarlar əlindən, qalarsan heç nəsiz, bala, bir yerə də getməyə qoymazlar. Allahları – yox, imanları – yox. Adamın bunlar, xudanəkərdə, canını da heç nədən alarlar əlindən, heç nədən. Allahsızlar bunlar, allahsız... Ah, oh...

Kobud musiqi səsləri. Kadrda Rusiyada tətiledənlər, proletarlar, nümayişçilər... Aləm qarışıb bir-birinə, "internasional" marşı musiqiyə qarışır. Əsgər ağa fikrə qərq olub. Nəhayət, musiqi kakafoniyası susur.

Əsgər ağa *(fikirli halda).* Məşədi, səndən təvəqqem budur. Mənə – üç gün möhlət. Ən geci üç gündən sonra mən sənin yanına gəlib fikrimi bildirərəm. Elə bilirəm, gec olmaz. Üçcə gün! Nə deyirsən?

Məşədi Cabbar. Nə deyəcəm, nuri-didəm?! Əlbəttə, gec olmaz, deyəcəm. Gözləyəcəyəm. Təki sən gəl. Di, mənə icazə. Mən daha mürəxxəs olum. Gec oldu. Hacı Nuri məni gözləyir, yaxşı çıxmaz. Salamat qal, ağa Əsgər, Allaha əmanət ol *(əlindəki çayı içib qurtarır, stəkanı qaytarıb ədəblə yerinə qoyur).*

Məşədi Cabbar əlini yerə dayaq edib oturduğu yerdən quş kimi ayağa qalxır, qapı tərəfə getmədən əvvəl dostu Səcdəlinin şəkli qarşısına keçib yenə də baş əyir. Sonra Əsgər ağa ilə qucaqlaşır və onlar qonaq otağından qol-boyun olub birgə çıxırlar. Vəli və Telli içəri girib qab-qaşığı yığışdırmağa başlayır.

***

2-ci şəkil

Titr: ***"Bir saat sonra..."***

Xalanın otağı. Yerdə və divarlarda xalçalar. Xala mütəkkələrə söykənib yerdən oturub. Vəli gətirir xalanın qabağına çay qoyur. Özü də onunla üzbəüz oturur.

Xala *(fikirli).* Qonaq getdi?

Vəli. Getdi, xala. Söhbətləri nəsə uzun çəkdi.

Xala. Yenə bizi İrana çağırırdı?

Vəli. Hə... Sən nə deyirsən bu işə?

Xala *(susur).*

Vəli. Axşama nə hazırlayaq, xala? Nə deyirsən?

Xala. Axşama qonaq – filan yoxdu! Məşədi yeməyə qalmadı.

Vəli. Hələ ki, bir söz deməyiblər. Başqa qonaq da olmaz, inşallah.

Xala *(yalançı qəzəblə).* Sən bunun inşəallahına bax. Mən sənə indiyənədək öyrədə bilmədim ki, qonaq-qarası olmayan ev – ev deyil?! Elə bir ev durunca, yıxılsa yaxşıdır?!

Vəli *(başını dikir aşağı).* Xala, öyrətmisən. Mən binəva nə dedim ki?! Deyirəm, ağam bir az da istirahət eləsin. Qonaqla olmaq axı özü də bir başqa cür zəhmət çəkməkdir.

Xala. Sən bir bunun üzrünə bax... Get, xanımdan soruş, axşama yeməklə bağlı bir istəyi var, ya ki, yoxdur?! Nə deyərsə, onu hazırlayın, başlarkən mənə deyin. Mən özüm gəlib baxacam. Yox, əgər bir söz deməsə, özümüz fikirləşərik.

Vəli. Ağamdan bəs soruşmayım?!

Xala. A gədə, sənə axı yüz dəfə bu evdə deyilibdir ki, yemək işinə arvad baxar. Ağan sənin üzünə neçə dəfə deyibdir ki, mənlə yemək söhbəti eləməyin?! Deyib, ya deməyib?!

Vəli. Deyib, deyib. O zaman mən gedim xanımdan soruşum. Sən Allah, mənə herslənmə, xala. Qocalıram, deyəsən, huşum qalmayıb. Bilirsən ki, mən səni çox istirəm. İstirsən, sənin üçün oynayım?...

Musiqi. Vəli yerindəcə fırlanıb arxaya doğru mayallaq aşır, sıçrayıb ayağa durur, oynaya-oynaya otaqdan çıxır.

Xala *(başını bulaya-bulaya gülümsünür).* Allah, sən buna ağıl ver. Allahım, sən bizi bədnəzərdən qoru. Sən böyüksən, Allah...

Əllərini qaldırıb dodaqaltı dualar edir.

***

3-cü şəkil

Titr: ***Gülçöhrə xanım və Əsgər ağa İrana köç etməyi müzakirə edərkən...***

Kadrda Əsgər ağa oturubdur kitabxanada. Qabağında içilməmiş bir stəkan çay. Fikirli-fikirli çölə baxır. Gülçöhrə xanım gəlir.

Gülçöhrə xanım. Məni çağırmısan, mən gəldim *(keçib oturur Əsgər ağa ilə üzbəüz, pəncərədən gələn işığın qabağında).* Əsgər ağa, sənə nolub *(əlindən tutur)* kefin yoxdur, elə bil?! Nədi, yoxsa... Qafiyə yenə ceyran belinə çıxıb?! Zarafat bir yana. İndicə eşitdim ki, bu gün bütün günü evdə olmusan, çölə çıxmamısan, gözümün işığı, sən Allah, nolub?!

Əsgər ağa *(səsinə gümrah bir ifadə verərək).* Qafiyəlik bir dərdim yoxdu, canım. Narahat olma. Məşədi Cabbar gəlmişdi, rəhmətlik atamın dostu... Onunla söhbət etdik *(üzünü qaçırır).*

Gülçöhrə xanım. Yox, sən məndən nəsə gizlətdiyin var... Məni aldatmağa çalışma. Əgər bir şeyin yoxdusa, o zaman halın niyə pəjmürdədi?! Mən vurmadım, sən yıxılmadın... Nə dedi Məşədi Cabbar sənə? Yenə İran söhbəti?

Əsgər ağa. Hə, o söhbət...

Gülçöhrə xanım. Sən nə dedin?

Əsgər ağa. Mən? Heç nə demədim.

Gülçöhrə xanım Əsgər ağanın üzünə diqqətlə baxmaqdadı. Yəni, "məni aldatmağa çalışma!" demək istəyir.

Əsgər ağa. Yaxşı, yaxşı, sevgili yarım, anlaşıldı, sənin gözündən heç nə qaçan deyil. Məsələnin canını, kökünü öyrənmədən əl çəkən deyilsən. Bax, mənə diqqətlə qulaq ver. Bu çox ciddi məsələdi.

Gülçöhrə xanım *(ciddi).* Buyur, qulağım səndədi. Eşidirəm.

Əsgər ağa. Gülçöhrə, canım mənim, onsuz da axşamı gözləyirdim, tək qalanda bunları sənə onsuz da deyəcəkdim. Bilirsən ki, hansı qəliz,

mürəkkəb iş olursa, sənə danışanda, xeyir tapıram. Sən məni həmişə doğru yola yönəldirsən. Gülçöhrə, əzizim, həyatım, ölkədəki vəziyyət gün-gündən pisləşməkdədir. Yox, yox, narahat olma. Hələ uçurumun içində deyilik. Amma artıq astanasındayıq... *(susur).* Lap doğrusu budur ki, Məşədi Cabbarın bu gün söylədiyi kimi Rusetdə vəziyyət xeyli qarışıbdır. Adamlar bir-birini yeyir. Məşədinin dediyinə görə ruslar qayıdacaq və buraları yenə də işğal edəcəklər. Biz buralarda qalarsaq, gələcək həyatımız sual altına düşər. Bir sözlə, Məşədi bizi sidq-ürəklə İrana çağırır.

Gülçöhrə xanım *(dodaqları qaçır).* Həmişəki kimi...

Əsgər ağa. Bəli, həmişəki kimi. Amma bu dəfə, məncə, onun sözlərinə ciddi qulaq vermək gərəkir. Elə bil, daxilimdə bir səs mənə deyir ki, Məşədiyə qulaq ver.

Gülçöhrə xanım. Əsgər ağa, mən sənə bir söz deyimmi?

Əsgər ağa. De, canım-gözüm. Dinləyirəm.

Kadr dəyişir. Vəli ilə Telli həyətdə ağac əkirlər. Biri tingi tutub torpağın içində, o biri su tökür.Əsgər ağa və Gülçöhrə pəncərəyə gəlib onları seyr edirlər.

Gülçöhrə xanım. Əsgər ağa, mən sənə bir söz deyimmi?

Əsgər ağa. De, canım-gözüm. Dinləyirəm. *(Əsgər ağa və Gülçöhrə xanım keçib öz yerlərində əyləşirlər).*

Gülçöhrə xanım. Gözümün işığı, mənim də daxilimdə bir səs mənə deyir ki, gediriksə də... İrana deyil, birbaşa Fransaya gedək. Oralar indi sakitlikdi. Müharibə qurtarıb...

Əsgər ağa. Bilirəm, Fransa sənin üçün ikinci vətən kimidir...

Gülçöhrə xanım. Bəli, canım-gözüm, elədi. Dillərini bilirik...

Əsgər ağa *(fransızca).* Je teme.

Gülçöhrə xanım *(onun fransızca xırda səhvini düzəldir).* Je t'em! Əsgər ağa, je t'em... Mən də səni sevirəm. Fransa gözəldi. Fransızlar dünyanın ən mədəni xalqıdır. Həkimi-həkim, müəllimi-müəllim. Başa düşdün də məni. 7 il nahaqdan səbrlə gözləmədik.

Əsgər ağa. Əlbəttə, əlbəttə, başa düşdüm *(əlini onun qarnına çəkir),* bu işdə dərindən düşünməmiz çox vacibdi.

Gülçöhrə xanım. Əsgər, canım mənim. Biz ətrafımızda gəzən qorxulu söhbətləri çox eşitdik. Onları gördük, onları yaşadıq... Adamlar əlinə silah alıb mübarizəyə qalxdılar. Difai dəstələri şir kimi çarpışdı. Sən özün nə qədər yardım etdin bu milli dəstələrə, bunu heç kəs unuda bilməz.

Əsgər ağa. Tək mən yardım etmədim ki, bütün tüccarlarımız, bütün bazar əhli... hər kəs əlindən gələn yardımını etdi.

Gülçöhrə xanım. O qorxulu günlər, inanmıram ki, bir də təkrar geri qayıdalar. Amma yola çıxmağın özü bir zülümdü. Bəlkə məsləhətindisə, hələlik heç hara getməyək. Bu cür rahatlığımızı niyə verək yellərə? Hər şeyimiz var – evimiz, eşiyimiz... Mə özümə iş də tapmışam, bilirsən?!

Əsgər ağa. Ay səni, maşallah, o nə işdi elə?

Gülçöhrə xanım. Asya ilə çoxdankı arzumuzdu. Yetim uşaqlar üçün kiçik bir məktəb açıb onlara dərs vermək. Hacı Nurinin xanımı da bizə qoşulacaq.

Əsgər ağa *(qəhərli).* Nə gözəl, nə qəşəng! Allah sizdın razı olsun. Uşaqların təqaüdü məndən. Bəs bunu niyə gizlədirdiz?

Gülçöhrə xanım. Düzüb-qoşandan sonra deyəcəkdik. Bir növ məsələni hazırlayırdıq.

Əsgər ağa. Vallah, sevindirdin sən məni. Sizin kimi mərd qızları olan vətənin heç vədə dizi yerə gəlməz.

Gülçöhrə xanım. Canım-gözüm, biz fədakarlığı sizdən öyrəndik, atamızdan, səndən, Süleymandan...

Əsgər ağa. Sağ ol, mənim əzizim, mənim canım-gözüm, Ancaq indiki vaxt bir başqa vaxtdı, biləsən. Amansız dalğalar gəlir üstümüzə. Şər deməsən, xeyir gəlməz. İşimizi ehtiyatlı tutmalıyıq.

Gülçöhrə xanım. Doğrudur, "Şər deməsən xeyir gəlməz" deyərlər. Biz isə gəl nə şər deyək, nə xeyir. Allah nə deyir, onu deyək. Bəlkə sən Süleymanla bir məsləhət edəsən? O, xariciyyə işlərini yaxşı bilir – sən deyirdin.

Əsgər ağa. Edəcəyəm. Hökmən edəcəyəm. Düşündüm, biriminci sənin fikrini alım. Səndən sonra onunla da görüşüb danışacam. Hökmən.

Süleymansız olarmı?! Bir bilsən sən ki, Rusetdə nələr baş verir?! Məşədi Cabbar nələr danışdı...

Gülçöhrə xanım. Uşaqlıqda nənəm mənə bir qorxulu nağıl danışardı. O nağılı indi də xatırlayanda qorxudan əsim-əsim əsirəm, qanım damarda donur. Nağılın adı bilirsən nə idi?

Əsgər ağa. Yox, gözümün işığı, bilmirəm.

Gülçöhrə xanım. Amma bax, gülmə. Nağılın adı belə idi: "Adı özündən uzun Gülü qah-qah xanımın nağılı"

Əsgər ağa *(gülümsəyərk).* Necə, necə? Adı özündən uzun imiş xanımın? Özü bəs nə boyda idi?

Gülçöhrə xanım. Bəli, əsl məsələ də bundadı. Bu ad indi sənə belə, öz təbii ölçüsündə görünə bilər. Xanımın özü adından kiçik imiş. Amma bax, nağılın adı "Adından kiçik Gülü qah-qah xanım" deyildi. "Adı özündən uzun Gülü qah-qah xanım" idi. Elə qorxardım, elə qorxardım... Amma yenə nənəmə qısılıb yalvarardım: nənə, ay nənə, mənim nağılımı danışarmısan, deyərdim. Divlər, pəhləvanlar, cadügünlər... İndi mən o uzaq illərin qorxusunu daha yaşamıram. Adı özündən uzun Gülü qah-qah xanım indi mən bilirəm ki... bir taxtabiti imiş...

Əsgər ağa *(gülür).* Sən Allah, Taxtabiti ha? Ay səni... Taxtabiti... Mən isə bilirsənmi, nədən qorxardım?

Gülçöhrə xanım. Nədən?

Əsgər ağa. Keçib, deyəcəyəm. Bunu sənə, bax, ilk dəfədi deyirəm. Damdabacadan qorxardım. Mənim də nənəm məni damdabacalarla qorxudardı. İndi baxıram damlara, hərəsində bir, iki baca var. Tüstü buraxırlar. Damda baca olar da... başqa nə olar ki?.. Dam üstündə bu bacalar bir-birilə ... elə bil, qafiyə kimidilər.

Gülçöhrə xanım. Bax, görürsən, gözümün işığı, bunlar uzaqdan belə qorxuludurlar. Yaxından baxanda taxtabitidilər, damda bacadırlar. Damdabaca deyillər, sən bu sözləri ayrı-ayrı tələffüz elə: damda ... baca ... Bir-birindən ayrı. Damdabaca yox, damda baca... Həqiqətən, qafiyə kimidilər.

Musiqi. Bakı damları. Damda bacalar. Biri adi, o biri qorxulu. Elə bil, bu saat adamın üstünə gələcəklər. Hər biri də o birinə oxşayır. Hər birinin başından ağ, qara tüstü çıxır. Tüstülər əyilib – düzəlib göyə doğru yol alırlar. Kadrarxasında səslər.

Əsgər ağanın səsi. Nə edək, nə etməyək? Fikrim lap qarışdı.

Gülçöhrə xanımın səsi. Bəlkə sən belə edəsən, əzizim?! Mən öz təklifimi geri çəkirəm. Qoy ürəyin lap rahat olsun. Məşədinin ardınca, özü ilə yox, ardınca... gedəsən İrana və əgər sabah bizim də buradan köçmək ehtiyacımız olarsa, yerləşəcəyimiz yeri-yurdu əvvəlcədən görüb danışasan. Lap elə bir mülk də istərsən indidən orada gözaltı elə, ya elə satın al...

Əsgər ağanın səsi. Ağıllı fikirdi, elə də edərəm.

Kadrda damlar və cürbəcür bacalar. Həzin, ürəktitrədən müsiqi. Əsgər ağanın səsi ilə şeir eşidilir:

Mənə deyən gərək nə olub axı,
Nə çabalıyırsan, söylə, nə xəbər.
Sən çətin tapasan axtardığını,
Sən axtardığını itirmiyiblər.

Nələr arzuladıq, nələr qazandıq,
Hələ nələri də itirəcəyik.
Yollara sarılıb biz də uzandıq,
Hara gəlib çatdıq belə tələsik?

De mənə, varmıydın, ya bəlkə yoxdun?
De mənə, yuxudu bəlkə bu dünya?
Bu bulaq suyunda sənmiydin axdın?
O bulud apardı səni haraya?

Vaxt gəlir, hər şeyin yetişir sonu,
Bu nəydi qurtardı, yox oldu, getdi?
Bu da bir həyatdı, oynadıq onu,
Bu da bir oyundu, yaşadıq, bitdi.

Yollar getdi üzü dağa,
Yoxuşlar enişlərdən çox.
Kimsə yox xatırlamağa,
Unutmağa da kimsə yox.

***

4-cü şəkil

Titr: ***"Sənin kölgən hara düşsə, o yer mənim üçün cənnət olar".***

Səhər tezdən. Əsgər ağa evdən çıxarkən, Gülçöhrə xanım qapı ağzında onun papağını, kürkünü, çətirini əlində tutub.

Gülçöhrə xanım. Yağış yağacaq. Bunu da götür *(çətiri uzadır).*

Əsgər ağa. Ver, onu da ver *(çətiri alır).* Canım-gözüm, mən bu gün axşam Süleymanın yanına gedəcəyəm. Məsləhətə. Ləngiyəcəm. Bax, bir daha soruşuram. Sənə, əgərki iş başqa cür gətirsə, buralardan köçüb getməyin bir zorluğu yoxdu ki?

Gülçöhrə xanım. Yoxdur, gözümün işığı. Sən harda isən, mən orda sənin ayaqlarının altında ölmək istərəm. Sənin kölgən hara düşsə, o yer mənim üçün cənnət olar.

Əsgər ağa *(qürrələnir).* Sağ ol, sağ ol, əzizim. Sağ ol ki, varsan, sağ ol ki, yanımdasan. Hə... yaxşı yadıma düşdü, heç bilirsən, o gün Vəli mənə nə deyirdi?

Gülçöhrə xanım. Yox, bilmirəm. Nə deyirdi?

Musiqi. Qapı ağzında Əsgər ağa danışır, Gülçöhrə xanım dinləyir və əksinə. Bunlar bir-birinin, sözünü kəsə-kəsə, sevə-sevə söhbət edirlər, gülüşürlər. Xala da gəlir və onlara qoşulur. Deyirlər, gülüşürlər. Bu adamlar bir-birindən heç cür ayrıla bilmirlər.

***

5-ci şəkil

Titr: ***Haman günün axşamı Əsgər ağa dostu Süleymanın iş yerinə onunla məsləhət etməyə gedir...***

Əsgər ağa çisəyən yağış altında bazardan çıxıb faytona minir. Fayton şəhər bələdiyyəsinin qabağından sola dönür. Bir az gedib dayanır. Əsgər ağa faytondan enən yerdə əlində açıq çətir Süleyman onu qarşılayır.

Süleyman bəy. Gəl, gəl bunun altına, yağır. Nə vaxtdı yuxarıdan baxıb səni gözləyirəm. Keç, keç...

Onlar küçə qapısından içəri – Süleymanın kontoruna keçirlər. Bura qapı önündəki lövhədən də göründüyü kimi Süleymanın hüquq kontorudur.

Kadr dəyişir. Süleyman və Əsgər ağa otaqda üzbəüz oturub çay içirlər. Çayı elə indicə Asya gətirib. Özü də otaqdan çıxarkən bir-iki kəlmə deyir.

Asya. Bir daha xoş gəldin, qardaş. Süleyman bəy deyəndə ki, sən gəlirsən, elə bildim, ikiniz gəlirsiz, mən də tələsik qaçıb gəldim bura. Təkmişsən. Hayıf.

Əsgər ağa. Asya, bax, mən sənə borclu, Gülçöhrəni nə zaman desən gətirəcəm. Bu dəfə məni məzur tut. Gələn səfər – hökmən. Hə, xanım özü də sənə çoxlu-çoxlu salam göndərdi. Sirrinizi də *(Süleymana göz vurur)* açdı, biləsən...

Asya. Ay onun sirrinə qurban olaram.

Süleyman bəy. O nə sirmiş elə?

Əsgər ağa. Heç... Ay Süleyman, mən heç sirr açana oxşayıram? Qoy Asya özü sənə danışsın. Amma nə sirdi, nə sirdi, bəradər...

Süleyman bəy. Hə, o məktəb məsələsini deyirsən?

Əsgər ağa *(matı quruyur, əli ağzında).* Mən daha nə deyim?! Mən daha heç nə demirəm. Məndən başqa hamı bilirmiş ki bunu?! Allah-Allah...

Asya *(gülür).* Sənə deməyin vaxtını xüsusi bir halda hazırlayırdıq. Əsas maliyyəmiz sən olacaqsan deyin, çox əvvəldən səni üzmək istəmədik.

Əsgər ağa. Allah-Allah... Heç üzülərəmmi?!

Asya. Yaxşı. Siz söhbətinizi edin. Mənim bacıma çoxlu-çoxlu salam söylərsən. Bax, unutma, sən mənə borclu qaldın.

Asya otaqdan çıxır. Əsgər ağa, Süleyman bəy bir-birinə altdan-altdan baxa-baxa, elə bil, yarışırlarmış kimi hortuldada-hortuldada sürətlə çay içməyə başlayırlar. Bu, onların çoxdankı oyunudur. İçib qurtarandan sonra.

Əsgər ağa. Ay səni, boğazım yandı. Süleyman, bu yarışı hələ bir saxla, səninlə söhbətim var.

Süleyman bəy. Buyur, bəradər, nə deyirəm ki?!

Əsgər ağa *(ciddi).* Süleyman, qardaşım, sən bilirsən ki, mən səninlə dostluğumuzu necə yüksək qiymətləndirirəm. Biz səninlə uşaqlıqdan bir yerdəyik. Amma...

Süleyman bəy. Amması da var hələ bunun?

Əsgər ağa. Var. Ürəyimə damıb ki, bizim bir-birimizdən ayrılma saatımız yaxınlaşır. Ürəyim bir sıxılır, bir sıxılır...

Süleyman bəy. Heç bir şey anlamıram. Niyə? Nə üçün? Səbəb?

Əsgər ağa. Bizdən asılı olmayan səbəbə görə.

Süleyman bəy. Nooldu, sən Allahın, uzatma görüm *(zənlə Əsgər ağaya baxır).* Dur, hələ bir dur, görüm. Heç nə demə. Mən tapdım, nə olubdu. İstərsən, sənə deyim?! Məşədi Cabbar gəlibdi sənin yanına, eləmi?!

Əsgər ağa *(təəccüblə).* Hardan bildin?

Süleyman bəy *(gülə-gülə).* Dayan hələ. Gəlibdir və yenə səni öz yanına İrana çağırır. Tapdım?

Əsgər ağa. Ta mənim sənə deyəsi sözüm yoxdu. Bu daha lap ağ oldu.

Süleyman bəy. Hə... elədi, bu lap ağ oldu *(gülməyini güclə saxlayır).* Düz tapdım, eləmi, bəradər?

Əsgər ağa. Düz tapdın. Sən, yəni, Məşədini görmüsən?

Süleyman bəy. Yox, vallah. And olsun inandıqlarımıza, yox, görməmişəm.

Əsgər ağa *(sidq-ürəklə təəccüb edir).* Süleyman, əzizi – mən, bə sən bütün bunları hardan bilirsən? Sən məgər cadugünsən?

Süleyman bəy. Ay mənim sadədil qardaşım. Bax, de görüm, sən özün Vəlini dünən bizə göndərmədinmi?

Kadr dəyişir. Əsgər ağanın evi. Əsgər ağa və Vəli.

Əsgər ağa. Vəli, durub gedərsən Süleyman bəyin kontoruna elə indi. Həmişəki tək çaşdırma. Evinə yox, kontoruna.

Vəli. Baş üstə, ağam. Çaşdırmanam. Kontora.

Əsgər ağa. Deyərsən, mən sabah onun yanına – kontora gələcəyəm. Ancaq evə yox, qarışdırma, Süleyman bəyin kontoruna. Yadında qalar? Axşam vaxtı gələcəyəm.

Vəli. Axşam vaxtı. Yadımda qalar, qalar. Niyə qalmasın ki?! Başqa bir söz deməyim ki?

Əsgər ağa. Yox, başqa bir söz demənə lüzum yoxdur. Get!

Kadr dəyişir. Süleyman bəy və Vəli kontorda.

Süleyman bəy. Vəli, xeyirdimi?

Vəli. Xeyirdi, bəy. Ağam sabah bura gələcək. Evə yox, bura. Axşamçağı. Çaşdırmarsan ki?!

Süleyman bəy. Yox, xətircəm ol, çaşdırmaram. Tək gələcək, ya ki...

Vəli. Bax, bunu bilmədim.

Süleyman bəy. Evdə hər şey nizamındadı, Vəli?

Vəli *(düşüncəli halda).* Hə, elədi... *(Qəflətən birnəfəsə)* Bu gün sabah-sabah Məşədi Cabbar iranlı gəlmişdi.

Süleyman bəy. Gəlib yetişdi, nəhayət? Nə deyirdi, ağanı yenə İrana çağırırdı?

Vəli. Allah, Allah, bə sən hardan bunu bildin, Süleyman ağa? Hə... çağırırdı. *(başını yerə dikir)*

Kadrdakılar əriyir. Kadrda yenə Əsgər ağa və Süleyman.

Süleyman bəy *(gülməyini güclə saxlayaraq).* Bax, görürsən! Sən axı özün Vəlini bura göndərmişdin. O da mənə bir saniyənin içində Məşədinin gəlişini xəbər verdi. Məşədinin də əsas dərdi həmişə nədi?

Əsgər ağa. Nədi?

Süleyman bəy. Səni İrana aparmaqdı.

Əsgər ağa. Ay səni, Süleyman. Sən necə od-alov imişsən. Gözündən heç nə qaçmır...

Yenə başları qarışır çay içməyə. Bir-birilə danışırlar, amma səsləri çıxmır. Bir müddət sonra.

Əsgər ağa. Bax, Süleyman, hal – belə, qəziyyə – bu. Qalmışam iki odun arasında. Bilmirəm, nə edim?! Gedim, yoxsa getməyim?!

Süleyman bəy. Bəradər, məsələ, həqiqətən Məşədi izhar edən kimidi. Rusiyada inqilab bitmədi ki. Bu gün də davam edir. Bolşeviklər hər şeyi alıblar əllərinə. Orada bolşeviklərlə yanaşı ağlar da var. Onların arasındakı dava hakimiyyət davasıdır, indiyənə qədər sürüb gedir. Bu tərəfdən Avropa, xüsusilə, almanlar, fransızlar istirlər Rusiya parçalansın. Bu biri tərəfdən də inqilab yavaş-yavaş keçdi vətəndaş müharibəsinə, Ağlarla qırmızılar bir-birini qırdıqca qırır. İndi, budur, ağların generalı Denikin gəlib oturub Vladiqafqazda, ordan bizi təhdid edir. Bolşeviklərin də xariciyyə naziri Çiçerin bu biri tərəfdən bizə nota verir: qoşulun deyir biz qırmızılara və Denikinə qarşı çıxın.

Əsgər ağa. Sən hələ bu işlərə bir bax. Yazıq dövlət! Bədbəxt millət!.. Desənə iki od arasında qalmışıq. Bəs biz nə edəcəyik?

Süleyman bəy. Məsələ də elə orasındadı. Bunların ki, başı qırğına qarışdı, bir-birini qıra-qıra gedəcəklər. Bunlar üçün, bəradər, fərq eləməz ki, qırdığı kimdir – özününküdür, ya ki, bir başqasıdır. Təki qırğın olsun.

Əsgər ağa. Elə odu da pis olan.

Süleyman bəy. Amma onu da bilmək olmaz ki, bu, pis olandı, ya bizim kimi xırda millətlərə yaxşı olandı. Qırmızıların quzğun kimi baş-bilənləri var. Hər an qırğını biz tərəfə yönəldə bilərlər. Əsas qayələri isə həm ağların, həm qırmızıların birdir – padşahın torpaqlarını qaytarmaq. Budur məsələ!

Əsgər ağa. Məşədi də deyir, bunlar qayıdacaqlar.

Süleyman bəy. Bunu Məşədi doğru deyir. Düşünmək lazımdır, bəradər. Ağılla hərəkət etmək lazımdır. Fikriniz nədir?

***

6-cı şəkil

Titr: ***"Bunlar qayıdacaqlar!"***

Yenə Əsgər ağa və Süleyman bəy üzbəüz. Əvvəlki şəklin sonu təkrar edilir.

Əsgər ağa. Məşədi deyir ki, bunlar qayıdacaqlar. Gülçöhrə deyir, gedək Fransaya. Mən düşünürəm, İran yaxındı. Həm də bəlkə Allah kərimdi, bunlar gəlib eləməzlər...

Süleyman ağa. Məşədi doğru deyir. Düşünmək lazımdır, bəradər. Qəti fikrə gəlmək lazımdı.

Əsgər ağa. Vallah, qəti bir fikrim yoxdu hələ ki. Dedim, əvvəlcə sənlə məsləhət edim. Süleyman, bəlkə mən durum gedim Məşədi ilə İrana, bir növ, kəşfiyyata?! Baxım, görüm oralarda vəziyət necədi, "v"-sı yerindədi vəziyyətin, ya "v"- sı düşüb yerində "əziyyət" qalıb?

Gülüşürlər.

Süleyman ağa. Bax, bu, çox doğru qərardı. Get bir bax, gör, nədi, necədi? Dəyərləndir. Köçmək həmişə var. Yerini, yurdunu düz, qoş. Hələ bolşeviklər bura gəlsələr, nə zaman gələrlər, onu Allah bilir. Hər halda İran qulağımızın dibindədi. Lazım olar ordan keçərsən Fransaya, ya da qayıdıb geri gələrsən.

Əsgər ağa. Eləmi edim?

Süleyman ağa. Bəli, amma səndən bir ricam var. Məşədi ilə bahəm getmə. Ondan sonra get.

Əsgər ağa. Elə Gülçöhrə də elə deyir.

Süleyman ağa. Düz deyir. Yolda o sənin beynini çürüdər. Sən gərək öz qərarını özün, heç kimin təsiri olmadan verəsən. Razısan mənimlə?

Əsgər ağa. Razıyam. Yüz faiz razıyam. Elə də edərəm.

Asya başını qapıdan içəri salır.

Asya. Çay gətirim? Bəlkə bu səfər – qəhvə?

Əsgər ağa. Yox, yox, Asya, qalxıram. Sağ ol.

Asya. Yaxşı. *(Asya yox olur)*

Əsgər ağa. Süleyman, səni də yoruram. Bəs siz Parlaman olaraq nə edəcəksiniz ruslar gəlsə? Sən ki, Parlamanda advokatsan. Bilməmiş deyilsən. Onların qabağına, yəni, çıxa bilməyəcəksiniz?

Süleyman ağa. O gün Üzeyir bəylə də bu barədə danışırdıq. O da mənimlə razılaşdı. Bəradər, coşqun və dəli bir dağ selinin qarşısında çayın ortasında kiçik bir daşın üstündə qalmış bir quzu neyləyə bilər? *(Ciddi və pərişan halda).* Biz də onu edəcəyik.

Əsgər ağa. Anladım. Yəni, Üzeyir bəy də belə deyirsə, deməli, heç ümid yoxdur?

Süleyman ağa *(ciddi).* Bunu sənə deyirəm. Başqa bir adama demənəm. Bəradər, ağlarla qırmızıların arasındayıq. Qayıtsalar, heç ümid yoxdur.

***

7-ci şəkil

Titr: ***"Gün gəldi yetişdi. Əsgər ağa və Gülçöhrə xanım, nəhayət ki, İrana köçməyi qərara aldılar".***

Kadrda

Qapı ağzında yük dolu arabalar və faytonlar. Əsgər ağa ailəlikcə İrana köçür. Faytonların qabağında və arxada iki-iki – çiyni tüfəngli atlılar. Süleyman və Əsgər ağa gəzişə-gəzişə həyətdə söhbət edirlər. Vəli və Telli son yükləri arabalara daşıyır. Xala, Gülçöhrə xanım və Asya hovuz ətrafında bir skamyada əyləşiblər.

Həyətdən kənarda beş-altı qonşu oturub. Nərd oynayırlar.

Süleyman ağa. Belə... Bax, bu mühafizəçiləri yaxşı elədi tutdu. Bərayi-ehtiyat. Etibarlı adamlardı. Özüm bunların pasportlarına bir-bir baxıb seçmişəm. Hacı Nuri bunları göndərdi. Onun adamlarıdı. Qoçaqdılar. Təcrübəlidilər.

Əsgər ağa *(kədərli).* Olsun. Sağ olun. Nə deyirəm ki?! Sən dedin, bitdi.

Süleyman ağa. Noldu sənə? Üzün gülsün, a kişi. Xanımlara nümunə olmalısan. Özünü ələ al *(xanımlara eşitdirə-eşitdirə).* Deyirsən, Əsgər ağa, getdiyin yerlər çox gözəldi?!

Əsgər ağa. Çox gözəldi, Süleyman. İsfəhan, doğrudan da, nəqşi-cahandır, özün gəlib görəcəksən.

Süleyman ağa *(şuxluqla).* İsfəhan nəqşi-cahan ola bilır, gərçi Təbriz olmasa. Bunu unutma.

Əsgər ağa. Sən bircə sözünü tut, gəl, Təbrizə də gedib gəzəcəyik, Ərdəbilə də, hələ Arazın o tayından bu tayına baxanda ürəklərimiz də güp-güp vuracaq. Ah vətən, ah gözəlim vətən... *(kövrəlir).*

Gülçöhrə xanım *(bir gözü Əsgər ağada oturduğu yerdən onların söhbətinə qarışır).* Hökmən gəlin. Hökmən. Hər gün gözləyəcəyik. Asya, bax, eşidirsən?

Asya. Eşidirəm. Əlbəttə, əlbəttə, gələcəyik.

Süleyman ağa. Yaxşı, yaxşı, dünyanın o biri başına getmirsiz. Budu, əl uzatsan çatan yerə gedirsiz, bu nədi, Əsgər?! Qurtar, qurtar görüm. *(Əsgər ağanı qucaqlayır və xanımlara yaxınlaşır)* Xalacan, mən ən çox kimin üçün darıxacağam, sən bunu bilirsən?

Xala *(şuxluqla).* Niyə bilmirəm? Mənim üçün. A bala, barı arvadının yanında belə danışma, utan, özünü də məni də biyabır eləmə.

Süleyman ağa. Mənim Asyadan heç bir sirrim yoxdur.

Asya. Bilirəm, bilirəm, mən onunla sizin sərgüzəşti – eşq macəranızı yaxşı bilirəm. Çox direndi, direndi, axırda boynuna aldı.

Xala. Allah... Allah...

Gülçöhrə xanım *(gülür).* Yaxşı Asya, bəsdi. Qız, ayıbdı. Xala!..

Asya *(zarafatla).* Yaxşı, Süleyman bəy, səninlə evdə danışacağam.

Əsgər ağa. Asya, Süleyman o zaman başlıq məsələsində cığallıq elədi. Xalama layiq başlıq vermək istəmədi.

Xala. Elədi. Xəsislik elədi.

Süleyman ağa. O başlığı versəydim, mən lüm-lüt qalardım.

Xala. Yox bəs, bunun *(Gülçöhrənin çiynindən vurur)* rəhmətlik atası deyən kimi üç manat pul, on kilo kəllə qənd, bir molla ilə yola verəydik bu işi? Olmaz!..

Vəli *(bunlara yaxınlaşır).* Ağa Əsgər, biz işimizi qurtardıq. Otaqların qapılarını bağlaya bilərsən.

Əsgər ağa. Süleyman, bizə icazə. Xanım, vaxtdı. Gedək, otaqların qapılarını bağlayıb gələk.

Əsgər ağa və Gülçöhrə xanım əl-ələ tutub gedib girirlər mülkün içinə. Bir-bir pilləkənləri qalxıb qapıları açarla bağlayırlar. Hər otağın öz xatirəsi var. Qonaq otağına girərkən musiqiçilər çalır, xanəndə oxuyur, qonaqlar əyləşiblər. Qapını bağlarkən bu adamlar əriyib gedir. Kitabxanaya girərkən görürlər ki, Əsgər ağa oturub dəftərə nəsə yazır, arxadan Gülçöhrə yaxınlaşıb yastıqla onu vurur. Gülüşüb əlbəyaxa olurlar. Qapını bağlarkən onlar da əriyirlər. Xalanın otağında Xala oturub qarşısında Vəli və Telli. Xala onları nədəsə tənbeh edir.

Nəhayət, bütün qapıları bağlayıb evdən çıxırlar və əsas qapının da ağzına qıfıl vururlar.

Gülçöhrə xanım. Bir də, Allah bilir, buraları gəlib görəcəyik, ya yox?!

Əsgər ağa. Niyə gəlmirik, gözümün işığı?! Gələcəyik də, görəcəyik də... Sən bircə fikir eləmə. Sən fikir eləsən, bəs mən necə ollam?!

Gülçöhrə xanım. Eləmərəm, gözümün işığı, eləmərəm. Əlbəttə gələcəyik.

Yenə həyət. Yenə haman adamlar. Əsgər ağa və Gülçöhrə xanım gəlirlər.

Əsgər ağa *(Süleymana).* Qardaşım, bu açarların hərəsindən iki nüsxədi. Biri sənə əmanət.

Süleyman ağa *(Açarları alır).* Necə verirsən, elə də təhvil alacaqsan. Arxayın get. Yolun açıq olsun. *(Xalaya)* Xala, vaxt gəldi, gəl səni heç olmasa izn ver indi bircə dəfə üzündən öpüm *(qollarını açır).*

Xala özünü onun qucağına atır, gözü yaşlı qucaqlayıb doyunca öpür. Süleyman qəhərlənir.

Əsgər. Mənə bir dəqiqə müsaidə *(gedir nərd oynayanların yanına).* Ağalar, Allaha əmanət olun. Xudahafiz...

Qonşular. Sağ-salamat, Əsgər ağa, sər-səlamət... Yolun açıq olsun.

Yolçular faytonlara minirlər. Faytonlar, arabalar uzaqlaşarkən kimsə bir xanım kadra girib onların arxasınca bir qab su atır.

***

8-ci şəkil

Titr: ***Aradan bir neçə ay keçir. Bu iki sevgili üçün İran da vətən ola bilmir. Qürbət olub qalır. Bir tərəfdən vətən həsrəti, o biri tərəfdən Azərbaycan Hökümətinin süqutu onları əzdikcə əzir…***

Günlərin bir günü Əsgər ağa Gülçöhrə xanımı və Tellini Fransaya göndərməyi qərara alır.

Kadrda: *Əsgər ağa, xala, Gülçöhrə, Vəli və Telli İrandakı evlərində oturublar stolun ətrafında. Məşədi bir tərəfdə yerdən bardaş qurub.*

Əsgər ağa. Baxın. Narahatlığa heç bir əsas yoxdur. (Gülçöhrə və Telliyə) Siz ikiniz gedirsiz İstambula, ordan da Marselə. Bir ev tutub bir müddət yaşayırsınız. İstambulda Süleyman sizi Marselə yola salacaq. Onun məktubunda yazdığı adam da sizi Marseldə qarşılayacaq. Onlar artıq gözlirlər. Bu qədər sadə.

Məşədi üz-gözünü büzüşdürür.

Gülçöhrə xanım. Mən sənsiz heç hara getmənəm. Getmənəm...

Əsgər ağa. Canım-gözüm. Mənim Bakıya qayıtmağım, evi, dükanları satmağım heç on gün də çəkməz. Özü də alver etməyəcəm. Dəyərdəyməzinə satıb ardınızca gələcəyəm. Sən niyə belə dilfikar olursan?!

Xala. Gülçöhrə düz deyir. Fransaya bir yerdə gedin. Sən mənə vəkalətnamə ver, mən gedim nəyi deyirsən, satım qayıdım (Məşədiyə baxır).

Əsgər ağa. Xala, niyə belə tərslik edirsiz? Burda nə var ki? Qiyafətimi dəyişərəm, saqqal tutaram, bir adam məni tanımaz (acı-acı). Mən deyildim təğyiri-libas olub həyət-həyət gəzərək arşın mal satan? Kim o vaxt məni tanıdı?!

Gülçöhrə xanım. Bax, deyirəm, sənsiz mən heç hara getmirəm. Sənsiz – olmaz. Özü də bu halətdə... Mənimlə olmalısan. Niyə məni başa düşmürsən?

Əsgər ağa. Gülçöhrə, əzizi – mən, xalamı, bu yaşlı arvadı necə göndərim o ağzından qan iyi gələnlərin arasına? İzn ver, özüm gedim. Rahat

gedib rahat da gələcəm. Bax, heç əlvida da demirəm, sağ ol da demirəm. Göz açıb yumunca biz də Vəli ilə bahəm Fransada yanınızdyıq. Gülçöhrə, quzum, gəl bu daşı ətəyindən tök...

Ortalığa sükut çökür. Gülçöhrə birdən ağlayaraq Əsgər ağanın boynuna sarılır. Bu o deməkdir ki, o, Əsgər ağanın təklifini qəbul edir.

Kadr dəyişir. Ev qapısı ağzında Gülçöhrə və Telli üzgözləri örtülü halda faytona minirlər. Əsgər ağa Gülçöhrəni bir kənara çəkir. Bir tərəfdə xala və Məşədi Cabbar.

Əsgər ağa. Bax, canım, gözüm, gəl biz bir-birimizə "əlvida" deməyək. Həmişə beynində, qəlbində mən olacağam. Sən məni oradan həmişə tapa biləcəksən. Bunu bil.

Gülçöhrə xanım *(qəhər onu boğa-boğa)***.** Sən məni atmazsan, Əsgər ağa. Sən məni atma. Heç zaman atma. Bil ki, ölləm, çərrərəm. Tez gəl. Neynirsən elə, tez gəl. Mən sənsiz bil bunu, Əsgər ağa, yaşaya bilmənəm. Sənin məndə əmanətin var. Bunu unutma. Necə istirsən. Mən də sənə əlvida demirəm. Salamat qal.

Gülçöhrə və Telli faytona minirlər. Fayton uzaqlaşır. Əsgər ağa faytonun ardınca baxa-baxa qalır. Onun beynində tanış şeir səslənir:

Qorumadıq özümüzü, sözümüzü,
İnanmıram saxlayacaq izimizi.
Nə biz yolu tanıyırıq, nə yol bizi!
Haralara gətirəcək bizi bu yol?!

Hər tərəfi uçurumdu, sıldırımdı,
Bilmək olmur sonu yoxdu, bir addımdı?!
Elə bil ki, göydən düşdü, ildırımdı,
Haralara gətirəcək bizi bu yol?!

Qan var bunun dönüşündə, gedişində,
İtib-batıb bu dünyanın gərdişində.
Bu yol özü əzab dolu, dərd içində…
Haralara gətirəöcək bizi bu yol?!

İldırım tək o güründü gözümüzə,
Əlvida da deməyəcək bir gün bizə.
Yox olacaq, arxasınca gəzə-gəzə
Haralara gətirəcək bizi bu yol?!

***

9-cu şəkil

Titr: ***Bolşeviklərin Bakını işğal etməsindən iki gün əvvəl şəhərə gəlmiş Əsgər ağa daha şəhərdən çıxa bilmir.***

Köhnə mülkdə kitabxana otağında. Yarıqaranlıq, soyuq. Əsgər ağa və Vəli üzbəüz oturublar kitabxana otağında. Ara-sıra bayırdan tüfəng səsləri gəlir.

Vəli. Ağa, ay ağa, eşidirsən? Yenə başladı.

Əsgər ağa. Vəli, işlər, deyəsən, heç yaxşı deyil. Şəhər əldən getdi. Biz burdan necə çıxıb, necə gedəcəyik?

Vəli. Ağa, bir az burda gözləyək, deyirəm. Ətraf bir sakitləşsin.

Əsgər ağa. Bəs xanım da qalsın orda rahatsız, o vəziyətdə? Qoy aralıq bir balaca sakitləşsin. Bir yol tapılar inşallah...

Vəli. Allah kərimdi. Bir əlac tapılar. Allah böyükdür.

Əsgər ağa. İnşallah. Hələ görəsən bizimkilər çatdılar Marselə?! Gərək artıq orda olaydılar. Bircə Süleymanla əlaqə qura bilsəydim... Hacı Nuri də ki heç harda yoxdu...

Vəli. Çatarlar, çatarlar, onların işi burdakı kimi olmaz.

Əsgər ağa. Neçə gündü xalamdan da bir xəbər yetişmədi. Yəqin ki, onlar da qalıblar bizdən nigaran.

Vəli *(sobaya odun parçası ata-ata).* Hə, orası elədi, ağa, orası elədi. Özümüzkülərlə də heç düz-əməlli görüşüb ayrıla bilmədik. Elə peşimanam...

Əsgər ağa. Onu düz deyirsən. Düz-əməlli ayrılmadıq. Nəsə ürəyimə damıb ki, Vəli, bu ayrılıq bir başqa ayrılıqdır, uzun çəkəcək. *(öz-özünə)* Mən onu necə oldu, o cürənə buraxdım?! Gərək bir-birimizə heç olmasa bir "əlvida" deyəydik. Halallaşaydıq. O zaman bu qədərinə üzüntülü olmazdı... Amma yenə də olsun. Tək qalmayacaq. Əmanətim ona dayaq, o əmanətimə dayaq.

Vəli. Kaş ki... Kaş ki... oh, oh...

Əsgər ağa. Yaxşı Vəli. Bəsdi. Bu bəd fikirləri qovaq uzağa. Çay qalıbsa, mənə süz. Hər şey yaxşı olacaq. Bax, görəcəksən. Ümidimizi üzməyək.

Bayır qapı qəflətən şiddətlə döyülməyə başlayır. Əsgər ağa və arxasınca Vəli düşürlər aşağı qapını açmağa. Qapı ağzında bir bölük əsgər. Qabağda zabit durub.

Əsgər *ağa* *(Qapını açaraq).* Buyurun.

Zabit. Əsgər ağa İsmixanov sizsiniz?

Əsgər ağa. Bəli, mənəm. Xeyirdi?

Zabit *(Əsgər ağanı zənlə süzür, sonra əli ilə kənara itələyib içəri girir).* Xeyirdi, xeyirdi *(ora-bura boylanır).* Xeyir olmamış, nə olacaq ki?! İllərdi yetimin, məzlumun pulunu, varını-yoxunu yeyə-yeyə *(gözü ilə ətrafı seyr edir)* bu cür cah-calal qurmusan. Xeyir olmamış nə olacaqdı ki... Sən bir buna bax. Utanmaz-utanmaz xeyirdi – soruşur... Bizimlə gedəcəksən, ağa Əsgər!

Əsgər ağa. Siz deyən günahların mən axı sahibi deyiləm. Burda bir səhv ola bilər ki, var.

Zabit. Səhv deyirsən... Bəlkə də. Ola bilər. Orada, Fövqəladə İdarədə baxarıq. *(lağla)* Səhv olar, yenə qayıdıb bu cah-calalın içində yaşamağına davam edərsən. Ailən hardadı, arşın malçı? *(gülür, əsgərlərə).* Elə bilir, biz bilmirik bu, vaxtilə nə hoqqalardan çıxıb...

Əsgər ağa. Ailəm yoxdur, təkəm.

Zabit. Təksən? Nolar, hələlik səni aparaq, sonra onlara da növbə çatar.

Əsgər ağa *(dodaqaltı).* Allah, sənə min şükür, Allah, sənə min şükür... Nə yaxşı ki, xanım burda deyil. Xalam burda deyil. Allah, şükür sənə, Xudaya...

Əsgər ağa dodaqaltı danışa-danışa düşür əsgərlərin önünə və onlar gedirlər. Vəli də onların arxasınca gizlənə-gizlənə gedir. Kadr arxasında Əsgər ağanın səsi ilə şeir səslənir:

Yadında qalıbmı harda, nə vaxtdı
Yolun əvvəlinə qoydular səni.
Sən bir hədəf idin, yol ox idi,
Tarıma çəkilmiş ox idi o yol...

Elə bil ki, sənin çəkin yox idi,
Sən çağrılırdın, sən səslənirdin.
O yoldan o yana yollar çox idi,
Sən gör haraya həvəslənirdin.

Dünyanın bu boyda yolları qaldı,
Səs səni apardı iynə ucuna.
Yolların genişi, hamarı qaldı,
İynə ucundan keçmək istədin...

Yollar ilan kimi kəsdilər yolu,
Quş deyildin – uçmaq istədin
Dünyada bəlkə də möcüzə olur,
Bu elə o idi – səni səslədi.

Qatdı qabağına yollar səni,
Yarı ölü kimi, yarı sağ kimi.
Divar önünə qoydular səni,
Sən – hədəf kimi, yollar – ox kimi.

***

10-cu şəkil

Titr: ***Üç ay sonra. Əsgər ağa Bayılda türmədə, Gülçöhrə xanım Marseldə bir-birindən xəbərsiz...***

Əsgər ağa həbsdə. Ətrafında dustaqlar.
Əsgərlər qapı arxasında

Əsgər. Divanbəyov, burdasan?
1-ci Dustaq. Burdayam. Mənəm.
Əsgər. Gəl, çıx, gedirik.

1-ci dustaq kameradan çıxır. Əsgərlər onu aparır.

2-ci Dustaq. Sənin məhkəmən nə zamandı, ay Əsgər ağa?
Əsgər ağa *(həyəcanlı).* Bu gündü, dedilər.
Dustaq. Hə... Növbə çatdı, deməli. Allah işini avand eləsin. Sağ-salamat qurtarsın məhkəmən. Başqa bir şər, böhtan atmadılar ki?
Əsgər ağa. Silisçi deyir ki, ancaq müftəxorluq, hə, bir də guya mən istismarçı imişəm. Adamların guya qanını içirmişsən.
2-ci Dustaq. Hm, onda səni Sibirdən başqa bir şey gözləmir. Allah eləsin, bununla qurtarasan canını.
Əsgər ağa. Hə, o da elə dedi. Görək... Allah kərimdi.

Qapı ağır-ağır, səs-küylə açılır. İçəri çiyni tüfəngli bir əsgər girir.

Əsgər. Əsgər ağa İsmixanov, gəl. Məhkəməyə gedəcəksən.
Əsgər ağa. Gəldim, gəldim.

Əsgər ağa və əsgər çıxırlar.

Kadr dəyişir. Marsel. Dəniz kənarı. Çoxlu gəmi. Sahildə Avropa üsulu ağ paltarda bir qadın heykəl kimi tərpənməz durub. Yanında Telli. Kamera bu qadına yaxınlaşdıqca tanımaq olur ki, bu, Gülçöhrədir. O, dodaqaltı, yavaş səslə, öz-özü ilə danışır.

Gülçöhrə. Sən məni niyə atdın, Əsgər ağa?! Niyə bə gəlib çıxmırsan, canım-gözüm?! Mən sənə dedim axı, tez gəl. Nə uzun çəkdi bu ayrılıq?! Sən məni unutdunmu? Mənim dediyim sözü unutdunmu? Niyə, Əsgər, ağa, niyə, niyə, niyə, sevdiyim?!

Kadr dəyişir. Məhkəmə otağı. Üç nəfər ittihamçı. Qarşılarında – Əsgər.

Məhkəmə sədri. Tüfeyli həyat sürdüyünə görə, zəhmətkeşlərin qanını içdiyinə görə malına, mülkünə "arest" qoyulsun. Yaz *(kadrda olmayan kiməsə əmr verir)!*

1-ci Məhkəmə üzvü. Özü də hökmən Sibirə sürgün edilsin. Sovet hökumətinin əleyhdarı kimi. Yaz! *(Yenə də kadrdan kənara əmr edir).*

2-ci Məhkəmə üzvü. Bəlkə...

Məhkəmə sədri *(Əsgəri diqqətlə süzərək).* Yox. Kifayətdi. Sibirə sürgün, məncə... kifayətdi.

Əsgər ağa. Möhtərəm hakimlər... Mən ki bir günahın sahibi... Allaha and olsun ki, deyiləm... Nəyə görə, niyə? Malda, mülkdə gözüm yoxdu. Hamısı – sizin. Mənim özümü,... yalvarıram sizə... buraxın gedim. Bir də heç zaman... zəhmətkeşlərin qanını içmərəm. Tüfeyli olmaram. Noolar, buraxın məni, Allah naminə buraxın, azad edin məni...

Məhkəmə sədri *(rişxəndlə).* Qoy elə o Allahın da səni azad etsin. Qərar qətidir. Aparın!

Kadr əriyir və yenə Marseldə ağ paltar geyinmiş Gülçöhrə, dəniz sahilində durub uzaqlara baxır.

Gülçöhrə xanım *(öz-özü ilə danışır).* Mən səni gərək dinləməyəydim, Əsgər ağa. Gərək səni buraxmayaydım o cəhənnəmə qayıdasan. Sən mənə verdiyin sözə əməl etmədin. Gəlib bura çıxmadın. Niyə məni bu halımda tək-təkcənə buraxdın yad ellərdə? Niyə? Nə üçün? Səbəb? Sən məni atdınmı, Əsgər ağa, məni unutdunmu?..

***

11-ci şəkil

Titr: ***Üç ay, üç il, otuz il sonra...Gülçöhrə xanım Marseldə hər sabah sahilə gəlib Əsgər ağanın yolunu gözləyir.***

Musiqi. Kadrda üç ay sonranın Gülçöhrəsi sahildə. O, həsrətlə dənizə baxır, gözləri yol çəkir.

Kadr dəyişir. Üç il sonranın Gülçöhrəsi yenə haman yerdə durub uzaqlara baxır, gözləri yenə yol çəkir. Bu Gülçöhrə titrək əli ilə yanında durmuş üç yaşlı oğlan uşağının başını tumarlayır. Uşaq başını qaçırıb kənara qaçmaq istəyir.. Gülçöhrənin arxasında duran Telli uşağı tutub saxlayır.

Telli. Əsgər, qaçma, yıxılarsan. A bala, Əsgər ağa, sakit ol, sən Allahın, sakit ol...

Kadr dəyişir. Otuz il sonra. Yenə haman məkan. Yenə Gülçöhrə, amma onun saçları ağarmış, özü də qocalmışdır. Yanında otuz üç yaşlı cavan oğlan. Elə bil, Əsgər ağanın özüdür. Gülçöhrə xanım yenə gözlərilə nəyisə, kimisə axtarır, dodaqaltı nəsə deyir, amma onun dedikləri eşidilmir.

Əsgər ağanın uzaqlardan gələn səsi ilə şeir söylənir:

Məni başqasından gizlətmək çətin
Sənin hər yerindən görünərəm mən
Üzündən, gözündən görünmək asan,
səsindən, sözündən görünmək asan
Sənin kölgəndən də görünərəm mən.
Qəmli gülüşündən görünərəm mən.
Gecələr yastığa səssizcə axan
Gözünün yaşından görünərəm mən.
Sonsuz ümid ilə yollara baxan
Naçar baxışından görünərəm mən.

Sənin görünməyən, eşidilməyən
Hiss edilməyən hər nəyin varsa,
Özünün xəbəri olmayan nəsə
Huşunda, yadında qalmayan nəsə
Hər nəyin varsa yox, hər nəyin yoxsa
O yox olandan görünərəm mən
Bir qərib məclisdə hamıdan gizli
Çəkdiyin ahından görünərəm mən.
Amma əsl əzab deyil ki bunlar –
Olsa-olsa zəif görüntüsüdür.
Hər şeydən bezəndə ölməyə nə var –
Bilirsən ki, ocaq onsuz da sönüb
Bu onun sonuncu dərin nəfəsi,
son tüstüsüdür.

***

12-ci şəkil

Titr: ***Əql yar olsaydı, tərki-eşqi-yar etməzmidim?!***
İxtiyar olsaydı rahət ixtiyar etməzmidim?
Unutmamaq – olar. Xatırlamaq olmaz!...
Otuz il sonra.

Sibir, dustaq düşərgəsi. Soyuq, boran. Baraklar. Bir barakda içəridə qocalmış, heysiz Əsgər ağa və bir cavan dustaq.

Dustaq. Axşam klubda yeni film göstərəcəklər. Deyirlər, yaxşı kinodu.

Əsgər ağa. Baxarıq, görərik. Yeməyə nə verəcəklər, görəsən?! Bu gün axı, bayramdır. İnqilabın günüdür. Mübarək olsun.

Dustaq. Hə... olsun. Yəqin, yemək də yaxşı olar.

Əsgər ağa. Bircə klub soyuq olmasın, qalan hər şey düzələr.

Dustaq. Ax, Əsgər, Əsgər. Nə düzələr? Heç nə düzəlməz.

Əsgər ağa. Yox düzələr, görərsən, düzələcək. Düzəlməsə olmaz.

Dustaq. Sən bəyəm xatırlamırsan əvvəllər necə idi? Özün də deyirsən – düzələr.

Əsgər ağa *(qorxu içində).* Bircə xatırlamağı demə mənə. Bircə ondan uzaq olaq. Xatırlamayaq *(qorxa-qorxa).* Axı sənə demişəm. Xatırlasaq yaşaya bilmərik. Mən yaşaya bilmənəm.

Dustaq. Mən isə xatırlamasam yaşaya bilmərəm.

Əsgər ağa. Yox, olmaz. Mənə xatırlamaq olmaz! Ax, o günlər, o günlər... Xatırlasam, davam gətirə bilmənəm. Ölləm. Mən isə ölmək istəmirəm. Mən yaşamaq istəyirəm. Yenidən... ona... onlara... bilirsən, *(sirr açırmış kimi)* qovuşmaq istəyirəm. Mən onlara "əlvida" demədim. Bu məni üzür. Əlvidasız ayrılmaq zülmdü.

Dustaq. Mən isə bilirdim hara gəlirdim, niyə gəlirdim. Mən vidalaşdım. Mən öz əlvidamı demişəm.

Əsgər ağa. Mən isə yox. Demədim. Ona görə o bu gün də məni gözləyir. Hələ bəlkə elə bilir ki, mən onu unutmuşam. Onları unutmuşam. Mən ha? Onu ha? Onları ha? Amma xatırlamaq olmaz! Unutmamaq – bu olar. Xatırlamaq isə yox, olmaz!

Kadr dəyişir. Qaranlıq düşür. Yenə çöldə qar, boran. Dustaqları tövləyəoxşar bir yerə yığırlar. Uzun-uzun skameykalar düzülmüş bu yerin yuxarı başında ekran kimi ağ pərdə asıblar. Aşağı tərəfdə kino qurğusu var. Dustaqlar hayküylə keçib əyləşirlər. Nəzarətçilər – iş başında.

Kadr dəyişir. Əsgər ağa arxa cərgədə keçib oturur. Gombul nəzarətçi irəli, geri gəzə-gəzə kiminə irad bildirir, kimini itələyir və nizam yaratmağa çalışır.

Gombul nəzarətçi *(cərgədə oturanlara xitabən).* Aranızda azərbaycanlı varmı? Bugünkü film Azərbaycan filmidir. Azərbaycanlılar keçsinlər qabaq sıraya...

Əyləşənlər *(gülüşür).* Ha – ha – ha...

İşıq sönür. Film başlayır. "Arşın mal alan" filmindən musiqi səslənir. Filmin kadrları pərakəndə şəkildə bir-birini əvəz etdikcə Əsgər ağa cürbəcür hallara düşür.

Əsgər ağa *(pıçıltıyla, öz-özünə).* Allah, Allah. Bu ki, Süleymandı. Ay səni, Süleyman... Bu da ki, mənim mehriban xalamdı... Vəli, Vəliyə sən bax. Bu isə... bu isə, bəli, odur – mənim bir dənəmdir. Mənim əzizim, nuri – didəmdir. Görəsən, xoşbəxt ola bildimi?! Görəsən, o və mənim əmanətim dayaq ola bildilərmi bir-birinə?! Hökmən, hökmən xoşbəxt olmalıydılar. Bəs bu? Bu tosun kişi kimdi hələ? Mahnını mahnı dalıyca oxuyur?.. Nə gözəl də səsi var... Arşın malı çiyninə yığıb həyət-həyət gəzir – bu ki mənəm, Allah. Əhvalat ki, mənim əhvalatımdır... Adı da bu kişinin elə mənim adımdı – Əsgər ağa!.. Əsgər ağa! Yəni, bu, mənəm? Allah, Allah... *(gözləri yaşarır).*

Filmin kadrları bir-birini sistemsiz şəkildə əvəz edir.

Əsgər ağa *(yenə öz-özünə).* Üzeyir bəy, sağ olsun, sözünə vəfalı çıxdı. Xəbər göndərmişdi ki, bizim əhvalatımızı yazmaq istəyir... Yazdı da. İndi də bu kino... Amma... Əhvəlat bitmədi ki. Əhvəlat yarımçıq qaldı. Əhvəlat davam edir. Əvvəlini isə... xatırlamaq olmaz. Unutmamaq – bu, bəli. Xatırlamaq isə olmaz! Aman Allahım, mən axı bunları görüncə xatırlamağa başladım?! İndi mən nə edəcəyəm?! Necə edim ki, xatırlamayım? Bəs küçədə "dava-dava" oynayıb məni əsəbiləşdirən o uşaqlar niyə burda yoxdular? Yəqin onlar artıq böyüyüb, yekə adamlar olublar... Bəs İrana köç hanı? Bəs niyə Marsel yoxdu? Bəs mənim gözümün işığı Gülçöhrə indi nə edir – o niyə yoxdu? Hardadı Vəli qırışmal? Hərdən bu adam bir parça əppək olub çəkilir göyün üzünə, yox olur. Ah, aman Allah, aman Allah, yəni, bu qədər asan imiş bu...

Kadr dəyişir. Filmin son sevinc dolu kadrlarından sonra işıq yanır. Lent qırırlır və son sevincli kadrlar elə işığın içində "ekran"daca parça-parça dağılır. Hamı dustaqlar gülüşə-gülüşə, "Arşın mal alan!.." oxuya-oxuya tövləyəbənzər bu məkanı tərk edir. Gombul nəzarətçi son dəfə boş cərgə-

lərə baxır. Görür ki, son cərgədə bir dustaq büzüşüb tərpənməz halda yerindəcə qalıb. Bu, Əsgər ağadır. Kamera onun üzünü göstərir. Əsgər ağanın dodaqlarının ucuna acı təbəssüm, gözündən isə iki damla yaş axıb gəlib üzündə donub qalıb. O, ruhunu tapşırıb. Xoşbəxt günlərin musiqisi səslənir.

Kadr dəyişir. Marseldə bu qəmli hekayətin bütün iştirakçıları bir yerdə dəniz kənarında durub qüssə və həsrətlə dənizə baxır və Əsgər ağanı gözləməkdədirlər.

Kadr arxasında Əsgər ağanın dilindən şeir səslənir.

Məni daha gözləmə –
Bu da bir işdi,
doğuldum, yaşadım dünyada.
Məni daha gözləmə –
Gözləmə dünyaya gələn
Gəldiyinə qayıda.
Səni mən unutmaram
Xatirən tufanlara,
boranlara bürünəcək.
Səni mən unutmaram
Ana bətninə qədər
Unutmadıqlarım tək.
Məni daha gözləmə,
gəlib yığılma
səni görməyən gözlərimə.
Səni mən unutmaram,
Səni mən unutmaram.
Məni daha gözləmə...

SON

Elmi əsərlər

“Kitabi-Dədə Qorqud”da semantik sayrışmalar

Sayrışmalar

"Sayrışma" sözünü Türkiye Türkçesine nasıl çevirmeli? Azerbaycan Türkçesinde bu söz, "titrek zayıf ışık saçmak, parlamak" manasına geliyor. Mecazi olarak da "belirmek, görünmek". Kemal Abdulla yeni kitabının adını "Kitabi-Dede Qorqud'da Semantik Sayrışmalar" koymuş. "Semantik sayrışma…" Kemal Abdulla "Ben bununla ne kast ediyorum?" diyor ve cevap veriyor:

"Destan dahilinde ve mevzu ile bağlı destandan kenarda zaman zaman dikkatimin yöneldiği bazı anlayış ve adlar, ifade ve cümleler oluyor. Onların her biri sanki sayrışa sayrışa (aynen uzak yıldızlar gibi) büyük bir süratle karanlıktan ışığa, ışıktan karanlığa geçiyorlar…"

Evet, uzaktaki yıldızlar gibi. Dede Korkut'taki kelimeler de, kavramlar da bir yanıp bir sönüyorlar. Türkiye Türkçesinde "ışıltı" mı demeli, "ışıldama" mı, bilemedim. İyisi mi "sayrışma"yı yerinde bırakalım. Çünkü burada esas, ışığın bir yanıp bir sönmesidir. Işık yandığı zaman, yani metnin ışıklı tarafında problem yok. Ne demek istendiği "vasıtasız olarak" anlaşılıyor. Ya ışık söndüğü zaman? İşte işin can alıcı noktası bu sorudadır. Metnin karanlıkta kalan tarafı nasıl anlaşılacaktır?

Yarımçıq Elyazma'dan beri, Gizli Dede Korkut'tan beri Kemal Abdulla bu sualın peşindedir. Aslında yalnız Dede Korkut'u değil, herhangi bir edebî metni anlamaya çalışırken de aynı sualı sormamız gerekmez mi? Acaba müellif satır altında ne diyor? Acaba bu satırların altında, metnin alt katlarında hangi manalar var? Bu sualları sormazsak, bu arayışları yapmazsak metne nasıl nüfuz edebiliriz ki?

Kemal Abdulla, Gizli Dede Korkut'tan sonra daha birçok kitap yazdı. Dede Korkut metnini anlamak ve anlatmak için birçok kitap yazdı. Derdi,

kaygısı hep aynı idi. Metnin alt katlarında gizlenen manaları, maksatları ortaya çıkarmak. Arkeologların yaptığı iş gibi. Toprağı kazar gibi metni kazmak ve en alt kattan en üstteki katlara kadar ne var ne yoksa ortaya çıkarmak. İşte elimizdeki kitap da bu maksatla yazılmıştır. Kitabın adında "lüğet" kelimesi bulunmakla birlikte bu eseri bildiğimiz lügatler gibi düşünmemek gerekir. Önce "ansiklopedik lügat" demek istedim fakat o da değil. Eserin "lüğet"e benzer tek tarafı, kavramların alfabetik olarak dizilmesidir.

Kemal Abdulla belki de bazı kavramları hâlâ anlatamadığını düşünüyor. "Ben anlıyorum ama hâlâ kendi anladıklarımı insanlara, edebiyatşünaslara anlatamıyorum." diye düşünmüş olmalı. Belki daha sade bir dille ve sözlük formunda daha kolay anlatabileceğini düşünmüştür. Sözlükteki birçok kavram, Kemal Abdulla'nın araştırmalarında, kitaplarında geçen kavramdır. Elbette umumi kavramlar da var ama daha çoğu onun dikkatinin yöneldiği kavramlardır.

"Kitabi-Dede Qorqud – Represya Kurbanı", "alliterasiya" yahut "Dastanın tedqiqatçıları" gibi madde başları hemen aklımıza geliveren umumi kavramlardır. Ama "Xaos" gibi, "Troya atı" gibi, "Aruzun arzusu" gibi kav-ramlar Kemal Abdulla'nın dikkat çekmek istediği kavramlardır. Işık söndüğü zaman karanlıkta kalan kavramları bulmaya ve aydınlatmaya çalışıyor Kemal Abdulla. Bazen aydınlık tarafta kalan kavramlardan istifade ediyor ve onların yardımıyla metnin alt katlarına inerek gizli kavramları aydınlatıyor. Niyazi Mehdi'nin yazdığı gibi "Kemal Abdulla mı sayrışır", yoksa metin mi sayrışır. Bence Dede Korkut metni uçsuz bucaksız kozmostur ve onun içindeki sayısız uzak yıldız bugün de sayrışmaktadır. Aslında o uzak yıldızlar çoktan sönmüştür ama ışıkları bir yanıp bir sönerek bugüne kadar gelmektedir.

Sayrışan ışıkların ardından biz Beyrek'i artık farklı bir gözle gorebiliriz. O, yeni edebî metinlerin kahramanları gibi "gri"dir; sadece ak ve ya sadece kara değil "gri"dir. Salur Kazan'a sadık kalmıştır ama kâfir kızına verdiği sözü tutmamıştır. Ve bu sebepten de Dede Korkut metninde öldürülmüştür.

Kemal Abdulla, Tepegöz obrazında ortaya çıkan "kaos" kavramını "yer ve göyün birbirinden ayrılması" olarak ifade ediyor. Aslında Eski Türkler kaos kavramına 8. asırdaki Orhun abidelerinden beri sahiptirler. Orada "kaos" kavramı için "bulgak" yani "bulanma" kelimesi kullanılır ve abidelerde, tam da Kemal Abdulla'nın dediği gibi "yer ile göğün bulanması" ifadesi işletilir. Demeli Türk'ün etnogenetik düşüncesi, 1300 yıl evvelinden bugüne ve Orhun vadisinden Bakü'ye değişmeden ulaşmış. Hatta belki de "mağara" devrinden bugüne. Kemal Abdulla'nın Kitabi Dede-Qorqud Poetikasına Giriş adlı eserinde metnin "mağara katı" emelli başlı işlenmiştir.

Dede Korkut'un özü de "çox maraqlı" obrazdır. Kemal Abdulla, Dede Korkut'un tarihte yaşamış bir şahsiyet gibi değil bir "prensip" gibi kabul edilmesi gerektiği fikrindedir. Dede Korkut, "hardan gelir, hara gedir, onun dalınca gedenler hara gedirler, ona xeberi nece ve hara gönderirler – bu bilinmir. Onun yeri yurdu yoxdur." Buna göre de Dede Korkut'un metne dâhil edilmesi bir "sır" gibidir. "Tenha Dede Qorqud" maddesinde bu "sır" belki de en güzel şekilde ifade edilmiştir: "Dede Qorqud metnin xüsusi qonağıdır."

Dede Korkut elbette "xüsusi qonaq"tır ama öyle anlaşılıyor ki Kemal Abdulla da bu mevzunun "xüsusi qonaq"larından biridir, hatta belki de o "ev iyesi" gibi mevzuya yerleşmiştir.

Prof. Dr. Ahmet B.Ercilasun

Adlandırma ritualı

Dastanda qədim rituallardan biri də adlandırma ritualı sayıla bilər. Adlandırma – cəmiyyətin gənc nümayəndəsinin rəsmi olaraq cəmiyyətin üzvü kimi təsdiq edilməsi deməkdir. Bu ritualı Dastanda el ağsaqqalı, o dövrün "inzibati" termini ilə desək, şamanı, Oğuz cəmiyyətinin mənəvi lideri Dədə Qorqud özü həyata keçirir.

Gənc on altı yaşına çatana qədər onun adı olmazdı. Onu ayaması ilə çağırardılar. Məsələn, Dədə Qorqud gəlib Beyrəyə ad qoyana qədər atası və yəqin ki, həm də başqaları onu Basam çağırırdı. Hər halda Dədə Qorqud bunu deyir. Məhz on altı yaşına çatandan sonra gənc hansısa diqqətəlayiq bir hərəkəti edərsə, igidlik göstərərsə, yemə-içmə qurulur, təntənə ilə ad-qoyma mərasimi həyata keçirilirdi. Dastanda oxuyuruq ki, Baybura bəy oğlu Beyrəyə ad qoymaq üçün *"Qalın Oğuz bəylərini çağırdı, qonaqladı. Dədəm Qorqud gəldi, oğlana ad qoydu, aydır: Ünüm ünlə, sözüm dinlə, Baybura bəy... sən oğlunu Basam deyü oxşarsan. Bunun adı Boz ayğırlı Bamsı Beyrək olsun. Adını mən verdim, yaşını Allah versin".*

Dastanda ad qoyma ilə gəncin yaşadığı cəmiyyətə üzv kimi qəbul edilməsi baş verirdi.

Buğac, Beyrək, Basat və digər Oğuz gəncləri məhz adlandırma ritualından keçdikdən sonra tam bərabərhüquqlu döyüşçü, cəmiyyət üzv ola bilirdi.

Bu gənclər öz adlarını Dədə Qorquddan almış, onun istəyi ilə babaları tərəfindən bəylik atributları ilə ödüllənmiş (ev-mülk almış, qoyun sürülərinə, at ilxılarına sahib olmuş, var-dövlət əldə etmişlər), bu şəkildə cəmiyyət üzvlüyünə qəbul edilmişlər. Müqəddimədə hətta belə bir hala işarə vardır ki, Dədə Qorqud digər bütün əşyaları da adlandırmışdır. Bu məqam

həmçinin M.F.Axundov tərəfindən təqdim edilən belə bir parçada özünü göstərir ki, guya Dədə Qorqud bir neçə əşyaya doğru ad verməməsindən sonralar peşman olmuşdur.

Adlandırmanı həyata keçirmək, əslində, qədim cəmiyyətin daxili ruhuna hakim olmaq deməkdir. Bu mənada Dədə Qorqudun dastan reallığındakı mənəvi başçı rolunun nədən ibarət olduğunu, bu mənəvi başçının gücünün haracan getdiyini təsəvvür etmək çətin deyil.

Adqoyma mərasimi qədim ritualın əlaməti kimi bu günə qədər gəlib çıxmışdır.

Alliterasiya

Bədii mətnin poetik qurulma vasitələrindən biri. Mətndə eyni və ya məxrəcinə görə yaxın samit səslərin bir-birini izləməsindən müəyyən bədii effekt yaranır ki, buna da alliterasiya deyilir.

Dastanda alliterasiya bol-bol işlənir. Bu da onun dilinin bədii şəkildə qurulmasına, bu dilin yazı mədəniyyətinin qanunlarına uyğunlaşmağa başlamasına bir sübutdur. Məsələn, Qazan xan özünü yağıya tərif edərkən dediyi sözləri bu cür seçib deyir: *...Yigirmi min ər yağı gördüm isə yıylamadım. ...Kırk min ər yağı gördüm isə kıya baxdım. ...Altmış min ər gördüm isə aytışmadım. ...Səksən min ər gördümsə səksənmədim; Yüz min ər gördüm isə yüzüm dönmədi... və s.*

Dastanda alliterasiya həmçinin mətnin elementlərinin bir-birinə daha sıx bağlanmasını şərtləndirir. Onu yazı mədəniyyətinin klassik ifadəsi olan qafiyyənin ilkin, ibtidai formalarından biri kimi saymaq olar.

Ana haqqı

"Ana haqqı" anlayışı Dastanda "Tanrı haqqı" inancı ilə bərabər tutulur. Müqəddimədə elə belə də deyilir: "Ana haqqı – Tanrı haqqı". Əslində, ana haqqı qədim anaxaqanlıq dövründən qalma relikt, mənəvi inanc kimi özünü göstərir. Qazan xanın oğlu Uruzun anasına özünün gözlənilən ölümündən əvvəl söylədiyi sözlər bu haqqın nə qədər yüksək tutulmasına işarədir.

Digər tərəfdən, Dastanda "ana-oğul" münasibətlərinin tamam başqa bir şaxəsi də var. "Dəli Domrul" boyunda Allaht-əalanın Dəli Domrula "canın yerinə can bul ki, sənin canını Əzrayıl almasın" iltifatı çətinliklərlə qarşılaşır. Dəli Domrulun ümid yeri atası və anasıdır. Amma hər ikisi ona can verməyə razı olmur. Bu, ədəbiyyat tarixi boyu (ana ilə bağlı!) bəlkə də yeganə haldır ki, ananın oğula belə fərqli, bizim anlaya bilmədiyimiz münasibəti ortaya qoyur. Belə münasibət öz-özlüyündə bu şaxənin öz qədim köklərinə necə bağlandığını göstərir. Qeyri-səlis məntiqlə yanaşsaq, burada üçüncünün istisnasının istisnası özünü göstərir. Ata can vermir, ana can vermir. Canı üçüncü – Dəli Domrulun arvadı verir.

Salur Qazanın, Uruzun, Buğacın digər gənclərin anaya münasibəti elə bir ilkin qədimlik səviyyəsindədir ki, bu münasibətin matriarxat (anaxaqanlıq) dövrünə birbaşa çıxışını inkar etmək olmur. Belə bir münasibətdən anaya münasibətin ən "şahanə" ifadəsinə ("oğul kimdən olduğun ana bilir") bir addım qalır.

Anaxaqanlıq

"Kitabi-Dədə Qorqud"da anaxaqanlığın ən abstrakt şəkildə yalnız izinə rast gəlmək mümkündür. Bir sıra mütəxəssislər burada anaya münasibətdən çıxış edərək bu mövzunu araşdırmışlar. Anaya hörmət, ana haqqına sitayiş və s. və i.a. Dastan qəhrəmanlarının hamısının daxili mənəvi keyfiyyətidir deyə bilərik. Amma yalnız bu yollarla gedərək mətləbə – anaxaqanlıq anlayışına yetişmək mümkündürmü?! Yalnız bu keyfiyyətlər bizi dastandakı anaxaqanlığın izahına gətirə bilərmi?!

Mütəxəssislər, təəssüf ki, bizi Dastandan keçən və anaxaqanlığın astanasına gətirən bir sayrışan məqama diqqət yetirməmişlər. Dədə Qorqud öyüdlərindən keçən bir cümlə ilə biz sanki anaxaqanlığın relikt bir əks-sədası ilə qarşılaşırıq. Həmən cümlə anaxaqanlığın mövcud olduğu qədim bir dövrlə əlaqəyə açıq-aydın şəkildə işarə edir. Sayrışma qaranlıqdan işığa keçir. O cümlə budur: *"**Oğul kimdən olduğun ana bilir**"*.

Bu cümlə ilə hələ ailə sisteminin möhkəm olmadığına, atanın bu sistemdə qeyri-sabit yer tutduğuna işarə edilir. Tam və sistemli şəkildə olmasa da bu kimi bir möhkəm deyimlə kateqorik şəkildə anaxaqanlıq yada salınır, ananın hakimi-mütləq statusu qeyd olunur, xatırlanır.

"Kitabi-Dədə Qorqud"da analıq haqqı ("*Ana haqqı – Tanrı haqqı*"), ana sitayişi və ümumiyyətlə, ana ilə bağlı digər əxlaqi davranışlarda daşlaşmış münasibət formalarını da Anaxaqanlıq dövründən qalma əlamətlər kimi qiymətləndirmək bəlkə də mümkündür. Amma onlar yuxarıda deyildiyi kimi anaxaqanlığa doğru aparan ən ümumi yollar kimidir.

Daha başqa ciddi bir dəlil kimi anaxaqanlığın relikt formalarından biri olan dayı kultu (ana ilə qohumluq xətti) və ona münasibətin (**avankulat**) Dastanda öz əksini nə cür tapması maraq doğurur. Aruz Qoca Salur

Qazanın dayısı olsa da, Oğuz cəmiyyətinə nifaq salma təşəbbüsünə görə məhz Salur Qazan tərəfindən cəzalandırılıb öldürülür. Dayı kultuna bu münasibət kultun dağılmasını göstərir və bütövlükdə bu hal dolayısı ilə anaxaqanlığa münasibətin Dastan üçün səciyyəvi münasibətidir.

Dastanda anaxaqanlığın ölüb getməsinə son güclü zərbə məhz Salur Qazan tərəfindən vurulur. Dış Oğuzla İç Oğuz arasındakı münaqişə Aruz Qocanın – Salur Qazanın dayısının öldürülməsi ilə həll edilir. Oğuzun gələcəyi (münaqişənin həll olunması), başqa sözlə, vətəndaş müharibəsindən yan keçməsi məhz avankulata son qoyulması ilə, yəni, dayının öldürülməsi ilə yoluna qoyulur.

Qeyd eləmək lazımdır ki, digər dastanlarımızda dayı kultu, yaxud anaxaqanlıqla bağlı açıq, yaxud gizli motivlər özünü göstərmir. Bu faktın özü "Kitabi-Dədə Qorqud" dastanının qədimliyinə bariz işarə kimi qeyd edilə bilər. Bu qədimlik tarixi qədimlik deyil. Bu qədimlik tarixdən öncəyə aparan qədimlikdir. Dastanın təşəkkülünü məhz o dövrdən başlamaq lazımdır.

Arxetip (1)

Arxetip eyni mətnin müxtəlif əlyazmalarının ilkin invariant forması kimi qəbul edilir. "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı belə bir arxetipin mövcud olması bir sıra əlamətlərə görə inandırıcıdır. Belə ki, əldə olan Drezden və Vatikan əlyazmalarının XVI əsr üçün kifayət qədər yüksək dil və üslub səviyyəsi onların şifahi dildən birbaşa deyil, hansısa daha qədim, ilkin bir mətnin (arxetipin) əlyazmasından köçürüldüyünü güman etməyə əsas verir.

Ümumiyyətlə, Dastanın yaranması və formalaşması təmiz tarixilik baxımından nəzərdən keçirilə bilməz. Bu tarixiliyin qırılan nöqtələri, boşluqları var. Qədim arxetipin mövcudluğu fikri əldə olan mətnin zaman-zaman cilalanması, yenidən işlənməsi prosesini obyektiv şəkildə anlamağa kömək edir.

Arxetip (2)

Qədim insanın ilkin, ibtidai təsəvvürlərinin invariant şəklində daşlaşaraq zaman-zaman nəsildən-nəslə ötürülməsi *arxetip* olaraq qiymətləndirilir. Arxetip həmçinin ibtidai cəmiyyətdə kollektiv təhtəlşüurun forması kimi özünü göstərir. Arxetiplər nəzəriyyəsinin müəllifi K.Q.Yunqa görə arxetip nəsildən-nəslə ötürüldükcə bilavasitə şüura da təsir göstərir, davranışı tənzimləyir. K.Q.Yunqa görə arxetipin 4 tipi müəyyənləşdirilə bilər.

1) *"Anima"* arxetipi davranışda qadın başlanğıcının, həlimliyin səviyyə göstəricisi olaraq "Kitabi-Dədə Qorqud" dastanında "yumşaqlıq", "zəriflik" kimi variantlarda özünü göstərir. Bu halı KDQ-nin bir sıra qadın personajlarında, eyni zamanda Sarı donlu Selcan xatun və Qanturalı münasibətlərində müşahidə etmək olar. Selcan xatunun onunla bir düşmənə qarşı vuruşmasından qəzəblənən Qanturalı Selcan xatunla döyüşmək istəyir, amma qızın real gücü qarşısında "tərksilah" edildikdən sonra "yumşalır", hətta açıq-aşkar yalana keçir. Qanturalı Selcan xatunu öldürmək yox, sınamaq istədiyini bildirir.

2) Davranışda kişi, kişilik başlanğıcının səviyyə göstəricisi kimi *"animus"* arxetipi dastandakı bir çox kişi və qadın personajlarının davranışında özünü göstərir. "Animus" arxetipinin dastanda ən bariz təmsilçisi düşmən qarşısında sarsılmayan Burla xatundur. Bu funksiyada gənc qadın personajlarından Selcan xatunu da göstərmək olar. O, nişanlısı Qanturalı ilə birlikdə öz doğma atasının ordusuna qarşı vuruşur, qəhrəmanlıq göstərir. Qazan xana sonsuz sədaqəti ilə seçilən Beyrək bu invariantın başqa bir şaxəsini canlandırır. O, ölməyi, kişiliyi, satqınlıqdan üstün tutur. Kişi personajların əksəriyyəti – Salur Qazan, Beyrək, Basat, Dəli Domrul, Qaraca Çoban və b. Oğuz cəmiyyətinin kişilik və qeyrət səviyyəsinin yüksək gös-

təriciyə malik olmasını, yəni, *"animus"* arxetipinin təzahürünü bədii formada nümayiş etdirirlər.

3) *"Şədo"* (kölgə) adlanan və nəsildən-nəslə insanın öz vəhşi ehtirasına münasibətini bildirən arxetip dastanda Sarı Çoban və Pəri qızı münasibətində eyni zamanda Təpəgözün öz törətdiyi əməllərə münasibətdə variantlaşır. "Kitabi-Dədə Qorqud" dastanında təsvir edilən cəmiyyətin inkişafı nöqteyi-nəzərindən nadir hal kimi diqqəti cəlb edir. Belə ki, Sarı Çobanın və Pəri qızının bu cür hərəkəti cəzasız qalmır. Oğuz cəmiyyətinin başına Təpəgöz timsalında böyük bir bəla gəlir. Bu arxetipin qeyri-kəskin bir variantı da çox dumanlı şəkildə Dirsə xan və 40 namərd münasibətində, namərdlərin Dirsə xana oğlu Buğacdan yalan xəbər – guya anasına əl uzatması xəbərini gətirmələrində özünü göstərir.

"Kölgə" arxetipi sayrışmanın qaranlıq tərəfinin simvolu kimi də diqqəti cəlb edir. Qaranlıq tərəf işıqlı tərəfin üzərindən çəkilənə qədər (işıqlı tərəf aydınlanana qədər) "Şədo" sayrışmanın informativ məqamı ola bilir.

4) "*Persona*" arxetipi ətraf sosial mühitə münasibətdən formalaşır və dastandakı davranış formaları bu baxımdan çoxlu variantlar verir. Dastanda cəmiyyətdaxili yasaqların müəyyənləşməsi, cəmiyyət üzvünün öz sosiumunun əxlaq və etik dəyərlər sistemi ilə hesablaşması "persona" invariantının burada yüksək güc göstəricisinə malik olmasının əlamətidir. Qanturalı nişanlısı Selcan xatunun köməyilə düşmənə qalib gəlməsini Oğuzda bilsələr, "*başıma qaxınc olar*" deyir. Oğuzda belə bir hal normal hal kimi qiymətləndirilmir. Və Selcan xatun özü də belə durumla razılaşmağa məcbur olur və "*öyünürsə ər öyünsün, aslandır, öyünməklik arvadlara böhtandır*" deyir.

Öz toyuna gəlib çıxmış Beyrək "qırx oynaşlı" Boğazca Fatmanın, Qısırca Yengənin eyiblərini açmağa hazırdır və o bu qadınları az qala sosial qatda "biabır" edir. Eyiblərini normal cəmiyyət qatında gizlətməyə çalışan bu qadınlar, nəhayət, Banuçiçəyə Beyrəyə "görünməsi" üçün, öz toyunda oynaması üçün təzyiq göstərirlər.

Və nəhayət, Dədə Qorqudun bir dastan personajı kimi öz kultu "persona" arxetipinin Dastanda real bir variantı kimi, cəmiyyətdaxili davranışın cəmiyyət qanun-qaydasına əsaslanan qoruyucusu kimi çıxış edir.

Arxetiplər səviyyəsində "Kitabi-Dədə Qorqud" dastanının təhlili ibtidai cəmiyyətdən müasir cəmiyyətə qədər gəlib çıxan daşlaşmış, invariant davranış tərzinin müxtəlif variantlarda ən qədim ədəbi mətndəki real yaşamını, üzdəki yox, dərindəki tənzimləyici energiyasını öyrənib üzə çıxarmağa imkan verir.

Aruzun arzusu

Dış Oğuzun İç Oğuza qarşı üsyana qalxmasının əsas ilhamverici qüvvəsi Dış Oğuzun ağsaqqalı Aruz Qocadır. Üzdə olan səbəb (sayrışmanın görünən tərəfi) Salur Qazanın ildə bir dəfə evinin yağmalanması ritualına Dış Oğuz bəylərinin bu dəfə çağrılmamasıdır. Amma sayrışmanın o biri, gizli tərəfi də var və bu məqam Aruz Qocanın gizli arzusu ilə bağlıdır.

Salur Qazan ov tədarükü görərkən və bəyləri bu ov prosesinə qatarkən ayrı-ayrı bəylər ona müxtəlif suallar verir, hər biri bu ovda öz boynuna düşən funksiyanı dəqiqləşdirməyə çalışır. Hər halda mətnin ümumi ruhu belə deyir.

Yeganə Aruz Qoca Salur Qazana ikibaşlı (gizli) sual verir. O soruşur*: "Sası dinli Gürcüstan ağzına gedirsən. Ordun üstünə kimi qorsan?"*

Və gözləmədiyi (daha doğrusu, istəmədiyi) belə bir cavab alır. Qazan öz oğlu Uruzu ordusunun üzərinə başçı qoyduğunu cavab olaraq dilə gətirir.

Bu sualın gizli məramı Aruzun qaranlıq arzusundan xəbər verir. Əlbəttə ki, Salur Qazanın dayısı Dış Oğuzun ağsaqqalı Aruz Qoca heç bir başqasının yox, məhz özünün orduya başçı kimi təyin edilməsini istərdi. Lakin bu belə olmadıqda o, ürəyində Qazana qarşı ədavət bəsləyir. Və nəhayət olaraq, ortaya bəhanə çıxınca (Qazan öz evini ənənəvi olaraq yağmalatdırdığı zaman Dış Oğuzu çağırmayanda) Dış Oğuz bəylərini qızışdıraraq Beyrəyi öldürür, Dış Oğuzu Qazana qarşı üsyana qaldırır. Nəticədə, Salur Qazan və qardaşı Qaragünə dayıları Aruz Qocanı öldürüb Beyrəyin intiqamını alırlar. Oğuz tarixinin ilk bədii üsyanı bu şəkildə yatırılır. Sayrışmanın hər iki tərəfi öz semantik dolumunu ortaya qoyur və mətnin bütöv anlaşılmasını təmin edir.

Başqa tərəfdən məsələyə baxsaq görərik ki, bununla qədim düşüncə tərzi *avankulatdan (*dayı kultundan), daha dəqiq desək, anaxaqanlıqdan yaxa qurtarma prosesinin bədii modelini qurur.

Assonans

Sait səslərin təkrarından yaranan bu üslubi fiqurun Dastanın dilində özünə yer tapması bu dilin artıq üslublaşmasına, yazı mədəniyyətinə məxsus çalarlara malik olmasına işarə edir. Alliterasiyaya, yəni, samit səslərin uyumuna nisbətən assonansın ayrıca işlənmə əhatəsi o qədər də geniş deyil və qeyd etmək lazımdır ki, dastanın mətnində bunlar, adətən, bir yerdə işlənir: Q**a**yt**a**b**a**nl**a**r q**a**rıs**a**... q**a**r**a**qoçl**a**r q**a**rıs**a**... B**a**b**a**n q**a**rı, **a**n**a**n q**a**rı; **A**ğc**a** üzlü **a**n**a**n q**a**rşı gəlib oğul desə, **a**ğ əlləri **a**rdın**a** b**a**ğlı deyəyimmi? Və s. və i.a.

Qədim dünya şeirinin qafiyə tanımadığını nəzərə alsaq, assonans, assimilyasiya, paralelizm kimi üslubi məqamlar dil "süsləmələri" kimi diqqəti cəlb edir və misranın qədim dövrdəki bədii "tənhalığının" qarşısını alır.

Avankulat

Dayı kultunun adıdır. Dayı kultu anaxaqanlığın yumşaq təzahür formalarından biri kimi diqqəti cəlb edir. Dastanda gizli şəkildə bu, Aruz Qocanın Qazan xanın dayısı olmasına vurulan işarə ilə bəlli edilir. İşarənin olması öz-özlüyündə bu qədim kultun Qorqud dövrünə qədər gəlib çatmasının relikt əks-sədasıdır. Qədim dünyanın ibtidai cəmiyyətində matriarxatlıqla (anaxaqanlıqla) bağlı olan, onun bir şaxəsi kimi, ibtidai təsəvvürlərdə yaşayan bir sitayiş növüdür. Ana ilə birbaşa əlaqəsi olan qohumluq məqamıdır. Avankulat bu mənada birbaşa anaxaqanlıqdan doğan bir sitayiş formasıdır. Və Dastanda onun mövcud olması qədimliyə ən bariz işarələrdəndir. Avankulat qədim dünya dastanlarında öz əksini bu və ya digər şəkildə tapmışdır.

Ana tərəfdən olan qohumlara sitayiş, əslində, anaxaqanlığın əriyib getməkdə olan gücünə işarədir. Dastanda bu hala İç Oğuzla Dış Oğuzun münaqişəsindən bəhs edən boyda rast gəlirik. Dış Oğuz bəylərini İç Oğuza qarşı mübarizəyə təhrik edən Aruz Qoca həm də bəylərbəyi Salur Qazanın dayısıdır. Oğuz cəmiyyətinin butövlüyünü qorumaq, onun sonrakı daha dərin parçalanmasının qarşısını almaq məqsədilə Salur Qazan dayısı Aruz qocanı cəzalandırır və qarşıdurmada onu qardaşı Qaragünəyə öldürtdürür. Dayıya sitayiş bu situasiyada kəskin şəkildə deformasiyaya məruz qalır. Dastandakı bu məqam cəmiyyətin, hətta altşüurda belə, anaxaqanlıq dəyərlərindən birdəfəlik ayrılmasına işarə edir. Dastanın formalaşmasının qədimliyinə, tarixəqədərki dövrə aidliyinə dəlalət edən daha bir dəlil kimi məhz avankulatı göstərə bilərik.

Banuçiçəyin istəklilәri

Dastan boyu biz üst qatda Banuçiçəyin bir həqiqi, yeganə istəklisini görürük: bu, Baybecan bəyin oğlu, Salur Qazanın inağı, yəni, sevimlisi Bamsı Beyrəkdir. Amma Dastanın alt qatında Banuçiçəyə vurğun olan, yaxud onu fürsət düşərsə qaçırıb özünə arvad eləmək istəyən personajlar var. Banuçiçəyi istəyənlərin (istəklilərin) sayı, beləliklə, bir neçə nəfərə çatır. Bunlar Bayburd qalasının bəyi, Yalançı oğlu Yalıncıq, Basat, Uruz və əlbəttə ki, Beyrəyin özüdür.

Bayburd bəyinin istəyini biz bir konkret yerdə görürük. Casus Banuçiçəklə Beyrəyin toyu olacağı xəbərini Bayburda çatdırdığında ona belə deyir: *Baybecan bəy əvvəl sənə verəcəyi qızını Beyrəyə verir.* Deməli, belə çıxır ki, Bayburd bəyi Dastanın görünməyən (qaranlıq) tərəfində Banuçiçəyi özünə istəyibmiş. Və ən vacibi: Bayburd bəyi ilə Dış Oğuz bəyi Baybecan arasında belə bir yaxınlıq üçün kifayət dərəcədə isti münasibət mövcud imiş.

Yalançı oğlunun istəyi bizə üst qatdan – sayrışmanın işıqlı tərəfindən məlumdur. O, yalandan Beyrəyin ölüm xəbərini gətirir və Banuçiçəyə bu şəkildə sahib çıxmağa çalışır.

Basat haqda Beyrək ölüm ayağında belə deyir: Qazan özünü mənə yetirsin. Yoxsa Aruz oğlu Basat gələr və ağca üzlü halalımı alıb gedər. Basat "mövzusu" da beləcə ortaya çıxmış olur.

Qazan oğlu Uruz isə yenə də Beyrəyin son sözlərində özünü göstərir. Beyrək ölüm ayağında belə deyir: Qazan gəlsin və ağca üzlü halalımı oğlu Uruza alsın.

Beləliklə, Banuçiçəyin adı beş nəfərin adı ilə bir "hallanır". Onların bəzisinin Banuçiçəyə olan istəyi Dastanın üst qatında görünür, bəzisinin istəyi (gizli istəyi!) alt qatda gizlənir. Əsl sayrışma da bu zaman özünü göstərir.

Baybecan bəy

Banuçiçəyin və Dəli Qarcarın atası olan Baybecan bəy əslən Dış Oğuzdandır. Aruz Qoca Beyrək haqqında bizdən qız almışdır deyir və onu da Dış Oğuz bəylərinin toplantısına çağırır. Dış Oğuzda, beləliklə, Beyrək Baybecan qızı Banuçiçəyi almışsa, "bizdən" sayılır. Deməli, Baybecan bəyin Dış Oğuzdan olması şübhəsizdir.

Baybecan bəy Dastan mətnindən və diskursundan sayrışan obraz kimi keçməkdədir.

Baybecan bəy sayrışmanın işıqlı tərəfində Oğuzun say-seçmə bəylərindən olsa da sayrışmanın o biri, qaranlıq tərəfi onu sözünə sadiq olmayan bir adam kimi səciyyələndirir. Beləliklə, biz Baybecan bəyi də faktiki olaraq yeni tipli qəhrəman kimi tanıya bilərik. Çünki o da bir tərəfdən bəylər tərəfindən hörmətli bir münasibətə layiq görülürsə, o biri tərəfdən Banuçiçəklə bağlı verdiyi vədə əməl etməməsilə diqqəti cəlb edir. Bir sözlə, bu Oğuz bəyi psixoloji cəhətdən yüklənmiş (həm müsbət, həm də mənfi keyfiyyətlərlə) bir obraz kimi – Yazı mədəniyyətinin amili kimi ortaya çıxır.

Bayındır xanın məclisində qara çadıra dəvət edilən bəylər içərisində iki bəy var – Baybura bəy və Baybecan bəy. Baybura bəy oğlan arzusundadır, Baybecan bəy – qız arzusunda. Və Baybecan bəy bu arzusunun həyata keçməsi üçün Allaha əl qaldırıb dua edən bəylərə belə bir söz verir: *"Əgər Baybura bəyin oğlu, mənim də qızım olarsa, mənim qızım Bayburanın oğluna beşikkərtmə nişanlı olsun".*

Bu Baybecan bəyin semantik sayrışmasında görünən işıqlı tərəfdir. Qaranlıq tərəfdəki Baybecan bə haqqında Beyrək və Banuçiçəyin toyundan bir qədər əvvəl bir daha danışılır və o yad edilir.

Toydan əvvəl kafirin casusu Bayburd qalasının bəyinə (kafir bəyinə) xəbər aparır və öz xəbərini bu şəkildə bildirir: *"Baybecan bəy əvvəl sənə verəcəyi qızını boz atlı Beyrəyə verir".*

Baybecan bəy, mətndən belə anlaşılır ki, öz qızını sonradan Bayburd bəyinə də söz vermişdir. Deməli, o, Oğuz bəylərinə əvvəldə verdiyi sözə xilaf çıxmışdır.

Beləcə, Baybecan bəy bizə həm işıqlı, həm də qaranlıq tərəfi ilə görünür, sayrışmanın hər iki tərəfində mövcudluğunu sürdürür. Epizodik qəhrəman olsa da diskurs sayəsində, əslində, dərin potensiala malik olduğunu ortaya qoyur.

Eyni zamanda biz sayrışmadakı qaranlıq tərəfin köməyilə onun oğlu Dəli Qarcarın Dədə Qorquda ağlasığmaz münasibətini də anlamış oluruq. Banuçiçəyə elçiliyə gəlmiş Dədə Qorqudu söyüb yamanlayan Dəli Qarcar qız qardaşını ölmüş atasının vəsiyyətinə uyğun olaraq Oğuzda ərə vermək istəmir, onu Bayburd bəyinə vermək üçün saxlayır.

Beyrək – Baybörənin oğlu Bamsı Beyrək

Dastan qəhrəmanları bir qayda olaraq psixoloji cəhətdən yekrəng, eynicinsli, bir növ, monumental şəkildə təsvir edilirlər. Amma mətnin içində yeni tipli, o birilərinə bədii-semantik cəhətdən bənzəməyən qəhrəmanlar da özünü göstərir. Beyrək yeni tipli Dastan qəhrəmanlarından biridir. Əksər Dastan qəhrəmanlarına xas olmayan bir psixoloji tutuma malik qəhrəmandır. Özündə müxtəlif psixoloji cizgilər daşıyır. Beyrək həm qəhrəman, həm sədaqətli, həm comərd, həm də hiyləgər birisidir. O, içində olduğu süjet xətti ilə də, öz şəxsi xarakteri ilə də yunan miflərinin qəhrəmanı "hiyləgər" ləqəbli Odisseyi xatırladır. Dastanda əsas personaj kimi iki boyda təsvir edilən hadisələrin iştirakçısıdır. Baybura bəyin oğlu, Salur Qazanın inağıdır (sevimlisidir). Dədə Qorqud ona ad qoymazdan əvvəl, on altı yaşına qədər, yəni, cəmiyyətin əsas üzvləri sırasına qəbul olana qədər o, öncə Basam, Bamsı ləqəbi daşıyırdı. Atasının bazirganlarını qarət etmiş quldurlara hücum edib mal-dövlətin yağmalanmasının qarşısını alaraq onları basıb-kəsib qəhrəmanlıq göstərdikdən sonra Dədə Qorqud ona Beyrək adı verir və beləliklə, Beyrək Oğuz cəmiyyətinin (İç Oğuzun) üzvünə çevrilir.

Beyrək İç və Dış Oğuz bəyləri arasında baş verən münaqişənin ilk qurbanı olur. Qazan xana sədaqətinə görə o, Dış Oğuz bəylərindən Aruz Qocanın qəzəbinə tuş gəlir və öldürülür. Bu ölümün başqa bir mifoloji səbəbi də vardır. Bu səbəb Beyrəyin bir qədər əvvəlki boyda əsirlikdə olarkən kafir qızına verdiyi vədlə bağlıdır. Beyrək ondan xoşlanan kafir qızına vəd vermişdi ki, əgər qız Beyrəyin Bayburd qalasından qaçmasına kömək etsə və Beyrək elinə-obasına salamat dönsə, gəlib onu halallığa alacaq. Bey-

rəyin yeganə Oğuz cəngavəri kimi dastanda ölməsi onun belə bir vəd verməsi və vədini yerinə yetirməməsilə bağlıdır. Söz verilir, amma sözə əməl edilmir və sözün müəllifi (mətnin müəllifi) Beyrəkdən intiqamını alır.

Beyrək xətti qədim yunan mifologiyasındakı Odissey xəttindəki bəzi istiqamətlərin eynidir. Bu iki xəttin hansısa qədim bir invariantın (anavariantın) bərabərhüquqlu variantları olması şübhəsizdir. Öz nişanlısının toyunda iştirak etməsi dünya eposunun (xüsusilə, yunan miflərinin) səyyar süjeti kimi oğuz qəhrəmanı Beyrəyi də öz içinə ehtiva edir. Beyrək ictimai borc anlayışını şəxsi mənafedən üstün tutan, bunu əməli işdə sübut edən, şüurlu surətdə ölümünü qəbul edən, amma dövlətçiliyə, onun təmsilçisi Qazan xana dönük çıxmayan, bunun müqabilində qətlə yetirilən faciəli bir obraz kımi "Kitabi-Dədə Qorqud" personajları arasında xüsusi, müstəsna yer tutur. O, Dastanın yeni tipli, yaddaqalan qəhrəmanıdır.

Casus

Dastanda bir sıra həlledici məqamlarda Oğuzda baş verən hər hansı əlamətdar hadisəni, vacib situasiya dəyişməsini kafirə – düşmən elinə xəbər verən naməlum personajdır. "Kafirin casusu" kimi şifrələnmiş ad altında Oğuzda kifayət qədər effektiv fəaliyyət göstərir.

Beyrəyin düşmən tərəfindən əsir edilib aparılması, Salur Qazanın evinin yağmalanması, Bəkilin ovda yıxılıb ayağını sındırması və başqa əhəmiyyətli hadisələr barədə məlumat məhz onun vasitəsilə düşmənə ötürülür. Nəticədə, Oğuz üçün düçar olduğu fəlakətli sonuclar casusun əməli işinin nəticəsi kimi özünü göstərir. Bu mənada, casusu Oğuzun düşməni kimi qəbul etmək mümkündür.

Casusun kimliyi, necəliyi bilinməsə də o, Dastanda "*yarımasın, yarçımasın*" qarğışı ilə anılır. Onun ifşa edilməsi ilə bağlı Oğuz dövlət qurumlarının bəylər tərəfindən hansısa bir axtarış aparması Dastan mətnində öz əksini tapmır. Buradan belə bir nəticə hasil ola bilər ki, casusun fəaliyyəti Oğuzda yarıleqal bir şəraitdə baş verir. Belə bir durum "oğuz – kafir" qarşılaşdırmasının kifayət qədər yumşaq rejimdə cərəyan etməsinə bir işarə kimi nəzərdən keçirilə bilər.

Casusun varlığı tamam başqa rakursdan da qiymətləndirilə bilər. "*Kafirin casusu*" adlandırılan bu şəxs vacib deyildir ki, Oğuzda yaşasın və Oğuz əhlindən biri olsun. Mətn deyir ki, Bəkilin də kafirlər arasında öz casusu var imiş. "Kafirin casusu" diskurs kimi iki üst və dərin struktura gətirir:

1. Kafirin Oğuzda yaşayan casusu (üzdəki struktur);

2. Kafirin kafir elində yaşayan casusu, yəni, kafirin Oğuz elində yalnız iş görən (yaşamayan) adamı (dərindəki struktur).

Cəmiyyət

Dastanda quruluşuna görə sabit və bütov bir cəmiyyətin təsviri verilir. Amma bu bütövlük şərti olsa da dual mahiyyətlidir. Cəmiyyətin İç Oğuz və Dış Oğuz hissələri var. Ətrafda və daxildə baş verənlərə reaksiya baxımından bu hissələr fərqlidir. Buna baxmayaraq, cəmiyyətin etnik tərkibi sadədir – türkdilli xalqlardan biri olan oğuzlardan ibarətdir. Bu cəmiyyətdə daxili və xarici münasibətlər formalaşma prosesindədir. Dövlət quruluşu kimi monarxiya sistemi mövcuddur. Bununla yanaşı, cəmiyyətin özünün zaman-zaman formalaşdırdığı prinsiplər dövlətçiliyə, başqa sözlə, cəmiyyət üzvləri arasında normal yaşam şəraiti yaratmağa xidmət edir. Ədalət, bərabərlik, qarşılıqlı hörmət, dar ayaqda köməyə yetişmənin vacibliyi, Qorqud sözünə və sazına pərəstiş və məhəbbət, Bayındır xana sitayiş, Salur Qazana itaət, Oğuz elinə sıx bağlılıq, ailədaxili normal ierarxik münasibətlər, cəmiyyət üzvünün kimliyindən asılı olmadan hüquqlarının gözlənilməsi və başqa bu kimi prinsiplər Oğuz cəmiyyətinin səciyyəvi atributlarıdır. Bütövlükdə, Dastan Oğuz cəmiyyətinin həyatının ən qədim tarixi və çox zaman mifoloji-tarixi qatlarının təsvirini də özündə ehtiva edir. Dastan cəmiyyət üçün bir körpü rolunu oynamağa çalışır. Elə körpü ki, cəmiyyətin "təbiət"dən "mədəniyyət" səviyyəsinə keçidini təmin etsin. Özünü təbiətin ayrılmaz üzvü, parçası kimi dərk edən, digər toplum üzvləri ilə mənəvi-etik, əxlaqi əlaqələrdən, təmasdan hələlik məhrum olan bir dövrdə insan "təbiət" mərhələsindən "mədəniyyət" mərhələsinə keçdikdə özü bütövlükdə mədəniləşməyə, toplum isə cəmiyyətə çevrilməyə başlayır. Cəmiyyət bütöv və tam sistemə xas olan əlamətlər toplayır və öz içindən spontan inkişaf dövrünə qədəm qoyur. Dastanda Basatın Təpəgözə qalib gəlib Oğuzu xilas etdiyi boyda təbiətdən mədəniyyətə, eyni zamanda toplumdan

cəmiyyətə keçidin mifoloji-tarixi izlərini, ədəbi-bədii modelini görmək mümkündür.

Dastanda təsvir edilən cəmiyyət açıq sistemliliyə malik bir səciyyədədir. Bu cəmiyyət dünya dəyərlərindən bəhrələnməyə, ətraf dünya ilə təmas qurmağa can atan cəmiyyətdir. Bu, Qanturalı və Selcan xatun xəttində, Beyrək – Banuçiçək – kafir qızı xəttində, Basat – Təpəgöz xəttində özünü aydın şəkildə nümayiş etdirir.

Dastanda daxilən bütöv cəmiyyətin – İç və Dış Oğuzdan ibarət Qalın Oğuzun təsviri verilir. Yalnız bir dəfə bu daxili bütövlüyün pozulması təhlükəsi özünü göstərir. İç Oğuzla Dış Oğuzun münaqişəsindən bəhs edilən on ikinci boyda Qalın Oğuz vətəndaş müharibəsinin qarşısında dayanır. Məhz cəmiyyətin öz içindən yetişdirdiyi bütövlük, səbat, qətiyyət, ənənəyə sədaqət, yeniliyə canatım kimi səciyyələr bu münaqişənin dərinləşməsinin, müharibəyə çevrilməsinin qarşısını alır. Daha dərin qatda bu boy matriarxatdan ayrılmanın başqa bir yolunu göstərir.

Cəza

İşlənmiş hər hansı bir günah müqabilində verilən hüquqi və etik-əxlaqi əvəz. Dastanda modelləşən hüquqi cəza kimi Aruz Qocanın öldürülməsini misal göstərmək olar. Onun günahı tayfadaxili nifaq salmağın yasağını pozması idi. Bu yasağı pozduğu üçün Oğuz təfəkkürü onu məhv eləməkdan başqa bir yol tapa bilmədi. Eyni zamanda Aruz Qoca Salur Qazanın dayısı olduğuna görə Qazan və qardaşı Qaragünənin Aruza şəxsən cəza tətbiq etmələri anaxaqanlığın əyani göstəricisi olan dayı kultuna (yəni, Dastanda Aruz Qocaya) zərbə kimi də qəbul edilə bilər. Dastan qədimliyinin daha bir əlaməti də elə budur.

Beyrəyin cəzası isə daha çox etik-əxlaqi müstəvidə özünü göstərir. Kafir qızına sağlıqla Oğuza varacaq olursa, gəlib onu halallığa almasını vəd edən, "*əgər almazsam qılıncıma doğranayım, oxuma sancılayım*" deyən Beyrək öz vədinə əməl etmir. Söz verir və sözə xəyanət edir. Söz də öz növbəsində onu cəzasız buraxmır. Süjet quran, dastan yaradan Söz (Mif) yeganə Oğuz qəhrəmanıdır ki, heç bir başqasını deyil, məhz Beyrəyi qətlə yetirir, ondan əvəz çıxır.

Üzdəki qatda təbii ki, Oğuzun bütünlüyünə, daxili səbatına təcavüz edən düşmənlər (kafirlər) də cəzasız qalmır. Mifoloji varlıqlar (Təpəgöz) düşmən qiyafəsinə girərkən onlara cəza ölüm şəklində verilir. Onu da unutmaq olmaz ki, Təpəgöz öz cəzasını özü verməyə çalışır. Bu onun Basata etirafında bilinir.

Ümumiyyətlə, Dastanda günah işləmə son dərəcə sərt şəkildə və digər cəmiyyət üzvlərinə sanki görk olaraq birmənalı şəkildə öz cəzasını tapır. "Günah" varsa, "cəza"sı da vardır prinsipi bu qədim dastanımız üçün keçərli bir prinsipdir və bütövlükdə cəmiyyət üzvünün sosial-mənəvi tərbiyəsinə xidmət edir.

“Dan-dansux, dan-danışux”

“*Dan-dansux*” ilk baxışda nə qədər tanınmaz şəklə düşsə də, dərindən nəzər yetirdikdə görməmək olmur ki, o, “danışmaq” feilinin kökü olan “dan” elementinin müxtəlif şəkildə təkrarı ilə formalaşmışdır. İfadə Dastan dilində işlək olan ifadədir. Söhbətə, danışığa dəvət mənasında işlənir. Nümunə kimi belə bir məqamı göstərə bilərik ki, evlənmək üçün qız seçməyə İç Oğuza, sonra Dış Oğuza baş vuran və özünə uyğun heç kimi tapa bilmədiyini deyən Qanturalını babası “*dan-dansux, oğul*” deyə bu mövzuda söhbətə dəvət edir. Müasirləşdirsək, “danışıq danışaq – söhbət edək” və bu kimi mənalara uyğun gələr.

Bəzən bu ifadəni hansısa ticarət deyimi kimi qələmə vermək istəyirlər ki, bu, qətiyyən doğru deyildir. Görünür, belə bir səhv şərh bəzirganları (tacirləri) söhbət etməyə dəvət edən Baybura bəy tərəfindən işləndiyindən və söhbətin mövzusu ticarətlə bağlı olduğuna görə ortaya çıxmışdır.

Dastanın tədqiqatçıları

Dastanın ilk tədqiqatçısı 1815-ci ildə onu elm aləminə bəlli edən alman alimi, diplomatı, şərqşünası Fridrix Haynrix fon Dits olmuşdur. Bu dövrdə Avropada və xüsusilə də, Almaniyada Şərq mədəniyyətinə, dilinə, mənəvi irsinə böyük maraq oyanmışdı. Türkiyə aşiqi olan fon Dits Prussiyanın Türkiyədə ilk səfiri olduğu vaxt orada özü üçün çoxlu sayda Şərqə dair qədim əlyazmalar yığmışdı. Bir ehtimala görə bu əlyazmaların içində "Kitabi-Dədə Qorqud" dastanının da əlyazması var imiş. Vətəninə geri qayıdandan sonra fon Dits növbə ilə bu Şərq əlyazmalarını nəşr etməyə başlayır. 1815-ci ildə növbə bizim dastana çatır. Fon Dits dastanın bir boyunu – Basat Təpəgözü öldürdüyü boyu tərcümə edir və böyük bir önsöz ilə çap etdirir.

Fon Dits dastana yüksək qiymət verir. Onu yunan mifləri ilə müqayisə edir. Təpəgözlə Polifemin (iki siklopun) müqayisəsi onu belə bir fikir deməyə sövq edir ki, Təpəgöz Polifemə görə daha qədim obrazdır.

Müasir alman alimləri Haynrix Buşhoten, Ziqlinde Hartman və başqaları dastanı həm öz-özlüyündə, həm də qədim german dastanı "Nibelunqlar haqda nəğmə" dastanı ilə müqayisəli şəkildə tədqiq etmişlər. N.Buşhoten dastanı alman və holland dillərinə tərcümə etmişdir.

Dastanın Vatikan nüsxəsi barədə ilk dəfə 1950-ci illərdə italyan alimi V.Rossi məlumat vermişdir. Vatikan nüsxəsi 6 boydan ibarətdir və bunun özünün Drezden nüsxəsindəki 12 boyla müqayisəsi ona işarə edir ki, Dastanın boyları (hekayələri) say etibarilə son bir rəqəm göstərmir. Bu gün onun daha bir boyunun (13-cü boyunun) türk alimi Ekici tərəfindən təqdim edilməsi faktının özü buna sübutdur.

Dastan tədqiqatçıları içərisində türk alimləri Kilisli Muallim Rıfat, Fuat Köprülü, Orxan Şaik Gökyay, Muharrem Ergin, Ahmed Bican Ercilasun, Osman Fikri Sərtkaya, Fikrət Türkmən, Əli Duymaz, Əli Erol, M.Ekici öz dəyərli tədqiqatları ilə qorqudşünaslığı zənginləşdirmişlər.

Rusiyalı alimlər içərisində V.V.Bartoldu, V.V.Jirmunskini, Koroğlunu, Steblevanı göstərmək olar.

Rus şərqşünas alimi, akademik V.V.Bartold dastanın rusyalı ilk tədqiqatçısı sayıla bilər. Dastanı ilk dəfə rus dilinə məhz o tərcümə etmişdir. Azərbaycanlı alimlər Həmid Araslı və Məmmədhüseyn Təhmasib Bartoldun tərcüməsini 1950-ci ildə Azərbaycanda çap etmişlər. Daha sonra bu tərcümə Rusiyada (V.V.Jirmunskinin və N.A.Kononovun redaktəsində) işıq üzü görmüşdür.

Rusiyalı akademik V.V.Jirmunski dastanı türk qəhrəmanlıq dastanı kimi tədqiq edərək onu başqa türk dastanları ilə müqayisəli şəkildə öyrənmişdir.

Azərbaycan alimləri Əmin Abid, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Əbdüləzəl Dəmirçizadə, Məmməd Arif, Əli Sultanlı, Şamil Cəmşidov, Fərhad Zeynalov, Samət Əlizadə, Tofiq Hacıyev, İsa Həbibbəyli, Rəhman Bədəlov, Muxtar İmanov, Aydın Talıbzadə, Niyazi Mehdi, Kamran Əliyev, Kamil Vəli, Arif Acaloğlu, bu sətirlərin müəllifi və başqaları "Kitabi-Dədə Qorqud" dastanını dil, ədəbiyyat, tarix, mədəniyyətşünaslıq baxımından geniş və ciddi tədqiqata cəlb etmişlər.

Demokratiya

Ciddi yanaşsaq, Dastanda xalq hakimiyyətinin izinə belə rast gəlmək nıümkün deyil. Feodal adət-ənənələrinin tərənnümündən ibarət olan Dastanı zadəganlar və cəngavərlər haqda dastan kimi qəbul etmək daha düzgündür. Bu faktın özü Dastanın repressiya olunmasına səbəb olan amillərdəndir. Dastanda "yüksək təbəqələr"in tərənnümünü qəbul edə bilməyənlərdən biri repressiyaya çağırış edənlərin rəhbəri Azərbaycan bolşeviklərinin başçısı M.Bağırov olmuşdu. Belə ki, Dastan repressiyaya uğrayanda elə M.Bağırov tərəfindən ona qarşı irəli sürülən ən kəskin ittihamlardan biri yüksək təbəqəyə məxsus insanları tərənnüm etməsi idi.

Amma ədalət naminə onu da deməliyik ki, Dastanda demokratik elementlər də özünü sıx-sıx göstərir. Bu istiqamətdə diqqəti ən çox "ədalət" anlayışı ilə bağlı məqamlar çəkir. Burada, demək olar ki, ilkin demokratik prinsiplər özünün qədim bərabərlik, ədalət mahiyyətində yaşayır. Ümumiyyətlə, Dastanda demokratik prinsiplərdən daha çox demokratik əhvaldan danışmaq daha doğru olar. Məsələn, Beyrəklə naibləri arasında baş verə biləcək münaqişə belə bir "demokratik" üsulla yoluna qoyulur. Beyrək nişanlısı Banuçiçəyin ona göndərdiyi qızıl qaftanı geyməsinin naiblərinin heysiyyatına toxunduğunu duyaraq belə deyir: "*Bu gün mən geydim, yarın naibim geysin, qırx günə təkin sıravardi geyəyin"*. Sonralar Beyrək həbsdə olarkən haman yaxud ondan alınan köynəyi qana bulayıb Beyrəkdən qalmış yadigar kimi Banuçiçəyə Yalançı oğlu göstərir. "Demokratik" yanaşma Beyrəyə beləliklə baha başa gəlir.

Və yaxud Təpəgözə kəsim kəsərək gündə yeməyə iki kişi və onlarla qoyun verirlər. Kimliyindən asılı olmayaraq üç oğlu olan birini verir, ikisi qalır, ikisi olan birini verir, biri qalır. Bərabərlik və ədalət ibtidai cəmiy-

yətdə özünü bu şəkildə göstərir. Bəylə çoban arasında fərq qoyulmur. Ədalət prinsipi demokratiyanın əsas özül prinsipi kimi və onu da qeyd edək ki, hələlik yeganə təmsilçisi kimi çıxış edir.

Bir çox hallarda Salur Qazanın, yaxud Bayındır xanın hər hansı ciddi qərar qəbul etdikləri zaman bəylərə "*bəylər*" deyə müraciətini də bu qəbildən olan element kimi qiymətləndirmək olar. Qəbilə başçısının "bəylər!" müraciəti qərarın hamılıqla qəbul edilməsinin simvolik işarəsidir. Birgə ov təşkili, birgə akına çıxmaq çağırışı düşmən üzərinə yürümək və ya darda qalan yoldaşa kömək etmək məqamında dərində olsa da demokratik yanaşmanın rüşeymini görmək mümkündür. Orası da var ki, say-seçmə bəylər bir-bir irəli atılan təklifə münasibət bildirir.

Eyni zamanda Salur Qazanın ildə bir dəfə evini öz qəbilədaşlarına yağmalatması – malının, dövlətinin hamıya paylanması da qədim Oğuz cəmiyyətində mövcud olan primitiv demokratik əhvaldan xəbər verir.

Ətrafa demokratik baxışın ifadəsi kimi düşüncədə gedən prosesləri də unutmaq olmaz. Dastan qeyri-səlis məntiqlə düşünməyin tərzini ortaya qoyur. Aristotelin "üçüncünü istisna" qanunu Dastan mətnində öz istisnasını tapır. Məsələn, "bu adam ya ölüdür, ya diri" hökmündə üçüncü halında ola bilməsi Dastan mətnində özünü göstərir. Otuz yigitlərinin "kiçicik ölüm" dedikləri hal nə diriliyə, nə də ölülüyə aid edilə bilir. Bu, üçüncü bir haldır. Qeyri-səlis məntiqin özü ilə gətirdiyi üçüncü hal isə artıq seçimin genişlənməsi və təbii ki, demokratik əhvalın daha da bərqərar olması deməkdir.

Dəlilər

Dastanda bir sıra cəngavərlərin adının önündə "dəli" ləqəbi işlədilir: Dəli Domrul, Dəli Dondar, Dəli Qarcar və başqaları.

"Dəli" ayaması bizə şifahi ədəbiyyatdan, xüsusilə də "Koroğlu" dastanından yaxşı bəllidir. Əlbəttə ki, biz dastandakı dəliləri bu sözün indiki mənası ilə qəbul etmirik. Dəlilik uzaq Oğuz cəmiyyətində xəstəlik anlamında dərk edilən bir duyum deyildi. Dəli olmaq, dəli "rütbəsi" qazanmaq adi cəmiyyət üzvünün mövcud davranış prinsiplərindən kənara çıxmaq, gözlənilməz qərarlar qəbul etmək, adilərdən fərqlənmək deməkdir. Buna bariz misallardan biri Dəli Domrulun hərəkətidir. O, qurumuş bir çayın üzərinə sınıq körpü tikdirmiş və keçəndən otuz üç axça alırmış, keçməyəndən döyə-döyə qırx axça. Bu, məişət səviyyəsində dəlilik sayıla bilər. Amma Dastanda bununla yanaşı, siyasi-ideoloji səviyyədə də dəlilik nümayişi özünü göstərir. Dəli Qarcar buna ən yaxşı nümunədir.

Dəli Qarcar Dış Oğuz bəylərindən Baybecan bəyin oğlu, Banuçiçəyin qardaşıdır. Onun dəliliyi adi dəlilik deyil. Bu dəlilik Oğuz bəylərinin hamısı tərəfindən mənəvi rəhbər kimi tanınan Dədə Qorquda qarşıdır. Qız qardaşını – Banuçiçəyi Beyrək üçün istəməyə gələn Dədə Qorquda əl qaldıran, onu hətta öldürməyə qalxan, hədələyən, ona qarşı hörmətsizlik nümayiş etdirən dəli Qarcarın bu hərəkətinin arxasında (sayrışmanın qaranlıq tərəfində) nə durur?! Dədə Qorqudun Dastandakı möhtəşəmliyinə zərbələr endirməklə Dəli Qarcar, əslində, nəyi qorumağa çalışır?!

Mətnin işıqlı tərəfində özünü göstərməyən belə bir mətləb var. O da ondan ibarətdir ki, Baybecan bəy Baybura bəyə digər bəylərin yanında verdiyi sözə xilaf çıxmış, qızını daha sonralar Bayburanın oğluna deyil, Bayburd bəyinə vəd etmişdir. Biz bu barədə Dastanın işıqlı tərəfindən mə-

lumatı yalnız çox uzaq bir yerdən, artıq Banuçiçəklə Beyrəyin toyu ərəfəsi casusun Bayburd bəyinə dediyi sözlər vasitəsilə alırıq. Casus Bayburd bəyinə xəbəri belə verir: *"Baybecan bəy əvvəl sənə verdiyi qızını Beyrəyə verir"*.

Məsələnin canı (Beyrəyin taleyi) elə bu cümlədədir. Deməli, Baybecan bəy, həqiqətən, vədinə, verdiyi sözə xilaf çıxmışdır. Çox ola bilər ki, onun mətn "səhnəsindən" birdəfəlik yoxa çıxması, söz tərəfindən unudulması elə bu dönüklüyün üzündəndir. Və Dəli Qarcarın da belə bir siyasi-ideoloji dəliliyi – Dədə Qorquda asi olması, atasının sözünə əməl etməsi kimi bir fantastik, yerinə yetməyəcək niyyətin üzərində qurulur. Digər tərəfdən, bu sayrışma bizə başqa bir mətləb barədə – Qalın Oğuzla Bayburd bəyi arasında olan normal, loyal münasibətdən xəbər verir.

Dədə Qorqud

Dastanın təsəvvür edilən müəllifi. Doğum tarixi Rəsul Əlehissalamın zamanına yaxındır. Müqəddimənin ilk cümləsinə diqqət edək: *Rəsul əlehissalam dövrünə yaxın Bayat boyundan Qorqud ata derlər bir ər qopdu.*

Dədə Qorqud eyni zamanda Dastan mətnində bir personaj kimi iştirak edir. O, Oğuz aləminin şamanı, ozanıdır. Eyni zamanda o, bir elçidir. Ritualları (adqoymanı, bağlanan sazişləri) məhz Dədə Qorqud həyata keçirir. Adət-ənənələrin, mənəvi yasaqların qoruyucusu (məs., Basatın geri, təbiətə qayıdışını ona yasaq edən) odur. Müqəddimə deyir ki, onun sözü olmasa Oğuzun heç bir müşkül işi həll olunmur. Dədə Qorqud Oğuzun mənəvi rəhbəridir. "Şaman – müəllim – ozan" xəttini öz timsalında birləşdirən odur.

Bütün bunlara baxmayaraq onu Dastan kontekstində real bir şəxs olaraq təsəvvür etmək çətindir, belə ki, Dastan öz formalaşma mənbəyini ən qədim mifoloji dövrdən götürür. Belə uzun bir tarixi dövr ərzində yaşama imkansızlığı onu unikal bir müəllif kimi qəbul etmək istəyini əngəlləyir. Bəs o zaman evi-eşiyi bilinməyən, laməkan, Oğuz igidlərinin başına gələcək bütün bəlaları qaibdən dürlü xəbərlər söyləyə bildiyi üçün bilən və bunun qarşısını almayan, beləliklə, Dastanın yaranmasını saxlayan Dədə Qorqud kimdir?!

İtalyan mədəniyyətşünası Viko, alman filosofu Şellinq Homeri qədim Yunanıstanda bir şəxs kimi yox, bir prinsip kimi qəbul edirdilər. Biz də Qorquda bu cür yanaşa bilərik. Dədə Qorqud bir prinsipdir. Oğuz elini tarixən birləşdirən prinsip. Ta qədim mif dövründən bu günə qədər

yaşayan, bəzən aşkar şəkildə, bəzən gizli şəkildə öz yaşamına davam edən prinsip. Bu ideoloji prinsip əxlaqi, mənəvi, genetik xətlər vasitəsilə müxtəlif dövrlərə aid hadisələri bir-birinə birləşdirmiş bir durumdadır. Dədə Qorqudun bir prinsip kimi nəzərdən keçirilməsi Dastanın formalaşma tarixinin çox qədim zamanlara aid edilməsinə real kömək edir.

Dədə Qorqud – prinsip kimi

Bəzən Dədə Qorqud bu əsəri (on iki hekayəti) yazan müəllif, reallıqda yazıb-yaradan bir yazar kimi qələmə verilir. Bu fikir, əlbəttə ki, reallıqdan uzaq deyil. Hər hekayənin sonunda o gəlib bu dastanı qoşan müəllif funksiyasında özünü oxucuya, yaxud dinləyiciyə "görükdürür". O zaman belə bir sual çıxır. Dədə Qorqud özü özü haqqındamı yazır?! Və biz bu günün modernist tələblərinə uyğun bir ədəbiyyat nümunəsi ilə qarşı-qarşıya durmuş deyilikmi?!

Dastana zaman-zaman bir çox əlavələr edilmişdir. İlk növbədə dinlə bağlı əlavələr nəzərdə tutulur. Eyni zamanda, bu əlavələr dastanın müəllifi ilə əlaqədar olaraq edilmişdir. Hətta bu əlavələr kateqorik şəkildə, heç bir etiraza dözməyəcək şəkildə özünü göstərir. Əsərin müqəddiməsinin birinci cümləsi belə səslənir: "*Rəsul Əlehssalam zamanına yaxın Bayat boyundan Qorqud ata derlər bir ər qopdu*". Bu o deməkdir ki, Qorqud ata peyğəmbərimizin müasiri olmuşdur. Bundan ciddi dəlil ola bilməz. Yenə də ortaya sual çıxır. Belə olarkən bir sıra təsvirlərin VII əsrdən sonrakı dövrlə səsləşməsini necə izah etmək olar?! Onların müəllifi kimdir?!

Digər tərəfdən, Dədə Qorqudun real, konkret bir şəxsiyyət olması fikrini təkzib edən ən güclü arqument kimi bunu göstərmək olar. On iki boyu təsvir edən hadisələr ən müxtəlif zaman kəsiklərini, dövrləri əhatə edir. Bunların içərisində mifoloji dövrə xas olan təsvirlər var, hətta ondan daha qədim tarixdən əvvəlki dövrlə səsləşən, relikt olaraq o dövrün əkssədası kimi yazıya gəlib çatan motivlər (nüvələr) var. "Onları da Dədə Qorqud qələmə alıb" deyə bilmək üçün biz gərək Dədə Qorqudu lazəman və laməkan bir sirli məxluq kimi qəbul edək.

Boyların tarixən gərilməsini nəzərə alsaq, eralardan əvvəl ilə eralardan sonraların bu boylarda bədii şəkildə ifadə olunmasını əldə əsas tutaraq belə deyə bilərik. Biz Dədə Qorqud adlı, əslində, real, canlı şəxsiyyətdən yox, **Dədə *Qorqud adlı bir prinsipdən*** bəhs edə bilərik. Oğuz cəmiyyətinin aparıcı şah damarı olan prinsipdən söhbət gedir. Onun əxlaqını, dünyagörüşünü, identiklik ruhunu özündə qoruyub saxlayan bu prinsip müxtəlif zamanları, müxtəlif ideyaları, müxtəlif amalları birləşdirir. "Dədə Qorqud" prinsipi bəzən aşkar, bəzən gizli şəkildə bu cəmiyyətin həyatında var olmuş, onun təbiətdən mədəniyyətə keçidini təmin etmiş, tarixin dolanbaclarından keçməsinə kömək etmiş, öz işığını oğuz cəmiyyətinin qaranlıq yolunun üstündən əsirgəməmişdir.

Dünya tarixində buna bənzər başqa bir məqamı da qeyd etmək olar. Alimlərin (məsələn, Canbatisto Viko, Şellinq) fikrinə görə, yunan tarixində Homer adlı şəxs olmamışdır. Yunan ictimai-siyasi fikir tarixində Homer adlı prinsip olmuşdur. Homer prinsipi müxtəlif yunan şəhərlərini, fəlsəfi fikir müxtəlifliklərini tarixi uzantıda birləşdirən bir mənəvi ruh kimidir.

Ümumiyyətlə, bu cür prinsiplərin yaşaması müxtəlif cəmiyyətlərin güclü xalqlara çevrilməsi işinə öz köməkliyini göstərmişdir. Prinsipə, özü də sağlam yaşama prinsipinə malik olmayan bir xalqın tarix səhnəsində bərkiyib qalma ehtimalı böyük ola bilməz. Dədə Qorqudun bir prinsip kimi qəbul edilməsi, əslində, bu dastanın qədimliyi ideyasını dolayısı ilə dəstəkləyən çox produktiv bir ideyadır. Onun şəxs kimi qəbul edilməsinin heç bir xüsusi mənası yoxdur. Dastan onsuz da ortalıqdadır. Ədəbi akkumulyasiya onsuz da – var! Onun müəllifi bir şəxs kimi varmı, yoxmu – bu, o qədər də önəmli deyil. Önəmli olan dastandan öz çıxışını götürən ideyalar, kodekslər, həyati əhəmiyyətə malik özünüqoruma energiyasıdır. Dədə Qorqud prinsipi, yaşam tərzi, münasibətlər koordinatı bu gün də yaşayır, bizim bir millət kimi hansı qədimlikdən, hansı dəyərlər sistemindən gəldiyimizi aşkar şəkildə göstərir.

Dönüklük

Dastanda dönük qəhrəman kimi ilk növbədə Beyrəyi göstərmək olar. Beyrək 16 il Bayburd qalasında düşmən əlində dustaqdır. Ona, nəhayət, Oğuz elindən bəzirganlar belə bir xəbər gətirirlər ki, nişanlısı Banuçiçəyi ərə verirlər, yaxında toyunu edəcəklər. Beyrəyin əhvalı qarışır, o pəjmürdə olur. Dastanda qeyd edilir ki, *kafər bəyinin bir "bikr"* (*bakirə*) *qızı vardı. Hər gün Beyrəyi görməyə gələrdi. Ol gün yenə görməyə gəldi. Baxdı gördü Beyrək səxt olmuş. Qız aydır: neçin səxtsən, xanım yigit?! Gəldiyimcə səni şən görərdim.* Gülərdin, oynardın. *Şimdi noldun? – dedi.*

Beyrək məyusluğunun səbəbini açıb kafir qızına bildirir. Onu canidildən sevən kafir qızı Beyrəyə belə deyir: *"Əgər səni hasardan aşağı orğan ilə sallandıracaq olursam, babana, anana sağlıqla varacaq olursan, bəni bunda gəlib halallığa alarmısan?!"*

Beyrək ona vəd verir: *"Qılıncıma doğranayım. Oxuma sancılayım əgər Oğuza sağ-salamat varacaq olursam gəlib səni halallığa almazsam."*

Hadisələr Beyrəyin arzuladığı kimi cərəyan edir, amma Beyrək vədinə əməl etmir. O geri qayıdıb Bayburd qalasını dağıdır, hətta otuz doqquz yoldaşını əsirlikdən azad edir (bir yoldaşı onun yolunda şəhid olmuşdu), amma kafir qızını halallığa almır. Yoldaşlarına qarşı sədaqət nümayiş etdirir, amma vəd verdiyi kafir qızına dönük çıxır. Dastan mətnində belə bir dönüklük cəzasız qala bilməzdi. Beyrək mətn (mifoloji düşüncə) tərəfindən cəzalandırılır. O, Dastan qəhrəmanları içərisində yeganə adamdır ki, sonuncu boyda qətlə yetirilir. Amma onu da qeyd etmək lazımdır ki, kafir qızına dönük çıxan Beyrək ölüm ayağında olsa belə ağası Qazana dönük çıxmır. Aruz Qoca onu Qazana qarşı hazırladıqları üsyana cəlb etmək istərkən ona qoşulmur. Və bunun bədəlini həyatı bahasına ödəyir.

Qeyd etmək lazımdır ki, Basat da Təpəgözü öldürərkən irəli sürdüyü ittihamlar ümumiləşsə bunlar dönüklük kimi qiymətləndirilə bilər.

Dönük Təpəgöz günahlarını boynuna ala bilir və öz cəzasını özü özünə kəsir. Onun intihar etmək istəyinin əsasında elə bu durur.

Aruz Qocanın da İç Oğuza dönüklüyü xüsusi mövzu kimi diqqəti çəkir.

Çox dərin bir yanaşmadan qiymət versək Dədə Qorqudun özü də dönüklük müstəvisində ortaya çıxa bilər. Belə ki, əgər Dədə Qorqud Müqəddimədə deyildiyi kimi qaibdən (gələcəkdən) xəbər verən bir müdrik peyğəmbərdirsə, o zaman nə üçün qəhrəmanların ölüm-dirim yoluna düşmələrinə, Beyrəyin isə ölümünə əngəl olmur?! O, irəlini görməsi ilə bunu edə bilməzdimi?! Kitab deyir ki, edə bilərdi. Və hal-qəziyyə belə isə Dədə Qorqudun qəhrəmana münasibətində dönüklük hiss edilmirmi?!

Dövlət

Dastanda "dövlət" sözü varlı, zəngin olmaq anlayışının ifadəsindən əvvəlki halı ilə çıxış edir. Burada "dövlət" deyərkən zənginlik deyil, mərifət, ağıl, qabiliyyət nəzərdə tutulur. Dastanın Müqəddiməsində gənclərə nəsihət kimi bu barədə belə deyilir: "*Baba malından nə fayda başda dövlət olmasa...*"

"Başda dövlət olması" artıq zənginlik yox, ağıllılıq dərəcəsinin göstəricisi kimi çıxış edir. Bu, zənginolma halına qarşı qoyulur və üstünlük ağıl tərəfinə verilir. Ağılın olması gəncə lazım olan əsas dəyərlərdən biri kimi qəbul edilir. "Dövlət" sözünün mənasının genişlənməsi, öz içinə zənginliyi də ehtiva etməsi artıq sonrakı dövrə məxsusdur. "Dövlət" sözünün Dastanda əsas işlənmə mövqeyi başda ağıl olması, daha geniş götürsək, mərifət, qabiliyyət sahibi olması ilə bağlıdır. Hətta qədim mətnlərdə "dövlət" bəxt, tale mənalarına uyğun gələ bilir. Bu isə artıq mənəvi keyfiyyətin maddi keyfiyyətdən daha yüksək tutulması anlamına uyğun gəlir.

Bu prosesi Avropada "talant" sözünün var-dövlət anlamından istedad, qabiliyyət ölçüsünə çevrilməsi ilə müqayisə etmək olar.

Dünya ağacı

Ağac anlayışı dastanda iki məqamda özünü göstərir.

Qazan xanın evinin yağmalandığı boyda Qazan evini-eşiyini qurtarmaq üçün düşmən üzərinə getdiyi zaman Qaraca Çoban ona qoşulmaq istərkən Qazan Çobanı bir ağaca bağlayır. Qazan düşünür ki, düşmən üzərinə Çobanla bir yerdə getməyi Oğuz içində sözə-söhbətə səbəb ola bilər. "*Qazan fikir elədi, aydır: əgər çobanla varacaq olursam, Qalın Oğuz bəyləri mənim başıma qaxınc qaxarlar. Çoban belə olmasa Qazan kafəri almazdı*". Amma Qaraca Çoban bu ağacı kökündən çıxarıb arxasına alır və yenə də Qazanın dalına düşür.

Ağacın kökündən çıxarılması dünyadakı nizamın pozulmasına işarədir. Ağacın kökü torpaqda (aşağıda), başı göylərdədir (yuxarıdadır). O, aşağı ilə yuxarını birləşdirir. Aşağı ilə yuxarı bu şəkildə isələr, bu, dünya nizamına dəlalət edər. Amma Çoban ağacı kökündən çıxarır, nəticədə, aşağı ilə yuxarı bir-birinə qarışır, dünya nizamı dağılır. Dastan mətnində nizamın dağılması Qazanın elinin, yurdunun darmadağın edilməsinə, malının, dövlətinin talan olunmasına, anasının, halalı Burla xatunun, oğlu Uruzun əsir edilib aparılmasına işarə edir. Oğuz təsəvvüründə bu ağac artıq adi ağac deyil, dünyada baş verənlərə reaksiya verən simvolik ağacdır. O, ağaclar ağacı, "ağac" anlayışının invariantıdır. Başqa sözlə, Dünya ağacıdır.

İkinci halda ağac anlayışı ilə Uruz həbsdə ikən kafirlərin Burla xatunu tanımaq üçün Qazanın oğlunu öldürüb ətindən əsir edilib gətirilmiş qırx qıza (o cümlədən, Burla xatuna) yedirmək istədikləri zaman qarşılaşırıq. Yenə də dünya dağılmış, Oğuz aləmi tar-mar olmuşdur. Uruz kafirlərin onu asmaq istədikləri ağaca yaxınlaşaraq söz söyləyir, cavanlığını xatırlayır, ağaca, bir növ, hədə-qorxu gəlir. Bu məqamda da ağac adi ağac deyil.

Həyatla ölüm arasında bir yoldur. Simvolik bir anlayışdır. Dünya ağacı kimi, ağac anlayışının anavariantı (invariantı) kimi qəbul edilə bilər.

Dastanda dünya ağacını xatırladan bir elementin olması oğuzların dünyagörüşlərində kosmik anlayışların mövcud olması deməkdir. Nizam və nizamsızlığın, yuxarı ilə aşağının, həyatla ölümün birləşdiyi bir məqamın olması deməkdir. Dünya ağacı, beləcə, mətnin semiotik dolğunluğunu qoruyub saxlayan vasitədir desək, yanılmarıq.

“Gizli Dədə Qorqud”

Bu sətirlərin müəllifinin bu ad altında silsilə monoqrafiyası işıq üzü görmüşdür. “Gizli Dədə Qorqud”un Azərbaycan, Türkiyə, Rusiya nəşrindən sonra “Sirriçində dastan, yaxud gizli Dədə Qorqud-2” adlı monoqrafiya, daha sonra “Mifdən yazıya, yaxud gizli Dədə Qorqud” (Azərbaycan, Türkiyə) adlı monoqrafiyalar bir-birini tamamlaya-tamamlaya çap olundu. Müəllifin bu istiqamətdə yazdığı sonrakı əsərləri də Dastanda aşkar deyil, gizli şəkildə özünü göstərən dil, bədiilik və ictimailik kimi məqamları təhlil edir. Bunlar “Kitabi-Dədə Qorqud” poetikasına giriş” və “Azərbaycançılıq və “Kitabi-Dədə Qorqud” dastanı” monoqrafiyalarıdır.

Əsas məqsəd Dastanda tədqiqdən kənarda qalmış bir sıra gizli məqamların üzərinə işıq salınması, belə məqamların tədqiq orbitinə cəlb edilməsi, müəyyən semantik boşluqların doldurulması idi. Nəticədə, dastanın bütün şaxələrinin bir-birilə əlaqəli, sistemli şəkildə izahı meydana çıxdı və dastanın bir çox gizli məqamlarının üzə çıxarılması bir sıra anlaşılmazlıqların aydınlaşmasına şərait yaratdı.

Gizlinlərin tədqiqi ilə, Beyrəyin bir xarakter kimi bütövlüyünü, onu özünün yunan bənzəri Odissey ilə müqayisəsinin tam olmasını saxlamaq imkanı əldə edirik.

Yaxud Təpəgözün mətndəki aşkar təsviri və onun gizlindəki təsviri bizə Dastanın yalnız normal təsvirdən ibarət deyil, həm də bu təsvirin zəngin potensial diskursunun olmasından xəbər verir.

Semantik sayrışmalardan metodik vasitə kimi istifadə edilə bilməsi özü Dastanın görünməyən, gizli tərəflərinin onun daha dolğun qəbul edilməsi üçün nə qədər əhəmiyyətli olmasından xəbər verir.

Gizli, görünməyəm Dədə Qorqud aləminə görünən Dədə Qorqud aləmindən yer-yer pilləkənlər aparır. Üzdəki, görünən tərəfdəki məntiqsiz, izahsız tərəflər qaranlıqda gizlənmiş məqamların işığa salınması nəticəsində bizim üçün yeni bir semantikada bərq vurur.

Gizli opponent

Dastanın "Müqəddimə" hissəsində Dədə Qorqud tərəfindən bir sıra nəsihətlər verilir ki, onlardan bəziləri müəyyən təəccüblə qarşılana bilər. Bu nəsihətlər bir hökm kimi səslənir. Məsələn, "*Çıxan can geri gəlməz!*" Və yaxud: "*Ölən adam dirilməz!*" Elə bil, kimsə kimisə buna inandırmağa çalışır. İnanmaq istəməyən kimisə.

Bu nəsihətləri tarixi dövrün adamına söyləməyin bir mənası varmı? Bu deyimlərin qəbul edilməsi bu dövrün adamında şüphə doğururmu? Əlbəttə ki, xeyir. Buna görə də ilk baxışda onların Dastanda işlədilməsi yersiz görünə bilər.

Amma bir qədər başqa rakursdan baxdıqda görürük ki, bu nəsihət – hökmlərin bu kontekstdə işlənməyi heç də səbəbsiz deyil. Çünki bu hökmlərin söylənişi sanki hansısa gizli opponentə – mağara dövrünün adamına bir cavab kimidir. Sanki bu gizli opponent hələ də soruşur: Çıxan can geri gələrmi? Ölən adam dirilərmi? Və şübhə edir.

Bu gizli opponent əgər bu sualı verirsə, deməli, hələ Dədə Qorquda inanmır. O hələ də ümid edir. Ümid edir ki, çıxan can geri gələcək, ölən adam diriləcək. Dədə Qorqud onu bunun mümkünsüzlüyünə inandırmağa çalışır – öz hökmü, öz qəti intonasiyası ilə.

Gizli opponent bizi mağara dövrünə, ilk Dədə Qorqud dərslərinin deyildiyi vaxta aparır.

"Görünən" söz

Dastanda bir sıra mifoloji dilçilik elementləri özünü göstərir. Bu, dilimizdə bu gün də mifoloji təsəvvürün yaşaması deməkdir. Qəhrəmanların bir-birinə dedikləri bir maraqlı ifadə bu baxımdan çox qiymətlidir. Bəri başdan qeyd eləmək lazımdır ki, bu ifadə dilimizdə bu günə qədər yaşayırsa da biz onun mifoloji dövrün elementi olmasının fərqinə varmamışıq.

"*De, baxalım nə deyirsən?*", yaxud müasir variantı "*de görüm, nə deyirsən?*" olan bu ifadə Sözün cəmiyyət üzvü üçün nə zamansa real, əyani bir güc olduğuna aşkar işarədir. Biz bu ifadənin mahiyyətinə nüfuz edərsək, ən azından təəccüb etməliyik. Necə yəni, "de görüm, nə deyirsən?" Sözü də görmək olarmı? Kitabın 2-ci hissəsi olan "Mifolinqvistika" adlı araşdırmada bu məsələ ciddi şəkildə nəzərdən keçirilir.

Qədim insan üçün isə bu deyim sözün əyani şəkildə gözə görünməsinin təsviridir. Bu insanın təsəvvürünə görə adamlar Sözü görür, ona toxunur, onun fiziki təmasını duyurdular. Sözün sahibi-mütləq olduğu zamanlar təsadüfi deyil ki, ona xilaf çıxanlar real şəkildə (ən azından mətn dünyasında) cəzalandırılırdı. Beyrək, beləcə, məhz Söz tərəfindən öz cəzasını aldı. Çünki o Sözə xəyanət etmişdi. Kafir qızına verdiyi sözə əməl etməmiş, sağ-salamat elinə-obasına gedib nişanlısı Banuçiçəyə qovuşandan sonra geri dönüb kafir qızını halallığa qəbul eləməmişdi. Verdiyi sözü tutmamışdı. Nəticədə, söz də ondan öz intiqamını almışdı.

Yalançı oğlunun da sonunda Beyrək tərəfindən cəzalandırılmasının səbəbi onun Beyrəyin ölümü ilə bağlı yalan söz deməsi idi.

Sözün mənəvi deyil, real dəyər kimi qəbul edilməsi Dastan mətninin dərinliklərindən sayrışmanın qaranlıq tərəfi kimi boylanır.

Günah

Günah və onun cəzası Dastanda aşkar və gizli şəkildə özünü göstərir. Sayrışmanın hər iki tərəfi müşahidə ediləndir.

Aşkar şəkildə günah hissi Təpəgözə məxsusdur. O, öz dərdini Basata danışır. Təpəgöz deyir:

Qalxıbanı yerimdən duram, derdim.
Qalın Oğuz bəylərindən əhdim bozam, derdim.
Yenidən doğanın qıram, derdim.
Bir kəz adam ətinə doyam, derdim.
Qalın Oğuz bəyləri üzərimə yığılıb gələ, derdim.
Qaçıbanı Salaxana qayasına girəm, derdim.
Ağır mancılaq daşla atam, derdim.
Enib daş başıma düşübən öləm, derdim...

Göründüyü kimi Təpəgöz Oğuzun başına gətirdiyi bəlalardan özünü günahkar bilir və buna görə hətta özünə qəsd etmək istəyir. Təpəgözü ədəbiyyat tariximizdə günah hissini daşıyan ilk qəhrəman kimi tanımamız lazımdır.

Gizli şəkildə günah hissini isə Beyrək yaşayır. Verdiyi sözə əməl etməməsi, əslində, günah işləməsi deməkdir və Beyrək də onu sevən Kafir qızına yalan söz verir, bununla günah işləyir. Mifoloji dünyagörüşü də bunu cəzasız buraxmır. Beyrək Dastanda yeganə müsbət qəhrəmandır ki, qətlə yetirilir.

Hərbi hiylə

Savaşın necə aparılması ilə bağlı Oğuz cəmiyyətinin dünyagörüşü bəllidir. Tərəfdar və düşmən anlayışlarını, bundan doğan nəticələri bu cəmiyyətin əsas təbəqələri yaxşı bilir. Gənc nəslin bu bilgilərə yiyələnməsi isə tədricən baş verir. Dastan bu istiqamətdə bir dərslikdir desək, səhv etmərik. Üstlərinə düşmən gəldiyi zaman məqamın gərginliyini nəzərə almayan gənc Uruzun öz atası Salur Qazana verdiyi sualı xatırlayaq. O sual təsadüfi sual deyildi. "Yağı" sözünü ilk dəfə eşidən Uruz soruşur: "*Ata, yağı nəyə derlər?!*" Atası da təmkinlə oğlu ilə "yağı nədir, onunla necə rəftar edərlər?" kimi mövzularda söhbət aparmağa başlayır.

Hərbi mövzunun bir vacib istiqaməti də "hərbi hiylə"dir. Bu barədə dastanda ayrıca izahedici informasiya yoxdur, amma təsvir səviyyəsində hərbi hiylədən bizim qəhrəmanlar istifadə edirlər deyə bilərik.

Qazan elini, yurdunu-yuvasını, arvadını, anasını, oğlunu əsir edib aparmış düşmənlə qarşı-qarşıya gəlir. Savaşdan əvvəl Qazan yanındakı Qaraca Çobana deyir ki, *qoy əvvəlcə kafirdən anamı istəyim, at ayağı altında qalmasın.*

Sonra Qazan düşmənlə danışıq aparır: *nəyimi oğurlayıb gətirmisən, sənin olsun. Evim-eşiyim, varım-dövlətim, arvadım, oğlum belə qoy səndə qalsın. Təkcə anamı ver, geri dönüm gedim.* "*Ana haqqı – Tanrı haqqı*" prinsipi burada özünü bir daha xatırladır. Ana hər şeydən – oğuldan, halaldan, mal-dövlətdən, bir sözlə hər şeydən qiymətlidir. O, hər şeyi əvəz edir. Və Qazan da anasını alıb geri dönməyə hazırdır. Mətn belə deyir. Amma sayrışmanın o biri tərəfi də var.

Unutmayaq. Qazan düşmənlə bu söhbətindən bir qədər əvvəl Qaraca Çobana demişdi ki, savaşmamış anamı bunlardan istəyim ki, savaş zamanı

at ayağı altında qalmasın. Deməli, savaş istər-istəməz olacaqdı. Və Qazanın da hər şeyini atıb savaşdan əvvəl anasını düşməndən istəməsi, əslində, hərbi hiylədən başqa bir şey deyildi.

Hərbi hiyləyə bir nümunə kimi İç Oğuzla Dış Oğuz münaqişə edərkən Aruz Qocanın hansı şəkildə hərəkət edəcəyini öyrənməyə gedən Qazanın yaxını Qılbaş ilk əvvəl Aruza Qazanın üstünə yağı gəldi deyib onu köməyə çağırır. Aruz bunu qəbul etmədiyində Qılbaş belə deyir: "Səni sınayırdım". Bunun özü də hərbi hiylənin bir təzahürü kimi qəbul edilə bilər.

Xaos

Qədim yunan dilində əsnəmə prosesi zamanı ağız boşluğunda yaranan "qaranlıq sonsuzluq" anlayışının adına "xaos" deyirmişlər. Mifoloji qavramda dünyadakı sahmandan, nizamdan, kosmik, düzənli quruluşdan əvvəlki sahmansızlığın, nizamsızlığın, qatmaqarışıqlığın ifadəsi olan xaos dastanda öz təsvirini bəzi qəhrəmanların hərəkətində və situasiyalarda tapır.

Təpəgöz obrazı öz-özlüyündə belə bir xaotik başlanğıca işarə edir və Basatın Təpəgözün başını bədənindən ayırması kainatda Yer və Göyün bir-birindən ayrılmasına və beləliklə, xaosdan kosmosa keçiddən (Dastan müstəvisində nizamlı həyata keçid!) xəbər verən məqam kimi qiymətləndirilə bilər.

Dil səviyyəsində müxtəlif quruluşlu sahmansız cümlələrin mürəkkəb sintaktik bütöv daxilində birləşməyə olan intensiyasını (canatımını) da xaosdan kosmik sahmana keçidin bir işarəti kimi qəbul etmək olar.

Qədim cəmiyyətlərdə xaotik hala (dövrə) qayıdışın yasağı mövcud olur. Xaotik halı (dövrü) təbiət təmsil edir. Aşkar şəkildə bunu Dədə Qorqudun Basata təbiətə – meşəyə qayıdışını yasaqlamasında görürük. Dədə Qorqud evdən təbiətin qoynuna – aslan yatağına qaçıb qayıdan Basata belə deyir: *Oğlanım, sən insansan, heyvanla müsahib olmagil. Gəl yaxşı at min. Yaxşı yigitlər ilə iş yürüt*.

Gizli şəkildə belə yasaqla "Qarşıdurma" boyunda rastlaşırıq. Konkret məqamla bağlı qatmaqarışıqlıq kimi qiymətləndirilə bilən belə bir hal Qalın Oğuza təfriqə salma cəhdi, başqa sözlə, xaotik situasiya yaratma təşəbbüsü kimi qiymətləndirilir. Dastanda İç Oğuzla Dış Oğuz qarşıdurması zamanı

Aruz Qoca bununla bağlı öz bacısı oğlu, hakimiyyət təmsilçisi Salur Qazan tərəfindən cəzalandırılır. Qazan xanın əmri ilə Aruz Qoca digər bacısı oğlu Qaragünə (Salur Qazanın qardaşı) tərəfindən öldürülür. İki sahmanlayıcı qardaş xaotik dayıya qarşı! Xaotik vəziyyətin aradan qaldırılması prosesi belə başlayır.

Xəbərləşmə

Xəbər (informasiya) ötürmək Dastanda hansısa xüsusi bir üsulla həyata keçirilmir. Amma yunan yaşam sistemində xəbər ötürməyin sürətli yolunu tapmışdılar. Troya müharibəsinə yollanan Aqamemnon arvadı Klitemnestraya söz verir ki, Troyanı zəbt etmə xəbərini Elladada (Yunanıstanda) hamıdan əvvəl sən biləcəksən. Bu necə olacaqdı?!

Aqamemnon nəzərdə tutmuşdu ki, qələbədən sonra Troya ilə Aqamenonun hökmran olduğu Miken şəhəri arasında dağ silsiləsindəki hər dağın başında əsgərlər növbə ilə tonqal yandıracaqdılar. Beləliklə, Troya üzərində zəfər xəbəri dağdan-dağa keçərək bir neçə saat ərzində (o dövr üçün – kosmik surət!) Klitemnestraya çatacaqdı.

Bizim Dastanda bu cür xəbərötürmə üsulu özünü göstərmir. Ağır xəbərlər yuxu ilə, heyvan və təbiət qüvvələrinin susqunluğu ilə ötürülür. Burada xəbər (hənir) deyilir, söylənir, verilir, aydırılır. Bəzən xəbərin çatdırılması real hadisənin təsviri ilə həyata keçirilir. Dirsə xanın arvadı öz oğlu yaralı Buğacı onun yanından aralanmayan köpəklərinin qaçırıb göyə uçurduqları qarğa-quzğun vasitəsilə tapır. Oğlunun yaralanması xəbəri ona bu cür çatır.

Dastandakı xəbərləşmə motivləri çoxşaxəli və rəngarəngdir. Salur Qazan tar-mar olmuş yurdu barədə bir məlumat almaq üçün su ilə, qurd ilə, köpəklə xəbərləşir. "*Qurd üzü mübarəkdir, köpək üzü mübarəkdir, su üzü mübarəkdir*" deyərək Qazan onlara dərdini söyləyir, amma bu birtərəfli olur. Salur Qazan onların sualına cavab almır. Onların susqunluğu, əslində, xəbərləşmənin komponentinə çevrilir. Salur Qazana gözlədiyi xəbəri Qaraca Çoban verir. Bu faktın özü də göstərir ki, tam xəbərləşmə Dastanda ictimai səciyyə daşıyır.

İctimai borc

Dastanda *ictimai borc* ilə *şəxsi mənafenin* püxtələşmiş ideoloji qarşıdurması özünü göstərməsə də biz bunun ilkin yaranışının şahidi oluruq. Belə bir dilemma ilə Beyrək qarşılaşır. Sonuncu boyda İç Oğuza asi olan Dış Oğuz bəylərinin toplantısına çağırılan Beyrək ya şəxsi mənafeyini seçməli və sağ qalmalıdır, ya da ictimai mənafeni müdafiə edib həyatını qurban verməlidir. İctimai mənafe burada dövlətçiliyin rəmzi olan Salur Qazana münasibətlə ölçülür. Salur Qazana dönük çıxmamaq Oğuza dönük çıxmamaq kimi qəbul edilir.

Beyrək ictimai borcunu yüksək ləyaqət və sədaqətlə yerinə yetirir. Sübut edir ki, o, nahaqdan Qazan xanın inağı, yəni, sevimlisi deyildir. Beyrək öldürüləcəyini bilsə də Qazanın Dastanda deyildiyi kimi "çörəyini tapdalamır", yaxşılıqlarını unutmur. O, Qazanın ayağını vermir, Dış Oğuzun avantürasına qoşulmur və nəticədə, Aruz Qoca onu ağır yaralayır.

Bu cür rüşeymvari olsa da ictimai borcla şəxsi mənafenin Dastan düşüncəsində üzbəüz durduğu məqamlarla rastlaşa bilirik.

“Kitabi-Dədə Qorqud” – repressiya qurbanı

Dastan sözün əsl mənasında fiziki şəkildə repressiya qurbanı olmuşdur. Onu öyrənməyə, oxumağa, təbliğ etməyə əməlli-başlı qadağalar qoyulmuşdu. Əslində, biz repressiya qurbanı olan şəxsləri tanıyırıq, amma “Kitabi-Dədə Qorqud” bir dastan olaraq, xalq nəfəsinin ərsəyə gətirdiyi mətn olaraq bilavasitə repressiyaya uğramışdır desək, səhv etmərik.

Fon Ditsin 1815-ci ildə dastanı elm aləminə təqdim etməsindən sonra onu həm avropalı, həm rusiyalı, həm də türkiyəli və azərbaycanlı tədqiqatçılar öyrənməyə başlayır. İtaliyalı Rossi, Kilisli Müəllim Rifat, ondan sonra Əmin Abid, Salman Mümtaz, Həmid Araslı, Muharrəm Ergin, Orxan Şaiq Gökyay, Məmməd Arif, Məmmədhüseyn Təhmasib, Əbdüləzəl Dəmirçizadə, Əli Sultanlı kimi alimlər və başqaları dastanı öyrənməyə, tədqiq və təbliğ etməyə başlayır. Rus alimlərindən V.V.Bartold dastanı rus dilinə tərcümə edir və bu tərcüməni 1950-ci ildə Azərbaycan alimləri Həmid Araslı və Məmmədhüseyn Təhmasib Bakıda çap edirlər. Məhz bundan sonra sovet ideologiyasının repressiya maşını işə düşür.

Azərbaycan bolşeviklərinin rəhbəri Bağırov partiya konfranslarında öz çıxışları ilə dastana qarşı bir çox Azərbaycan alimini “səlib” yürüşünə təhrik edir. O, dastanı zərərli, xalqlar dostluğuna zərbə vuran, adət-ənənələrimizə zidd, yabançı həyat tərzi aşılayan, Zaqafqaziyaya soxulmuş Oğuz qəbilələrinin yüksək təbəqələrini tərənnüm edən, mürtəce burjua millətçiliyini içinə yığmış ziyanlı bir əsər kimi damğalayır. Bundan sonra Dastanı öyrənən, təbliğ edən alimlərə qarşı əsl savaş başlanır. Əsas zərbə siyasi isti-

qamətdən vurulur. Bu ideoloji savaşın puç mahiyyətini dərindən anlamaq üçün bir dəyərli Azərbaycan aliminin digər dəyərli Azərbaycan aliminə qarşı irəli sürdüyü ittihamlara diqqət yetirmək kifayətdir.

Mikayıl Rəfilinin Əli Sultanlıya qarşı əsassız ittihamlarını belə ümumiləşdirmək olar. Dastanı ciddi elmi meyarlar əsasında təhlil edən, onun Azərbaycan ədəbiyyatında, eləcə də, dünya ədəbiyyatında tutduğu mövqeni araşdıran, Ditsdən sonra onu ilk dəfə yunan dastanları ilə sistemlilik çərçivəsində müqayisə edən, beləliklə də dastana dünya dastançılıq elmi səviyyəsində qiymət verən Əli Sultanlı gözlənilməz şəkildə Mikayıl Rəfili tərəfindən sırf partiya xəttilə ittiham edilir və onun baxışları qeyri-elmi elan edilir. Bu "qeyri-elmi" baxışlar Mikayıl Rəfiliyə görə aşağıdakılardan ibarətdir:

1) Əli Sultanlı Dastanı qədim Azərbaycan dastanı adlandırır və onun epik, lirik, drama ədəbi növlərini özündə birikdirdiyini iddia edir,

2) Əli Sultanlı Azərbaycan dramasının başlanğıcı Dastandadır nəticəsinə gəlir,

3) Əli Sultanlı Dastanı tipik bir qəhrəmanlıq dastanı kimi təqdim edir.

Elə bircə bu göstərir ki, siyasi repressiyaya dastanla bahəm, həm də onu qoruyan, ona dəyər verən, onu sevə-sevə öyrənən neçə-neçə sağlam mövqeli alimlər uğrayır. Amma zaman keçdi və bolşeviklər partiyasına kortəbii şəkildə xidmət göstərməyə can atan alim və yazıçıların dastana və dastansevərlərə "qəzəbi" qara duman kimi uçub getdi. Zaman göstərdi ki, Mikayıl Rəfilinin özünün qeyri-elmi yanaşım tətbiq edərək qeyri-elmi adlandırdığı fikirlər, əslində, həqiqi elmi fikirlər imiş. Haqlı çıxan Mikayıl Rəfili yox, Əli Sultanlı oldu.

Dastana qarşı repressiyasını iki mərhələyə ayırmaq mümkündür.

Repressiyanın 1-ci mərhələsi "səssiz" mərhələ adlandırıla bilər. Millətin tarixən formalaşması dövrünü müşaiyət edən dastan Fon Ditsin nəşrinə qədər tanınmırdı desək, səhv etmərik. Fon Ditsin təqdiminə qədərki dövrdə dastan müsəlman ideologiyasının repressiyasına uğramışdır desək də səhv etmərik. Onun mədrəsələrə, elm ocaqlarına, geniş xalq kütlələrinə nüfuz etməsi faktiki olaraq müxtəlif maneələrlə yasaqlanmışdı. Hətta tədqi-

qatçıların qeyd etdiyi kimi dastan mətninə sonradan başqa rəngli saplarla yamaq edilmiş müsəlman mədəniyyətinin izləri (Əli Sultanlı) belə ona qarşı bu repressiyanın qarşısını ala bilməmişdir. Qeyd edə bilərik ki, buna səbəb dastandan gələn bütpərəstlik qoxusunun aradan götürülmə şansının olmaması, mətnin dərin köküdə islam əlamətlərinin faktiki olaraq yoxluğu idi. Yoxsa bir çox, bəlkə də əksər, bəlkə də istisnasız Azərbaycan klassiklərinin – Nizaminin, Nəsiminin, Xətainin, Füzulinin, Vaqifin və başqalarının əsərlərində Qorqudun nəinki real izi, hətta ruhundan belə əsər-əlamət yoxdur. Onlar isə istisnasız olaraq zəmanələrinin oxumuş adamları idilər. Belə çıxır ki, bilik arsenalı sayılan mədrəsələrdə də Dastana aid heç bir informasiya yoxdur. Onu, sadəcə, gizlətməyiblər, yox, onu, sadəcə, tanımayıblar. "Dədə Qorqud" mədəniyyəti islama uyğunlaşdırılmadığından Qorqud ruhuna xas Bayındır mədəniyyəti bu klassiklərin əsərlərindəki islam ruhunun "zindanında" səssizlik içində uyumaqda olublar.

Repressiyanın 2-ci dövrünü "səsli", bəlkə də daha çox "qışqırtılı" repressiya dövrü kimi ayırmaq olar. Bu repressiyaya bolşevik repressiyası da deyə bilərik. 1950-ci ilə qədər gizli, səssiz qalan repressiya dövrü Bartoldun əsəri Azərbaycanda çap edildikdən sonra öz qurbanlarını "qəbul etməyə" başladı. Özü də bu qurbanlar təkcə Azərbaycanda deyil, Türkmənistanda da müəyyənləşdirildi, partiya rəhbərləri orada da Dastana qarşı ideoloji hücumlar təşkil etdilər və qorqudşünas alimlər Karrıyev və Kosayev həbs edilib kimi əzaba düçar edildi, kimi də öldürüldü.

2-ci dövr repressiyasının üzdə olan əsas səbəbi, Azərbaycan bolşeviklərinin rəhbəri Bağırovun dediyi kimi, bu əsərin mürtəce burjua millətçiliyini içinə yığması, azərbaycanlılara yabançı olan həyat tərzini, adət-ənənələri sərgiləməsi, Qafqaza soxulmuş oğuzların yuxarı təbəqələrinin tərənnümü, Zaqafqaziya xalqları arasındakı dostluğa xələl gətirməsi və başqa bu kimi neqativ cəhətlərdir.

Repressiya ilə bağlı semantik sayrışmanın üzdə olmayan, qaranlıq, görünməyən tərəfində isə məsələnin əsas canı durur. "Dədə Qorqud" dastanı bolşevikləri nahaqdan hiddətləndirməmişdi. Dastanın mahiyyəti türk xalqlarının birliyi üzərindən yüksəlir. Bu birlik həyat tərzinin, dünyagörü-

şünün, adət-ənənələrin, nəhayət, dil oxşarlığının mövcudluğunda özünü göstərirdi. Azərbaycan xalqının türk xalqları ilə (xüsusilə də, Türkiyə ilə) belə bir birliyi sovet ideolojisinə kökündən zidd olan bir perspektiv idi. Böyük Türk birliyinə aparan perspektiv idi. Buna isə sovet ideolojisində yol vermək olmazdı. Səsli repressiyanın əsl səbəbini burada axtarmaq lazımdır.

Körpü

Dastandakı maraqlı qəhrəmanlardan biri də Dəli Domruldur. Onunla bağlı xüsusi bir boy təqdim edilir. Dəli Domrulu təqdim edən Dastanın onunla bağlı ilk xarakteristikası bundan ibarətdir ki, o, suyu gəlməyən quru bir çayın üzərindən sınıq bir körpü tikdirmişdir və keçməyəndən döyə-döyə qırx axça, keçəndən isə otuz axça alırmış.

Körpü mifoloji təsəvvürdə asandan çətinə, qaranlıqdan işığa, kiçikdən böyüyə, anlaşılmazdan anlaşılana doğru keçid kimi diqqəti cəlb edir. Dastandakı mifoloji diskursa görə isə körpü eyni zamanda həyatdan ölümə və geriyə məqamlarını simvolizə edir.

Bütövlükdə götürdükdə, biz Dastanın özünü hətta bir körpü kimi təsəvvür edə bilərik. Dastan Oğuz cəmiyyətini mif aləmindən yazı aləminə (Təbiətdən Mədəniyyətə) keçirən bir mənəvi körpüdür. Dünyanı mifoloji dünyagörüşü ilə qəbul və dərk edən cəmiyyət yeni mədəniyyət tərzinə asanlıqla keçməmişdi. Dil və üslub, ədəbi dəyərlər, psixoloji duyumlar, gerçək və fantastik yaşantılar, bir sözlə, cəmiyyət həyatının hər hansı bir xətti üzrə həyata keçirilən bu keçid ağır bir inkişaf yolu ilə reallaşmışdı. "Dədə Qurqud" körpüsü etibarlı körpü oldu. Təsəvvürü zədələmədən keçidi təmin edə bildi.

Küçücük ölüm

Dastanda qəhrəmanlar tez-tez hansısa hadisənin ən məsuliyyətli məqamında qəflətən yuxuya gedirlər. Qanturalı Selcan xatunla Oğuza gedən yolun ortasında dincəlmək üçün düşərgə salarkən yuxuya gedir. Hətta Selcan xatunun atasının peşman olub onların dalınca göndərdiyi hərbi qüvvənin gəlişindən, Selcan xatunun bu hərbi qüvvə ilə təkbaşına mücadilə aparmasından belə xəbəri olmur.

Salur Qazanın da əsir düşməsinin əsas səbəbi yuxuya getməsidir. Dastan deyir: *Qazanı küçücük ölüm tutdu, uyudu. Məgər xanım, Oğuz bəyləri yeddi gün uyur idi. Anın üçün küçücük ölüm derlərdi.*

Bugünkü tibbin dili ilə desək, belə ağır yatmağın bir adı ola bilər. Daş kimi belə yatmağın adı komadır. Deməli, qəhrəmanlar belə yatmaqla komaya girirmişlər. Və əminliklə demək olar ki, komanın o dövrdəki adı "küçücük ölüm" olmuşdur.

Aristotel formal məntiqinə əsasən, əgər insan ya ölü, ya diri (üçüncü hal istisnadır!) ola bilirsə, qeyri-səlis məntiqə əsasən bu ikisinin – həyat və ölümün arasında üçüncü də ola bilərmiş. Bu üçüncü "küçücük ölüm"dür.

Qayıdış ritualı

Dastan mətni bir çox qədim ritualları özündə bədii şəkildə modelləşdirir. Bəzən bu ritualın nüvəsini tapmaq çətin olur. Ritualın canı müxtəlif zaman kəsiklərindən keçib gələn Dastan mətnində az qala tanınmaz şəklə düşür. Ən qədim rituallardan biri kimi qeyd edə biləcəyimiz məhz "Qayıdış" deyə adlandırdığımız ritualdır. Bu ritual çox qədim zamanlarda formalaşmış və qədim cəmiyyətin yaşamasını təmin edən bir özünümüdafiə sistemidir desək, səhv etmərik.

Ritualın əsas sxemi bundan ibarətdir. Levi Bryulun qeyd etdiyi kimi, primitiv cəmiyyətlərə belə bir adət xas idi. Cəmiyyətdən uzun zaman ayrı düşmüş və ölmüş sayılan birisi yenidən geri qayıdırsa, onu öncə bir qadının yanına salır, bir növ, bu qadının "köynəyindən keçirirdilər". Bu adam sanki yenidən doğulurdu. Qadın onu cəmiyyət üçün yenidən doğurdu. Bundan sonra cəmiyyət onu qəbul edirdi.

Oğuzda hamının ölmüş bildiyi Bamsı Beyrək on altı il ayrılıqdan sonra Oğuza qayıtmışdır. O öz nişanlısının toyunda ozan kimi iştirak edir. Ozanı gözü tutan Qazan xan "*bugünkü bəyliyim bunun olsun, nə istərsə "verin*" deyir.

Beyrəyin istədiyi bu olur: qadınların yanına getmək! Bu istəyin üst və alt qatı var.

Üst qatda bu istək Beyrəyin öz sevdiyi Banuçiçəyi görməsi, özünü ona tanıtmasıdır.

Alt qatda isə Beyrəyin qadınların yanına getmək istəyi özünün qadınlar tərəfindən yenidən doğulmasını təmin etmək istəyi ilə bağlıdır. Bu dərin qatdakı istəyin mənası yenidən cəmiyyətə daxil edilmə ritualından keçməkdir. Bunun üçün də Beyrək ilk olaraq qadınların yanına getmək istəyir.

Qaba Ağac, Qoğan Aslan

Dastanın ən qədim boylarından olan "Basatın Təpəgözü öldürdüyü boy"da Basatın Təpəgözə verdiyi cavabda o, anasının və babasının kim olduğunu Təpəgözə belə bildirir:

Atam adın sorar olsan – *Qaba Ağac*.
Anam adın der isən *Qoğan Aslan*.

Qaba Ağac və Qoğan Aslan adları qədim, primitiv insanın özünü təbiətin bir hissəsi saydığı mifoloji dövrdən yadigar qalmış adlardır. Dastanda Təbiətə (sazlığa) sədaqəti ilə xüsusi seçilən qəhrəman Basatdır. Onu sazlıqdan (Aslan yatağından) alıb Aruz Qocanın – əsl atasının evinə gətirdikdən sonra geri qayıtmaması üçün bəylər (oxu: cəmiyyət) Dədə Qorqudu çağırıb nəsihət etməsini istəmişdilər. Qaba Ağaca və Qoğan Aslana bağlılığı Basatın yeni təşəkkül tapan bir qəhrəman kimi Təbiətlə (aslan yatağı ilə) Mədəniyyətin (Aruz Qocanın evinin) arasında olmasına açıq-aşkar bədii işarədir.

O zaman belə bir sual doğur: Aruz Qoca kimdir? Onun arvadı – Qıyan Səlcuqun, Basatın əsl anası kimdir? Bu adlar – Qaba Ağac və Qoğan Aslan adları Salur Qazanın dayısı, Dış Oğuzun başçısı Aruz Qocanın və onun halalının gizli bir şəkildə (konspirativ) Təbiətlə ünsiyyətlərinə işarə edən adları olmasın?! Belədirsə, əsərin sonunda Salur Qazanın öz dayısını öldürməsi bu kontekstdə xüsusi məna kəsb edir. Salur Qazan təkcə dayı-

sına, sayrışmanın işıqlı tərəfini göstərdiyi kimi qalib gəlib onu məhv etmir. Sayrışmanın qaranlıq tərəfi də bizə bir sıra gizli mətləbləri açır: Salur Qazan bu amansız, amma ədalətli hərəkəti ilə (xatırlayaq: Aruz Qoca Beyrəyi qətlə yetirmiş və üsyan etmişdi) eyni zamanda Aruz Qocanın gizli şəkildə ruhunu yaşatdığı Təbiətə də mənən qalib gəlmiş, əslində, mədəniyyətin təntənəsinə yol açmışdı.

Qonaq

Dastanda qonaq anlayışı çox böyük bir məna kəsb edir. Elə bircə Müqəddimədəki bu cümlə ilə oğuzların qonaq anlayışına necə böyük dəyər verməsini aydın şəkildə görmək olur: *"Qonağı gəlməyən qara evlər yıxılsa yey"*.

Dastanın ideolojisi bundan ibarətdir: nə qədər böyük ("qara" sözü burada böyük mənasında işlənib), nə qədər zəngin (böyüklüyündən çıxış etsək) olmasına baxmayaraq qonağı gəlməyən ev olmasa yaxşıdır. Belə ev yıxılmalı evdir.

Hətta Müqəddimənin başqa bir yerində qadınları dörd növə bölərkən qonağa hörmət etməyən qadına lənət yağdıran müəllif bununla qonaq mərtəbəsinin necə yüksəkdə durduğunu bir daha ifadə edir.

Belə qonaqpərvərlik qədim xalqların çoxuna məxsus dəyərli bir keyfiyyətdir. Qədim yunanlarda bu məqamın qiyməti həm də Parisin qonağı olduğu Menelay adlı hökmdarın sarayından onun arvadı Gözəl Yelenanı qaçırmasına görə çoxları tərəfindən lənətlənməsilə yadda qalır. Parisin hərəkəti əksər allahlar tərəfindən də qonaqpərvərlik qaydalarının kobud şəkildə pozulması kimi qiymətləndirilir.

Və yaxud Heraklın evində qonağı olduğu hökmdar Admet ondan bir az əvvəl arvadı Alkestanın ölüm allahı Tanat tərəfindən aparıldığını məhz qonaqpərvərlik adətinin pozulmaması naminə gizlədir. Herakl bunu öyrəndiyində Tanatla mübarizəyə qalxır, ona qalib gəlir və Alkestanı sevimli əri Admetə qaytarır.

Dastanımız bu motivi "Dəli Domrul" boyunda ən ümumi şəkildə təkrar edir. Qədim yunanları və oğuzları birləşdirən qonaqpərvərlik adəti bu günə qədər yunan və Azərbaycan xalqlarına xas olan ən qiymətli keyfiyyətlərdəndir. Bəşəri dəyərlər kimi səciyyələndirilə bilər.

Quyu

Bu dünya ilə o biri dünya arasında körpü kimidir.

Salur Qazan əsirlikdə ikən onu bir quyuya salırlar. Və bu quyuda Qazan düşmənlərinə o biri dünyada nə ola biləcəkləri barədə danışmağa başlayır. "*Ölülərinizi at kimi minirəm*", deyir.

Quyuya düşmək o biri dünyaya düşmək kimidir. Bunun əyaniliyinə Dastanda möhkəm inanc var. Kafirlər quyudakı Qazana yalvarırlar ki, o biri dünyada bəylərinin yeddi yaşında ikən ölmüş bir qızı var, onu at kimi minməsin. Qazan razı olmur, *"ölülərinizin yorğasına minərəm... ölülərinizdə ondan yorğa yoxdur, hep ona minərəm"* deyir.

Qazanın quyudan azad edilməsi o biri dünyadan qayıtması qədər əhəmiyyətlidir.

Mədəniyyət

"Təbiət – Mədəniyyət" ikili qarşıdurmasının bir tərəfi. Semantik sayrışmanın işıqlı tərəfi. İnsan cəmiyyətinin labüd şəkildə primitiv yaşam və duyum məkanından sonrakı inkişaf etmiş, bunun üçün daha uyğun formalar tapmış mərhələsi. "Mədəniyyət" məkanında insan cəmiyyəti inkişaf edərək artıq özü-özünü dərk etməyə, özünü başqasından ayırmağa, eyni zamanda özünəuyğunlarla birləşməyə gəlib çıxır. Müəyyən yasaqlar və qadağalar sistemi yaranır. Onların nəticəsində cəmiyyət özünün primitiv dövründən yavaş-yavaş uzaqlaşmağa, müxtəlif birgəlik formaları icad edib birindən daha kamilinə keçməyə alışır. İnsan özünü canlılar sistemindəki (meşədəki – təbiətdəki) digər canlılardan ayırmağa başlayır.

Dastanda "Mədəniyyət" dönəmi öz-özlüyündə təsbit edilmiş şəkildədir. Amma onun daha bariz görünüşü "Təbiət" qarşılığının fonunda daha aydın şəkildə təzahür edir. "Təbiət" qarşılığı Dastan mətnində xeyli relikt şəkildə qalmışdır və bunun özü Dastanın formalaşmağa başladığı dövrün hansı qədimliyə aid olduğunu bir daha sübut edir.

"Basat" boyunda Dastanda təbiətdən (meşədən) ayrılıb mədəniyyətə (cəmiyyətə) qədəm basmağın ağır və əzablı keçid yolu təsvir edilmişdir. Basat itkin düşdüyü ata evinə gətirildikdən sonra yenə də boya-başa çatdığı aslan yatağına, başqa sözlə sazlığa (meşəyə) qayıtmağa can atır. "*Aruz oğlanı alıb evinə gətirdi. Şadlıq etdilər. Yemə-içmə oldu. Amma oğlanı nə qədər götürdülərsə, durmadı, geri aslan yatağına vardı. Geri tutub gətirdilər. Dədəm Qorqud gəldi. Aydır: "oğlanım, sən insansan. Heyvanla müsahib olmağıl. Gəl yaxşı at min. Yaxşı igidlər ilə eş yört".*

Qədim insanın təbiətdən mədəniyyətə keçidinin dastan mətnindəki bədii təzahürü mətnin yaranmasının hansı qədimliyə aid olmasından xəbər verir.

Mif

Mif tarixəqədərki dövrdə yaşayan insanın primitiv dünyagörüşünün sistemli ifadəsidir.

Dastan mifoloji təsəvvürlərin (insanın özünü təbiətin bir hissəsi kimi qəbul etməsi, özünə xas xüsusiyyətləri təbiətə aid etməsi, mənəvi dəyərləri real varlıqlar kimi qəbul etməsi və s.) hakim olduğu mifoloji dövrün məhsuludur, daha doğrusu, onun formalaşma tarixi bu zamandan başlayır. Mifolojinin izləri Dastanda bol-boldur. Həm söz, həm cümlə, həm də ifadə səviyyəsində bunu müşahidə etmək mümkündür. Mif əhvalı, mif ab-havası, mif ideologiyası, mif əxlaqı Dastanın mayasındadır. Onun canını, ruhunu təşkil edir.

Mif, onun ideolojisi Dastanın formalaşmasını Yazı mərhələsinədək gətirir. Bu mərhələyə yazının bədii süsləmələrdən əvvəlki bir mərhələsi kimi baxmaq lazımdır. İnsan özünəuyğun canlılarla primitiv birləşmələr kimi yaşadığı bu mərhələdə onun təsəvvürləri ətrafdakı təbiətin diktəsi ilə formalaşırdı. O, özünü təbiətin ayrılmaz hissəsi kimi dərk edirdi. Ətrafında gördüklərinə özünə xas əlamətləri şamil edirdi. "Qarşı yatan Qara dağ..." bu qəbildən olan bariz nümunədir. İnsana xas xüsusiyyətin ("yatmaq") dağa şamil edilməsi, yəni, dağın "yatması" bu dövrün səciyyəvi "bədii" təzahürüdür.

Dilimizdəki bu tipli mifoloji buxovlar bu günümüzə qədər gəlib çıxır. Sözün personə edilməsilə (insana xas yatmaq prosesini dağa şamil etmək) bağlı "de görüm, nə deyirsən?!" düşüncə tərzinə (deyiləni – görmək?) biz ilkin qədimlikdən alışqanıq. Dastan dilində də ona rast gəlirik.

Mif bədii yaradıcılığa güc verən, onun potensialında özünəməxsus dəyərlər sistemi kimi formlaşan bir dünyabaxışıdır. Meşədə, sonra mağarada yaşayan insan, onun içində olduğu primitiv cəmiyyət Mifin, əsas qoruyucusu və şərhçisidir.

Mif və Yazı

Mütəxəssislər qeyd edir ki, qədim, primitiv insanın dünyanı dərk etməsinin tarixəqədərki mərhələsi məhz mifoloji mərhələdir. Özünəxas cəhətləri təbiətdə araması və "tapması" onun əxlaqını, dünyagörüşünü formalaşdırırdı. Dastanın dilində bu qədim dövrün əlamətləri relikt şəkildə donub qalmışdır. Əgər biz Dastan dilində "Qarşı yatan Qara dağ" ifadəsinə rast gəliriksə, bu o deməkdir ki, ifadə yaranan zaman Qara dağın yatmasına həqiqətən inanıblar. Bu şəkildə özünə aid bir cəhətin – yatmağın təbiətə aid dağa da şamil edilməsi dastan dilinin qədimliyinin ən bariz ifadəsidir. Mifoloji dünya dastanı yaradan primitiv dünyagörüşlü insanın təfəkkürünün məhsuludur. "De, baxalım nə deyirsən?" ifadəsi deyilənin, yəni, sözün real, fiziki bir tutuma malik əşya olaraq qəbul edilməsinin təzahürü kimi qiymətləndirilməlidir. Mifoloji təfəkkürlə düşünən insan bədii təfəkkürün astanasına gəlib çatana qədər qarşı yatan dağın nə zamansa yuxudan oyanacağına inanır. Çıxan canın geri qayıdacağına inanır. İnanır ki, ölən adam dirilər və s. və i.a. İnsan inkişaf etdikcə, onun ətraf mühiti qavraması, beynində paralel dünyalar (süjetlər şəklində) yaranması prosesi reallığa oxşar cizgilər kəsb etdikcə bədiilik dövrü başlanır. Bu zaman hətta mifoloji süjetlər bədii şəkildə cilalanmağa məruz qalır. Yazı mədəniyyətinin "süsləmələr" dövrü başlanır.

Yazı dövrü yazının meydana gəlməsilə təşəkkül tapır. Yazı öz yaranışı ilə insan beyninə müxtəlif kodlar gətirmiş olur. Mifin hakimi-mütləqi olan Söz cümlə içində yavaş-yavaş görünməz olmağa başlayır. Cümlənin ümumi məzmunu sözü öz "bətnində" əridir. Emosiyadan fikrin ifadəsinə keçid baş verir. Mətnin ağırlıq yükünü öz çiyinlərinə cümlə götürür. Müxtəlif dil səviyyələrində cilalanma prosesi başlanır. Üslubi rəngarəng-

liyə meyil möhkəmlənir. Bənzətmələr, şişirtmələr, süsləmələr mətnin ənlik-kirşanına çevrilir. "Kimi" qoşmasının hakimiyyəti başlayır. Yazı meydanı mətn üçün geniş imkanlar açır. Böyük Füzulinin möhtəşəm misrasının ("Aldanma ki, şair sözü, əlbəttə, yalandır) doğuşu başlayır.

Dastanda biz Mifin elementləri ilə Yazının elementlərini bir-birinin yanında görürük. Dastanın son formalaşma mərhələsi, əlbəttə ki, Yazı mədəniyyətinin təsiri ilə baş vermişdir. Amma mif elementləri də asan-asan mətndən silinib atılmamışlar. Yuxarıdakı misallardan da göründüyü kimi, onlar dilimizdə özlərinə rahat sığınacaq tapıb bu günə qədər yaşamaqdadırlar. Məsələn, müasir dildə "*de görüm, nə deyirsən?*" ifadəsi dastanda özünü göstərən "de baxaq görək, nə deyirsən?" ifadəsinin bu gün də yaşayan formasıdır. Bu şəkildə mənəvi dəyər olan söz ilkin dərk edildiyi zaman real, personə edilmiş varlıq kimi, görünən varlıq kimi özünü göstərir.

Mifoloji diskurs

Diskursu, sadəcə, nitq və ya onun hər hansı parçası kimi qəbul etmək çox azdır, bəlkə də heç nə deyil. Diskurs, əslində, cümlənin özü ilə gətirdiyi real informasiyadan əlavə, potensial informasiyanın da nəzərdə tutulmasıdır. Onun, yəni, cümlənin potensialında və kontekstində olanlarla bir yerdə, yəni, diskursla bir yerdə cümlə əsl cümləyə çevrilir. Başqa sözlə, diskurs, əslində, real informasiya ilə potensial informasiyanın cəmindən ibarətdir. Təpəgöz haqda diskurs Təpəgözlə bağlı hər hansı cümlə çərçivəsindəki məlumatla yanaşı, onun mifoloji avtobioqrafiyasının da nəzərdə tutulmasını tələb edir. Yaxud Qanturalının Trabzon səfəri zamanı aşiq olduğu Selcan xatunun üç canavar qalınlığında qaftanının olması özünün metaforik potensialı ilə bir yerdə diskursdur. Bu potensiala canavarların nə üçün qızı istəməyə gələnlərin qarşısını alması, Qanturalıya Selcan xatun tərəfindən kömək edilməsi və s. də daxildir.

Mifoloji diskurs Dədə Qorqudun bir şəxs kimi mətnə daxil edilməsində də özünü göstərir. Onun haradan gəlib işini görəndən sonra hara qeyb olması əsl sirli mifoloji mətləblərdir, insanın təbiətlə bağlı olduğu vaxtı – ayrıca evinin-eşiyinin olmaması vaxtını yada salır. Ev bütün meşə, bütün təbiət idi. Adamın haradan gəlib hara getdiyi bilinməyən təbiət! Eynən Dədə Qorqudun belə bir şəraitdə yaşaması – hardan gəlib hara getməsinin bilinməməsi onun adının potensialına əlavə sirli semantik işıq salır. Onun diskursunu yaradır.

Diskurs cümlənin real informasiyasının intellektual ölçüsündən asılıdır. Elə bir cümlə ola bilməz ki, onun diskursunu qurmaq, yəni, dərinliyini, potensialını görmək (üzə çıxarmaq) mümkün olmasın.

Nəzm və nəsr

Dastanın dilini nəzmə və nəsrə bölmək istəyənlər olub və bu tədqiqatçılar öz fikirlərini cürbəcür nəzəri müddəalarla əsaslandırmağa çalışıblar.

Əslində, Dastanın dili nəzm və nəsr dilinin hələ bir-birindən ayrılmadığı mifoloji kentavr kimidir. Bu dil *eyni zamanda* həm nəzm, həm də nəsr dilidir. Belə bir birikmiş "nəzm-nəsr" dili Dastanın qədimliyinin daha bir göstəricisi kimi çıxış edir. İşığın hərəkətini həm fasiləli, həm də ardıcıl (bu ikisi eyni zamanda) təsəvvür etmək asan olmasa da, bu belədir. "Kitabi-Dədə Qorqud"un dili də eyni zamanda həm nəsr, həm də nəzm dilidir. Mütəxəssislər (O.Freydenberq) buna "ikiüzv" deyir. Bu təqdimetmə üsulu ən qədimdir, daha sonra ondan nəzm və nəsr istiqamətləri şaxələnir. "Dədə Qorqud" dastanının dili bu şaxələnməyə qədər formalaşıbdır, deyə bilərik.

Niqab

Dastan mətnində xüsusi olaraq qabardılmayan və sahibini digərlərindən fərqləndirməyə – üzünü (və özünü) başqalarından gizlətməyə xidmət edən xüsusi vasitə.

Dastanda bununla bağlı oxuyuruq: "Oğuzda dörd yigit niqabla gəzərdi. Biri Qanturalı, biri Qaraçəkur, biri oğlu Qırxqunuq və boz ayqırlı Beyrək".

Daha sonra Qanturalı haqda belə deyilir: "Qanturalı camal və kamal yiyəsi idi".

Qaraçəkur və oğlu Qırqqunıq barədə heç bir məlumat bildirilmir. Beyrək isə Dastanın əsas qəhrəmanlarından biri kimi boydan boya addımlayır.

Əslində, niqab Oğuz cəmiyyətində relikt bir inancın son işartıları kimi özünü göstərir. Onun nəyə xidmət etdiyini izah etməyi lazım bilmirlər. Belə çıxır ki, bu tərzlə Oğuzda yaxşı tanışdırlar.

Camal və kamal yiyəsi olmaq, eyni zamanda Oğuzdan uzaq ellərə gedib qayıda bilmək (Trabzona gedib qayıdan Qanturalını xatırlayaq) kimlərinsə qısqanclığına səbəb ola bilərdi. Niqab belə məqamlar üçün lazım idi və ondan bir növ "gözdən", bədnəzərdən qorunmaq məqsədilə istifadə edirdilər desək, bəlkə də səhv etmərik.

Camal və kamal yiyələri ağılla xarici görünüş gözəlliyinə biganə olmayanlardan qorunmağı qarşılarına məqsəd qoyurdular. Oğuz cəmiyyətində belə bir ideal bütövlük zövq etalonu olmağa yeni-yeni başlayırdı və niqab vasitəsilə bu bütövlüyü gizlətmək hamıda olmayana başqalarını qısqandırmağın qarşısını almaq kimi də anlaşıla bilər.

"Ol zaman..."

Dastanda nəql edilən zamanla daha əvvəlki zamanı üzləşdirmək halı kimi "ol zaman" ifadəsinə rast gəlirik. Məsələn, bu misallara diqqət edək:

1. Ol zamanda bəylərin alqışı alqış, qarğışı qarğış idi.

2. Ol zamanda bir oğlan baş kəsməsə, qan dökməsə ad qoymazlardı.

3. Ol zamanda oğul ata sözün iki eləməzdi. İki eləsə, ol oğlanı qəbul eləməzlərdi.

Müqayisə məqamını davam etdirsək hər bir misalın semantik mahiyyətini o misalın söyləndiyi məqamla müqayisə edə bilərik.

Əgər "ol zamanda bəylərin alqışı alqış, qarğışı qarğış idisə", indiki zamanda belə deyil, bəylərin alqışı alqış, qarğışı qarğış deyil.

Əgər "ol zamanda bir oğlan baş kəsməsə, qan tökməsə ad qoymazdılarsa", indiki zamanda belə ola bilər.

Əgər "ol zamanda oğul ata sözün iki eləsəydi ol oğlanı qəbul eləməzlərdisə", indi həm oğul ata sözün iki edə bilir, həm də onu qəbul edə bilərlər.

Keçmiş zamanla indiki zaman arasında fərq cəmiyyət üzvünü həmişə düşündürüb və həmişə ona elə gəlib ki, əvvəlki zaman daha ideal olmuşdur. Bu, bir müqayisə kimi dünya dastanlarının əksəriyyətindən keçir və mahiyyətcə bu qarşıdurma bəşəri xarakterlidir.

Biz isə dastan mətninin yazılış məqamı ilə təsvir məqamı arasında müəyyən (oxu: xeyli!) məsafə olduğunu fiksə etmək üçün güclü əsas əldə etmiş oluruq.

Oğuz (oğuzlar)

Oğuzlar qədim türk xalqlarının əcdadlarının genetik cəhətdən qohum bir qrupunun birləşmiş konqlomeratıdır. Oğuzlar içərisindən tarixən (X-XII əsrlərdə) azərbaycanlılar, türklər, türkmənlər, qaqauzlar oğuz türk dilinin özəlliklərini, mənəviyyatını saxlamaqla çıxmış və hər biri müstəqil xalq, millət əmələ gətirmişlər.

Dastan dövründə oğuzlar iki böyük qoldan (dual birləşmə) ibarət olmuşlar. Bunlar İç Oğuz (daxili oğuzlar) və Dış Oğuz (xarici oğuzlar) deyilən qollar idi. Bu qollar Qalın (bütöv) Oğuzda birləşirdilər. Dədə Qorqud dastanının əsas süjet xətləri (bəzi relikt məqamlar istisna olmaq şərtilə) məhz Qalın Oğuz dövrünə təsadüf edir.

Dastanda biz bəzi bəyləri İç Oğuzun, bəzilərini Dış Oğuzun nümayəndələri kimi qəbul edə bilirik. Hətta dastanda İç və Dış Oğuz birliklərinin bəzən bir-birilə düşmənçilik etmələrinin də şahidi oluruq. Məsələn, Salur Qazan Qalın Oğuzun bəylərbəyidirsə, onun dayısı Aruz Qoca Dış Oğuzun ağsaqqalıdır. Banuçiçəyin atası Baybecan bəy Dış Oğuzdandır. Beyrək İç Oğuzdandır.

Baybecan bəyin oğlu Dəli Qarcarın Dədə Qorquda münasibəti son dərəcə qəribədir. Bunu onun dəliliyilə deyil, Dış Oğuza aid olması ilə izah etsək maraqlı nəticələrə gələ bilərik. Məsələn, Baybecan bəyin öz qızını nə üçün Bayburd bəyinə ərə vermək istəyinin mahiyyətini başa düşərik. Müəyyən mənəvi dəyərlər dual birliyin hər iki tərəfi üçün eyni dərəcədə əhəmiyyətli deyil.

Birləşdirici mahiyyət olan Qalın Oğuz Dastandan göründüyü kimi, kifayət dərəcədə möhkəm deyildir. Dış Oğuzun İç Oğuza düşmənçilik edərək üsyana qalxması cəhdi bunu bizə bir daha sübut edir. Üsyanın

yatırılması isə, öz növbəsində, Qalın Oğuz birləşməsinin potensial gücündən xəbər verir və get-gedə gücləndiyinə dəlalət edir.

Beləliklə, Qalın Oğuz birliyinin həm möhkəmliyinə, həm də möhkəm olmamasına Dastanda kifayət qədər dəlil var. Möhkəmliyi ilə bağlı əsas dəlillər kimi həm də onların ən ümumi şəkildə sabit inanclarını, dar ayaqda bir-birinin köməyinə getmə qabiliyyətini, etiqad eyniliyini göstərmək olar.

Ov

Dastanda Oğuz bəyləri tez-tez ova çıxırlar. Ov zamanı onların başına cürbəcür əhvalatlar gəlir. Düşmənin casusu xəbər verir, Salur Qazanın evi Şöklü Məlik tərəfindən yağmalanır. Qazanla oğlu Uruz düşmən əsgərləri tərəfindən təqib edilir. Bəkil ilə Dış Oğuz bəyləri arasında münaqişə yaranır və s.

Maraqlıdır ki, ov əhvalı Dastanda birdən-birə yaranmır. Ova çıxmaq xüsusi hazırlıq prosesi tələb edir. Məsələn, Qazan ova çıxmağı bəylərə təklif edərkən, hətta dayısı At ağızlı Aruz Qocanın sualından sonra ("*Sası dinli Gürcüstan ağzında oturursan. Ordun üzərinə kimi qorsan?*") öz yerinə (ovda olduğu müddətə) təcrübəsiz oğlu Uruzu qoyur.

Ov bəlkə də Oğuz bəylərinin akın (yürüş) səfərlərinin dastan mətnindəki şifrəli adıdır. Bəlkə də, (əslində?) Oğuz bəyləri ov adı ilə basqına, yürüşə gedirdilər. Və əgər bu fərziyə doğrudursa, o zaman ov adının ortaya çıxması əsl niyyətin kimdənsə gizlədilməsi demək idi. Bəlkə də akına gedişin bu şəkildə gizlədilməsi Oğuzda fəaliyyət göstərən casusun əməlini əngəlləmək üçün idi.

Paralelizm

Paralelizm özünəməxsus "süsləmə" kimi üslubi vasitə olaraq müxtəlif dil və üslubi hissələrin bir-birinə uyğunlaşdırılması kimi səciyyələndirilə bilər. "Kitabi-Dədə Qorqud" dastanında paralelizmin ən müxtəlif təzahür formalarına rast gəlmək mümkündür. Sintaktik paralelizm, pilləli paralelizm, tərsinə paralelizm, variantların paralelizmi kimi üslubi süsləmələr Dastanın bədii quruluşunu bu və ya digər dərəcədə adekvat təsəvvür etməyə əsas verir.

Sintaktik paralelizmdən mətni təşkil edən cümlələrin bir-birilə qrammatik və eyni zamanda məzmun baxımından sıx əlaqəsini təmin etmək məqsədilə istifadə edilir. Paralelizm cümlələrin bir-birilə quruluş və məzmun eyniliyi və ya oxşarlığı üzərində qurulur. Bu halı cümlə səviyyəsində Xaosdan Kosmosa keçid kimi də qiymətləndirmək mümkündür. Demək olar ki, sahmana, həmahəngliyə canatım bütövlükdə harmoniyaya canatımdır və Dastanın dil səviyyəsindəki buna ən bariz nümunə sintaktik paralelizmdir. Məsələn, "*Qara-qara dağlardan xəbər aşdı. Qanlı-qanlı sulardan xəbər keçdi. Qanlı Oğuz ellərinə xəbər vardı. Uşun Qocanın ağ ban evi önündə şivən qopdu. Qaza bənzər qızı-gəlini Ağ çıxarıb qara geydi*". Cümlələrin qrammatik bazasının bir-birinə uyğun qurulması göz qabağındadır.

Sintaktik paralelizm qafiyə və vəznin formalaşmasında əsas rol oynayır. Sintaktik paralelizmin "pilləli" kimi ayıra biləcəyimiz növü Dastanın əsas təhkiyə formasıdır. Bu növ də "birpilləli", "ikipilləli", "üçpilləli" kimi yarımnövlər vasitəsilə Dastanda geniş şəkildə öz təzahürünü tapıb.

Birpilləli paralelizm eyni və ya oxşar quruluş və məzmuna malik cümlələrin bir-birini sıx kontakt şəraitdə izləməsidir: "*Sən bütlərinə yalvarırsan. Mən aləmləri yoxdan var edən Allahıma sığındım; Beyrəyi odasına yetirdilər.*

Cübbəsin üzərinə örtdülər; On iki min kafir qılıncdan keçdi. Beş yüz Oğuz yigitləri şəhid oldu".

İkipilləli paralelizmdə eyni və ya oxşar quruluşlar bir-birindən bir cümlə məsafəsi qədər uzaqlaşır, araya girən cümlələrin özü də bir-birilə paralellik prinsipi ilə nizamlanır. Nümunə: "*At təpdilər. Beyrəyin atı qızın atını keçdi. Ox atdılar. Beyrək qızın oxunu yardı.*"

Üçpilləli paralelizm zamanı paralel cümlələrin bir-birindən iki cümlə məsafəsi qədər aralanması nəzərdə tutulur. Yenə də "araya" girmiş cümlələr qoşa şəkildə bir-birilə paralellik münasibətinə daxil olurlar. Nümunə: "*Qaytabanda qızıl dəvə bundan keçdi. Törümləri bozlayıb belə keçdi. Törümcüyüm aldırmışam, bozlayayınmı?! Qaraqoçda qazlıq at bundan keçdi. Quluncuğu kişnəyib belə keçdi. Quluncum aldırmışam, kişnəyəyinmi?*"

Pilləli paralelizm müasir şeir mətnlərinin formal qafiyə sisteminin ibtidai başlanğıcı kimi səciyyəvidir.

Tərsinə paralelizm (xiazm) paralel cümlələrdən sonrakının quruluşunun əvvəlkinin quruluşuna əks olaraq işlənməsindən yaranır. Dastanın dilində buna bariz nümunənin olmaması bu növün əsasən yazı dilinə (püxtələşmiş bədii imkanlara) aidliyinə və buradan da dolayısı ilə Dastan dilinin daha çox şifahi üsluba yaxın olduğuna işarədir. Özünü göstərən nadir nümunələri tərsinə paralelizm və ümumiyyətlə, Yazı üslubuna canatım kimi qiymətləndirmək olar. Nümunə kimi bu misalı göstərmək olar: "*Nə gördü, sultanım?! Gördü, göy çayırın üzərinə bir qırmızı otaq tikilmiş".*

Burada ikinci cümlənin quruluşunun birinci cümləyə nisbətən əksinə düzümünü yalnız məntiqi meyarların köməyilə sübut etmək, başqa sözlə desək, "bərpa etmək" mümkündür. Nümunədə ikinci cümlə bütövlükdə birinci cümlənin "nə" hissəsinin semantik boşluğunu doldurmaq üçün bütünlüklə onun içinə yerləşdirilə bilər. Başqa sözlə, deyə bilərik ki, ikinci cümlədəki "görülənlər" birinci cümlədəki "nə" əvəzliyinin korrelyatıdır.

Variantların paralelizmi özünü daha çox məzmun səviyyəsində – personajların bu və ya digər hərəkət ardıcıllığının oxşarlığında, müxtəlif boylardakı süjet xətlərinin bənzərliyində göstərir. Məsələn, Salur Qazanın əsir edilməsilə bağlı ümumi, invariant məzmun ayrı-ayrı boylara eyni və ya

oxşar cəhətlərlə səciyyələnmiş variantlar şəklində "səpələnir". Ov, düyün, əsirlikdə olan qəhrəmanın azad edilməsilə bağlı mübarizə, yarış, yağma kimi situasiyalar müxtəlif boylarda oxşar variantlar kimi təsvir edilir.

Variantların paralelizmi artıq Dastan quruluşunun sərhədlərindən kənara çıxır. Qədim yunan dastanları ilə müqayisə göstərir ki, müxtəlif areallarda yaranan dastanların məzmun quruluşunda özünü aşkar şəkildə göstərən oxşar və ya eyni variantlarla qarşılaşmaq mümkündür. "Admet – Herakl – Tanat" xətti ilə "Dəli Domrul – Əzrayıl" xətti, "Odissey – Polifem" xətti ilə "Basat – Təpəgöz" xətti, "Odissey – Penelopa" xətti ilə "Beyrək – Banuçiçək" xətti şübhəsiz ki, hansısa ulu invariantın "qədim yunan – qədim Oğuz" paralel variantlarıdır.

Sadəlövh suallar

Dastan bütövlüklə böyük bir həyat dərsi kimi nəzərdə tutulmuşdur desək, səhv etmərik. Bunun həqiqiliyinə həm də ona görə inanırıq ki, yer-yer mətndə "öyrətmə" məqamları özünü göstərir. Sanki gözəgörünməz bir müəllim hansısa Oğuz gəncinə dərs verir, onun bu və ya başqa situasiyada necə hərəkət etməsini ona izah edir. Bu izahlar mətnə kifayət qədər "yumşaq" şəkildə daxil edilir. Öyrədilməsi nəzərdə tutulan gənc qəhrəman öyrədənə sual verir. Və uyğun cavabı alır. Bu suallar verilmə məqamına görə çox zaman namünasib sayıla bilər. Ona görə də onları "sadəlövh" suallar kimi ayırmaq mümkündür. Məsələn, mətn içində Salur Qazanın və oğlu Uruzun üzərinə düşmən ordusu gəlir. Məqam, əlbəttə ki, dərs məqamı deyil. Amma buna baxmayaraq Uruz atasından soruşur: "*Yağı nəyə derlər, baba?*".

Qazan heç nə olmayıbmış kimi Uruza səbrlə dərs verməyə başlayır. Bu bəs deyilmiş kimi Uruz dübarə Qazandan soruşur ki, əgər yağını öldürsən, səndən hesab istərlərmi?

Sadəlövh suallara kafir tərəfindən Bəkilin oğlundan soruşulan *"sizin dinə nə derlər?"* və Dəli Domrulun Əzrayıldan *"can verib can alan Allahmıdır?"* suallarını aid etmək olar.

Bu sadəlövh suallar və onlara verilən cavablar Dastanın ilk formalaşma çağındakı əsas funksiyasını – həyat dərsi vermə funksiyasını bir daha açıq şəkildə açıb göstərir.

Saz (qopuz)

Oğuzların və ümumiyyətlə, türk xalqlarının istifadə etdikləri musiqi aləti. Oğuzlar və türklər üçün xüsusi mənəvi, hətta mistik bir əhəmiyyətə malikdir. İlk qədim mətnlər sazın müşayiəti ilə nəql edilir, dinləyiciyə çatdırılır. Dastanın söz hissəsinin musiqi ilə çatdırılması saz sənətinin inkişafını şərtləndirmiş amillərdəndir. Dədə Qorqud dastan boyu səpələnmiş ritual mərasimlərini saz vasitəsilə həyata keçirir. Sazın gücü sözün gücü qədər möhtəşəmdir. Oğuz cəmiyyətinin üzvləri sazın kultunu qəbul edir və bu kultu qoruyurlar. Hətta saz identifikliyin təsbit olunmasında da xüsusi rol oynayır. Sazın mövcudluğu onun sahibinin Oğuz cəmiyyətinə aidliyinin göstəricisi kimi çıxış edir.

Saza hörmət naminə qəhrəmanlar bir-birinə münasibətlərini düzənləyirlər. Sazın qüdrəti sonrakı dövrlərdə də oğuzlar üzərində öz təsirini qoruyub saxlayır.

Əsirlikdə olan qardaşı Əgrəyi xilas etməyə gələn Səgrək döyüşdən qabaq yuxuya gedib yatır. Düşmənlər Əgrəyi bu igid oğlanı öldürməyə göndərir. Amma yatmış Səgrəyə baxıb Əgrək ona qıya bilmir. Səgrəyin yanında saz var, Əgrək onu alıb çalmağa başlayır. Səgrək yuxudan oyanır və tanımadığı qardaşına belə deyir: *"Mərə kafir, Dədəm Qorqud qopuzı hörmətinə çalmadım (yəni, öldürmədim səni). Əgər əlində qopuz olmasaydı, ağam başıçün, səni iki parə qılurdum – dedi. Çəkdi qopuzu əlindən aldı".*

Saza (qopuza) sitayiş cəmiyyət inkişaf etdikcə tara sitayişlə paralel olaraq işlənilir. Aşıq mahnılarından (çöl genişliyinin akkumulyasiyasından) muğam əhvalına (şəhər ruhunun daxili aləminə) keçid eyni zamanda mədəniyyətin bir tərzindən başqa tərzinə keçid kimi qiymətləndirilə bilər.

Seçim

Dastan mətnində qəhrəman qarşısında həmişə bir seçim durur. Qanturalını evləndirmək istəyən babası oğlunun Oğuzdan qız almaq istəməməsini bildikdə ona Trabzona gedib kafir qızı gözəllər gözəli Sarı donlu Selcan xatunu almağı məsləhət edir. Beləliklə, Qanturalı açıq şəkildə seçim qarşısında qalır.

Dəli Domrulun atası-anası qarşısında da seçim durur. Onlar ya canlarını verməlidirlər, ya da oğullarına yas tutmalıdırlar.

Təpəgöz Oğuzu seçim qarşısında qoyur. Ya ona yeməyə gündə beş yüz qoyun və iki adam verməlidilər, ya da çayın qabağı kəsildikdən sonra susuzluğa dözməlidilər.

Beyrək ya Bayburd həbsində xoş bir şəraitdə (kafir qızının yanında) yaşamını davam etməli, ya da həbsdən qaçmalı, özünü ərə gedən nişanlısı Banuçiçəyə yetirməlidir. Bu cür açıq şəkildə özünü göstərən seçim məqamlı misalların sayını artırmaq da olar.

Seçim dastan qəhrəmanının yaşam imkanının genişliyini göstərir. Fatallıqdan (mifoloji məkan) ayrılma mümkünlüyünü (bədii məkan) ortaya qoyur. Birxətlilikdən çoxxətliliyə aparan yola çıxarır.

Seçim məqamı açıq şəkildə olduğu kimi gizli şəkildə də özünü göstərir. Gizli seçim Banuçiçəklə bağlıdır. Dastanın gizli qatından belə anlaşılır ki, o da seçim qarşısındadır. Bu seçim xəttinin bir tərəfində Beyrək, o biri tərəfində Bayburd bəyi, Yalançı oğlu Yalıncıq, Basat və Uruz durur. Üst qatda Banuçiçəyin seçimi görümlüdür – bu, Beyrəkdir. Seçimdən kənarda qalanların üzərinə isə semantik sayrışmadan gah güclü, gah da xeyli zəif qaranlıq zərrələri düşür. Dastanda belə bir seçimin mümkünlüyünə olmasa da, hər halda mövcudluğuna işarələr vardır. Belə ki, Casus Beyrəklə

Banuçiçəyin toyunu Bayburd bəyinə xəbər verərkən deyir, *"Baybecan bəy əvvəl sənə verəcəyi qızını Boz atlı Beyrəyə verir"*.

Yalançı oğlu Yalıncıq Banuçiçəyi arvadı olaraq almaq istəyir. Bu informasiyanın çox dərin və rəngarəng, Dastanda təsvir edilməyən diskursu ola bilər.

Basatla bağlı seçimin diskursuna isə Beyrək özü işarə edir. O, ölüm ayağında Salur Qazana xəbər göndərir ki, Basat gəlmədən, halalımı alıb aparmadan özünü mənə yetir.

Yenə də Beyrək ölüm ayağında Qazana belə bir vəsiyyət edir: Qazan ağca üzlü halalımı oğlu Uruza alsın.

Banuçiçəklə bağlı seçim diskursları Dastanın zəngin potensialından, demokratik əhvalından xəbər verir.

Semantik boşluqlar

Dəqiq suallar qoysaq bu boşluqları dastan mətnində özünü göstərən sayrışmalar kimi görə bilərik. Məsələn, belə bir suala necə cavab verə bilərik – niyə Dastanda ölümə məhkum edilən yeganə bir qəhrəman vardır və o yeganə qəhrəman Beyrəkdir?

Bu sualın cavabına Dastanda işarə edilir, amma o açıq şəkildə ifadə olunmayıb. Semantik boşluqları sayrışmanın klassik forması saymaq olar. Onun işıqlı, aydın tərəfi də var, qaranlıq, gizli tərəfi də. Bu tərəflər bütün semantik sayrışmalarda olan kimi bir-birini təxmin edirlər.

Mətn mifoloji təfəkkürün məhsuludur. Mifoloji təfəkkürün ən bariz əsgəri sözdür. Mif söz vasitəsilə öz dəst-xəttini yeridir, öz hakimiyyətini təsbit edir. Söz hakimi – dövrandır. Onun az qala fiziki çəkisi var. Nahaq yerə o dövrün enerjili ifadələrindən biri də bu deyildi: "*De, görəlim, nə deyirsən?!*" Sözü canlı kimi görmək istəyiblər və təsəvvürlərində, əlbəttə ki, görüblər. Bəs belə isə bu sözə xilaf çıxmaq, onu pozmaq necə, mümkündürmü?! Qətiyyən. Səni mif dünyası hökmən cəzalandırar. Beyrək mifə qarşı çıxmış, söz verdiyini unutmuş, belə deyək, sözə xəyanət etmiş birisidir. O, həbsdən xilas olmaq üçün onu sevən kafir qızına belə bir söz verir: "*Qılıncıma doğranım, oxuma sancılım, əgər elimə, obama sağ-salamat varsam və nişanlımı alsam, gəlib səni halallığa almazsam*".

Beyrək məqsədinə çatır, amma onu həbsdən xilas edən kafir qızına verdiyi sözü yerinə yetirmir. Mifoloji düşüncədə hakimi – mütləq olan Söz aşkar deyil, gizli şəkildə ondan öz intiqamını alır. Beləliklə, Dastan personajları arasında ölən (öldürülən) yeganə müsbət qəhrəman Beyrək olur.

Semantik sayrışmalar

Mətndəki "semantik sayrışma" eynən ulduzların sayrışmasında olan kimi iki hissədən ibarətdir. Onun bir hissəsi (yaxud tərəfi) mətnin aydın, işıqlı, digər hissəsi (yaxud tərəfi) mətnin qaranlıq, gizli görüntüsündən ibarətdir. İşıq və qaranlıq hissələri bir-birini sürətlə əvəz edir. Dastanda elə anlayışlar var ki, onların dərindəki gizli mənalarını üzdəki, aydın tərəfin köməyilə anlamaq mümkündür. Məsələn, Beyrəyin nə üçün yeganə müsbət qəhrəman kimi ölməyini götürək. Bu ölüm hadisəsi semantik bütövün, yəni, sayrışmanın görünən, işıqlı tərəfidir. Bu, bir nəticədir.

Sayrışmanın qaranlıq, görünməyən tərəfi isə bu nəticənin səbəbidir. Beyrəyin kafir qızına verdiyi sözü tutmaması, vədi yerinə yetirməməsinin mifoloji təfəkkür tərəfindən cəzalandırılmasıdır. Bu da sayrışmanın qaranlıq, görünməyən, gizli tərəfidir. Semantik sayrışmalar dastan mətnində ilk baxışda anlaşılmayan məqamların üzərinə sayrışmanın işıqlı tərəfini salır, onu görümlü edir, beləliklə, mətnin bir bütöv şəkildə anlaşılmasını təmin edir.

Casus, Beyrək, Təpəgöz, Baybecan bəy, Bəkil, At ağızlı Aruz Qoca, Banuçiçək, Basat və başqaları semantik sayrışmaların içində daha dolğun, daha dərin və daha hərtərəfli görünürlər.

Dastanda dərin potensiala malik güclü semantik-məzmun qatının olmasına biz həm də məhz semantik sayrışmaların mövcudluğuna görə inanırıq.

Semiotik qarşıdurmalar

Dastandakı ikili qarşıdurmaların ən ehtivaedici olanı genişi **"Təbiət – Mədəniyyət"** ikili qarşıdurmasıdır. Dastanın mətnində biz insan cəmiyyətinin təbiətdən mədəniyyətə keçidinin ibtidai mənzərəsinin bədii modelini "Basat Təpəgözü öldürdüyü" boyda görürük. Meşədə aslan yatağında böyüyən Basatı tapıb ata evinə gətirəndən sonra Basat bu yeni həyatını asanlıqla qəbul edə bilmir, qaçıb yenidən boya-başa çatdığı aslan yatağına (Təbiətə) qayıdır. Onu tapıb geri evinə (Mədəniyyətə) gətirirlər və Dədə Qorqud gəlib ona "sən insansan, sənin yerin sənin evindir!" deyəndən sonra Basatın aslan yatağına dönmək istəyi qeyb olur. Bütövlükdə cəmiyyətin təbiətdən mədəniyyətə keçidi Basatın simasında bu şəkildə öz əksini tapır. Dastanın qədimiliyini aşkar şəkildə (əslində, gizli şəkildə) sübut edən ən etibarlı dəlil elə budur.

"**Öz – özgə**" qarşıdurması da diqqəti cəlb edir. Onun daha kəskin variantı kimi "**öz – başqası**" özünü göstərir. Oğuz cəmiyyətinin üzvünün özündən olmayan başqasına münasibətinin formalaşması gənc Uruzun öz atası Salur Qazandan "yağı" ilə bağlı bilgi alması ilə modelləşir. "Yağı nədir?" sualından "yağıya münasibət necə qurulmalıdır?" sualına keçid, əslində, oğuz cəmiyyətində özündən olana *münasibətin də* nə cür qurulmasını göstərir. "*Əgər yağı öldürsən heç kim səndən hesab istəməz*" ideologiyasına söykənən davranış tərzi cəmiyyət üzvündən eyni zamanda "*əgər Oğuz əhlindən adam öldürsən, bəli, səndən hesab istərlər*" hüquqi davranışını tələb edir.

Sevinc və kədər

Dastanda "sevinc" və "kədər" hissləri bir-birinə qarışmır, onların arasında ciddi psixoloji sərhəd var. Sevincin yalnız tam bitdiyi yerdən sonra kədər başlayır və əksinə.

Maraqlıdır ki, bu hisslərin Dastandakı ifadə tərzləri və bu tərzlərin sözlərlə ifadəsi bir-birinə uyğun gəlmir.

Sevinc hissinin Dastandakı təzahürü "gülmək" prosesidir. "Gülmək" prosesi Dastanda yalnız bir təqlidi sözlə ifadə olunur: qas-qas. Məsələn, *"qas-qas güldü"*. Gülməyi bir cür görür və bir cür ifadə edirlər. "Qas-qas" təqlidi sözü onun yeganə dil nümayəndəsidir.

Ən müxtəlif xarakterli qəhrəmanların gülüşü bu şəkildə bir-birindən fərqləndirilmir.

Kədərin isə Dastandakı təmsilçisi "ağlamaq" prosesidir. "Ağlamaq" prosesinin təsviri ("gülmək"dən fərqli olaraq) bir neçə təqlidi sözlə ifadə edilir: "*bıldır-bıldır ağladı*", "*zar-zar ağladı*", "*ökür-ökür ağladı*" (*bökür-bökür ağladı*)...

Belə nəticə çıxarmaq olarmı ki, qədim oğuzlar insan kədərinə daha həssas olublar, kədəri daha dərindən anlamağa çalışıblar, onun çalarlarına daha aktiv şəkildə vaqif olmaq istəyiblər?! Yəqin ki, bu elə belə də olub.

Dahi yazıçı L.Tolstoy nahaq yerə "Anna Karenina" romanını belə başlamırdı: "Bütün xoşbəxt ailələr bir-birinə oxşayır, bütün bədbəxt ailələr hər biri özünə görə bədbəxtdir". Doğrudan da, sevinc ifadəsinin bir variantı, kədər ifadəsinin isə bir neçə variantı ola bilər.

Xoşbəxtliyin və bədbəxtliyin bu universal qavrayışı göründüyü kimi bizim qədim dastanımızda da özünü göstərməkdədir.

Sədaqət

Dastanda sədaqət həm qadınlara, həm də kişilərə xas xüsusiyyət kimi özünü göstərir. Banuçiçəyin Beyrəyə sədaqəti, Beyrəyin Qazan xana sədaqəti, Çobanın elinə, yurduna sədaqəti, Oğuz qəhrəmanlarının Bayındır xana, Dədə Qorquda sədaqəti örnək olası misallardır. Ataya sədaqət, anaya sədaqət, Qorqud mənəvi aləminə sədaqət, Bayındır xana, bəylərbəyi Qazan xana sədaqət geniş mənada götürdükdə Oğuza sədaqət, içində yaşadığın cəmiyyətə sədaqət, müasirləşdirib desək, vətənə, xalqa sədaqət kimi özünü göstərir.

Sədaqət xəttindən kənara çıxma halı dönüklük xəttinə gətirir. Aruz Qocanın Qazana dönüklüyü bu baxımdan ibrətamizdir.

Sədaqət Dastanda qiymətləndirilir, dönüklük cəzalandırılır.

Amma bir məqam düşündürməyə bilmir. 16 il həbsdə olan Beyrəyi bu həbsdən qurtarmaq üçün Oğuz tərəfindən heç bir təşəbbüs göstərilmir. Onu axtarıb tapmaq Dastandan göründüyü kimi heç də çətin deyilmiş. Bəzirganlar bunu asanlıqla edə bilirlər.

Səhnə variantları

Dastandan ilham alaraq onun müxtəlif boylarını teatr dili ilə təqdim edən yazarlarımız, şairlərimiz oldu. Bu yazılan pyeslər, onların əsasında hazırlanan tamaşalar Dastanın geniş xalq kütlələri tərəfindən daha ətraflı və dərindən tanınmasını şərtləndirdi.

Görkəmli Azərbaycan alimi Ə.Dəmirçizadənin 1946-cı ildə Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulmuş "Qaraca Çoban" adlı pyesi (rejissor – Həsən Əliyev) Dastanın bu qolunu, xüsusilə, azyaşlı tamaşaçılara sevdirmək arzusu ilə yazılmış bir əsərdir.

Dastan motivlərinə əsaslanaraq "Torpağa sancılmış qılınc" və "Burla xatun" adlı pyeslər yazan tanınmış Azərbaycan xalq şairi Nəbi Xəzri olmuşdur. Hər iki əsər Azərbaycan Milli Dram Teatrında səhnələşdirilmişdir. "Torpağa sancılan qılınc" tamaşasının rejissoru istedadlı teatr rejissoru Mərahim Fərzəlibəyov idi. Pyesdə Salur Qazanın evinin yağmalandığı boy səhnələşdirilmişdir. Müəllif süjetə sadiq qalaraq Dastan mətnində olan kolliziyanı olduğu kimi, ancaq müasir teatr dili ilə tamaşaçıya çatdırmışdır. Pyes Azərbaycan teatr səhnəsində Dədə Qorqud mövzusunun öz aktuallığını qoruyub saxlamasına bir örnəkdir. Nəbi Xəzrinin "Burla Xatun" pyesinə isə istedadlı rejissorlar Vaqif Əsədov və Əsgər Əsgərov quruluş vermişlər.

1981-ci ildə Gəncə Dövlət Teatrında yazıçı Altay Məmmədovun "Dəli Domrul" pyesi (rejissor Vaqif Şəfiyev) səhnəyə qoyulmuşdur.

Dastanın təsiri ilə Sumqayıt dram teatrında (1999-cu il) "Oğuzlar" pyesi (yazar və rejissor Firidun Məhərrəmov), Lənkəran Dövlət dram teatrında "Məhəbbət və ölüm" (rejissor Baba Rzayev) pyesi səhnələşdirilib.

2014-cü ildə istedadlı rejissor Mikayıl Mikayılov "İlahi oyun" adı ilə Dirsə xan oğlu Buğac boyunu səhnələşdirir.

Görkəmli Azərbaycan teatr rejissoru və mədəniyyətşünas alim Vaqif İbrahimoğlu ömrünün sonuna qədər özünün yaratdığı YUĞ teatrına rəhbərlik etdi. Səhnələşdirdiyi çoxsaylı mükəmməl sənət əsəri onun yüksək professional səriştəsini təkcə Azərbaycanda deyil, bütün o vaxtkı SSRİ məkanında, eyni zamanda Türkiyədə çoxsaylı teatrsevərlərə dəyərincə sübut etmişdi.

Vaqifi tamaşaçıya sevdirən bu əsərlər içərisində "Dədə Qorqud" dastanı ilə bağlı silsilə tamaşalar xüsusi yer tutur. "Dədə Qorqud" poetikasını teatr dilinə çevirməklə Vaqif faktiki olaraq səhnədə poetik inqilab etdi. Öz sözsüz tamaşaları ilə, sözlü yozumları ilə Dədə Qorqud qədimiliyi öz ilkin bakirə görünüşündə canlandı. Səslənən dil bədən dili ilə əvəzləndi və ya həmahəngləşdi. Sözlər hərəkətə çevrildi, hərəkət sözə. Hisslər canlı kimi aktyorların arasına səpələndi. Tamaşaçı sözləri təkcə eşitmədi, o onları həm də görməyə başladı. Hər tamaşa bir dərs oldu.

Vaqifin Dədə Qorqud dərsləri Dastan poetikasını, onun özünəməxsus intonasiyasını, ritmikasını doğru-düzgün anlamağın bu gün də əvəzedilməz açarıdır desək, səhv etmərik. "Dədə Qorqud" motivlərindən postmodern bir şərh olaraq ortaya çıxan bu sətirlərin müəllifinin yazdığı "Casus" pyesi dastanın heç hansı istiqamətini təkrar etmədi, yalnız ondakı bir nüvəni, bir semantik sayrışmanı – casusun taleyini izlədi. Vaqif İbrahimoğlu bu tamaşanı Azərbaycan Dövlət Dram Teatrının aktyorları ilə bir yerdə hazırladı, tamaşa yeni bir teatr dili ilə təqdim edilməyə hazır oldu, amma təəssüf ki, naməlum (bəlkə də məlum) səbəblərə görə onun premyerasına icazə verilmədi.

Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, bu dəyərli sənətkar "Dədə Qorqud" dastanı ilə bağlı özünü həm də gözəl tərcüməçi kimi sübut etdi. Dastanın motivləri əsasında bu sətirlərin müəllifi tərəfindən yazılmış "Yarımçıq əlyazma" romanını yüksək bədii səviyyədə rus dilinə tərcümə etdi. Kitab çap olunduqdan sonra Moskvada yeganə hal kimi "İnostrannaya literatura" jurnalında müzakirə zamanı görkəmli rusiyalı yazıçı və münəqqidlər – Anninski, Liverqant, Lavrova, Yevseyev, Tkaçenko, Alla Axundova və başqaları Vaqif İbrahimoğlunun tərcüməsi barədə öz ürək sözlərini böyük səxavətlə ifadə etdilər.

Səyyar süjetlər

Dastandakı bir sıra süjet xətti qədim yunan miflərinə məxsus süjet xətlərinin təqribi, yaxud tam eyni kimi özünü göstərir. Qədim dövrün mədəni mübadilə imkanlarını nəzərə alsaq bu süjetlərin bir mədəni məkandan digərinə ötürülməsinin mümkünsüzlüyünü qəbul etməliyik. Bu mümkünsüzlüyə ən azından tərcümə işinin o dövr üçün yetərsizliyi də daxildir. Oxşar süjetlərin müxtəlif mədəni məkanlarda üzə çıxmasının səbəbini anlamaq asan deyil. Mütəxəssislər (Əli Sultanlı) Dastan və yunan mifləri arasındakı bu süjet oxşarlıqlarını səyyar süjetlər kimi qiymətləndirirlər. Dünya xalqlarının qədim abidələrində səyyar süjetlərə sıx-sıx rast gəlmək mümkündür.

Dastandakı Basat və Təpəgöz xətti yunan mifolojisindəki Odissey və Polifem xətti ilə, Beyrək və Banuçiçək xətti Odissey və Penelopa xətti ilə uyğundur və onlar səyyar süjetlər kimi qeyd edilə bilər. İlk dəfə (1815-ci ildə) belə bir süjet oxşarlığına Dastan barədə elm aləminə məlumat verən, onun "Basat Təpəgözə qalib gəldiyi" adlı boyunu tərcümə edib nəşr etdirən fon Dits olmuşdu. O, Təpəgöz və Polifemlə bağlı süjet xəttini müqayisəli şəkildə təhlil etmiş, onlar arasındakı uyğunluqdan bəhs etmişdir. Fon Dits hətta bu müqayisəsinin əsasında belə bir qənaətə gəlmişdir ki, "Dədə Qorqud" dastanındakı Təpəgöz Homerin Polifemindən daha qədim bir obrazdır.

Fikrimizcə, fon Dits burada haqlı deyil. Çünki onun gəldiyi bu qənaətin əsasında belə bir fikir durur ki, Homerin "Odisseya"sında Polifemin əgər həyatının bir parçası təsvir edilirsə, bu isə onun Odisseylə görüş məqamıdır, Dədə Qorqud öz qəhrəmanı Təpəgözü doğuluşundan ölümünə qədər izləyir. Deməli, Təpəgöz bir obraz kimi daha bütöv və daha

mükəmməldir. Əslində isə, bu məsələyə bir qədər başqa yöndən də yanaşmaq mümkündür. Belə düşünək: yunan auditoriyası Polifemlə geniş mifoloji kontekst vasitəsilə doğumundan ölümünə qədər tanış idi və bəlkə də Homer Polifemi bütöv şəkildə təsvir etməyə, sadəcə, ehtiyac duymamışdı.

Bu obrazların hansının daha qədim, hansının daha yeni olması bəlkə də söhbət mövzusu olmamalıdır. Söhbət mövzusu onların ikisinin də bir invariant (anavariant) məxəzdən yaranması olmalıdır.

Sintaktik xarakiri

Cümlədə söz sırasının kəskin şəkildə pozulmasını xarakterizə edir. Cümlənin əsas quruluşu sanki ayrı-ayrı hissələrə aralanır və bu hissələrin arasına kəskin şəkildə cümlənin əsas mətləbinə dəxli olmayan ünsür yeridilir. Məsələn, Buğac atası tərəfindən yaralanaraq dağ döşündə düşüb qaldığı zaman Xızır peyğəmbər onun yanına gəlir, yarasına baxıb deyir: "*Sənə bu yaradan qorxma, oğlan, ölüm yoxdur*."

Bu cümlədəki "*qorxma, oğlan*" ifadəsinin cümlənin əsas semantik yükü ilə birbaşa əlaqəsi yoxdur. Əsas informasiya "Sənə bu yaradan ölüm yoxdur" sözlərilə çatdırılır. Amma "qorxma, oğlan" hissəsi bu cümləni kəskin şəkildə iki yerə bölüb onun hissələrinin arasına girməklə diqqəti həm də bu bölünməklik məqamına yönəldir və bu rakursdan baxdıqda o, cümlənin bir bədən kimi içinə girən qılıncı xatırladır.

Bu tipli cümlələr şifahi üslubun əlamətidir və mifoloji dövrün yadigarıdır. Eyni zamanda cümləyə sancılan qılınc (söz) öz mifoloji gücünü sanki qorumağa çalışır. Cümlənin quruluşu içindən boy verib xüsusi olaraq görünür. Xarakirini xatırladır.

Sistemlilik

Dastanın quruluşunda – həm dil, həm də məzmun səviyyələrində möhkəm sistemlilik müşahidə olunur. Ən uzaq detalların, ilk baxışda sanki bir-birilə əlaqəsi olmayan məqamların, süjet dolambaclarının, əslində, bir-birilə çox sıx, görünən və görünməyən xətlərlə əlaqəsindən təşəkkül tapan sistemlilik dastanın mükəmməl, monumental bir arxitektonik orqanizm kimi qəbul edilməsinə əsas verir. Semantik sayrışmaların tədqiqi belə sistemlilik olmadan bəlkə də mümkün olmazdı.

Sistemlilik boydaxili faktor olmaqla yanaşı, eyni zamanda boylararası əlaqə vasitəsi kimi də özünü göstərir. Sayrışmanın bir tərəfi (qaranlıq tərəfi) bir boydan, o biri tərəfi (işıqlı tərəfi) başqa boydan özünü göstərə bilir. Beyrəyin həyatı doğuluşundan ölümünə qədər müxtəlif boylarda məhz boylararası özünü göstərən sistemlilik əsasında izlənir. Salur Qazan və Aruz Qoca münasibətlərində dayı kultuna qarşıçıxma məsələsi səbəb-nəticə sistemliliyi işığında yenə də haman boylararası faktora əsasən baş verir.

Cəmiyyətin təsviri də sistemli səciyyə daşıyır. Hər cəmiyyət üzvünün sistem daxilində yeri var və bu yer qəhrəmanın çəkdiyi zəhmət hesabına – ya qəhrəmanlıq, ya da xeyirxahlıq hesabına qazanılır. Müxtəlif məclislərdə sağda oturan sağ bəylər, solda oturan sol bəylər var. İç Oğuz var, Dış Oğuz var. Eyni zamanda bunları daha böyük sistemdə birləşdirən Qalın Oğuz var. Monarxik dövlətçilik sistemi və onun ibtidai, "demokratik" ünsürlərlə bir qədər zəiflədilmiş (liberallaşdırılmış) sxemi var.

Sistemlilik dil səviyyəsində üslubi yekrənglikdə də təzahür edir. Dastanın son variantında üslubi rəngarəngliyin olmaması, eyni üslubi tonallığın, başqa sözlə desək, monotonluğun büruzəsi müxtəlif üslubi amillərin

eyni yaş dövrünə, bir çox halda eyni ibtidai yaş dövrünə aidliyi məhz dil səviyyəsindəki sistemlikdən xəbər verir.

Bununla yanaşı, o da qeyd edilməlidir ki, Dastandakı cəmiyyətin təsvirində sistemlilik qapalı səciyyə daşıyır. Dastandakı cəmiyyət belə bir yanaşmada kifayət qədər qapalı cəmiyyətdir. Bu cəmiyyətin öz daxili qanun-qaydaları, əxlaq kodeksləri var. Xaricdən daxil olan informasiya-işarələr bu daxili sahmanı dəyişdirə bilmir. Amma onu da qeyd etmək lazımdır ki, "kifayət qədər qapalı" olmaq artıq müəyyən xarici təsirlərə açıq qalmış yerlərin də olması deməkdir. Uzaq-uzaq kafir ellərindən gələn gəlinlər (yad qızı halallar), bazirganlar vasitəsilə yaradılan "beynəlxalq" əlaqələr, "kafirin casusu" kimi reallıqlar Dastandakı qapalı cəmiyyətin dünyaya açılmağa hazır olduğuna, dünyaya qovuşmağa, bəşəri dəyərləri (müsbət və ya mənfi) qəbul etməyə və içində əritməyə gücü olduğuna konkret işarələrdir.

Söz

"Kitabi-Dədə Qorqud" dastanlarının dilində motivləşmiş müstəqil mənaya və formaya malik nominativlik funksiyası daşıyan müstəqil dil vahidi. Cümlənin əsas tərkib hissəsi.

Söz dastanda özünün müasir dildə mövcud olan bütün formaları ilə işlənir, bütün qrammatik "libaslara" girə bilir. Emosional və ekspressiv energiyanın daşıyıcısı kimi diqqəti cəlb edir. Onun fikrin dəqiq, konkret və lakonik çatdırılmasında əvəzsiz rolu var. Dastandakı söz ədəbi-bədii üslubun tarix boyu inkişafında əldə edilmiş bir çox süni pafos və çalarlardan təmizdir. O, "Kitabi-Dədə Qorqud" dilində bakirə əhatənin (cümlənin) bakirə övladı təsirini bağışlayır. Bədii süsləmələrdən xeyli uzaq və qədim bir ədəbi dövrün məhsuludur.

Adətən, cümlə daxilində işlənən söz ayrıca, tam müstəqil şəkildə də özünü göstərir. Bu baxımdan vokativ sözləri, özündə müraciət, xitab mənası daşıyan sözləri nümunə göstərmək olar.

Sözün özəl məna qrupu olan təqlidi sözlər də dastanın dilində xüsusi çəkiyə malikdir. Bəzən bir-birinə əks proseslərin ifadəsi olan təqlidi sözlər asimmetrik kəmiyyətə malik olurlar. Məsələn, "ağlamaq" prosesini təsvir edən sözlər kimi dastanda "ökür-ökür", "bıldır-bıldır", "zar-zar" ifadələri işlənir. Semantikaca buna əks olan "gülmək" prosesinin təsviri isə yeganə "qas-qas" təqlidi ilə ifadə olunur. Belə bir sual doğur: nə üçün gülməyin təqlidi cəmi bir sözlə, ağlamağın təqlidi isə bir neçə sözlə verilir?! Psixoloji cəhətdən bunu belə izah etmək olar ki, hələ qədim insanlar bütün xoşbəxtləri bir-birinə bənzədir və onların arasında fərq görmür. Bədbəxtlər isə fərdi dərdlərilə bir-birindən fərqləndirilir. Dastanımızda belə bir hal misal gətirdiyimiz təqlidi sözlərin göstərilən şəkildə işlənməsi ilə öz sübutunu tapır.

Söz anlayışının "Kitabi-Dədə Qorqud" dastanlarının dilində metaforik qavranması sıx-sıx müşahidə olunur. Söz Oğuz cəmiyyətində xüsusi etik, əxlaqi dəyərə malik olan personələşmiş sitayiş mənbəyidir. Dədə Qorqudun sözünə ehtiram kimi formalaşan bu münasibət bütövlükdə Oğuz əxlaq kodeksinin vacib prinsiplərindəndir. "Söz söyləyən, boy boylayan" Dədə Qorqud kultu həm də onun Sözünə (bildirişinə, müraciətinə, xeyir-duasına, alqışına, qarğışına) sakral bir anlam verən mənəvi özülün üzərindən yüksəlir. Söz gözəgörünməz mistik güc yığır. Eyni zamanda o, həm də fiziki real bir güc kimi təsəvvür edilir. Onun belə bir gücü bu günə qədər dilimizdə özünü göstərməkdədir. Dastanda tez-tez belə deyirlər: "*Söylə, baxalım...*" Müasir dildə də "*de görüm, nə deyirsən*?" ifadəsi işlənir. Sözə baxmaq, sözü görmək istəyi onu mifoloji təfəkkürün diqtə etdiyi real güc kimi qəbul etmək deməkdir. Beləliklə, bu cür mifolinqvistik ifadələrin hesabına Dastanın qədimlik energiyasını daha güclü şəkildə duya bilirik.

Dastan mətnində Dədə Qorqudun sözü, duası həmişə yerinə yetir. Cəngavərlər Söz deyirlərsə, Sözə tapınırlarsa, verdikləri Sözə əməl də etməlidirlər. Əks halda Söz sanki personələşmiş biçimdə gözəgörünməz, amma fiziki qüvvə kimi Müəllif iradəsinin, yəni, əslində, Müəllifin nəzərdə tutub həyata keçirdiyi mifoloji qanun-qaydanın (oyunun) təsiri ilə belə qəhrəmandan hayıf çıxır, onu cəzalandırır. Nümunə kimi Beyrəyi göstərmək olar.

Beyrək Dastan boyu həlak olan yeganə müsbət qəhrəmandır. Məhvinə "məntiqi" səbəb isə mifoloji kontekstdə verdiyi Sözə əməl etməməsi, başqa sözlə, Sözə xəyanət etməsidir. Əsir edilən Beyrək Bayburd bəyinin qızına söz verir ki, qız ona kömək edib əsirlikdən qaçmasına şərait yaratsa və o, doğma yurdu Oğuza sağ-salamat gedib çatsa, qayıdıb onu halallığa alacaq. Beyrək "qılıncıma doğranayım, oxuma sancılayım", – deyə kafir qızına and içir. Bütün bunlar baş verir, Beyrək arzusuna çatır, lakin bizim qəhrəman qıza verdiyi vədə əməl etmir. Söz bunun müqabilində Beyrəkdən öz intiqamını alır. Söz Beyrəyi cəzalandırır. Dastanda Beyrək Aruz Qoca tərəfindən qətlə yetirilir.

Burada əgər biz Beyrəyin öz verdiyi sözə əməl etməməsini onun məhv edilməsinin əsas dərin, görünməz səbəbi kimi izah ediriksə, bu səbə-

bin də öz səbəbini, daha dərindəki, daha gizli səbəbini deməyə bilmərik. Hər şey Qa-zan xanın adət-ənənəni pozaraq Dış Oğuz bəylərini evini yağmalamağa çağırmaması ilə başlamışdı. Məhz buna görə Dış Oğuz bəyləri hiddətlənmiş və İç Oğuza, Qazana asi olmuşdular.

Sözü, eyni zamanda adət-ənənəni təkcə abstrakt anlamda deyil, həm də ilkin qavranılma məqamında, yəni real, fiziki güc kimi qəbul etmək, o görünməsə də onun real varlığını hiss etmək və bununla mətn boyu müxtəlif təqdimlərdə qarşılaşmaq Dastanı xeyli qədim bir dövrün yadigarı kimi qəbul etməmizə daha bir dəlildir.

Şaman – Ozan – Şair

Qədim cəmiyyətlərdə insanların içindən onların işinə qiymət verib bu işi təşviq edən adamlar çıxırdı. Bu adamlar eyni zamanda gənc nəslin tərbiyəsi ilə məşğul olurdu. Onlar gənclərə həyat dərsi verirdilər. Bir növ, cəmiyyətin müəllimi kimi özlərini göstərirdilər. Məsələn, deyə bilərik ki, Dastanın Müqəddiməsi, əslində, Dədə Qorqudun oğuz cəmiyyətinə verdiyi həyat dərsləridir. Bundan əlavə, Dədə Qorqud eyni zamanda qədim oğuz cəmiyyətinin mənəvi lideri, kahini, şamanı idi. Bu isə o demək idi ki, cəmiyyətin tapındığı totemlərlə əlaqə məhz onun vasitəsilə həyata keçirilirdi. O, ritualların həyata keçirilməsinə, adət-ənənələrin qorunmasına nəzarət edirdi. Gənclərin dünyaya baxışını o formalaşdırır, Qalın Oğuz daxilində münaqişələri o həll edirdi. Sözünün təsirli və sirli olması üçün o bu funksiyalarını çox zaman sazın müşaiyəti ilə həyata keçirirdi. Saz yavaş-yavaş onun əsas hakimiyyət orqanına – sehirli vasitəyə çevrilirdi. **Şaman** ozana dönürdü. **Ozan** Dədə Qorqud artıq Dastanın yaradıcısı olmaq missiyasını da öz üzərinə götürmüş sayıla bilər. Buradan isə **Şair** olmaq funksiyasına artıq bir addım qaldı deyə bilərik.

"Şaman – mənəvi başçı" öz funksiyasını mağara içində verdiyi dərslər vasitəsilə həyata keçirir. Daha sonrakı məqam – ozan olmaq, müəllif olmaq məqamıdır. Dədə Qorqud, Dastandan görürük ki, hər üç missiyanı yerinə yetirir. O həm şamandır, adət-ənənəni qoruyan ritualları həyata keçirən mənəvi başçıdır. O həm müəllimdir. Və oğuzlara Dastan boyu həyat dərsi verir. Dədə Qorqud həm də müəllifdir – Dastanın yaradıcısı, eyni zamanda qoruyucusudur, nəsildən-nəslə ötürəndir.

Dədə Qorqud cəmiyyətində artıq *şaman* və *başçı* bir-birindən ayrılmış şəkildə özünü göstərir. Dədə Qorqud və Bayandır xan obrazları ayrı-ayrılıqdadır. Cəmiyyətin daha qədim dövründə bu iki funksiya bir adama məxsus idi.

Təbiət

"Təbiət-Mədəniyyət" ikili qarşıdurmasının bir tərəfi kimi xaotik, sahmansız başlanğıc. "Kitabi-Dədə Qorqud"da bəzi məqamlarda özünün hətta mifoloji-tarixi təsvirini tapır. Xüsusilə, bu təsvir VIII boyda aydın şəkildə nəzərə çarpır. Bu, "Basat Təpəgözü öldürdüyü boy"dur.

Basat uşaq vaxtından aslan tərəfindən oğurlanmış (bəlkə də xilas edilmiş) və sazlıqda-samanlıqda aslan yatağında boya-başa çatmışdır. Aslan yatağı – başqa sözlə desək, meşə (yəni, təbiət), əslində, təbiətin simvoludur. Aslan yatağında böyüdükdən sonra ata-anası tərəfindən tapılan Basat cəmiyyətə – mədəniləşmiş mühitə qaytarılır. Cəmiyyətə qaytarıldıqdan sonra çox çəkmir ki, o yenidən böyüdüyü məkana – meşəyə, başqa sözlə, Təbiətin qoynuna qayıdır. Yalnız Dədə Qorqud təbiətdən mədəniyyətə keçidin etibarlı vasitəçisi kimi məsələyə müdaxilə edir və Basatı geriyə – Təbiətə qayıdan yoldan birdəfəlik daşındırır. Basat Oğuz toplumunun cəmiyyətləşməyə, bütövlükdə, təbiətdən mədəniyyətə keçidini öz timsalında simvollaşdıran obraz kimi dəyərli və maraqlıdır.

Həmin boyda Təbiətin başqa bir təmsilçisi kimi bədheybət Təpəgöz çıxış edir. Məhz Basatın – təbiətin qoynundan çıxmış bir qəhrəmanın Təpəgözə qalib gəlməsi və Təpəgözün ona keçmiş birgə yaşadıqları həyatı xatırladaraq, "biz qardaşız, mənə qıyma" yalvarışlarına baxmayaraq, onun başını kəsməsi cəmiyyətin geriyə – Təbiətə gedən yolunun birdəfəlik qapanmasının bizim dastandakı dahiyanə bədii inikasıdır.

Tənha Dədə Qorqud

Dədə Qorqudu hansı əsasla "tənha" adlandıra bilərik?! Dədə Qorqud diskursundan çıxış etsək, deyə bilərik ki, Dastanda haqqında danışılan hər hansı qəhrəmanın evi-eşiyi, ailəsi, nəsli, cəmiyyət daxilində tutduğu mövqeyi vardır. Çobanın çoban yeri var, bəyin bəy yeri var, cəngavərin cəngavər yeri var, naibin naib yeri var və s. Təkcə Dədə Qorqudun mətnə daxil edilməsi sirr kimi özünü göstərir. O hardan gəlir, hara gedir, onun dalınca gedənlər hara gedirlər, ona xəbəri necə və hara göndərirlər – bu bilinmir. Onun yeri-yurdu yoxdur. Dədə Qorqud mətnin xüsusi qonağıdır desək, səhv etmərik. O, təbiətin içindən çıxır, ora da qayıdır. Cəmiyyət içində yaşamır. Hardan gəlib hara getdiyi bilinmir. Bu aspektdən yanaşsaq "tənha" yarlığı Dədə Qorquda – dastanda təsvir olunan müdrik ağsaqqala ən çox yaraşandır.

Dədə Qorqudun şaman kimi, müəllim kimi və müəllif kimi missiyası onun "tənhalıq" səciyyəsi ilə üzvi surətdə bağlanır.

Təpəgöz

Dünya dastanlarından, o cümlədən, "Kitabi-Dədə Qorqud"dan keçən mifoloji varlıq. "Təbiət – Mədəniyyət" qarşıdurmasında insanı mədəniyyətə uduzan təbiət sanki bu məğlubiyyətin intiqamçısı kimi zaman-zaman öz kortəbii qüvvələrini Mədəniyyət "qala"sının içinə göndərir, insan cəmiyyətindən sanki öc almaq istəyir. Bu qüvvələrdən biri də təbiətin kortəbii qüvvəsi olan siklopdur. Sikloplar bol-bol yunan miflərindən də keçərlər. Bəllidir ki, onların bədii mənşəyi Homerin daha qədim əsatirlərdən, qonşu xalqların nağıl və rəvayətlərindən bəhrələnməsi vasitəsilə formalaşır. Yunanlar siklopun axtarışına çıxmağı daha qədim zamanlarda münasib bilirlər. Və bədheybət varlığın – Anavariantın yunan variantı yaranır. Anavariantın Oğuz variantı olan Təpəgöz (siklop) də yunan Polifem kimi öz missiyasını – intiqam almaq missiyasını yerinə yetirir.

Yunan mifoloji aləminin nümayəndəsi olan Polifemlə Oğuz məkanındakı Təpəgözün müqayisəsini alman şərqşünası və diplomatı, dastanın ilk tədqiqatçısı F.H.fon Dits aparmışdır. Fon Dits bu müqayisədə üstünlüyü Təpəgözə verərək onu daha qədim bir obraz kimi tanımışdır. Belə ki, fon Ditsin qənaətinə görə Təpəgözün Dastanda anadan olandan öldürülənə qədər bütün həyatı təsvir edilir. Belə dolğun mənzərə ilə biz Polifemin bədii vətəni "Odisseya"da qarşılaşmırıq. Homer Polifemi yalnız onun Odissey ilə baş verən görüşü fonunda təsvir edir.

Təpəgöz Azərbaycan ədəbiyyatında günah hissi daşıyan ilk qəhrəmandır. Öldürüb yediyi günahsız adamlara görə özünə sui-qəsd etmək istəyən qəhrəmandır. Bunun özü də göstərir ki, qəlbinə gec də olsa mərhəmət və acıma hissi dolan və bu şəkildə psixolojisi dolğunlaşdırılan Təpəgöz obrazının formalaşmasına Yazı mədəniyyəti "əl gəzdirməmiş" deyildir.

"Tərəzinin gözləri"

"Türk ədəbiyyatının bütün əsərlərini tərəzinin bir gözünə, "Dədə Qorqud"u o biri gözünə qoysaq, yenə də tərəzinin "Dədə Qorqud" tərəfi ağır gələr".

Bu sözlər görkəmli dilçi alim, qorqudşünas professor Muharrem Erginin şəhadəti ilə böyük türk alimi, dövlət xadimi professor Fuad Köprülüzadəyə məxsusdur. Böyük alim dastanın əhəmiyyətini yalnız bu müqayisə yolu ilə ortaya qoymağı münasib saymışdır. Bununla, dastanın həm bədii xüsusiyyətlərinə, həm də ədəbi mahiyyətinə böyük qiymət vermişdir.

Bu qiymət, əslində, onu nəzərdə tutur ki, bütün türk ədəbiyyatı bir nüvə kimi öz mənşəyini "Dədə Qorqud" dastanından götürür. "Dədə Qorqud" nüvəsi ədəbiyyatın bütün şaxələrini öz potensialında yaşadır.

“Troya atı” və ya “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi”

Dastanı müəyyən mənada Troya atı kimi təsəvvür etmək olar. Hiyləgər Odissey troyalılar üçün İlion qalasının önündə nəhəng taxta at qoyub içinə əsgərləri doldurmuş və guya ki, bu onillik müharibəyə son vermək istəyən yunan qoşununa dənizə çıxmasını tövsiyə etmişdi. Bu əsgərlərin məqsədi gecə ikən atın “qarnından” çıxıb şəhər darvazalarını səssizcə və gizli şəkildə açaraq yunan əsgərlərini Troyaya buraxmaq idi. Ən əsası, troyalıların bu atın mühasirəni buraxıb getmiş yunanlardan qalma hədiyyə olmasına inanmaları və onu qala içinə çəkib aparmaları idi. Bu elə belə də olur.

“Kitabi-Dədə Qorqud” dastanı dünya türkoloqları tərəfindən öyrənilən xeyli vacib bir ədəbi-mədəni abidədir. Bu türkoloqların içərisində almanlar, ruslar, italyanlar, amerikalılar, hollandlar, türkmənlər, qazaxlar, türklər, azərbaycanlılar var. Dastan bir növ türkoloqların “inhisarından” çıxmamışdır desək, səhv etmərik. Hər yeni tədqiqat beynəlxalq türkologiyanın sərhədlərini genişləndirir. Tədqiqat aparan alimin aid olduğu ölkənin elmi nailiyyətləri içərisinə isə demək olar ki, daxil olmur.

Amma bu olduqca vacib bir məsələdir. Çünki “Dədə Qorqud” kimi dastan hər hansı xalqın elmi araşdırmaları çərçivəsinə daxil olursa, özü ilə onu yaradan xalq, onun tarixi, mədəniyyəti, psixologiyası, ədəbiyyatı, dili, müasir siyasi-ictimai baxışları və s. haqqında bilik də gətirir. Bundan əlavə, həmən ölkədə Azərbaycanı daha dərindən və obyektiv öyrənmə ehtiyacı yaradır.

Bəs necə etmək lazımdır ki, bu dastan təkcə hər hansı ölkənin türkoloqları tərəfindən deyil, bilavasitə hər hansı ölkənin dilini, ədəbiyyatını, mədəniyyətini... öyrənən alimlər tərəfindən də tədqiqat obyekti kimi qəbul edilsin?! Bunun, fikrimizcə, yeganə yolu bu ola bilər. Biz "Dədə Qorqud" dastanını hər hansı ölkənin uyğun dastanı ilə paralel öyrənilməsi təşəbbüsü ilə çıxış etməliyik. İki qədim dastanın müqayisəli tədqiqi bizim dastanın geniş auditoriya tərəfindən hərtərəfli öyrənilməsinə gətirər.

Belə bir təşəbbüs "Dədə Qorqud" və "Nibelunqlar" dastanının alman germanistləri (təkcə türkoloqları deyil!) və Azərbaycan türkoloqları, mədəniyyətşünaslarının XXI əsrin əvvəllərində birlikdə tədqiq etmələri proyektində üzə çıxdı. Bizim təqdimatımızla alman germanistlərinin "Dədə Qorquda" müraciəti son dərəcə əlamətdar bir hadisə idi. "Dədə Qorqud" vasitəsilə onlar ümumiyyətlə, Azərbaycan haqqında, onun dili, mədəniyyəti, ədəbiyyatı, ictimai-siyasi durumu haqqında məlumata malik olacaq, ölkəmizi, xalqımızı daha obyektiv şəkildə tanıyacaqdılar. Eyni zamanda "Nibelunqlar" və "Dədə Qorqud" dastanlarının müştərək öyrənilməsi tipoloji və mədəni uyğunluqların üzə çıxarılması ilə bərabər, onların hər birinin daxili mahiyyətini daha yaxşı anlamağa kömək edəcəkdi.

"Kitabi-Dədə Qorqud" dastanı son dərəcə qapalı elmi zümrə olan germanistlərin möhkəm qalası qarşısında qoyulmuş "Troya atına" bənzəmirmi?! Və bu şəkildə "Troya atını" digər ölkə alimləri qarşısına qoymaq mümkün deyilmi?!

"Kitabi-Dədə Qorqud"u Bievulf dastanı ilə, Sid haqda nəğmə ilə, Rolan haqda nəğmə ilə, Knyaz İqor haqda nəğmə ilə, qədim yunan mifləri ilə müqayisə etmək qədim anqlosaks, ispan, fransız, yunan, slavyan elmi və mədəni mühitinə daxil olmağın çox etibarlı bir yoludur.

Türkoloji "İnhisar"

Dastan zaman-zaman dünya alimlərinin tədqiq obyektinə çevrilmişdir. Alman, rus, italyan, ingilis, fransız, holland, türk, Azərbaycan alimləri və başqaları dastanla bağlı fikirlərini irəli sürüb onu həm dil, həm, tarix, həm mifologiya, həm mədəniyyətşünaslıq baxımından təhlil etmişlər. Amma orası var ki, dastanı öyrənən bu müxtəlif millətlərə mənsub olan mütəxəssislər hamısı türkoloqlar olub. Biz bu halı, təxminən, belə ümumiləşdirə bilərik: Dastan üzə çıxarıldığı 1815-ci ildən bu günə qədər türkoloqların "inhisarında" olmuşdur. Onunla başqa dil ailələrini öyrənən alimlər məşğul olmamışlar.

İlk dəfə olaraq türkoloqlarla bir yerdə dastanı tədqiq edən alimlər qrupu germanistlər oldu. Germanistlər german dillərinin, xüsusilə, alman dili və ədəbiyyatı tarixinin mütəxəssisləridir. Onların elmi diqqətini hər hansı başqa istiqamətə yönəltmək demək olar ki, mümkün deyil, ya da çox çətindir. Ona görə bu istiqamətdə xeyli çalışdıqdan sonra "Kitabi-Dədə Qorqud" dastanını bu elmi sahənin də, bir növ, obyektinə çevirmək üçün alman germanistlərinə Bakı Slavyan Universitetində 2000-ci illərin əvvəlində "Dədə Qorqud" dastanını alman dilinin və mədəniyyətinin klassik əsəri olan "Nibelunqlar haqda nəğmə" ilə müqayisə etmək imkanı yaradıldı. Onlar bu imkandan məmnuniyyətlə istifadə etdilər.

Təxminən, on il ərzində Bakı Slavyan Universitetinin və Almaniyadakı Mayns Universitetinin birgə həyata keçirdikləri iki dastanın müqayisəli şəkildə öyrənilməsi proyekti hər iki şəhərdə konfranslar keçirilməsi, kitablar nəşr edilməsi, dəyirmi masalar təşkil olunması ilə reallaşdı. Bakı türkoloqları alman germanistləri ilə bir yerdə bu iki dastanın tarixi, bu günü və gələcək öyrənilmə perspektivləri ilə bağlı maraqlı və produktiv

nəticələrə gəldilər. Türkoloqlar dastanın öyrənilməsi prosesinə yeni nəfəs gəldiyini hiss etdilər. Germanistlər də belə bir yeni nəfəsin öz elm sahələrinə gəldiyinin şahidi oldular.

"Kitabi-Dədə Qorqud" dastanı bu şəkildə türkoloqların tədqiq inhisarından çıxdı, söyləyə bilərik. Türkoloqlar zaman-zaman bir-birinə söylədikləri fikir və ideyaları başqa elm sahəsinin mütəxəssislərinə də söyləmək imkanı əldə etdilər. Dastanın yayılması baxımından bu, çox mühüm elmi, ictimai və siyasi bir addım oldu.

"Uru (örü) durdu"...

Əslində, "örü durmaq" daha doğru oxunuşdur. Azərbaycan mətnlərindən "ura durmaq" keçdiyinə görə biz iki variantın ikisindən də istifadə edirik. Sonuc üçün bunun heç bir xüsusi əhəmiyyəti yoxdur.

Bu ifadə statusundan asılı olmayaraq, Dastanda bir çox personaja şamil edilir. İfadə müasir dil baxımından sirlidir, ona görə də müxtəlif yozumlara imkan verir. Məsələn, bəzən "*uru (örü) durmağı*" döyüşqabağı xüsusi halın ifadəsi kimi ("Sıçrayıb durdu kimi") qəbul edirlər. "*Uru (örü) durdu*" ifadəsini "vurub durdu" ifadəsinin semantik sayrışması sayır və buradan da döyüşqabağı əhvalın təbii təzahürü kimi anlayırlar. Bu yanaşma nə qədər "cəlbedici" olsa da, təəssüflə qeyd edək ki, doğru deyildir.

Belə ki, bu zaman genetik dil qohumluğu, bu qohumluğun başqa-başqa dillər üçün dərəcəsi və nəyə əsaslandığı nəzərə alınmır. Amma biz türk dillərindən biri olan və özündə bir çox leksik və qrammatik relikt formalar qoruyub saxlaya bilmiş çuvaş dilinə diqqət yetirsək, görərik ki, bu dildə "*ura*" sözü vardır və o, "*ayaq*" mənasındadır. Digər tərəfdən müxtəlif türk dillərində r – y – z – t/d əvəzləməsi özünü göstərir. Yəni, eyni söz bu səslər vasitəsilə bir-birindən fərqlənir. Məsələn, Azərbaycan dilindəki "ayaq" sözü çuvaş dilində "*ura*" şəklində, qazax dilində "*ataq*" şəklində, xakas, şor dillərində "*azaq*" şəklində işlənir. Azərbaycan dili tarixində də "*ayaq*" sözünün "*ura*" variantına rast gəlirik. Əbu Həyyan adlı məşhur ərəb dilçisinin əsərində bu barədə məlumat verilir.

Və Dirsə xan da, digər Oğuz bəyləri də "uru (örü) duranda" bunu heç də qəzəblə sıçrayıb etmirdilər, onlar sadəcə olaraq, ayağa dururdular.

"Üç canavar qalınlığında kaftan"

Metaforanın gücü bu bədii obrazın arxasında gizlənən görümlü bir mənzərənin sanki şəklini çəkir. Dastanın cəsur və mətanətli qız qəhrəmanlarından biri olan Sarı donlu Selcan xatunun "keşiyini" çəkən üç canavər, başqa sözlə desək, qara buğra, buğa və qoğan aslan Qanturalı tərəfindən yenilirlər və iki sevgili bir-birinə qovuşur. Bu üç canavar hər biri Selcan xatuna yetişmək üçün bədii düşüncədə qalın bir qaftan kimi təqdim edilir. Qaftan sarı donlu qızı xarici aləmdən necə qoruyursa, bu vəhşi canavarlar da eləcə qoruyur. Canavarların qaftan kimi qızı qorumaları yazı təfəkküründə çox dərin qatlarının artıq işə düşdüyünə yaxşı bir misaldır.

Bədii təfəkkürün belə bir inkişaf səviyyəsi Dastanın formalaşması tarixini xeyli müasirləşdirir. Bir daha şahid oluruq ki, Dastanın dilində ən qədim mifoloji dövrün əlamətləri qaldığı kimi nisbətən yaxın yazı mədəniyyətinin çiçəklənməyə başladığı tarixi dövrün də əlamətləri özünü göstərməkdədir. *"Üç canavar qalınlığında qaftan"* – Azərbaycan ədəbiyyatının şahanə sayıla biləcək bədii ifadə vasitələrindən biri kimi bunun ən bariz nümunəsidir.

Üsyan

Azərbaycan ədəbiyyatında ali hakimiyyətə qarşı ilk üsyan məhz Dastanda təsvir edilmişdir. Salur Qazanın dayısı və Dış Oğuzun ağsaqqalı at ağızlı Aruz Qoca bacısı oğlu bəylərbəyi Salur Qazana və bütövlükdə İç Oğuza qarşı çıxıb Dış Oğuz bəylərini üsyana təşviq edir.

Üsyanın səbəbi qədim cəmiyyətə xas olan rituallardan birinin pozulmasıdır. Rituala əsasən, bəylərbəyi Salur Qazan ildə bir dəfə halalının (Burla xatunun) əlindən tutub evdən çıxar, evindəki bütün əşyaları Qalın Oğuz adamlarına hədiyyə edər, haman gün kim nə istəsəydi, girib Qazanın evindən götürə bilərdi. Bir dəfə isə Qazan bu ənənəni pozur. O, Dış Oğuz bəylərini bu ənənəvi yağmaya çağırmır. Dış Oğuz bəyləri bunu özlərinə təhqir kimi qəbul edir və üsyana qalxırlar. Onlar Beyrəyi də öz tərəflərinə çəkmək istəyirlər, çünki o, "*Dış Oğuzdan qız almışdır*" və buna görə onun hardasa Dış Oğuza aidliyi yox deyil. Amma Beyrək Dış Oğuz bəylərinin gözləntilərini "doğrultmur" – Qazana xain çıxmır və buna görə də üsyançılar tərəfindən qılıncla doğranır. Üsyan Qazanın öz dayısı, üsyanın rəhbəri Aruz Qocanın Qazan və Qazanın qardaşı Qaragünə, yəni, öz bacıoğulları tərəfindən öldürülməsi ilə yatızdırılır.

Bunun özündə dayı kultuna (avankulat) öldürücü zərbə vurulduğunu görməmək olmur, çünki Qazan bir başqasına deyil, məhz öz qardaşı Qaragünəyə at ağızlı Aruzun başını kəsməsini əmr (oxu: etibar, tələb, xahiş) edir.

Vəd

Dastanda qəhrəmanların bir-birinə verdikləri vədlər, əslində, əxlaqi dəyər kimi onları bu və digər cəhətdən səciyyələndirir. Vədlər verilsə də onlara bəzən əməl edilir, bəzən isə əməl edilmir.

Salur Qazan anasını əsir etmiş düşmənə vəd verir ki, anasını ona qaytarsa o da dönüb geri qayıdacaq, amma vədinə əməl etmək barədə düşünmür.

Beyrək Kafir qızına vəd verir ki, sağlıqla evinə geri dönərsə qayıdıb onu halallığa alacaq.

Dəli Qarcar Dədə Qorquda vəd verir ki, qız qardaşı üçün istədiyi başlığı gətirsə bacısını Beyrəyə verəcək.

Yalançı oğlu İç Oğuza vəd verir ki, Beyrəyin ya öldü, ya qaldı xəbərini gətirəcək.

Nəhayət, Allah-təala Dəli Domrula vəd verir ki, əgər canı yerinə can bulsa, onun canını azad edəcək.

Vəd verən qəhrəman həm də and içmiş olur. Bu and bir çox halda dostlarını, silahdaşlarını, atalarını, qardaşlarını qürbətdən, əsirlikdən azad etməyincə gərdəyə girməmək, toy etməmək, sevgili ilə vüsala qovuşmamaqla bağlı olur. Vəd zadəgan sözü kimi xüsusi əxlaqi keyfiyyət və dərəcə səviyyəsinə qaldırılır.

Dastanda Oğuziçi vədlə Oğuzdan xaricə – düşmənə verilən vədi fərqləndirmək lazımdır. Oğuziçi vədi yerinə yetirmək cəngavərlik kodeksinin şərtlərindəndirsə, Oğuzdan kənara verilən vədə əməl etməmək olar, belə vəd hərbi hiyləgərlikdən başqa bir şey deyildir. Müqayisə edin Salur Qazanın düşmənlə "sövdələşib" anasını ondan istəməsini. Guya Qazan xan anası ona qaytarılsaydı hərb meydanını tərk edib geri dönəcək, arvadı Burla

xatunu, oğlu Uruzu, nökər-qaravaşını, varını-dövlətini kafirə qoyacaqdı. Əslində isə, bir az əvvəl Qazan xan Qaraca Çobana belə demişdi: "*anamı hərbdən əvvəl istəyim, at ayağı altında qalmasın*". Deməli, ana geri verilsə idi də, hərb olacaqdı, belə ki, at ayağı altında qalmaq ehtimalı var. Bu, Oğuzdan kənara verilən vəddir və yerinə yetirilməyə bilər. Elə oradaca Oğuziçi vəd səslənir. Salur Qazan Qaraca Çobana "*Allah mənim evimi qurtaracaq olarsa, səni əmiraxur edəyin"*, deyə vəd verir. Boyun sonunda vədinə əməl də edir. Belə Oğuziçi vədə əməl etməmək mümkün deyil.

Dastanda vəd motivi cəngavər kodeksinin aparıcı maddələrindən birinə çevrilmiş şəkildədir və o öz arxasınca konkret hərəkətin – olumlu, yaxud olumsuz nəticənin gəlməsini, üzə çıxmasını şərtləndirir.

Yağı

Dastanda "yağı kimdir?" sualının çox qəti və aydın izahı vardır. Salur Qazan və oğlu düşmən tərəfindən haqlandıqları zaman Qazan onların üstünə gələnlərin "yağı" olduğunu oğluna deyir. Və gənc Uruz bu məqamda ola bilər ki, ilk dəfə eşitdiyi söz barəsində atasından soruşur: "Yağı nəyə derlər, baba?"

Ən maraqlısı odur ki, Salur Qazan düşmənin az qala yetişməsinə baxmayaraq səbr və təmkinlə ondan cavab gözləyən oğluna "yağı" barədə məlumat verməyə başlayır. Bu məlumat riyazi dəqiqliklə ölçülüb-biçilmiş bir məlumatdır. Hətta belə deyək: Okkam ülgücü ilə rəndələnmiş informasiyadır. Qazan oğluna belə cavab verir: "*Yağı ona derlər ki, biz ona yetişsək biz onu öldürərik, o bizə yetişsə, o bizi öldürər.*" Nə artıq, nə əskik.

Yağının bu xarakteristikası "öz-başqası"nın dərkindən "öz-özgə"yə keçidin artıq qurulduğu bir dönəmdir. İnsan özünü özündən olmayana – başqa yad tayfanın nümayəndəsinə qarşı qoymağa başlayır. Özündən olmayan ilk öncə hər hansı bir başqası olacaq. Bu, ideolojisiz bir dönəmdə olmaq deməkdir. İdeolojilər ortaya girdikcə, "Başqası" "özgəyə" dönür və düşmənçiliyin səbəbinə çevrilir. Dastandakı dönəm kəskin qarşıdurmalar və ideolojilərin başlandığı, tüğyan etdiyi bir dönəmdir. Bu, başqasını nəyinsə üstündə, səbəbli öldürmə yox, məhz "başqası" olduğu üçün öldürmək lazımdır dönəmindən sonrakı dönəmdir. Amma bu dönəmin ilkin mərhələsidir. Burada ideolojinin hələ əhəmiyyəti yoxdur: yağıdır, vəssalam. İdeolojilər daha sonrakı mərhələlərdə təkmilləşməyə başlayacaq. Dastan bizə ideolojilərin kəskin yaşanmadığı dönəmin (xeyli qədim, tarixə qədərki dönəmin) bədii modelini təqdim edir.

Yalan söz

Dastanın başlanğıcı sayılan Müqəddimədə bir sıra insanı tərbiyə edən kəlamlarla yanaşı, beləsinə da xüsusi diqqət yetirmək lazımdır: *"Yalan söz bu dünyada olunca, olmasa yey"*. Demək olar ki, Dastandakı mifoloji qatın ən əsaslı bünövrə sütunlarından biri bəlkə də bu ifadədir. Yalan sözə nifrət, sözün fetişləşdirilməsi, vədə əməl etmək dastan qəhrəmanları qarşısına qoyulan əsas tələblərdəndir. Bunu etməyənə ləqəb verirlər, o, həyatının sonunadək bu ləqəbi daşımağa möhtacdır. Yalançı oğlu Yalıncıq buna bariz nümunədir.

Yaxud Beyrəyin faciəsi yalan sözün deyilməsində (vədin verilməsində, andın içilməsində) özünü göstərir. Beyrək kafir qızına yalan vəd verir və o vədə əməl etmir. Nəticədə, Beyrəyin həyatı faciə ilə bitir.

Yalan söz Dədə Qorqud kultuna, Oğuz əxlaqına, inanclar kompleksinə qarşı yönəlmiş bir naşılıq, təcrübəsizlik həmləsidir.

"Yarımçıq əlyazma"

Bu sətirlərin müəllifi "Kitabi-Dədə Qorqud" motivləri əsasında "Yarımçıq əlyazma" adlı bir roman yazdı. Roman Azərbaycanda 2004-cü ildə çap edildi, haqqında – həm lehinə, həm də əleyhinə çoxlu rəylər yazıldı. Roman 20-yə yaxın dilə tərcümə edilib müxtəlif ölkələrdə (Rusiya, Fransa, Braziliya, Almaniya, ABŞ, İtaliya, Polşa, Türkiyə, Yaponiya, Misir, Gürcüstan, Kazaxıstan və başqa ölkələrdə, çap edildi. Bəzi ölkələrdə iki (Fransa, İtaliya, Türkiyə), yaxud üç (Azərbaycan, Rusiya) nəşri işıq üzü gördü.

Romanın quruluşu iki dövrü əhatə edir. Birinci dövr – tarixi sayıla biləcək Şah İsmayıl dövrünün müəyyən hadisələrilə bağlıdır.

İkinci dövr – mifoloji dövr kimi ayıra biləcəyimiz Dədə Qorqud dövrünün hadisələri ilə bağlıdır.

Bu iki dövr – həm tarixi, həm də mifoloji dövrlər roman boyu birbirini əvəzləyir və biri digərini dərindən anlamaq üçün müəyyən açarlar verir.

Romanın əsas ideoloji məqsədi Dastan potensialında özünü göstərən Dastan qəhrəmanlarının adi, mətnin diqtəsi və nəzarətindən azad olan həyatına nüfuz etmək, Bayındır xanı, Salur Qazanı, Şirşəmsəddini, Banuçiçəyi, Burla xatunu, Boğazca Fatmanı, Aruzu, Beyrəyi və başqa bəyləri bir növ ədəbi pyedestaldan düşürüb onların daxili aləmlərinə nəzər salmaq idi. Onların adekvat dəyərlərini üzə çıxarmaq təşəbbüsü idi.

Şah İsmayılla bağlı mətləbin canında isə Şah və Şairin bir insanın timsalında necə birləşdiyini görmək ehtirası dururdu.

Yasaqlar

Cəmiyyətin həyatında zaman-zaman üzə çıxan qadağalar yasaqlar kimi daşlaşa, formalaşa bilirlər.

Yasaqlar dastanda sistemli şəkildə təzahür edir. Onlar iki qrupa ayrılırlar: hüquqi yasaqlar, etik-əxlaqi yasaqlar. Həm hüquqi, həm etik-əxlaqi yasaqlar bütövlükdə cəmiyyəti içəridən möhkəmlətmək məqsədini güdür və əslində mənəvi və struktur vasitə kimi cəmiyyətin tamlığını, daxili bütövlüyünü, mənəvi yekrəngliyini qoruyub saxlamağa xidmət edirlər.

Hüquqi yasaqlar həm də gündəlik olaraq cəmiyyətin həyatını tənzim edirlər və onları dastan daxilində bu şəkildə qruplaşdırmaq mümkündür:

– Qan qohumluğunun qarşısını alan yasaq. Qanturalının özünə nişanlı axtarışına Qalın Oğuzda deyil, ondan kənarda (Trabzonda) çıxmasının əsas səbəbi elə bu yasaqla bağlıdır;

– Qanun-qaydaya, nizama, sahmana (Kosmosa) qarşı mübarizəyə imkan verməyən yasaq. Qalın Oğuzdakı dövlətçilik rüşeymlərinə qarşı çıxmaq, ona qarşı üsyan etmək, əslində, düzənin dağılması demək idi. Bunu isə Aruz Qoca təşkil etmişdi və bu, Aruz Qocaya baha başa gəlir. Öz bacısı oğlu Salur Qazan onun başını qardaşı Qaragünəyə kəsdirir;

– Cəmiyyət üzvünün öldürülməsi yasağı. Uruzun atası Qazana "*yağı nəyə derlər, baba*?" sualından sonra verdiyi daha bir sadəlövh sual bu idi: "*əgər kimsə bir yağı öldürsə ondan haqq-hesab tələb edərlərmi?*" Qazan oğluna belə cavab verir: "*Nə qədər yağı öldürsən kimsə səndən hesab sormaz.*" Deməli, əgər öldürülən yağı deyil, cəmiyyət üzvü, yəni, Qalın Oğuzdan biri olarsa, adamdan haqq-hesab sorarlar. Yaşadığın cəmiyyətin digər üzvünü cəza almadan (haqq-hesab vermədən) öldürə bilməzsən.

– Tayfadaxili (İç Oğuzla Dış Oğuz) nifaq yasağı. Yenə də Dış Oğuzun üsyanını xatırlamaq olar. Boyun didaktik təlqini budur ki, Qalın Oğuzun parçalanmasına gətirən hər hansı hərəkət yolverilməzdir;

– Şəxsi mənafeyini cəmiyyət mənafeyindən üstün tutmağın yasağı. Bunu biz Beyrəyin aqibətinin timsalında görürük. Beyrək ölməyə razı olur, amma ağası Qazan xanın inağı (sevimlisi) olduğu üçün ona dönük çıxmır. Qazan xan burada ali hakimiyyəti, yəni, Qalın Oğuzu təmsil edir. Başqa sözlə desək, bütövlükdə cəmiyyəti təmsil edir. Beyrək üçün Salur Qazanın mənafeyi Beyrəyin özünün mənafeyindən üstündür;

– Mərkəzi hakimiyyətə qarşı üsyan yasağı. Dış Oğuzun İç Oğuza qarşı üsyanını və bu üsyanın nəticəsini misal göstərmək olar;

"Təbiət-mədəniyyət" qarşılığında təbiətə hər nə şəkildə olursa-olsun qayıdış yasağı. Aruz Qocanın oğlu Basat uşaq vaxtlarından itkin düşüb təbiətin qoynunda, aslan yatağında aslan tərəfindən böyüdülmüşdür. Böyüdükdən sonra onu tapıb atasına gətirirlər. Basat ata evində, insanlar arasında qalmaqdan sıxılıb yenidən gəldiyi yerə – aslan yatağına geri dönür. Onu tapıb yenə də evinə qaytarırlar. Təbiətdən mədəniyyətə (cəmiyyət içinə) qayıdış bu cür ağır bir şəraitdə baş verir. Yasağı Dədə Qorqud qoyur. O gəlib Basata "*Oğlanım, sən insansan, heyvanla müsahib olmağıl. Gəl yaxşı at min. Yaxşı yigitlər ilə eş yort*" deyir və Basatın ayağını təbiətdən kəsir. Görünür, bu da kifayət deyil. Təbiətə qayıdışın birdəfəlik qarşısının kəsilməsi Basatın bütövlükdə təbiəti təmsil edən Təpəgözü öldürməsi ilə birdəfəlik təsbit edilir.

"Kitabi-Dədə Qorqud" dastanındakı **etik-əxlaqi yasaqlar** cəmiyyətdaxili əhəmiyyətə malik olub cəmiyyət üzvlərinin bir-birinə şəxsi münasibətlərini nizamlamağa xidmət göstərir. Bunlara aşağıda göstərilənlər daxildir:

Ataya (böyüyə) itaət etməməyin yasağı. Dastanda belə bir ifadə işlənir: "*ol zamanlar oğullar ata sözünü iki eləməzlərdi. Eləsə idilər, ol oğulun üzünə baxmazlardı.*" Ata sözündən çıxmamaq, ataya itaət bu sözlər vasitəsilə müəyyənləşdirilir;

Yalan söz danışmağın yasağı. Müqəddimədə deyilir: "*Yalan söz bu dünyada olunca olmasa yey!*" Müqəddimə Dastanın mənəvi manifestidir və burada deyilənlər ehkam kimi cəmiyyət üzvünün beyninə yeridilir. Yalançı oğlu Yalınçığın aqibəti məlumdur. Beyrək kafir qızına yalan vəd verdiyinə görə mətndə qətlə yetirilir;

Nişanlı qızın oğlanla toydan əvvəl görüşməsinin yasağı. Banuçiçək onu görmək istəyən Beyrəyə ona görünməməyinin səbəbini belə izah edir: "*Ol qız elə qız deyildir ki, sənə görünə*". Deməli, Dastanda elə bir kateqoriya qızlar var ki, onlar evlənməzdən əvvəl nişanlılarına görünməkdən qaçmırlar. Buradan belə çıxır ki, nişanlı qızın toydan əvvəl deyiklisi ilə görüşməsi doğru-düzgün münasibət kimi qəbul edilmir.

Tək qərar qəbul etməyin yasağı. Salur Qazan çox vaxt müəyyən bir qərar çıxarmaq niyyətilə "*Bəylər!*" xitabı ilə bəylərə müraciət edir. Bu məqam bəyləri dialoqa dəvət kimi qəbul edilməlidir, çünki bu xitabdan sonra bəylər Qazana müəyyən məsələlər üzrə məsləhətlər verməyə başlayırlar. Sonunda hamının razılaşdığı müvafiq qərar qəbul edilir. Məsələn, ova getməklə bağlı, "nə dersiniz, bəylər?!" təklifindən sonra hər bəy "məsləhətdir" deyir və ov məsələsi həll olunur.

Yasağı pozmaq Dastanda təsvir edildiyi kimi müəyyən cəzalandırma aktı ilə nəticələnir. Ölümdən tutmuş tənbehə qədər böyük bir spektri özündə saxlayan **cəza** faktoru yasağın əsas qoruyucusudur.

Yazı

İnformasiya ötürmənin mədəniyyətin nisbətən yüksək səviyyəsinə mənsub olan xüsusi forması. Müəyyən mənada şifahi yaradıcılığa qarşı qoyula bilər. Yazı mədəniyyəti "Kitabi-Dədə Qorqud" dilində zəif, hələ güc yığmamış şəkildədir. Onun törəmələrindən olan üslubi rəngarənglik, cümlələrin dərinliyi və obrazlılığın vüsəti, başqa sözlə, bədii "süsləmələr" hələ "kütləviləşməyib", daha doğrusu, "tirajlanmayıb". Dastanın dilində Yazı mədəniyyətinin, yəni, süjeti xüsusi olaraq qurmanın, üslubçuluğun, bədii süsləmənin ən yaxşı halda ancaq bakirə formalarına rast gəlmək olur. Fikir, məqsəd "Kitabi-Dədə Qorqud"da bir qayda olaraq xüsusi olaraq cilalanmadan, bədiiləşməyə məruz qalmadan çatdırılır. Üstünlük müstəqilliyə, informasiyanın birbaşa, toxunulmadan ötürülməsinə verilir.

Bədii dil və bədii təfəkkürün əsas istinadgahı olan Yazının gələcək inkişafının güclü rüşeymləri də burada özünü göstərməmiş deyildir. Bakirəliyi qədər dərin və gözəl olan bir sıra bədii obrazlar buna əyani şəkildə sübutdur. Nümunə kimi Selcan xatunun vüsalı yolunda əngələ, maneəyə çevrilmiş üç vəhşi heyvan haqqında deyilmiş "*ol qızın üç canavər qalınlığı, qaftanlığı vardı"* ifadəsinə və başqa bu kimi dərinliyə işləyən obrazlara müraciət etmək olar.

İnsanın formalaşması prosesində yazı kimi qüdrətli bir mərhələyə gəlib çatması şərt idi. Bu mərhələ özündən əvvəlki mifoloji mərhələnin içində yaranmış, əmələ gələ-gələ püxtələşmişdir. Dastan dilində Yazının əlamətləri yer-yer sayrışmaqdadır.

Yeni tipli personajlar

Bunlar mətnin əsas aparıcı "dilinə" (xarakterinə) uyğun gəlməyən qəhrəmanlardır. Mifoloji mətnə xas personajlar birmənalı, psixoloji cəhətdən "yüklənməmiş", bir növ, monumental, yəni, müxtəlif psixoloji hisslərə parçalana bilməyən qəhrəmanlardır. Dastan öz kökü ilə mifoloji zəminə dayaqlandığından buradakı qəhrəmanlar belə qəhrəmanlardan ibarətdir deyə qəbul edə bilərik.

Bununla yanaşı, mətndəki bəzi gənc personajlar öz daxili psixoloji dolumu ilə digər qəhrəmanlardan fərqlənir. Onlar digər personajlarla müqayisədə yeni səciyyələr daşıdıqlarına görə belə bir təyinlə – "yeni" təyini ilə ünvanlana bilirlər. Biz onları Dastanda təsvir edilən yeni tipli qəhrəmanlar kimi qəbul edə bilərik. Onlar Dastan üçün bütövlükdə səciyyəvi olmayan yeni qəhrəmanlar kimidirlər. Nə üçün onlar yeni qəhrəman kimi qəbul edilməlidir?

Mifoloji qəhrəmanlara xas olan cəhət (yazılı mətn qəhrəmanlarından fərqli olaraq), əsas etibarilə, özünü onda göstərir ki, bu qəhrəman psixoloji cəhətdən "yüklənmiş" olmur. Onlar bir səciyyəlidirlər. Ya yaxşıdılar, ya pis, ya cəsurdurlar, ya qorxaq, ya ağıllıdılar, ya dəli, ya sədaqətlidilər, ya da dönük. Bütün digər mifoloji dünya dastanlarında olan kimi "Dədə Qorqud" qəhrəmanlarının böyük əksəriyyəti də bu cürdür və bunun özü Dastanın qədimlik dərəcəsini – mif dövrünə aidliyini bir daha qabarıq şəkildə göstərir.

Amma bu mətnin içindən başqa tipli, başqa "dil"ə məxsus mətnin cücərtiləri də özünü göstərməyə başlayır. Bu da Mif ideologiyasından sonrakı Yazı ideologiyasının özəlliklərini daşıyan elementlərin mətndə olmasıdır, yəni, bizim mətndə bəzi qəhrəmanlar var ki, bir psixoloji səciyyə deyil, bir neçə psixoloji səciyyə daşıyırlar, bir növ psixoloji cəhətdən "yüklənmiş"

(bivalent) qəhrəmanlar olurlar, beləliklə də, monumentallıqdan çıxırlar. Məsələn, belə personajların ən bariz nümunəsi kimi Beyrəyi göstərmək olar.

Beyrək həm sədaqətli, həm də dönük, həm dürüst, həm də hiyləgərdir. Eyni zamanda cəsur və qorxmazdır. Sədaqətli olmağı Qazana asi çıxmamağında, dönük olmağı kafir qızına verdiyi vədə əməl etməməsində, dürüst olması nişanlısının ərə verilməsini olduğu kimi açıb Kafir qızına danışmasında, hiyləgər olması kafir əsirliyində özünə isti bir yuva ("şərait") qura bilməsində özünü göstərir. Qazana düşmənçilik edən Dış Oğuz bəylərinin dəvətindən yayınmayıb Aruzun evinə getməsi, ölümdən qorxmayıb Qazana düşmən olanlarla ittifaqa girməməsi onun cəsurluğundan və qorxmazlığından xəbər verir.

Bu cür psixoloji hisslər qammasının bir adamda cəmləşməsi onu göstərir ki, mifoloji mətn artıq öz içərisindən yeni tipli qəhrəman yetişdirmişdir. Bu qəhrəman yazı "dilini", yazı ideologiyasını özündə yaşadan qəhrəmandır. Cəmiyyətin, prinsip etibarilə, yeni ideoloji təsəvvürlər məkanına keçməsini xəbər verən ilk qaranquşlardandır.

Belə psixoloji "yükləmələr" başqa qəhrəmanlarda da özünü göstərir. Ancaq heç birində Beyrəkdə olan qədər sistemli və ardıcıl olaraq özünü göstərmir.

Birxətli, "monumental" olmaqdan çıxma halına biz Qazanda da rast gəlirik. Onun düşmənlə savaş ərəfəsində anasını istəməsini yada salaq. "Hərbi hiylə" işlədərək Salur Qazan kafirə deyir ki, anamı qaytarın, mən qayıdım çıxım gedim. Qaraca Çobana isə öz hərəkətini belə izah edir: "*Anamı istəyim ki, savaş zamanı at ayağı altında qalmasın*". Göründüyü kimi bu, hərbi hiylədən başqa bir şey deyildir.

Ağasının (Qazanın) sözündən çıxan və bağlandığı ağacı kökündən çıxarıb Qazanın arxasınca ona kömək məqsədilə (əslində, düşmənlə döyüşdə canını verən qardaşlarının intiqamını almaq üçün) düşmən üzərinə gedən Qaraca Çobanı xatırlayaq. Ağasının sözündən çıxması onu "monumentallıqdan" da çıxarır.

Baybecan bəyin Beyrəyin atasına verdiyi sözü "unudaraq" qızı Banuçiçəyi Bayburd hasarının bəyinə vəd etməsini yada salaq. Üzdə bir cür, daxildə başqa cür olmaq da "monumental"lıqdan kənara çıxma halı kimi qiymətləndirilə bilər. Sözündən qaçmaq Baybecana da xas bir əlamətdir.

Bu cür qəhrəmanların yaranması mifoloji təsəvvürlərin tüğyan etdiyi bir dastan yaradıcılığından insanın iç dünyasına nüfuz etməyə başlayan yazı mədəniyyətinin hələ möhkəm olmayan məkanına keçid idi.

SON

Mifolinqvistika

(yenidən işlənmiş və genişləndirilmiş variant)

Dilçiliyin mifologiyaya qoşulması

İlk baxışdan adama elə gəlir ki, Kamal Abdullanın "Mifolinqvistika" proyektinin-əsərinin kökündə sırf praqmatik səbəb durur: alim haqlı olaraq belə hesab edir ki, dilçiliyimizin inkişafını təmin edən metodoloji imkanlar tükəndiyinə görə elmi fikir yerində saymağa başlamışdır; bu onun "xəstələnməsi"ndən xəbər verir və təcili tədbirlər görülməsə, durğunluğun dərinləşməsi, geriyədönməz xarakter kəsb etməsi labüddür. Problemi isə yalnız gözlənilən/gözlənilməz elmi-metodoloji konsepsiya ortaya qoymaqla həll etmək olar. Lakin hər şeydən əvvəl bu və ya digər problem fərdin maraq dairəsindən çıxıb topluma aid olunursa, mütləq şəkildə onun ruhi-mənəvi ölçüsü peyda olur. İkincisi, elmin minillik inkişafı təcrübəsi birmənalı şəkildə sübuta yetirir ki, "xəstəlik" "sağlamlığ"ın rəhnidir,çox vaxt elmi fikirdə ayaq saxlamaq, toparlanmaq yeni, daha sürətli hərəkətin vacib şərtidir – təki yeni inkişaf istiqaməti düzgün və başlıcası, aydın şəkildə müəyyən olunsun. Uzun illər boyu "Kitabi-Dədə Qorqud"un mifoloji və linqvistik aspektləri ilə sistemli şəkildə məşğul olan Kamal Abdullanın Azərbaycan dilçilik elminin gələcək inkişifının məhz "mifolinqvistika"nın açdığı perspektivlər çərçivəsində görməsi və təklif etməsi əlbəttə ki, təbiidir.

Mən bir məlum həqiqəti də dilə gətirməyə məcburam: bir qayda olaraq tədqiqatçı hadisəni/fenomeni anlayış vasitəsilə çərçivəyə salmağa çalışır lakin heç zaman istəyinə bütünlüklə nail ola bilmir, bir qayda olaraq tədqiq olunan hadisə öz anlayış-adından qat qat-qat geniş və zəngin olur; Kamal Abdullanın yeni elmi istiqamətin adı kimi təklif etdiyi "mifolinqvistika" son dərəcə sıxılmış anlayışdır; təkcə elmi istiqamətin yox, maksimum yığcamlıq elmi istiqamətin adında onun "proloq"unun və "epiloq"unun öz əksini tapmamasına səbəb olmuşdur. Yeri gəlmişkən, lako-

nizm təkcə əsərin adına yox, onun bütün korpusuna münasibətdə özünü büruzə verir.

Kamal Abdullanın təklif etdiyi Mifolinqvistika elmi istiqamətinin proloqu deyəndə mən linqvistikanın tədqiqat obyekti qismində insanın dünyanı dərk etməsi prosesində mifdən əvvəl gələn, lakin müəllif tərəfindən onun meydana gəlməsinin bərəks səbəbi kimi şərtləndirilən "təmiz məntiqdən ibarət ən qədim" müstəqimlik (invariant, etalon) qatını nəzərdə tuturam; müəllif insanın dünyanı dərkinin bu qatına böyük əhəmiyyət verir və onu geniş (əlbəttə ki, rəhbər tutduğu üslubi yığcamlıq çərçivəsində) şərh edir.

Bu gün primitiv insanın nəsnə və hadisələri birbaşa və birmənalı şəkildə adlandırması prosesini müşahidə etmək imkan xaricindədir, deməli, dilin formalaşmasının bu qatını müəllif təxəyyülünün məhsulu kimi, elmi fərziyyə kimi nəzərdən keçirmək olar. Lakin müəllif inamla və israrla dilin məhz bu təməl qatı üzərində formalaşdığını göstərir və mənim fikrimcə, gətirdiyi inandırıcı misallar sayə-sində fərziyyənin elmi qənaətə çevrilməsinə nail olur. Müəllif haqlı olaraq göstərir ki, məcazi-metaforik deyim imkanlarından məhrum müstəqimlik qatında poetik yaradıcılıqdan söhbət gedə bilməz. Amma dilin inkişafının sonrakı inkişafı göstərir ki, bu qat implisit şəkildə poetik deyimə hamilə imiş və heç də təsadüfi deyildir ki, aposteriori bu potensiya özünü büruzə verdi. Sübut üçün yapon şairi Basyönün bir xokkusuna müraciət edək:

Qədim nohur.
Qurbağa suya tullandı –
Sükutda səs.

Bu nümunədə metaforik deyim tərzindən əsər-əlamət yoxdur; sənətkar sadəcə nəsnə və hərəkətləri adlandırır, lakin sərraflar haqlı olaraq onu yüksək poetik əsər kimi dəyərləndirirlər: bəşər mədəniyyətinin sonrakı dönəmlərində meydana gəlmiş mifoloji və üslubi-poetik qatların xüsusiyyətləri bərəks XV əsrin məhsulu olan xokkunun canına hopmuş və birbaşa ifadə olunmasalar da, implisit şəkildə bütün dil elementlərinin arxasından boylanırlar, yaxud Kamal Abdullanın dili ilə desək, "sayrışırlar"; bu onunla bağlıdır ki, alimin çoxsaylı misallar əsasında sübuta yetirdiyi kimi yeni qatın yaranması əvvəlkinin ləğv olunmasına yox, növbəti qatın əvvəlki ilə

"toqquşma"sı prinsipi əsasında həzm-rabedən keçirməsinə, onunla üzvi vəhdətdə birləşməsinə söykənir. (Yeri gəlmişkən, Kamal Abdulla dil qatlarının toqquşması deyəndə heç də onların bir-birini ləğv etməsini yox, bütün ziddiyyətlərini büruzə vermələrini, onları dəf etmələrini, tədricən bir-birilə dil tapmalarını, uyuşmalarını nəzərdə tutur).

Dil-müstəqimlik qatının qanunauyğunluqlarından çıxış edən müəllif, fikrimcə, dilin imkanları hesabına dünyanın dərk olunması ilə bağlı son dərəcə mühüm nəticəyə gəlir: məhz nəsnə və hadisələri denotat prinsipi əsasında adlandırmaqla insanın dünyanı özününküləşdirməsi cəhdi kimi onun ilk modeli ortaya qoyulur. Bu model, əlbəttə ki, hələ bəsitdir, dünyanın rəngarəngliyini əks etdirmək qabiliyyətində deyil. Lakin müstəqimlik prinsipi əsasında yaranan ilkin modelin əsas konturlar artıq cızılmış və bu, təfəkkür-dil birliyinin dünyanı dərkin əbədi yoluna qədəm basmasına meydan açmışdır.

Müəllif haqlı olaraq vurğulayır ki, "dil təfəkkürün solğun təkrarıdır"; doğrudan da elə bir adama rast gəlmək olmaz ki, ömründə heç olmasa bir dəfə fikrini ifadə etməkdə acizlik nümayiş etdirməsin. Lakin əsər implisit şəkildə başqa bir dialektik həqiqətə də yol açır: "aciz" dil fərddən/fərdi təfəkkürdən ayrılır, müstəqil şəkildə qat-qat, toplum-toplum inkişaf edir, saysız-hesabsız incə çalarlar kəsb edərək və zənginləşərək universallaşır, qloballaşır və yeni ipostasda – fərdi təfəkkürün qarşısında yenidən acizləşmək üçün insanın ixtiyarına keçir.

Dilin keçdiyi bütün tarixi inkişaf yolu nəzərdən keçirmək və onun gələcək inkişaf perspektivlərini müəyyən etmək üçün Kamal Abdullanın məhz "mifolinqvistika" anlayışına üstünlük verməsi bir neçə cəhətdən diqqəti cəlb edir. Hər şeydən əvvəl müəllif haqlı olaraq göstərir ki, bəşər tarixinin mifoloji dönəmi dilin inkişafında həlledici rol oynamışdır; məhz mifoloji qatda dildə seçmə imkanı formalaşdıran variantlar yaranmış və bu dilin və təfəkkürün qarşılıqlı şəkildə inkişafı üçün meydan açmışdır. İkincisi, dilin inkişafı tarixində mifoloji qatdan sonra üçüncü – üslubi qatın meydana gəlməsinə və ilk baxışdan mifoloji elementin sanki arxa plana keçməsinə baxmayaraq bəşər övladı aramsız şəkildə yeni-yeni miflər yaratmaqda davam etmişdir və bu günün özündə də – posmodernist dönəmdə də bu proses nəinki davam edir və şaxələnir, ilk baxışdan mifoloji təsəv-

vürlə heç bir əlaqəsi olmayan sahələri fəth edir, yəni tarixin sınağından keçmiş köhnə mifologiya ilə yanaşı yeni mifologiya da dildə gedən proseslərə təsir etməkdən qalmır; özü də mifin müxtəlif konseptləri toqquşur, çarpazlaşır – köhnə miflər "yeniləşir", aktuallaşır, yenilər klassik miflərin kontekstində "köhnəlir", tarixi ölçü kəsb edirlər. Bu əlbəttə ki, dilə/dilçiliyə təsir göstərməyə bilməz.

Bu yığcam tədqiqatda müəllif mifolinqvistikanın yetərliliyini, dilçiliyin yeni sahəsi kimi mövcud olmaq hüququnu təkcə diaxron planda yox, həmçinin sinxron kəsimdə də nəzərdən keçirir və sübuta yetirir ki, mifolinqvistika dilçiliyin bütün səviyyələrini ehtiva etmək, onların yeni, "gözlənilməz" cəhətlərini üzə çıxarmaq gücündədir.

Mən mifolinqvistikanın konsepsiya qismində ortaya qoyduğu bütün nəticələri təhlil etmək fikrində deyiləm – bu Kamal Abdullanın əsərini sözsöz təkrar etməyi tələb edərdi; yalnız onu demək kifayətdir ki, Kamal Abdullanın yığcam ifadə tərzi mifolinqvistikanın bir elm sahəsi kimi iki özəl xüsusiyyətini üzə çıxarmağa imkan verir: birincisi, "xəsis" deyim dilin müxtəlif səviyyələrinin aparıcı cəhətlərini üzə çıxarmaqla onların özlərinəməxsusluğunu, spesifikasını vurğulayır. İkincisi, yığcamlıq müəllifə ayrı-ayrı dil səviyyələrinin fövqündə dayanmaq, onları mifoloji təsəv-vürlər vasitəsilə bir-birinə calamaq üçün şərait yaradır; bütöv üzvi konsepsiya kimi formalaşmış əsərdə dil səviyyələri ayrı-ayrılıqda, müstəqil şəkildə və bir yerdə – vəhdətdə təqdim olunurlar.

Aramsız şəkildə bir-birilə toqquşan, bir-birini rədd edən, mərkəzdənqaçma qüvvələrin təsiri altında bir-birindən uzaqlaşmağa cəhd göstərən elementləri bir araya gətirmək üçün Kamal Abdulla yeri gəldikcə mifologiyanın elementləri ilə yanaşı dilin/dilçiliyin də imkanlarından istifadə edir. Bu baxımdan ilk növbədə müəllifin elmi dövriyyəyə daxil etdiyi "sinqulyar nöqtə" konsepsiyası diqqəti cəlb edir. Sinqulyar nöqtə konsepsiyası mifolinqvistikanın müstəqimlik qatından da kənara çıxır, faktiki olaraq bəşər övladının heyvanlar aləmindən yenicə ayrıldığı dövrə müraciət edir – primitiv bəşər övladının səsi var, actual anlamda sözü yoxdur, insan hələ "quş dili"ndə danışır, müxtəlif səslər vasitəsilə toplumun üzvlərinə primitiv informasiya ötürür, təşvişini bildirir, xəbərdarlıq edir; amma artıq səsin vibrasiyasındakı dəyişikliklər məna diferensiasiyasından xəbər verir. Kamal

Abdullanın şərhində dilin yaranmasının başlanğıcında dayanan sinqulyar nöqtə misli görünməmiş ifadə potensialına malikdir, dilin bu günə qədər ifadə etdiyi və gələcəkdə ifadə edəcəyi bütün mənaları ehtiva edir.

Başlanğıcda mifolinqvistikanın "proloq"una toxundum. Bir-iki kəlmə də epiloq haqqında: Kamal Abdulla mifolinqvistikanın öz hüdudlarından kənara çıxaraq humanitar düşüncənin müxtəlif sahələri ilə – fəlsəfə ilə, psixologiya, sosiologiya, ədəbiyyatşünaslıqla müxtəlif əlaqələrdə olmasını vurğulayır. Bu baxımdan iki məqam üzərində dayanmaq yerinə düşər: birincisi, dilçiliyin bu elm sahələrinə mifologiya nəzər nöqtəsindən yanaşması labüd şəkildə qarşılıqlı münasibətlərdə köklü dəyişikliklərin meydana gəlməsinə səbəb olacaq, nəticədə təkcə dilçilik elmi dəyişməyəcək, sadaladığımız elm sahələri də mifolinqvistik kontekstdə özlərinin insana və dünyaya münasibətlərində, həmçinin inkişaf perspektivlərinin istiqamətlərində müəyyən korrektivlər etməyə məcbur olacaqlar.

"Mifolinqvistika" əsərinin pafosu yenidən praqmatikaya qayıtmağa təhrik edir: hal-hazırda Azərbaycan və müəyyən mənada dünya dilçiliyi durğunluq dövrünü yaşayır – mövcud tədqiq və təhlil üsul və vasitələrinin potensialı faktiki olaraq tükənmişdir; məşhur amerikalı filosof Kunun dili ilə desək, dilçilik toplumunun üzvlərini birləşdirən paradiqma yoxa çıxmışdır. Kamal Abdulla çıxış yolunu mifologiyanın və dilçiliyin üzvi vəhdətində görür. Bununla bağlı əsərdə implisit-eksplisit şəkildə öz ifadəsini tapmış iki məsələyə toxunmaq istərdim. Birinci məsələ mifin çoxyönlü paradoksal təbiəti ilə bağlıdır: məlum olduğu kimi mif elmdir/elm deyil, mif ritualdır/ritual deyil, mif dildir/dil deyil. Dilçilik mifologiyaya "qoşulmaq"la faktiki olaraq mifin bütün sadaladığım və sadalamadığım paradokslarını özününküləşdirir, dünyanı dərkin sonsuz üfüqünə "qoşulur". İkincisi, əsərdə mifoloji təsəvvürlərin dil səviyyələrində inikasının təhlili inandırıcı şəkildə sübuta yetirir ki, məhz mifologiya müstəvisində Ferdinand dö Sossürdən üzü bəri dilçilik elmində diaxroniya ilə sinxroniya arasında mövcud olan ziddiyyəti həll etmək olar.

Prof. Dr. Qorxmaz Quliyev

Giriş və yaxud mifolinqvistikaya ilkin yanaşma

1. Mifolinqvistikanın universal prinsipi

Bu kitab dilçilikdə bəzi boşluqların doldurulması cəhdidir. Boşluqlardan ən vacibi mifolinqvistika adlandıra biləcəyimiz xüsusi sahədir.

Mifolinqvistika mifologiya ilə dilçiliyin sərhədində baş verən mifoloji və linqvistik hadisələr arasındakı toqquşmaların daxili mahiyyətini öyrənməyi məqsəd kimi qarşısına qoyan bir elmi istiqamət kimi düşünülür. Adda-budda şəkildə bu yöndə söz deyənlər, təbii ki, olub, amma bu mətləbin sistemli işlənməsi hələ ki diqqəti cəlb etməmişdir. Bir də görürsən ki, mifoloji araşdırmalar zamanı tədqiqatçı özündən xəbərsiz gedib ədəbiyyat, fəlsəfə, semiotik istiqamətlərə çıxa bilir, dilçiliyə isə gəlməyi asan olmur. Dilçilik mifoloji araşdırmalar adlanan kosmik gəminin qarşısında "açılan" qara dəlik kimidir. Orada səni nə gözləyir sualına və ümumiyyətlə, ordan qayıtmaq mümkündürmü sualına cavab yoxdur.

Bu tədqiqatın əsas, aparıcı xətti "etalon və ondan kənara çıxma" qarşıdurmasının müxtəlif təzahürləri üzərində qurulur. Qarşıdurmanın tərəflərini isə *invariant* (etalon) və *variantlar* (kənara çıxmalar) kimi təsəvvür etmək olar.

Mifolinqvistikanın əsas bünövrəsini, bazasını, ondan çıxış şərtlərini öyrənmək istəsək, biz hökmən gərək tarixi müstəviyə qədəm qoyaq. Çünki mifolinqvistik hadisələr (toqquşmalar) tarixilik fonunda daha aydın şəkildə izah edilə bilir.

Əgər biz bəşərin ümumi (universal) inkişaf tarixini "qat" adlandıracağımız müəyyən hissələrə bölsək və bu qatların funksiyalarını müəyyənləşdirmək istəsək, invariant (etalon) nümunə 1-ci ən qədim (primitiv, müstə-

qim) ilkin qata məxsus element kimi diqqəti cəlb edər. Başqa sözlə desək, birinci, ən dərin ilkin qatın funksiyası məhz invariant və invariantların yaratdığı münasibətlərdən ibarətdir. Bunu deməklə o nəzərdə tutulur ki, ən dərin ilkin, primitiv qatda cəmiyyət üzvü (və yaxud primitiv insan) hər hansı fikir bildirmək ilə müstəqim və birmənalı şəkildə (bu isə hətta o ilkin dövrdə belə real sözlər vasitəsilə həyata keçirilirdi) məşğul olurdu. Cəmiyyət üzvünün ifadə potensialı onun ətrafında olan hər şeyə autentik münasibətilə ölçülə bilər, yəni, fikir bildirilən, diqqət mərkəzində olan obyektin ancaq özünəməxsus xassələri onun diqqətində olurdu. Bu isə müstəqimlikdən başqa bir şey deyildi.

Hər şey müstəqimlikdən başlayır. Müstəqimlik (söz, ifadə, nida...) münasibətlərin ilkin, ən qədim qatıdır. Beləliklə, ilkin qat və ona uyğun müstəqimlik münasibətləri bizim təqdimatımızda əsas çıxış nöqtələrindən biri (birincisi) olacaq.

Primitiv insanlar arasında münasibətlərin müstəqimlik qatından sonrakı növbəti mərhələsi müstəqimliyin yeni dərki ilə bağlıdır. Dünən müstəqim şəkildə dərk və qəbul edilən məna tarixin növbəti mərhələsində yeni qat cücərti verərkən artıq metaforik şəkildə anlaşılır. Beləliklə, 2-ci qat metaforik qat adlandırıla bilər.

2-ci qatın (bu, artıq həm də mifoloji məkandır) elementlərini isə variantlar kimi ayırmaq mümkündür. Variantları məhz bu ikinci qatın funksiyası saymaq olar. Bu qatı biz mifoloji məkana məxsus qat kimi ayırırıq. İnkişaf tariximizin ən qədim deyil, ondan bir mərhələ sonrakı, variantlara söykənən, variantlar vasitəsilə geniş nəfəs ala bilən bu qatı məhz mifoloji təsəvvürlər, mifoloji dünyagörüşü və dilin mifoloji mahiyyəti üçün əlverişli və münbit zə-min (şərait) yaradır.

Variantların əmələ gəlməsilə səciyyələnən ikinci, mifoloji qatda müstəqim modellərə belə deyək, "ehtiram", "pərəstiş" yoxalmağa başlayır. Dildə meydana çıxan variantlar təfəkkürdə də müəyyən dəyişikliklər yaradır. İnsan dərk edir ki, onun seçmə imkanı var. O, bir neçə (təbii ki, əvvəlcə iki) işarədən istədiyini seçə bilər. İkinci qatda seçim tam olaraq onun ixtiyarındadır. Seçimin motivləşməsi daha sonrakı dövrlərə aid edə biləcə-

yimiz mürəkkəb psixoloji-ictimai səbəblərin nəticəsi olaraq ortaya çıxır. Amma qeyd edək ki, bunu, yəni, seçim imkanının olmasını anlamağı hələ onun seçmə hüququnun olmasını anlamağına dəlalət etmir. Seçmə imkanı ilə seçmə hüququ bir-birindən kifayət qədər aralı məsafədə duran artıq linqvistik yox, fəlsəfi, hüquqi, ictimai dəyərlərdir.

Qatlar arasındakı bu qarşıdurma (invariant və variantlar) ən müxtəlif dil səviyyələrində özünü göstərir və onu da qeyd etmək lazımdır ki, qarşıdurmanın (eyni zamanda toqquşmanın) kəskinliyi ayrı-ayrı dil səviyyələrində müxtəlif ola bilər. Sintaksisdəki mifoloji qatın aktivliyi (cümlə modelindən törəmələr) fonetikadakı kimi (fonemdən yaranan səslər kimi) olmaya bilər, leksikadakı mifoloji aktivlik morfologiyadakından fərqlənər və s. və i.a. Leksikadakı aktivlik son dərəcə, maksimal aktivlik sayıla bilər, çünki söz səviyyəsində variantların yaranması ikinci qatda artıq insanın bilavasitə özü tərəfindən tənzim edilə bilmir, bunu dillərarası münasibətlər, müxtəlif tayfalararası əlaqələr və başqa həyat üçün vacib faktorlar müəyyən etməyə başlayır. Mifoloji təfəkkürə də o qalır ki, bu prosesi müşayiət etsin və ondan bəhrələnsin. Amma dil səviyyələrinin hamısı üçün bu qarşıdurmanın (invariant-variant) tətbiqini bir prinsip kimi qəbul etmək və müxtəlif səviyyələrdə müstəqimlik və mifolojilik elementlərini (potensialını) müəyyənləşdirmək mümkündür. **Mifoloji dilçilik** dediyimiz sahənin əsas vəzifəsi elə bu dediklərimiz sayılmalıdır. Bütün linqvistik səviyyələr (fonologiya-fonetika, leksika, morfologiya, sintaksis) üzrə təklif edilən bu vahid prinsip, əslində, mifoloji dilçiliyin (mifolinqvistikanın) bütün səviyyələrdə "işləyən" universal prinsipi sayıla bilər. Onu ümumi olaraq "invariantdan varianta" şəklində sxemləşdirə bilərik:

2. Mifolinqvistikanın yaşama hüququ

Dilçilik və psixologiya, dilçilik və fəlsəfə, dilçilik və sosiologiya, dilçilik və tarix, dilçilik və ədəbiyyat… kimi termin-birləşmələr dilçiliklə, psixologiya ilə, fəlsəfə ilə, sosiologiya ilə, tarixlə, ədəbiyyatla məşğul olanlara yaxşı məlumdur. Bu birləşmələr onlarda təmsil olunan hər hansı bir tərəfin

mənafeyini "şişirtməyi" nəzərdə tutmur, tərəflərin bir-birindən qarşılıqlı zənginləşmə və faydalanma prinsipinin gözlənməsi ilə meydana çıxır.

Dilçiliyin fəlsəfi aspektinin öyrənilməsi dilçiliyə nə kimi yeniliklər gətirdi – bu məsələnin indi geniş şəkildə izah edilməsinə xüsusi olaraq ehtiyac yoxdur, çünki məsələ həm dilçilər, həm də filosoflar üçün aydındır. Eyni zamanda dilimiz bizim düşüncəmizin və təfəkkürümüzün inkişafı üçün hansı addımları atdı – bu da mütəxəssislərə yaxşı məlumdur. Dilin inkişafı təfəkkürün inkişafından ayrı götürülə bilməz. Eləcə də, təfəkkürün inkişafı dildən kənarda mümkün deyil. Onların bir-birindən güc alaraq inkişaf etməsinin sayəsində bütövlükdə insan, insanın inkişafının sayəsində isə cəmiyyət inkişaf edir. Bütün bu məsələlər fəlsəfi dilçilikdə (koqnitiv dilçilikdə) geniş şəkildə öyrənilir.

Dilçiliyin psixologiyaya və psixologiyanın dilçiliyə verə biləcəkləri xüsusi elm sahəsinin – psixolinqvistikanın yaranmasını şərtləndirdi. Dil təzahürünün psixoloji şəraiti, müxtəlif dil vahidlərinin formalaşmasının psixoloji şərtləri və başqa məqamlar psixolinqvistikanın şaxələnməsinə imkan yaratdı.

Qarşılıqlı faydalanma ilə bağlı eyni sözləri tarixin dilçiliklə əlaqəsi və sosiologiyanın dilçiliklə əlaqəsi barədə də söyləmək olar. Tarixi dilçilik və sosiolinqvistika həm tarixin, həm sosiologiyanın, əlbəttə ki, həm də dilçiliyin öyrənilməsinin yeni-yeni üfüqlərini göstərdi. Bu deyilənlər xüsusi araşdırma və sübut tələb etməyən müddəalardır.

Eyni zamanda üzərində tədqiqat aparılması maraqlı olan sahələrdir. Yeri gəlmişkən bir məsələnin üzərində, görünür, xüsusi dayanmaq lazımdır. Bu, çox zaman doğru anlaşılmayan və doğru qəbul edilməyən dil tarixi və dil tarixçisi ifadələridir.

Kəsinliklə bunu bildirmək lazımdır ki, dil tarixi sahəsi dil kəsiyinin hər hansı hissəsində hansısa klassikin əsərlərinin öyrənilməsi ilə bağlı deyil. Hələ sinxron dilçiliyi diaxronik dilçilikdən ayırarkən müəyyənləşdirilirdi ki, hansısa uzaq bir zaman nöqtəsində kiminsə dilini öyrənmək diaxron yox, sinxron tədqiqat sayılmalıdır. Diaxroniklik o zaman meydana çıxır ki, müxtəlif tarixi nöqtələr bir-birilə müqayisə edilsinlər. Yenə də müxtəlif mətnlər

məsələsi ortaya çıxır. Və əslində, dil tarixi sahəsi mətnə qədərki dövrün tədqiqat alanı ola bilər.

İlk baxışda belə bir labüd sualdan da yan keçmək mümkün deyil. Bizim bu təqdimatda nəzərdə tutduğumuz birləşməni, yəni, dilçiliyi və mifologiyanı (mifolinqvistikanı), prinsip etibarilə, bu sadalanan elmi birləşmələrin (koqnitiv dilçiliyin, psixolinqvistikanın, dil tarixinin, sosiolinqvistikanın və s.) içində əritmək mümkün deyilmi?! Mifologiyanı, dilçiliklə artıq birləşmiş ədəbiyyatın, fəlsəfənin, tarixin, psixologiyanın, sosiologiyanın içində əritmək səhvmi addım olardı?!

Mifologiya, ədəbiyyatın bir bölməsi kimi, psixologiyanın bir bölməsi kimi, fəlsəfənin və s. bir bölməsi kimi özünü göstərə bilməzmi? Bu elmlərin içində mifologiyaya yer yoxdurmu?! Yəni, demək istədiyimiz budur ki, tutalım, dilçilik və psixologiyanı (psixolinqvistikanı) bir yerdə öyrəndiyimiz zaman mifologiya ilə bağlı məqamların psixoloji təqdimatın içində yer alması mümkün olmazdımı?! İlk olaraq bu sualların cavabı belə səslənə bilərdi ki, əlbəttə, bu imkansız deyil və mümkündür.

Eləcə də digər elmi birləşmələrdə mifoloji bloklar ola bilər, deyə bilərik. Və əgər belədirsə, biz dilçiliyin bu elmlərlə bir yerdə müəyyənləşdirilmiş məkanında onun (dilçiliyin) həm də hər dəfə ayrılıqda mifologiya ilə "görüşünü" təşkil etməmiz mümkün olmazdımı? Bəlkə də olardı. Amma bu zaman bununla bağlı maneələr də özünü göstərməmiş olmayacaqdı. Belə olardısa biz hər dəfə bu birləşmiş məkanlarda, daha doğrusu, onların bir küncündə "küncə qısnadılmış" mifologiya ilə qarşılaşacaqdıq. Əlbəttə ki, bu halın da öz müsbət cəhətləri yox deyil. Amma bu zaman məsələnin xırdalandığını da görməmək olmur. Digər tərəfdən, belə olardısa bütöv mənzərə (dilçilik və mifologiyanın bütöv və birgə görüntüsü) özünü kifayət qədər gizlində saxlaya biləcəkdi. Birləşdirici xətlərin çoxu diqqətdən kənarda qalacaqdı. Bunun belə olmaması üçün isə məhz dilçiliklə mifologiyanı ayrıca elmi məkanın sərhədləri içinə salmaq lazımdır. Belə isə bu məkanı xüsusi olaraq ayırmağın mənası və dilçiliklə mifologiyanın birləşməsindən yeni bir elm məkanının üzə çıxması şəklində danışmaq üçün, özü də ayrıca danışmaq üçün məntiqi

əsasımız varmıdır? Bizcə, vardır. "Bu bizə nə verir?" sualının isə cavabı belə ola bilər:

A. Mifologiya artıq xüsusi elm sahəsinə çevrilmişdir desək, səhv etmərik. Onun konseptləri və prinsipləri yuxarıda sadalanan elmərdən çox şeylər əxz etmişdir. Bununla belə, mifologiyanın onlardan, yəni, yuxarıda sadalanan elmlərdən hər biri ilə ayrı-ayrılıqda bir bütöv yarada bilməsi də göz qabağındadır. Bu bütövün yaranmasında bu elmlərdən hansı daha çox maraqlıdır sualına cavab vermək çətindir və hətta deyərdik ki, mümkün deyil. Bir şey aydındır ki, dilçiliyin və mifologiyanın birləşmiş məkanı bizə kompleks şəkildə həm dilimizlə, həm də mifoloji təsəvvürlərimizlə əlaqədar bir-birilə son dərəcə bağlı olan adekvat nəticələr çıxarmağa imkan verəcəkdir. Mifoloji dilçilik (əgər belə demək təbiri-caizsə) dilimizdə mövcud olan bir sıra ifadələrin, sözlərin, deyim tərzinin, üstündən etinasız keçdiyimiz bir sıra mətləblərin dərin qatlarına işıq sala bilər, onları bizim üçün daha anlaşıqlı edər. Biz onları ilkin bakirəliklərində görərik və öz inkişaf yolumuzu daha aydın dərk edə bilərik. Eyni şəkildə mifolojidən məlum olan bir sıra işarələrin dil müstəvisində hansı qədim bucağa aid olduğunu aşkar edə bilər və dil elementlərinin mifoloji quruculuğunda iştirak dərəcəsini və rolunu öyrənərik.

B. Qeyd etmək lazımdır ki, bu birləşmiş məkan təkcə dilimizin ən qədim tarixi qatı ilə bağlı bir çox qaranlıqların üzərinə işıq salmayacaqdır. Biz bu günün özündə də dilimizin (nitqimizin) dərin və azdərin qatında, bəzən ruhunda, bəzən aşkarında gizlənmiş, daşlaşmış mifologizmləri duya və görə bilirik. Onlar isə kifayət qədərdirlər və qeyd eləmək lazımdır ki, dilin bütün qat və səviyyələrində özlərinə rahat bir məskən salmışlar.

C. Mifologiya, dil bilgimizin canına özü ilə bərabər psixoloji, sosioloji, fəlsəfi, tarixi düşüncələrin konkret məqamla bağlı kvintessensiyasını, uyğun anlayışları və uyğun ritorikanı gətirə biləcək. Sonuncu (tarixlə bağlı məqam) onun üçün xüsusilə vacibdir ki, biz, nəhayət, ədəbi dil tarixini əsl dil tarixindən – mifologizmlərə əsaslanaraq müəyyənləşdirilən dil tarixindən ciddi şəkildə ayıra biləcəyik. Bir qədər yuxarıda bu barədə demişdik.

Ricət. *Bəzən bu gün də biz belə bir kökündən səhv yanaşmanın şahidi oluruq ki, tədqiqatçı əgər tarixi bir dövrə məxsus hər hansı əsərdən danışırsa, deməli o, dil tarixini öyrənir, dil tarixinin mütəxəssisidir. Əlbəttə ki, bu, belə deyildir. Dil tarixi xüsusi bir tədqiqat məkanıdır. Klassiklərin dilini, onların yazdıqları əsərlərin dilini öyrənməklə biz dil tarixinə heç nə və yaxud, demək olar ki, heç nə əlavə etmirik. Belə yanaşma, əslində, ədəbi dil tarixini öyrənmək deməkdir. Ədəbi dil tarixini isə dil tarixi ilə eyniləşdirmək olmaz.*

Dil tarixinin öyrənilməsi təmiz dil quruluşunun öyrənilməsi deməkdir. Dil işarələrinin inkişaf qanunauyğunluğunu öyrənmək deməkdir. Bu işarələrin yazıya alınmazdan (mətnlərdən) əvvəlki təkamül qanunauyğunluqlarını tədqiq etməkdir. "Nə cürdür?" sualının arxasındakı vahidi "nə cür ola bilərdi?" şəklində görə bilməkdir. ***Ricətin sonu***

3. Birinci və ikinci qatlar

Qeyd olunası vacib bir məqam həm də odur ki, biz daha bir seçim qarşısında qalırıq. Hansı hansının içindədi, dilmi mifoloji təsəvvürün içindədi, yoxsa mifoloji təsəvvürmü dil libasına bürünüb – asanlıqla bilinməz. Mifoloji təsəvvürün zərrəciklərimi dil ərazisinə səpələnib, yoxsa dil elementlərimi mifoloji təsəvvürün hər addımında, hər qarışındadır – bunu dəqiq demək çətindir. Yəqin ki, bu iki halın ikisi də eyni zamanda baş verir. Ona görə də bu iki məqamdan və onların birləşməsindən danışarkən, həm birinci, həm də ikinci hal bizim üçün eyni dərəcədə əhəmiyyətli olmalıdır.

Amma dərin, ilkin qatdan söhbət gedərkən, nə üçün bizə belə gəlir ki, burada mifoloji elementlərin mövcudluğu məqbul deyil. Nə üçün biz belə düşünürük?! Fikrimizi izah edək. Mifoloji elementlərin üzə çıxmasının əsas şərti odur ki, bunun üçün münbit zəmin olmalıdır. O münbit zəmin, nə qədər təəccüblü olsa da, müstəqimlik qatıdır. Deməli, biz belə düşünürük ki, dil özünün müstəqim qatını (təmiz məntiqdən ibarət ən dərin qatını) ilkin olaraq qurur və yalnız bundan sonra növbəti qata keçib bütün intensiya gücü ilə mifoloji istiqamətə, yəni, əsl yaradıcılığa, seçim imkanı olan yaradıcılığa doğru tuşlanır. Deməli, ən dərin qat hansıdır sualının cavabı budur: bu müstəqimlik qatı deyə biləcəyimiz ilkin qatdır. Bu qat bütün dil ünsürlərinin müstəqim anlamda işlənməsini zəruri edir və insanın ancaq ən zəruri tələb-

lərini ödəyir. Bu qat poetikliyə və məcaziliyə hazır deyil, bu qatın poetik funksiyası yoxdur. Bu qatda olanlar "başqa cür də demək olar" məntiqindən uzaqdırlar. Variantlardan istifadə edərkən ədəbiyyat, ondan əvvəl mifologiya (ən azı müxtəlif məkanlarda eyni mətləbi işlərkən) məhz bu düşüncədən ("başqa cür də demək olar") başlayır.

Birinci müstəqim qatın üzərindən ikinci, bizə daha yaxın olan mifoloji qat ucalır. Bu zaman müstəqim dil elementləri yavaş-yavaş məcazilik, başqa cür desək, mifoloji cizgilər qazanmağa başlayır. Variantlar meydana gəlir. Bunun da öz obyektiv şərtləri var. Məcazilik sırf dil ehtiyacı sayəsində üzə çıxır. Yeni mənalar yarandıqca onların ifadə olunması, təbii ki, mövcud dil arsenalı hesabına həyata keçirilə bilmir. Onun – dilin buna gücü çatmır. Dil məcbur olur ki, yeni mənanı köhnə ünsür vasitəsilə ifadə etsin. Beləliklə, köhnə ünsürün üzərinə əlavə funksiya düşür. Nəticədə məcazlar, sinonimlər (variantlar) yaranır. Deməli, məcazlar, dilin zəifliyini ört-basdır etmək məqsədi güdür. Bu halı dilin "xəstəliyi" kimi qəbul etmək olar. Dilin "xəstəliyi" barədə XIX əsrdə ingilis alimi Miller, rus alimi Potebnya yazıblar. Əgər məcazlar yeni mənanı ifadə etməkdə dilə kömək edirlərsə, o zaman sinonimlər, başqa sözlə desək, variantlar dili xəstəlikdən qurtarmağa çalışan ünsürlər kimi diqqəti cəlb edir. Məcazlaşma və sinonimlik, beləliklə, qarşı-qarşıya duran iki güclü meyil kimi mifoloji qatda, poetik duyumun və onun ifadəsinin hökmran olduğu 2-ci qatda bu şəkildə üzə çıxır.

4. "Qarşı yatan Qara dağ"

"Kitabi-Dədə Qorqud" dastanından götürülmüş belə bir misala diqqət yetirək: "Qarşı yatan Qara dağdan bir oğul uçurdunsa, degil mana…" Dastanda bu və buna bənzər digər deyimlər ən dərin qata aid ola bilərmi? Yoxsa, bu deyimin müəllifi elə güman edir ki, "qarşıdakı dağ həqiqətən yatıb və nə zamansa yuxudan oyanacaq?" Bu, doğrudanmı, belədir?

Əslində, bu, doğrudan, belədir. Ən dərin qatda bu deyim öz ifadəsini, təxminən, bu cür tapa bilərdi. "Qarşıda olan (duran, görünən, ucalan...) Qara dağ…" Belə ilkin, bəzəksiz variant görükən "obyektin" fotoşəklini çəkmək kimidir. Bu ilkin qata aid materialdır.

Dastandakı misal isə fotoşəkil deyil. Burada artıq biz həyata keçirilmiş seçimlə qarşılaşırıq. Variantlardan biri burada artıq seçilmişdir. "Qarşı yatan Qara dağ", əslində, "Qarşıdakı... Qara dağın" bəzəkli-düzəkli xələfidir. "Yatmaq" feili artıq təkcə adamın yatmağını deyil, cansız dağın da yatmağının ifadəsini öz üzərinə götürür. "Dil xəstəliyi" elə bu deməkdir. Funksiyalar çoxaldıqca güc zəifləyir. Eynən tibbdəki "fil xəstəliyi" kimi. Adam zahirən böyüdükcə zəifləmə güclənir. Haqqında danışdığımız misal (mifoloji qatın "yatmaq" komponentli misalı) mifoloji təsəvvürün artıq bütün gücü ilə fəaliyyətdə olduğundan xəbər verir. Bundan əvvəlki ən dərin 1-ci qatda isə dilin imkanları cəmiyyət üzvü üçün naməlum, tanınmaz bir dəyər kimiydi. Cəmiyyət üzvü dilin imkanlarını, daha qəti desək, dilin özünü hələ tanımırdı.

Mifoloji təsəvvür və təbii ki, mifoloji qat dili tanımaq və ona – dilə inanmaqla başlayır. Dil əgər müvafiq məqam üçün "yatır" ifadəsini təklif edirsə, deməli, dil daşıyıcısında belə bir əqidə formalaşmışdır ki, obyekt (yəni, dağ) həqiqətən yatmışdır. Onu heç bir şübhə projektorunun altına salmaq lazım deyil. Buna şübhə etmək heç kimin ağlına belə gəlməz. Bunu elə belə də qəbul etmək lazımdır. Hərəkətsizlik "yatmaq" prosesinə uyğunlaşdırılırsa, öncə buna inam yaranır, sonra dilə müraciət edilir. Dil bu yeni sözü verməyə imkan tapmayanda (yəni, "xəstə" olanda) artıq insan özünə aid olan, özündə motivləşmiş hansısa ifadəni sanki məqama "borc" kimi verir.

Biz görürük ki, mifoloji təsəvvür 1-ci qatın funksiyası olan nəyisə olduğu kimi qəbul etməkdən ibarət deyil. Bu müstəqim təsəvvürün içinə 2-ci qatda həm də *personifikasiya* kimi güclü psixoloji amil daxil olur. İnsana xas xüsusiyyətlərin onun özü tərəfindən fetişləşdirilməsi ona gətirib çıxarır ki, ətrafdakı canlı və cansız aləmin hər bir üzvü bu xüsusiyyətlərdən faydalana bilir, istifadə edə bilir. Dağ yata bilir, söz güləşə bilir, and içilə bilir və s. və i.a. Bu şəkildə təbiət insanlaşdırılır. Bu şəkildə qorxu doğuran qüvvələr insana yaxın edilir. İnsan qorxduğu qüvvəni özünə yaxın etdikcə, özünün başqa bir vacib məsələsini də həll etmiş olur, əslində, öz inkişafının çox vacib bir mərhələsinə qədəm qoyur. O, qorxu hissini özündən uzaqlaşdırır. Qəhrəmanlar bundan sonra yaranır. Yaranıb qəhrəman olmayanlara kömək

əlini uzadanlar bundan sonra meydana çıxır. Təbiətlə insan arasında uyğunsuzluq yox olmağa doğru gedir. Ahəng bərqərar olmağa başlayır, kosmik sistem hərəkətə gəlir. İkinci qat olan mifoloji qat bu şəkildə ayaq üstdə möhkəm dayanmağa alışdırılır.

Dil öz içindən, potensialına uyğun olaraq mifoloji təsəvvür üçün, onun üzə çıxması üçün, min bir çətinliklə olsa da, münbit zəmin yaradır demək, elə budur. Məqsəd dil xəstəliyindən mümkün qədər az itki ilə çıxmaqdır. Ancaq bu xəstəlikdən immunitet yarananda sonra dil sağalıb öz daxili "təsərrüfatını" (orqanizmini) qaydaya salmağa çalışacaq, dilin daxili yaradıcılığı bu zaman işə düşəcək və bu məqamda ilk olaraq sinonimlər yaranacaq. Sinonimlərin yaranması ilə variantlar cilalanacaq, dil insanı öz məngənəsindən buraxacaqdır. İnsan özünü dilin yanında daha sərbəst hiss edəcəkdir. Dil onu yox, o, dili idarə etməyə, zəif də olsa, başlayacaqdır. Beləliklə, 2-ci qat bir mərhələ kimi formalaşıb tamamlanacaqdır.

3-cü qat dilin insan tərəfindən tanınmasından (2-ci qatdan) sonrakı qatdır. Bu zaman ilk olaraq dil daşıyıcısının beynində dilə inamsızlıq yaranır, dünyanı başqa cür görmək istəyi onun ruhuna hakim kəsilir. Beləliklə, poetik təsəvvür ön plana çıxır və artıq heç kim məcazlara (əslində, yalanlara) inanmır. Dahi Füzulinin məşhur "Aldanma ki, şair sözü, əlbəttə, yalandır" misrasını bu dövrün əsas qalibiyyət himni kimi qəbul etmək olar. "Qarşı yatan Qara dağ", əslində, yatmayıb. Bu, gözəl bir aldanışdır. Füzulinin təbirincə desək, yalandır. Buna inanmaq da olar (uşaqlıqda olan kimi), inanmamaq da.

Amma orası da var ki, mifoloji təsəvvür bu şəkildə yox olub itmir. O, zaman-zaman dil elementlərində, deyimlərində, müxtəlif quruluşlarda gizli şəkildə yaşayır, bu yaşama bu gün də davam edir. Və dil daşıyıcısı bəzən bu ifadələrin hansı dərin qatlarda təşəkkül edib hansı qədimlikdən gəldiyinin fərqinə varmır. Bu mətnin içərisindəki III fəsildə "Söz və onun mifoloji buxovları" hissəsi ilə tanış olduqda oxucu bunun şahidi olacaq.

5. "Padşah, doğrudanmı, lütdür?!"

Mifologiya və onun həyatımızda, xüsusilə də, dilimizdə yeri çox maraqlı düşüncələrin "işə başlaması" üçün təkan verir. Mifologiyanın hər

hansı şəkildə yaşaması, ilk növbədə, onun dildə yaşaması deməkdir. Çünki mifologiyanın cəmiyyət qarşısına çıxış paltarı məhz dildir. Amma bu məntiqi davam etdirsək, onu da deyə bilərik ki, dil öz uşaqlıq çağında paltarsız da gəzə bilərdi. Lüt-üryan mifoloji təzahür onunla üzbəüz dayananların "Padşah axı lütdür" deyimini ağıllarına belə gətirmədikləri bir vaxta təsadüf edir. Kimsə buna inanır, kimsə inanmır. Daha doğrusu, buna ya inanırlar, ya da inanmırlar.

Bu dediklərimizi bir qədər başqa şəkildə ifadə edək. Bir qədər yuxarıda ayırdığımız hər qatın öz məxsusi dahiləri olub. Onları xatırlayaq. 1-ci, 2-ci qat dahilərinin yaratdıqlarını mifoloji təsəvvürdən kənarda düşünmək mümkün deyil.

Bu gün biz antik dövr sənətkarlarının adlarını yan-yana sadalamaqla elə təsəvvür etmək olar ki, onlar (məsələn, Homer, Esxil, Sofokl...) eyni zaman qatına (bu halda əsrinə) məxsus adamlardır. Bu isə belə deyil. Onları bir-birindən əsrlər ayırır. Və onlar həm də mifoloji duyumlarına görə birbirindən fərqlənirlər. Müxtəlif qatlara aid olduqları üçün bu dahilərin mifoloji duyumları ayrı-ayrıdır. Belə bir sual vasitəsilə dediyimizi əyaniləşdirməyə çalışaq. Homer öz dediklərinə (Polifemə, allahlara, qızıl almaya, Troyada baş verənlərə, Odisseyin başına gələnlərə, Axillesin şəcərəsinə, Aidin dünyasına və s.) inanırdımı?! Bəs Esxil, Sofokl, Evripid necə – onlar yazdıqlarına – bütün bu mifoloji "qatmaqarışıqlığa" inanırdılarmı?! Mifologiyanın "tumançaq" vaxtının üstünlükləri bu dahilərin inamınamı, yoxsa inamsızlığınamı söykənirdi?!

Əlbəttə ki, bizim üçün bu suallar ritorik suallar deyil və onlara cavab axtarmaq doğru olardı. Bizim tapdığımız cavablar isə hələlik bunlardır: Homer dediklərinə inanırdı. Homerdən sonra yazı dövrü gəldi. Amma artıq bu dövrdə Sofokl yazdıqlarına inanmırdı.

Bu məntiqin arxasınca getsək, deyə bilərik ki, Homer Qara dağın həqiqətən yatdığına və nə zamansa oyanacağına inanırdı. Sofokl da bu dağın yatdığına inanırdı, amma onun oyanacağına inanmırdı. Yazdıqlarının (mifoloji quramalarının uydurma olduğu) ona aşağı-yuxarı bəlli idi. Sofokl artıq ikiləşmiş dəyərdir. Yazan Sofokl ayrı, öz yazdığını oxuyan Sofokl bir

ayrıdır. Yazarkən inandığına o, oxuyarkən inanmırdı. O sadəcə, süjet qurur-du. Homerlə onun arasında təkcə zamanla ölçülməyən başqa bir mənəvi mə-safə vardı. Bu məsafənin personifikasiya edilmiş adı Esxil idi.

Esxil də Homer kimi dediyinə və yazdığına inanırdı. Amma o, yeni bir münasibət orbitinə keçid nöqtəsində durmuşdu. Esxil bütün mənəvi varlığı (yaradıcılığı) ilə Sofoklun, Evripidin gəlişini hazırlayırdı. Amma orası da var ki, cəmiyyətdə mifoloji təsəvvür artıq yavaş-yavaş qocalmağa başlayırdı. Ona kütləvi inamsızlıq get-gedə bütün beyinləri fəth edirdi. Və bu xəttin davamı kimi bir qədər də zaman boyu irəli qaçsaq, deyə bilərik ki, eramızın XVIII əsrində Dante artıq bilirdi ki, yeraltı dünya onun xəyalının təzahürü-dür. Mifologiya bu şəkildə yavaş-yavaş tarixə təhvil verilirdi. Mifologiya öz yaratdığı virtual aləmin növbəti bir sakininə çevrilirdi.

Onu da qeyd edək ki, Homerlə bağlı iddia 1-ci qata, Sofoklla bağlı iddia 2-ci qata, Dante ilə bağlı iddia isə 3-cü qata aid edilə bilər. Esxil bu sıralamada 1-ci qatdan 2-ci qata keçidi təmsil edir…

"Padşah, doğrudanmı lütdür, yaxud deyil" ifadəsindəki tərəflərin hansısa birinin doğru olması isə, əslində, maraqlı deyil. Onların hər biri həm doğru, həm də yalan ola bilər. Eynən "qarşı yatan Qara dağın" oyanıb oyan-mayacağına qəlbimizdə bəslədiyimiz inam kimi. Biz əgər şairlərin yazdıqları şeirlərə hələ də inanırıqsa, yox, başqa cür deyək: inanırıq – yox, inanmayıb aldanırıqsa, o zaman bilməliyik ki, həm aldanışımızda, həm də skeptikli-yimizdə eyni dərəcədə haqlıyıq. Mənəvi dünya bu əks həqiqətlərin hər birinin mövcudluğu üzərində qurulur.

6. Möhtəşəm "kimi" qoşması

Hər üç qatı – 1-ci müstəqim qatı, 2-ci mifoloji qatı və 3-cü poetik qatı qədimdən üzü bu yana ayrı-ayrılıqda təsvir etmək çox maraqlı olardı. 1-ci qat (ən dərin qat), əslində, mifoloji qat deyil. Çünki bu qata məxsus olan dil işarəsinin qayəsi müstəqimlikdir. Bu qatda variantlar hələ ki, özünü göstərmir. İnvarinatların hakimiyyəti mövcuddur.

Ondan sonrakı 2-ci mifoloji qat artıq dil xəstəliyinin özünü büruzə verdiyi qatdır. Bu zaman mifoloji təsəvvür işə düşür və müstəqimlik ilkin

məcazilik ilə tamamlanır (əvəz edilir – yox!). İlkin məcazilik primitiv insanın bu məcaza inanması ilə səciyyələnir. Bu, klassik mifoloji qat sayıla bilər. Bu qatın sakinləri bir-birinə "Bir oğul qayadan yıxdın" əvəzinə "Bir oğul qayadan uçurdun" deyirlər və inanırlar ki, oğlan quş olub qayadan uçmuşdur. Bu təmiz mifologizmdir. Dil xəstəliyi yenə də göz önündədir. Varinatlar ortaya çıxır və invarinatların hakimiyyəti öz yaradıcılıq resursunu bitirir. Artıq bütün invarinatlar "icad" olunmuşlar.

Daha sonrakı 3-cü qat mifoloji qatın üzərindən, onun əvəzinə yüksələn poetik qatdır. Bu qat mifologizmdən istifadə edir, amma artıq ona inanmır. Oğlan quş olub qayadan uçmur, oğlan quş kimi (!!!) qayadan "uçur". "Kimi" qoşması qətiyyətlə demək olar ki, poetik qatın ən böyük ixtirasıdır. "Kimi" ilə geniş bir dünyaya yol açılır – poetik düşüncə artıq geridönməz şəkildə düşüncələrə hakim olmağa başlayır. Əks halda isə "kimi" qoşması olmadan poetik düşüncə qanadsız quş kimidir. Poeziyanın ruhu müqayisə üzərindən coşur. Müqayisə onun əsas "tikinti" materialıdır. O olmasa biz quru etiraflar əhatəsində qalacaq idik və ecaskar poeziya nədir sualına cavab belə axtarmaq ağlımıza gəlməyəcəkdi. Bütün klassik bədii poetik məkanımız mifologiyanın cəngindən məhz "kimi" və ona bənzər onlarla vasitənin hesabına qurtulur. "Kimi", qeyd etmək lazımdır ki, təkcə bədiilik məkanının tikinti materialı deyil. "Kimi" həm də dünyanı dərk etməyin möhtəşəm vasitəsidir. "Kimi" vasitəsilə biz təkcə bədii təsəvvürümüzü genişləndirmirik, həm də (xüsusilə, ilk dövrdə) dünya, həyat haqqda biliyimizi dərinləşdiririk. "Nə doğrudur, nə doğru deyil?" sualının cavabını özümüz üçün müəyyənləşdiririk. Dünyada ahəng, sistemlilik axtarışına çıxırıq.

"Mən qartalam" deyərkən ("Salur" ləqəbli Salur Qazanı xatırlayaq) dil sahibi mifoloji təsəvvürün tam olaraq içindədir. "Mən qartalam" deyərkən (Salur Qazan özünün əcdadı kimi şahın quşunu nəzərə tutur) o özü öz sözünə inanır, əhatəsi də ona inanır. İnamın zəifləməsi, insanın özünə etimadsızlığı, qartal olmadığını anlaması bədiilik məkanına qədəm qoyması ilə bağlıdır. "Mən qartal kimi…" deyilirsə, bu artıq bədii təfəkkürün baş qaldırmasıdır. Burada isə "kimi" qoşmasının rolu əvəzsizdir. Ekstaz içində yazan şairlər "mən qartalam..." yazırsa, yazdığı zaman həqiqətən 1-ci müstəqillik qatının

içində özlərini hiss edirlər. Yazdıqlarını oxuyan zaman isə onlar artıq 3-cü qatın poetiklik qatının sakinləri olurlar.

7. Mifoloji diskurs. Onun digər diskurs növlərindən fərqi və mahiyyəti

"Diskurs" anlayışı 60-cı illərin axırı, 70-ci illərin əvvəllərindən başlayaraq fransız kulturoloji fikrində xüsusi çalarlar kəsb edib öz intellektual sərhədlərini genişləndirməyə başladı. Onu daha yalnız nitq – cümlələr birliyi, söyləm, frazafövqi vahid, mürəkkəb sintaktik bütöv kimi anlamırdılar. O böyük bir semantik sahəni də özü ilə bərabər tədqiqat orbitinə gətirirdi. Diskurs artıq ideoloji yanaşmanın nəticəsi olaraq diqqəti cəlb etməyə başlayırdı. Nitq seçiminə ideoloji baxımdan yanaşma, əslində, müəllifin yanaşması olmaqdan daha çox informasiyanın yönəldiyi subyektin yanaşması kimi dəyərləndirilirdi. İdeoloji yön burada, ümumiyyətlə, informasiya materialının seçimi ilə (nə üçün bu vasitə yox, o biri!) bağlı idi.

> ***Ricət.*** *Fransada yaranmış "Diskurs təhlil" istiqamətinin banilərindən biri olan M.Fuko özünün "Biliyin arxeologiyası" əsərində yazırdı: "Söyləmin təsviri ondan ibarət deyil ki, sən söyləmin müəllifi ilə onun nə dediyi (yaxud demək istədiyi, yaxud arzu etmədən dediyi) arasındakı münasibəti təhlil edəsən; bu o deməkdir ki, haman söyləmin subyekti olmaq üçün istənilən fərdin bacarıb və məcbur olub tutduğu mövqenin necəliyini açıb müəyyənləşdirəsən".* ***Ricətin sonu.***

Bizim təsəvvürümüzdə *diskurs* informasiya axını zamanı cümlələrlə onların öz arxalarınca implisit olaraq gətirdikləri intellektual potensialın cəmindən ibarətdir. Bunu belə ifadə etmək mümkündür: Diskurs bərabərdir deyilən və mifoloji (hər hansı başqa) əhatə. Bura təkcə cümlə birlikləri daxil edilmir. Bura cümlənin arxasınca (potensialında) gələn bilik də daxildir. Məsələn, belə bir cümləyə diqqət edək: "Peley ilə Fetidanın toyu kentavr Xironun mağarasında baş verdi".

Bu cümlənin adekvat qəbul edilməsi üçün onun diskursunun bərpası vacibdir. Cümlənin diskursu isə mifoloji zəmindədir. Onu **"mifoloji diskurs"** adlandıraq. İnformasiyanı qəbul edən, yəni, cümlənin ideoloji subyekti adekvat dərk üçün müəyyən (presuppozitiv) mifoloji biliyə malik olmalıdır. O bilməlidir ki, Xiron kimdir, kentavr(lar) kimdir(lər), Peley kimdir, Fetida kimdir. Yalnız bu biliklərə malik olan subyektin həmən cümləni qavraması mümkündür. Deməli, informativ cümləni adekvat "tanımaq" prosesində informativ aktın əsas komponenti kimi diskurs ön plana çıxır.

Amma onu da unutmaq olmaz ki, mövzunun seçim ideolojisindən asılı olaraq diskursları da müxtəlif növlərə (sosioloji, siyasi, texnoloji, pedoqoji, psixoloji və s.) ayırmaq olar. Biz bir qədər əvvəl ayırdığımız növ mifoloji duskurs adına uyğun gəlir və bu zaman söyləmin subyekti presuppozitiv olaraq konkret mifoloji biliyə malik olmalıdır. Çünki nitqin ideologiyası mifologiyanı seçmişdir və ona üstünlük vermişdir.

Bu məqamda ortaya müəyyən çətinliklər də çıxır. Bizim interpretasiyada diskursla geniş filoloji şərh eyniləşdirilə bilər. Diskurs bərabər olar cümləyə və onun filoloji təhlilinə. Buna isə yol vermək olmaz. Əsl diskursla geniş filoloji (hər hansı başqa) şərhi fərqləndirmək, onların hər birinin spesifikasını, dəqiq meyarlarını ortaya qoymaq lazımdır. Buna nail olmaq çətindir, amma imkansız da deyil.

1-ci fəsil
Mifolinqvistikanın universal tətbiq prinsipi

1. Dildəki təfəkkür qatları və mifologiyaya gətirən yollar. İlkin 1-ci qatda dildən istifadə. Müstəqimlik və müstəqim münasibətlər

Təfəkkürümüz və dilimiz bir-birilə sıx əlaqəlidir. Amma onları eyniləşdirmək də olmaz. Dilimiz təfəkkürümüzün solğun inikasıdır desək, səhv etmərik. Təfəkkürümüz istədiyimizin özüdür, amma dilimiz istədiyimizin özü deyil. Dilimiz təfəkkür kamilliyimizi olduğu kimi təkrarlaya bilmir, itkilər baş verir, boşluqlar yaranır. Ona görə də təfəkkür qatları ilə dil qatları inkişaf yolunda bir-birilə uzlaşmaya bilir. Təfəkkür qatları ən dərindəki qatla – insanın ətraf mühitdən, digər canlılardan özünü ayırmağa başladığı primitiv qatla başlayır.

Birinci dediyimiz ən qədim, primitiv qat, əslində, dilin yaranmasının, vahidlərarası münasibətlər qurulmasının ilk qatı, ilk mərhələsidir. Günün başlanmasını şəfəqin (dan yerinin) sökülməsi ilə bağlayıb bu mərhələni "dansökülən" mərhələ də adlandıra bilərik. Bu qatda konkret münasibətlər qurulur və müstəqim mənalar formalaşır. Hələ dil xəstəliyi özünü göstərmir. Çünki dildəki boşluqlar indi olduğu kimi hiss edilmir. Bu qat üçün bir ifadə vasitəsi və bir məna aparıcıdır. İnformasiyanın ən formal şəkildə, hər hansı əlavələrsiz (istər variant əlavəsi, istər üslubi əlavəsiz – süsləmələrsiz) ötürülməsi vacib bir yaşam tərzi kimi öz yolundan sapmır. Əlavələrə – süsləmələrə ehtiyac sonra yaranacaq.

Daha sonra (başqa bir mərhələyə qədəm qoyandan sonra) eyni anlayışın, eyni məqamın başqa bir təsvir ifadəsi (variantlar) özünü göstərməyə başlayır. Niyə belə olur?! Görünür, informasiya ötürən öz məqsədinə çatıb-çatmaması ilə bağlı şübhələr girdabına düşür, fikrini çatdırıb-çatdırmaması ilə bağlı tərəddüdlər keçirir və belə olarkən o yenidən, artıq bir az əvvəl olduğu kimi deyil, bir qədər başqa, daha inandırıcı şəkildə öz ibtidai informasiya kanalına müəyyən əlavələr etməyə başlayır. Bu, baş verərkən primitiv insan artıq 2-ci qata qədəm qoymuş olur. 2-ci qat bu şəkildə fəaliyyətə başlayır, başqa sözlə, mifoloji təsəvvür formalaşmağa başladığı üçün qədim insan artıq onun köməyindən istifadə edərək ətrafı ilə daha rəngarəng münasibətlər qurur, daha doğrusu, **həm də** onun köməyilə bu münasibətləri qurur.

Məsələn, belə bir misal vasitəsilə dediklərimizi əyani şəkildə izah edə bilərik. Dilimizdəki "itaət" sözünə diqqət edək. Bu sözün müvafiq anlayışı müxtəlif şəkildə bildirməsi üçün onun intensiyasını sərbəst buraxmaq lazımdır. 1-ci primitiv qatda, yəni, çıxış nöqtəsində (neytral pozisiyada) bu sözə yan alan və beləliklə, onun bir ifadə kimi ilkin formalaşmasını həyata keçirən dil vahidi *"etmək"* feilidir. *"İtaət etmək"* birləşməsi son dərəcə neytral, konkret anlayışı əlavə çaları olmadan bildirən 1-ci qat arsenalına daxil olur. Müəyyən müddət dil bununla kifayətlənə bilir.

Amma zaman keçir və qədim insan inkişaf etməkdən qalmır. Onun təfəkkürü də bədəninin formalaşması ilə bir yerdə, həmahəng şəkildə inkişaf edir. Onların inkişafı biri digərini şərtləndirir. Dilin inkişafı isə bunlardan bir qədər ləng gedir. Dil sanki bunları müşayiət edir. Belə deyə bilərik ki, dil imkanlarının inkişafı təfəkkürün inkişafından geri qalır, onunla ayaqlaşa bilmir. Təfəkkür yeni anlayışlar ortaya qoyduqca, eyni zamanda onlar üçün yeni formalar (adlar) icad etməyi də dildən "tələb" edir. Dil bu funksiyanı bütövlükdə yerinə yetirə bilmir və gülməli səslənsə də, özünü "xəstəliyə vurur". Özündəki köhnə formaları yeni anlayışların ifadəsi üçün istifadəyə buraxır. Bu barədə bir qədər yuxarıda danışmışdıq. Ancaq elə də olur ki, dil çıxış pozisiyasında (yəni, ilk yaradılan) ifadənin əsas elementini saxlamaqla onun ancaq ikinci elementini dəyişir. Belə olarkən, ifadə sanki

"yenilənir". Haman anlayışı dil artıq yeni qiyafədə ortaya çıxarır. Məsələn, "İtaət etmək" ifadəsi ilə yanaşı, "itaət göstərmək", "itaətdə durmaq" kimi yeni birləşmələr meydana çıxır. Bu sonuncular artıq təfəkkürdə müəyyən mifoloji proseslərin getməsindən xəbər verir. "İtaət"i göstərirlərsə, "itaətdə" dururlarsa, deməli, onu personələşdirirlər, onu görə bilirlər, kimsə onu kiməsə sözün müstəqim mənasında göstərə bilir, onu hərəkətə gətirə bilirlər. Beləliklə, həm danışan, həm də dinləyən bir oyunun içinə girir.

Bu şəkildə biz 2-ci qat mərhələsinə daxil oluruq.

2. Mifoloji məkanın içində. 2-ci qatda dildən istifadə və mifoloji münasibətlər

Mifoloji məkan insanın variantlardan istifadə etməsinə şərait yaradır. Variantların ortaya çıxması düşüncəni yolsuz-izsiz bir istiqamətə salır. Sanki Odisseyin İtakaya dönüş səyahəti başlayır. Göz işləyən genişlik və uzaqlıq, batmayacaq, amma dərinlik insanı ahənrüba kimi öz içinə çəkir. Dil öz inkişafı nəticəsində təfəkkürə yeni variantlar təklif etdikcə təfəkkür də öz növbəsində bu dil materialı ilə yeni üfüqlər kəşf etməyə başlayır. Variantlar yaranır. Onlar isə nəhayətdə süjet yaranmasına gətirir. Beləliklə, süjetlər yaranmış olur. Amma orası da var ki, bütün bunlar eyni vaxtda yarana bilərdi. Dil materialı olmadan təfəkkür heç nə edə bilməzdi, təfəkkür hazır deyildisə, dil öz-özlüyündə naçar qalardı.

2-ci qatda variantların və sinonimlərin yaranması mifoloji layın qaldırılması və fəaliyyətə başlaması işində iki əsas dil külüngü oldu.

3. Üslubi (3-cü) qat. Variantların "tüğyan"ı

Üslubi qat kimi ayırdığımız bu qat artıq poetik təfəkkür tərzinin oyanması, daha doğrusu, yaranması ilə səciyyələnən qatdır. Artıq mifoloji poeziya ikinci qatda dil xəstəliyinin geridə buraxılması ilə yaranan variantların (metaforaların) poeziyası öz yerini real poeziyaya verir. İnsan dediklərinə artıq inanmamağa başlayır. "Aldanma ki, şair sözü, əlbəttə, yalandır" tezisi onu yaradan müəllifindən çox-çox əvvəl öz işini "görməyə" başlayır.

Mifoloji motivlərlə yazanlar artıq Homer öz yazdıqlarına inandığı kimi öz yazdıqlarına inanmırlar. Məsələn, Sofokl, Evrinid artıq bu dövrün adamıdırlar. Bu mərhələdə, bu qatda variantların tüğyanı başlayır. Dil "xəstəlikdən" qurtulur və artıq xəstəlik dövründə əldə etdiyi, yararlandığı üsuldan sui-istifadə etməyə başlayır. Yaradıcı şəxslər sinonimlər, variantlar kəşf etmək "azarına" tutulurlar. Dil adsız müəllifləri adı olanlarla dəyişir. Əgər mifoloji qatda variantların, sinonimlərin müəllifləri adsız idilər və bu proses ümumilikdə dilin adına yazılırdısa, artıq üslubi qatda bu prosesin müəlliflərinin adlı olması məsələsi meydana çıxır. Dil tarixi ədəbi dil tarixi ilə əvəz olunmağa başlayır. Beləliklə, dil tarixi estafeti ədəbi dil tarixinə verir və ədəbi dil tarixi şairlərin, ədiblərin tarixinə dönür.

4. Universal prinsipin aktuallığı

Mifolinqvistikanın universal prinsipi onun sonu, ucu-bucağı görünməyən "təsərrüfatını" sistemə salmaq, bir məxrəc içində öyrənmək üsuludur. İnvariant və variantların münasibəti üzərində qurulan universal prinsip bu məqsəd üçün son dərəcə uyğun bir vasitədir.

Əgər 1-ci müstəqim qatda biz ancaq invariantların əhatəsində olan icma üzvündən, primitiv insandan danışa bilirdiksə, 2-ci mifoloji qat artıq variantların yavaş-yavaş üzə çıxmağı ilə səciyyələnir.

3-cü, üslubi qat isə variantların dominantlığını xarakterizə edir. Artıq qədim insan variantların əhatəsində Laokoon ilanların əhatəsində qıvrılan kimi çabalayır.

Beləliklə, variant əgər müstəqim qatda özünü heç cür göstərmirdisə və meydan invariantların əlində idisə, 2-ci qatda invariantlar gizli dünyaya baş vurub orada gizlənir və səhnə önünə variantlar çıxırlar. 3-cü qatda invariantların axtarılıb tapılması məsələsi daha da müşkülləşir. Meydan tamamilə variantlara verilir. Bu şəkildə invariantlar da elmi araşdırmaların "qurbanına" çevrilirlər.

2-ci fəsil
Fonetik-fonoloji səviyyədə mifoloji təsəvvürlər

Sinqulyar fonetik nöqtə və mürəkkəb sintaktik bütöv (mətn)

1. "Əvvəl" ilə "axır"ın mifolinqvistik məkanda birləşməsi

Bu birləşmə son dərəcə möhtəşəm bir qanunun dil və mifoloji münasibətlər sistemindəki əks-sədasıdır. Əvvəlin və axırın birləşməsidir. Əvvəldəki ən kiçik vahidlə axırdakı ən böyük vahidin qovuşması, nəhayət etibarilə, onların bir-birinin informativ adekvatı olmalarının sübutudur.

2. "Sinqulyar nöqtə" nədir?

Sinqulyar nöqtəni biz özündə *sonsuz* (!) informasiya daşıyan bir reallıq kimi qəbul edirik.

Bu nöqtə insanın meşədəki həyatının, dilin hələ özünü göstərəcək dərəcədə inkişaf etmədiyi bir dövrün ayrılmaz hissəsidir. Hər hansı ekstremal situasiyada istifadə edilən vasitədir. O qədim dövrdə çıxarılan universal bir səs hər hansı təhlükənin mövcudluğu ilə bağlı böyük bir informativ xəbərə və yaxud digər qəbilə, icma üzvünün öz yanına dəvətinə və yaxud hansısa hissin bildirilməsinə (etirafa?) və yaxud hər hansı başqa həyat üçün vacib informasiyanın ötürülməsinə bərabər ola bilərdi. Bu nöqtə A-dan B-yə ötürülən son dərəcə vacib bir siqnaldır. Bu siqnal bizim anladığımız mənada neçə-neçə cümləni birləşdirə bilər. Beləliklə, bu siqnal öz formal mahiyyətindən (nöqtə olmaqdan) əlavə situasiyaya uyğun son dərəcə böyük bir informasiyanı da özündə ehtiva edə bilər. "Situasiyaya uyğun son dərəcə

böyük informasiya" dil inkişafının daha sonrakı uyğun mərhələsinin məhsulu ola bilərdi. Hələlik isə bu geniş informasiya bir kiçik səsin içində dustaq kimi qapanıb qalmışdır.

Əgər ötürülən informasiyada forma mahiyyətə tam uyğundursa, o zaman biz müstəqimlikdən danışırıq. Bu 1-ci qatda baş verir. Mifoloji məqam o zaman özünü göstərməyə başlayır ki, mahiyyət formanı üstələyir. Onun içindən hissə-hissə (səs-səs, ifadə-ifadə, cümlə-cümlə) çıxmağa başlayır. Yəni, A-dan B-yə gedən informasiya onu ötürənə sanki deyir ki, sən mənimlə kifayətlənməməlisən. Mənim əsas hissəm hələ "həbsdən" azad olmayıb. Sən onu eşitmirsən, sən onu "görmürsən"! Mən tambütöv deyiləm. Sənin mənim vasitəmlə əlavə "deyəcəklərə" ehtiyac var. Sən o əlavələrini artıq edə bilərsən.

Əgər ötürülən informasiyaya (yeni bir informasiyaya yox) əlavə yük, yəni, "deyəcək" varsa, deməli, biz artıq mifologiya məkanına qədəm qoymuşuq. Mifoloji təsəvvürlə idarə olunuruq. Mifologiyanın dildən istifadəsi kulisarxasına bənzəyir. Əsl səhnədə nə varsa, nə nəzərdə tutulubsa, o cür də (o boyda, o biçimdə, o həcmdə) görünür. Mifologiya isə sətiraltıda, mizanda, kulisarxasındadır. O, müəyyən seçimin nəticəsində üzə çıxır. O əlavələrdədir. Əlavə varsa, deməli, dilin gözəgörünməyən potensialı işə düşmüşdür. Buradan dil xəstəliyinə bir addım qalır. Deməli, müstəqimlikdən bir addım da olsa kənarlaşma özünü göstərirsə, bu, dil xəstəliyinə aparacaq bir yoldur. Sinqulyar nöqtə öz içindən kainatı doğura bildiyi kimi dil səviyyəsində (fonetik səviyyədə) belə bir nöqtə (metaforik anlamda) öz içindən normal dildə mətn boyda görükə biləcək informasiyanı doğa bilir. Gözlə görükməyən, qulaqla eşidilməyən belə bir mətn təsəvvür səviyyəsində, qavrayış səviyyəsində deşifrə edilir. Və adekvat reaksiyanı şərtləndirməklə öz "işini" bitmiş sayır.

Deməli, belə çıxır ki, normal (ənənəvi) yanaşmada ən kiçik vahid kimi səsdən başlayıb ən yüksək vahid kimi qəbul edilən mətnə (mürəkkəb sintaktik bütövə, diskursa, mikromətnə…) doğru dil fəaliyyəti böyük bir yol keçib gedirsə, dilin qədim, primitiv dövründə (hələ ayrıca sözün, cümlənin formalaşmadığı bir dövrdə) – mifoloji məkanla dil məkanının birləşdiyi bir dövrdə əvvəl ilə (sinqulyar səs ilə) axır (mətn) bir-birinin içindəymiş kimi təzahür edir.

Əslində, "əvvəl" "axır"ı öz içində gizlətmiş kimidir. Onlar funksional baxımdan bir-birinə bərabərdirlər. Əvvəlin işarəsi olan sinqulyar səs axırın işarəsi olan mətnlə bərabərlik münasibətindədir.

3. İnvariantlar və variantlar

"Səs-siqnal"ın predikativliyi onun əsas mahiyyəti kimidir. Bunu ilkin, primitiv predikativlik kimi də qəbul etmək olar. "Səs-siqnal"da ilkin predikativlik, yəni, istənilən halda xəbərlik (fikrin bitməsi halı) özünü əsas funksiya kimi göstərir.

> ***Ricət.*** *Predikativlik dilin qədim dövrlərinə baş vurduqca özünü daha "pərakəndə" şəkildə büruzə verməyə başlayır.*
>
> *Məsələn, məşhur rus dilçisi Peşkovskinin fikrincə, cümlənin yenicə formalaşmağa başladığı dövrdə predikativlik bu və ya başqa şəkildə hər bir cümlə üzvünün canında ola bilirdi. Daha sonralar o, yalnız xəbərdə fokuslaşdı. Biz isə bir qədər də əvvələ gedərək onu primitiv insanın çıxardığı sinqulyar səsdə də axtarmağı məqsədəuyğun sayırıq.* ***Ricətin sonu.***

Səs-siqnalın norması varmı? Var! Norma varsa, onun, deməli, variantları da var. Əlbəttə, belədir. Variantlar varsa, dildə mifoloji dönəm, deməli, "azğın" demokratiya dövrü başlamışdır. İnvariantların kultu artıq öz yerini variantların kultuna vermişdir.

Səs-siqnal invariant və variantların mübarizəsinin labüdlüyündən xəbər verir. Səs-siqnalın variantları (səsin tembrə görə, tələffüz manerasına görə, intonasiyaya görə dəyişməsi və başqa ekstralinqvistik amillər) onu qəbul edənlər üçün informativ deyil, çünki onlar ikincidirlər. Səs-siqnalın etalon vəziyyəti, normativ vəziyyəti, başqa sözlə desək, invariant vəziyyəti isə onun ilkin vəziyyətidir. Həm də müstəqim informativlik daşıyan vəziyyətidir. İnvariant səs-siqnal müstəqim informasiya funksiyası daşıyır. Bu, çatdırılması vacib olan çağırış – modeldır. Məqsədli şəkildə yaradılan informasiya modelidir. Məhz onun üzərindən səs-siqnalın variantları yaranır və inkişaf edir. İnvariantla variantların bir əsas fərqi də ondadır ki, dil nöqteyi-

nəzərindən invariant inkişaf etmir, variantlar isə inkişaf edir. Dilin gəlişməsi variantların inkişafından güc alır. İnvariantların inkişafını isə təfəkkürün inkişafı şərtləndirir.

Variantlar ekstremal situasiyalarda ünsiyyət prosesinə mane ola bilər. Onların yaranışının əsas istiqaməti olan üslub müxtəlifliyi daha (çox) sonralar özünü göstərəcək. Variantlar üslubun yaranmasını sonralar şərtləndirəcək.

Üslub və variantlar mənəvi baxımdan eyni mənşəli anlayışlardır. Üslubun canı variantların peyda olması ilə güc yığmağa başlayır. Amma üslubun ilkin (primitiv) çıxış vəziyyəti invariantların iştirakı ilə müəyyənləşir. İnvariantlarla variantların sonrakı münasibəti qədim yunan miflərindəki titanlarla yeni allahların münasibətinə bənzəyir. Nəhayətdə, dil müstəvisində də variantlar (yeni allahlar) qalib gəlir və invariantın hakimi – mütləqliyinə son qoyulur. Variantlar hətta öz inkişaf meyillərini requlə edə bilmir və bir qrammatik – leksik orbitdən digərinə keçə bilirlər.

İlkin üslub, yəni, ilk müstəqim informasiya toplusu (invariantlar sistemi) danışıq məkanına aid dəyərdir. Bu, bütün ictimai birliklər üçün (onların qədim, primitiv vəziyyətləri üçün) keçərli universal prinsipdir. Digər üslublar (rəsmi-işgüzar, elmi, texniki, publisistik, bədii…) bunun – müstəqim formaların üzərindən (hər bir ictimai birlik üçün spesifik tərzdə) yaranır.

3-cü fəsil
Leksik səviyyədə mifoloji təsəvvürlər

1. Söz və onun mifoloji buxovları

Son zamanlar dilçilik mövzuları sanki tükənmiş kimidir. Magistr və namizədlik, doktorluq dissertasiyalarına nəzər saldıqda şahidi oluruq ki, mövzular bir-biri ilə, elə bil, "itələşir", ya da bir-birinə xeyli yaxın "məsafədə" dururlar. Çox zaman isə bu mövzuların, sadəcə, adları başqadır, mahiyyət, məzmun isə az, ya çox dərəcədə dəyişdirilmiş hala salınmış təkrardan savayı bir şey deyil. Get-gedə dilçilik ritorikası genişlənir, yeni çalarlar kəsb edir, amma mövzuların tam, ya da qismən eyniliyi imkan vermir ki, dilçilik təfəkkürü inkişaf etsin, irəliləsin, bu ritorika ilə ayaqlaşsın və nəhayət, yeni üfüqlərin axtarışına çıxsın.

Morfologiya və sintaksis, fonetika (fonologiya) və leksika istiqamətində yeni üfüqlər nadir hallarda görünür. Ədalət naminə onu da qeyd etmək lazımdır ki, belə bir halın öz daxili məntiqi də yox deyil. Çünki başqa bir baxışa görə hər bir iddiaçı hətta artıq müdafiə olunmuş hər hansı mövzunu yenidən, başqa rakursdan işləməyi bacarmalı, öz müstəsna tədqiqatçı qabiliyyətini ortaya qoymalıdır. Hər dəfə yeni, yaxud tam yeni mövzu axtarışına çıxmaq da doğru olmazdı. Ancaq bu, məsələnin, necə deyərlər, tamam başqa bir tərəfidir, problemin kökündən istiqamətinin dəyişdirilməsidir və biz indi xüsusi müzakirə tələb edən bu məsələdən danışmaq istəmirik. Bizi tədqiqatımızın bu hissəsində dilimizin öyrənilməsinin (dilçiliyimizin) mövcud vəziyyəti və qarşısındakı üfüqlər maraqlandırır. Yeni tədqiqat istiqamətləri düşündürür. Bu istiqamətlərdən biri üfüqdə ilğım kimi sayrışır. "Dilimiz və mifologiya" adlandıra biləcəyimiz bu istiqamət iki böyük qo-

lun birləşməsindən yarana bilər, onun içindən cürbəcür bir-birini tamamlayan (təkrar etməyən!) mövzular çıxa bilər və nəhayət, ən vacibi, bu birləşmə "hər bir dilçilik sahəsinin öz reallıq və mifoloji qatı vardır" ideyasından çıxış etsək, dilçiliyin bütün sahələrinə nüfuz edə bilər. Dil və mifologiyanın bir-birilə əlaqəsi, bir-birini bəzən aşkar, bəzən gizli şəkildə dəstəkləməsi, bir-birini "yaşatması", həm leksik, həm fonetik, həm də qrammatik müstəvilərdə özünü göstərir. İndi bizi araşdırmamızın bu səthində leksik müstəvinin əsas obyekti olan "söz" vahidi maraqlandıracaq.

"Dilimiz və mifologiya" istiqaməti dilçilərə çox mətləbi əyan edə bilər. Əvvəla, bu onu göstərər ki, dilçiliyimizin potensialı hələ tükənməyib. Və bu potensialın yeni aspektlərini müəyyənləşdirmək və öyrənmək məqsəd şəklində qarşıya qoyularsa, son nəticədə, bu yeni yanaşmaların işığı ənənəvi fonetika, leksika, qrammatika məsələlərinin də üzərinə düşə bilər. Beləliklə, bizi, belə deyək, "bezikdirmiş" mövzular qarşımızda yeni forma və hətta mahiyyətdə zühur edər.

İkinci, bu istiqamətin frontal (bütün dil aspektləri üzrə) öyrənilməsi yeni bir dilçilik müstəvisinin müəyyənləşdirilməsinə gətirib çıxarar. Mifologiyanın əsas instrumentlərindən biri olan "söz" və təbii ki, digər dil və nitq vahidləri yeni intellektual kontekstə daxil olar. Bir qədər təkrara yol verməklə qeyd edək ki, bu birləşmiş istiqamətin adını şərti olaraq "Mifolinqvistika", yaxud "Linqvomifologiya" qoymaq olar. Bizə görə "Mifolinqvistika" adı daha uyğundur. Əvvəlki fəsillərdə və bölmələrdə bu barədə kifayət qədər geniş şəkildə danışmışıq.

"Mifologiya dilçiliyə, ədəbiyyatşünaslığa nə verir?" sualı zaman-zaman bir sıra görkəmli dilçiləri ciddi şəkildə maraqlandırmışdır. XIX əsrin ortalarından və XX əsrin əvvəllərindən başlayaraq B.Humbolt, Şlegel, Miller, Potebnya, Veselovski, Frezer, Baxtin, Lotman, Bart və başqaları bu problemin müxtəlif dillərdə özünü göstərən maraqlı tərəflərini öyrənmişlər.

Azərbaycan dilçiliyində, təəssüf ki, haqqında danışılan məsələnin bu və ya başqa tərəflərini xüsusi tədqiqat obyektinə çevirən yazıya rast gəlinmir. Məsələnin fəlsəfi baxımdan araşdırılmasını (Niyazi Mehdi bunu edib) nəzərdə tutmuruq. Fəlsəfə məkanında araşdırılan problemi, təəssüflə

deyək ki, dilçilər dəstəkləmədilər, beləliklə, dilçiliyin qarşısında duran vacib və faydalı perspektivləri görmədilər, onlardan yan keçdilər. Boşluqlar boşluq kimi qaldı. Və qeyd edək ki, bu gün bu boşluqların doldurulması dilçiliyimizin ciyərlərinə yeni nəfəs gətirmək acısından son dərəcə vacibdir. Olduğu kimi qalan boşluqlar bizə imkan vermədi ki, səsin, sözün, ifadənin dərinliklərinə enək, onların potensiallarını üzə çıxaraq. Bu dərinliklərdə isə başqa elm sahələrinin potensialını görmək o qədər də çətin bir iş olmazdı. Çünki bütün dərinliklər bir-birinə keçir, bir-birinin içində yaşaya bilirlər.

Beləliklə, dilimiz və mifologiyanın əlaqəsi deyərkən, ilk olaraq belə bir sualı ortaya qoymaq lazımdır. Dilimizin hansı elementi, hansı vahidi mifologiya ilə daha sıx surətdə bağlıdır? Cavab olaraq onu söyləmək olar ki, yuxarıda deyilən kimi dilçiliyin bütün sahələrindəki hər hansı elementlər bu və ya digər dərəcədə mifoloji təsəvvürün məngənəsində ("əsirliyində") olublar. 1 nömrəli əsir isə, əlbəttə ki, leksikanın əsas vahidi olan Əlahəzrət Sözdür.

Primitiv insanın formalaşması onun mifoloji təsəvvürünün yaranması və inkişaf etməsilə sıx surətdə bağlıdır. Bu formalaşma prosesinin əsas göstəricisi olan dil, beləliklə, öz-özlüyündə deyil, insan təfəkkürü və təsəvvürləri ilə bir yerdə inkişaf yolu keçməyə məhkum idi desək, səhv etmərik. Dil və mifoloji təsəvvürlərin belə birgəliyi uzaq primitiv dövrdən başlayıb ta ki, insanın öz yaşadığı dünyanı real və adekvat şəkildə dərk etməyə başladığı dövrə qədər – tarixin başladığı, yəni, yazının ortaya çıxdığı dövrə qədər uzanıb gəlir. İnsanın mifoloji təsəvvürlərə "yox" deməsi, belə deyək, "mifoloji yuxudan" ayılması, ilk növbədə, onun dilinə təsir edir. Bu zaman dil elementləri öz müstəqimliklərinə qayıdır və biz onları ən azından məcaz kimi qəbul etməyə başlayırıq. Biz indi ən vacib məqama yaxınlaşdıq. Bu məqam ondan ibarətdir ki, mifoloji təsəvvür dildən asanlıqla ayrılmaq istəmir. İndiyənə qədər dil onun üçün son dərəcə etibarlı istehkam olmuşdu. Və belə bir məcburi (təfəkkürün inkişafı öz qarşısında heç bir maneəyə baxmır!) "ayrılıq" zamanı gəldiyində mifoloji təsəvvür dil qalasının sərhədləri içərisinə özündən "xatirələr" (özünəməxsus "Troya atları") qoyur. Ən asan şəkildə o bunu leksik müstəvidə həyata keçirir.

Sözün müstəqim və məcazi mənalarına diqqət yetirək. Əlbəttə ki, müstəqim məna sözün daha qədim, ilkin mahiyyətidir. Sonrakı qazandığı və zəbt etdiyi məna "dayanacaqları" ilkin müstəqim mənanın süni peykləri kimi onun başına fırlanır. Hər hansı sözün bir müstəqim mənası olmalıdır. Bütün digərləri həmən peyklərdir. Biz indi dediklərimizi "söz" leksik vahidinin müstəqim və sonrakı mifoloji, məcazi mənaları əsasında təsbit etməyə çalışacağıq. Söz və onun məna derivatlarına xüsusi olaraq diqqət yetirməklə məsələnin mahiyyətinə bir qədər də yaxınlaşa bilərik.

"Söz" vahidi ilə bağlı ilkin müstəqim məna derivatı "söz demək" birləşməsində özünü göstərir. "Söz demək", "söz danışmaq" ilkin mənalar kimi ideal şəraitdə "bir anlayış bərabərdir bir ifadə vasitəsinə" məntiqinə uyğundur. Bu birləşmə, ümumiyyətlə, "danışmaq" sinqulyar feilinin sintaktik törəməsi rolunu oynayır. Əsl dram bundan sonra yaşanır. "Söz" vahidinə bağlana biləcək bütün digər birləşmələr daha sonra artıq dilin gücsüzlüyünün, bir qədər də kəskin desək, dil xəstəliyinin (Milleri və Potebnyanı xatırlayaq) nəticəsində yaranır. Çünki dil yeni yaranan situasiyalar və anlayışlar üçün yeni formal vahid yarada (icad edə) bilmir, arsenalında mövcud olan vahiddən istifadə edir. Bu isə "söz" vahididir. Yeni ifadənin canında bu leksik vahid durur. Paralel olaraq qarşısıalınmaz şəkildə digər köməkçi faktor özünü göstərir: məcazlaşma baş verir. Məcazlaşma özünün konkret təzahüründə meydana çıxır. Onun konkret təzahürü personalaşma aktı ilə üzə çıxır.

"Söz"lə bağlı bütün digər (ilkin müstəqim məna daşıyandan başqa) birləşmələrdə personalaşma faktoru əsas rol oynayır və bu zaman sanki birləşmənin canı yox olur, yerində yenicə təzahür etmiş ruhu baş qaldırır. Aşağıdakı misallarda bunu aydın şəkildə müşahidə edə bilərik:

– (1) *"söz almaq"*. Sözü sanki kimdənsə alırsan. Alırsansa, deməli, alınan maddi bir nəsnədir. İlkin olaraq bu birləşməni elə belə də qəbul ediblər.

– (2) *"söz vermək"*. Kiməsə sözü maddi əşya kimi vermək. İlkin məna budur.

Yəni, *"söz vermək"*, *"söz almaq"* proseslərini anlayıb (dərk edib) dilə daxil etmək istəyəndə yeni leksik vahid yaranmalı idi, amma o yaranma-

yıb, məhz "dil xəstəliyi"nin nəticəsində "söz" leksik vahidindən sintaktik derivasiyada bir daha istifadə edilib. Nəticədə, köhnə vahid yeni "sifarişi" əlavə yük kimi öz üzərinə götürüb bir daha, bu dəfə yeni anlayışda ifadə etməyə məcbur qalıb. Və bu zaman öz "azadlığını" sanki itirib, mənəvi varlıqdan fiziki varlığa (personaya) çevrilib. Özü fiziki varlıq olub, amma kənardan anlayışın ruhu kimi görünür.

Bir neçə başqa misala diqqət edək:

– (3)"Söz qaytarmaq"; (4)"Söz güləşdirmək"; (5)"Sözə baxmaq"; (6)"Söz sahibi olmaq"; (7)"Sözü qorumaq"; (8)"Söz atmaq"; (9)"Söz çürütmək"; (10)"Söz oynatmaq"; (11)"Söz azdırmaq; (12)"Sözü yerə salmaq"; (13)"Söz yedirtmək"; (14)"Söz yağdırmaq"; (15)"Söz kəsmək"; (16)"Söz düzəltmək; (17)"Sözü uzatmaq"; (18)"Sözə sitayiş"; (19)"Söz eydirmək" və s. və i.a.

Bu misallara da yuxarıdakı meyarla yanaşa bilərik. Birləşmələrin feil hissəsi birinci hissənin personalaşmasını sanki bəri başdan motivləşdirir. "Söz" burada əyani, maddi əşya, persona kimi özünü göstərməyə başlayır.

(3) "Söz qaytarmaq". Nəyi qaytararlar? Əlbəttə, maddi olan nəyisə.

(4) "Söz güləşdirmək". Nəyi güləşdirərlər? Əlbəttə, persona olan kimisə.

(5) "Sözə baxmaq". Nəyə baxarlar? Əlbəttə, görünən nəyəsə, kiməsə.

(6) "Söz sahibi olmaq". Nəyin sahibi olarlar? Əlbəttə, maddi və persona olmuş nəyin, kiminsə.

(7) "Sözü qorumaq". Nəyi qoruyarlar? Əlbəttə, nəyisə, kimisə və s. və i.a.

Bütün digər misalları bu şəkildə izah etmək mümkündür.

Biz görürük ki, mifoloji təsəvvür bir körpü kimi mənəvi, ruhani varlığın konkret, maddi varlığa keçidini şərtləndirir. Bu keçid eyni zamanda tam əksinə olaraq, maddi varlığın ruhani varlığa keçididir. Bu ikisi bir yerdə, eyni zamanda baş verir.

Mifoloji təsəvvürə görə "necə yazırıqsa, elə də oxuyuruq". Bu təsəvvür bizi sözün ilkin, müstəqim mənasından qanadları üstə alıb uçurur, yeni semantik ənginliklərə (bəlkə də daha doğrusu belə olardı: dərinliklərə!) aparır. Əgər biz deyiriksə, "qarşı yatan Qara dağdan bir oğul uçurdunsa, degil mana" ("Kitabi-Dədə Qorqud"), o zaman biz, həqiqətən də, dağın yatmasına və nə zamansa oyanacağına inanırıq. Mifoloji təsəvvür budur.

Məhz bundan sonra bütün digər məcazlar və frazeoloji fiqurlar formalaşmağa başlayır.

Dil isə artıq "tənbəlləşib". Belə deyək: onu "tənbəllik xəstəliyi" tutub. O, yeni leksik vahid "icad" etmək istəmir, onun hələlik sonlu lüğəti (bizim anladığımız "sonsuz lüğət" dil inkişafının sonrakı mərhələlərində formalaşır) bu hal üçün yeniliyin üzünə qapalıdır. O, köhnə formadan istifadə etməyə üstünlük verir. Və nəticədə, bir tərəfdən mifoloji təsəvvürdən uzaqlaşır, digər tərəfdən yenə də onun buxovlarından tam şəkildə azad ola bilmir. O, haman ifadələrin dərin qatlarında öz ilkin ruhunu (mifin xatirəsini) bu gün də qoruyub saxlayır.

İndiki halda mövzu ilə bağlı biz "söz" leksik vahidi və onun "mənəvi" derivatlarından çıxış edərək bu hissəni tamamlayırıq. Tədqiqatın başqa söykənəcək vahidləri az deyil. Bununla bağlı tədqiqat üçün maraqlı görünən bir obyekt kimi "ad" leksik vahidini misal göstərə bilərik. Zaman boyu məlum "dil xəstəliyi"nə tutulmuş və ondan indi də tam yaxa qurtarmamış "ad" sözü, əlbəttə ki, ciddi şəkildə tədqiqata cəlb edilə bilər. *Ad qoymaq, ad almaq, ad vermək, ada layiq olmaq, adı qorumaq* və s. kimi ifadələrin taleyi mifoloji təsəvvürün məhsulu olan "söz" və onun birləşmələri qədər maraqlıdır.

Təfəkkür tariximizi, əsl dil tariximizi (ədəbi dil tariximizi deyil!!!) öyrənmək üçün haqqında danışdığımız istiqamət dilçiliyimizə gözəl imkanlar verə bilər.

2. "Ad" sözü və mifoloji derivatları

Ad və şəxs. Adlandırma prosesi (ritualı). Primitiv cəmiyyətlərdə advermə xüsusi əhəmiyyətə malik prosedur kimi cəmiyyətin bütün üzvlərini öz ahənginə və qanunauyğunluqlarına tabe edən bir ritual idi. Onun əks-sədası bu günə qədər öz gücünü itirə-itirə olsa da gəlib çatmışdır. Bu, hər bir adama ildə bir dəfə ad günü keçirilməsində özünü göstərir. Diqqət edək: doğum günü yox, ad günü!!!

Bizim təcrübəmizdə adlandırma ritualı özünü ilkin olaraq "Kitabi-Dədə Qorqud" dastanında göstərir. Bu məqamın ciddiliyinə dəlalət edən səbəb ritualın heç bir başqa birisi (valideyn, yaxın qohum) tərəfindən deyil,

məhz Oğuz elinin (Qalın Oğuzun) mənəvi başçısı Dədə Qorqudun özü tərəfindən həyata keçirilməsidir. Gənclərə adı məhz Dədə Qorqud qoyur. Onun da öz adqoyma prinsipləri vardır. Dədə Qorqud ilk olaraq maraqlanıb öyrənir ki, artıq boya-başa (həddi-büluğa) çatmış gənc öz qısa həyatında hansı dəyərli əməlin sahibi olmuşdur, özünü nədə göstərə bilmişdir və yalnız bundan sonra o bu gənci adlandırma ritualından keçirir.

Bu məqam – mənəvi başçının bir elin gənclərinə ad qoyması bu gün təkrar olunan "ad günləri" ritualına öz təsirini necə buraxmışdır?! Bizcə, ad günü məclislərinin tamadası (bəzi hallarda eyni tamadası) bu funksiyanın zəif də olsa icraçısıdır, çünki məhz tamada məclis başında sözü müqtədir, dediyinə əməl edilən bir şəxs kimi qədim ritualın zəif təmsilçisinə çevrilir.

Ritualın məqsədi həddi-büluğa çatmış gənci cəmiyyətin rəsmi üzvü etmək, bununla ona müəyyən səlahiyyətlər vermək (məsələn, müharibələrdə iştirak etmək, böyüklərlə bərabər ictimai əhəmiyyətli tədbirlərdə iştirak etmək, evlənmək, özünə müstəqil yuva qurmaq və s.), onun hüquq və vəzifələrinin çərçivəsini müəyyənləşdirməkdir. Bu, Basatla bağlı belə olur, Buğacla bağlı belə olur, Beyrəklə bağlı belə olur və çox güman ki, digər gənc qəhrəmanlarla bağlı yenə belədir. Təəssüf ki, biz bu ritualın yaşlı nəslə tətbiqi barədə Dastandan bir şey öyrənə bilmirik. Salur Qazanın, Baybecan məlikin, Baybura bəyin və başqa yaşlı bəylərin adlandırılma mərasimləri barədə burada heç bir məlumat, yaxud belə mərasimlərin keçirilməsinə dair ayrıca işarət yoxdur. Halbuki onların yaşam dövrü gənclərinkindən daha qədim zamana təsadüf edir və özündə daha bariz cəhətlər qoruyub saxlaya bilərdi.

Adlandırmanın səbəbi. Bəs Dədə Qorqud verdiyi adı fikirləşib haradan tapır?! Dərindən düşünməyə ehtiyac duymayıb cavab verə bilərik: "həyatdan", adlandırılan gəncin düşdüyü situasiyadan. Rituala məruz qalan gəncin əməli, gördüyü real iş bunun yeganə mənbəyidir. Sanki hamı gözləyir. Gəncin müəyyən yaşa çatmasını deyil, gəncin müəyyən əməlin sahibi olmasını ata-anası da, yaxınları da, dostları da gözləyir və bu baş verdikdən yalnız sonra Dədə Qorqud dəvət edilir, mərasim yerinə yetirilir. Bu məqam maraqlı məqamdır. Belə ki, ritualın həyata keçirilməsinin əsl səbəbi fiziki yaş deyil, əməli iş olur.

Adlandırmanın mənşəyi. Yeni bir sual doğur. Bəs Dədə Qorqud kimisə adlandırarkən bunu nəyin vasitəsilə edir?! Bunun mənşəyi hardandır?! Cavab ilk baxışda sadə və bəsit olacaq. Dədə Qorqud adı məhz danışdığı və cəmiyyətin yaxşı anladığı dilin vasitəsilə yaradır. Mənşə dildir. Özü də burda qəribə heç nə yoxdur. Daha nə cür yarada bilərdi ki?! Amma gəlin, bu şübhəli etirazı tələsməyək ortaya qoymağa. Çünki dərindən düşünsək, görərik ki, Dədə Qorqud adı səssiz işarələr vasitəsilə də yaradıb verə bilərdi. Deməli, adlandırmanın, bir növ, əsasında səsli dil durur. Və ilk növbədə adlandırma gəncin gördüyü işin, əməlin birbaşa əks-sədası kimi səslənir. Buğaya qalib gəlmisənsə Buğac adlanacaqsan. Ciyərli, beyrəklisənsə (o qədim zamanlarda qorxmazlıq nümunəsi kimi "beyrəkli" sözü daha işlək idi) adın Beyrək olacaq.

Dədə Qorqud təkcə gənclərə əməllərinə uyğun gələn adlar qoymur. O, əşyalara da ad verir. Bu barədə onun özü M.A.Axundovun şəhadətilə belə deyir: "Ayrana doyran demədim mən Dədə Qorqud…" Dədə Qorqud dörd əşyaya ad verməməsini bu şəkildə bildirir. "Ayran" onlardan biridir.

"Ad" sözü və onun adlandırılması ilə bağlı ilkin müstəqim məna "qoymaq" feili ilə formalaşır. "Ad qoymaq" ad ətrafında sonradan süni peyklər kimi fırlanan bir çox mənaların formalaşmasında çıxış nöqtəsi olacaqdır. Qeyd etmək lazımdır ki, bu birləşmə daxilində "qoymaq" feili son dərəcə "simasız"dır, onun müstəqil mənası yox kimidir. İkisi birləşəndə isə N.K.Dmitriyevin cümləyə verdiyi tərifi xatırlasaq, iki elektrik xətti cərəyan yaratdığı kimi (mübtəda və xəbər cümlə yaratdıqları kimi) bu iki söz də bir-birilə birləşib yalnız *adlandırmaq* mənasına uyğun təsəvvür yaradır. "Ad qoymaq" bu prosesin ilkin, hər cür mifologizmdən, məcazlaşmadan uzaq olan adıdır. Sonrakı "ad"la bağlı birləşmələr isə artıq mifoloji boğçadan asanlıqla çıxırlar.

Sonrakı birləşmələr hansılardır?! Onlardan əsaslı olanlarını sayaq: (1) "ad vermək", (2) "ad ucaltmaq", (3) "ada layiq olmaq", (4) "ad batırmaq", (5) "ad almaq", (6) "adı qorumaq", (7) "adı yaşatmaq", (8), "adı ilə böyümək", (9) "ada ləkə gətirmək" və s. və i.a.

Bütün bu birləşmələr müstəqimlik rejimində işləyir, onları biz o feillərin birbaşa mənaları ilə bir qavrayırıq. Onlar bir-biri ilə təmasa girdikdən sonra müstəqimlik qazanır, ilkin mənalarında isə personəedilmiş şəkildə çıxış edirlər.

(1) "Ad vermək". Verirlərsə – aydındır ki, hansısa real bir əşyanı (adı) verirlər;

(2) "Ad ucaltmaq". Ucalırsa – real, konkret olan nəsə (ad) ucalır;

(3) "Ada layiq olmaq". Layiqdirsə – nəyə isə, real nəyə isə (ada) layiq olmaq olar,

(4) "Ad batırmaq". Batırsa – yenə də real bir əşya (ad), özü də suda batır;

(5) "Ad almaq". Almaqdırsa – nəyi isə (adı) almaq olar;

(6) "Adı qorumaq". Qorumaqdırsa – konkret olan, real olan nəyi isə (adı) qoruyarlar;

(7) "Adı yaşatmaq". Yaşatmaqdırsa – maddi, canlı olan nəyi isə (adı) yaşadarlar;

(8) "Adı ilə böyümək". Böyüməkdirsə – kiminləsə, nə iləsə (adla) bir yerdə böyüyərlər;

(9) "Ada ləkə gətirmək". Ləkə gətirməkdirsə (sürtməkdirsə) – ləkəni maddi olan nəyəsə (ada) sürtmək, gətirmək olar və s. və i.a.

Dil xəstəliyi və "ad" sözünü yenə də Miller – Potebnyanın "dil xəstəliyi" anlayışından istifadə etməklə bu ilkin birgəlikdən doğan müstəqimliyi işığında izah etməli olacağıq. O müstəqimlik zaman-zaman məcazlaşsa da bu günə qədər öz ilkinliyinin əks-sədasını özündə saxlayır. Təsəvvürümüzdə məcazlaşmanın dərinindən ilkin müstəqimlik boylanıb baxır.

Bu birləşmələrin yenə də yaranmasını isə belə izah etmək olar. Anlayış yaranır. O hələ kifayət qədər dumanlıdır. Yeni söz icad eləməyə dil özündə qüvvə tapmır. Dilin "xəstəliyi" burada özünü göstərir. Dil artıq arsenalında mövcud olan "ad" sözündən istifadə edir. Feil hissənin mənası (təklikdəki müstəqim mənası) o qədər güclüdür ki, köhnə söz ("ad" sözü) ona qoşularkən öz mənasını itirir, güclü hissənin mənasına "təslim" olur. Bu dəfə ikisi birlikdə müstəqimlik ifadə edir.

3. "Ox atmaq"dan "oxla vurmağa" qədər

Mifoloji dərk məqamına daha çox dil strukturundakı köklər uyğun gəlir. Hər əlavə edilən şəkilçi dil elementini (kökünü) "mifoloji atmosferdən" bir addım uzaqlaşdırır. Deməli, buradan belə bir nəticə çıxır ki, dil elementləri nə qədər sadə (birhüceyrəli) olurlarsa, o qədər "mifoloji" olurlar. Belə təsəvvür edilərsə, təmiz leksik qat mifoloji məkana mifoloji qatın özündən bir addım yaxındır. Bu proses üçmərhələli planda təsəvvür edilir.

İlk öncə sözün özü yox, o sözün işlənəcəyi proses (birləşmənin daxilində) beyində formalaşmalıdır. İndi bizə yeni sözün hansısa əşyanı adlandırması asan görünür: əşya var, qalır onun havadakı əksi – adlandırılması (səslənişi!). Bu mərhələ indiki dövrdə çox asanlıqla baş verir. Bunun üçün ya dildəki köhnə ünsürlərdən istifadə edilir, ya da (nadir hallarda) yeni ünsür kəşf edilir.

O ilkin dövr üçün isə bu mərhələdə əşya yaranmazdan əvvəl onun funksiyası müəyyənləşməli idi. Məsələn, "ox" sözünü götürək. Bu sözün yaranması üçün gərək onun hansı silahın hansı tərkib hissəsi olması barədə əvvəlcədən təsəvvür olaydı. Reallıqda "ox"la bərabər "yay" və "kaman" sözləri yaranırdı. Bunlar barədə təsəvvürlər sözə çevriləndə ardıcıllıq ola bilməzdi. Bəlkə onlar hələ beyində təsəvvürlər kimi olanda funksionallıq baxımdan bir-birini sıralaya bilərdilər. Ox, onun atılması üçün vacib olan ləvazimat – yay və kaman bəlkə də bir-birini sıralaya bilərdi, amma dil müstəvisində – adlandırma prosesində onlar sıralanmazdı, onlar eynizamanlığa məhkum idilər. Bu üç əşya (ox, yay, kaman) eyni zamanda adlandırılmalı idilər. Bu üç sözü əldə edib (və ya əldə etməzdən əvvəl) beyində onların hər üçünü bir kodla şifrələmək lazım idi. Bu kod ümumiləşmiş şəkildə bu üç komponentin əmələ gətirdiyi "yaraq" anlayışını ortaya qoyurdu. Beləliklə, kodun adı "yaraq" olurdu. Deməli, biz silahın tərkib hissələrinin adını "icad" etməzdən əvvəl hökmən onun ümumi, abstrakt adını (funksiyasını) özümüz üçün müəyyənləşdirirdik. Nəhayət, üç konkret söz (ox, yay, kaman) və bir abstrakt sözlə ("yaraq") biz mifoloji məkana daxil oluruq. Amma bu necə baş verir?! Bu adların hansında biz

mifoloji qata məxsusluğu görə bilərik?! Axı yuxarıda demişdik ki, mifoloji qata ən yaxın elementlər sadə köklərdən ibarət olan elementlərdir. "Ox", "yay", "kaman" sadə elementlərdir. Amma öz-özlüklərində onlar bizi mifoloji məkana apara bilirlərmi?! Apara bilmirlər.

Belə çıxır ki, biz yuxarıda sadə köklərlə bağlı dediklərimizi korrektə etməliyik. Təxminən, belə deməliyik. Dilin ən kiçik elementi onun ən kiçik mifoloji birləşməsinin tərkib hissəsi ola bilər. Sadə mifoloji birləşmənin tərkibində düzəltmə (sadə olmayan) elementlər ola bilməz. Vardırlarsa, onları əvvəlcə hökmən öz sadə məxrəclərinə gətirib (bu mümkündürsə) sonra üzərlərində hər hansı semantik-sintaktik əməliyyatlar apara bilərik.

"Ox", "yay" və "kaman" real şəkildə əldə tutulduqdan sonra bu yarağın funksiyası işə düşməlidir. Mifologiya məhz bu zaman özünü yada salır və öz missiyasını yerinə yetirməyə başlayır. Çox zaman mifoloji birləşməni məhz "dil xəstəliyi" hesabına tanımaq olur. Bu kriteriyanı işə salandan sonra aşağıda qeyd edilən birləşmələrdən hansı daha qədimdir sualına cavab vermək o qədər də çətin deyil:

1. Ox atmaq,
2. Ox(la) vurmaq,
3. Ox(la+maq)

Əlbəttə ki, dil xəstəliyiniun fəsadını nəzərə alsaq, "ox atmaq" birləşməsi daha qədimdir. Onu ancaq "ox(la) vurmaq" birləşməsi ilə müqayisə etmək olar. "Oxlamaq" müqayisəyə gəlmir. "Ox(la) vurmağı" isə ilkin qədim varianta gətirmək istəsək, yəni, şəkilçini kənarlaşdırıb sadə köklü varianta gətirmək istəsək, yenə də "ox atdı" sxemli birləşməyə gəlib çıxacağıq.

"Ox atmaq" dil xəstəliyinin nəticəsi olaraq özünü göstərir desək, səhv etmərik. Biz bu zaman "oxla vurmaq" birləşməsinin hələ formalaşmadığı bir dil məkanındayıq. "-la" şəkilçisinin varlığı öz yerində, "vurmaq" feilinin özü bu zaman harada idi – bilinmir. "Vur+maq < ur+maq < ura…" keçidlərinin reallaşmasına hələ çox vardı. Ona görə də prosesin özünün funksional olaraq reallaşması, başqa sözlə, oxun düşmənə tərəf göndərilməsi "vurmaq" feili ilə həyata keçirilə bilmirdi. Çünki bu feil, deyildiyi kimi hələ "icad" edilməmiş-

di. Oxdan yaraq kimi istifadə isə artıq icad edilmişdi. Və bunun adını qoymaq lazım idi. Dil çətinlik qarşısındadır. Nə etməli?!

Belə bir çıxış yolu görünür. Düşmənə axı oxdan əvvəl də nə isə göndərmişdilər. Bu, "daş" idi və onu ancaq atmaq mümkün idi. Daşı düşmənə tərəf məhz atırdılar, belə də ifadə edirdilər: "daş atmaq". Buradakı "atmaq" feili "göndərdilər" feilinin tam olaraq substitutudur. Daşı o qədim dövrdə məhz göndərirdilər. "Atmaq" feili ilə, "göndərdi" feili arasında fərq yox idi və "göndərdi" feilinin növbəti "yumşaq" mahiyyəti məhz sonrakı bədiilik dövründə ortaya çıxmışdı.

"Daş atmaq" birləşməsi məhz belə bir məqamda öz feil hissəsini yeni yaranmalı olan birləşməyə verir. Beləliklə, "daş atmaq" birləşməsindən "ox atmaq" birləşməsi yaranır. Dil gücə düşsə də, yeni yaranan funksiyanın "ölü" şəkildə qalmaması üçün əlindən gələni edir. Özü zəifləsə də ("xəstələnsə"də) yeni birləşməni yarada bilir. "Daş atmaq" dövrünü "ox atmaq" dövrü əvəzləyir. Və bu əvəzləmənin yolu mifoloji zəmində baş verir. Məhz "daş atmaq"dan "ox atmağa" gələn yol mifoloji yoldur, deyə bilərik. Bu gün dərin təsəvvürdə sən oxu atmırsan, oxu vurursan. Oxu vurmaq düşmən tərəfə nəyisə (bu halda ölümcül silahı) göndərmək kimi bir şeydir.

"Ox atmaq" müstəqimliyin qorunub saxlanması cəhdi, özü də ilkin vaxtlarda uğursuz cəhdidir. Bu gün biz deyirik (deyə bilərik) ki, bu uğurlu ifadədir, "ox atmaq" heç kimi artıq "diksindirmir". Bu ifadəyə biz zaman-zaman alışmışıq. Amma orası da var ki, bu ifadə (birləşmə) hələ tam olaraq xəstəlikdən sağalmayıb. Məcazlaşma müstəvisinə qədəm qoya bilməyib. "Ox atmaq" məcaz deyil. Bu birləşməyə görə Beyrəklə Banuçiçək bir-birini oxla vurmaq istəyəndə Dastanda deyilən kimi bir-birinə ox atmışdılar. Onlar bir-birini oxla vurmamışdılar. Sadəcə, bir-birinə tərəf ox atmışdılar. "Ox atmaq" isə o ilkin mifoloji dövrdə "oxla vurmaq" anlamına uyğun gəlmirdi. Deməli, belə bir istəyin olması da qeyri-mümkündür. Bəlkə də və yəqin ki, həqiqətdə bu iki gənc hər biri öz oxunu əlləri ilə quş kimi bir-birinə tərəf öz ilkin, müstəqim mənasında məhz "atmışdılar". Qədim, mifoloji dövrümüzün savaş rituallarını sistemli şəkildə öyrənsək, belə bir ritualın özünü göstərməsi heç də təəccüblü olmazdı.

4. Şərti "kəsmək" olarmı?!

Maraqlı mifoloji doluma məxsus dil ifadələrindən biri də "şərt kəsmək"dir. "Kəsmək" öz-özlüyündə aydın semantikaya malik bir feildir. Müstəqim mənada bıçaqla kəsərlər, qayçıyla kəsərlər, kəsib iki və ya daha çox hissəyə bölərlər və s. və i.a. Bəs *şərtin* "kəsilməsi" necə olur baş verir?! *Şərti* necə kəsirlər?! Onu (abstrakt məfhumu) axı iki yerə bölüb kəsmək mümkün olmasın gərək.

Qədim, primitiv xalqların həyatına dair məlumatlara daha dərindən bələd olduqca görürük ki, şərti də kəsmək olurmuş. Baxır, bu şərtin altında ilkin, müstəqim mənada nə başa düşülür?! Yenə də qədim rituallardan birinə dirənirik.

Düşmənçilik edən adamlar barışıq məqamına gəlib yetişəndə və yenidən dostluq şərtləri barəsində anlaşanda və bu şərtlərə əbədi riayət etmə barədə razılaşmalarını bir heyvanı iki yerə bölərək (əlbəttə ki, kəsəndən sonra!) bu bölünmüş hissələrin arasından keçirdirlər və bu ritualın yerinə yetirilməsi bu adamların razılaşdıqları şərtə əməl edəcəklərinə zəmanət vermələri demək idi. Şərti belə kəsirdilər və kəsilmiş heyvan hissələri arasından keçmək şərtə əməl etməyin andı kimi müqəddəs sayılırdı. Bu ritual dilimizdə "şərt kəsmək" ifadəsində daşlaşıb. Bunu da dilimizin o dövründəki söz ehtiyatının qısıtlığı üzündən yaranmış hal kimi qəbul etmək olarmı?! Bizcə, yox, olmaz. Çünki bu ifadəni "kəsmək" feili başqa, daha əvvəlki ifadədən gətirməyib. Dil xəstəliyinin bu məsələyə dəxli yoxdur. Belə ki, ritualın əsas dayaq nöqtəsi məhz "kəsmək" prosesi və bu prosesin təbii adı üzərində qurulur. İfadə, doğrudan da, "kəsmək" prosesindən qaynaqlanır. Amma real bir əşyanın deyil, məhz şərtin kəsilməsi bizə həm də onu deyir ki, "şərt" anlayışı o dövrdə abstrakt anlamda qəbul edilməyib, onun ilkin anlamı həm də məhz real olan əşyanın adını bildirməklə əlaqədardır. Bir növ, bu anlayış həm yarıreal, həm də yarımistik (mifoloji) bir təsəvvürün məhsulu kimi özünü göstərir. Anlayış qədim dövrdə eyni tarixi nöqtədə həm realdır, konkretdir, həm də abstrakt. Ayrı-ayrılıqda deyil, ikisi bir yerdə, eyni zamanda!

Mifoloji məkanda bu, bizim yadımıza hermofroditləri (Hermes + Afrodita) salır. Bununla yanaşı, kentavrlar (həm adamdır, həm at), sfinkslər (həm adamdır, həm şir) də bunlarla eyni qəbildəndirlər, deyə bilərik. Bu məqamla bağlı mifoloji ekstrapolyasiya dildə özünü son dərəcə uğurlu şəkildə zaman-zaman gizlədə bilmişdir, deyə bilərik.

5. "Qadınların yanına" – Beyrək belə deyir.

Qədim ritualın mifoloji qaynaq kimi özünü göstərməsini başqa nümunələrin timsalında da görə bilərik. "Kitabi-Dədə Qorqud" dastanından bir məqama diqqət yetirək. Dastanın əsas qəhramanlarından biri olan Beyrək elindən-obasından 16 ildir ki, ayrı düşüb. O, Bayburd qalasında kafir əsirliyindəndir. Nəhayət, gün gəlib yetişir və Beyrək əsirlikdən canını qurtara bilir. Oğuza geri dönür. Yunan mifoloji süjet xətlərindən birinin ("Troya" silsiləsinin) qəhramanlarından olan Odisseyin başına gələnlər paralel süjetdə olan kimi onun da başına gəlir. Beyrək öz nişanlısı Banuçiçəyin toyuna gəlib yetişir.

Toy məclisi qurulmuş, xanımlar ayrı çadırda, bəylər ayrı çadırda oturmuş, şadlanır, yeyib-içirlər. Beyrək əvvəlcə özünü bəylərə aşıq kimi tanıdır. Ancaq ox atıb hədəfi vurduqdan sonra bəylərbəyi Qazan xan Beyrəkdən xoşlanır, bəlkə də nə isə duyuq düşür (bu, artıq dastana məxsus, dastanın öz ştrixidir və dastan bu məqamda artıq Beyrəyin mətndə unudulmuş ox atma hünərini süjetə gətirir – növbəti dastan süsləməsi!) və Beyrəyə "məndən nə istərsən, istə" deyir. Beyrək sevincək arzusunu dilə gətirir: "Qadınların yanına varmaq istərəm!"

Kənar bir adamın (ətrafdakılar onu kənar adam kimi qəbul edirlər) bəylərbəyi önündə belə bir azğın dilək dilinə gətirməsi hamını qəzəbləndirir. Bu da dastan süsləmələrinə aid edilə bilər. Əsas məsələ, əsas açar isə daha dərində gizlənmişdir.

Buradan başlayaraq sanki dastanın bağrı yarılır, onun dərinində bir xətt, üzdə isə başqa bir xətt görünür. Bu xətlər hərəkətə gəlir, bir-birinin içində, bir-birindən gizlənə-gizlənə paralel olaraq yol getməyə başlayır. Beyrəyin qadınların yanına getmək istəyi dastandakı xətlərdən birinin

(süsləmə xəttinin) bizə zorla təqdim etmək istədiyi Beyrəyin Banuçiçəyi görmək arzusunda olduğunu göstərməkdir. Dərindəki xətt isə bu zaman bizə başqa sirlərdən danışır. Dərindəki mifoloji xətt açıldıqca isə onun rəngarəngliyi göz qamaşdırır və eyni zamanda biz dastanda təsvir edilənlərin qədimliyinə, insanlığın primitiv dövrünə qədər uzanıb getdiyinə nəzər yetirib açıq-aydın şəkildə buna heyran qalırıq.

Qədim, primitiv cəmiyyətlərdə mövcud olan bir ritualı xatırlayaq. Bu rituala diqqəti Frezer də cəlb etmişdi. İcma üzvü icmadan uzun müddət ayrı düşdükdən və icma onun ölümünə inandıqdan sonra əgər o yenidən icmaya geri qayıdırdısa onun icma üzvü kimi yenidən icmaya qəbul edilməsi lazım gəlirdi. Bunun üçün o, icma başçısının göstərişi ilə qəbilədəki bir qadının köynəyinin içindən keçməli, bu minvalla sanki yenidən doğulmalı və yalnız bu zaman yeni bir üzv kimi icmada öz yerini tutmalı idi. Bu ritual geri qayıtmış adamın təmizlənməsinə xidmət edirdi. Hətta bu günlərə qədər Azərbaycanın müxtəlif bölgələrində bu ritual el arasında məğzini xeyli dəyişmiş şəkildə müşahidə olunur. Sxem olduğu kimi qalmışdırsa, funksiya tamamilə dəyişmişdir. Əgər bir ailənin uşağı doğulduqca ölürsə, yeni doğulanı doğulduğu an başqa bir qadına verib onun köynəyindən keçirirlər və beləliklə, taleyi aldatmağa "çalışırlar". Ritualın ümumi quruluşu (sxemi) qalsa da, göründüyü kimi ruhu, mahiyyəti dəyişmişdir.

Beyrəyin "qadınların yanına varmaq" istəyi, əslində, elindən ayrı düşən bir adamın elinə qaytarılması rolundakı ritual qaydasına riayət etməsi deməkdir. Bu istək haqqında danışdığımız qədim ritualın artıq cürbəcür dastan süsləmələrilə unutdurulmuş zəif əks-sədasıdır. Qədim sxem və dastandakı süsləmə! Beyrək uzun müddət ayrı düşdüyü elinə-obasına qayıtmaq istəyirsə, bu qayıdışın qadından başlamalı olmasını (sxem!) intuitiv olaraq hiss edir. Banuçiçək söhbəti bu məqamda məsələnin həllini ədəbi-bədii məxrəcə gətirmək məqsədi güdür. Bu, bir süsləmədir. Yaxud! Ritualın sxemini ana variant (invariant), süsləməni isə variant kimi qəbul etmək mümkündür. Digər folklor nümu-nələrindən keçən nə qədər sayda digər variantları da bura əlavə etmək olar.

Bu iki xətt (həm sxemin xətti, həm də süsləmə xətti) bir-birinə qarışır və biri digərinə impulslar verir. Xətlərin biri (süsləmə) üzdən gedir, o biri isə çox dərindədir, onu bərqərar edərsənsə, üzdəki xəttə, ehtimal etmək olar ki, bir sıra dəqiq ştrixlər əlavə etmək mümkün olar. Eyni zamanda demək lazımdır ki, dərindəki sxem bir sıra digər müstəvilərə (məsələn, etnoqrafik) də aparır.

4-cü fəsil
Sintaksisin dərinliklərində mifoloji təsəvvürlər

Cümlə modelləri mifoloji təfəkkürün bariz ifadə vasitələridirsə, variantların yaranması ilkin mərhələdə bu mifoloji təfəkkürün genişlənməsini nəzərdə tutur. Variantların yaranmasının şüurlu mərhələsi isə artıq üslubi qatın təfəkkürdə yer tutmasından xəbər verir. Burada biz modeldən (invariantdan) variantlara gələn yolun xaosdan kosmosa gələn yolu "təqlid" etməsinin şahidi oluruq. Bu isə sintaktik düzəndə (əsas etibarilə, söz sırasında) baş verən dəyişikliklər vasitəsilə həyata keçirilir. (Bu barədə müəllifin "Kitabi-Dədə Qorqudun poetikasına giriş" monoqrafiyasında əhatəli şəkildə bəhs edilir).

Sintaksis bizim özümüzdən xəbərsiz şəkildə mifolojiyə digər dil səviyyələrindən daha açıq məkandır. Çünki məhz burada sinonimiya özünün maksimal həddinə çatır. Cümlə qəliblərinin sinonimiyasından tutmuş mətnlərin sinonimiyasına qədər sonsuza qədər "var-gəl" variantları məhz sintaktik məkanda mövcuddur.

Sintaksisdə söz sırasının "sintaktik xarakiri" adlandıra biləcəyimiz ultraekstremal bir halı ortaya çıxa bilir ki, bunu mifoloji xaotik məqamla eyniləşdirmək mümkündür. Bu hal baş verən zaman cümlənin sintaktik məkanında bir-birinin yanında duran sözlər bir-birini sanki tanımaz hala gəlirlər. Onlar hansısa xaotik bir energiyanın təşviqi ilə bir-birindən uzağa düşə, əlaqələrini sanki (!) kəsə bilirlər. Onların sintaktik əlaqələrini məntiq hesabına bərpa eləmək lazım gəlir. Bu hal vasitəsilə mifoloji xaotik vəziyyətin sanki sintaksis tərəfindən görülən "yuxusu" ilə üzləşirik.

"Sintaktik xarakiri" variantın bariz təzahürü kimidir. Bu, hələ üslub deyil, bu, mifologiyanın "Troya atı" kimi Troya qalası qarşısına (müstəqimlik məkanına) buraxılmasıdır. "Sintaktik xarakiri" və mifoloji təsəvvür məzmun və onun ifadəsi kimidir. Mifoloji qatda "sintaktik xarakiri" əgər ifadədirsə, mifoloji təsəvvür – məzmundur.

Cümlə daxilində söz sırasının dəyişməsi və bu dəyişmələrin müəyyən sintaktik sinonimlik yarada bilmələri mifoloji "desant" üçün əlverişli bir situasiyadır.

Biz istər-istəməz "cümlə – mətn – diskurs" müstəvisinə çıxmış oluruq. Bəzən tədqiqatçılar mətn (mürəkkəb sintaktik bütöv, frazafövqi vahid, period, abzas...) və diskursu birləşdirmiş olurlar ki, bunu düzgün saymaq olmaz.

Mətn (mürəkkəb sintaktik bütöv, frazafövqi vahid, period…) bərabərdir nitq prosesində, yaxud yazıda müxtəlif cümlələrin müxtəlif kriterilər əsasında birliyinə.

Diskurs isə mətn daxilindəki cümlələr birliyindən başqa, bunlarla bir yerdə hər cümlənin özü ilə gətirdiyi potensial informasiyadan ibarətdir. Müstəqimlik qatında mətn özünü göstərə bilər, diskurs isə özünü göstərməyə bilər. Çünki mətnin arxasında (2-ci planında), dərinində semantik bünövrəsi yoxdur. Cümlənin diskursu cümlənin özündən əlavə informasiya yaradır, müstəqimlik qatında belə bir informasiya yoxdur. Bu informasiya variantlarla yaranır və məcazlaşma ilə bir yerdə formalaşır.

Potensial informasiya real olaraq mifoloji məkana yol açır, onu "səsləyir". Beləliklə, diskurs dil müstəvisində mifologiyanın şüuraltı başlanğıcıdır desək, səhv etmərik.

Mətndaxili paralelizmin öz fəlsəfəsi var. Paralelizmin qorunması etalonun, invariantın qorunması kimidir. Bu, 1-ci qata məxsus situasiyadır. Yenə də biz varinatların yaranması məsələsinə qayıtmış oluruq. Paralelizm invariantın qorunmasıdırsa, ondan uzaqlaşma variantların ortaya çıxması deməkdir.

Paralelizmdən uzaqlaşmaq, beləliklə, variantlara yol açmaq və təbii olaraq mifoloji təsəvvürə keçmək düşüncədə baş verən güclü təbəddülat hesabına olur. Ola bilər ki, bu mərhələ insanın dörd əli üzərində yeriməkdən dikəlib iki ayağı ilə yeriməyə başladığı məqama uyğun gəlir. Əllər bu zaman

artıq müəyyən bir işlə (əməklə) məşğul olmaq imkanına malik olur. Eyni zamanda yeriyən insan daha uzağı, daha böyük (uzaq) əhatəni görür. Bu isə o deməkdir ki, bu insan artıq ikinci qata keçidə hazırdır. Onun şüuru sürətlə inkişaf etmək məcburiyyətindədir. Bu zaman isə dil xəstəliyi labüdləşməyə bilmir.

Paralelizmin onurğa sütunu təkrarlardır. Məhz təkrarlar mifoloji düşüncə istiqamətinə yönələn və bizim özümüzü bu istiqamətə yönəldən möhtəşəm amil kimi diqqəti cəlb edir. Təkrar elementin yaranma səbəbi uzaq mifoloji dönəmdən təşəkkül götürür. Bunun çox maraqlı bir interpretasiyası ola bilər.

Primitiv insanın istədiyini edə bilməsi, edə bilməyəndə anındaca unutması o uzaq cəngəlliklər dövründə qaldı. Cəngəllikdən (Təbiətdən) Mədəniyyətə keçid o zaman başladı ki, istədiyini edə bilməyən insan onu anındaca unutmadı. Edə bilmədiyi onun psixolojisini sarsıtdı. Unutmamağı onun üçün yeni bir həyat rejiminə döndü. O, unutmadığını kinə, nifrətə, hirsə, bəlkə də sevgi cücərtilərinə çevirdi və təkrar olaraq unutmadığını (artıq unuda bilmədiyini) yenidən reallaşdırmağa çalışdı. Təkrar, əslində, edə bilmədiyini yenidən etmək cəhdi oldu. Belə təkrarın proyeksiyasına dil müstəvisində də rast gəlirik. Əvvəlki cümləni avtomatik təkrar etmək onun vasitəsilə çatdırmaq istədiyini çatdıra bilməməkdən irəli gəlir.

Mədəniyyətin ilk dönəmində təkrar bu şəkildə həm həyatda, həm də dil qatında aparıcı yer tutmağa başladı. İnsan təcrübəsizliyi təkrarın anası kimi özünü göstərdi. Çünki təcrübəli olsaydı, o, zatən təkrara ehtiyac duymazdı.

Odur ki, biz belə deyə bilərik. Təkrar mifolinqvistikanın ən vacib komponenti kimi, əslində, kindən, nifrətdən, əsəbdən həm də sevgidən, istəkdən yaranır. Təkrar zamanı özünü göstərən dil pintilikləri məhz mifoloji xaotik dönəmin təzahürləri, tör-töküntüləridir.

Cümlə səviyyəsində düşünülmədən edilən və avtomatik təkrar halına uyğun gələn məqam mifoloji dönəmin güclü əks-sədası kimi özünü göstərir. Təkrar edilən əvvəlki cümlənin "hüsnü-camalına" vurulub onu təkrar etmək həvəsi isə çox-çox sonralar, artıq 3-cü üslubi qatda baş verir.

5-ci fəsil
Morfologiyada mifoloji təsəvvürlər

Morfoloji səviyyənin elementləri, xüsusilə, morfonoloji elementlər mifologiyanın sanki boşluğa açılmış ağzıdır (xaos – ?). Onlar daha çox mifoloji məxluqları – kentavrları, təpəgözləri, sfinksləri, simurq quşlarını xatırladır. Yarımçıq "qiyafələr" mifoloji "krujevalar" kimidir.

Burada simmetriya yerinə asimmetriya, variantlar yerinə təmiz təkrar özünü göstərir. Baxmayaraq ki, simmetriya təmiz təkrara, asimmetriya isə varianta uyğun gəlir. Və asimmetriya da, variant da ilkin müstəqimliyin (xaotikliyin) atributları ola bilməz. Uyğunsuzluq göz qabağındadır. Bu uyğunsuzluğu indi çözmək bizə imkansız görünür.

Şəkilçilər səviyyəsində sinonimlər bolluğu mifoloji düşüncə azadlığının "at çapdığı" məkandır. Feil formalarının, şəkillərinin, bəzən hal şəkilçilərinin bir-birini əvəzlədiyi məqamlar mifolinqvistikanın canı olan sinonimlərə münasibətin daha münasib və optimal qurulmasına gətirib çıxarır.

Morfoloji elementlər olan nidalar, təqlidlər, əvəzliklər və başqaları çox asanlıqla fonoloji və fəlsəfi element olan sinqulyar səsi xatırladır, onlara yaxınlaşmış kimidir və çox zaman səsin bəzi xüsusi mürəkkəb formalarında onların izlərini görmək olur. Buna görə də morfoloji çalarlar mifoloji əhvalın öyrənilməsi işində əvəzsiz vasitədir, deyə bilərik.

Morfoloji müstəvidə mifolinqvistika elementləri variantların, sinonimlərin yaranması ilə üzə çıxır və onların bir-birilə münasibəti onlardan və aralarındakı bu münasibətlərdən ibarət xüsusi məkan yaradır. Bu mifolinqvistik məkan "xaosdan kosmosa" matrisasını asanlıqla qəbul edir və

aydınlaşır ki, mifoloji müstəvi heç də əlahiddə deyil, digər dil müstəvilərinə (fonetik, sintaktik) dəstək ola biləcək səviyyədə özünü göstərən dil reallığıdır. Onun sinqulyar səsin tərkibindəki həyatı və cümlənin tərkibində variantların yaranmasına "köməyi" bunu aşkar şəkildə sübut edir.

6-cı fəsil
Məna-məzmun səviyyəsində mifoloji təsəvvürlər

Bəzən mifoloji təsəvvür hər hansı bir deyimin ruhunda, dərinində özünü göstərir. Şellinq deyirdi ki, vaxtilə mifologiyanın xüsusi statusu var idi, o amiranə şəkildə nəyin mümkün olduğunu, nəyin də mümkün olmadığını müəyyən edir və bu barədə göstəriş verirdi. "Kitabi-Dədə Qorqud" dastanında bununla bağlı olan bir çox misaldan biri budur: "Yağı nəyə derlər?" Bu, savaşqabağı gənc Uruzun atası Salur Qazandan almaq istədiyi informasiyadır. Əslində, yağı ilə nəyi etmək olar və nəyi etmək olmaz prinsiplərinə bələd olma açarıdır. Oğuz aləminin mifoloji təsəvvürdən real, həqiqi təsəvvürlərə keçid körpüsüdür.

Uşaqlara bu prinsiplərin aşılanması, onlara "olmaz!" sözünün mənəvi siqlətini anlatmaq üçün bu sözün arxasında dayanan, daha dəqiq desək, gizlənən külli miqdarda mifoloji quramalardan istifadə olunur. Məsələn, müasirləşmiş mifoloji quramalardan biri budur: "Bunu etmək olmaz! Etsən, damdabaca gəlib səni aparacaq".

Uşaq təsəvvüründəki mifik "damdabaca" sözlərin bir-birinin yanında qorxulu şəkildə dayanması ilə, eyni zamanda tələffüz və intonasiyanın vahiməsi ilə yaradılır və ancaq böyüyəndən sonra sən bu sözləri bir-birindən aralayıb görürsən ki, bu qorxulu sözlərin arxasında həqiqətən qorxulu heç nə yoxdur. "Damdabaca"nın az qala div qədər qorxulu bir "məxluq" olduğuna bu sətirlərin müəllifi uşaqlıqda çox inanmışdı. Zaman keçmiş və ona

aydın olmuşdu ki, haman vahiməli "damdabaca", sadəcə, evin damındakı tüstü buraxan baca imiş.

Bu gün müasir dilimizin "künc-bucağında" gizlənmiş elə ifadələr var ki, biz onların mifoloji qiyafələrinə və yaxud dərinliklərinə enmirik, onları avtomatik rejimdə qəbul edirik. Məsələn, belə ifadələrdən biri "de görüm, nə deyirsən?" ifadəsidir. Bu ifadə öz dərindəki həqiqi, müstəqim mənasını (sözü görmək cəhdini) artıq itirmişdir və onun bərpası bizi "klassik" mifolinqvistik labirintə salır. Bu ifadə deyiləni görmək cəhdini ("de görüm – ?") əsrlər boyu mükalimə iştirakçılarından gizlətmişdir.

Bu gün "de görüm" öz mənasını – sözün personifikasiya olunmasını mifolinqvistik bərpa vasitəsilə üzə çıxara bilir. Belə spesifik bərpalar dilimizdə yaşamaqda olan bir sıra buna bənzər vahidləri mifolinqvistikanın obyektinə çevirir.

7-ci fəsil
Maddi cisim bildirən adların personə edilməsi
(Adlar mifolinqvistikanın obyekti kimi)

1. "Ürək-qəlb-könül" sinonimik cərgəsindəki "ürək" sözünə diqqət edək. "Ürək getdi (gəldi)" demək olar. Amma "qəlb getdi", "könül getdi" – olmaz. Ürək – maddidir, könül, qəlb – mənəvi. Bunları bir-birindən ayırmaq və hər birini özünəuyğun şəkildə işlətmək vacibdir, çünki maddi aləmin göstəriciləri həm də mifoloji qatın elementləri kimi özünü göstərir. Ona görə də "ürək" elementi ilə bağlı bütün mövcud birləşmələr mifoloji qatın nümunələridir. Ona görə də "ürəyim getdi", "ürəyim yerinə gəldi", "ürək uçdu", "ürək qısıldı", "ürək dağıldı", "ürək ağrıdı", "ürək sevindi", "ürək qan ağladı", "ürək yerindən oynadı" və digər "ürək" komponentli birləşmələr mifoloji əhvalın təzahürləridir.

"Qəlb" və "könül" elementləri isə öz-özlüyündə mifoloji məkana açıq qoyulmuş qapılardır. "Qəlbimi ələ aldı", "Könül verdim" (eləcə: ürək verdim), "bir könüldən min könülə aşiq olmaq" (müq. ed.: "bir ürəkdən min ürəyə aşiq olmaq" – olmaz!) kimi ifadələri nəzərdə tuturuq.

Ürəyin maddi olmasına misal kimi onu qeyd etmək olar ki, bütün tibbi müayinə və əməliyyatlardan keçən ad yalnız "ürək" sözüdür. Qəlbimə, yaxud könlümə "stend" qoydular demək olmaz, o yalnız ürəyə qoyula bilər. "Ürək" sözü ilkin olaraq 1-ci qatda müstəqimlik məkanındadır.

Başqa bir maraq doğuran ifadə "biri vardı, biri yoxdu" ifadəsidir. "Biri vardı, biri yoxdu" ifadəsi ən böyük universallıq kimi, ən qədim binar oppozisiya kimi son dərəcə maraqlı semantik tutuma malikdir. Bu ifadənin hər tərəfi bir universal xurcundur, içlərinə nə istərsən doldurmaq mümkündür. Dünyanın ən qədim, primitiv zamanı üçün bundan yaxşı təsvir tapmaq bəlkə də qeyri-mümkündür. Yer üzündə "biri vardı" dövrü sinqulyar nöqtəni xatırladır. Fiziklərə görə kainat bu nöqtənin partlayışından yaranıb və o "var olan biri" bugünkü müxtəlifllikləri özündən, öz içindən doğub. Amma... elə bu xurcunun o biri gözündə "biri yoxdu" mənfi universallığı gizlənib. Yəni, o "birinin"də olmadığı məqama diqqət yönəldilir. "Biri vardı" deyən və nağılına bununla başlamaq istəyən nə fikirləşirsə, "o biri də yox idi" deyib fikrini dəyişir, çox dərin, daha ilkin maksimal yoxluq qatına çəkilir: "biri yox idi". Biri – yəni, "nə isə" bilinməz nəsnə! Heç nə! Hadisələrin üfüqü! Qara dəlik! İfadəni transformasiyaya uğratsaq "heç nə var idi, heç nə yox idi" sxeminə uyğun gələcək. "Heç nə"nin varla yoxluğu ikisi bir yerdə yenə də sıfıra gətirir. Buradan isə mifoloji qatın özü belə üfüq kimi görünür.

8-ci fəsil
Hilezoistik ifadələr və onların qat mənsubiyyəti

Hilezoistik ifadələr məlumdur ki, Təbiətlə birgə (təbiətin içində) yaşanan dövrün yadigarlarıdır. İnsanın qədim, primitiv dövrdə özünü Təbiətin bir parçası saymaq kimi çox adi, təbii bir dünyagörüşü vardı. Dilimizin bəzi söz və ifadələrinə bu gün də diqqət etsək və biz o ifadələrin ilkin məqamlarına getsək, bu halın əks-sədasını eşidə bilərik. Bu misallara diqqət edək: Onlar daha çox şairlərin yaradıcılığında özünü göstərir.

– Dənizə (qayaya, dağa, daşa, oda, alova, havaya…) və daha nəyə dönmək;

– Su kimi axmaq;

– İldırım kimi çaxmaq;

– Aslan kimi qorxmaz, mübariz olmaq;

– Dəvə kimi dözümlü olmaq;

– Çinar kimi əzəmətli olmaq;

– Şahin kimi sərrast olmaq;

– Qartal kimi vüqarlı olmaq;

– Dağ kimi uca olmaq və s. və i.a.

"Dəniz (dağ, külək, fırtına…) olaram…" kimi ifadələr ədəbiyyat baxımından məcazdır, məntiq baxımından – uydurmadır, qədim mifoloji təsəvvürə görə, həqiqətən, dənizə qovuşmaqdır, dənizə çevrilməkdir, dəniz olmaqdır, dənizdə yox olmaqdır…

Müqayisə edin: "Kitabi-Dədə Qorqud"da ölüm ayağında olan Burla xatuna təskinlik verərək "bir mənim kimi oğul bulunmazmı olur?!" deyən Uruz, əslində, bir başqasının deyil, məhz özünün yenidən doğulacağına inanır.

Beləliklə, qədimdən üzü bu yana olan ardıcıllıq belə qurulur:

1. Mifoloji təsəvvür,
2. Məntiqi baxış,
3. Ədəbi dərketmə.

Bu gün biz bu ifadələri məcaz kimi qəbul edirik. Və bu məcazın dərinliyində Şellinq deyən kimi müxtəlif mənalar işıq kimi sayrışır.

Şellinqin müxtəlif mənaları məhz bizim əks-sədasını eşitdiyimiz mifoloji çırpıntılardır.

Nəhayət, ilkin sonuc kimi mifolinqvistikanın amacını müəyyənləşdirməmiz qaldı. Bunu belə sxemləşdirə bilərik. Mifoloji səsdən mifoloji şəkilçiyə, mifoloji şəkilçidən mifoloji sözə, mifoloji sözdən mifoloji cümləyə və mifoloji cümlədən mifoloji mətnə! Yuvarlaqlaşdırsaq, *mifoloji səsdən mifoloji mətnə!* Aydındır ki, bu müxtəlif vahidlərin hamısını özünəaid diskurs müşayiət edəcək. Bütün dilçilik çabaları, bütün dil fəaliyyəti bunların arasında! Amma deməmək mümkün deyil ki, sinqulyar səs də, "sonsuz lüğət" də, "sonsuz mətn" də mifoloji aspektdən diqqətlə baxdıqda adamın gözünə eyni cür görükür – eyni biçimdə, eyni gücdə və eyni missiyada! Kainatın yaranması, bizi əhatə edən bütün bu rəngarəngliklər kiçik bir sinqulyar nöqtənin partlayışı nəticəsində baş veribdirsə, o zaman "sonsuz mətn" də sinqulyar səsin partlayışından yaranıbdır deməyə tam şəkildə əsasımız vardır.

Deməli, bütün dediklərimizin əsasında belə bir sxem durur deyə bilərik: "biri var idi, biri yox idi". Varla yoxun arasında olmaq mifologiyadan əvvəli və mifologiyadan sonranı sərhəd kimi götürmək deməkdir. Bu sərhədin ortasında isə yenə də mifologiya qalır. Onun təzahürü dilimizdir. Dilimiz olmasa mifologiya olmaz, mifologiya olmasa dilimiz ayaq üstdə dura bilməz. Bu ikisi bir yerdə, bir-birinin içində! Başqa cür təsəvvür etmək mümkün deyil. Bir kağızın iki üzü kimi. Bir varlığın canı və ruhu kimi.

Amma hansı candır və hansı ruhdur – bunu müəyyənləşdirmək yəqin ki, bizə nəsib olmayacaq. Amma buna cəhd edənlər olacaq və onlara salam olsun.

Mifolinqvistikanın gələcəyə doğru geniş yolu belə bir cəhdin ortaya çıxması cığırı üzərində qurulur.

SON

"Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq

(Rafiq Əliyevlə birlikdə)

"Kitabi-Dədə Qorqud"da qeyri-səlis məntiq elementləri (giriş əvəzi)

"Kitabi-Dədə Qorqud" adlı qəhrəmanlıq dastanı qədim əcdadımızın mağara (qədim tarixəqədərki) dövründən[1] on beşinci əsrə, abidə yazıya alınana qədər addım-addım, söz-söz, cümlə-cümlə, hadisə-hadisə, məqam-məqam yaratdığı bir bədii mətndir. Dastan faktiki olaraq ensiklopedik mahiyyətə malikdir, onun aşkar və gizli qatlarında xalqımızın adət-ənənəsi, mədəniyyəti, dili və bunların hətta inkişafı (dəyişmələri) özünü göstərməkdədir. Eyni zamanda qədim insanın (əcdadımızın) dünyagörüşü, ətrafa münasibəti, özünə və öz cəmiyyətinə baxışı da bu dastanın dil və məzmun quruluşunda əks olunubdur. Dastan yaradıcılarının düşüncə tərzi, bu düşüncə tərzinin qədim əcdadımız qarşısında açdığı sinergetik imkanlar bu gün məntiq və informasiya nəzəriyyəçiləri üçün də maraqlı və perspektiv tədqiqat obyektidir. Və təsadüfi deyil ki, keçən əsrin 60-cı illərinin ortasından irəli sürülən və ilbəil özünə daha artıq tərəfdar yığan qeyri-səlis məntiq özünün yaradıcısı L.Zadənin arzusuna əsasən indi artıq sosial elmlərə tərəf yönəlir və ilk olaraq "Kitabi-Dədə Qorqud" mətninə üz tutur.

[1] *Tarixin iki dövrə – tarixəqədərki və tarixi dövrlərə bölünməsindən K.Yaspers yazıb. Baxın: Карл Ясперс: Смысл и значение истории. Политиздат, 527 с. (1991).*

L.Zadə kim idi və o elm aləminə nə kimi bir yenilik gətirmişdi?!

Qərbin məşhur alimləri elmi ədəbiyyatda böyük alimləri şərti olaraq iki kateqoriyaya bölürlər.[2] Romantik alimlər və klassik alimlər. Birincilər ideyalar generatoru olmaqla həyatları boyu bir sıra orijinal nəzəriyyələr təklif edirlər. Beləliklə, elm binasının, belə deyək, əsasını qoyurlar. Sonra bütün dünyanın minlərlə alimi bu binanı tikib qurtarır.

İkincilər bu binanın memarlarıdır və onların səyi ilə bu elm binası çox möhkəm və əsaslı tikilir. Tərəddüdsüz deyə bilərik ki, beş fundamental nəzəriyyəyə imza atmış L.Zadə romantik alimlər qrupuna mənsub bir şəxsdir. Onu bir dahi kimi səciyyələndirən bir neçə xüsusiyyəti ayrıca qeyd etmək istərdik.

Müstəqillik. Bunu biz onun qeyri-standartlığında, qeyri-şablon təfəkküründə, başqasının nüfuzu qarşısında çəkinmək hissindən məhrum olmasında, zehinlərdə təşəkkül tapmış köhnə təsəvvürlərə uymamaq bacarığında görürük.

Çeviklik. Mövcud qaydalara və şablonlara əməl etməməkdə sərbəstliyi, eyni zamanda keçmiş təcrübəni qəbul edərək lazımi nəticə çıxarma bacarığı onun çevik elmi təfəkküründən xəbər verir.

Yüksək tolerantlıq. Bu onun ən yaxşı xüsusiyyətlərindən biridir. L.Zadə mürəkkəb, qeyri-müəyyən, çətin həll olunan məsələlərə və hallara tolerantlıq münasibəti nümayiş etdirir. Nəzərə çarpan xaosda gizli qanunauyğunluqlar görmək bacarığı onda çox güclüdür. Bununla yanaşı, L.Zadədə orijinallığa və yeniliyə, tələbat güclüdür. Yüksək inkişaf etmiş estetik duyum, gözəlliyə və ahəngdarlığa həssaslıq onun mənəviyyatını səciyyələndirən keyfiyyətlərdəndir. Təsadüfi deyildir ki, mayasında tolerantlıq saxlayan qeyri-səlis məntiq məhz bu dahinin zəkasının məhsuludur.

Qeyd edək ki, L.Zadədən əvvəl zehinlərdə hökm sürən səlis məntiq prinsiplərinə qarşı tamamilə sükuti bir durum da müşahidə olunmur. Zaman-zaman, amma sistemsiz və nəzəriyyə səviyyəsinə qalxmayan "etiraz-

[2] *Baxın: Rafiq Əliyev. Lütfi Zadə bütün zamanların dahisidir, https: //sputnik.az/20210205/Rafiq-Eliyev-Lutfi-Zade-dahi-426141744.html. Rəfail Tağızadə: Su kimi sakit və güclü. "Nurlar" Nəşriyyat-Poliqrafiya mərkəzi, s. 472 (2019).*

lar" məntiq sərhədlərinə ya fəlsəfədən, ya fizikadan, ya da çoxluqlar nəzəriyyəsindən sızıb keçirdi. Amma bu, yetərli deyildi. Obyektiv aləm özünün adekvat təsvirini verən bir nəzəriyyə ehtiyacında idi. Bu nəzəriyyəni də L.Zadə ortaya qoydu.[3]

Qeyri-səlis düşüncə tərzi öz müxtəlif təzahürləri ilə qeyri-səlis məntiq adlı elmi istiqamətdə birləşmiş və əslində, ona qədər şüurumuzu idarə edən Aristotelin formal məntiqinə qarşıdurma kimi yaranmışdır. Bu məntiq kateqoriallıqdan uzaq, insana, onun dünyanı dərk və qəbul etmə prinsiplərinə daha yaxın olan bir düşüncə tərzidir. Onu kəşf edənlər "boş yerdən" kəşf etməmişlər. İnsanlar qeyri-səlis düşüncə tərzinə təfəkkürləri formalaşandan bəri, belə deyək, həssas idilər. Onlar hiss edirdilər ki, səlis (formal) məntiqin Prokrust çarpayısı əcdadımızın təfəkküründəki yaxşı-pis, isti-soyuq, ağıllı-dəli, təcrübəli-naşı, ağ-qara (və bu kimi sonsuz binar cərgələri misal gətirmək olar) qütbləri arasında mövcud olan incəlikləri görməyə imkan vermir. Belə ki, Aristotel özünün həyat təcrübəsindən çıxış edərək etiraz qəbul etməyən mütləq şəkildə belə deyirdi: bu insan ya ölüdür, ya da diridir. Üçüncü hal istisna edilirdi. Seçim etiraz qəbul etməyən yalnız bu iki qütbdən birinin tərcihindən ibarət idi. İnsan ya ölü ola bilərdi, ya da diri. Başqa seçim variantı yox idi. "Ölü" və "diri" qütbləri arasında, həqiqətən, ölü bir boşluq sonsuza qədər baş alıb gedirdi. Obyektiv dünyanın rəngarəngliyi Aristoteli və onun ardıcıllarını maraqlandırmırdı. Yalnız Platon bu boşluqda üçüncü bir mövqenin də mövcud olduğunu göstərməyə təşəbbüs etdi. Amma onun ideyası heç kim üçün cəlbedici olmadı. Bizə yaxın bir zamanda 1920-ci illərdə polyak alimi Yan Lukasiyeviç bu əks qütblərin arasında üçqiymətli məntiq təklifini irəli sürdü. Daha sonra macar əsilli amerikalı alim Fon Neymanın ikiqütblü məntiq zəncirinə gətirdiyi "bəlkə" əlavəsi də ortaya atıldı.[4] Bütün bunlar, yəni Aristoteldən sonrakı

[3] *Baxın: Zadeh, L.A: Fuzzy Sets. Information Control, 8, 338-353 (1965).*

[4] *Plato's Middle Period Metaphysics and Epistemology (2003). https: //plato.stanford.edu/entries/plato-metaphysics/. Lukasiewicz, J.: Aristotle's Syllogistic, Clarendon Press, Oxford (1951); Neumann, J.: Quantum logics (strict-and probability logics). Unfinished manuscript, Libarary of Congress, Washington, 195-197.*

əlavələr diqqətdən yayınmasa da, ciddi və ardıcıl şəkildə öz davamını tapmadı, deyə bilərik. Yenə də qütblər arasında böyük bir boşluq hiss edilməkdə idi.

Nəhayət, 1965-ci ildə Azərbaycan-amerikan alimi L.Zadə kəsilməz (qırılmaz) qiymətli məntiq nəzəriyyəsini işləyib irəli sürdü.[5] L.Zadə *"doğru"* ilə *"yalan"* qütbləri (iki əks qütb) arasında sonsuz sayda çalarlar (variantlar) olduğu ideyasını təklif etdi. Bu çalarlar (variantlar) *qismən doğru*, *qismən yalan* və onların sonsuz modifikasiyaları idi. Təxminən, bu şəkildə Zenonun məşhur paradoksunda olan kimi Qaçağan Axilles tısbağanı əgər o, bir metr irəlidədirsə, heç cür ötüb keçə bilmir. Beləcə, iki qütb arasındakı çalarlar da heç cür bitib tükənmir. Onlar sonsuz modifikasiyalarla görünən və görünməyən şəkildə qalırlar. Boşluqlar kvanta qədər doldurula bilər. Qeyri-səlis məntiqin kvant mexanikası ilə birbaşa əlaqəsi bunu deməyə əsas verir ki, Kopenhagen məktəbinin atomun bölünməsi ilə bağlı ideyalarına yiyələnən qeyri-səlis məntiq Aristotel məntiqini bu rakursdan da müəyyən mənada inkar edir.

Bir qədər yuxarıda qeyd edildi ki, Aristotel və onun sələfləri formal məntiq nəzəriyyəsini yaradarkən, "üçüncünün istisnası" qanununa söykəndilər. Yəni hər hansı müddəa ya doğrudur, ya yalan (çəmən ya *yaşıldır*, ya da *yaşıl* deyil). Bu mənada ***"ya ... ya ..."*** sxemi Aristotel məntiqinin əsas tikinti materialıdır desək, səhv etmərik. Aristotelin gördüyü o çəmən yəqin ki, ilin başqa bir fəslində tam yaşıl olmaya bilər. Az yaşıl, daha az yaşıl, yaşımtıl (dil necə də gücsüzdür) ola bilər. Hətta payızın axırlarında biz o çəməndə sonuncu bircə yaşıl ot parçasını da görə bilərik. Beləliklə "ya ... ya ..." sxeminin bizim imkanlarımızı necə zorladığının şahidiyik.

L.Zadə tərəfindən irəli sürülən qeyri-səlis məntiq ən sadə çəkildə desək, ***"ya ... ya ..."*** sxemindən ***"nə ... nə ..."*** sxeminə keçiddir. Və bununla sübut edilir ki, obyektiv aləmdəki rəngarənglik məhz "nə ... nə ..." sxemi vasitəsilə daha adekvat şəkildə təbii dil tərəfindən öz təsvirini tapır. Belə ki, ***"nə ... nə ..."*** sxemi düşüncəmizin "ritminə" daha uyğundur və insana daha

[5] *Baxın: Zadeh, L.A: Fuzzy Sets. Information Control, 8, 338-353 (1965).*

geniş seçim imkanı verir. Seçimdə Aristotel məntiqində olan kimi yalnız iki qütb yox, həm bu iki qütb, həm də bu qütblər arasındakı bir çox (sonsuz sayda) variantlar iştirak edir. Buna kvantların dünyası da deyə bilərik. Belə düşüncə tərzindən istifadə edən qədim insan həyatdakı rəngarəngliyin təsvirinə daha böyük həvəslə can atır. O, dilin inkişafını öz daxili psixoneyroloji potensialının energiyası hesabına mümkün qədər (bəzən də süni şəkildə) sürətləndirir. Amma biz bilirik ki, bunu adekvat şəkildə həyata keçirmək sadəcə, mümkün deyil. Dil heç zaman reallıqda obyektiv aləmi olduğu kimi təsvir edə bilməyəcək. Onun buna gücü çatmayacaq. Dil bundan özünü "xəstəliyə vurmaqla"[6] imtina edəcək. İnsan öz dilinə bu məqamla bağlı heç zaman qalib gələ bilməyəcək. Digər tərəfdən, obyektiv aləmin özü də insana özünün adekvat dərki üçün bütün mümkün çalarları (kvantları) göstərməyəcək. Bu, insanın imkanlarından çox-çox xaricdə olan bir məsələdir. Nitsşenin fövqəlbəşəri belə buna nail ola bilməzdi.

Amma bütün bu məhdudiyyətlərə baxmayaraq insanın öz düşüncəsində müəyyən ana qədər qane olduğu bir Prokrust çarpayısından güc sərf edib qalxması, yeni, ikidən artıq çalarlar və məzmunlar görmə təşəbbüsü öz-özlüyündə təqdirəlayiqdir və bunu onun determinal inkişafının bir təzahürü kimi qəbul etmək lazım gəlir. Artıq bu insan iməkləməkdən ayağa durmağa qədər inkişaf etmişdir. Bu insanın gözü önündə yeni üfüqlər açılır. O daha uzağa baxa bilir və ən vacibi bu uzağı görə bilir. Dil bu primitiv məqamda onun ibtidai çağırışlarına cavab verməyə hazırdır. Sürətlə yeni sözlər yaranır. Özünü xəstəliyə vurmaq – hələ ki Dilin ağlına belə gəlmir. Bu, bir qədər sonra – inkişaf uzununa deyil, dərinə yönəlincə baş verəcək. Sözlər təsvir imkansızlığı ucundan çoxmənalılıq kəsb etdikcə metaforik düşüncə üçün yol açılacaq, xətti-informativ düşüncə və izhar tərzi yerini yavaş-yavaş bədii düşüncə və izhar tərzinə verməyə başlayacaqdır. İnvariantlar dili variantlar dilinə çevriləcəkdir. Əlbəttə ki, invariantların "gəlişi" variantların "gəlişi"ndən daha öncə baş vermişdir. İkiqütblü məntiq zənciri

[6] *"Dil xəstəliyi" rus alimi Potebnyanın dəstəklədiyi anlayışdır. Bax: Потебня, А.А.: Эстетика и поетика. Искусство, с. 435, 443, 445 (1976); Müq.ed.: Кассирер Э. Философия символических форм. Мифологическое мышление, т.2. М-СПб, 2002, с. 19.*

(invariant model) yaradan qütblər hansısa partlayış vasitəsilə bir-birindən aralanmalı idilər ki, onlar öz bətnlərindəki kvanta qədər olan bütün çalarlar ilə (variantlar ilə) bir yerdə bərq vursun.

Bir qədər yuxarıda işarə etmişdik ki, Aristotelin formal məntiqi qədim insana ikidən artıq seçim imkanı vermir və beləliklə, onun obyektiv aləmdə mövcud olan rəngarəngliyi tam şəkildə görməsinə mane olur. Şüurunun dərin qatında insan bu şəkildə "ya... ya" sxemi ilə qurulan iki qütblü Prokrust çarpayısına uzadılır. Belədə isə dildəki potensial (amma nisbi) rəngarənglikdən söhbət gedə bilməz. Çünki belə formal məntiqə görə iki rəng var: *ağ* və *qara.*

Düşüncə tərzi bu binarlığı *doğru* və *yalan* qütblərində məskunlaşdırır. Şüur bu binar qarşıdurmaya alışmaq məcburiyyətindədir. Bu cür alışqanlıq insanlığa baha başa gəlmişdir – deyə bilərik. Tarix boyunca sürmüş bir çox ədalətsizliyin, hər türlü mütləqiyyətin, özünə rəva bilmədiyini başqasına rəva bilmələrin, daha dəqiq desək, müharibələrin, alternativlərdən yayınmaların canında məhz bu ikiqütblü ideoloji baza durur. Bütün bunlar da öz növbəsində insanlığın ən ali missiyası olan demokratikliyin öz təbii gəlişi ilə gələ bilməməsini şərtləndirir. Bir halda demokratiklik özünü göstərirsə başqa halda göstərə bilmir və s. və i.a. Sistemli şəkildə gəlməməsi demokratikliyi element-element bu və ya başqa mənbələrdən zərrəbinlə əldə etməyə gətirib çıxarır. Onu ya hansısa qanunun bir guşəsində, ya hansısa hökmdarın hərəkətində, ya şairlərin fantaziyalarında axtarmış oluruq. Ya da elə bu kitabda olan kimi biz demokratikliyi qədim, mifoloji tarixə qədər kök salmış bir dastanın (Kitabi-Dədə Qorqudun) dilində axtarırıq və bu dastan bizə mütləqiyyət düşüncə və həyat tərzindən demokratik tərzə keçidin zəngin elementlərini səxavətlə verir.

Və nəhayət, yuxarıda dediyimiz kimi 1965-ci ildə "rəngsizliklə barışmazlıq" şüarı Aristotel məntiqini qəbul edə bilməyənlərə sanki tilsimdən çıxış yolunu göstərdi. Prokrust çarpayısından qalxma gücünü verdi. Rəngsiz televizorlar vaxt gəldiyi zaman rənglilik rejiminə keçdikləri kimi qeyri-səlis məntiq nəzəriyyəçiləri də iki əks qütb arasında sonsuz rəng çalarlarını

seçib görməyə başladılar. L.Zadənin haman tarixdən etibarən bu mövzuda yayımlanan əsərləri[7] inqilabi bir çevriliş etdi – deyə bilərik.

Və beləliklə, bu inqilabi çevrilişdən sonra Əlahəzrət Qeyri-Səlis Məntiq nəzəriyyəsi həyatımızın hər sahəsinə nüfuz etməyə başlayır. Amerikan-Azərbaycan alimi Lütfizadə bu sıçrayışın müəllifi olur. Qeyri-səlis məntiqin bir elm sahəsi kimi meydana çıxmasında və formalaşmasında bu görkəmli alimin rolu əvəzedilməzdir.

Burada dahi Albert Eynşteynin bir fikri yada düşür. O, "Həndəsə və təcrübə" adlı kitabında yazır ki, "riyaziyyatın qanunları nə qədər həqiqi dünyaya yaxınlaşırsa, onlar bir o qədər qeyri-müəyyən olur və əksinə, onlar nə qədər müəyyən olurlarsa, bir o qədər həqiqi dünyanı əks etdirmirlər".[8] Amerikalı alim Bart Koskonun da fikrinə görə, riyazi dünya onun təsvir etdiyi həqiqi dünyaya uyğun deyildir. Bu iki dünya bir-birindən fərqlənir. Biri süni, o birisi isə əsl dünyadır.[9] Bu baxımdan deyə bilərik ki, qeyri-səlis məntiqin əsas gücü onun daha adekvat olmasındadır.

Min illərlə qərarlaşmış elmi dünyagörüşün əksinə olaraq L.Zadə özünün qeyri-səlis məntiq nəzəriyyəsini əvvəlcə bir fərziyyə olaraq irəli sürdü. Bundan sonra o, sübut etdi ki, təbiət və cəmiyyətdə baş verən mürəkkəb prosesləri, xüsusilə də, müxtəlif kataklizmləri Aristotelin binar məntiqinə əsaslanan klassik riyaziyyat çərçivəsində öyrənmək mümkün deyil.

L.Zadə özünün bu orijinal, amma əvvəlcə "ortodoks"lar tərəfindən qəbul edilməyən ideyalarını inkişaf etdirərək göstərdi ki, bu və ya digər mülahizənin doğruluq qiyməti iki məntiqi səviyyə – 1 (doğru) və 0 (yanlış) ilə deyil, bu səviyyələr arasında sonsuz qiymətlər çoxluğu ilə (kvantlarla) təyin edilə bilər. Beləliklə, binar – ikili məntiq və çoxluqlar nəzəriyyəsinə əsaslanan riyaziyyat qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi (L.Zadə nəzəriyyəsi) sayəsində genişlənərək yeni məzmun kəsb edir. Bu

[7] *Baxın: Zadeh, L.A: Fuzzy Sets. Information Control, 8, 338-353 (1965); The concept of a linguistic variable and its application to approximate reasoning. Information Sciences, 8 (3), 199-249 (1975); Zadeh, L.A., Aliev, R.A.: Fuzzy logic Theory and Applications. Part I and Part II. Singapore: World Scientific, 610 p. (2019).*

[8] *Baxın: Einstein, A.: Geometry and Experience. Prussian Academy of Sciences (1921).*

[9] *Baxın: Kosko, B., Fuzzy thinking. The new science of fuzzy logic. New York (1993).*

məzmun bizim tədqiq etdiyimiz dastanın quruluşunda da özünü göstərir. Ona görə quruluşunda deyirik ki, o, təkcə dil qatında deyil, hətta məzmun qatında da vardır.

"Kitabi-dədə Qorqud" dastanında "doğru" ilə "yanlış" arasındakı bu sonsuz qiymətlər, maraqlıdır ki, qəhrəmanların qiymətləndirilməsi səviyyəsində (məzmun səviyyəsində) də özünü göstərir. Dastanda iki məzmuna malik qəhrəmanlar var. Onlardan biri-bir qismi qədim dastan yaradıcılığına xas olan "robotvari" qəhrəmanlardır və qeyd eləmək lazımdır ki, onlar çoxluq təşkil edir. Bu qisim qəhrəmanlar "ya ... ya ..." prinsipi ilə formalaşmış qəhrəmanlardır. Onlar ya simpatik, ya da anti-simpatikdirlər. Məsələn, Basat və Təpəgöz kimi. Onların birini müsbət qiymətli düşərgəyə, o birini mənfi qiymətli düşərgəyə daxil eləmək mümkündür. Salur Qazan, Qanturalı, Burla xatun, Uruz, Bəkil, Yeynək, Buğac bu anlamda müsbət səciyyəli qəhrəmanlar kimi qiymətləndirilə bilər. Onlar bir psixoloyi yük daşıyırlar. Birmənalı və birfunksionaldırlar.

O biri düşərgədə Təpəgöz, Yalançı oğlu Yalınçıq, At ağızlı Aruz qoca, kafir bəyləri yerləşir. Onların da bir səciyyələri var – mənfi məzmun yaratmaq. Onlar da birmənalı və birfunksionaldırlar.

Səciyyəvi olan odur ki, hər iki düşərgədə olan qəhrəmanlar birmənalı və birfunksional olmaq anlamında birləşirlər. Onların psixoloji yükləri bəsitdir, onların səciyyəsi bir neçə semantik yükü qəbul etmir. Onlar ya yaxşıdırlar, ya da pis. Ya doğrudurlar, ya da yanlış. Hər iki düçərgədəki qəhrəmanlar bu baxımdan Aristotel məntiqinə uyğun olaraq bir qütbə yerləşdirilə bilər. Bu qəhrəmanlar robot kimidirlər. Basat yekrəng bir qəhrəmandır, onda psixoloyi mürəkkəblik yoxdur. Buğac, Qanturalı da eynən elədir.

Digər tərəfdən biz Mətnin qəhrəmanları içərisində elələrinə də rast gəlirik ki, onlar bifunksional məzmunda çıxış edirlər. Onu da qeyd etmək vacibdir ki, dastanda özünü göstərən bu çoxfunksionallıq yeni-yeni yaranmaqdadır. Məsələn, Beyrək belə qəhrəmandır. Hardasa Təpəgözün özünü də bu qütbə aid etmək olar. Salur Qazanda belə bu keyfiyyəti görmək mümkündür.

Bu qəhrəmanları qədim dastan üçün yeni tipli qəhrəmanlar kimi səciyyələndirmək olar.[10] Onlar bir psixoloji yük deyil, bir neçə psixoloji yük daşıyırlar. Onlarda müxtəlif psixoloji yükləmələr özünü göstərir. Onlar eyni zamanda həm yaxşıdırlar, həm də pisdirlər. Həm sədaqətlidirlər, həm də hiyləgərdirlər. Onlar sanki robot olmaqdan qurtulmaq arzusuyla formalaşırlar. Beyrək həm Salur Qazana sədaqətini qoruyub saxlayır, hətta bunun uğrunda ölümə belə gedir, həm də kafir qızına verdiyi sözə əməl etmir, geri dönüb onu halallığa almır. Təpəgöz məlum qəziyyədir, amma o da törətdiyi vəhşiliklərdən bezib intihar arzusuna düşə bilir. Onda əsl psixoloji ikiləşmə özünü göstərir. Salur Qazan həm Oğuzun qoruyucusudur, həm də onun yersiz hərəkətləri bir sıra qarşıdurmalara gətirir. Məsələn, Dış Oğuzun İç Oğuza asi olmasının əsl səbəbi Qazanın evini yağmaladarkən Dış Oğuz bəylərini saya almaması və yağmaya dəvət etməməsi oldu. Bəkilin Oğuzdan küsüb getməsinin də əsl səbəbkarı Qazan idi. Oğuz bəylərinin yanında Bəkilin keyikin qulağı ilə ayağını oxlayıb bir-birinə yapışdırmaq hünərini Qazan atın hünəridir, deyə qiymətləndirmişdi.

Bu şəkildə Dastan mətnində psixoloji mürəkkəbliklər daşıyan yeni tipli qəhrəmanlar yaranır. Bu qəhrəmanlar öz təbiətlərinə görə robot-qəhrəmanlardan fərqlənməyə başlayırlar. Onlar ontoloji aləmdəki rəngarəngliyə daha adekvat reaksiya verir və öz timsallarında bunu daha adekvat təmsil etməyə çalışırlar. Psixoloji yüklənmələr "doğru" və "yanlış"ın arasında yer alan şeşidli psixoloji çalarlardır. Bu çalarlara malik olmaq isə, zənnimizcə, məhz qeyri-səlislik rejimində hərəkət etmək deməkdir.

Zaman keçdikcə qeyri-səlis çoxluqlar nəzəriyyəsi praktik olaraq bütün təbiət elmlərinə, o cümlədən, tibbə, ictimai elmlərə, sosiologiyaya, konfliktologiyaya "implantasiya" olundu.[11]

---

[10] Baxın: Kamal Abdulla. "Kitabi-Dədə Qorqud"da semantik sayrışmalar. Mifolinqvistika. Bakı, s. 164 (2022).

[11] Baxın: Zadeh, L.A., Aliev, R.A.: Fuzzy logic Theory and Applications. Part I and Part II. Singapore: World Scientific, 610 p. (2019); Aliev, R.A.: Uncertain computation-based decision theory. Singapore: World Scientific, 521 p. (2017); Aliev, R.A., Fazlollahi, B., Aliev, R.R.: Esnek hesaplama: İşletme ve Ekonomide uygulamaları. Sakarya Universitesi yayınları (2017).

Praktik elmi tədqiqatlarda qeyri-müəyyənliyin qeyri-səlis ölçüsünün daxil edilməsi təbiətdə, cəmiyyətdə, mikro və makro aləmdə baş verən proseslərə adekvat olan qeyri-müəyyənliyin nəzərə alınmasını mümkün etdi. Elm ontoloji səviyyəyə bir addım da yaxınlaşdı. Məhz buna görə də qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi nəinki dialektik təsdiqini tapmışdır, hətta yeni elmi istiqamətin yaranmasına, həmçinin daha geniş mənada idrak nəzəriyyəsinin növbəti pilləsi olan yeni fəlsəfi dünyagörüşünün əmələ gəlməsi və başa düşülməsinə səbəb olmuşdur.

Qeyri-səlis məntiq ilk əvvəllər, əsasən, texnikada, sənayedə öz tətbiqini tapdı. Xüsusən, Yaponiyada, Çində, Koreyada, İngiltərədə və başqa ölkələrdə bu məntiqi ilk növbədə sənaye istiqamətinə yönəltdilər. Onun köməyilə ciddi maliyyə qazancları əldə etdilər. İlk bu tipli tətbiq müəlliflərin yaxın dostu və həmkarı ingiltərəli dünyaca ünlü elm adamı İ.Mamdaninin elmi rəhbərliyi ilə yaradılan və sement qurğularında bu gün də istifadə olunan qeyri-səlis kontroller (tənzimləyici qurğu) oldu.[12]

Daha sonra qeyri-səlis məntiq sürücüsüz qatarların qeyri-səlis idarə olunmasına tətbiq edildi. Və bundan başlayaraq çəkisi cəmi 5 qram olan kompüter çiplərinin hazırlanmasına qədər qeyri-səlis məntiq özünün geniş tətbiqini tapdı. Elə sadəcə, 5 qramlıq qeyri-səlis çipin dünya bazarında satış dövriyyəsinin ildə 20 milyard dollardan çox olduğunu söyləsək, qeyri-səlis məntiqin iqtisadi potensialını qismən də olsa göstərmiş olarıq. Belə bir kristala malik olan sistem istənilən sürətli prosesi, hətta məsələn, zenit raketinin tuşlanması prosesini də idarə edə bilər. Belə çipə "sürətli-ləng", "uzaq-yaxın" kimi qeyri-səlis funksional vərdişləri öyrətmək və alınmış nəticələri qeyri-səlis tənzimləyicinin yaddaşına yazmaq üçün çox cüzi bir vaxt tələb olunur.[13]

Amma qeyd etmək vacibdir ki, bu nəzəriyyəni yaradarkən professor L.Zadənin əsl qayəsi onun texnika və mühəndislik istiqamətinə yönəldil-

[12] *Baxın: Mamdani, E.H., Assilian, S.: An Experiment in Linguistic Synthesis with a Fuzzy Logic Controller. International Journal of Man-Machine Studies, 7, 1-13 (1975).*

[13] *Baxın: Lütfi Zadə – 100: [Ələsgərzadə Lütfəli Rəhim oğlu]: biblioqrafiya / Tərt. ed. L.Şirinova; elmi red. K.Tahirov; Ön sözün müəl. M.Mərdanov; red. E.Nəciyev. Bakı, 2022, 608 s.*

məsi deyil, əsasən, sosial-humanitar sahələrə, yəni riyazi baxımdan çətin strukturlaşan sahələrə tətbiqi idi. İnsanı əhatə edən humanitar problemləri həll etmək arzusu idi. O bu arzusunu dəfələrlə bu kitabın müəlliflərindən birinə – dostu və elmi sələfi saydığı Rafiq Əliyevə bildirmişdi.

Düşünürük ki, bu kitabın yazılması, yəni qeyri-səlis məntiqin "Kitabi-Dədə Qorqud" kimi xalqın qədim tarixini, onun düşüncə tərzini ortaya qoyan bir dastana tətbiqi görkəmli alim L.Zadənin bu arzusunun reallaşması işinə kiçik bir töhfə olacaq. Belə bir başlanğıc tariximiz boyu özünü göstərən digər ədəbi-mədəni mətnlərdə də ya aşkar, ya gizli şəkildə mövcud olan qeyri-səlislik nümunələrinin üzə çıxarılmasına stimul ola bilər.

Bu elmi istiqamətin yeni-yeni üfüqləri fəth etməsi və bu gün artıq ilk dəfə qədim bədii mətnə tətbiq edilməsi imkanı bizə həm də bundan xəbər verir ki, onun elmi potensialı tükənməzdir. Xüsusi olaraq qeyd edilməlidir ki, "Kitabi-Dədə Qorqud" dastanı qeyri-səlis məntiq rakursundan nəzərdən keşirilən ilk bədii mətnimizdir. Bunun mümkünlüyü qeyri-səlis məntiq prinsiplərinin qədim oğuznamələrin düşüncə və dil korpusunda mühüm yer tutmasını göstərir. Bədii mətnlərimizə qeyri-səlis məntiq işığından baxmaq imkanı bu mətnin ən azından öz-özlüyündə qədimliyindən (mifoloji tarixə aidliyindən) xəbər verir. Eyni zamanda bu yanaşma bizə o qədim mifoloji tarixdə dilimizin hansı situasiyada nə cür hərəkət etməsi (və ya edəcəyi) barədə real düşüncəyə malik olma imkanı verir. Dil və şüurun birbirinə münasibətini daha aydın şəkildə anlama fürsəti verir.

* * *

Bəri başdan qeyd edək ki, qeyri-səlis məntiq hər şeydən əvvəl şübhələrin, tərəddüdlərin, bəlkələrin məntiqidir. Axtarışların məntiqidir. Cəhdlərin və canatımların məntiqidir. Yeni üfüqlərin aranmasının və kəşf edilməsinin məntiqidir. Kvantlara doğru yürüşün məntiqidir. Bu məntiq elə-belə ortaya çıxmır. O, həm də öz dərinində gizlənən və bütün bu "bəlkələr" üçün özündə seçim imkanı saxlayan dərindəki, gizlindəki ideolojisi ilə üzə çıxır (sanki atası Zevsin başından tam hərbi əlbisəsini əyninə geyinmiş Afi-

na Pallada doğulur) və beləliklə, binar qarşıdurmalar hakimiyyətinə, invariantların mütləqiyyətinə bu şəkildə son qoyulur.

İlk olaraq qeyri-səlis məntiqin elmi konsepsiyasını təqdim edək. Bu konsepsiyada söykənilən dörd sütun (faset) var:

1) ümumi məntiq sütunu;
2) qeyri-səlis çoxluqlar sütunu;
3) epistemik (epistemoloji) sütun;
4) münasibətlər sütunu.[14]

Bu sütunlar qeyri-səlis düşüncə tərzini müxtəlif münasibətlər sistemindən çıxış edərək formalaşdırır. Bu sütunlara ayrı-ayrılıqda ümumi bir nəzər yetirək.

1-ci sütun. "Məntiq sütunu" adlanan bu sütun çoxmənalı məntiqin ümumiləşdirilmiş formasıdır. O, "doğru" ilə "yalan" arasında, "yer" ilə "göy" arasında bir körpü kimidir. Bu körpünün həm ucları (qütbləri), həm də bu uclar arasında sonsuz və kəsilməz yolu vardır. Yada salaq ki, bunun əksi olaraq klassik (formal) Aristotel məntiqində yalnız əks uclar (qütblər) özünü göstərirdi. Var idi ancaq "ya ... ya ..." sxemi və ondan doğan iki qütb!

Qeyri-səlis məntiqin bu sütununda klassik məntiqdə əsas baza rolunu oynayan *"üçüncünü istisna"* qanunu işləmir, ona burda yer yoxdur. Aristotelə məxsus bu qanun deyirdi ki, üçüncü istisna olduğuna görə iki əks qütbün arasında heç bir orta hal ola bilməz. Bütün çalarlar, variantlar, nüanslar Aristotel tərəfindən inkar edilirdi. Daha doğrusu, belə deyək, imperativ düşüncə tərzi bu dahi insana bunları görmək və ya xəyal etmək imkanı vermirdi.

Amma zaman göstərdi ki, ***"ya ... ya ..."*** sxeminin arasında ancaq boşluq var deyən formal Aristotel məntiqi heç də həmişə doğru olmur. Əslində, "üçüncünün istisnası"nın özünü hətta istisna etmək mümkündür. L.Zadə də elə bunu sübut etdi. Bu halı belə adlandırmaq olar. Üçüncünün istisnasının istisnası!

[14] *Baxın: Zadeh, L.A.: Is there a need for fuzzy logic? Information Sciences. 178 (13), 2751-2779 (2008).*

Qütblər arasında üçüncünün, dördüncünün (...) olması L.Zadənin bu yeni nəzəriyyəsinin əsasına çevrildi. Bunun sübutunu qədim dastanımız "Kitabi-Dədə Qorqud"da əyani şəkildə görürük. Və biz tədqiqatımız boyu bu halı bir qədər yuxarıda qeyd etdiyimiz kimi *"üçüncünün istisnasının istisnası"* adlandıracağıq.

Qədim mətnlərdə bu hal ilə mətndən keçən cümlələrin diskursunda, sətiraltılarda, mətnin gizli qatında rastlaşırıq. *"Üçüncünün istisnasının istisnası"* bizi böyük və gur bir çayın ***"ya ... ya ..."*** çərçivəsi ilə şüurumuzda yol gələn məcrasından ***"nə ... nə ..."*** sxemi ilə formalaşan nəhayətsizlik dənizinə atır. Biz invariantların çiçəklənməsini, budaqlanmasını, doğub-törəməsini görürük. Variantlar doğulur. Biz bu variantların dərinliyini ən azından təsəvvür edirik, çünki onu görmək insan övladına qismət deyil. Dərinliyin miqyası bizi sarsıtmaya bilmir. O sonsuzdur. Sonsuz çoxluq! Görkəmli riyaziyyatçı Kantorun sözləri olmadan belə bir sonsuzluğu təsəv-vür etmək bəlkə də mümkün olmazdı. Kantor deyirdi, sonsuz çoxluqdan sonsuz çoxluğu çıxsaq, yerində yenə də sonsuz çoxluq qalacaq.[15]

"Kitabi-Dədə Qorqud" dastanında üçüncünün istisnasının istisnası halı ilə ən müxtəlif məqamlarda rastlaşırıq. Burada qəhrəmanlar iki əks qütbün arasında mövcud olan başqa nyuanslar axtarışına çıxırlar, nəticədə, faktiki olaraq onlar dünyadakı sonsuzluq okeanının sahillərində ən azın-dan ayaqlarını o sulara batıra bilirlər. Bizim dastanımızda üçüncü də var, dördüncü, hətta beşinci də yox deyil.

2-ci sütun. Qeyri-səlis məntiqin "qeyri-səlis çoxluqlar" adlı sütunu-nun əsas qayəsi odur ki, dünyada Tanrıdan başqa hər bir şeyin, hər bir ha-disənin dərəcəsi var. Əgər biz hər hansı qeyri-səlis çoxluğu nəzərdən keçi-ririksə, deməli, universumda olan bütün elementlərin bu çoxluğa aidiyyəti, mənsubluq dərəcəsini qəbul edirik.

Qeyri-səlis çoxluqlar bədii mətnlərin təhlilində linqvistik informasiya-nın üzərinə qoyulmuş məhdudiyyətləri ehtiva edən tutarlı bir vasitədir.

[15] *Baxın: Cantor Georg: Ueber eine Eigenschaft des Inbegriffes aller reellen algebraischen Zahlen. Journal für die Reine und Angewandte Mathematik, 77, 258-262 (1874).*

Belə bir qeyd edək. Mətndə təsvir edilən hərəkət və ya hadisə ilə bağlı natamam məlumat verildikdə bu ona olan inamı azaldır. Məsələn, *"yəqin ki"* ifadəsi *"ehtimal ki"* ifadəsindən mənaca daha güclüdür. "*Yəqin ki ...*"dən daha güclü olması üçün "*ehtimal ki ...*" ifadəsinin əvvəlinə "*böyük bir*" sözlərini əlavə etmək və "*böyük bir ehtimalla*" ifadəsini ortaya qoymaq lazım gəlir. Bu məqamla bağlı *"az"*, *"çox"*, *"daha çox"* kimi təyinediciləri də nəzərə almaq lazımdır. Onların da mətnə münasibəti daxili mənalarının gücü ilə müəyyənləşir. Eyni zamanda burada kontekstin də rolunu unutmaq olmaz. Kontekst həmin təyinedicilərin missiyasını bir qədər də cilalayır.

Qeyd etmək vacibdir ki, bu sütun qeyri-müəyyənliklərin mətndə qiymətləndirilməsinə imkan yaradır. Bir qədər əvvəl dedik ki, mətndə hər hansı hərəkət və ya hadisə ilə bağlı natamam məlumat verildikdə bu, mətnə olan inamı azaldır. Beləliklə, linqvistik informasiyanın təhlili zamanı biz hərəkətin və ya hadisənin necə baş verdiyini və ya necə olacağını göstərən modallıq amilinə xüsusi diqqət yetirməliyik. Modallığa xidmət edən vasitələr deyilənə deyən tərəfindən inamın dərəcəsini ifadə edirlər və modallıq bildiriciləri deyilənin mütləq "həqiqətini" yumşaltmaq missiyasını da həyata keçirir, deyə bilərik. Bu isə, aydındır ki, ekzistensial mahiyyətin "işbaşına" keçməsinə dəlalət edir. "Mütləqiyyət"dən "demokratik"liyə keçidin bir işarəti kimi qəbul edilə bilər. Mətnin yumşaldıcı (və ya kəskinləşdirici) vasitələri barədə biz bir qədər irəlidə ayrıca danışacağıq.

3-cü sütun. Qeyri-səlis məntiqin epistemoloji sütunu mətnlərdə təqdim edilən biliklərin təsviri, təbii dilin semantikası, mətnlərdəki informasiyanın təhlili ilə əlaqədardır. Bu aspektdə təbii dil perseptiv informasiyanın, yəni bilavasitə ölçülə bilməyən informasiyanın təsvir sistemi kimi qəbul olunur. Bu sütunun özülündə ehtimal nəzəriyyəsi yox, mümkünlük nəzəriyyəsi durur. Epistemoloji yanaşma dedikdə əsas məqsəd o olur ki, müəllifin demək istəmədiyi, gizlətdiyi (və yaxud deyə bilmədiyi, aşkara çıxara bilmədiyi) informasiyanı mətnin gizlinindən çıxarmaq və onu dəyərləndirmək mümkün olsun. "Kitabi-Dədə Qorqud" dastanında müəllifin aşkar şəkildə demək istəmədiyi, gizlətmək istədiyi məqamlar az deyil. Onları müəyyən etməklə

biz mətnin dərinliklərinə, gizli qatlarına enməyə məcburuq. Məsələn, Dastanda Beyrəklə bağlı gizlədilən bir məqam məhz dərin qata, dastanın gizli qatına enməklə açıla bilir və bu gizli qatdakı informasiya bizə aşkar qatdakı bir sıra anlaşılmaz məqamları anlamağa kömək edir. Buradaca onu da qeyd edək ki, müəllifin tam gizlətmək istəyi ilə natamam gizlətmək cəhdini bir-birindən fərqləndirmək lazımdır. Bizə belə gəlir ki, müəllifin tam gizlətmək istədiyi məqamı biz həmişə axtarıb tapa bilmərik. Müəllif bizə ipucu verməsə onun yaratdığının gizli qatına enmək də mümkün olmaz. Beyrəklə bağlı epistemoloji məqamda belə bir ipucu var. Bunu mətn bizə üstüörtülü şəkildə verir.

Beyrəyin əsirlikdəki həyatının təsvirində maraqlı bir məqamla rastlaşırıq. Mətn deyir:

> *"Məgər kafir bəginin bir bikr (bakirə) qızı vardı. Hər gün Beyrəyi görməyə gəlürdi. Ol gün yenə görmege geldi. Baxdı, gördi Beyrek səxt olmuş. Qız aydır: "Neçin səxtsən, xanım yigit?! Gəldigimcə səni şən görərdim. Gülərdin, oynardın. Şimdi noldun?!" dedi".*

Beyrəyin pərişanlığının (səxt olmasının) səbəbi var. Nişanlısı Banuçiçəyin başqasına ərə verilməsi xəbəri ona gəlib çatmışdır. Bu xəbəri ona atasının bəzirganları çatdırmışlar. Və əsirlikdə ikən hər gün "şən olan, gülən, oynayan" Beyrəyin xarakterinin bizə tanış olmayan bu tamam başqa yönü ilə bağlı mətn belə bir ipucu verir. Uzun zaman tədqiqatçılar bu ipucundan yan keçiblər, onu "görməyiblər" və ondan istifadə etməyiblər. Halbuki, əgər bu ipucu vasitəsilə biz dastanın aşkar qatındakı çox önəmli məqamların üzərindən pərdəni çəkməsə idik, dastan boylarının sistemli xarakterini üzə çıxara və ayrı-ayrı boylardakı bir-birilə səsləşən məqamların əlaqəsini görə bilməzdik. Bu Beyrək bizə o biri Beyrəyi tanımaqda kömək etməzdi. Eyni zamanda ipuculardan istifadə etməsə idik, dastanın yaranma bətnində formalaşan yeni tipli (psixoloji yükləmələrə malik) qəhrəmanlar diqqətdən kənarda qalardı.[16]

[16] *Baxın: Kamal Abdulla. Mifdən yazıya, yaxud gizli Dədə Qorqud. Bakı, 2009, s.183; "Kitabi-Dədə Qorqud"da semantik sayrışmalar. Mifolinqvistika. Bakı, s.164 (2022).*

Əslində, geniş mənada epistomoji yanaşma bütün metaforik məkanın üzərindən yüksəlir. Hər hansı metafora dilin obyektiv aləmdəki daha dərin və obyektiv həqiqəti başqa cür (bir qədər başqa cür, tamam başqa cür, 100 faizə yaxın başqa cür və s. və i.a.) ifadə etməsi deməkdir. Başqa cür ifadə isə tam və bütöv ola bilmir, o hökmən təhriflərə yol verir. Və dahi şairimiz Füzuli nahaqdan buna işarə etmirdi. Onun böyük fəlsəfi dərinliyə malik olan misrasını bir daha xatırlayaq: "Aldanma ki, şair sözü, əlbəttə, yalandır." Yalandır, yəni təhrifdir, obyektiv aləmdəkinin yüzdə yüz əksi deyil. Çünki dilimiz şüurumuzdan daim geridə qalır.

Epistemoloji hər hansı bir şey kövrək statusa malik olur, bu isə o demək deyil ki, o, yalnız gizli olaraq qalır və yalnız mükəmməl manipulyasiyalarla tamamilə üzə çıxarıla bilər. Bir obyekt kimi o hazır şəkildə mövcud deyil, yalnız obyektin konseptual tərəfi kimi (beyindəki obraz kimi) mövcud ola bilir.

Beyrəyi tam və bütöv olaraq görə bilməmiz üçün onun təkcə Salur Qazanın inağı (sevimlisi) kimi bəylərbəyinə sədaqətli olmasını Dastanın üst qatından təhkiyə vasitəsilə öyrənməmiz kifayət deyil. Beyrəyin mahiyyətinin bu məlum tərəfi ilə onun həbsdəki şən, deyib-güldüyü gizli həyatının (oxucu üçün gizli olan həyatının!) birliyini qurmaq lazımdır. Tam və bütöv Beyrək bu iki qütbün bir-birilə birləşməsindən doğulur. Həbsdəki Beyrək də öz-özlüyündə natamamdır (qeyri-səlisdir), Qazana sədaqəti üzündən məhv edilən Beyrək də. Bu "iki" Beyrəyi təsəvvürdə birləşdirmək lazımdır.

Beləliklə, gördüyümüz kimi qeyri-səlis epistemologiya mətndəki qeyri-müəyyənliyi müəyyən etməyə, mürəkkəblik dumanını qovmağa, boşluğu doldurmağa kömək edir.

4-cü sütun. Qeyri-səlis məntiqin 4-cü sütunu (faseti) qeyri-səlis münasibətlər sütünüdür. Bu sütun qeyri-səlis münasibətləri, daha doğrusu, qeyri-səlis səbəb-nəticə asılılıqlarını ehtiva edir. Bu sütünün əsasında qeyri-səlis ifadələr (dəyişənlər), və onların bazasında qurulan "*əgər...sa/sə... o zaman...*" sxeminə dayanan münasibətlər durur. Sıx şəkildə bu düşüncə tərzi ilə qurulan cümlələri biz daha çox dastanın Müqəddimə hissəsində qeyd edə bilirik.

Mətn deyir:

"Əzəldən yazılmasa, qul başına qəza gəlməz;
– Ulaşıban sular daşsa, dəniz tolmaz;
– Qara eşşək başına üyən ursan, qatır olmaz;
– Hecesindən düz oxunsa, yasin görklü...
– Yapa-yapa qarlar yağsa yaza qalmaz;
– Qaravaşa don geyirsən, qadın olmaz".

Bu real misallar asanlıqla "*əgər...sa/sə... o zaman...*" sxeminin leksik-morfoloji törəmələri kimi nəzərdən keçirilə bilər.

Qeyri-səlis münasibət sütunu dedikdə müxtəlif situasiyalarda nəzərdən keçirilən çoxluqların müəyyən elementlərinin hansısa şəkildə bir-birilə necə sıx bağlı olduqları nəzərdə tutulur.

Qeyri-səlis nəzəriyyədə qeyri-səlis münasibətlər çox mühim anlayışdır və onlardan bir çox sahələrdə geniş istifadə olunur. Bu bağlılıq qeyd etdiyimiz kimi *"əgər... onda (o zaman...)"* sxemində reallaşır.

Qeyri-səlis münasibətləri təsvir etmək üçün əvvəlcə diskret qeyri-səlis çoxluqlardan istifadə etməklə gündəlik həyatda üzləşdiyimiz sadə bir nümunəni nəzərdən keçirək.

X – meyvənin rəngi, Z – onun yetişmə dərəcəsi olarsa, onlar arasında əlaqə belə təsvir oluna bilər.

Tutaq ki, rəng qeyri-səlis çoxluğun X= (yaşıl, sarı, qırmızı) kimi verilir. Digər Z qeyri-səlis çoxluğu üçün yetişmə dərəcəsi Z= (meyvə yetişməyib, kaldır, yaxud yarı yetişmişdir, yaxud tam yetişmişdir) kimi verilir.

Bu zaman iki qeyri-səlis çoxluq arasındakı münasibət *"əgər... onda (o zaman...)"* sxeminə salınaraq belə təsvir edilə bilər:

1. Əgər meyvənin rəngi yaşıldırsa, o zaman meyvə yetişməyib (kaldır);

2. Əgər meyvənin rəngi sarıdırsa, meyvə o zaman yarı yetişmişdir;

3. Əgər meyvənin rəngi qırmızıdırsa, o zaman meyvə tam yetişmişdir;

Bizim dastanın mətni çox gözəl şəkildə "Bəkil oğlu İmran" boyunda Bəkil ilə İmranın düşmən gözündə əvəzlənmələri timsalında bu fasetlə bağlı maraqlı məqamlar sərgiləyir. Bu barədə fəsildə ətraflı söz açılacaq.

* * *

Altını cızaraq bir daha qeyd edək ki, qeyri-səlis məntiqin formal Aristotel məntiqindən əsas üstünlüyü ondadır ki, o, iki əks qütb arasında üçüncünü, dördüncünü... istisna etmir. İnsan düşüncəsini məhdudlaşdırmır. Beləliklə, qədim əcdadımızın düşüncə tərzinin demokratik yanaşma üzərində qurulmuş olduğu üzə çıxır. Belə ki, əcdadımız kateqorial (mütləq) yanaşma ilə kifayətlənmir, o, dünyanı onun rəngarəngliyində görmək və təsvir etmək istəyir. Tərəddüdlərə baş vurur, şübhələr onu rahat buraxmır. Məhz bu şübhə faktoru və onun əsas komponenti olan "*bəlkə*" vahidi ilə silahlanaraq o, hətta *ölü* ilə *diri* arasında da keçid mərhələsini görə bilir. Aristotel insan mövcudiyyətini ***"ya ... ya ..."*** sxeminin içinə salmaqla işi bitmiş sayır. Təcrübəsindən çıxış edərək antik dövrün bu dahi filosofu belə düşünür: "*Bu insan ya ölüdür, ya diridir. Üçüncü hal istisna edilir*". Bu misal klassik formal məntiq nümunəsi kimi bu günə qədər məntiq dərsliklərindən düşmür. Amma biz "Kitabi-Dədə Qorqud" dastanınına onun gizli qatından baxarkən görürük ki, bizim dastanımızda rast gəldiyimiz düşüncə tərzi bunun əleyhinə çıxmaq üçün yeni imkanlar verə bilir. Bir məqama diqqət yetirək. Mətn deyir:

> *"Ol zamanlar Oğuz yigitləri yatanda yeddi gün, yeddi gecə yatardılar. Adına küçücük ölüm derlərdi".*

"Küçücük ölüm", əslində, insanın *nə ölü*, *nə də diri* halıdır. Dastanda qəhrəmanların bəzən belə hala düşdüklərini müşahidə eləmək olur. Qanturalını və Salur Qazanı misal gətirmək olar. Onları belə küçücük ölümdən "oyatmaq" mümkün olmur.[17]

[17] *Digər xalqların da dastanlarında qəhrəmanların ağır yuxuya getməsi, heç cür oyadıla bilməməsi və ayılarkən gücünün artaraq 77 adamın gücünə sahib olması təsvir edilir. Məsələn, bu halı macar xalq dastanının qəhrəmanı Yoska Veresdə görürük. Baxın: Vargyas, Lajos: Kahraman destanının folklorumuzdakı kalıntıları. İn: Vargyas, lajos (baş editör). Macar etnoqrafiyası V, Macar halk şiiri, Budapeşt Akademisi yayınevi, 398-413 (1988).*

Qanturalı sevib sınaqlardan keçərək qazandığı və Trabzon bəyi Selcan Xatunun atası tərəfindən ona halallığa verilən Sarı donlu Selcan xatunu Oğuz elinə alıb gedərkən onlar yolda istirahət etmək üçün dayanırlar. Selcan Xatunun isə atası artıq peşiman olmuşdur və qızını geri qaytarmaq üçün sevgililərin arxasınca cəza dəstəsi göndərib. Kafir qoşunu artıq onların başının üstünü alıb. Qanturalı isə bir qədər əvvəl yuxuya getmişdir. Selcan Xatun onu bu "küçücük ölüm" adlı yuxudan heç cür oyandıra bilmir. Və məcbur olur ki, atasının cəza dəstəsinə qarşı özü təkbaşına döyüşsün.

Qanturalının, başqa bir hekayətdə Salur Qazanın belə bir "küçücük ölüm" halına düşməsi qədim insan üçün son dərəcə izahedilməz bir məqamdır. Müasir insana isə bu hal artıq tanışdır. Müasir tibdə belə bir vəziyyətə **"koma"** (ölü ili diri olmanın arasındakı hal) deyilir.[18] Deməli, qədim əcdadımız bu halın adını ifadə etməklə "ya ... ya ..." formal məntiq sxemindən uzaqlaşaraq, ona zidd olaraq bu sxemin əsas dayaq nöqtəsi olan "üçüncünü istisna qanunu"nun özünü də istisna çərçivəsinə sala bilib.

"Ya ... ya ..." sxemli düşüncə tərzinə qarşı yeni bir düşüncə tərzi – həyata, insana daha yaxın, dünyadakı rəngarəngliyi daha dolğun təsvir edən ***"nə ... nə ..."*** sxemli düşüncə tərzi özünü təqdim edir. Bizim nümunəyə əsasən deyə bilərik ki, **koma** halı Aristotelin deyə biləcəyi *"ölü"* və *"diri"* qütbləri arasında "üçüncü" kimi yer tutur və beləliklə, *"nə ölüdür, nə diridir (fon Neymanın "bəlkə"sini də yada salsaq), bəlkə komadadır?"* kimi bir məntiqi zəncir yaranır. Beləliklə, *"bəlkə"*nin düşüncəmizdəki yeri qeyri-səlis məntiqin təsbiti ilə bir qədər də möhkəmlənir. Gördüyümüz kimi "nə ... nə ..." sxemi "bəlkə"yə yer qoyur. "Ya ... ya ..." sxemi isə belə bir imkanı vermir. Bir qədər metaforik şəkildə desək, "ya ... ya ..." mütləqiyyətin, "nə ... nə ..." isə demokratiyanın ilkin cücərtisidir.

Bəzən isə biz dastanda "nə ölü, nə diri" halının arasındakı ilə (üçüncü ilə) tamam başqa bir təqdimatda qarşılaşırıq. Bu təqdimat bilgisizliyin üzərindən yüksəlir. 50 faiz "ölü", 50 faiz "diri" bilgisi oxucuya qeyri-müəyyən şəkildə bildirilir. Və bu qeyri-müəyyənlik sxeminin qütblərinin arasına biz

[18] *Baxın: Kamal Abdulla. "Kitabi-Dədə Qorqud"da semantik sayrışmalar. Mifolinqvistika. Bakı, s. 78 (2022).*

üçüncünü daxil edə bilirik. Əslində, bu hal kvant fizikasından məlum olan məşhur eksperimenti – görkəmli fizik Şredingerin pişiklə bağlı məşhur təcrübəsini xatırladır.[19] Bizim halda dastanda özünü göstərən bir süjet xətti bu təcrübənin alqoritmini bədii şəkildə ortaya qoyur. Şredingerin pişiyi rolunda bizim Dastanda Beyrək çıxış edir.

Mətn deyir:

Beyrək boyunda Beyrək düşmən tərəfindən əsir aparılmışdır. O, on altı il Bayburd hasarında saxlanır. Kimsənin bundan xəbəri yoxdur. Dastan deyir.

> *"Bunun üzərinə on altı yıl keçdi. Begrəgin ölisin-dirisin bilmədilər".*

Beləliklə, Beyrək oğuz eli üçün 50 faiz ölü, 50 faiz diridir. Şredingerin təcrübəsindəki pişik də elə idi. Onun da yerləşdiyi qutu içindəki partlayışdan sonra kənardan baxanlar üçün diri, yaxud ölü qalacağı bilinmirdi.

Dastanda, nəhayət, "partlayış" baş verir. Bu vaxta qədər "ölüsü, dirisi" bilinməyən Beyrək sağ-salamat Oğuza geri dönür, onun diri xəbərini hamı eşidib bilir. Amma dastandakı partlayışa qədər Beyrəyin "ölü-diri" sxeminin qütbləri arasına çox məqamları əlavə etmək olardı. Adamlar bu 50 faizin ya "ölü" tərəfində, ya da "diri" tərəfində durmuşdular. Elə Yalançı oğlunun da Beyrəyin qana batmış köynəyini onun öldüyünə sübut kimi gətirib Xana təqdim etməsinin özü Yalançının Beyrəyin ölümünə olan inamı sayəsində mümkün idi. İnanmasaydı, o bu yalanı belə asanlıqla söyləməzdi.

Beyrəyin atası Baybura bəy isə 50 faizin "diri" qütbündə qərar tutub. Onun Beyrəyin "ölüm" xəbərinə inanmaması, bu xəbərə şübhə ilə yanaşması, hətta son dəfə bəzirganları Beyrəyin axtarışına göndərməsində özünü göstərir. Həbsdə Oğuzdan gizli şəkildə saxlanması Beyrəyin həyatda olmasına inamla ölümdə olmasına inam arasındakı münasibət üçün imkan yaradır. Şredinger öz pişiyini də kənar gözdən belə gizlətmişdi.

---

[19] *Baxın: Schrodinger E. Die gegenwartige Situation in der Quantenmechanik. II. Naturwissenschaften; 23 (49), 823-828 (1935); Роберт А. Уилсон. Квантовая психологиа. София, 2021, с. 203*

Beləliklə, "ölüsü, dirisi" bilinməyən Beyrək şübhələrə, tərəddüdlərə, axtarışlara yol açır, onun axtarışı əslində, qeyri-səlis məntiq düşüncəsinin ifadəsi kimi özünü göstərir.

Şübhə, ümumiyyətlə, qeyri-səlis məntiqin daimisi kimi nəzərdən keçirilə bilər. Şübhə olan yerdə qeyri-səlis məntiqin izini axtarmağa dəyər. Elə buna görə də biz bu tədqiqatın birinci fəslində qeyri-səlis məntiqin "şübhə daimisi"ndən söz açacağıq. Biz ümumiyyətlə, belə fikirdəyik ki, qeyri-səlis məntiqin hər hansı sütununda (fasetində) özünü göstərən təbii dil materialında "şübhə" məqamının ya gizli, ya aşkar büruzəsindən danışmaq mümkündür. Və hətta vacibdir.

* * *

Yuxarıda qeyd etdiyimiz kimi "Kitabi-Dədə Qorqud" dastanında qeyri-səlis məntiq prinsiplərindən çıxış edərək formalaşan və *"üçüncünün istisnasının istisnası*" düsturunun "*əgər ... sa/sə... o zaman*" sxemilə qurulan cümlələr az deyil. Belə cümlələrin varlığı göstərir ki, dastan müəlliflərinin yaratma imkanları qeyri-səlis məntiq hesabına kifayət qədər böyükdür. Qeyri-səlis məntiqin dastanın dil toxumasına sirayət dərəcəsi həm böyükdür, həm də bu, bəzən ayrıca cümlə çərçivələrini vurub dağıdır, daha geniş təsvir müstəvisində özünü göstərir.

Cümlədən böyük narrativ müstəvidə "üçüncünü istisnanın istisnası" Dirsə Xan oğlu Buğaca həsr olunmuş hekayədə diqqəti cəlb edir. Dastan mətninin toxumasının canı olan belə bir məqama diqqət yetirək. Türkoloqlar bu məqama, amma digər rakursdan, dəfələrlə diqqət yetirmişlər. Məsələn, bu məqama əsasən biz deyə bilərik ki, Dastanın adını çəkdiyimiz bu hekayəsində ("Dirsə xan oğlu Buğac" hekayəsində) qədim ritualla bağlı olan situasiya məhz qeyri-səlis məntiq prinsiplərinin tətbiq edilməsi nəticəsində sonadək doğru-dürüst yozula bilir. Bu misal sanki qədim əcdadımızın düşüncəsində Aristotel məntiqi ilə Zadə məntiqinin qarşı-qarşıya durub döyüşməsinin canlı ifadəsidir. Sadəcə, onu qeyd etmək olar ki, bu döyüş xeyli gizli bir dərinlikdə baş verir.

Oğlu-qızı olmayan Dirsə xanın Xanlar xanı Bayındır Xanın məclisində aşağılanmasını (qara çadıra yerləşdirilməsini) türkoloqlar qədim ritual kimi qeyd etsələr də, başqa bir məqama – Dirsə xanın iztirablarına, onun düçar olduğu bu halın səbəbkarını axtarmaq çabalarına biganə qalmışlar. Bayındır xanın məclisini tərk etdikdən sonra Dirsə xan nədən oğlu-qızı olmadığının səbəbini, yaxud səbəbkarını axtarır və sarsıntılı düşüncələrdən sonra belə bir nəticəyə gəlir: "*Bu qara eyib bana ya bəndəndir, ya xatundandır*".

Dirsə xan burada formal məntiqin (Aristotel məntiqinin) tipik tərəfdarı kimi çıxış edir. Dirsə xana görə məntiqi zəncir iki qütbdən ibarətdir – *"mən və xatun"* qütblərindən. ***"Ya ... ya ..."*** sxemi göz qabağındadır. İki qütbün – *"mən"* və *"xatun"* qütblərinin arasında isə yalnız boşluq var.

Məhz bu formal məntiqə əsasən Dirsə xanın düşüncəsində *"mən – xatun"* qütbləri formalaşır. Dirsə xanın səlis (!) məntiqində başqa bir səbəb yoxdur. Amma Dirsə xanın xatununun təsəvvüründə – var. Bu formal qütblər arasına rəngarəngliyi, həyata daha yaxın olma ehtirasını məhz Dirsə xanın xatunu gətirir. Onun fikrinə görə, övladsızlığın səbəbi bu iki qütbün arasında düşünülüb axtarıla bilər. Dirsə xanın xatunu istisnalara toxunur. O, Dirsə xan tərəfindən övladsızlıqda təqsirləndiriləndən sonra belə bir tale yaşamasının səbəbi kimi bir neçə variant göstərir:

1. Atdan, dəvədən, qoyundan, qoçdan öldürmüsənmi ki, ac görsən doyuzdurasan. Doyuzdurmamısan.

2. Yalın görsən, geyindirmisənmi, geyindirməmisən.

3. Borclunu borcundan qurtarmısanmı, qurtarmamısan.

Bunları etməyi Dirsə xana məsləhət görən xatun övladsızlığın səbəbini bu addımların atılmamasında görür. Xatunun göstərdiyi səbəblər məhz iki qütb arasında istisnalar kimi özünü göstərir. Beləliklə, Dirsə xanın günahkar aramasına formal məntiqin iki qütbü (*mən – xatun*) əsas olmuşdusa, onun xatununun iki qütb arasına başqa-başqa, rəngarəng səbəblər gətirməsi qeyri-səlisliyin əsasında duran daha geniş seçim imkanını üzə çıxarır. Beləcə, mətndə *"ya mən, ya xatun"* rəngsizliyindən (ağ və qaradan) uzaqlaşma halı baş verir. İstisnalar ortaya çıxır. Bu istisnalara acların doyuzdurulmaması, yalınların geyindirilməməsi, borclunun borcdan qurtarılmaması daxildir.

"Üçüncünün" (...) məntiqi silsiləyə daxil edilməsi və beləliklə, qeyri-səlisliyin məkanına daxilolma halı haman boyun başqa hissəsində də özünü göstərir.

Ov zamanı Dirsə xan öz oğlu Buğacı yalan xəbər gətirən xəyanətkarların sözünə uyaraq yaralamışdır və Buğac ov yerində yaralı qalmışdır. Anası onun axtarışına çıxır. O, Qazlıq dağının ətəyinə gəlir. Mətn deyir.

> *"Dirsə xanın xatunu... qatlanmadı, qırq incə qızı boyına aldı. Bədəvi ata binüb oğlancuğın istəyü getdi. Qışda, yazda qarı-buzı ərinməyən Qazılıq tağına gəldi, çıqdı. Alçaqdan yuca yerlərə çapub çıqdı. Barsa görsə bir dərənin içinə qarğa-quzğun enər-çıqar, qonar-qalqar. Bədəvi atın öncələdi, ol tərəfə yüridi".*

Bu minvalla ana oğlunu yaralı halda da olsa, nəhayət ki, tapır.

Anaya görə oğlunun yaralanmasının günahkarı ya Qazlıq dağının arslanıdır, ya da Qazlıq dağının qaplanıdır. Onun təsəvvüründə *"ya arslan, ya qaplan"* sxemi var. Əslində isə daha bir səbəb, özü də doğru olan səbəb var və o səbəbi istisna kimi məntiq zəncirinə yaralı Buğac gətirir. O, anasına deyir:

– Arslanla qaplanına qarğamağıl.
Qazlıq tağının suçı yoqdır.
Qarğarsan babama qarğa,
Bu suç, bu günah babamdandır.

Buğac formal (səlis) məntiq zəncirinə vacib bir istisna gətirir və o istisna həqiqəti əks etdirir. Üçüncünün iştirakı ilə (günahkar baba ilə) qeyri-səlis məntiq zənciri qurulur və beləliklə, biz düşüncədə daha geniş seçim imkanı yarandığının şahidi oluruq.

* * *

Bariz şəkildə məntiqi zəncirdəki qütblər arasında "üçüncünün istisnasının istisnası" Dastanın başqa bir hekayətində – "Dəli Domrul" boyunda da nümayiş etdirilir. Allah-taaladan asiliyinə görə peşiman olub üzr istəyən Dəli Domrula acıyan Allah-taala Əzrayıla göstəriş verir ki, Dəli Domrul canı yerinə can tapsın, onun canı bu şəkildə xilas olsun.

Belə bir problem (canı yerinə can tapmaq) qarşısında qalan Dəli Domrulun beynində ilk olaraq *"ya ata – ya ana"* formal sxemi qurulur. Dəli Domrula görə bu iki qütbə aid olan şəxslərdən biri öz canını onun əvəzinə hökmən qurban verməlidir. Qəribə məntiqdir, deyilmi?!

Formal məntiqi zəncir olan *"ya baba – ya ana"* qütblərinin arasına formal məntiqəsığmaz istisnanın istisnası özünü yerləşdirir. Dəli Domrulun yad qızı halalı öz həyatını Dəli Domrulun əvəzinə qurban verməyə hazırdır. Beləliklə, ***"Ya ... ya ..."*** sxemi öz yerini ***"nə ... nə ..."*** sxeminə verir. Nə baba, nə ana. Hər ikisi bu ağır imtahandan yaxasını kənara çəkir. Bəs kim? Dəli Domrulun yad qızı halalı öz razılığı ilə bu qütblərin arasına yerləşir.

Bu məqam dastanda qeyri-səlis düşüncənin daha bir əyani görüntüsünün ifadəsi, özü də parlaq ifadəsidir. Bir qədər irəlidə bu barədə daha konkret təhlil olacaq.

* * *

Qeyri-səlis məntiqin əcdadımızın beynində daha geniş seçim imkanını yaratması hər şeydən əvvəl ondan xəbər verir ki, daha geniş seçimlə gələn demokratik durum əcdadımızın təfəkküründə ətrafa və özününkülərə ilkin münasibət zəminidir. Əcdadımız dünyanı və yaxın ətrafını daha rəngarəng, daha çox saylı incəliklərilə görmək istəyir. **"Səbəb-nəticə"** münasibətində məhz səbəblərin sayını artırıb doğru seçim etmək istəyir. Daha dəqiq desək, əslində, bu, əcdadımızın beynində demokrasi ruzgarlarının əsməsindən xəbər verir. Bu günün özündə belə demokratik prinsiplərin içərisində ən başlıcası insanın seçim imkanının geniş olması ilə müəyyənləşir.

"Kitabi-Dədə Qorqud" dastanı bu demokratik rüşeymlərin əcdadımızın düşüncə tərzində təsadüfdən uzaq, ilkin olaraq mövcud olmasını öz dilində, ifadələrində bu günümüzə qədər qoruyub saxlayır.

* * *

Tədqiqatın sonunu gözləmədən ilkin (!) nəticə kimi bunu qeyd etmək istərdik. Bu ilkin nəticənin ayrı-ayrı təzahürləri ilə oxucu kitabı oxuduqca onun müxtəlif yerlərində qarşılaşacaq.

İlk olaraq onu deyək ki, Dastanın mətni aşkar şəkildə göstərir ki, qeyri-səlis məntiqin bütövlükdə aparıcı ideoloji prinsipi olan daha geniş seçim imkanı və demokratik yanaşım tərzi, başqa sözlə desək, tolerantlıq ruhu xalqımıza qədim zamanlardan bəri xas olmuşdur və bu, təsadüfilikdən uzaq əbədi bir dəyərdir. Əcdadımız demokratik tərzdə düşünməyi məhz qeyri-səlis məntiq prinsiplərindən yararlanaraq öyrənmişdir. Onların bu prinsiplərdən bəhrələnməyi dünyagörüşlərindəki genişliyə olan meyl, məsələnin dərinliklərinə, incəliklərinə canatım marağı sayəsində mümkün olmuşdur. Nəticədə, beyində cürbəcür sxemlər formalaşmış, ikili qarşıdurmaların arasındakı incəliklər ortaya çıxarılmış, invariantların mütləqiyyətinə son qoyulmuş, əvəzinə variantların demokratiyası başlamış, təbiətdə mövcud olan vəziyyətlə bu vəziyyətin beyindəki və dildəki təsviri arasında olan fərq daha (qismən) minimum bir vəziyyətə gətirilmişdir.

Əlbəttə, onu deyə bilmərik ki, bir gün bu fərq tamamilə yox olacaqdır. Bunu fərz eləmək belə qorxuludur. Çünki belə bir vəziyyət dünyanı sona gətirən mütləq bir tarazlığın nişanəsi ola bilərdi. Mütləq tarazlıq isə son deməkdir. Fərq (ən minimal vəziyyətdə belə) hökmən özünü göstərməlidir. Ən azı ona görə ki, bu fərqin aradan götürülməsi bir məqsəd kimi həmişə qarşıda durmalıdır. Bu rakursdan yanaşdıqda qeyri-səlis məntiq sanki üfüq kimidir, deyə bilərik. Onun sayəsində insanlıq iki qütb arasındakı incəlikləri bir-bir "kəşf" etdikcə qütblər sanki özləri bir az daha bir-birindən uzaqlaşır, amma bu, bir fantomdur, arada yenə də yeni-yeni incəliklər sayrışmağa başlayır.

Və bir qədər yuxarıda vəd etdiyimiz vacib ilkin ümumiləşdirməni biz hələlik belə qura bilərik.

Oğuz türklərinin qədim xalq dastanı olan "Kitabi-Dədə Qorqud" qeyri-səlis məntiq prinsiplərinə öz dil məkanında bol-bol yer verir.

Bu qədim dastanın dərinində gizlənən düşüncə tərzi qeyri-səlis məntiqin dörd sütununun (fasetinin) hər birinə aid olan spesifik məntiqi sxemlərin formalaşmasına gətirir. Və məlum olur ki, Dastanımızda qeyri-səlis məntiqə dair kifayət qədər geniş dil materialı var. Bu isə öz növbəsində ondan xəbər verir ki, qədim əcdadımız dünyaya baxışında daha geniş və daha dərin yanaşmanı üstün tutur. Məhz daha geniş seçim imkanı olan yanaşma onun tərcihinə dönür. Daha geniş seçim imkanı isə məhz qeyri-səlis məntiq prinsiplərinin "işə düşməsi" nəticəsində mümkün olur.

"Kitabi-Dədə Qorqud" dastanında əcdadımızın beynində bəlkə də özündən xəbərsiz şəkildə təzahürünü tapan və qeyri-səlis məntiqin dərin mənəvi-ideoloji özülü sayıla bilən demokratik düşüncə tərzi öz əksini tapmışdır. Bu düşüncə tərzi təsadüfi deyil, o, əcdadımızın ən qədim dövrdən ona xas olan davranışını, özünə və ətrafa münasibətini tənzim edir, bütövlükdə isə müasir millətimizi tolerant, loyal, multikultural və canında, qanında, şüurunda özündən ətrafda nə varsa hər şeyə sevgi yaşadan bir millət kimi formalaşmasını aşkar şəkildə nümayiş etdirir.

Bu kitabın ayrı-ayrı fəsillərində irəli sürülən və əsaslandığımız metod və üsullar, prinsiplər inanırıq ki, ən azı filoloji məkanda yeni tədqiqatların meydana çıxmasında faydalı olacaqdır.

Qeyri-səlis məntiqin ana kitabımız "Kitabi-Dədə Qorqud"a tətbiqi ilkin yanaşmada bizə məhz bu bilgiləri verməkdədir.

Onu da qeyd etməyi lazım bilirik ki, "Kitabi-Dədə Qorqud" dastanından gətirdiyimiz nümunələr bu mənbədən götürülmüşdür: "Kitabi-Dədə Qorqud", Bakı, 1988 (tərtibçilər: Fərhad Zeynalov, Samət Əlizadə).

1-ci fəsil
"Kitabi-Dədə Qorqud"da qeyri-səlisliyin "tikinti" materialı

"Kitabi-Dədə Qorqud" dastanının dilində qeyri-səlis məntiq prinsiplərinin ifadəçisi olan bəzi konkret dil vahidlərinin işlənməsi təbii ki, bizi onları ayrıca təhlil etməyə sövq edir. Biz Dastanın dərinliklərinə bu işarələr (onlara qeyri-səlisliyin tikinti materialı da deyə bilərik) vasitəsilə enməyə çalışırıq. Dastanın gizli qatlarının bu şəkildə "açılması" onun məxəzini bədii təfəkkürün oyanmasının ilkin dövrlərinə aparır. Qədimlik, özü də tarixdən əvvəlki mifoloji tarixin qədimliyi əyani şəkildə gözümüz önündə canlanır.

Dastandakı bir sıra dil vahidləri – ayrı-ayrı sözlər, qoşa sözlər, qoşmalar, saylar, qeyri-müəyyən əvəzliklər, təqlidi sözlər, zərflər, modal sözlər qeyri-səlisliyin formal əsasını hazırlamaqda sanki dediyimiz kimi bir tikinti materialı rolunu oynayır. Onları bir ümumi adla *hedclər* deyə adlandıracağıq.

Hər şeydən əvvəl hedc nədir və biz hedc deyərkən nəyi nəzərdə tuturuq?

Qeyd edək ki, çoxluqlar nəzəriyyəsinin kökündə linqvistik dəyişənlər ideyası durur.[20] Linqvistik dəyişən qeyri-səlis dəyişəndir. Məsələn, "Burla xatunun boyu hündürdür" deyərkən bu ifadə linqvistik dəyişən olan "hündürlüyün" linqvistik dəyər olan "uzunboylu" olduğunu nəzərdə tutur. Linqvistik dəyişənin mümkün dəyərlərinin diapozonu həmin dəyişənin da-

[20] *Baxın: Aliev, R.A. Aliev, R.R.: Soft Computing and Its Application. World Scientific, 460 p. (2001).*

nışıq aləmini təmsil edir. Məsələn, linqvistik dəyişən olan "sürət"in danışıq aləminin (universe of discourse) diapozonu 50 ilə 220 km saat arasında ola bilər və *çox yavaş, orta, sürətli, çox sürətli* kimi qeyri-səlis alt çoxluqları əhatə edər. Linqvistik dəyişən öz arxasınca qeyri-səlis çoxluq kvalifikatorlarının – hedclərin gəlməsini şərtləndirir. Linqvistik hedclər vasitəsilə qeyri-səlis çoxluqların forması bu şəkildə dəyişir.

L.Zadənin dediyi kimi linqvistik ifadələr (riyazi dillə desək, dəyişənlər) elə ifadələrdir ki, onların qiymətləri (dəyərləri) rəqəmlərlə yox, söz və ya cümlələrlə ifadə edilir. Bu dəyərlərin hedclərlə təmsil olunması tədqiqat üçün geniş imkanlar açır. Məsələn, linqvistik dəyişənin nümunəsi otaq temperaturu ola bilər. Onun linqvistik dəyərləri isə "soyuq", "isti", "yüksək", "həddən çox" (və sonsuz sayda başqa) hedclər ilə ifadə oluna bilər. Onların hansının məqamına görə daha adekvat və uyğun olaraq işlənməsi kontektlə və ya tədqiqatçının münasibətilə bağlıdır.

Linqvistik hedc qeyri-səlis çoxluğun mənasını dəyişdirən vasitədir. Məsələn, "nə qədər yüksək temperatur olar?" sualına cavab verməyə çalışaq. Bu suala *çox yüksək, bir qədər yüksək, az yüksək, orta yüksək* və s. kimi cavablarımız ola bilər. Bu, temperaturun qeyri-səlis çoxluğunun ifadəsi olan müxtəlif hedclərin nümunələridir.

Real mətnlərdə hedclərin, adətən, aşağıdakı növlərindən istifadə olunur.

– Qeyri-səlis çoxluğu gücləndirən (çox, həddən artıq...) hedclər,

– Qeyri-səlis çoxluğu yumşaldan (bir qədər, bir növ...) hedclər,

– Ehtimalları ifadə edən (ehtimal ki, mümkün deyil ki...) hedclər,

– Qeyri-müəyyən miqdarları ifadə edən (ən çox, nadir hallarda...) hedclər.

Məsələn, "Həqiqət" anlayışı üçün Həqiqət = (Tamamilə yalan. Çox yalan. Yalan. Nisbətən doğru. Doğru. Çox doğru. Tamamilə doğru) ifadələrini işlədə bilərik. Bu, yuxarıda dediyimiz kimi məqamına uyğun olaraq hedcin tətbiqi ilə bağlıdır.

Hər şeydən əvvəl onu qeyd edək ki, dil müstəvisində, konkret olaraq "Kitabi-Dədə Qorqud" mətnində özünü göstərən hedclər söylənən fikrin, məzmunun kəskinlik dərəcəsini yumşaltmağa və ya yumşaqlıq dərəcəsini

kəskinləşdirməyə xidmət edir. Bu tipli "yumşaltmalar" və "kəskinləşdirmələr" həm real dil elementləri, həm də intonasiya vasitəsilə gerçəkləşir. Dastanda hedc funksiyasında işlənən sözlər, ifadələr, qoşa sözlər, modal sözlər... aid olduqları kontekstə modallıq rəngi və ruhu qatır. Bu şəkildə onun kəskinliyini və yaxud yumşaqlığını aradan qaldırmağa xidmət edir. Başqa sözlə, hedclər vasitəsilə mətn özünün donuq (ştil) vəziyyətindən çıxır və onun səthində hərəkət yaranır deyə bilərik.

Dastanda hedc funksiyasında cıxış edən dil vahidlərinin ayrı-ayrılıqda nəzərdən keçirilməsi məqsədəuyğundur. Hedclərin əsas missiyası öz arxasında obyektiv durumu gizlətmək, bəlkə də və daha doğrusu, bu durumu kəskinlikdən müəyyən "yumşaqlıq" rejiminə (və yaxud əksinə) gətirməkdir. Belə ki, hedclərin mətn "meydanına" girməsi bir tərəfdən şüurda gedən evfemistik prosesin nəticəsidir, digər tərəfdən bu, bilavasitə təbii dil imkanları ilə bağlıdır, onun elementlərindən istifadədir. "Kitabi-Dədə Qorqud"da biz müxtəlif dil elementlərinin timsalında hedclərlə sıx-sıx rastlaşırıq. Şüurdakı evfemizm müxtəlif dil elementlərilə (hər dəfə müxtəlif dərəcədə) təmsil olunur. Buradan çıxan əsas nəticə isə o olur ki, hedclər obyektiv aləmdəki mənzərəni qeyri-səlislik pərdəsinə bürüyür.

Hedclər sanki niqabın aradan götürülməsinə xidmət edirlər. Onlar donuq vəziyyətə hərəkətverici stimul verirlər. Beləliklə də, bizə real dünyanın sonsuz çalarlarını daha adekvat şəkildə ifadə etmək imkanı verirlər. Bu isə qeyri-səlis məntiq dünyasının astanasıdır, deyə bilərik.

Əvəzliklər hedc funksiyasında

Ümumi şəkildə desək, əvəzlik adından da göründüyü kimi öz arxasında gizlənən başqa bir anlayışa, reallığa işarə edir. O, sanki bir niqabdır. Əvəzlik, adından da göründüyü kimi, həmişə nəyisə əvəz edir. Dil müstəvisində onun müxtəlif növləri var. Bu növlər içərisində bizim mövzu ilə bağlı ən maraqlısı və önəmli olanı qeyri-müəyyənlik bildirən "kimi" şəxs əvəzliyidir. Ondan xüsusi söz açmaq yerinə düşər, deyə düşünürük.

"Kimi" əvəzliyi ("kimi" qoşması ilə qarışdırmayaq!) hər hansı mətndə və real olaraq "Dədə Qorqud" mətnində obyektiv şəkildə mövcud olan də-

yəri gizlədir və onun haqda yalnız müəyyən təsəvvür yaradır. Bu şəkildə qeyri-səlislik işarəsi səlislik (dəqiqlik) haqqında təsəvvür yaradır, deyə bilərik. Beləliklə, "kimi" əvəzliyi səlislikdən uzaqlaşma missiyasını yerinə yetirdikcə, səlisliyn olmamasını qabarıqlaşdırır.

Qeyd etmək lazımdır ki, "kimi" bir hedc olaraq, daha doğrusu, bir hedc funksiyasını yerinə yetirikən, əslində, qeyri-səlis düşüncə tərzini aşkar şəkildə ortaya qoyur.

Dastanda öz əksini tapan belə bir məqama diqqət edək. Beyrək ozan libasında öz nişanlısı Banuçiçəyin toyuna gəlib çıxır. Beyrək özü istəmir ki, bəylər onu tanısın. Buna görə o öz libasını dəyişib. O ilk olaraq özünü Banuçiçəyə tanıtmaq istəyir. Bu ozanın ox atmasını tanımaya-tanımaya bəyənən Salur Qazan ətrafındakı bəylərə belə deyir:

> *"Bəylər, bu günkü bəgligim bunın olsun. Qoyun nerəyə gedərsə getsün, neylərsə eyləsün".*

Beyrək əlinə düşən belə bir fürsəti fotə vermir və istədiyini edir, düyünə əməlli-başlı "şuluqluq" elementləri qatır. Nəhayət, Salur Qazana belə bir xəbər gəlir ki, "sultanım, dəli ozan, həp yeməgi dökdi, şimdi qızlar yanına varmaq istər."

Salur Qazan "dəli ozanın", yəni Beyrəyin hətta qızların yanına getməsinə belə icazə verir. Sanki Qazanın ürəyinə nəsə dammış kimidir. Mətn deyir:

> *"Beyrək qalqdı, qızlar yanına vardı. Surnaçıları qovdu. **Kimini** dögdü, **kiminin** başını yardı..."*

Burada obyektivlikdəki durumu yumşaldan və buna görə də bizim üçün maraqlı olan **"kimi"** əvəzliyi və yaxud "kimi" hedcidir. O, burada adamların qeyri-müəyyən sayını bildirən bir əvəzlik kimi işlənmişdir. Bu qeyri-müəyyənlik isə qeyri-səlisliyin bilavasitə ifadə vasitəsidir. Belə ki, surnaçılardan neçəsinin (hansının) döyüldüyü, neçəsinin (hansının) başının

yarıldığı bilinmir. Kontekstdən də bu haqda məlumat almaq imkansızdır. Hedc yenə də obyektiv aləmdə baş verənləri niqab olub bizdən qoruyur və bizə o işarəni verir ki, biz onların yoxluğunu (və yaxud da varlığını) qəbul edək.

Bu məqamla bağlı Dastandakı başqa misallara diqqət edək:

– "***Kimi*** *oğul deyü,* ***kimi*** *qardaş deyü ağladı*;

– ***Kimi*** *aydır: keyik tozudur,* ***kimi*** *aydır: yağı tozudur*;

– *Oğlan qırx yigidin boyuna aldı, at dəpdi, cəng və savaş etdi,* ***kiminin*** *boynun urdu,* ***kimini*** *dutsaq elədi"…*

– *Çün ov yarağı oldı,* ***kim*** *atın ögər,* ***kim*** *qılıcın,* ***kim*** *çəküb ox atmağın ögər.*

– *Qalın Oğuz bəglərin dəxi* ***kimini*** *zəbun edüb,* ***kimini*** *şəhid eylədi.*

Bu misallardakı **"kimi"** əvəzliyi bir hedc olaraq öz ətrafındakı dil ünsürlərini qeyri-səlislik atmosferinə salır. Biz bilmirik ki, oğul deyən kimdir, sayı nə qədərdir, qardaş deyən kimdir və sayı nə qədərdir. Eyni şəkildə, keyik tozu deyən kim və kimlərdir, yağı tozu deyən kim və kimlərdir – bu da bilinmir. Kiminin boynu vuruldu, kimi dutsaq edildi – yenə də bilinmir. Bütün bu bilinməzlərin "müəllif"i isə yenə də ***"kimi"*** hedcidir. ***"Kimi"*** hedcinin bir əvəzlik kimi qeyri-səlis məntiqin etibarlı əskəri olaraq xüsusi mövqeyə malik olması "Kitabi-Dədə Qorqud" mətni üçün son dərəcə səciyyəvidir.

"Kimi" hedcinin funksiyasına yaxın olan hedclərdən digərlərini də göstərmək olar. Onlar qeyri-müəyyənlik dumanı yaymaqla qeyri-səlis düşüncənin ortaya çıxmasına şərait yaradırlar. Dastanda Müqəddimə hissəsində Qorqud Atanın dilindən deyilən bu sözlərə diqqət edək:

Qorqud Ata ayıtdı: Axır zamanda xanlıq gerü – Qayıya dəgə, kimsənə əllərindən almıya. Axır zaman olub qiyamət qopınca. *Bu didügi Osman nəslidir. İşdə sürilib gide yürir... və dəxi* ***neçə buna bənzər*** *söz söylədi"*.

"Neçə buna bənzər (= "bunun kimi") sözlər" Qorqudun dediklərini abstrakt şəkildə bir növ ehtiva edir. *"Buna bənzər"* dəqiq deyil, o, nəyisə

əvəz edir. Onun arxasında nə gizləndiyini yalnız təsəvvür etmək olar. Arxasında gizlənənlər isə "buna" əvəzliyi vasitəsilə özündən əvvəlki məzmuna işarət edir. Özündən əvvəlkilərin mənasını təhlil edərək onlara uyğun olan məna selinə düşməyin qısa yolu budur – "buna bənzər söz". Burada düşüncə tərzinin özü qeyri-müəyyəndir. Konkret heç nə deyilmir. Bu hal Dastanda *"ağ"* və *"qara"*dan qaçmağın çox dərindəki gizli bir üsuludur. **"Buna bənzər"** dəqiq deyil, çünki "bunun özü" deyil. Yenə də düşüncə sərbəstliyinə yönəli bir çağırışla üzləşirik. ***"Buna bənzər"*** qeyri-səlis məntiqin əsas ideologiyasına – geniş seçim mümkünlüyünə yol açan sadiq bir ifadə tərzidir. "Kitabi-Dədə Qorqud"da bu cür ifadənin olması düşüncə tərzinin formal məntiq qəlibinə sığmamasından xəbər verir. Eyni zamanda unutmaq olmaz ki, bu, epistemoloji yanaşmanı da işarələyir, çünki öz qəlibi daxilində demək istənilməyənləri aşkar şəkildə gizlədir. "Buna bənzər" hedci bu kontekstdə əsl çətir rolunu oynayır. Olanların gizlədilib başqa təsvirlə qələmə verilməsi isə unutmayaq ki, qeyri-səlis məntiqin sütunlarından biri olan epistemoloji sütunun əsas missiyasıdır.

"Buna bənzər" hedcinə intellectual çəkisinə görə ən çox uyğun gələni "böylə" ("belə) hedcidir. Dil müstəvisində o da əvəzlikdir. "Böylə" hedci mətndə öz içinə mümkün qədər böyük informativ yük yığa bilir və bununla sanki mətnin ağırlığını azaldır, onun, bir növ, "quluncunu" qırır.

Dirsə xanın 40 namərd yoldaşı onun oğlunu atanın gözündə şərləmək üçün böyük-böyük yalanlar uydurur. Deyirlər:

> *"Sənin oğlun kür qopdı, ərcəl qopdı. Qırq yigidin boyuna aldı. Qalın Oğuzun üstinə yüriş etdi. Nə yerdə gözəl qopdısa, çəküb aldı. Ağ saqqallu qocanın ağzın sögdi. Ağ birçəklü qarının südin tutdı".*

Bu yalanları sadalayandan sonra namərdlər belə davam edirlər:

> *"Aqan turı sulardan xəbər keçə, arqurı yatan Ala tağdan təbər aşa. … Xanlar xanı Bayındıra xəbər vara. Dirsə xanın oğlı böylə bidət işləmiş deyələr".*

Burada diqqəti "böylə" hedci çəkir. "Böylə", əslində, bütün əvvəldə söylənən yalanları öz semantik "heybə"sinin içinə salır. O, söylənən yalanların – informasiyanın sıxılmış, suggestiv variantıdır. Eyni zamanda onu da demək lazım gəlir ki, bu hedc vasitəsilə mətndəki ağırlıq azalır, onun, yuxarıda dediyimiz kimi, sanki quluncu sınır.

Dastanda hedc funksiyasında işlənmiş daha bir əvəzlik diqqəti cəlb edir. Bu, "cəmi" əvəzliyidir. Mətn deyir:

"Məgər qız meydanda bir köşk yapdırmışdı. ***Cəmi*** *yanında olan qızlar al geymişlərdi".*

"Cəmi" əvəzliyi Dastan dilində işlənən daha bir qədim variantdır. Müasir dildə onun yerinə adətən "bütün" əvəzliyi işlənir. Yenə də bu əvəzlik qızların sayı ilə bağlı konkret heç bir məlumat vermir. Və yaxud belə bir misala diqqət edək:

"Aslan hayqırdı. Meydanda ***nə qədər*** *at varsa, qan qaşındı".*

"Nə qədər" əvəzliyi də hedc funksiyasını qətiyyətlə yerinə yetirir və meydandakı atlar barədə səhih məlumatın gizlədilməsinə xidmət edir. Gördüyümüz kimi, əvəzliklər obyektiv aləmin üzərinə sanki tül pərdə çəkib onu bizdən gizlətməyə çalışırlar. Amma bəlkə də dilin bu obyektivliyi tam şəkildə təsviri üçün gücü çatmır?!

Deyilənlərdən çıxış edərək bir qədər də dərinə, az qala fantastik bir ideyaya gəlib çıxmaq olar. Nəinki qeyri-müəyyən əvəzliklər, hətta bütün əvəzliklər (onların adında da nəyisə əvəz etdikləri aşkar şəkildə əksini tapıb), nəinki bütün əvəzliklər, hətta dildəki bütün digər sözlər də obyektiv aləmdəki reallığı bir niqab kimi bizdən gizlədirlər. Füzulinin ölməz misrasını xatırlayaq. "Aldanma ki, şair sözü, əlbəttə, yalandır".

Və biz belə düşünərkən bütöv dilin hətta nəhəng, möhtəşəm bir *əvəzlik*, bir hedc kimi qarşımıza çıxdığını görə bilməməmiz mümkün deyil. Beləliklə, dilin bir funksiyası da üzə çıxmış olur. Bu, onun obyektiv aləmi

dil daşıyıcısından gizlətmək funksiyasıdır. Belə bir nəticə qarşısındayıq. Bütün dil korpusu qeyri-səlis məntiqin təzahürü kimi! Bu fikir ətrafında düşünməyə dəyər.

Hələlik isə reallıqdakı, bizim halda Dastandakı digər hedclər barədə dediklərimizə davam edək.

Qoşa sözlər hedc kimi

Yayğınlıq, qeyri-müəyyənlik, kəskin təsvirdən qaçma halı və nəhayət, qeyri-səlislik leksik tərkibin vacib komponentlərindən olan qoşa sözlər vasitəsilə də Dastanda özünə yer tapır. Bu məqamda qoşa sözlər hedc funksiyasında çıxış edir. Dastan qoşa sözlərin hedc kimi çıxış etmə nümunələrini bol-bol təqdim edir. Bir çox məqamlarda işlənən bu misala diqqət edək. Mətn deyir:

***"Dönə-dönə** savaşayın, **dönə-dönə** vuruşayın".*

"Dönə-dönə" kimi qoşa sözlər (hedclər) permanentlik işarəti kimi yenə də məsələnin real dünyadakı səlis tərəfini bizdən gizlətməkdədir. O, tül pərdə kimi bütün savaşların üstünə atılmış kimidir. Nəticədə, görüntülər son dərəcə yayğındır. Savaşlar neçə dəfə baş verib, onlar bir-birindən zaman baxımından, iştirakçılar baxımından, məkan baxımından, məkanın altındakı qarışqalara və soxulcanlara qədər fərqlənməyiblərmi? Əlbəttə ki, son dərəcə cüzi fərqləri də nəzərə almaqla biz heç zaman heç bir sonsuz zaman kəsiyində yüz faiz mənəvi və fiziki bazası eyni cür olan savaşla qarşılaşmayacağıq. "Dönə-dönə" sonsuzluğunda bizə təqdim edilən savaşlar bir-birindən daim fərqlənəcək və bu sonsuz fərqlər qeyri-səlisliyin mənəvi bazası olacaq.

"Dönə-dönə" qoşa sözü (hedci) düşüncə tərzinin dəqiqlikdən, başqa sözlə desək, kəskinlikdən uzaqlaşdığını öz timsalında göstərməkdədir. Və yaxud konkret sayların qoşa şəkildə işlənməsi yenə də bizi qeyri-səlislik məkanına gətirir. Əgər ayrıca işlənən hər hansı bir say səlislik və dəqiqlik bildirirsə, belə səlis sayların qoşa variantı, bir-birinin yanında işlənməsi

qeyri-dəqiqliyə və qeyri-səlisliyə gətirir. "Dəli Domrul" hekayətinin belə bir məqamına diqqət edək:

Dəli Domrul quş olub onun əlindən qaçan Əzrayılın ardınca düşərkən ürəyini soyutmaq üçün *"bir-iki göyərçin öldürdü, döndü, evinə gəli yürürkən..."*

"Bir-iki" hedcinə (qoşa sözünə) diqqət edək. Bu, iki ayrı səlisliyin (*bir* və *iki*) bir yerdə, yanaşı olduğu zaman bir qeyri-səlisliyi (*bir-iki*) yaratmasıdır. Belə ki, "bir-iki" qoşa sözünün funksiyası məhz qeyri-müəyyənlik, qeyri-səlislik yaratmaqdır. Deməli, gördüyümüz kimi iki səlislik bir-birinin yanında bir qeyri-səlislik yaradır.

Dastandakı digər qoşa sözlərə diqqət etsək görərik ki, onlar da mətnə qeyri-səlislik ab-havası gətirməkdədirlər. Bu misallara diqqət edək.

*– **İçib-içib** Ulaş oğlu Salur Qazanın alnına şərabın itisi çıqdı.*

*– Qaza bənzər **qızı-gəlini** çığırışdılar…*

*– Ərənlər əvrəni Qaraçuq çoban sapanın ayasına taş qodı, atdı. Birin atanda **ikisin-üçün** yıqdı. İkisini atanda **üçin-dördin** yıqdı.*

*– **Dünya-aləm** kafərin başına qaranqu oldı.*

*– **Gəli-gəli** yurdının üzərinə gəldi.*

*– **Ölməgə-yitməgə** getməmişdim...*

*– Evinə **yazıdan-yabandan** bir udlu qonaq gəlsə...*

*– Oğlan keyiki qovarkən babasının ögindən **gəlib-gedərdi.***

*– **Quru-quru** çaylara suçu saldım.*

*– **Tölə-tölə** şahbaz atlarını bindilər. **Qatar-qatar** qızıl dəvələrini yetdilər.*

*– Ol qızın üç canavər **qalınlığı-qaftanlığı** vardı.*

*– **Bin-bin** ərdən yağı gördümsə, oyunum dedim.*

Qətiyyətlə demək olar ki, Dastan mətninə bu misallardakı ulduz kimi səpələnmiş qoşa sözlər öz ətraflarına qeyri-səlislik əhvalı yayır. Onların hər birində qeyri-müəyyənlik və təbii ki, qeyri-səlislik düşüncəsinin təzahürünü görmək mümkündür. Bu misallarda həm sürəklilik, həm sonsuzluq,

həm də real mənzərəni "gizlətmək" cəhdi var. Hedclərin bu funksiyasını Dastanda işlənmiş qoşa sözlər böyük bir "şücaətlə" yerinə yetirir.

Saylar hedc funksiyasında

Bəzən mətndəki qatılığı, kəskinliyi yumşaltmaq üçün, özünəməxsus evfemistik ovqat yaratmaq üçün saylardan da istifadə edilir. Bu misallara diqqət edək:

*– Ağ alnında **beş** kəlmə dua qıldıq, qəbul olsın.*

*– **Otuz bin** ər yağı gördümsə, ota saydım...*

*– Ala sayvan göy yüzinə aşanmışdı. **Bin** yerdə ipək xaliçəsi döçətmişdi.*

Bu misallardakı saylar formal olaraq real göstərilsə də, əslində, onlar mahiyyətlərinə görə qeyri-müəyyəndirlər. Və niqab kimi öz arxalarında daha uzun süreni və sayı gizlədirlər. Bu misallarda təsvirini tapan nə qılınan namaz beş kəlmədir, nə Salur Qazan otuz min yağıdan bəhs edərkən, bu yağını bir-bir saymışdır, nə də Bayındır xan hökmən min yerdə ipək xalılar döşətmişdi. Əsl sayın arxasında nə gizlənir – biz bunu bilməyəcəyik. Çünki artıq qeyri-səlislik zonasına (bəlkə də sonsuzluğu ehtiva edən bir məkana) daxil olmuşuq. Əsl qeyri-səlislik elementləri və bunun nəticəsində qeyri-səlislik məntiqi Dastanda, beləliklə, həm də məhz sadə saylar vasitəsilə təqdim edilir.

Qeyri-səlis məntiqin tikinti materialı kimi nəzərdən keçirdiyimiz hedclər Dastan mətnində müəyyən yumşaldıcı (kəskinləşdirici) ab-hava yaradır. Bununla, mətndə özünü göstərən qətilik, dözülməzlik, dəyişməzlik dəyərlərinə, başqa sözlə, invariant mütləqiyyətinə qarşı bir etiraz müşahidə edilir. Şüurda gedən bu etiraz dalğaları qeyri-səlislik elementləri ilə dəstəklənir. Əcdadımızın şüurunda özünə yer tapan evfemistik nyuanslar qeyri-səlisliyin "tikinti" materialı olan hedclər vasitəsilə inkişaf etməyə başlayır və bu, nəticədə, demokratik düşüncə tərzinin, tolerantlığın formalaşmasına gətirir.

2-ci fəsil
"Kitabi-Dədə Qorqud" mətni və qeyri-səlis məntiqin "şübhə" daimisi

"Kitabi-Dəqə Qorqud" mətni barədə ilk öncə onu demək lazımdır ki, o, anaxronik mətndir.[21] Bu mətn öz filoloji və humanitar mahiyyətinə görə ədəbi məhsul olaraq müəyyən (konkret) bir dövrə aid edilə bilməz. Bu mətnə bir hissəsi digərinin sərhəddini keçən tarixəqədərki mifoloji və tarixi dövrlərin dil və təfəkkür "yadigarları" daxildir. Primitiv insanın təbiətin içində yaşadığı və özünü təbiətin tərkib hissəsi kimi "dərk" etdiyi dövrün də əks-sədası (zəif səsi) bu mətndə vardır, artıq Mədəniyyət dövrü insanının Təbiətdən distantlaşıb ona az qala nəzarətçilik funksiyasını həyata keçirdiyi dövrün də ("Mədəniyyət" dövrünün) gur səsi vardır.

Onu qeyd eləmək vacibdir ki, "Kitabi-Dədə Qorqud" mətnində hətta Təbiətdən Mədəniyyətə keçid məqamının özünün ədəbi-bədii modeli qələmə alınır. Bu faktın özü Dastanın hansı qədimlikdən formalaşa-formalaşa gəldiyinə aşkar işarədir. Belə bir suggestiv model Basatın meşədəki aslan yatağından atası Aruz Qocanın evinə (başqa sözlə desək, ağuşunda böyüdüyü Təbiətdən hələ ona tanış olmayan Mədəniyyətə) gətirildiyindən sonra yenidən geriyə – meşəyə (doğma təbiətə) qayıdışı ilə "açılır". Bu qayıdış,

[21] *O nəzərdə tutulur ki, bu mətnin konkret tarixi yoxdur. O, tarixəqədərki hadisələri də, tarixi dövrdəki hadisələri də bədii şəkildə təsvir edir. Dədə Qorqud özü müxtəlif dövrdəki hadisələrin müəllifidir. Baxın: Kamal Abdulla. Dede Korkut kitabının poetikasına giriş (şafak variantı). Ötüken, İstanbul, 2020, s. 17 (aktaran: Ali Duymaz).*

əslində, "qaçış" həm də Mədəniyyətə keçidin heç də asan yolla başa gəlmədiyindən, ağrılı-əzablı olmasından xəbər verir. Və o da maraqlıdır ki, Dədə Qorqudun özü bu hekayətdə bir personaj kimi iştirak edir və Basatın təbiətdən birdəfəlik ayrılıb cəmiyyətə daxil edilməsində açar rol oynayır.[22]

Digər tərəfdən, Dədə Qorqud mətndəki Rəsul əleyhüssəlam dövrünə yaxın (VI-VII əsrlər) hadisələri qələmə alır və Dədə Qorqudun özü bu yaxın dövrdə də öz müəlliflik funksiyasını canlı olaraq yerinə yetirir.

Qeyri-səlis məntiq bu iki möhtəşəm dövrün həm əks-sədasını, həm də gur səsini ayırmaq, onları eşitmək imkanını bizə verir.

Bəs o zaman belə bir sual ortaya çıxır. Dədə Qorqud bir şəxsiyyət kimi, bir müəllif kimi necə ola bilir ki, həm eralardan əvvəlki hadisələrin içindədir, onları işıqlandırır, həm də bizə daha yaxın bir dövrdə olmuşları təqdim edir. O, bir şəxsiyyətmidir, yoxsa onu bir prinsip kimi qəbul etmək gərəkir?! Fakt bundan ibarətdir ki, məsələyə real yanaşsaq, Dədə Qorqudu mədəniyyətşünas Viko və filosof Şellinqin Homer haqqında dedikləri kimi bir prinsip, bir əxlaq tərzi, yaşayış-hüquq tənzimçisi kimi qəbul etmək lazım gəlir. İtalyan mədəniyyətşünası C.Viko və alman filosofu Şellinq Homeri cəmi yunan şəhərlərinin hamısının bir yerdə yaşatdığı həyat tərzi və prinsipin adı kimi qəbul edirdilər.[23] Dədə Qorqud da, əslində şəxsiyyət deyil, bir prisip kimi qəbul etmək niyə də mümkün olmasın?!

Qeyri-səlis məntiqin "məntiqi" filoloji-humanitar rakursdan baxdıqda tərəddüdlərin, şübhələrin, gümanların, hardasa hətta inamsızlığın ideologiyasından doğur. Azərbaycanın böyük şairi Hüseyn Cavid yazırdı:

Şübhədir hər həqiqətin anası,
Şübhədir əhli-hikmətin atası.
Şübhə etməkdə həqlidir insan...

[22] *Baxın: Kamal Abdulla. Mitten Yazıya veya Gizli Dede Korkut (aktaran Ali Duymaz). Ötüken, İstanbul, 2019, s. 48-49.*

[23] *Baxın: Дж.Вико. Основания новой науки об общей природе наций. Москва-Киев, 1994, с. 224-225; eyni zamanda baxın: Шеллинг Ф.Б. Философия мифологии. Введение в философию мифологии. СПб, с. 21, 53 (2013).*

Qeyri-səlis məntiqin ruhu elə budur. Əslində, bu misraları qeyri-səlis məntiq ideologiyasının himni saymaq olar. Qeyri-səlis məntiqin hər hansı sadə, yaxud mürəkkəb büruzəsi zamanı özünü ilkin göstərən məhz şübhə olur. O, qeyri-səlis məntiq yolunun başlanğıcında durur. "Şübhə" komponenti qeyri-səlis məntiq kompozisiyalarının daimi göstəricisidir. Onu elə belə də adlandırmaq olar: "Şübhə" daimisi! Qeyd edək ki, riyaziyyatda və fizikada "daimi" sözü əvəzinə "sabit" sözü işlənir. Məsələn, "Plank sabiti" ifadəsini yada salmaq istərdik.[24]

Yalnız "şübhə daimisi" olan yerdə qeyri-səlis məntiqin dolambaclarına düşüb onu axtarmağa başlamaq olar. Müdriklər qeyd edirdilər ki, elmdə və sənətdə sübhə zəiflik deyil, əksinə, gücdür. Mükəmməl elmi nailiyyətlər adətən şübhəli fərziyyələrdən doğur. Engelsin dediyi kimi "şübhə elmi idrakin əsasıdır".[25] Kantın sözləri ilə desək, "ağlımda maraq, şübhə və hörmət oyandıran iki şey var: üzərimdə ulduz kimi parıldayan cənnət və içimdəki əxlaq qanunu".[26]

Aristotel məntiqinin (formal məntiqin) əsas müddəası ***"ya ... ya ..."*** ideolojisinə dayanırsa, şübhə daimisi bu dayağı dağıtmağa yönəlir.

"Şübhə daimisi"nin əsas funksiyası düşüncə tərzini ***"ya ... ya ..."*** sxemindən ***"nə ... nə ..."*** sxeminə yönəltməkdir. ***"Nə ... nə ..."*** sxemi düşüncə tərzinin demokratikləşmə rejiminə keçməsindən xəbər verir. Çünki belədə seçim imkanının genişlənməsi ilə qarşılaşırıq. ***"Nə ... nə ..."*** sxemi ***"ya ... ya ..."*** sxemindən fərqli olaraq öz içinə hökmən üçüncünü, dördüncünü ... də ehtiva edə bilir. Bu, daha demokratik düşüncə tərzinin ifadəsidir. Beləliklə, biz bu tədqiqat boyu "Kitabi-Dədə Qorqud" dastanında qeyri-səlis məntiqin ruhunu, varlığını axtara-axtara, ona aid misalları tapa-tapa avtoritar düşüncə tərzindən demokratik düşüncə tərzinə keçidin də varlığını təsbit etmiş oluruq.

---

[24] *Baxın: "Planck's constant" haqqında. https: //www.sciencedirect.com/ topics/engineering/plancks-constant*

[25] *Baxın: Friedrich Engels. Quotes. https: //kidadl.com/quotes/friedrich-engels-quotes*

[26] *Baxın: Immanuel Kant. Quotes About Ethics. https: //www.azquotes.com/ author/7722-Immanuel_Kant/tag/ethics*

* * *

Qeyri-səlis məntiq Tanrıdan başqa mütləq hesab olunan nə varsa, hamısını rədd edir. O deyir ki, mütləq mənada ağ rəng yoxdur, mütləq mənada qara rəng yoxdur, mütləq mənada sıfır yoxdur, mütləq mənada vahid yoxdur, mütləq mənada yalan yoxdur, mütləq mənada həqiqət yoxdur. Sosial mühitə keçirsək, ekstremizmin, mütləqiyyətin, totalitarizmin haqsızlığının və əsassızlığının kökü də elə bundadır. Məhz bu zaman – mütləq dəyərin ətrafımızda olmadığı zaman şübhələr, tərəddüdlər başlayır, insan beyni onun (mütləq dəyərin) axtarışı yoluna baş vurur və bu axtarış zamanı dünyadakı rəngarəngliyi, çalarları görməyə cəhd edir.

Qeyri-səlis məntiqi səciyyələndirən ən sadə tərif onun təxmini düşünmə məntiqi olduğunu söyləməkdir. Təxmini düşünmə məntiqinin fərqləndirici xüsusiyyətləri bunlardır:

(1) linqvistik ifadə vasitələrilə yer alan qütbləarası doğruluq qiyməti;

(2) bu qiymətin cədvəli;

(3) təxmini nəticə çıxarma qaydaları.[27]

Konseptual əsaslarda belə ciddi tədqiqatlar, təbii ki, elmdə, texnikada və hətta incəsənətdə inqilabi dəyişikliklərə gətirib çıxarır. Belə ki, qeyri-səlis məntiq praktiki olaraq bütün təbiət elmlərinə, tibbə, ictimai elmlərə, sosiologiyaya, konfliktologiyaya "implantasiya" olunur. Praktiki elmi tədqiqatlarda qeyri-müəyyənliyin qeyri-səlis ölçüsünün daxil edilməsi (biz bədii mətnə tətbiqdə bunu "şübhə daimisi" kimi bir qədər yuxarıda nəzərdən keçirdik) təbiətdə, cəmiyyətdə, mikro və makro aləmdə mövcud olan və baş verən hallara, proseslərə adekvat olan qeyri-müəyyənliyin nəzərə alınmasını mümkün edir. Məhz buna görə də qeyri-səlis məntiq dialektik təsdiqini tapmış yeni elmi istiqamətin yaranmasına, həmçinin daha geniş mənada idrak nəzəriyyəsinin növbəti pilləsi olan yeni fəlsəfi dünyagörüşünün əmələ gəlməsi və başa düşülməsinə səbəb olur.

[27] *Baxın: Aliev, R.A.: Fundamentals of the Fuzzy Logic-Based Generalized Theory of Decisions. Springer, Berlin, 340 p. (2013).*

Qeyri-səlis məntiq nəzəriyyəsinin gözəlliyi idrak subyektinin təsviri-tədqiqi prosesində riyazi həllərin çoxluq təşkil etməsindən və konkret situasiyalara uyğun müxtəlif cavab variantlarının təqdim olunmasından ibarətdir. Hər hansı təsvir – tədqiq prosesində isə həll çoxluğunun olması avtomatik olaraq "şübhə" komponentinin mövcudluğundan xəbər verir. Bu xüsusiyyət postneoklassik epistemologiyanın mühüm keyfiyyətlərindəndir və nəzəri sistemlər yaradıcılığında zəruri olan qeyri vahidliyin ifadəsidir. Qeyri-vahidlik prinsipinin, yəni həllər çoxluğu ideyasının günbəgün elmi idrakda qərarlaşması və güclü təsiri nəticəsində (şübhə nəticəsində) varlıq təliminin özündə elə inqilabi keyfiyyət dəyişiklikləri baş verir ki, bu, yeni-yeni ontoloji sistemlərin yaranmasını stimullaşdırır.[28]

Qeyri-səlis məntiq yalnız elmi və fəlsəfi düşüncəyə deyil, həm də texniki-texnoloji inkişafa, ictimai praktikaya, dünyanın təsərrüfat sisteminə təsir etmiş və təsir edəcək fundamental bir təlimdir. Müasir informasiya cəmiyyətinin formalaşmasında, informasiya kommunikasiya texnologiyalarının tərəqqisində intellektual sistemlərin inkişafı və idarə olunmasında, müasir təhsil və tərbiyə prosesinin tam yeni əsaslarla təşkilində qeyri-səlis məntiqin rolu və xidmətləri danılmazdır.

* * *

Qeyri-səlis məntiq prinsiplərinin reallaşmasında xüsusi funksiyaya malik olan "şübhə daimisi"nin öz təyinediciləri (lokalizatorları) var. Onların içərisində ən ifadəlisi ***"bəlkə"*** komponentidir. O, çox dəqiq sərhəddə malik təyinedicidir. Fikri, niyyəti, daha doğrusu, tərəddüdü, inamsızlığı aydın və kəskin şəkildə üzə çıxarır. Ona semantikaca yaxın digər təyinedicilər kimi özünü göstərən komponentlər, məsələn, *"ola bilər ki"*, *"sanasan"* və bir sıra başqaları daha *"yumşaq"* şəkildə üzə çıxırlar. "Bəlkə" təyinedicisi bu semantik sahədə ən uyğun, ən "etibarlı" vasitədir.

[28] *Baxın: Aliev, R.A., Tarassov, V.B.: The Man Who Changed the Scientific World: To the Centenary of the Birth of Lotfi Zadeh. Advances in Intelligent Systems and Computing. 1306, 148-164 (2021).*

Mətndə qeyri-müəyyənliklərin qiymətləndirilməsi alt qatda olan fikirlərin identifikasiyası üçün çox vacibdir. Belə ki, mətndə ifadə olunan mənanın etibarlılığına təsir göstərə biləcək bəzi qeyri müəyyənliklər ola bilər. Eyni zamanda biz mətnin linqvistik qiymətləndirilməsi zamanı hadisənin necə baş verdiyini və ya necə olacağını göstərən felin modallığına diqqət yetirməliyik. Ümumilikdə, mətn müəllifin biliyinə, müşahidəsinə və ya inanclarına əsaslanan epistemik mövqeyi haqqında da gizli məlumat verir. Bu zaman qeyri-müəyyənlik əsasən linqvistik təyinedicilərdən istifadə edilməklə ifadə edilir.

Bütün bu təyinedicilər dil faktları, əslində, "şübhə daimisi" ilə əlaqəlidir. Bu ifadələrə, sözlərə "Kitabi-Dədə Qorqud" mətninin ya aşkar, ya da gizli qatında, əlbəttə ki, rast gəlmək mümkündür. Gələcək tədqiqatlarda "Kitabi-Dədə Qorqud" mətnində məhz bu təyinediciləri axtarıb tapmağa səy edilərsə, problemi daha əhatəli şəkildə ortaya qoymuş olarıq.

Onu da qeyd etmək lazımdır ki, hedclərin (yumşaldıcı, kəskinləşdirici sözlərin, ifadələrin) digər bədii mətnlərdə axtarışı qaranlıqda qeyri-səlis məntiqin işıq zərrələrini görmək cəhdi deməkdir. Onları görməklə biz bədii mətnlərimizdəki qeyri-səlislik məqamlarını əvvəlcə fiksə edə bilərik, sonra isə təbii ki, onları şərh edərik. Biz bu kimi tədqiqatların başqa bədii mətnlərlə əlaqədar da yaranacağına inanırıq. Hələlik isə oxucuya təqdim edilən "Kitabi-Dədə Qorqud" mətnində qeyri-səlisliyin prinsiplərinin öyrənilməsindən bəhs edən bu kitab ümid edirik ki, gələcəkdə yaranacağına ümid etdiyimiz tədqiqatlar üçün nəzəri – metodoloji özül ola biləcək.

* * *

Doğrudur, "Dədə Qorqud" mətni özünün üst (aşkar) qatında bütövlükdə tərəddüdlərə, şübhələrə yol verməyən mətndir. Bu, əslində, mətnin ümumi əhvalından, ideologiyasından irəli gəlir. Mətnin aşkar ifadə olunan təqdimində bütövlükdə büdrəməyə imkan verməyən, çoxmənalılıqdan uzaq, tam müstəqimlik yolu ilə gedən bir intonasiya, ruh var. Amma bu o da demək deyil ki, "Kitabi-Dədə Qorqud" mətnində şübhəyə qətiyyən yer

yoxdur. Şübhə, tərəddüd var, amma o, aşkarda deyil, dərində gizlənib. Onu üzə çıxarmaq müəyyən stereotipləri dağıtmaq nəticəsində mümkün olur. Aruz Qocaya şübhə, Təpəgözə şübhə, Salur Qazana şübhə, Qaraca Çobana şübhə, Yalançıya şübhə motivləri dastanda yer-yer özünü aşkar göstərməyən, amma potensialda gizli qatda saxlanan sıxılmış yay kimidir.

Məsələn, mətnin bəzi leksik komponentləri bizi qədim dövrə xas münasibətlər duyumunun təsvirinə aparır. Bayandır xan bir yerə ağ otaq, bir yerə qırmızı otaq, bir yerə isə qara otaq tikdirməklə ağ (məqbul) və qara (qeyri-məqbul) variantlarına qırmızı çalarını da əlavə edir. Öz-özlüyündə iki qütb arasında (oğlu olmayanlar qütbü və qızı olmayanlar qütbü arasına üçüncünün (oğlu-qızı olmayanın) olmasını nümayiş etdirir. Bunun özü (övladı olanların qız və oğlan övladlarını da bir-birindən ayırmaq), dünyanı daha geniş spektrdə (onda mövcud olan rəngarənglikdə) görmək həvəsi və cəhdindən xəbər verir.

Başqa bir məqama müraciət edək. *"Bu adam ya diridir, ya ölü"* ifadəsinin dərinində, *"bu adam nə ölüdür, nə diri, o bəlkə bu iki reallığın ortasındadır"* kimi bir təhəmmül (şübhə) özünü göstərir. Dastan mətnində bu ehtimal özünü "küçücük ölüm" ifadəsində tapır. Bu isə o uzaq dövrdə koma vəziyyətinin adı deyilmi?!

Qeyd etmişdik ki, klassik məntiqdə "üçüncünü istisna" qanunu var. Bu qanunda deyilir ki, bir hadisə haqqında eyni zamanda bir-birinə zidd olan iki fikir varsa, ikisi də yalan ola bilməz. Onlardan biri yalan, o birisi isə doğru olur. Belədə, üçüncü istisna olunur. Qeyri-səlis məntiqdə isə bundan fərqli olaraq üçüncünün istisna qanunu yoxdur, burada iki əks fikir arasında üçüncü (dördüncü, beşinci...) müddəa da (məhz şübhənin nəticəsi olaraq) yer tuta bilər.

"Dədə Qorqud" mətnində bu qarşıdurma belə bir narrativ libasa bürünür. Mətndə ***"ol zamanlar"*** kimi adı keçən bir zaman kəsiyi var. Bu, daha qədim bir dövrün nostalji ilə anılan bir kəsiyidir. ***"Ol zamanlar"*** hər şey daha yaxşı imiş, oğullar ata sözünü iki eləməzlərdi, qızlar deyiklilərinə görünməzlərmiş və s. və i.a.

Bu cür "qızıl dövr" nostalji ilə xatırlanan əldən çıxmış keçmiş kimi bir çox xalqların mifoloji mətnlərində nisgillə yaşayır. Yunan mifologiyasındakı "qızıl dövr"ü xatırlamaq olar. "Kitabi-Dədə Qorqud" dastanında isə belə bir büruzə – dövrlərin qarşılaşdırılması (*ol zamanlar – indiki zaman...*) özü də qeyri-səlis düşüncə tərzinin ortaya çıxması üçün dayaq nöqtəsi kimi çıxış edir.

"Ol zamanlar" belə deyildi. Bəs belə deyildi, nə cür idi? "Ol zamanların" nə cür olmasını mətn böyük xəsisliklə ifadə edir. Biz onu az qala təsəvvür etməli oluruq.

"Ol zamanlar..." Tam bir qəhrəmanlıq dövrü! Nəhənglərin xasiyyəti, ruhu, fiziki gücü indikilərlə (dastandakı adamlarla) heç uyğun gəlməzmiş. Təbiətdəki məqam və Mədəniyyətdəki məqamın üzbəüz durması! Bunlar müqayisə olunmazdırlar.

Mətn deyir ki, ***"ol zamanlar"*** oğuz yigitləri yatanda yeddi gün, yeddi gecə yatardılar və bu zaman oğuz yigidini yuxudan oyatmaq heç bir vəchlə mümkün olmazdı. Salur Qazan və Qanturalı belə bir halı "yaşayırlar". Amma bu halı adlandırmaq (adını qoymaq!) lazımdır. Təbii dilin buna gücü çatır. Bu halın adına mətndə "küçücük ölüm" deyilir. Nə əsl həyat var, nə də əsl ölüm. Ortadakı reallıq isə üçüncüdür, yəni istisnadır.

"Küçücük ölüm" hadisəsini artıq müasir tibb də təsdiq edir. Həmən vəziyyətin bu gün təsvir edilən elmi adı "koma"dır. Yenə də qeyri-səlis məntiq köməyə çatır və üçüncünü istisna qanununun yararsızlığını aradan götürür. Nə ölüdür, nə diri – **bəlkə** komadadır?! Şübhə burada bizi həqiqətin astanasına gətirir.

"Dədə Qorqud" mətnində qeyri-səlis məntiq nəticəsində ortaya çıxan bu ad (*"küçücük ölüm" – koma*) sübut edir ki, *"küçücük ölüm"* adı məhz şübhə vasitəsilə tapılıb, nə ölü, nə də diri olan adama Aristotel məntiqi ilə yanaşmaqdan imtina edilib, bu hala yeni prinsiplə qiymət vermək ehtiyacı yaranıb və nəticədə "koma"nın qədim oğuz cəmiyyətində və təbii ki, qədim Azərbaycan türk dilində belə bir adı (*"küçücük ölüm"*) ortaya çıxarılıb. Əvvəlcə reallığın özü müşahidə edilib (əlbəttə ki, "şübhə" elementinin

tətbiqi ilə!), sonra isə ona ad qoyulub. Bu ad məhz qeyri-səlis məntiq üçün vacib olan "üçüncü"nün funksiyasını yerinə yetirib.

Təbiət dövrünü yaşayan insan belə bir məntiqlə gözümüz önündə daha rəngarəng dünyanın mənzərəsini cızır. Bu, artıq onun müəllifi olduğu dünyanın mənzərəsidir. O, ***"ya ... ya ..."***nın arasında öz ilkin rəngi və rayihəsi olan bir dünyanı bizə göstərir. Bu, təbiət dövrünü yaşadığı zaman insanın bir müəllif olaraq gördüyü (görə bildiyi) dünyanın rəngləridir. Təəssüf ki, təbiətin qoynundan çıxan insan bu rəngləri görmək, onlarla və onlarda yaşamaq funksiyasını Mədəniyyət dövrünə qədəm qoyduğu zamandan bəri itirə-itirə (əslində, unuda-unuda) gəlməkdədir.

Qeyri-səlis məntiqin prinsiplərini sistemli şəkildə "Dədə Qorqud" mətninə (əslində, hər hansı ədəbi mətnə) tətbiq etmək olduqca ağır məsələdir. Adda-budda diqqətimizi çəkən məqamların artıb çoxalacağı və nə zamansa sistemli bir mənzərə yaradacağı, əlbəttə ki, mümkün ola bilər. Amma bunun üçün hər şeydən əvvəl gərəkdir ki, dilimizin potensialının "yatmış" və diqqətimizdən kənarlaşmış ifadə və sözləri qeyri-səlis məntiqin "şübhə daimisi"nin "toruna" düşsün.

Həmahəng fəlsəfi fikir və çalarlar bir tərəfdən riyazi simvollarla yazılmış düstur ilə, o biri tərəfdən isə təbii poetik dil ilə öz təzahürünü tapır. Qeyd etmək lazımdır ki, təbii dilin imkanları son dərəcə böyükdür. Riyaziyyat yaranan vaxt təbii dilin gücü çatsaydı ("dil xəstəliyi"ni yada salaq!) fizika, iqtisadiyyat, sosial həyat, ümumiyyətlə, yaşadığımız dünya indiki ideallaşdırılmış düsturlarla yazılmazdı. Təbii dilin gücsüzlüyü ("dil xəstəliyi") ona gətirib çıxarmışdı ki, yeni yaranan anlayışların adlarını onlar yarandıqları vaxt qoymaq mümkün olmamışdı. Bu adlar hələlik "gücsüz" dildə artıq mövcud olan sözlərin hesabına yaranırdı. Metaforaların yaranmasının əsl səbəbini məhz burada axtarmaq lazımdır. Eyni zamanda "dilin xəstəliyi" (gücsüzlüyü) onun şüurun inkişafından geri qalmasına şərait yaradırdı. Və yaxud əksinə. Dilin şüurdan geri qalması onun xəstəliyinə səbəb olurdu. Bu şəkildə dil dünyadakı rəngarəngliyin adekvat təsvir mexanizminə çevrilə bilmirdi və yaxud belə bir çevrilmə üçün çətinlik çəkirdi.

Bu məqamla bağlı dilçilər üçün böyük elmi perspektivlər var. Belə ki, artıq gücünü bərpa etmiş və "sağalmış" təbii dilin vasitəsilə biz, demək olar ki, istənilən informasiyanı təsvir edə bilərik. Riyazi dilçiliyin köməyi ilə avtomatik tərcümə, yaradıcılıq proseslərinin modelləşdirilməsi, o cümlədən, nağılların, hekayələrin, dastanların, melodiyaların düzənlənməsi və digər məsələləri həll etmək olar. Hesablamanı, məntiqi nəticə çıxarmanı isə təbii dildə apara bilərik. Sadaladığımız problemlərin həllinin açarı yenə də qeyri-səlis məntiqdir.

Təbii dildə və yaxud hər hansı müəyyən dildə ünsiyyət quran insanların öz hisslərini, mühakimələrini, davranışlarını ifadə etmək üçün öz semantikası, praqmatikası vardır. İnsan beyni mətni/səsi təbii dilə çevirə bilən və anlaya bilən ecaskar bir maşındır. Təbii dilin qeyri-müəyyən, qeyri-səlis, qeyri-aydın/ikimənalı və qeyri-təsvirçi kimi xüsusiyyətlərinin olması da nəzərə alınmalıdır. Qeyri-müəyyənlikləri qeyri-səlis məntiqlə həll etmək olar. Qeyri-aydınlıq və qeyri-müəyyənliyin mövcudluğunu anlamaqla qeyri-səlis məntiq təbii dili təhlil edən sistemə faydalı fikirlər verə bilər.

Qeyri-səlis çoxluq nəzəriyyəsində təbii dildə (məsələn, "Kitabi-Dədə Qorqud" dilində) mətnin qiymətləndirilməsi prosesi üç əsas addımı əhatə edir:

1. Mətnin tədqiq edilən kateqoriyalara ayrılması (mətnin kateqoriyalara bölünməsi)
2. Prioritetləşdirmə və yaxud təkrar olunan məqamlar (işlənmə tezliyi);
3. Xüsusi (tədqiqat) mövzunun ayırd edilməsi.

Bunların hər biri mətnin qiymətləndirilməsi işinə öz "töhfə"sini verir, eyni zamanda bu qiymətləndirməni faktiki olaraq reallaşdırır.

* * *

Onu da qeyd edək ki, bir sıra alimlərin dediyi "qeyri-səlis məntiq həyatımıza hələ bundan sonra girəcək" ideyasına qarşı çıxan, onu təsdiqləməyən fikir ilə razılaşmamaq çətindir. Belə ki, biz altını cızaraq qeyd etmək

istərdik ki, hər hansı qədim bədii mətnimizdə, o cümlədən, ilkin olaraq "Kitabi-Dədə Qorqud"da, başqa sözlə desək, təbii dilin "canında" qeyri-səlis məntiqin ruhu lap əvvəldən var idi. Yəni tarixdən əvvəlki mifoloji dövrdə hətta əcdadlarımız qeyri-səlis məntiqin prinsipləri ilə düşünürdülər, deyə bilərik. Hərəkətinə və dediyinə şübhə, tərəddüd müasir insanda olan kimi qədim əcdadımızın da həyat tərzində özünü göstərir. "Kitabi-Dədə Qorqud" bu şübhə və tərəddüdlərin bol-bol rast gəlindiyi bir ədəbi-bədii məkandır. Dastan qeyri-səlis düşüncə, buradan da qeyri-səlis məntiq üçün münbit zəmindir.

Biz bu fikirdəyik ki, qeyri-səlis məntiq daha çox "Təbiət" dövrünün funksiyasıdır. O ya daşlaşıb, ya da unudulub və yalnız unudulmuş olsa da təhtəlşüurumuzda yaşamağına davam edib. Bizim indi ona yanaşmamız qədim rəngarəngliyi geri qaytarmaq cəhdimizdir. Bəzən alınır, bəzən alınmır. Alınmayanda, belə deyək: hələ ki, alınmır.

3-cü fəsil
"Kitabi-Dədə Qorqud" mətni və qeyri-səlis məntiqlə üçüncünün axtarışı

Bəzən qeyri-səlis məntiq deyərkən paradoksal kəlamları, bir-birinə zidd fikirlərin gözəl ifadəsini, adi məntiqlə dərk edilməyən, yaxud çətin dərk edilən məqamları nəzərdə tuturlar. Bu, qətiyyən düzgün deyil. Əslində, qeyri-səlis məntiq formal məntiqin daha geniş "əraziyə" səpələnmiş təzahürlərini görməklə üzə çıxır və onun birinci, ən əsas funksiyası dünyanı iki rəngdə – *ağ-qara* görmək yox, *ağ* və *qaranın* arasındakılarla bir yerdə görməkdir. Düşüncədəki prosesin ahənginə düşmək, dilimizə bu rakursdan baxmaq və ortadakı (dilimizlə şüurumuz arasındakı) uyğunsuzluğu aradan götürmək cəhdidir. Cəhdin böyüklüyünə söz ola bilməz. *"Ağ"* və *"qara"* qütbləri arasında potensial şəkildə mövcud olan digər rənglər (ağımtıl, ağabənzər, dümağ ..., qaramtıl, zilqara, qapqara, qaravari ...), çalarlar (bozumtul), məqamlar (işıqlı, zülmət ...) dünyanın, münasibətlərin **daha** dərin və **daha** rəngarəng olmasından xəbər verir. Qeyri-səlis məntiq bu "daha" sözünün arxasında gizlənənləri tapıb ortaya çıxarmaqla məşğuldur. O, düşüncəmizlə dilimiz arasındakı uyğunsuzluğu mümkün qədər "rəndələmək" missiyasını yerinə yetirir.

Bu "uyğunsuzluğu" vaxtilə böyük şair Füzuli də qələmə almışdı. Onun son dərəcə dərin bədii ümumiləşmədə təqdim edilən misrası, əslində, düşüncə ilə dilin üzbəüz durmasına işarə edir. "Aldanma ki, şair sözü,

əlbəttə, yalandır" deyən şair dərində məhz düşüncəyə nisbətən sözün yalan, yəni doğru olmayan, yəni həqiqətdən kənar, yəni düşüncəmizə uyğun gəlməyən bir reallıq olduğunu deyir. Düşüncənin ağız boşluğundan bu tərəfə (informasiya kanalına) yönləndiyi zaman itirilənlərə münasibəti Füzulidən çox-çox sonralar, XIX əsrdə görkəmli rus şairi Tütçev belə ifadə etmişdi: "...deyilmiş fikir də, əslən, yalandır...".

Bəri başdan yada salaq ki, hələ bu kitabın giriş hissəsində biz "Kitabi-Dədə Qorqud" mətnində qeyri-səlis məntiq elementlərinin mövcudluğu barədə ümumi şəkildə söhbət açmışdıq. Burada isə onu qeyd etmək istərdik ki, bu və bundan sonrakı fəsillərdə də qeyri-səlis məntiq nəzəriyyəsi işığında "Dədə Qorqud" dünyasına sistemli baxışı əks etdirmək niyyətindəyik.

Əvvəlcə qısaca da olsa, qeyri-səlis məntiq nəzəriyyəsinin təməl quruluşuna nəzər salaq. Bununla biz qeyri-səlis nəzəriyyədən hər hansı konkret ədəbi-bədii mətnə (bizim halda "Kitabi-Dədə Qorqud" mətninə) keçid mexanizminin səbatlılığını, effektliyini də üzə çıxarmış olarıq.

Elmi ədəbiyyatda qeyri-səlis məntiq iki anlamda dərk edilir:

1) dar, sırf məntiqi anlamda;

2) geniş, başqa sözlə, qeyri-səlis çoxluqlar və onların şaxələnmiş budaqları anlamında.

Bunları nəzərə alaraq deyə bilərik ki, bütövlükdə L.Zadənin qeyri-səlis məntiq nəzəriyyəsində söykəndiyi dörd sütun (faset) var:

1) ümumi məntiq sütunu;

2) qeyri-səlis çoxluqlar sütunu;

3) epistemik (epistemoloji) sütun;

4) münasibətlər sütunu.[29]

Məntiq sütunu çoxmənalı məntiqin ümumiləşdirilmiş formasıdır. O, "doğru" ilə "yalan" arasında, "yer" ilə "göy" arasında bir körpü salır. Bu körpünün həm ucları (qütbləri), həm də bu uclar arasında sonsuz və kəsilməz yolu var.

[29] *Baxın: Zadeh, L.A.: Is there a need for fuzzy logic? Information Sciences. 178 (13), 2751-2779 (2008).*

Klassik Aristotel məntiqində yalnız uclar (qütblər) özünü göstərir. Bu iki uc məntiqində binar məntiqin doğruluq anlayışı "işləməyə" başlayır və biz bu zaman dörd əsas qanunun təzahürü ilə qarşılaşırıq. Onlardan biri olan **identiklik qanunu** "həqiqət həqiqətdir", yaxud "Dədə Qorqud mətni Dədə Qorqud mətnidir" kimi formalaşır. Dilçilikdə buna eynilik cümlələri də deyilir.

Ziddiyyət qanunu "həqiqət həqiqət olmayan deyil", yaxud "Qazan bəy Qazan bəy olmayan deyil" kimi formalaşır.

Üçüncünü istisna qanunu deyir ki, ya həqiqət, ya həqiqət olmayan, yaxud ya həyat, ya da ölüm arasında heç nə yoxdur. Amma biz artıq bilirik ki, dastan mətnində ölümlə həyat arasında "üçüncü" hal özünü göstərir. Və bu üçüncünü "Kitabi-Dədə Qorqud" mətni kifayət qədər adekvat təsvir edir.

Qazan xan və Qanturalı ilə bağlı "küçücük ölüm" ifadəsini, Dirsə xanın xatununun irəli sürdüyü övladsızlıq səbəblərini, Dəli Domrulun yad qızı halalının mərdanə hərəkətini və başqa uyğun məqamları burada xatırlamaq yerinə düşərdi.

Və nəhayət, **rasional nəticə çıxarma qanunu** hər hansı mətndən onun ilkin təşkiledicilərinə əsaslanaraq ümumi nəticə çıxarmaqla formalaşır. Başqa sözlə, rasional nəticə çıxarma qanunu ilə silahlansaq, "Kitabi-Dədə Qorqud" mətninin müqəddiməsindən çıxış edərək Dastanın ümumi ruhunu tuta və qiymətləndirə bilərik.

Qeyd edək ki, bu qanunlar yalnız o zaman "işləyirlər" ki, müddəa iki mümkün qiymətdən (qütbdən) birinin seçimi ilə, yəni Aristotel yanaşımı ilə məhdudlaşır. Belədə biz sövq – təbii düşüncənin totalitarlığı ilə üzləşirik: nədi – budu, ya budu, ya da bu biridi, başqa heç nə yoxdur! Seçim imkanı gördüyümüz kimi minimumdur.

Belə bir "Okkam ülgücü"ndən keçən düşüncə tərzi, əslində, həm də düşüncənin sərhədlərini müəyyənləşdirir. Hər hansı sərhəd isə faktiki olaraq Prokrust çarpayısıdır və düşüncənin totalitar mahiyyətindən xəbər verir.

Düşüncənin demokratiyası isə Aristotel məntiqindən kənarda, L.Zadə yanaşmasında özünü göstərir. Bu o zaman olur ki, iki qütbün arasına başqa

seçimlərin də (üçüncünün, dördüncünün...) daxil edilmə imkanı (potensiyası) yaranır. "Okkam ülgücü" bir kənara atılır. Elə təkcə bunun özü bizi tolerantlıq məntiqinin astanasına gətirir. "Kitabi-Dədə Qorqud" mətnini həyata gətirən bədii düşüncənin mənşəcə demokratik olmasına şübhə ona görə yoxdur ki, burada üçüncünü həmişə istisna etmək mümkün deyil. Burada iki qütb arasında üçüncü də var, bəzən isə dördüncü və beşinci də yox deyil.

* * *

Bu hissədə biz qeyri-səlis məntiqin "görmə" bucağından "Kitabi-Dədə Qorqud" mətnində üçüncünü istisna qanununun özünün istisnasından danışacağıq. İki qütb arasındakı boşluqda Aristotel məntiqinə zidd olaraq üçüncünün, dördüncünün ... axtarışına çıxacağıq.

Beləliklə, biz qeyri-səlis məntiqin birinci məntiq sütununa söykənərək qədim Dədə Qorqud dünyasına qeyri-səlis yollarla ekskursa başlayırıq.

Fərz edək ki, qarşımızda bir adam var. Qarşımızdakı adam bizim təcrübəmizə və Aristotelin iddiasına görə ya ölüdür, ya diridir. Amma biz bilirk ki, həyat bu iki qütbdən daha rənglidir. Ən azı bu adam "Dədə Qorqud" mətnində deyildiyi kimi nə ölü, nə diri ola bilər. O, "küçücük ölüm" halında, müasir tibbi dildə desək, "koma"da ola bilər. Koma halı bu məqamda məntiq zəncirindəki üçüncü vəziyyətdir. Aristotel məntiqi isə üçüncü halı (bizim halda – komanı) istisna edir.

"Ya ... ya ..." ideologiyası bizə həyat və ölümdən başqa heç nə qoymurdu. Bunun əksi olaraq qeyri-səlis məntiq bizə üçüncünü verir. O bizə deyir ki, nə həyatın, nə də ölümün olmadığı başqa bir reallıq da var. Bu reallıq iki qütbün ortasındadır və o küçücük ölüm (koma) kimi özünü göstərə bilər. Məsələnin bu şəkildə, yəni üçüncü daxil olmaqla ***"nə ... nə ..."*** sxemli yola qədəm qoyması, heç şübhəsiz, düşüncədəki demokratik cücərtilərdən xəbər verir.

"Nə ... nə ..." sxemi ilə ***"ya ... ya ..."*** sxeminin müqayisəsi maraqlı nəticələrə gətirir.

"Nə ... nə ..." sxemi öz arasına hökmən üçüncünü qəbul etmək imkanını yaşadır. Bu onun sintaktik intensiyasının göstəricisidir. "Nə ölüdür, nə diridir" özündən sonra hökmən "bəs nədir?" sualını gətirir.

"Ya ... ya ..." sxemində isə belə suala yer yoxdur. Oradakı seçim artıq əvvəlcədən müəyyəndir. İki qütbdən biridir. Buna görə də qətiyyətlə demək olar ki, qeyri-səlisliyin təzahür çərçivəsi olan ***"nə ... nə ..."*** sxemi daha geniş seçim üçün obyektiv imkan yaradır. Və indicə qeyd etdiyimiz kimi demokratik düşüncə tərzindən (demokratik cücərtilərdən) xəbər verir.

* * *

"Kitabi-Dədə Qorqud" mətnində qeyri-səlis məntiq elementləri az deyil deyərkən, o nəzərdə tutulur ki, qədim oğuzlarda dünyanı, insanlar arasındakı münasibətləri daha obyektiv, daha adekvat, reallığa daha uyğun şəkildə görmək ehtiyacı və ehtirası var. Qədim oğuzlar ***"ya ... ya ..."*** sxemindəki ikili qarşılaşdırmadan ibarət məntiq ilə barışmırlar. Onlar bu ikisi – **"ya"** və **"ya"** arasındakı uçurumda üçüncünün, hətta dördüncünün axtarışına qalxırlar. Təbii şəkildə ortaya ***"nə ... nə ..."*** sxemi çıxır. Məhz axtarış onları bu sxemə gətirib çıxarır. "Ya ... ya ..."nın imkan vermədiyini "nə ... nə ..." ortaya çıxarır və belə deyək, haman ortanı doldurmağa cəhd edir.

İlkin olaraq onu qeyd edək ki, "üçüncünün axtarışı" və büruzəsi, əslində, əlimizdəki mətnin tarixdən əvvəlki çox qədim mifoloji dövrə məxsus olmasını bir daha təsdiqləyir və beynimizdə gedən demokratik proseslərin dünyada gördüklərimizi "izləməsi"nin əks-sədası kimi qəbul edilir. Hələlik bu "izləmə" zəif şəkildə həyata keçirilir. Şüurumuz gerçəkliy adekvat dərk etməkdən geri qalır, dilimiz isə şüurumuzu adekvat təsvir etməkdən. Xatırlayaq: "Aldanma ki, şair sözü, əlbəttə, yalandır!" deyən Füzuli hələ o zaman bu qarşıdurmaya (dil və şüur) münasibət bildirirdi. Qeyri-səlis məntiq məhz bu məqamda şüur və dil daşıyıcısına yardım etməyə tələsir.

Biz bu hissədə qeyri-səlis məntiqin əsas prinsiplərindən birinə – üçüncünün istisnası qanununa istisna qoyan prinsipinə əsaslanırıq. Bir qədər əvvəldə yazdığımız kimi üçüncünü istisna qanunu belə bir müddəa

irəli sürür ki, iki əks qütbün arasında heç bir orta hal ola bilməz. Amma ***"ya ... ya ..."***nın arasında ancaq boşluq görən formal məntiq (Aristotel məntiqi) heç də həmişə doğru olmur. Əslində, qeyri-səlis məntiq bunu deməklə onu göstərdi ki, "üçüncünü istisna"nın da öz istisnası var. "Kitabi-Dədə Qorqud" mətnindəki məntiqdən çıxış etsək, ölümlə həyatın arasında *"küçücük ölüm"* (*koma*) olan kimi. Bayandur xanın məclisində qurulmuş ağ çadırla qara çadır arasında qırmızı çadır qurulan kimi. Baba və anadan fərqli olaraq ərinə canını qurban verməyə hazır olan Dəli Domrulun halalı kimi. Övladsızlığın səbəbi olaraq Dirsə xanın xatununun gətirdiyi dəlillər kimi. "Kitabi-Dədə Qorqud" mətni bu kimi misalları bizə səxavətlə verir.

Ümumiyyətlə, qəti hökmlərə həmişə şübhə ilə yanaşmaq lazımdır. Onların gözlənilməz "keçmişləri" ola bilir. "Kitabi-Dədə Qorqud"un Müqəddiməsi belə qəti hökmlər sarıdan bol materiala malikdir. Onların içərisində Dastanın Müqəddiməsində yer alan və ilk baxışda sanki heç bir şübhəyə imkan verməyən bu tipli cümlələr var:

– Çıxan can geri gəlməz!
– Ölən adam dirilməz!

Sanki hər şey aydındır. Sanki qələmə alınanlar adi həqiqətdir. Amma yenə də aydın olmayan bir məsələ var. Nə üçün bu deyimlər qədim oğuz cəmiyyətinə ünvanlanır?! Əgər Dədə Qorqudu bu cəmiyyətin ilk müəllimlərindən saysaq bu deyimlə o hansı dərsi vermək istəmişdir?! Oğuz cəmiyyətinin formalaşmağa başladığı uzaq qədim dövrdə belə deyimə ehtiyac var idimi?! Həqiqətən, bu hökmün öz qəribə keçmişi yox deyilmiş.

Deməli, əgər hökm bu cür qətiyyətlə deyilirsə (onun hətta yazıda olsa belə, kəskin intonasiyasını da hiss etmək mümkündür), belə deyimə ehtiyac var imiş. Primitiv ibtidai cəmiyyət üzvü – mifoloji təsəvvürlərin əhatəsində ilanların sarıldığı Laokoon kimi inildəyə-inildəyə qalmış cəmiyyət üzvü olan birinə belə bir hökmə (informasoyaya) malik olmaq son dərəcə lazım idi. Belə bir cəmiyyət üzvü üçün bu hökm informativdir, yeni məlumatdır. Çünki o inanırdı ki, çıxan can (ruh) geri gələcək. Necə ki, Dirsə xanın

xatunu qarşı yatan Qara dağın yatmış olduğuna ("Qarşı yatan Qara dağdan bir oğul uçurdunsa, degil mana!") və nə zamansa yuxudan oyanacağına inanırdı. Bu qədim insan eləcə də ölən adamın diriləcəyinə inanırdı.[30]

Bu cəmiyyət üzvünü real həyata gətirmək lazımdır. Hələlik isə o, real həytada deyil, metaforaların, mifoloji düşüncənin (torların) əhatəsindədir. Real həyata gəlmə yolunu Dədə Qorqud göstərirdi. Dədə Qorqud bu cəmiyyət üzvünə əsl həyatda, yuxulardan, mifoloji təsəvvürlərdən kənar həyatda yaşamaq dərsi verirdi. Buna ehtiyac varmı idi? Var idi.

Bizə indi kimsə belə bir məlumat versə və "*ölən adam dirilməz*" desə, bu bizə qəribə gələ bilər və əslində, bu bizə heç bir informasiya (yeni məlumat) verməz. Ölən adamın dirilməyəcəyinə, çıxan canın geri gəlməyəcəyinə biz çoxdan (!) inanmışıq. Amma o qədim primitiv dövr üçün bu xəbərin informativ, yeni olan məzmunu var idi. Deməli, qədim dövrün bilgi əlaməti *"çıxan can geri gələr"* qütbündə formalaşmışdısa, yeni dövrün (yazı dövrünün) əlaməti *"çıxan can geri gəlməz"* qütbündə formalaşırdı. Və bunların birinin digərinin içində əriməsi tarixilik prinsipi ilə baş verir. Arada isə sonsuz mövcudluqlar!! Sonsuz sayda istisnalar!!

Qeyri-səlis məntiq və mifoloji təsəvvürün nümunəsi olan *"ölən adam dirilər"* təsəvvürü zaman keçdikcə formal məntiq nümunəsinə ("ölən adam dirilməz") çevrilir. "Kitabi-Dədə Qorqud" mətnindəki qəti hökmlər (*"çıxan can geri gəlməz!"* kimi deyimlər) bu təsəvvürə son qoymaq çağırışlarıdır. Düşüncə tərzimizin inkişafı boyunca bəzən qeyri-səlis məntiq öz yerini alışdığımız məntiqə (formal məntiqə) bu şəkildə verir.

Yenə də Dastanın Müqəddimə hissəsində qadınların səciyyəsindən danışarkən "Kitabi-Dədə Qorqud" mətni onlardan birinin dili ilə qonşularına belə deyir. Bu qadın səhər evdən çıxıb axşam gələn bir qadındır:

[30] *İtaliyanın Çerveteri şəhərində bu şəhərin qədim sakinləri olan etruskların yeraltı şəhərləri var. İndi bura muzeydir. Bu yeraltı şəhərin küçələri ilə gəzirsən, evlər görürsən, hansına istəsən gir və sən orada otaqların birində ölmüş ailə üzvünün artıq sümükləri qalmış cəsədini (cəsədləri) görəcəksən. Elə bunun özü haman ölmüş adamın nə zamansa diriləcəyinə inamın ifadəsidir. Qədim, primitiv cəmiyyətlərdə belə bir hal müşahidə olunur.*

"Ölməyə-itməyə getməmişdim. Yatacaq yerim yenə bu xaraba olasıydı".

Mətndən hasil olan nəticə budur. Dastanın daxili məntiqinə əsasən, qadın gözdən kənar oldusa o ya ölüb, ya da itib (*"ölməyə-itməyə getməmişdim"*). Burada daha bir (başqa) variantı mətnin diskursu (cümlənin özü ilə gətirdiyi mətnaltı mənası) verir.[31] Bu ikisinin arasında "öyləyənəcən" (günortaya qədər) gəzmək var. Və bu məna qütblərin arasına "üçüncü" kimi daxil olur: *"Ölmək – öyləyənəcən gəzmək – itmək!"* Bu ortadakı variant qütblər arasına qeyri-səlisliyin əsas funksiyasını – həyatdakı rəngarəngliyi gətirir. Daha doğrusu, həyatdakı rəngarəngliyin bir parçasını gətirir.

Başqa bir boya (hekayətə) müraciət edək. Bir qədər yuxarıda biz bu barədə fikir bildirmişdik. Dirsə xan Bayındır xanın məclisindən sonra özözlüyündə nədən oğlu-qızı olmadığının səbəbini, yaxud səbəbkarı axtarır və belə bir formal nəticəyə gəlir: *"Bu qara eyib bana ya bəndəndir, ya xatundandır"*.

Bu məntiqə əsasən, Dirsə xanın beynində *"ya mən – ya xatun"* qütbləri formalaşır. Dirsə xanın "səlis" məntiqində hər hansı başqa bir səbəb yoxdur, ola bilməz. Tam olaraq bir Aristotel davamçısı! İstisna halı (yaxud istisnaları) Dirsə xanın Xatunu ortaya gətirir. O, əslində, L.Zadə məntiqinin nümayəndəsi kimi çıxış edir və Dirsə xana səbəb kimi bir neçə variant göstərir:

1) atdan, dəvədən, qoyundan, qoçdan öldür, ac görsən doyuzdur;
2) Yalın görsən, geyindir;
3) Borclunu borcundan qurtar.

Xatunun göstərdiyi səbəblər məhz istisnalar kimi özünü göstərir və beləliklə, Dirsə xanın günahkar (günah) aramasındakı qütblərə (*"mən – xatun"*) qeyri-səlisliyi və yaxud indicə qeyd edilən istisnaları daxil edir. Beləcə, mətndə *"ya mən, ya xatun"* səlisliyindən rəngsizliyindən (ağ-qaralıqdan) uzaqlaşma halı baş verir.

[31] *Diskurs bizə görə mətn elementlərinin bu və ya başqa şəkildə təkrarı deyil. Diskurs mətnin özü ilə (çox zaman gizli olaraq) gətirdiyi əlavə bilik bazasıdır.*

Qeyri-səlis məntiqin büruzəsinə aid başqa bir maraqlı misal yenə həmən boyun sonlarında özünü göstərir. Dirsə xan öz oğlu Buğacı yaralamış və Buğac ov yerində yaralı qalmışdır. Anası onun axtarışına çıxır, Qazlıq dağının ətəyinə gəlir. Mətn deyir:

"Dirsə xanın Xatunu... Qazlıq dağına gəldi, çıxdı. Alçaqdan uca yerlərə qalxıb çıxdı".

Təsəvvürümüzdə ikili qütbün, yəni düzün və dağın arasında nə ondan, nə də bundan kimi dərk və qəbul edilən daha bir məkanın adı ortaya atılır. Müasir dildə bu məkanın adı *"təpə"*dir. Amma orası var ki, "təpə" sözünə biz Dastanda başqa bir yerdə rastlayırıq. Ondan burada da istifadə etmək olardı, amma istifadə olunmur. Ona görə də *"alçaqdan uca*" ifadəsinin *"yamac"* sözünün əvəzinə işləndiyini irəli sürürük.[32] "Dədə Qorqud" mətnində, deməli, *yamac* adının əvəzinə *"alçaqdan uca*" ifadəsi işlənir. İstisnalı qütblər belə formalaşır: **"alçaq yer – alçaqdan uca yer – dağ".** Bu şəkildə obyektiv dünya insanın (Dədə Qorqudu var olan cəmiyyətin) gözündə özünün daha adekvat qiymətini alır.

Yenə haman boyda yaralanmış Buğac anasının "bunu sana kim etdi?" sualına belə cavab verir:

– Arslanla qaplanına qarğımagil,
Qazlıq dağının suçu yoxdur.
Qarğarsan babama qarğa –
bu suç, bu günah babamdandır.

Anaya görə günahkar ya Qazlıq dağının arslanıdır, ya da Qazlıq dağının qaplanıdır. Təsəvvürdə *"Ya arslan, ya qaplan!"* məntiqi var. Ana bu halda formal məntiqdən çıxış edir. Əslində isə burada da istisna üçün yer var. O istisnanı məntiq zəncirinə Buğac özü gətirir və günahkarın adını çə-

[32] *"Yamac" sözünə diqqətimizi Prof. Dr. Ahmet Bican Ercilasun yönəltdi.*

kir, *"babam"* deyir. Qeyri-səlis məntiqin istisnalı qütblər zənciri belə formalaşır: *"arslan – babam – qaplan"*.

Başqa bir boyda Salur Qazan evi yağmalandığı zaman düşmən üzərinə gedərkən savaşdan öncə Qaraca Çobana belə bir izahat verir:

> *"Anamı düşməndən istəyəlim, savaş zamanı at ayağı altında qalmasın"*.

Salur Qazan anasını düşməndən alıb geri dönəcəyini (əslində, bu, bir hərbi hiylədir[33]) kafirlərə vəd edir, anasını geri istəyir. Kafirlər isə Qazanın istəyinə belə cavab verir:

> *"Qarıcıq ananı gətirmişiz – bizimdir. Sana verməyiz. Yayxat keşiş oğluna verəriz..."*

Səlis məntiq deyir:

> *– Ya sənə verəriz, ya bizə verəriz (bizdə qalar).*

Anındaca "biz" ifadəsi də parçalanır və reallığın daha dəqiq, zəncir üçünsə daha qeyri-səlis konturları üzə çıxır: *"sən – biz – Yayxat keşiş oğlu"*. Kaleydoskop prinsipi işə düşür. Yayğın "biz"in içindən üçüncü komponentin (Yayxat keşiş oğlunun) tüklü və iyrənc üzü görünür.

Bariz şəkildə məntiqi zəncirdəki qütblər istisnanı öz aralarına "Dəli Domrul" boyunda alırlar. Biz bir qədər yuxarıda bu barədə ümumi şəkildə söz açmışdıq. Dəli Domrula öncə qəzəb edən, sonra qəzəbi yatan və onu öldürməkdən vaz keçən Allah-taala Əzrayıla əmr edir:

> *"Dəli Domrul canı yerinə can bulsun, onun canını bağışladım"*.

[33] *Baxın: Kamal Abdulla. "Kitabi-Dədə Qorqud"da semantik sayrışmalar. Mifolinqvistika. Bakı, s. 65 (2022).*

Allahın bu fikri ona çatdırılan zaman Dəli Domrulun ağlında avtomatik olaraq belə bir formal məntiq zənciri öz əksini tapır. O, Əzrayıla deyir:

> *"Məgər bir qoca babam, bir qarı anam var; gəl gedəlim, ikisindən biri bolay ki, canını verə, alğıl, mənim canımı qoğıl"*.

Məntiqi zəncir *"ya baba, ya ana"*dır. Və sonra bu qütblərin arasında ildırım çaxmasına bənzər bir hadisə baş verir. "Üçüncü" özünü ortaya atır. O, bir istisna kimi mətndə dərhal və tərəddüdsüz yer alır. Bu istisna heç kimin ağlına gəlməyən bir şəxs, Dəli Domrulun yad qızı halalı olur. Dəli Domrulun atasından və anasından fərqli olaraq o, "mənim canım sənin canına qurban olsun!" deyərək öz həyatını Dəli Domrulun əvəzinə Əzrayıla qurban verməyə hazırdır. Beləliklə, üçüncünü istisnanın özünün istisnası (yəni "üçüncü vardır!") bu misalda son dərəcə aydın şəkildə öz ifadəsini tapır. Qeyri-səlis məntiqin onurğa sütunu da elə budur.

Üçüncünün istisnası qanununun istisnası ilə "Dədə Qorqud" mətni boyu tez-tez rastlaşırıq. Bu fəsilin əvvəlində dediyimiz kimi bunu "Dədə Qorqud" mətninin müəllifinin (müəlliflərinin) zaman-zaman bizi əhatə edən dünyanı, ətrafımızı daha rəngarəng görmək cəhdi kimi, qeyri-səlis düşüncə tərzinə sədaqət kimi qiymətləndirmək lazımdır. Bu cəhdi qədim zamanlardan bəri düşüncəmizin dərinliklərində demokratik çalarların mövcud olmasına bir işarə kimi qəbul etmək olar. Qeyri-səlis məntiq sayəsində bunların və bir çox başqa maraqlı məqamların öyrənilməsi qorqudşünaslıq, dilçilik, eyni zamanda süni intellect, informasiya nəzəriyyəsi qarşısında yeni üfüqlər açır.

4-cü fəsil
"Sən gözəllər gözəlindən də gözəlsən, gözəlim!"

Belə söyləyirlər ki, qeyri-səlis məntiqin banisi görkəmli alim Lütfi Zadə bir dəfə öz zövcəsi Feya xanım barədə danışarkən onu belə tərif edib:

"O, gözəllər gözəlindən də gözəldir".

Dahi alim bəlkə də fərqinə varmadan elə bir metafora işlədib ki, bu mənada bundan daha yüksək təyin düşünüb ifadə etmək mümkün olmazdı. Gözəl qadın haqda daha nə demək olar? Yəqin ki heç nə. Gözəllər gözəlindən daha gözəl olmaq səviyyəsini vurub keçmək qətiyyən mümkün deyil. Qeyri-səlis məntiqin bünövrəsində duran prinsiplərdən biri (qeyri-səlis məntiqin çoxluqlar sütunu – faseti məhz elə belə də formalaşır.

Məlumdur ki, real dünyanı kəmiyyət baxımından yazan (təsvir edən) o qədər də real olmayan riyazi dünyanın modelinin əsasını görkəmli riyaziyyatçı G.Kantor tərəfindən təklif olunmuş çoxluqlar nəzəriyyəsi təşkil edir. Onu sadələşdirib, təxminən, belə ifadə etmək olar: "Əgər sonsuz çoxluqdan sonsuz çoxluğu çıxsaq, yerində yenə də sonsuz çoxluq qalacaq".[34] Sonsuzluğu anlamaq üşün gözəl bir distur! Eynşteynin yuxarıda (səh.19) sitat gətirdiyimiz fikrini bir daha xatırlayaq.

[34] *Sonsuz çoxluğu dərk və qəbul etmək asan məsələ deyil. Bu kitabın müəlliflərindən biri Kamal Abdullanın vaxtilə sonsuzluğu anlayıb qəbul etməsi üçün Kantorun bu prinsipinin böyük rolu olmuşdu. Baxın: 15-ci istinad, s. 32.*

Çoxluqlar əsasında qurulan riyazi dünya niyə real deyil, niyə həqiqi dünyamızdan uzaqdır? Ona görə bu belədir ki, klassik çoxluqlar dəqiq sərhədlidir, ancaq kəmiyyəti ehtiva edir. Məsələn, əgər biz dünyadakı bütün qadınlar universumundan bir elementi, yəni bir qadını seçib onu xarici gözəllik baxımından qiymətləndiririksə, Kantorun çoxluq anlayışında o, ya gözəldir, ya da kifir. Başqa sözlə, o, "gözəllər" çoxluğunun ya daxilindədir, ya da xaricində.

Qeyri-səlis çoxluqlara söykənən insan yönümlü riyaziyyata əsaslanan riyazi dünya isə yaşadığımız movcud dünyaya daha yaxındır, daha adekvatdır. Niyə? Çünki real həyatda olduğu kimi simvollarla, mətnlərlə, sözlərlə ifadə olunan bu dünyada kəmiyyətlə keyfiyyət vəhdətdədir. Başqa sözlə, qeyri-səlis məntiqin qeyri-səlis çoxluqlar sütununun (fasetin) əsas qayəsi odur ki, dünyada Tanrıdan başqa hər bir şeyin, hər bir hadisənin dərəcəsi var. Əgər biz hər hansı bir qeyri-səlis çoxluğa baxırıqsa universumda olan bütün elementlərin bu çoxluğa aidiyyəti, mənsubluq dərəcəsi var. Öncəki misala qayıtsaq, biçarə, kifir kimi səciyyələndirdiyimiz o qadın bəlkə də lap kifir deyilmiş, özünün müəyyən dərəcəsi (dərəcələri) ilə gözəllər çoxluğuna da mənsub ola bilərmiş. ("Leyliyə Məcnunun gözü ilə bax" ifadəsini xatırlayaq).

Qeyri-səlis məntiqin çoxluqlar sütununun əsas prinsipi bizi çoxluqlar qradasiyasında ən yüksək səviyyəyə can atmağa və buna uyğun dil vahidi tapmağa sövq edir. Bunun üçün ilkin və sonuncu qütbləri müəyyənləşdirmək lazımdır. Bizim yuxarıdakı misalda bu, *"gözəl – gözəllər gözəli"* qütbləridir. Qeyri-səlis məntiqin axtarışı məhz bu zaman başlayır. Bu "gözəllər gözəlini" necə arxada qoyub ondan "daha çox gözəl" anlayışına (və reallığına) yaxınlaşmaq olar? Əlbəttə ki, L.Zadənin "sən gözəllər gözəlindən də gözəlsən" ifadəsi ilə.

* * *

Qeyri-səlis çoxluqlar bədii mətnlərin təhlilində linqvistik informasiyanın üzərinə qoyulan məhdudiyyətləri ehtiva edən tutarlı bir vasitədir. Nəzərə almaq gərəkir ki, mətndə hər hansı hərəkət və ya hadisə ilə bağlı nata-

mam məlumat verildikdə bu ona (mətnə) olan inamı azaldır. Məsələn, *"yəqin ki"* ifadəsi *"ehtimal ki"* ifadəsindən mənaca daha güclüdür. Bu məqamda "az", "çox", "daha çox" kimi təyinediciləri də diqqətdə saxlamaq lazımdır. Onu da qeyd edək ki, əslində, mətndə olan məlumatı müəllif öz biliyi, müşahidəsi və ya inancı üzərində qurulmuş epistemoloji mövqeyinə əsaslanaraq verir.

İndi isə qeyri-səlis məntiqin 2-ci sütunundan – qeyri-səlis çoxluqlar sütunundan çıxaraq "Dədə Qorqud" dünyasına yol alaq.

"Dədə Qorqud" mətnində adi hal ilə maksimal hal arasında dərəcələri müəyyənləşdirmək bəzən asan, bəzən isə çətin olur. Məsələn, tutalım ki, hansısa ifadə ilə böyük, çox böyük bir gəmi təsəvvürü yaratmaq məqsədi qarşımızda durur. Mətnin dil potensialında bunu elə belə də təsvir etməyə imkan vardır. "Kitabi-Dədə Qorqud" mətni təsəvvürdəki bu obrazı asalıqla belə ifadə edə bilərdi: ***"Böyük ağac gəmilər oynadan su".***

Amma təsəvvürdəki gəmi, sadəcə, böyük deyil. O, inanılmaz dərəcədə böyükdür. Mətn çərçivəsindəki dil təsəvvürümüzdəki obraza uyğunlaşmağa cəhd edir. Böyüklüyü verə bilmək üçün sifəti təkrar edir. Ona görə də biz mətndə oxuyuruq: ***"Böyük-böyük ağac gəmilər oynadan su".***

"Böyük-böyük" ifadəsi burada böyüklüyün intəhasız ölçüsünü təsəvvür və ifadə etmək cəhdidir. Qeyri-səlis məntiqin işə düşməsidir. Deməli, intəhasızlığa gedən yol qeyri-səlislik rejimindən keçməlidir. Bu halı reallaşdırmaq üçün dildəki qoşa (təkrar edilən) sözlər əməlli-başlı köməyə gəlir.

Bəzən qütblərin arasına elə sözlər (üçüncü olaraq) daxil olur ki, onlar yeni anlayışların adına çevrilir. "Alçaq" və "hündür" yerlərin fərqləndirilməsi yeni bir topoloji məkan adının ortaya (məhz ortaya!) çıxmasına imkan yaradır. Bir qədər yuxarıda haqqında danışdığımız məqama bir daha müraciət etmək istərdik. Dirsə xanın xatunu yaralanmış oğlu Buğacı Qazlıq dağı ətəklərində alçaq bir yerdə (düzəndə) axtarır, amma tapa bilmir. O nə edir? Daha əhatəli ətrafı görmək üçün alçaqdan (düzəndən) uca bir yerə çıxır. Bu, elə bir yerdir ki, ora atla çaparaq da çıxmaq olar. Mətn deyir:

"Xatun alçaqdan uca yerlərə çapıb çıxdı".

Belə yer ancaq və ancaq **təpə** ola bilər. Deməli, *"alçaq yer"* ilə *"dağ"* arasında alçaqdan uca yer də varmış və o yerin adı *təpə* imiş. **"Alçaq yer – alçaqdan uca yer (təpə) – dağ"**, əslində, çoxluqlar sistemində müəyyən anlayışlar düzümüdür və buradakı iki qütbün arasına üçüncü bir məkanın (*alçaqdan uca yerin*, yəni *təpənin*) girməsi qeyri-səlislik vasitəsilə bu düzümün yeni bir dərəcəyə bölünməsi ilə nəticələnir.

Burada bir məsələ ortaya çıxır. *"Təpə"* sözü dastan mətnindən keçdiyi üçün, əslində, *"alçaqdan üca yer" təpə*nin deyil, *"yamac"* sözünün əvəzləyicisi kimi işlənə bilər. Məntiqi zəncir o zaman belə qurulur: *"düzən – alçaqdan üca yer (yamac) – təpə – dağ"*. İstisnadan uzaqlaşma (artıq üçüncünün və dördüncünün iştirakı ilə) yenə də özünü bariz şəkildə göstərir.

* * *

"Dədə Qorqud" mətnində müxtəlif məqamlarda Allahı öyməklə bağlı belə mübarək misralar işlənir:

– Ucalardan ucasan,
Kimsə bilməz necəsən,
görklü tanrı!
Neçə cahillər səni
Gögdə arar, yerdə istər –
Sən xud möminlər könlündəsən.

"Uca" artıq qütbdür. Ondan o tərəfə dilin potensialı imkan vermir ki, yeni sözlə yeni bir dərəcə müəyyənləşdirsin. Onun üçün də "uca" sözünün özü deformasiyaya uğrayaraq yüksək üstünlük dərəcəsini bildirir. Və burada **"Ucalardan ucasan"** ifadəsi üstünlüyün ali dərəcəsi kimi özünü göstərir. Maraqlıdır ki, bu misalın ikinci hissəsində qeyri-səlis məntiqin "üçüncünü istisna" qanunundan kənara çıxma halı ilə, yəni qeyri-səlis məntiqin bizə tanış köhnə sütunu (üçüncünü istisna) ilə qarşılaşırıq. Allah nə göydədir, nə yerdədir. Bu iki qütbün heç birində deyilsə, bəs o hardadır?

Aristotel məntiqinə görə üçüncü istisna edilir və Allah daha heç yerdə ola bilməz. O yalnız bu iki məkandan birində ola bilər. Yox, amma üçüncü məkan da var imiş. Allah Dastanda iddia edildiyi kimi **xud möminlərin könlündə** də ola bilərmiş. Bu üçüncü məkan məntiq zəncirinə daxil edilən məhz istisnaedilməz "üçüncüdür".

Dastanda müxtəlif məqamlarla bağlı **"şivən"** situasiyasının təsviri özünü göstərir. Bu söz dastanda özünün adi halında, yalnız **şivən** kimi işlənir (məsələn, *"evinə şivən girdi"* kimi). Bu sözün yüksək dərəcəsi olaraq "**böyük şivən**" anlayışı mətndə özünü *"qara şivən"*[35] ifadəsi şəklində büruzə verir. Sanki bununla səlis məntiqin ən yüksək dərəcəsi ilə qarşılaşırıq. Bu məntiqlə **"şivən – qara şivən"** qütbləri formalaşır. Üçüncü yoxdur. Amma yox. "Dədə Qorqud mətnində **"qara şivən"**in özü orta hala dönür və qütblükdən çıxır. Bəs o biri qütb nə olur? Bundan daha şiddətli dərəcə də mövcuddurmu? Mövcud imiş.

Mətn belə deyir ki, "Dəli Domrul" boyunda Dəli Domrulun quru çayın üzərindən saldığı sınıq körpü yanında bir yaxşı yigit ömrünü Allaha bağışlayır. Onu sağlığında hamı sevərmiş. Onun üçün də **"ol yigit üzərinə möhkəm qara şivən oldı"**.

"Şivən" – yox, *"qara şivən"* – yox. Məhz **"möhkəm qara şivən!"** O biri şiddətli qütb belə tapılır. Artıq **"möhkəm qara şivən"** dedikdə şivən dərəcəsinin daha yüksək, bəlkə də dil potensialının ən yüksək qradasiyasına uyğun gələn bir ifadə özünü göstərmiş olur. **"Qara şivən"** ifadəsi qütblükdən çıxıb orta mövqe tutur, istisna funksiyasını yerinə yetirir, öz əvvəlki (qütbolma) yerini **"möhkəm qara şivən"** ifadəsinə verir.

Bəzən mətndə hər hansı bir vəziyyətin yüksək dərəcəsi konkret bir söz, yaxud ifadə vasitəsilə deyil, sintaktik-semantik düzən ilə üzə çıxır. Dastanda Oğuz bəyləri bir-birinə köməyə gedərkən onların sayı xeyli olurmuş. Onları sayıb qurtarmaq, yəni sayıb konkret bir rəqəm söyləmək

[35] *Qədim türk dillərində "qara" sözü rənglə yanaşı həm də "böyük" mənasını bildirir. Məsələn, "Qara dəniz"dəki, "Qara hisar"dakı, "Qarabağ"dakı, "Qaraqum"dakı "qara" rəng bildirməkdən başqa həm də böyüklük mənasında anlaşılır.*

mümkün deyilmiş. Dilin potensialı bu situasiyaya (məqama) uyğun belə bir variant verə bilərdi: **"Sayılmaqla Oğuz bəyləri tükənməz".**

Bu, qəti bir qərardır. Amma bundan daha yumşaq, başqa sözlə, gələcəyə yönəli bir sintaktik variant daha var. Mətn qəti qərarı bir kənara qoyub deyir: **"Sayılmaqla Oğuz bəyləri tükənsə olmaz".** Bu iki cümlədəki "tükənməz" və "tükənsə olmaz" arasındakı fərq maraqlıdır.

İki seçim arasında mətndəkinin xeyrinə fərq "olmaz" felinin potensialında gizlənən "olar"ın özü ilə gətirə biləcəyi sonsuzluq ideyasından qidalanır.

Qeyri-səlis məntiqin əsas aşkaredicisi (minaaxtaranı) müəyyən dil elementlərinin iştirakı və köməyilə baş tutur. Bu fəsilin ruhuna uyğun gələn aşkaredici element qoşa sözlərdir. Dildə qoşa sözlər aid olduğu cümlə elementinin intensivliyini yüksəldən vasitə kimi çıxış edir. Onların vasitəsilə mətnin ekspressivliyi artır, bədii-üslubi "gövdəsi" möhkəmlənir. Amma hər hansı üslubilikdən əvvəl, onu qeyd eləmək lazımdır ki, ilkin məqamda qoşa söz vasitəsilə şüurumuzun qeyri-səlislik tərəfə meyli də ifadə edilir.

"Kitabi-Dədə Qorqud" mətnində qoşa sözlər bol-bol işlənir. Onların işlənməsində məqsəd aid olduqları dil komponentinin bütün potensialı ilə "çalışdığını" qabardaraq üzə çıxarmaqdan ibarətdir. Burada işlənən qoşa sözlər daha çox qeyri-səlisliyin büruzəsinə xidmət edir. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanından keçən bu misallara diqqət edək:

– ***quru-quru*** *çaylara su saldım;*
– ***qanlı-qanlı*** *sular;*
– *sən gedəli* ***gumbur-gumbur*** *davullar döyülmədi;*
– ***soyuq-soyuq*** *sular;*
– ***taşqın-taşqın*** *sular;*
– ***açuq-açuq*** *meydana bənzər sənin alıncığun;*
– ***yüksək-yüksək*** *qara dağlar;*
– ***böyük-böyük*** *suların köprüsü ağac;*
– ***qara-qara*** *dənizlərin gəmisi ağac;*
– ***yumru-yumru*** *ağladı;*

*– **çığnam-çığnam** qayalardan çıxan su;*
*– **içib-içib** Ulaş oğlu Salur Qazanın alnına şərabın itisi çıxdı;*
*– **yata-yata** yanımız ağrıdı, **dura-dura** belimiz qurudu;*
*– bir gecə döşəyində **qatı-qatı** inlədi;*
*– qalxıbanı iki qardaş **quca-quca** görüşdülər;*
*– bu məhəldə Oğuz ərənləri **alay-alay** gəldilər...*

Qoşa söz vasitəsilə (əslində, ondakı təkrar mexanizmi vasitəsilə) adi durum qatılaşır, yəni özünün yüksək dərəcəsinə çatdırılır. Ulaş oğlu Salur Qazan sadəcə içmir, dönə-dönə içir, içdikcə içir. Alay-alay Oğuz ərənləri bir alay gəlmir, saysız alaylar şəklində gəlir. Bütün sifətlər, isimlər, təqlidi sözlər (**bıldır-bıldır, zar-zar, ökür-ökür**) öz təkrarı ilə (qoşa söz yaradaraq) təsvirin yüksək həddə, artıq saya gəlməyən həddə çatdığını bildirir. Təkrar qeyri-səlisliyin etibarlı "tikinti materialı" kimi özünü göstərir.

Bəzən isə təkrara belə ehtiyac qalmır. Qeyri-səlis məntiq "işləyəsi" (işləməli olduğu) məqamda təkrar yerinə tək variant üzə çıxır. Ondan əvvəl işlənən təkrarların ağırlığı son həlqədəki elementə də öz təsirini göstərir. **Qatar-qatar** dəvələr, **tavla-tavla** şahbaz atlar, **soyuq-soyuq** pinarlardan sonra qurban veriləsi qoyunlara gəldiyində *"ağayılda ağca qoyunum"* işlə-dilir. Bu zavallı qoyun da, əslində, tək deyil. O da *tövlə-tövlədir*. Amma özünün tək halında belə o, əvvəlki qurbanların işığında intensivlik, yüksək dərəcə, qeyri-səlislik (sayıbilinməzlik həddi) yarada bilir.

Ən yüksək həddə çatmaq uğrundakı cəhd, bizim fikrimizcə, düşüncənin neytral axınının qarşısını alır, onu ən yüksək – "qaynama" dərəcəsinin həndəvərinə gətirir. Bu, mətnin daxili energiyasının daim can atdığı adilikdən kənara çıxma halı kimi qiymətləndirilə bilər.

Molla Nəsrəddinin sözü olmasın, arvadı ondan soruşanda ki, niyə bizi soyan qaçaqların sənin ətrafına çəkdikləri cızıqdan kənara çıxmadın, Molla belə cavab verir: "Mən üç dəfə ayağımı cızıqdan kənara çıxardım və beləliklə onların "direktivlərinə" – (buyruqlarına) qarşı çıxdım". Molla Nəsrəddin bizim oxuduğumuz qəhrəmanlar içində öz hərəkəti ilə qeyri-səlis məntiqə əsaslanan bəlkə də ilk qəhrəmanlardandır. Üç dəfə ayağını

ətrafına çəkilən cızıqdan kənara çıxaran Molla Nəsrəddin **"çıxarma-çıxar"** qütbləri arasında müəyyən dərəcə qoymağa cəhd edən bir "cəsarət" sahibidir.

Qeyri-səlis məntiqin bu sütunundakı prinsip qədim insanın düşüncəsində gedən "sadə – mürəkkəb" münasibətlərinin formalaşmasına gətirir, sadədən mürəkkəbə keçidin müxtəlif variasiyalarını cilalayır. Başqa sözlə desək, bunun gizli imkanını formalaşdırır. Eyni zamanda düşüncəmizdə gedən proseslərin dilimizdə necə əks-səda verəcəyini ortaya qoyur. Düşüncənin neytral sadə axınının qarşısının alınması (qütblər arasına dərəcə daxil etməklə mürəkkəbləşməsi) dil inkişafının sonrakı mərhələsində üslubun gəlişməsinə, dil elementlərinin formalaşmasına, bütövlükdə dilimizin zənginləşməsinə gətirib çıxaracaqdır. Hələlik isə göründüyü kimi "dil – düşüncə" yarışında dil, düşüncə qarşısında aşkar şəkildə geridə qalmaqdadır.[36]

Beləliklə, dediklərimizin işığında dahi alim Zadənin "sən gözəllər gözəlindən də gözəlsən, gözəlim" deyiminə qayıdaraq qeyd edək ki, "gözəllər gözəli" ifadəsi də hətta həmin təsəvvürün son həddi deyildir, bundan da yüksək gözəllik dərəcəsinin mövcudluğu dil materialı tərəfindən təsbit edilir. Bu, "gözəllər gözəlindən də gözəl" ifadəsidir. Hətta "gözəllər gözəlindən də gözəl" ifadəsinin özü belə görünür ki, bu qradasiyada sonuncu mərhələ kimi qalmır. Və indiki halda bizə onu demək qalır ki, böyük alim, böyük insan, böyük eşq sahibi L.Zadə öz zövcəsi üçün dildə hələlik mövcud olan ən yüksək dərəcənin ifadəsini seçməkdə haqlı idi.

[36] *Noam Chomsky. Language and Mind. Cambridge: Cambridge University Press, p. X, XI.*

5-ci fəsil
"Kitabi-Dədə Qorqud" qeyri-səlis məntiqin epistemoloji işığında

Biz bu kitabda əvvəlki fəsillərdə yer alan qeyri-səlis məntiqin ümumi təqdimindən və onun iki sütunu – məntiq sütunu və qeyri-səlis çoxluqlar sütunu işığında "Dədə-Qorqud" dünyasına səyahət etmişdik. Bu fəsildə qeyri-səlis məntiqin üçüncü sütunu olan epistemoloji sütundan yol alaraq "Dədə-Qorqud" mətnlərində sərhədsiz informasiya, alt qatlardakı məna axtarışına çıxacağıq.

Qeyri-səlis məntiqin epistemoloji sütunu mətnlərdə təqdim edilən biliklərin təsviri, təbii dilin semantikası, mətnlərdəki informasiyanın təhlili ilə əlaqədardır. Bu aspektdə təbii dil perseptiv informasiyanın, yəni bilavasitə ölçülə bilməyən informasiyanın təsvir sistemi kimi qəbul olunur. Bu sütunun özülündə ehtimal nəzəriyyəsi yox, mümkünlük nəzəriyyəsi durur. Epistemoloji yanaşma dedikdə bizim əsas məqsədimiz o olacaq ki, müəllifin demək istəmədiyi, gizlətdiyi informasiyanı mətnin gizlinindən çıxaraq və onu dəyərləndirək.

Qeyri-səlis məntiq elmi fərziyyələr hesabına müşahidə olunan real sistemlər və onların fenomenləri (qütbləri) arasındakı boşluğu doldurur. Fəlsəfə, elm və texnologiyanın tarixində bu boşluqlar epistemoloji müzakirələr üçün böyük potensiala malikdir.

Epistemoloji hər hansı bir şey mütləq şəkildə onun dar mənada mövcud olan "obyekt" kimi başa düşülməsi deyil, onun təsəvvür edilən obrazının,

funksiyalarının nəzərdə tutulmasıdır.[37] Bu da əvvəldən aydınlaşdırılması mümkün olmadığına görə ilk mərhələdə özünü elə bir xüsusiyyətdə, qeyri-müəyyənlikdə büruzə verir ki, insanın nə axtardığını labüd edir.

Epistemoloji bir şey kövrək bir statusa malik olur, bu isə o demək deyil ki, o, yalnız gizli olaraq qalır və yalnız mükəmməl manipulyasiyalarla tamamilə üzə çıxarıla bilir. Bir obyekt kimi o, hazır şəkildə mövcud deyil, yalnız obyektin konseptual tərəfi kimi (beyindəki obraz kimi) şüurda mövcud ola bilir.

Qeyri-səlis epistemologiya mətndəki mürəkkəbliyi, qeyri-müəyyənliyi (dumanı) müəyyən etməyə (qovmağa) kömək edir.

Qeyri-səlis epistemologiyaya görə, qeyri-müəyyən müddəalara münasibətimizi başa düşmək üçün həm qeyri-müəyyənlik, həm də qismən həqiqət lazımdır. Məsələn, əgər "uzun boylu adam" klassik uzantıya malikdirsə, deməli, ən qısaboylu hündür adam da var. Əlbəttə ki, ən qısaboylu insanın nə qədər hündür olduğunu bilmək üçün heç bir imkanımız yoxdur. Bu yazının müəlliflərindən birinin vax-tilə belə adda bir hekayəsi çap olunmuşdu: "Dünyanın ən ucaboylu karliki".[38] İntuitiv şəkildə hələ o vaxt qısalığın hündürlüyü ideyasının beyindəki obrazla müqayisəsi maraqlı görünürdü.

Ümumiyyətlə, hündür və hündür olmayan arasında müəyyən sərhəddin cızılması ixtiyari ola bilər. Həmçinin, bizim "hündür" ("uca") sözündən istifadə etməyimizlə bağlı heç bir məfhum hər hansı xüsusi sərhəd nöqtəsini diqqətə çatdıra bilmir. Beləliklə, qeyri-səlis epistemoloji sahə semantika həddi bilinməyən və mətnlərdə ixtiyari görünən semantik sərhədləri ehtiva edir, deyə bilərik.

Folklordan aldığımız belə bir nümunəyə diqqət edək:

Oğlan, qaşımı neylərsən, oğlan?
Göylərdə hilalı görməmisənmi?
Oğlan, ləbimi neylərsən, oğlan?
Məgər beçə balı görməmisənmi?

[37] *Baxın: Abbasov Ə. Lütfi Zadə və Rafiq Əliyev təlimi – Yeni sivilizasiya yaradan bilik xəzinəsi. İctimailider. Az., 05.06.2021*

[38] *Baxın: Kamal Abdulla. Seçilmiş əsərləri, (7 cilddə), 2-ci cild, Bakı, 2020, s. 480.*

Qeyri-səlis məntiqin epistemoloji təqdimi bu misal əsasında diqqəti ona yönəldir ki, şeiri deyən qız qaşını gizlədir və qaş əvəzinə oğlana göydəki ayı görməyin kifayət olduğunu söyləyir: "Göydəki ayı gördünsə, qaşımı da təsəvvür edə bilərsən". Amma obyektin özü ortada yoxdur, o görünmür. Daha doğrusu, tam adekvat şəkildə təsvir edilmir. Eyni hal qızın dodağı ilə bağlı təkrar edilir. Dodaq beçə balına bənzədilir. Dodağın bilavasitə təsviri müəllif tərəfindən gizlədilir və beçə balını təsəvvürə gətirməklə dolayısı ilə dodaq barədə qeyri-səlis bilgi təklif edilir.

Bu təsvir epistemoloji yanaşma vasitəsilə qurulan qeyri-səlis məntiq kimi qəbul edilə bilər. Müəllif qızın qaşını, ləbini gizlətməyə çalışır, amma eyni zamanda, onları qeyri-səlis şəkildə təsəvvür etmək imkanı verir – göylərdə hilal və beçə balı bu təsəvvürdə olan dodaq və qaş barədə dolğunluq iddiasına girir və dolğunluq dərəcəsinə yaxın (müxtəlif adamlarda müxtəlif dolğunluq dərəcəsi yaratmaqla) qeyri-səlis təsəvvür ortaya qoyur.

Folklordan gətirdiyimiz misal bir daha sübut edir ki, qeyri-səlis məntiq özünün müxtəlif təzahürləri ilə ən geniş ədəbi sahələrin dərinində, gizlinində yaşayır.

"Kitabi-Dədə Qorqud" mətnində qeyri-səlis məntiqin üçüncü epistemoloji sütunu ilə bağlı ən bariz nümunə Salur Qazan və dəstəsinin ov zamanı qarşılaşdığı situasiyadır. Salur Qazan oğlu Uruza cəngavərlik göstərdiyi yerləri tanıtmaq üçün onu da yanına alıb kiçik bir dəstə ilə ova çıxır. Kafirin casusu (həmişəki kimi!) casuslayır və Salur Qazanın üstünə düşmənin on altı mindən ibarət ordusu gəlir. Mətn deyir:

> *"On altı bin qara donlu kafər ata mindi. Qazanın üzərinə alqar yetdi. Baxdılar gördülər* (baxıb görənlər artıq Salur Qazangildir), *altı bölük toz endi. Kimi aydır: keyik tozudur. Kimi aydır: yağı tozudur. Qazan aydır: Keyik olsa bir, ya iki bölük olurdu. Bu gələn bilmiş olun yağıdır".*

Qazan yağını görmür, çünki hər tərəfi toz-duman alıb. Yağı olduğunu Salur Qazan toz-dumanın əlamətindən – toz bölüklərinin ikidən çox oldu-

ğundan öz əvvəlki təcrübəsinə əsaslanaraq bilir. Görmədiyi, amma təsəvvüründə olan bir obrazı – yağını Qazan qeyri-səlis şəkildə belə "hesablayır".

Elə də olur ki, müəllifin "gizlətməyə" çalışdığı informasiyanı kafərlərdən biri açıb-tökür.

Şöklü Məlik Salur Qazan ovda ikən onun elini-obasını, mətn dili ilə desək, *"darayır"*, malını-pulunu, oğlunu, arvadını, anasını, ilxılarını, dəvələrini talan edib aparır. Yeyib-içərək qənimətin hesabını aparan Şöklü Məlik deyir:

> *"Bəylər, Qazanın tölə-tölə şahbaz atlarını minmişiz, altun–axçasını yağmalamışız, qırx yigitlən oğlı Uruzı tutsaq etmişüz, qatar-qatar dəvələrini yetmişüz, qırx incə belli qızlan Qazanın halalını tutmuşız. Bu heyfləri biz Qazana etmişüz".*

Şöklü Məlik belə deyərkən kafirlərdən biri söhbətə müdaxilə edir. Bu kafir səlis məntiqlə sadalanan qənimətlərin sayını səlislikdən çıxarır. Mətn deyir:

> *"Kafərin biri aydır:*
> *– Qazan bəydə bir heyfimiz qaldı.*
> *Şöklü Məlik aydır:*
> *– Mərə aznavur, nə heyfimiz qaldı?*
> *Kafər aydır:*
> *– Qazanın qapulı Dərbənddə on min qoyunu vardır. Şol qoyunları dəxi gətirsək, Qazana ulu heyf edərdik – dedi".*

Buradan belə çıxır ki, *"heyf"* və *"ulu heyf"* arasındakı fərq on min qoyunla ölçülür. Rəqəmin belə dəqiqliklə ortaya atılması, nə qədər qəribə olsa da, qeyri-səlisliyin ən bariz nümunəsidir. Bütün digər qənimətlər, hətta atların, dəvələrin sayı bilavasitə göstərilməsə də, bu, diqqəti çəkmir. "Tövlə-tövlə atlar, altun-axça, qatar-qatar dəvələr" artıq kafirin əlindədir və o bunların sayını dəqiqliklə müəyyənləşdirə bilər. On min qoyun isə uzaq-

dadı, hələ ələ keçməyib, bəlkə heç ələ keçməyəcəkdir, əslində, ələ keçmir də. Bax, bu say – on min sayı, əslində, qeyri-səlisdir və bu fakt epistemoloji yanaşma ilə müəyyənləşdirilir.

* * *

Başqa bir məqam bizi "Bəkil oğlu İmran" boyuna aparır. Burada beynində qurduğun obrazla onun həyatdakı əvəzləyicisi arasında fərq qeyri-səlisliyin epistemoloji baxımdan ortaya çıxması ilə təsvir edilir.

Oğuzun sərhədlərini qoruyan Bəkil atdan yıxılmış və yatağa düşmüşdür. "Yarımasın, yarcımasın" kafirin casusu yenə də "iş başındadır"; o, Bəkilin xəstə olduğunu kafirlərə xəbər verir.

Başqa vaxt Bəkilin qorxusundan Oğuz sərhəddinə yaxın düşə bilməyən düşmən ürəklənib Bəkilin yurdunun üstünə gəlir. Amma Bəkilin də kafir elində öz casusu var və bu casus Bəkilə xəbər çatdırır ki, bəs ehtiyatlı olun. Üstünüzə düşmən gəlir.

Yataqda xəstə yatan Bəkil oğlu İmrana öz əlbisəsini, atını verir. Onu mümkün qədər özünə oxşadır və öz əvəzinə düşmən üstünə göndərir. İmran yağı ilə qarşı-qarşıya durur. Yenə də toz-duman Salur Qazanla bağlı situasiyada olan kimi göy üzünü bürüyür. İmran uzaqdan görünməz, daha doğrusu, tanınmaz olur.

Çünki *"haçan ki al ayğır (Bəkilin atı) yağı qoxusun alsa, ayağın yerə döyərdi, tozı göyə çıxardı"*.

Bəkilin atı yenə də şakərinə sadiq qalıb ayağı ilə yer döydü. Tozduman aləmi bürüdü.

Mətn deyir:

> *"Kafərlər aydır:*
> *Bu at Bəkilindir, biz qaçırız.*
> *Təkur aydır:*
> *Mərə, onat görün, bu gələn Bəkilsə, sizdən öndən mən qaçaram – dedi"*.

Bəkil olmadığını adi gözlə seçə bilməyəndə kafirin gözçisi işinə başlayır. Gözçi diqqətlə baxıb görür ki, at Bəkilin, amma üzərindəki Bəkil deyil. Bu minvalla xəbər təkura yetişir.

Təkurun təsəvvüründə Bəkil obrazı olduğundan o, Bəkil ilə ona oxşadılmış Bəkilin oğlunu bir-birindən ayıra bilmir. Əlbəttə ki, burada Bəkilin atının ayağını yerə döyməsi ilə çıxardığı toz-duman da öz rolunu oynayır. Ümid qalır gözçiyə. Həqiqəti o bildirir. Bundan sonra ətraf, xüsusilə də, qarşıdakı atlı öz real, adekvat ölçülərini alır. Şöklü Məlik üçün natamam bilgi aradan götürülür. Epistemoloji yanaşma ortadakı anlaşılmazlığı toz kimi havaya uçurur. Bəkil Bəkil yerində – evdəki yatağında. Bəkilin oğlu İmran da düşmən qarşısında öz həqiqi cizgilərini alır. Amma Bəkilin həqiqətən içində olduğu məkan bu dəfə oğlu İmran tərəfindən düşmənə başqa bir yalan vasitəsilə bildirilir. Mətn İmranın dili ilə belə deyir:

> *"... Bəylərbəyi Salur Qazan, qardaşı Qaragünə, Dönə bilməz Dülək Uran, Dözən oğlu alp Rüstəm, boz ayğırlı Beyrək Bəkilin evində içərlərdi. Səndən casus gəldi"*.

İmranın dediyindən belə çıxır ki, Bəkilin başı İç Oğuzdan gələn qonaqlara qarışıq olduğundan düşmən üstünə saymazyana səkildə onu – gənc İmranı göndərmişdir. Bəkilin obrazı yenə toz-duman içində itir. Bu cür qeyri-səlislik – Bəkil budur, burda, yataqda zar-zar inləyir və Bəkil qonaqları ilə məşğuldur – bütün bunlar müəllifin Bəkili düşmən təsəvvüründən nəyin bahasına olursa-olsun "gizlətmək" niyyətindən xəbər verir. Bəkil və oğlu İmran ulduz sayrışmasında olan kimi bir-birini əvəzləməkdə davam edirlər. *"Ya Bəkildir, ya İmran"* və *"nə Bəkildir, nə İmran"* sxemləri bir-birini ildırım sürətilə əvəz edir.

"Kitabi-Dədə Qorqud" mətnində qeyri-səlis məntiqin epistemoloji sütununun köməyi ilə üzə çıxarılan nümunələr həm də onu göstərir ki, qədim oğuzlarda düşüncə dərinliyində reallıq və qeyri-reallıq öz sərhədləri ilə birbirindən kəskin fərqlənmir, onlar yumşaq şəkildə biri digərinə keçə bilirlər. Müəllif bunun üçün atın ayağını yerə döyməsi kimi vasitədən istifadə etsə

belə (toz ətrafı bürüyür!), nəhayətdə, gözçi lazım olur ki, hər şeyi yerinə qoysun və Bəkilin yoxluğunu bildirsin. Bəs gözçi olmasa idi nə baş verəcəkdi?! Kafirlər, başda Şöklü Məlik olmaqla Bəkilin oğlunu Bəkil bilib qarşısından qaçacaqmıydı? Bu isə artıq tamam başqa bir mövzunun epistemoloji rakusdan işıqlandırılması deməkdir.

5-ci fəsil
Qeyri-səlis məntiqin münasibətlər sütunu və "Kitabi-Dədə Qorqud"

Qeyri-səlis məntiqin bədii mətndə təzahürü, əsasən, təqdim edilən mətləbin konkret deyil, kifayət qədər abstrakt (ölçüyəgəlməz) şəkildə ortaya çıxarılmasıdır. Bu, prinsip etibarilə, qeyri-səlis məntiqin 4-cü münasibətlər sütununun (fasetinin) ana xəttidir. Bu hala daşlaşmış (amma hərdən çat verən) məlum "əgər... sa(sə)... o zaman..." sxemi vasitəsilə nail olunur.

Biz bu fəsildə qeyri-səlis məntiqin 4-cü münasibətlər sütununun törəmələrinin "Kitabi-Dədə Qorqud" dastanındakı təzahüründən danışacağıq. Qeyri-səlis məntiqin 4-cü sütunu (faseti) qeyri-səlis münasibətlər sütunu olaraq qeyri-səlis münasibətləri, daha doğrusu, qeyri-səlis səbəb-nəticə asılılıqlarını ehtiva edir. Bu sütunun mahiyyətində qeyri-səlis ifadələr (dəyişənlər) və onların bazasındakı **"əgər... sa(sə)... o zaman"** sxeminə dayaqlanan münasibətlər durur.

Qeyri-səlis münasibətlər sütunu dedikdə, müxtəlif situasiyalarda nəzərdən keçirilən çoxluqların müəyyən elementlərinin hansısa şəkildə birbirilə necə sıx bağlı olduqları nəzərdə tutulur. Məsələn, **"gənc adamlar"** çoxluğu ilə **"təcrübəli adamlar"** çoxluğu arasındakı münasibət belə ola bilər:

> *"Əgər Salur Qazan oğlu Uruz çox gəncdirsə, o zaman o, az təcrübəlidir".*
>
> *"Əgər Salur Qazan oğlu Uruz orta dərəcəli gəncdirsə, o zaman o bir az çox təcrübəlidir"* və s. və i.a.

Qeyri-səlis nəzəriyyədə qeyri-səlis münasibətlər çox mühüm konsepsiyadır. **"Əgər... sa(sə)... o zaman"** sxemi ilə reallaşan bu münasibətlərdən bir çox sahələr üzrə real həyat proseslərinin araşdırılmasında geniş istifadə edilir.

Qeyd eləmək lazımdır ki, "Kitabi-Dədə Qorqud" dastanında 4-cü fasetin sxemi olan **"əgər... sa(sə)... o zaman"** sxemi əsasında formalaşan və cümlə quruluşuna çevrilən ifadə tərzinə sıx-sıx rast gəlirik. Hətta burada elə quruluşlar özünü göstərir ki, onlar ilkin sxemdən aralanmış şəklə düşüblər. Sxem sanki "çat verib". Amma yenə də onları, yəni bu münasibətləri "tanımaq" çətinlik törətmir. Belə bir misala diqqət edək:

"Ol zamanlar oğullar ata sözünü iki eləməzdi. Eləsəydi, ol oğulun üzünə baxmazdılar".

Bu cümləni həyata gətirən düşüncə tərzinin dərin əsasında **"əgər... sa(sə)... o zaman"** sxeminin durduğu şübhəsizdir. Cümlə sanki "sintaktik xarakiriyə" uğramış olsa da, onu ilkin dərin quruluşuna qaytarmaq çətinlik törətmir. Bunun üçün biz onu müəyyən "əməliyyatdan" keçirməliyik. "Əməliyyatdan" sonra cümlə belə bir hal alacaq:

"Əgər ol zamanlar oğullar ata sözünü iki eləsəydi, o zaman ol oğulun üzünə baxmazlardı".

Bu dərin variant (əslində, invariant) daha sadə, daha əlverişlidir. Sonrakı variantın isə müəyyən bədii süsləmədən keçdiyi şübhə doğurmur. Başqa misallara diqqət edək:

– Ulaşıban sular daşsa, dəniz dolmaz,
– Yapa-yapa qarlar yağsa, yaza qalmaz,
– Qaravaşa don geyirsən, qadın olmaz...
Və s. və i. a.

Bütün bu süslənmiş misalları qeyri-səlis məntiqin 4-cü sütununun əsas sxeminə salmaq mümkündür. O zaman biz belə bir mənzərə ilə qarşılaşacağıq.

Əgər ulaşıban sular daşsa, o zaman dəniz dolmaz,
Əgər yapa-yapa qarlar yağsa, o zaman yaza qalmaz,
Əgər qaravaşa don geydirsən, o zaman qadın olmaz...

Belə bir sual doğa bilər ki, bu sxem əsasında düzələn cümlələri biz dilçilik alanında onsuz da öyrənirdik. Onları şərt, yaxud zaman budaq cümlələri kimi qeyd edirdik. Nə dəyişir?

Bəli, bu, həqiqətən də, belədir. Amma dəyişən odur ki, indiyə qədər dilçilər bu cümlə tipinə qeyri-səlis məntiqin ideolojisindən çıxış edərək qiymət vermirdilər. Onlar belə ideolojidən uzaq idilər. Bu cümlələrin şüurda gedən hansı dərinlikdəki hansı proseslərin nəticəsi olmalarına diqqət yetirilmirdi. İndi isə çevrənin açıq qalmış hissəsi də, nəhayət ki, qapanır, təhlil prosesində bir sistemlilik, bir bütövlük özünü göstərir. Söhbət artıq təkcə dilçilik obyekti kimi şərt, yaxud zaman budaq cümləsindən deyil, qədim əcdadımızın beynində gedən demokratik proseslərdən gedir. "Nə dəyişir?" sualının cavabı hələlik budur.

Qeyri-səlis məntiqin 4-cü sütunu və eləcə də digər sütunları kateqorik olmamaları ilə müasir insana daha çox yaxındırlar. Onların ideoloji durumlarını məhz belə səciyyələndirmək olar. Kateqoriklikdən uzaq olmaq isə qətilikdən, ehkamçılıqdan, totalitarizmdən, nəhayət etibarilə, psixoloji durumların müstəvisinə gətirsək, xudpəsəndlikdən, eqoizmdən, müştəbehlikdən uzaq olmaq deməkdir. Şübhə ilə silahlanaraq həqiqətin, hərtərəfliliyin, kompromisin, həyatın rəngarəngliyinin axtarışına çıxmaq deməkdir.

Qeyd edək ki, təkcə "Dədə Qorqud" dastanında deyil, digər bədii mətnlərimizdə də (oğuznamələrimizdə, nağıllarımızda, dastanlarımızda, müasir şeirimizdə ...) qeyri-səlis məntiqin 4-cü sütunundan doğan dediyimiz bu halı müşahidə eləmək mümkündür.

Belə ifadə tərzinin təkcə qədim dastanımız üçün deyil, ümumiyyətlə, bədii düşüncəmiz üçün normal hal olduğunun bir daha şahidi olmaq üçün Azərbaycanın görkəmli yazıçı-dramaturqu Cəfər Cabbarlının məşhur "Ana" şeirinin başlanğıcındakı bu iki misraya diqqət edək:

Əgər bütün bəşəriyyət ədüvvi-canım ola
Ürək süqut eləməz aldığı mətanətdən...

Sxem hamandır – "əgər ... sa(sə)... o zaman...". Mətndə bu sxemi olduğu kimi, özünün etalon variantında bərpa etmək mümkündür. Bərpalı variant belə olacaq:

"Əgər bütün bəşəriyyət ədüvvi-canım olsa, (hətta) o zaman (belə) ürək süqut eləməz aldığı mətanətdən".

Biz undi bu misal vasitəsilə, sadəcə olaraq, onu göstərmək istədik ki, qeyri-səlis düşüncə tərzi, başqa sözlə desək, kateqoriklikdən uzaqlaşma cəhdi nəinki qədim mətnlərimizdə, hətta müasir ədəbiyyatımızda, eləcə də həyatımızda bizi əhatə edən oksigen kimidir. Biz onsuz, sadəcə, yaşaya bilmərik. Kvintessensiya bu sxemlə müəyyənləşir. Onun üstünə toz kimi, ləkə kimi qonub qalmış əlavələr isə sonradan gəlmədir. Onlardan asanlıqla azad olmaq olar.

Azərbaycan poyeziyasının müqtədir simalarının – Füzulinin, Vaqifin, Seyid Əzimin, Hüseyn Cavidin, Rəsul Rzanın, Səməd Vurğunun, Əli Kərimin, Cabir Novruzun, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Nəriman Həsənzadənin, Ələkbər Salahzadənin, Musa Yaqubun, Ramiz Rövşənin, Vaqif Səmədoğlunun, Rüstəm Behrudinin, Eldar Baxışın dərin intellektual çəkili şeirlərində qeyri-səlis məntiqin səlis addımlarını hiss etməmək mümkün deyil. Həqiqətən də, professor L.Zadə deyən kimi qeyri-səlis məntiq, əslində, səlisliyin, dəqiqliyin ifadə tərzidir və bu amillər poyeziya nümunələrində daha aydın və gözəl şəkildə üzə çıxır. Dərindən və məqsədli şəkildə diqqət edərsək, bütün ədəbiyyatımız qeyri-səlis məntiqin 4-cü fasetinin sxe-

mi və ondan doğan törəmələr vasitəsilə özünü göstərən düçüncə tərzinin təsviri ilə doludur.

Yaxın gələcəkdə ədəbiyyatımızın başqa nümunələrinin də ciddi olaraq qeyri-səlislik nöqteyi-nəzərindən tədqiq edilməsi filoloji baxışımızın xeyli genişlənəcəyinə gətirib çıxaracaqdır deyə bilərik.

SON

ÜMUMİ MÜNDƏRİCAT

1-ci cild

Romanlar

Tərtibçilərdən 5
Kamal Abdulla ömrü: yalnız faktlarla 8

Romanlar

Yarımçıq əlyazma 17
Sehrbazlar dərəsi.....269
Unutmağa kimsə yox... 401

2-ci cild

Roman, povest, hekayələr

Tərtibçilərdən 5

Roman

Sirlərin sərgüzəsti 9

Povest

Tarixsiz gündəlik 157

Hekayələr

Qərar 263
İlişin qayıtmağı 287
Son gəliş 297
Xaron, mərhəmətli, Xaron 304
Dəvə yağışı 309
Adaşlar 318
Parisin seçimi 330
Çəngəl çiçəyi 343
Adı özündən uzun Gülü qah-qah xanımın nağılı 355
İstintaq 366
Ay işığı 376
Kamera teatrı 384
Üçrəng pişik balası 394
Həzin yay axşamı 401
Sirri-zəmanə 413
Pəncərə 429
Bir sevgi hekayəti 436
Qədiməli kişi və onun bülbülü 446
Köhnə məhlə 453
Tumsuz nar 461
Uca qaya başında 471
Çil-çil toyuq 474
Dünyanın ən ucaboylu karliki 480
Mənə uçmağı öyrət 489
Qədim mayyalara cavab 505
Korneliusun ölümü 517
"Platon, deyəsən, xəstələnib..." 523
Asiman və Zəminə 534
Atama deyin ki, mən xoşbəxtəm... 543
Səhvlərimizin qrammatikası 558
Vakxanaliya mövsümündə çalıquşu 570
Kölgə 580
Qar 585

Uçuş 590
Mağara.....600
Göyəzən dağının ilahəsi 606
Sağlıq 615
Edam vaxtını dəyişmək olmaz 623
Səsimdən yapış.....634
Hacı Mir Həsən ağa Səyyah 639
Açar söz.....647
İkincisiz 685
Epiloq 689

3-cü cild

Şeirlər, tərcümələr, esselər, pyeslər

Tərtibçilərdən 5

Şeirlər
Nar çiçəkləri

Alın yazısı hədər yazılmır... 12
Unutmağa kimsə yox 13
Kim dedi ki, Simurğ quşu var imiş... 14
Payız sevgisi 15
Sən axtardığını itirməyiblər 16
Bu görüş də bir qəribə nağıldı 17
Yol – 1 18
Gəldiyim yolla.....19
Nar çiçəkləri 20
Yaşa bu dünyada 22
Divar önünə.....23

Ölərik – ayılıb görrük ki, varıq 24
Büllur qab 25
Sənin ki yenə də səndə qalacaq 27
Hər şey təzədən....29
Mən öz üfüqümə çatdım bu səhər 30
Təkcə özüm özümlə 31
Ağ atlı oğlan 32
Beyrəyin kafir qızı ilə vidalaşıb əsirlikdən qaçması 34
Sənin yolun....36
Mövzu… 38
Mövzunun variasiyası....39
Günahlarım....40
Peşmançılıq....41
Qurban olum, axı mənəm....43
Bu dənizin sularını....44
Ruhani ata....45
Məni daha gözləmə... 46
Vaxt gələr... 47
İşıq qalıb arxada....48
Tənha fişəng 49
Bu nə işdi?!....50
Saman çöpü 51
Dünyanın sonuncu tənha adamı 52
Allahım, sən mənim ürəyimdəsən 54
Bu gün 55
Torpaq oğlu 56
Mən elə sizəm....57
Dünya sənin bir ömürlük intizarın… 59
Biz – buyuq....60
Aqamemnonun döyüşçüsü 61
Qəribədir, deyilmi?! 63
Su pərisi....64
Bu faldan bir ömür çıxart....65
Yağışlar başladı....66
Ölümün mənim olacaq 67

Haralara gətirəcək bizi bu yol?!.....69
Bu yol gətirir mənə.....70
Yəni.....71
Sən də mənə Allahdan danışırsan.....72
Köhnə nağıl tək.....73
Sən yenə yoxsan.....75
Etiraf – I.....76
Etiraf – II.....77
Min bir gecə.....78
Günaydın, köhnə dostlar!.....79
O gün.....81
Ölü quş olub daş kimi düşəm.....82
Üzüaşağı yağmaz yağışlar.....84
Var-gəl.....85
Bu dəniz bu dağa yaman oxşayır.....87
Sehrbazlar dərəsi.....88
İnan ona.....90
Cavabsız suallar yağır.....91
Ruh gözün baxdığı yerdə… 92
İz ləpirdən əvvəl qabaqda neynir?!.....93
Yol – 2.....94
Pıçıltı.....95

"Kitabi-Dədə Qorqud"dan sirriçində nəğmələr

Dədə Qorqud: "Mənlik deyil".....98
Boğazca Fatma: "Ümid qaldı sabaha...".....104
Dədə Qorqud: "Mən nə edim?!".....108
Bəkilin xatunu: "Dilim, dilim, vay dilim…".....115

Tərcümələr
Gümüş dövrün sirləri

N.Qumilyov.
Banilər.....133

Aqamemnonun döyüşçüsü 135
K.Balmont.
Yelenaya 137
M.Kuzmin.
Gera....139
V.Bryusov.
Babanın sirri 143
A.Axmatova.
Kleopatra....145
O.Mandelştam.
Yuxusuzluq. Homer. Bir də tarım yelkənlər....147

Esselər

Əvvəl-axır yazılanlar....151
Düma ilə Coys arasında....401
Mənim Füzulim....537

Pyeslər

Bir, iki – bizimki!....583
Kim dedi ki, Simurğ quşu var imiş?! 607
Ruh....647
Şah İsmayıl yaxud "Hamı səni sevənlər burdadı..." 689
Casus 771

4-cü cild

Qorqudnamə

Tərtibçilərdən 5

Gizli "Dədə Qorqud", yaxud Mifdən Yazıya

I HİSSƏ
Mifdən Yazıya: Sirriçində Dastan.....10

Aşkar və gizli "Dədə Qorqud" 10
Məntiqsizliklərin məntiqi 20
Mif və Yazı.....41
Mifin gücü və Yazının gücsüzlüyü 77
Mifin yasaqları 99
Mifin gücsüzlüyü və Yazının gücü 119
Gizli "Dədə Qorqud" 133
Beyrəyin taleyi.....147
Üç canavar qalınlığında qaftan.....172

II HİSSƏ
Anavariantlara doğru.....197

Oxşarlıqlar və fərqlər 197
Odissey, Basat və Beyrək.....201
Polifem və Təpəgöz 208
Edip və Buğac.....210
Admet, Herakl və Dəli Domrul 213
Sarı donlu Selcan Xatun və Gözəl Yelena 217
Salur Qazan və Aqamemnon 221
Beyrək və Antiqona.....224
Atalar və oğullar 227
Banıçiçək və Penelopa.....231

Mifin cəzaları 233
İtirilmiş paralellər 236
Aqibət 239

III HİSSƏ
Mətnin semantik boşluqları 242

Oğuz – bizim Atlantidamız 242
"Demokratiya" və "antidemokratiya" 245
Vədlər və əməllər 249
"Ordun üstünə kimi qorsan?" 253
Təpəgözün intihar arzusu 256
Qaraca çoban və dünya ağacı 259
Baybura bəyin gözləri niyə açıldı? 262
... Və nə üçün Təpəgözün bir gözü var? 268
"Gəlimli-gedimli dünya, qanı dediyim bəy ərənlər?!" 272
Tənha Dədə Qorqud 277
Son söz və yaxud yeni ilkin nəticələr 281
Yeni ilkin nəticələr – 2 285
Şərhlər 288

"Kitabi-Dədə Qorqud" poetikasına giriş

Müqəddimə 300
I HİSSƏ
Mifoloji dansöküləndə bədiipoetik enerji axtarışları 336

I fəsil
Autentik mif 340
II fəsil
Mağara: içi və çölü 352
III fəsil
Autentik mifdə potensial bədiipoetik enerjinin təzahürü 383
IV fəsil
Dəşti-Müstəqimiyyə 404

II HİSSƏ
Xüsusi arxitektonik qurmalar ibtidai bədiipoetik-lik vasitələri kimi.....414
I fəsil
Sahmanlayıcı ünsürlər 417
II fəsil
Sadəlövh suallar.....439
III fəsil
Təkrarlar ibtidai bədiipoetik quruluşun əsas vasitəsi kimi 449
IV fəsil
Bədii yasaqlar 466
Ümumi nəticə.....478
Son söz.....486

Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" dastanı

Giriş 490
I HİSSƏ
Azərbaycançılıq – intuisiyadan həyat tərzinə doğru.....493
II HİSSƏ
Hər xalqın ana kitabı 528
III HİSSƏ
"Kitabi-Dədə Qorqud" dastanı – azərbaycanşünaslığın əsas qaynağı 559
IV HİSSƏ
"Dədə Qorqud" dastanı və yunan mifoloji motivləri.....586
V HİSSƏ
Xalqın tarixi. Vətən... Vətən.....601
VI HİSSƏ
Azərbaycan və intibah dövrü 620
VII HİSSƏ
Azərbaycan maarifçiliyi.....639
VIII HİSSƏ
Azərbaycan XIX əsrdə.....659
IX HİSSƏ
XX əsdə Azərbaycan ilk dəfələri.....682
X HİSSƏ

Azərbaycan XX əsrdə 692
XI HİSSƏ
Heydər Əliyev və Azərbaycan.....696

Məqalələr

Dönük Peyğəmbər 741
Dədə Qorqud dərsləri və Dədə Qorqud bir prinsip kimi 720
"Kitabi-Dədə Qorqud"da mifoloji anavariantlar (arxetiplər) sistemi 739
"Kitabi-Dədə Qorqud"da "söz" və "SÖZ" 751
"Kitabi-Dədə Qorqud" ensiklopediyasından oçerklər.....755
Fridrix Fon Ditsə məhəbbətlə… 773

5-ci cild

Elmi əsərlər

Tərtibçilərdən 5

Azərbaycan dili sintaksisinin nəzəri problemləri

Giriş 10
I HİSSƏ
Sadə cümlə.....17
I fəsil
Azərbaycan dilində cümlənin monopredikativ quruluşunun təşəkkülü.....17
II fəsil
Cümlənin qrammatik üzvlənməsi.....38
III fəsil
Azərbaycan dilində cümlənin aktual üzvlənməsi 103
II HİSSƏ
Mürəkkəb cümlə 141

I fəsil
Mürəkkəb cümlənin müəyyənləşməsi.....141
II fəsil
Sadə və mürəkkəb cümlələrin qarşılıqlı münasibəti və nisbəti 147
III fəsil
Mürəkkəb cümlə: problemlər, paradokslar 156
IV fəsil
Mürəkkəb cümlə tiplərinin təsnifat meyarları haqqında.....189
V fəsil
Azərbaycan dilində mürəkkəb cümlə tədqiqinin perspektivləri.....194
III HİSSƏ
Mürəkkəb sintaktik bütöv – mətn 197
I fəsil
Mətn sintaksisi mətn dilçiliyin obyekti kimi və mətn dilçiliyi.....197
II fəsil
Mətn komponentlərinin semantik-qrammatik münasibətləri 249
Nəticə.....287

Dilçiliyə səyahət

Mənim əziz oxucum və yaxud giriş əvəzi.....314
I fəsil
Zalxanı istəyən var… 318
II fəsil
Unudulmayan efemer 336
III fəsil
Sənin adın nədir? 351
IV fəsil
Yaxın, uzaq qohumlar 367
V fəsil
Yaşıl ideyalar 382
VI fəsil
Aldanma ki, şair sözü, əlbəttə, yalandır! 405
VII fəsil
Psammetixin təcrübəsi 421

VIII fəsil
"Əhməd sabah Bakıya qatarla yola düşəcək" 435
Son söz əvəzi və yaxud dil "oyunları" 447

Bakı Slavyan Universitetində mühazirələr
(akad. Azad Mirzəcanzadə ilə birgə)

Giriş 452
I fəsil
Ədəbiyyat və incəsənətdə modellər.....455
II fəsil
Təsadüf və zərurət.....516
III fəsil
Təhlilin kəmiyyət üsulları.....534

Mifolinqvistikaya giriş

Giriş 539
I fəsil
Mifolinqvistikanın universal tətbiq prinsipi.....599
II fəsil
Fonetik-fonoloji səviyyədə mifoloji təsəvvürlər.....603
III fəsil
Leksik səviyyədə mifoloji təsəvvürlər 606
IV fəsil
Sintaksisin dərinliklərində mifoloji təsəvvürlər 621
V fəsil
Morfologiyada mifoloji təsəvvürlər 624
VI fəsil
Məna-məzmun səviyyəsində mifoloji təsəvvürlər 625
VII fəsil
Maddi cisim bildirən adların personə edilməsi
(Adlar mifolinqvistikanın obyekti kimi) 626
VIII fəsil
Qatların dil ifadələrində təzahürü. Hilezoistik ifadələr və onların
qat mənsubiyyəti 628

Məqalələr

Azərbaycan mifologiyasının sistemli bərpası yolları 632
Tədqiqatçı mövqeyi və dil abidəsinin öyrənilməsi.....639
Yaşanmamış həyatın ilğımı 647
Müəllif – əsər – oxucu 654
Dilimiz – həyatımız 675
Miflərin əhatəsində.....678
Söz və cümlə 686
Miflər: dünən, bugün və həmişə ……..…… 690
Mahiyyətin forması və formanın mahiyyəti.....697
Vaqif – başdan-başa.....705
Umberto Eko ilə ilk və son görüş….....709
Nyutonun pişikləri.....719

6-cı cild

Müsahibələr, məqalələr

Tərtibçilərdən 5

Müsahibələr

“70 sual – 70 cavab” 10
Ənvər Məmmədxanlının son söhbəti 49
“Mədəniyyətimizin təbliği yenidən qurulmalıdır” 58
“Mədənİyyətimizə qayğı gərəkdir” 64
“Dədə Qorqud” sirlərinin sorağında 69
“Hələ gözləyirəm...” 74
“Ədəbiyyatda öz yeri-çəkisi olan söz adamları qalmalıdır” 77
“Bu, haqq dünyasında olanlardan çox, biz dirilər üçün əhəmiyyətlidir” 80

"Gördüyüm işlərin hamısını harmonik bir bütövlük sayıram" 84
"Mən bunları hələ heç kimə danışmamışam" 88
"Mən heç zaman oxucunun səviyyəsini nəzərə almıram
və almayacağam da" 92
İnsan, zaman, məkan....96
"Cavabı tapılmayan suallar da İnsanı düşündürməlidir" 101
Nəmiz var unutmağa? … 107
"Mənimçün ən ağır xaç cavabsız suallardı..." 110
Kamal Abdulla insanları ölüm qorxusundan qurtarır 115
"Azərbaycan xalqı mazoxistdir" 120
"Mən ictimai rəyi yaradanlardanam" 126
Heç kəsi təkrarlamayan istedad və ya Kamal Abdulla işığında 131
"Ziyalı dəyişməz olmalıdır" 136
"Axarda deyilik" 143
Bəzi şeyləri gizləməyə çalışan adam – Kamal Abdulla 145
"Qəribədi, deyilmi?!" 151
"Bir daha təkrar edirəm, mən çox gözəl bilirəm ki, bu roman nədir
və mən nə etmişəm" 157
"Yolu addım-addım keçməliyik" 162
"Yarımçıq əlyazma" maraqlı bir burulğana düşüb 169
"Rüşvət bütün cəmiyyətin problemidir" 181
Arakəsmələr 185
"Yarımçıq əlyazma" və ya "Kitabi-Dədə Qorqud"
– "mövzuya aid fantaziya" 194
"Dünya mədəniyyəti həm də dramaturgiya ilə başlayıb, yaxud həyatın
məhvərini əksliklərin vəhdəti təşkil edir" 202
Slavyan Universitetində Şərq mövzusunda söhbət 207
Unutmaya kimse yok 212
"Bizi Batıdan ayıran mertliktir!" 220
"Yolun sahibi" 224
"Yalnız bədiiliklə ötüşmək olmaz" 228
"Bu gün ciddi ədəbi söhbətə böyük ehtiyac var" 232
"Oxucu barədə düşünmürəm" 243
"Yarımçıq əlyazma"nın Odisseyası 248
"Dövrün, zamanın səsinə səs verən yazıçılardan deyiləm" 251

"Görək bir çaya ikinci dəfə girmək mümkün olacaq-olmayacaq?" 259
"Bu gün Azərbaycan oxucusuna fizika, biologiya, kimya… barədə
maraqlı şəkildə yazılmış kitablar çox lazımdır" 262
"Nostalji hər kəsin qəlbində var" 265
"Mənə elə gəlir ki, əslində, çox sevdiyim əsərləri
elə mən özüm yazmışam" 268
"Mən yalnız yazmaya bilməyəndə yazıram" 278
"Kitabi-Dədə Qorqud" türkoloqların inhisarından çıxıb
germanşünasların da tədqiqat obyektinə çevrildi" 283
"Hamımız eyni ağacın yarpaqlarıyıq" 289
"Yarımçıq əlyazma"nın Odisseyası davam edir" 293
"Bizdə çox vaxt qarayaxma ilə tənqidi qarışdırırlar" 296
"Dostlarımın mənim barəmdə yazdıqları ilə qürur duyuram" 307
"Ümumiyyətlə, danışmaqla Azərbaycan dilində danışmaq eyni şey deyil" ...313
"Azərbaycan dilinin qorunmasında informasiya-kommunikasiya
texnologiyalarından geniş istifadə olunmalıdır" 320
"Bu hadisə bayram kimi qeyd olunmalıdır" 325
"Bu, Anarın ideyası idi" 330
"Yazıçılar İttİfaqına bir şeyi arzu edərdim: ona uzadılmış əli
hökmən sıxsın" 333
"Qırıqlıq bizim tariximizin özündədir" 343
"Kim ki yekəbaşlıq edir…" 347
"Bunu o adamlara deyirəm, ah-nalə çəkirlər ki, Türkiyədə bizi oxumurlar" .350
"Mən öz İtaka adama hökmən qayıdacağam" 361
"Cavidi hələ də bağışlaya bilmirlər" 374
Professor Kamal Abdulla ilə iş zamanı söhbət.....382
Bir abzas 388
"İnkişafın Azərbaycan fenomeni iqtisadi yüksəlişlə yanaşı,
mənəvi tərəqqini də ehtiva edir".....389
"Azərbaycan multikulturalizmi bəşəri dəyərlər sisteminə
çox şey verə bilər".....401
"Allah bilməyənləri bilənlərin qəzəbindən qorusun" 405
"Birnəfəsə! Ancaq birnəfəsə" 416
"Həmrəylik içində yaşamaq bütün ölkənin işidir".....417
"Biz onu necə sevirmişik…" 424

"Qos-qoca Avropanın edə bilmədiyini Azərbaycan etdi".....431
"Dövlət həmişə dinin və dindarların yanındadır" 436
"Yazıçı olmurlar, yazıçılığı yaşayırlar" 442
"Azərbaycanda radikal və ekstremist cərəyanların fəaliyyəti xeyli məhdudlaşıb" 446
"İndi dünyada ölkəmizin həqiqətlərini Azərbaycanın dostları müdafiə edir" 459
"Azərbaycanda multikulturalizmin çiçəklənməsi göz qabağındadır" 465
"Azərbaycandakı "MultİkulturalİzmiliiBİr sıra ölkələrdə multikultural əhval-ruhiyyənin möhkəmlənməsinə səbəb oldu".....473
"Bizim ədəbiyyatın Coysa aparan heç bir yolu yoxdur" 486
"Orfoqrafiya lüğəti nağıl kitabı deyil..." 502
"Kosmik fəzada hamı eyni çəkidə olur" 505
"Heç bir tələbəni müəllimin, heç bir müəllimi də tələbənin ayağına verməyəcəm" 509
"Ünsiyyətdə olduğum adamlara müşahidə obyekti kimi baxmıram" 518
Türkoloji müsahibə 524

Məqalələr

Demokratiyanın gücü və gücün demokratiyası.....542
Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir.....547
Azərbaycanda multikultural təhlükəsizlik prinsipləri.....552
Həpimiz bir günəşin zərrəsiyiz!.. 561
Azərbaycan multikulturalizminin inkişaf perspektivləri.
Heydər Əliyev irsi və multikultural dəyərlər.....566
Azərbaycan multikulturalizmi bu gün:
Portuqaliyadan İndoneziyayadək... 575
Multikulturalizm siyasətinin nikbinlik və bədbinlik qütbləri.....584

7-ci cild

Roman, hekayələr, pyeslər, elmi əsərlər

Tərtibçilərdən 5

Laokoon... Laokoon... yaxud bir romanın "gerçək" yazılma tarixçəsi

Tanış və yad sonsuz lüğət 13
"Xətircəm gedin, Vaqif müəllim" 18
Bənövşəyi şarf 21
Sayrışmanın tərəfləri 44
Laokoon... Laokoon... 49
Vaqif və qirx quldur 59
Zoğal mürəbbəsi 66
"Fotoqraf adam deyil?!" 70
Sevilya. "Əlqəzər" qəsri 72
Boşluqlardaki beyrək 76
Zərif kəpənəklər 80
Yenə tanış "şəbəkə" 83
"Gecən xeyrə, buğacım..." 89
"Heç kim... Heç kim... Heç kim..." 91
Sevgi var isə, deməli, qısqanclıq da var imiş... 95
"Nisə xala dəli olub..." 98
Qısqanclıq və sevgi 103
Təpəgözün etirafı 108
"Kafirin casusu casusladı..." 110
Şah-bənzər (Xızır)-lələ 116
"Qızların yanına getmək istərəm!" 118
"Qara başım qurban olsun sənə…" 125

Hekayələr

Bakı kəndlərinin birində... 131
Həyətdə 138

Kəklik 142
Konsert 149
Sarı camış 154
Səngərdəki səs 160
Asudə 165
Gülçöhrə xanım və Əsgər ağa 169
Məhəbbət adası 183

Pyeslər

Casus 195
Beyrəyin taleyi 235
Yağışlı gecələr 291
Elə bil qorx-qorxa 314
Pis oğlan 345
Gülçöhrə və Əsgər (telefilm) 377
Bir yas mərasiminin 7-ci günü 377

Elmi əsərlər

"Kitabi-Dədə Qorqud"da semantik sayrışmalar 409

Mifolinqvistika 538
Ön söz 538
Giriş və yaxud mifolinqvistikaya ilkin yanaşma 544
1-ci fəsil
Mifolinqvistikanın universal tətbiq prinsipi 559
2-ci fəsil
Fonetik-fonoloji səviyyədə mifoloji təsəvvürlər 563
3-cü fəsil
Leksik səviyyədə mifoloji təsəvvürlər 567
4-cü fəsil
Sintaksisin dərinliklərində mifoloji təsəvvürlər 583
5-ci fəsil
Morfologiyada mifoloji təsəvvürlər 586

6-cı fəsil
Məna-məzmun səviyyəsində mifoloji təsəvvürlər 588
7-ci fəsil
Maddi cisim bildirən adların personə edilməsi
(adlar mifolinqvistikanın obyekti kimi) 590
8-ci fəsil
Hilezoistik ifadələr və onların qat mənsubiyyəti.....592

"Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq (Rafiq Əliyevlə birlikdə)

"Kitabi-Dədə Qorqud"da qeyri-səlis məntiq elementləri
(giriş əvəzi) 597
1-ci fəsil
"Kitabi-Dədə Qorqud"da qeyri-səlisliyin "tikinti" materialı.....**Ошибка! Закладка не определена.**
2-ci fəsil
"Kitabi-Dədə Qorqud" mətni və qeyri-səlis məntiqin "şübhə" daimisi**Ошибка! Закладк**
3-ci fəsil
"Kitabi-dədə Qorqud" mətni və qeyri-səlis məntiqlə "üçüncünün axtarışı" .633
4-cü fəsil
Sən gözəllər gözəlindən də gözəlsən, gözəlim!**Ошибка! Закладка не определена.**
5-ci fəsil
"Kitabi-Dədə Qorqud" qeyri-səlis məntiqin epistemoloji işığında**Ошибка! Закладка не**
6-cı fəsil
Qeyri-səlis məntiqin və münasibətlər sütunu və "Kitabi-Dədə Qorqud" .....**Ошибка! Закладка не определена.**

Çapa imzalanıb: 15.03.2024
Format: 70x100 1/16. Qarnitur: Palatino Linotype.
Həcmi: 43,5 ç.v. Tiraj: 1000.

“Sim-Sim” nəşriyyatı

Hüquqi ünvan: AZ1005, Bakı şəhəri, Səbail rayonu,
Nigar Rəfibəyli, ev 4/52